MİLLƏT DOSTLARI

Bir məclisdə xırda milli teatr

ƏHLİ-MƏCLİS KEYFİYYƏT BİR MƏCLİSDƏ

Ə s g ə r b ə y –	dava vəkili
S ə f i –	Əsgərbəyin nökəri
F i r u d i n b ə y –	injiner
Ev s a h i b i	
S ə f ə r b ə y –	meşəbəyi
V ə l i b ə y –	təbib
M ü r s ə l b ə y –	silistçi

Neçə nəfər mütəməddin əşxas
Əsgərbəyin qonaqları

Əhvalat keçir Əsgər bəyin mənzilində. Əsgər bəy stolun ətrafında gəzir. Nökər Səfi stolun üstünə boşqablar və ənva məşrubat düzür.

Ə s g ə r b ə y. Səfi, sən niyə Martirosa demədin ki, həmişə göndərdiyi çaxırdan göndərsin? O bilmirmi ki, mən Qarakənd çaxırından savayı ayrısın xoşlamıram?

S ə f i. Ağa, mən dedim, amma yəqin Qarakənd çaxırı qurtarıb. Əgər xahiş eləyirsən, aparım qaytarım, Qarakənd çaxırı gətirim. Qələt eləyir, özündə də olmasa, özgə yerdən alsın versin.

Ə s g ə r b ə y. Eybi yoxdur, qoy dursun, bunları verərəm Firudin bəylə Vəli bəy içərlər. Onlara Allah baxıbdır, hər nə zəhrimar versən qarınlarına doldurasıdırlar. Ancaq kef gətirsin.

S ə f i. Doğru buyurursan, ağa, şkafda da bir üç-dörd butulka Qarakənd çaxırı var, sənin üçün kifayət elər. Bir də, ağa, bağışla, ayıb olmasın soruşmaq, bu qonaqlıq nədən ötrüdür?

Ə s g ə r b ə y. Vallah, bilmirəm nə tövr deyim başa düşəsən. Bu gün yoldaşlarımı qonaq çağırmışam, istəyirik bir cəmiyyət bina qoyaq ki, o cəmiyyət müsəlman camaatının həmişə qabağa getməsinə çalışsın. Məsələn, şkolalar açsın, pul yığıb füqəraların uşaqlarını böyük şkolalarda oxutsun və belə-belə xeyir işlər görsün, başa düşdün?

S ə f i. Niyə düşmədim, çox gözəl başa düşdüm. Allah sənə ömür versin, ağa. Elə fəqir-füqəranın duası sənə bəsdir.

Ə s g ə r b ə y. Taqqıltı gəlir, çıx gör nədir, deyəsən qonaqlar gəlirlər. (*Səfi çıxır.)* Budur, neçə ildir ki, millət fikri mənim ürəyimdə bir

böyük dağ olub. Amma tək olub kar görə bilməmişəm... İndi ümidvaram ki, bir belə yoldaşların köməyi ilə mənim başımdakı xəyallar hamısı vücuda gələ. *(Daxil olurlar: Firudin bəy, Vəli bəy, Səfər bəy, Mürsəl bəy və bir neçə sair qonaqlar.)* Buyurun, buyurun, ya Allah, bəs niyə gec gəldiniz? Firudin, sən ki saat birə vədə vermişdin, İndi üçün yarısıdır.

F i r u d i n b ə y . Doğrudur, mən vaxtında elə evdən çıxmışam, amma yolda Anna Petrovna çıxdı qabağıma, dedi, gərək mənimlə gedəsən Arakelovun mağazasına. Əlacım kəsildi, getdim, oradan bir neçə əskiüsküdən alıb məni yüklədi. Dedi gərək məni evə provodit eləyəsən. Nə qayırım, mən olmayım, sən ol, Anna Petrovnanın sözünü yerə salmaq olar? Aparıb evlərinə qoyub qayıtmışam. Odur ki, bir az apazdat elədim.

Ə s g ə r b ə y. Bəli, sənin damski kavalerliyinə söz yoxdur.

V ə l i b ə y . Əsgər bəy, mən səni bir anlaqlı adam bilirdim. Deyəsən heç bir zada gərək deyilsən. Əvvəla, bir belə adam ayaq üstə durub, birinə otur demirsən və bir də Firudin ki, bir belə zəhmət çəkib yorulub, lazımdır ki, Anna Petrovnanın sağlığına bunun bığının altına bir tərkaltı vurasan.

Ə s g ə r b ə y. Mənim deməyim nə lazımdır, açıq süfrə özü size çağırır. O ki qaldı Firudinə, o elə naxaldır ki, ona təklif-filan lazım deyil, özü töküb özü içəcək.

F i r u d i n b ə y . Mənim naxallığım sənə nədən məlumdur?

Ə s g ə r b ə y. Ondan məlumdur ki, budur neçə vaxtdır bu adamlar çalışır, heç biri İmdiyədək Anna Petrovna ilə aşna ola bilməyiblər. Amma sən sitallığına salıb aşna olubsan.

S ə f ə r b ə y . Siz öləsiniz, həzərat, mən İndiyədək min beş yüz manatdan artıq Anna Petrovnanın yolunda xərc eləmişəm, yenə tanış ola bilməmişəm. Amma bu zalımın bilmirəm əfsunu var, nədir?!

Ə s g ə r b ə y. Onun əfsunu elə haman mən deyən naxallıqdır. Həzərat, mən ölüm, quru danışıqdan fayda yoxdur, buyurun zakuskadanzaddan eləyin. Firudin, yaxınıma gəl, səni mən öz dəst-xəttimlə doyuzduracağam. (*Qonaqlar əyləşirlər, Firudin bəy əyləşir Əsgər bəyin yanında. Əsgər bəy araq töküb ona verir və sair qonaqlar həmçinin rumkalara araq tökürlər.)* Buyur, iç Anna Petrovnanın sağlığına.

Q o n a q l a r h a m ı s ı . Firudin, Anna Petrovnanın sağlığına.

İçirlər.

M ü r s ə l b ə y . Allah sizin dostluğunuzu möhkəm eləsin. (*İçir*).

F i r u d i n b ə y . Sağ olun, çox razıyam. (*İçir*.) Tfu... nə murder araqdır! Bu zəqqumu haradan alıbsan, ay Əsgər? Bir onun şüşəsini bura ver görüm. *(Baxır*.) Oxay! Mənim zəhləm elə Popovun arağından gedir, bu da gedib Popov alıb. Niyə, bu dağılmış bazarda Smirnov tapılmır? Mürsəl bəy. A kişi, iç getsin o yana, sən nə anlayırsan Smirnov nədir, Popov nədir? İndi bu camaata özünü göstərirsən?

V ə l i b ə y . Siz öləsiniz, camaat, mənim otuz beş yaşım var, bir dəfə araq şüşəsinin üstünü oxumamışam. Neyləyirsən, qardaş, araq araqdır, iç getsin dərdinin dalınca. Müsəlman nə anlayır arağın ya çaxırın yaxşısını, pisini, əlinə düşdü, iç keflən, ya iskandal elə, ya yıxıl yat.

Səfi sup gətirib qoyur. İki butulka da çaxır qoyur Əsgərbəyin yanına və məclis qurtarınca peydərpey çörək və meyvəcat gətirir.

Ə s g ə r b ə y. Həzərat, boşqablarınızı bir-bir verin sup töküm. (*Töküb verir*.) Zakuska ilə qarnınızı doydurmayın, sonra bir şey yeyə bilməzsiniz.

Qonaqlar şirin yeyirlər.

M ü r s ə l b ə y . Firudin, mən ölüm, bir nağıl elə gərək Anna Petrovna ilə nə tövr aşna oldun?

F i r u d i n b ə y . Nə borcunuzdur, hər tövr oldum.

Q o n a q l a r . Firudin, mən ölüm, nağıl elə!

F i r u d i n b ə y . Adama bir yaxşı bakal onun sağlığına çaxır için deyim. (*Qonaqlar hamısı şərab töküb "Anna Petrovnanın sağlığına" deyərək içirlər.)* İndi deyim: sizin hərəniz bir neçə qədər pul xərc edibsiniz. Amma heç birinizə onunla aşna olmaq mümkün olmayıb. Amma mən bu yolda cəmi-cümlətanı üç manat altı şahı xərc eləmişəm. Bir gün çox murdar palçıqlı havada küçədə gedirdim. Gördüm Anna Petrovna yubkasının ətəyini yığıb əlinə, istəyir küçənin o tərəfinə keçsin. Bir faytonçuya yanaşıb dedim: qoçağım, nə verim faytonla şıdırğı o xanımın böyründən ötüb onu yıxasan? Faytonçu əvvəl qəbul eləmədi. Sonra onu üç manata razı elədim. Gözünə döndüyüm, faytonu tərpədib bunun böyründən nə tövr ilişdirdisə, təpəsi üstə getdi lığın içinə, ürəyi getdi. O saat üstünü aldım, bir fayton çağırıb içinə yıxıb apardım evlərinə. Ata-anasına keyfiyyəti nağıl elədim, az qaldılar məni duz kimi yalayalar. Bir azdan sonra Anna Petrovna da ayılıb əhvalatı bildi. O gündən mən olmuşam onların evlərinin məhrəmi.

V ə l i b ə y . Afərin, Firudin, afərin, Firudin! Həzərat! Firudin bəyin sağlığına. (*Şərab tökür*.) Firudin, qardaş, sağ ol. (*İçir*.)

Q o n a q l a r . Firudin, sağ ol.

İçirlər.

Ə s g ə r b ə y. Camaat, mən sizə iki-üç kəlmə söz demək istəyirəm. Təvəqqe eləyirəm bir-iki dəqiqə zarafatı kənara qoyub, qulaq asasınız.

M ü r s ə l b ə y . Buyur, qulaq asırıq.

Ə s g ə r b ə y. Mən istəyirəm bizim bugünkü yığıncağımızın səbəbini sizə vəz eləyim.

Q o n a q l a r . Qulağımız səndədir, buyur.

Ə s g ə r b ə y (*qalxır ayağa*.) Yoldaşlar! O sözlər ki mən istəyirəm sizə deyim, sizin üçün bir təzə şey ola bilməz, çünki hamınız əhli-elm, əhli-savad və qələm, tarixdən baxəbər şəxslərsiniz. Sizə məlumdur ki, keçmiş zamanlardakı Avropa camaatı filcümlə zülmətə qərq idi, elimin işığı cəmi məşriq zəmini münəvvər eləmişdi. Tayifeyi-islam hər bir elmə dara və sənayedən baxəbər idi. Yada gətirin xülaveyiBəni Abbasiyəni, ələlxüsus Harun ər Rəşid əsrini, yada gətirin qarih xülafələrin əsrini. Amma İndi o əsrlərdən və keçmiş elmlərdən bir nişanə müsəlman arasında görmürük. Avropa, elmi müsəlmanın əlindən qəsb eləyib, elm və sənətin cəhətinə dünyaya sahiblik eləyir. Amma islam kor-koranə barmaqlarını yerə sürtə-sürtə özünə rahi-nicat axtarır. Bu bədbəxtliyin səbəbi kİmdir və nədir? Bu barədə danışmağı lazım bilmirəm. Ancaq ürək yanır, ciyər paralanır, göz yaşı nəfəsgahı tutur, hər bir müsəlmanın halətini mülahizə eləyəndə. Hamımıza məlumdur, yoldaşlar ki, qədim hunlər ki, İndi onlara Almaniya tayfası deyirlər, Avropaya gələndə nə sifətdə gəlmişdilər: vəhşisifət, bisərpa, hərəsi bir canavar dərisindən libas geymiş, ev əvəzində hərə biri yer altında bir qazma qayırıb orada vəhşi heyvan kimi zindəganlıq edirdilər. Çıraq ya şam bilmərrə tanımazdılar. O vədə müsəlman tayfasının bəqədir məqdur evləri var idi və heç olmasa evlərində bir piysuzları var idi ki, onunla evlərini işıq eləyirdilər. İndi o vəhşi camaat elektrik işığı icad eləyib, onunla barigaha bənzər evlərini münəvvər eləyirlər. Buna baxanda gərək müsəlmanlar elektrik işığından da gözəl bir işıq ixtira edəydilər. Amma, çifayda... İndi bu cahil tayfa, necə ki sizə ərz elədim, yolu itirib, adam axtarır ki, onun əlindən tutub zülmətdən işığa

çıxarda. Bu yerdə də millətin intelegentlərdir. Ona görə mən sizə zəhmət verib buraya çağırmışam ki, biz burada millət üçün bir xeyir iş binası qoyaq. Mənim xahişim budur ki, biz bir cəmiyyət təsis eləyək və o cəmiyyətin adını "Avam arasında savad intişar edən cəmiyyət" qoyaq. Bu cəmiyyətin məramı xırda şkolalar açmaq, camaat arasında ucuz kitablar paylamaq, cürbəcür növlə pullar yığıb fəqir uşaqları böyük şkolalara göndərmək və sair təsisat-xeyriyyə bina etmək olsun. Ümidvaram ki, buraya cəm olan yoldaşlar ittifaq edib bu xeyir işin vücuda gəlməsinə səbəb olacaqlar. Dübarə təkrar edirəm: millətin gözü bizdədir və biz ki, adımızı millət dostları qoymuşuq, onun irəli getməyinə çalışmasaq, bir böyük günah elərik. (*Əyləşir*.)

Q o n a q l a r (*əl vururlar*). Bravo, bravo! Sağ ol, Əsgər! Var ol, Əsgər!

F i r u d i n b ə y . Həzərat, Əsgər bəyin sağlığına, sağ ol, Əsgər! Sağ ol, qardaşım! Hər kəs bu xeyir işdən boyun qaçırsa, ona müsəlman adı qoymaq olmaz. Bu gözəl iş çoxdan lazım idi. Amma bünövrə qoyan yoxudu, yenə sağ ol. (İçir.)

Q o n a q l a r . Sağ ol, Əsgər, sağ ol.

İçirlər.

S ə f ə r b ə y (*durur ayağa, əlində şərab*). Həzərat! Milləti-islam bu halda bir yetim hökmündədir və məlumdur ki, yetim üçün gərək qəyyum olsun. Amma nə o qəyyum ki, yetimə xəyanət edə, xeyir, o qəyyum ki, həmişə onun dərdinə ağlaya: şadlıq günündə şad ola və qəm günündə qəmxar. Sədd heyf ki, islam qəyyumlarının bu halda çoxusu ona xəyanətkardırlar. O adamlar ki, həqiqət, islamın dərdinə və oduna yanıblar, onları barmaqla sanamaq mümkündür. Mən bu şərabı almışam ələ, içirəm və təvəqqe eləyirəm siz də içəsiniz o şəxslərin sağlığına ki, həmişə millətimizin tərəqqisinə və qabağa getməsinə çalışır və o cümlədən içirəm bizim sahibi-xanə Əsgər bəyin sağlığına...Yaşa, qardaşım, yaşa. (*İçir*.)

Q o n a q l a r . Bravo, bravo! Sağ ol, Əsgər!

İçirlər.

Ə s g ə r b ə y (*ayağa durur*). O sifətlər ki bu saat Səfər mənə verdi, mən onların heç birisinə hələliyə özümü layiq bilmirəm. Çünki məndən bu halədək bir elə əməl sadir olmayıbdır ki, o əmələ görə

mənim adım millət qeydkeşi qoyulsun. Doğrudur, millət qəmi, millətin geridə qalmağı həmişə bir od olub mənim ürəyimi yandırır və çox da istəyirəm millətin dadına gəlim, amma bacarmıram. Çünki məsəldir: tək əldən səs çıxmaz. Amma ümidvaram ki, sizin kimi millət dostlarının köməyi ilə mənim tədbirlərim əmələ gələ. Ancaq sizin bu yolda birləşməyiniz bir sərin su olub mənim ürəyimin odunu söndürə bilər. Sizin köməyinizə həmişə ümidvar olub, içirəm sizin hamınızın sağlığına. Allah sizi yoldaşlıqdan əskik eləməsin. (*İçir.)*

Q o n a q l a r (*əl vururlar*). Bravo! Bravo!

F i r u d i n b ə y . Bravo, Əsgər! Vallah, ölsən də üzündən öpəcəyəm. (*Sərməst qalxıb Əsgər bəyin boynunu qucaqlayıb üzündən öpür*.)

Q u r b a n olum sənin kimi qeyrətli müsəlmana. Belə mənim bu yetim canım sənə Qurban olsun. Yoldaşlar, Əsgərin sağlığına! Ura!

Ə s g ə r b ə y (*Firudin bəyi oturdur*.). Firudin, otur yerində, daha kifayətdir, mən ölüm daha içmə.

F i r u d i n b ə y . İçməyim? Baş üstə, Əsgər, sənin kimi oğlun sağlığına ömrün olalı içəsən, yenə azdır.

Ə s g ə r b ə y. Yaxşı, yaxşı, otur yerində. İmdi, yoldaşlar, mən istəyirəm sizinlə bizim bina qoyduğumuz cəmiyyətin qanunnaməsi və onun mədaxil yolları barəsində söhbət edim. Qanunnaməni mən özüm yazmışam, nahardan sonra oxuruq. Amma mədaxil yolları çox olmağa görə söhbət vacibdir.

S ə f ə r b ə y . Mədaxil yolunun birini mən bu saat deyim.

F i r u d i n b ə y (yumruğun stola vurub qalxır). Səfər, dur! Mənim dostum var, mən danışan yerdə gərək heç kəsdən səs çıxmasın. Mən içirəm cəmi millətpərəstlərin sağlığına. (*Səfini çağırır*.) Ey millətpərəst, idi syuda! (*Səfi yaxın gəlir*.) Sən millətpərəstsən, yoxsa yox?

S ə f i . Necə bəy?

F i r u d i n b ə y . Mən müsəlmanam, ya yox?

S ə f i . Bəli bəy, müsəlmansan!

F i r u d i n b ə y . Sən görsən ki, mən yıxılıb ölürəm, kömək eləyərsən, yoxsa eləməzsən?

S ə f i . Əlbəttə, borcumdur kömək eləyim.

F i r u d i n b ə y . Vot, znaçit, sən millətpərəst... Stupay!

Ə s g ə r b ə y. Firudin, mən ölüm, gəl otur, yerində, a kişi, heç sənə çaxır verməli deyil. İki stəkandan sonra ağlın başından çıxır. Səfər, sözünü qurtar.

S ə f ə r b ə y . Bəli, bir neçə yaxşı mədaxil mən göstərim. Əvvəla, Qurban qoyunlarının dərisi. Hər bir müsəlman ildə kəsdiyi Qurban qoyununun dərisini bizim cəmiyyətə versə, onun pulu ilə neçə-neçə şkolalar açmaq və neçə fəqiri böyük şkolalarda oxutmaq olar... İkimcisi...

V ə l i b ə y . İkimcisini qoyun mən deyim. İkimcisi, o min beş yüz manat nə qədər ki, Anna Petrovnanın yolunda xərc eləyibsən və hamısı da ki, əfsanə gedib, onunla sən üç uşağa tərbiyə verə bilərsən.

S ə f ə r b ə y . Bu danışıqların buraya nə dəxli var. Mən Anna Petrovnanın yolunda canımdan da keçərəm, biz millət söhbəti eləyirik.

F i r u d i n b ə y (*qeyznak qalxıb*). Səfər, bu nə hərf-hədyandır danışırsan? Sən bilirsən ki, Anna Petrovna mənim tanışımdır və onun namusu mənə düşər. And olsun Allaha, başından alıb səni yıxaram yerə, o qədər qarnına təpik vuraram ki, beş hambal səni yerindən durquza bilməz.

S ə f ə r b ə y . Kəs səsini, itin biri, sən mənim başımdan alıb yıxacaqsan? Vallah, təpənə bir güllə vurram beynin havaya dağılar. (*Butulkanın birini atır Firudin bəyə, butulka yerə dəyib dağılır. Firudin bəy qalxır Səfər bəyi birçəkləyir. Hər ikisi yıxılırlar yerə. Qonaqlar ayağa durub istəyirlər onları aralaşdırsınlar.)*

E v s a h i b i (*daxil olur*). A sizə Qurban olum, evim başıma uçdu, bu nə vurhavurdur, nə qalmaqaldır

S ə f i . Məşədi, heç küy eləmə ki, işin orası deyil, bəylər islamı qabağa aparırlar.

E v s a h i b i . A rəhmətliyin oğlu, nə söyləyirsən, yoxsa sən də keflisən, islamı qabağa aparırlar nədir?

S ə f i . Sən belə şeyləri başa düşə bilməzsən, avamsan, get evinə. Get evinə. (*Dalından itələyib çıxardır*.)

F i r u d i n b ə y (*qalxıb*). Əsgər, sənin ki evində məni döydülər, sən dinmədin, daha bundan sonra mənim ayağım sənin qapından girməz, xudahafiz. (*Çıxır.*)

Səfər bəy (*Əsgər bəyə*). Sənin ki evində məni abijat elədilər, daha bundan sonra mən səni tanımaq istəmirəm. (*Çıxır*.)

M ü r s ə l b ə y . Balam, Əsgər, söhbət pis məqama mİndi, daha biz də gedək, bir ayrı gün yığılıb söhbət elərik. Səfi, çıx fayton çağır. (*Səfi çıxır.)* Axır sən bu Firudinin xasiyyətini bilə-bilə onu buraya niyə çağırırdın? Sən bilirsən ki, o içəndə adamlıqdan çıxır.

Ə s g ə r b ə y. Xeyr, ondan deyil, o Anna Petrovna sözü işləri xarab elədi. Amma, mən ölüm, inciməyin, yoldaş arasında belə ittifaqlar çox olar.

S ə f i (*daxil olur*). Ağalar, buyurun, faytonlar hazırdır.

M ü r s ə l b ə y. Hələ ki, xudahafiz, inşallah bu günlərdə dübarə söhbət elərik.

Ə s g ə r b ə y. Xudahafiz. (*Qonaqlara bir-bir əl verir.)* Siz Allah bağışlayın, vallah, xəcalətimdən üzünüzə baxa bilmirəm.

V ə l i b ə y. Eybi yoxdur, xudahafiz.

Qonaqlar çıxırlar və Əsgər bəy də dallarınca.

S ə f i (*tək*). Bəli, islam qabağa getdi!..

PƏRDƏ

AĞA MƏHƏMMƏD ŞAH QACAR

Faciə beş məclisdə, doqquz pərdədə

ƏVVƏLİNCİ MƏCLİS

ƏHLİ-MƏCLIS

Ağa Məhəmməd xan Qacar
Cəfərqulu xan
Əliquluxan
Mustafa xan }onun qardaşları
Mürtəzaqulu xan
Rzaqulu xan
Altı nəfər şirazlı, iki nəfər qasid, sərkərdələr, əsirlər, sərbazlar

ƏVVƏLİNCİ MƏCLİS

Mazandaran, Ağa Məhəmməd xanın mənzilinin səhni. Altı nəfər şirazlı.

Əvvəlincişirazlı. Xan görəsən nəyə məşğuldur? Həmişə bu vədə çıxıb, sərkərdələrlə söhbət edərdi. Binagüzarlıqlar edərdi.

İkincişirazlı. Xanın kitab oxumağa çox artıq həvəsi var. Yəqin yenə kitaba məşğuldur. Mən Şirazda həmişə zənn yetirirdim. Vaxtı ki, Kərim xanın söhbətindən fariq olurdu, çəkilirdi öz mənzilinə, kitabları bir-bir tökürdü qabağına, başlayırdı oxumağa. Bəzən vaxt görürdün, kitabı oxuyandan sonra yumub, şəhadət barmağını kitabın arasına qoyub, gedib dərin fikrə. Bu növ hərəkətləri onda görəndə və ələlxüsus Kərim xanla rubəru əyləşib dövlət işlərini müzakirə edən ağa Məhəmməd xanın tökdüyü tədbirləri eşidəndə mən həmişə öz ürəyimdə deyirdim ki, bu şəxs, əlbəttə, böyük mərtəbəyə çatacaq. Kərim xan ömrünün axırlarında, dövlətə dair hər bir məsələdə Ağa Məhəmməd xanın rəyini soruşardı. Təəccüb burası idi ki, Ağa Məhəmməd xan öz atasının qatili ilə rubəru əyləşib, ona gözəl-gözəl təbdirlər tökürdü.

Ə v v ə l i n c i ş i r a z l ı . Ağa Məhəmməd xan Kərim xana gözəl tədbirlər töküb düz yol göstərəndə, yəqin etginən ki, heç vədə Kərim xanın mənfəətini mülahizə etmirdi. Bəlkə millət və məmləkət mənfəətini mülahizə edib, o tədbirləri tökürdü.

Ü ç ü n c ü ş i r a z l ı . Mən Kərim xanın qulluğunda olandan qabaq həmin bu Mazandaranda Nadir şahın qardaşı oğlu Ədil şahın qulluğunda idim. Elə ki Nadir şah Qacar şurişini yatırtdı və Məhəmmədhüseyn xanı məğlub elədi, o vədə onun iki oğlunu ki, böyüyü olsun həmin Ağa Məhəmməd xan, əsir edib götürdülər Ədil şahın yanına, Ədil şahın hökmünə görə, Ağa Məhəmməd xanın rüculiyyətini aldılar. O vaxt mən öz ürəyimdə dedim ki, Ədil şah özünə bir elə düşmən qazandı ki, onun cəmi düşmənlərindən qəvi olsun. Çün məlumdur, şəxs ki kişilikdən düşdü və dünya ləzzətindən məhrum oldu, cəmi bədənin zorunu verəcək əqlinə və əqllə də düşmənə tez qalib olmaq olur, nəinki bir yalnız qoşunla. Ədil şah mərhum olandan sonra Ağa Məhəmməd xanı azad etdilər. O da dayanmayıb getdi ağasının yanına ki, onun yaman günündə ona qəmxar olsun. Bu yandan Şiraz hökmranı Kərim xan təzədən Qacar üstünə qoşun çəkib, Məhəmmədhüseyn xanı öldürüb, Ağa Məhəmməd xanı dübarə əsir edib apardı Şiraza. Bir belə bəlalara düçar olan, başı qovğalar çəkən, əlbəttə, gərək intiqam fikrini başından çıxarmaya. Odur ki, işdən fariq olan vaxt kənara çəkilib, kitablardan dərdinə dərman istəyirdi. Odur ki, barmağını kitab arasına qoyub fikrə gedirdi. O, böht deyildi, bəlkə cəmi İranın gələcək günlərinin fikri idi. Bir belə müsibətin əvəzində, Ağa Məhəmməd xan gərək bir elə mərtəbəyə çatsın ki, inqirazı-aləməcən onun adı tarixlərdə söylənsin.

Ə v v ə l i n c i ş i r a z l ı . Ağa Məhəmməd xan böyük mərtəbəyə çatacaq. Buna heç şəkk ola bilməz, Sali ki, nikust əz bəharəş peydəst[1]. Kərim xanın vəfatından sonra ki Ağa Məhəmməd xan Şirazdan çıxdı, ancaq biz altı nəfərlə Mazandarana gəldik. Amma İndi gör burada nə cəlal var. Bir yandan Ağa Məhəmməd xanın qardaşı Mustafa xan öz qoşunu ilə, bir yandan onun o biri qardaşları Cəfərqulu xan və Əliqulu xan həmçinin öz qoşunları ilə, Qacarın Rəşid şəxsləri hər biri nə qədər atlı ilə burada cəmdirlər. Bir belə qoşunun vücudu ilə hər bir fikrə düşmək olar.

Ü ç ü n c ü ş i r a z l ı . Hətta padşahlıq fikrinə də düşmək olar. Beləmi demək istəyirsən?

[1] Yaxşı il baharından bəlli olar.

Ə v v ə l i n c i ş i r a z l ı . Onu deyəndə nə olar? Bu saat İran parçaparça olub. Əlimurad xan əyləşib İsfəhanda. Nadir Mirzə atası kor Şahruxla əyləşib Xorasanda. Sair məmləkətlər də həmin qərar. Bu hökmranların hamısı bir-birilə müddəidir. Əgər bunların müqabilində bir aqil şəxs çıxıb başına qoşun yığa, yəqin bil ki, az müddətdə hamısına qalib olub ənani-səltənəti keçirər əlinə. Ağa Məhəmməd xanın bəxtinin ulduzu gün-gündən ucalmaqdadır. Qoşunu gəldikcə artır və onun ağlı, kamalı və tədbiri cəmi dünyaya məlumdur. Padşahlıq fikrinə düşmək nə çətin işdir?!

Ü ç ü n c ü ş i r a z l ı . Yəqin elə bunu mülahizə edib, Şirazdan Mazandarana gəlibsən?

Ə v v ə l i n c i ş i r a z l ı . Gəlibsən niyə deyirsən, gəlmişik de. Riya-filan lazım deyil. Dünya bilir ki, Qaflanguhla Aslan duzlağı yapışqan ola, Şiraz bunun ürəyini Qacar nəslinə yapışdıra bilməz. Biz altımız da bir fikir edib, buraya gəlmişik. Burada yad adam yox, hamımız şirazlı. Bizə nə lazım gəlib bir-birimizi aldadaq? Kənara çəkilin! Xan yenə fikir dəryasına qərq olmuş gəlir. Onu böht aparanda gərək gözünə adam görünməyə.

Hamı gedirlər.

A ğ a M ə h ə m m ə d x a n (*məbhut, pilləkəndən enib, axır pillədə əyləşir).* Bəli, belədir və belə də gərək olsun. Mənim bu gecə gördüyüm vaqiə də deyir gərək belə olsun... Mən kitablardan oxumuşam, cümlə maxələqəllahdan qabaq yaranan lövh və qələmdir. Lövh üzrə cəmi məxluqatın sərgüzəşti yazılıb. Mən yəqin etmişəm, o lövhədə İranın nicatına bais nəsli-Qacar yazılıb. (*Durur ayağa*.) Əvvəl Qacar nəslinin sərkərdəsi mənim babam Fətəli xandır. Fətəli xanın tərəqqisi Qacarın sairi-əyanının büxlünü artırıb, ona düşmən elədi. İstədilər onun tək oğlu Məhəmmədhüseyn xanı ki, mənim atam olsun, öldürsünlər. Atam köçəri türkmənlərə pənahlandı və başına qoşun yığıb başladı öz qohum-əqrəbası ilə dava eləməyə. Bu vaxt bir bəlayi-nagahan parlaq şöleyi-aləmsuz tək Əfşar arasında asimana büləndolub, İranın üstündən adladı. Amma necə ki, qalxmışdı, o növ də enib söndü. Bu şölə Qacar nəslinin bir-birilə etdiyi ədavətə görə Allah tərəfindən göndərilmiş bir bəla idi. O bəlanın adı Nadir idi. Nadir qacarlara kömək durub, mənim atamı məğlub elədi və mən də ki, qardaşımla bir yerdə Nadir şahın qardaşı oğlu Ədil şahın əlinə əsir düşdük. Bunun hamısı sirri-

rəbbülaləmin idi. Elə olmasaydı, belə də olmazdı. İndi Nadir də və mənim atamın qatili Kərim xan da ölüblər. Mən həmişə xudavəndialəmdən istixasə edərdim, məni bir mərtəbəyə çatdırsın ki, onlardan ata-babamın qisasını alım. Nə eləyim, arzuma çatmadım. Amma eybi yoxdur. Əgər xudavəndi-aləm kömək elər, onların sümüklərindən qisas alaram.

C ə f ə r q u l u x a n (*daxil olur*). Qardaş, yenə nə fikrə gedibsən?

A ğ a M ə h ə m m ə d x a n. Cəfərqulu, sənsən? Yaxına gəl... Nə eləyim, qardaş? Dərd çoxdur, yük ağır. Tədbirsiz, fikirsiz iş olmaz.

C ə f ə r q u l u x a n . Sən həmişə deyirsən ki, İranın nicatına gərək nəsli-Qacar olsun. Amma...

A ğ a M ə h ə m m ə d x a n . Bəli, belədir və bu mənim yəqinimdir və bu gecə gördüyüm vaqiə də buna sübutdur. Gördüm bir böyük yaralı bədən düşüb və məni o bədənin üstünə həkim çağırıblar. Əlimi bədənə çəkən tək cəmi yaraları sağaldı, durdu ayağa. Qardaş, yəqin elə ki, o bədən İrandır.

C ə f ə r q u l u x a n . İnşallah, belə də olacaq. Amma Qacardan bir qasid gəlib, yaman xəbərlər gətirib.

A ğ a M ə h ə m m ə d x a n . Nə xəbər?

C ə f ə r q u l u x a n. Bizim öz qardaşlarımız Rzaqulu xan və Mürtəzaqulu xan çox böyük qoşun yığıb bizim üstümüzə gəlirlər. Buna təbdir lazımdır. Mürtəzaqulu xan hətta adını şah qoyubdur. Doğrudan, mən, qardaşlarım Mustafa və Əliqulu və sairi sənin yanında olan sərkərdələr sənin yolunda baş və candan keçmişik, amma, qardaş, azıq.

A ğ a M ə h ə m m ə d x a n . Eybi yoxdur, Allah bizə köməkdir. Qüvvət çoxluqda olmaz, tədbirlə, qeyrət və namusla olar. Get Mustafa xanı, Əliqulu xanı və sərkərdələri buraya çağır. Çox azlar çox çoxlara qalib olublar. Az olub şir olmaq çox olub tülkü olmaqdan məsləhətdir. (*Cəfərqulu xan gedir*.) Işin qabağa getməyi üçün, əvvəl, vacib dost qazanmaqdır. Bu da mümkündür, peşkəşlər verməklə və bir para lazım adamlarla keçmişdə olmuş ədavəti yaddan çıxartmaqla. Nə qədər düşmən zəif də olsa, əvvəl sülh təklifi lazımdır və sülhlə qurtaran ədavət, düşməni dost edə bilər. Mən camaatın qırılmağına heç vədə riza vermərəm. Amma vaxta ki, düşmən möhkəm durdu və ya camaat rugərdan oldu, mənim qəzəbimin intihası olmaz. Beşikdə mələr uşaqlaradək qırdırsam yenə ürəyim soyumaz.

Cəfərqulu xan, Mustafa xan, Əli qulu xan və sərkərdələr daxil olurlar.

Həzərat, sizə məlumdur, Qacardan qasid gəlib və mənim qardaşlarım Rzaqulu xan və Mürtəzaqulu xan başlarına qoşun yığıb, istəyirlər mənimlə dava etsinlər. İndi fikriniz nədir? Bizim qoşunumuz azdır, amma qeyrətimiz çoxdur. Əgər axıradək çalışacaqsınız, açıq deyin, mən də öz təklifimi bilim.

C ə f ə r q u l u x a n (*yeriyir qabağa*). Qardaş, mən balaca vaxtımdan sənlə bir yerdə qəm yoldaşı olmuşam. Bizim ikimizi qəm yükünə cüt qoşub, boyunduruğun hər başını birimizin boynuna qoyublar. Atamızın qoşunu tərk olub balü pəri qırılandan sonra, bir yerdə Ədil şaha əsir olmuşuq. İndi də bu canı qoymuşam sənin yolunda. Nə qədər qolumda qüvvət var, qılınc vurmağa hazıram. Əgər cümlə qoşunum qırıla, ölüncə sənin yolunda tək dava eləyəcəyəm.

A ğ a M ə h ə m m ə d x a n . Mərhəba, qardaşım! Gəl alnından öpüm. Allah səni məndən ayırmasın. (*Cəfərqulu xanın alnından öpür*.)

M u s t a f a x a n . Qardaş, doğrudur, Cəfərqulu hər barədə sənə məndən artıq ixlas göstərib. Bain-həmə mən də və mənim üstümdəki qoşun da, hamımız özümüzü sənə Qurban demişik. Ümidini Allaha bağla, inşallah, fəth bizlə olar.

Ə l i q u l u x a n . Qardaş, məni Allah təqrir tərəfdən mərhum edib. Mənim ürəyim sözlə doludur. Amma ürəyimdəki sözləri dillə demək qabiliyyəti məndə yoxdur. Mənim sənə olan ixlasımı və qoşunumun nə payədə sənin yolunda canından keçməyini dillə deməyi bacarmıram. İnşallah, dava vaxtı qardaşın Əliqulu xanı və onun qoşununu görərsən.

S ə r k ə r d ə l ə r d ə n b i r i (*qabağa yeriyib*). Xan! Biz üç nəfər şəxs, hər birimiz Qacarın bir qəbiləsinin sərkərdəsi hesab olunuruq. Bizim babalarımız həmişə sizin mərhum babanız Fətəli xanın qulluğunda olublar. Bizim atalarımız sizin atanız mərhum Məhəmmədhüseyn xanla bir yerdə dava eləyiblər. Mənim atam şirazlı Kərim xanla dava eləyib, Məhəmmədhüseyn xanın qabağında özünü Qurban eləyib. Biz bu növ şəxslərin nəslindənik. Necə ki, ata-babalarımız sizin atanızın və babalarınızın qulluğunda çalışıblar, elə də özümüz və qoşunumuz sizlə bir yerdə ölənədək hazırıq. Ağa Məhəmməd xan. Həzərat, and olsun Məhəmmədhüseyn xanın qəbrinə və bu əziz qardaşlarımın canına, mən öz şəxsi qərəzim üçün çalışmıram. Mən İranın dərdindən ötrü çalışıram. Özünüz görürsünüz, məmləkət parça-paça olub, hər şəhərdə bir padşah əmələ

gəlib. Gürcüstan valisi Irakli bir yandan Rusiya dövləti ilə irsal-mərsulə girib, istəyir müstəqil padşah olsun. Qarabağda İbrahim xan həmçinin İrandan ayrılmaq istəyir. Cavad xan gəncəli, Mustafa xan irəvanlı həmçinin. Məgər bunu Allah götürər? Görün boynuma nə ağır yük götürmüşəm.

S ə r k ə r d ə. Allah gözəl niyyətin yarıdır. İnşallah, məramına çatarsınız və Qacar nəslinin adı salhasal tarixlərdə söylənər.

A ğ a M ə h ə m m ə d x a n. İndi bir neçə kəlmə söz deməliyəm. Qulaq asın və cəmi qoşun əhlinə də yetirin. Ta hamı Qacar mənim ürəyimdən xəbərdar olsun.

S ə r k ə r d ə l ə r. Buyurun, xan.

A ğ a M ə h ə m m ə d x a n. Budur ucadan deyirəm, ta mənim sözlərimi dünya eşitsin. Mən Ağa Məhəmməd xan Qacar, açıq və aydın, bu gündən məlum edirəm ki, hər kəslə İndiyədək ədavətim vardı, o ədavəti burada ürəyimdən çıxardıram. Heç kəslə və heç vaxt düşmənçilik etməyəcəyəm, ta düşmənçilik görməyəm. Ələlxüsus Qacar nəslindən hər kəslə keçmişdə ədavətim olub, burada yaddan çıxardıram. Mənim ata-babamı düşmən əlinə verib öldürməklərinə bais olanların və mənim özümün düşmən əlində bir halda şikəst olmağa bais olanların ki, ən ədna gədanın mənə yazığı gəlir, hamısının ədavətini qəlbimdən çıxardıram. Mənim bu sözlərimi yazın mənim üstümə hücum edən qardaşlarıma və onların başına cəm olan qoşuna. Bilsinlər ki, davadan sonra yetim qalmış uşaqların ah və naləsi, dul qalmış övrətlərin bəd duası kimin üstünə töküləcək və Qacar nəsli dostu ilə düşmənini tanısın.

S ə r k ə r d ə. Belə qəlbin sahibinin qabağında ölmək bir ləzzətdir.

C ə f ə r q u l u x a n. Qardaş, sənin bu sözlərin mənim ümidimi birə on artırdı. Əgər bu sözlər gedib bizim qardaşlarımızın və qoşunlarının qulağına yetişsə, yəqin elə ki, qoşunun əksəri bizə tərəf dönəcək.

M u s t a f a x a n. Qardaş, mən səni bu ürəyin sahibi bilmirdim. İndi yəqin etdim ki, mərdanə imişsən. Mərdanə qardaş qabağında yüz dəfə ölüb diriləsən, yenə azdır. (*Sərkərdələrə*) Həzərat, durmaq məqamı deyil, gedək, qoşunu hazırlayaq.

A ğ a M ə h ə m m ə d x a n. Gedin, Allah yar olsun. (*Cəfərqulu xan, Mustafa xan, Əliqulu xan və sərkərdələr gedirlər.)* İlahi, parça-parça olmuş, neçə yerdən ölümcül yaralanmış İranı bəlalardan mühafizə elə.

PƏRDƏ

İKİNCİ MƏCLİS

Mürtəzaqulu xan Qacarın çadırları. Pərdə qalxanda top-tüfəng səsi gəlir.

Mürtəzaqulu xan (*uca yerdən baxır*.) Afərin, Qacar igidləri! Hər biri bir şir-jəyan tək dava edirlər. Axır mənim də bəxtimin çırağı yanacaq. Dörd ildir bu insana oxşamayan xacə, cahanı mənim başıma təng edib. Nə qədər qoşun qırılıb, camaat istitaətdən düşüb. Mustafa xan mən tərəfə keçib. Bir Cəfərqulu xanın köməyi ilə, Ağa Məhəmməd mənim müqabilimdə İndiyədək davam edib. Nə olardı, Allah Cəfərqulu xanın ürəyinə insaf salaydı, öz mənfəətini anlayıb Ağa Məhəmməddən əl çəkəydi. (*Gurultu artır*.) Vuruşun, qoçaqlarım! Vuruşun, şirlərim! Vuruşun, pələnglərim! Əgər İran ixtiyarı əlimə keçər, sizin sərkərdələrinizi və özünüzü dünya malından qəni edərəm. Amma əgər Ağa Məhəmməd əsir olub əlimə keçə, and olsun Allaha, ona bir elə tənbeh edəcəyəm ki, min baş kəsmiş cəllad ağlasın... Budur, bir atlı sürətlə gəlir. Görəsən, nə xəbərdir? Xudaya, sən xeyir elə... Atlının dalınca bir neçə atlı, bir nəfəri əhatə edib gətirirlər... İnşallah xeyirdir, inşallah xeyirdir. (*Enir aşağı*)

Q a s i d (*daxil olur*.) Xan sağ olsun, müjdəmi ver!

M ü r t ə z a q u l u x a n . Tez ol, de görüm, nə xəbər gətiribsən?

Q a s i d . Xan, Q u r b a n ın olum, nəfəsim gəlmir, belə Ağa Məhəmməd xan, Ağa Məhəmməd xan!..

M ü r t ə z a q u l u x a n . Nə olub? Ağa Məhəmməd xanı öldürüblər nədir, de görüm?

Q a s i d . Yox... Öldürməyiblər...

M ü r t ə z a q u l u x a n . Öldürməyiblər, bəs nə olub, niyə müjdə istəyirsən.

Q a s i d . Əsir ediblər! Budur, qolu bağlı gətirirlər.

M ü r t ə z a q u l u x a n . İlahi, mərhəmətinə gündə min şükür! (*Qasidə)* Tut, bu sənin müjdən. (*Bir kisə pul verir*.) Buradan get fərraşbaşının yanına. Deginən sənin adını fərraşlar cümləsindən yazsın.

Q a s i d . Allah xanın iltifatını artıq eləsin. (*İstəyir getsin*.)

M ü r t ə z a q u l u x a n . Dayan bir az, getmə! De görüm Cəfərqulu xan nə qayırır? Məgər dava etməkdən yorulmayıb?

Q a s i d . Xeyir, xan. Biz belə güman elədik ki, Ağa Məhəmməd xanın əsir olmağı onun qol-qanadını qıracaq. Amma qardaşı tutulan-

dan sonra Cəfərqulu xan ikiqat şiddətlə davaya girişdi. Əsirlərin nağıl etmələrinə görə Cəfərqulu xan deyir, əgər qılınc vura-vura gedib qardaşımı düşmən əlindən qurtarmasam, öz xəncərimlə özümü həlak edəcəyəm.

M ü r t ə z a q u l u x a n. Qulaq asma, naxoş öləndən qabaq işıq verər. Cəfərqulu xan haləti-nəzdədir. Inşallah, onu da qolu bağlı gətirərlər və o gələnədək də qardaşı barəsində təbdir olunar... Sən get. (*Qasid baş əyib gedir.*) Nə gözəl oldu! Inşallah, Cəfərqulu da qardaşının halətinə düşər və gəlib qardaşını ölmüş görər. Onda mən... ona buyuraram ki, əhdinə vəfa etsin, öz xəncəri ilə özünü öldürsün. Gözəl divandır! (Bir neçə nəfər, əzon cümlə Mustafa xan Ağa Məhəmməd xanı gətirirlər.) Qardaş! Xoş gördük. Eşidibsən:

Hər on köhtər ki, ba mehtər sitizəd
Çinan üftəd ki, hərgiz bər nəxizəd:[1]

Məgər bu gündən ötrü mənimlə dava edirdin? Məgər bu sifətlə padşahlıq arzusuna düşmüşdün? Heç bir aynaya baxıbsan? Məgər təxti-səltənət meymun yeridir? Sən bilirsən ki, padşaha züllüllahi-filərz deyirlər? Məgər Allah kölgəsi sənin tək olar? Sən yəqin edibsən ki, İranın nicatı Qacar əlindədir! Amma İndi öz halətinə bax. Qızmış şir tək dava edən qoşuna da bax, mənə də. Gör İranın nicatı hansı Qacar əlindədir.

A ğ a M ə h ə m m ə d x a n. Qardaş, mən nə qədər səninlə dava edirdim, sənin düşmənin idim. İndi mən qolu bağlı əsirəm, məndən heç kəsə bu saat ziyan dəyməz. Ona görə mənə düşmən adı qoymaq olmaz. Əsir qonaqdır. Qonağa rişxənd etmək mərd sifəti deyil. Sən padşahlıq fikrinə düşübsən, amma namərd padşah ola bilməz. Məni öldürəcəksən, öldür. Amma nə qədər Cəfərqulunun qolu qılınc vurmaqdan yorulmayıb, padşahlıq fikrini yaddan çıxart.

M u s t a f a x a n (*irəli yeriyir*). Çox da sən qardaşın Cəfərquluya xatircəm olma. Sənin Cəfərqulu tək qardaşın varsa, Mürtəzaqulu xanın da mənim tək və Rzaqulu xan tək qardaşları var. Ölüncə vuruşmağa hazırıq. Necə ki, sənin vəhşi heyvan tək buraya gətirdim, elə də Cəfərqulunu burada görərsən.

[1] Böyüklə dalaşan kiçik elə yıxılır ki, heç bir vaxt ayağa qalxa bilməz.

A ğ a M ə h ə m m ə d x a n . Bu sözləri mənə də çox deyibsən. Nə qədər mən səndə etibar gördüm, bir elə də Mürtəzaqulu xan görər. Mürtəzaqulu xan. Mustafa, qardaş, afərin sənə və sənin şücaətinə! Bu gətirdiyin heyvanın tənbihini sənə rücu edərəm. İstəyirsən gözlərini çıxart, istəyirsən başını kəsdir.

M u s t a f a x a n . Mən burada öz Allahımla əhd eləyirəm, gərək Cəfərqulu xanı da əsir edəm. Əvvəl bunun gözlərinin qabağında onun başını kəsəm və sonra bunun gözlərini çıxardam. Buna ondan böyük tənbih ola bilməz. Hər kişiyə Allah dünyada iki böyük nemət verib: biri onun kişiliyidir və biri də onun gözləri. Əvvəlinci nemətdən bunu Ədil şah məhrum edib, ikincisindən də mən məhrum edərəm.

A ğ a M ə h ə m m ə d x a n . Hər nə edəcəksən et. Yazılan yazılıb.

M ü r t ə z a q u l u x a n . Səni bu halətdə görəndə mən yazılanı oxudum.

M u s t a f a x a n . Fərraş! Get kündə gətir və yaxşı təzə kündə. (*Fərraş gedir*.) Sən padşahsan, gərək sənin ayağına padşaha layiq kündə vurula. (*Kündəni gətirirlər*.) Salın bunun ayaqlarına. Kündənin tozunu silin, padşahın libası bulanmasın.

Ağa Məhəmməd xanın ayaqlarını salırlar kündəyə.

Q a s i d (*daxil olur)*. Xan, nə durubsan, evimiz yıxıldı, qoşunumuzun yarısı tərk oldu! Yerdə qalanın bir hissəsi Cəfərqulu xan tərəfə keçdi və qalanı pərakəndə olub hərəsi bir yana qaçdı. Rzaqulu xan əsir olub, keçib Cəfərqulu xanın əlinə.

M ü r t ə z a q u l u x a n . Oğlan, nə danışırsan?! Deginən bu saat atları çəksinlər. Mustafa, qardaşım, qeyrət günüdür, gəl dalımca. İndi gərək mən özüm meydana çıxam, yoxsa axır günümüzdür! (*Tez çıxır.)*

M u s t a f a x a n . Bu əsiri burada saxlayın! (*Öz-özünə*.) Mən də atlanım, sonra fikir edərəm, qoşuna gedim, ya bir ayrı yerə. (*Tez çıxır*.)

A ğ a M ə h ə m m ə d x a n . Pərvərdigara, səni öz cəlalına and verirəm, Cəfərqulunu tezliklə mənə salamat yetir.

Şeypur səsi gəlir. Ağa Məhəmməd xanın qarovulları qaçırlar.

C ə f ə r q u l u x a n (*sərkərdələrlə daxil olur*). Pərvərdigara, sənə şükür, qardaşımı salamat tapdım! (*Kündəni ayağından açır.)* Qardaş, gəl qucaqlaşaq. Şükür olsun xudavəndi-aləmin cəlalına ki, dörd il əziyyət və məşəqqətdən sonra fəth bizlə oldu. İndi cəmi Qacar sənin ayağının altındadır. Bu dava cəmi Qacar nəslini bir adam tək eləyib və o adam

da məxsusdur sən Ağa Məhəmməd xana. Camaat ittihadı ilə padşahlıq da edə bilərsən və mən də həmişə sənin qabağında nökər varam.

A ğ a M ə h ə m m ə d x a n (*Cəfərqulu xanın boynunu qucaqlayıb*). Qolumun qüvvəti, belimin dayağı qardaşım! Allah səni mənə çox görməsin!

C ə f ə r q u l u x a n . Rzaqulu xanı buraya gətirin. Rzaqulu xanı gətirirlər.

A ğ a M ə h ə m m ə d x a n . Rzaqulu! Sən nə cürət edib mənim müqabilimə qoşun çıxartdırdın, məgər bu gündən qorxmurdun? Mən sənə o tənbehi eləyəcəyəm ki, sənin adaşın Rzaqulu xan Mirzəyə oldu. Aparın, bunun iki gözlərini də çıxardın!

Rzaqulu xanı aparırlar.

C ə f ə r q u l u x a n . Qardaş, buyur bu təllin üstünə çıx. Qoşun əhli səni ziyarət eləsin, yoxsa hamı səni ölmüş bilir.

A ğ a M ə h ə m m ə d x a n . Əlbəttə lazımdır. Gəl, qardaş, dalımca.

İkisi də çıxırlar təllin üstünə.

C ə f ə r q u l u x a n . Camaat! Budur sizin sərkərdəniz, xudavəndialəmin köməyi ilə sağ və salamat, gözünüzün qabağında. (*Ağa Məhəmməd xana*) Qardaş! Bir bu səhranı tutan qoşuna tamaşa elə. Düzlərdə otları, göydə ulduzları, meşələrdə ağacları sanamaq mümkündür, amma Qacar qoşununu sanamaq mümkün deyil. Bu qoşun hamısı mənim itaətimdədir və mən də sənin itaətində. Mən sənin qabağında İndiyədək dava eləmişəm və bundan sonra nə qədər qolumda qüvvət və sinəmdə nəfəs var, yenə bu qoşunla bir yerdə sənin uğrunda çalışmağa amadə varam. Mən Qacar nəslinin gözünün qabağında sənə ərəbi beyət eləmək istəyirəm. Ərəb bir vədə beyət eləyəndə ki, əlini verdi, yəqin vəfa eləyəcək. Mən də bu təllin üstündə bu sağ əlimi verirəm sənə. (*Əl verir.*) Bil və xatircəm ol ki, nə məndən və nə mənim qoşunumdan heç vədə sənə xəyanət olmayacaq.

A ğ a M ə h ə m m ə d x a n . Mərhəba, qardaş! Mərhəba!

Enirlər aşağı, bu halda bir sərkərdə bir neçə əsir gətirir.

C ə f ə r q u l u x a n . Bunlar nə əsirdirlər?

S ə r k ə r d ə . Mürtəzaqulu xanın müqərrəb atlılarındandırlar. Onunla bir yerdə qaçırdılar. Qovduq, özünü tuta bilmədik, atlılarını ələ keçirtdik.

C ə f ə r q u l u x a n (əsirlərdən birinə). Bu saat de görüm, Mürtəzaqulu xan və Mustafa xan necə oldular? Vay sənin halına əgər yalan deyəsən! Amma doğrusunu desən, səni azad eləyəcəyəm.

Ə s i r . Xan sağ olsun, elə ki bizim qoşun pərakəndə oldu və Rzaqulu xan əsir düşdü, o vədə Mürtəzaqulu xan bizlə bərabər atlanıb qoşunun içinə çapdı. Nə qədər qışqırdı, nərə vurdu, qoşun kar görə bilmədi. Axırda özü də atının başını çevirib qaçdı. Gərək Məşhəd tərəfə qaçmış olar.

A ğ a M ə h ə m m ə d x a n . Bəs mənim naməd qardaşım Mustafa xan?

Ə s i r . Mustafa xan axırda heç dava meydanında görünmədi. Belə danışdılar ki, qoşununu məğlub olmağını eşidən tək atını minib o qaçandır qaçır. Deyirmiş ki, Rusiya torpağına qaçacağam.

A ğ a M ə h ə m m ə d x a n . Mən bu əsiri azad elədim açın qolunu. (*Cəfərqulu xana*) Qardaş, sənin dövlətindən cəmi Qacar birləşib. Bundan sonra fürsəti fövt eləmək lazım deyil. Gərək birləşmiş qoşunun gücü ilə üzümüzə bağlı yolları açaq. İsfəhan hökmdarı Əlimərdan xan ölüb və yerində oğlu qalıbdır ki, bişüurun biridir. Lazımdır qoşuna bir neçə vaxt rahatlıq verib, İsfəhan üstünə gedək, ta Farsistanı özümüzə tabe edək.

C ə f ə r q u l u x a n . Çox gözəl fikirdir. (*Gülür.*) Ümidvaram ki, Cəfər xan əvəzində Cəfərqulu xan əyləşə.

A ğ a M ə h ə m m ə d x a n . Gözüm üstə... Qardaş, necə ki məlum oldu, dəxi Qacardan bizə düşmən qalmadı. İndi mən istəyirəm qoşun əhlinə İndiyədək ürəyimdə saxladığım axır sözümü deyim... Gəl, qardaş, təllin üstünə. Əliqulu, sən də gəl.

Çıxırlar təllin üstünə.

C ə f ə r q u l u x a n . Camaat, xamuş olun, Ağa Məhəmməd xan söz demək istəyir.

A ğ a M ə h ə m m ə d x a n . Ey buraya cəm olan Qacar qoşunları! Ey mənim qardaşlarım, dostlarım, əzizlərim və ey nəsli-Qacarın qəyur sərkərdələri, cavanları! Bilin və agah olun ki, bu gündən tarixi-Qacarinin əvvəl səhifəsinin bismillahı yazıldı. O bismillahı mən deyirəm və dalınca sizə məlum edirəm ki, mənim Ağa Məhəmməd şah Qacar, Maliki-bil-istiqlali-külli-məmaliki-məhruseyi-İran! Bu gündən haman səltənəti-İranı alıram əlimə və ümidvar oluram ki, bu qoşunun

köməyi ilə Qacar nəsli həmişə təxti-səltənəti-İranini müzəyyən edə. Necə ki siz Qacar taifəsi birləşibsiniz, elə də sizin köməyinizlə parçaparça əllərdə qalmış İran, inşallah, birləşəcək. Allahın tövfiqinə və sizin köməyinizə bel bağlayıb, ağır yollara qədəm qoyuram.

C ə f ə r q u l u x a n (*dizi üstə çökür*). Qibleyi-aləm, əvvəl sənə beyət edən mən və məni istəyən qoşun!

Ə l i q u l u x a n . Qardaş, səltənətin mübarək olsun!

S ə r k ə r d ə l ə r (*ucadan)*. Payəndə bad[1] Ağa Məhəmməd şah Qacar! Qoşundan səs gəlir. Payəndə bad Ağa Məhəmməd şah Qacar!

PƏRDƏ

[1] Var olsun.

İKİNCİ MƏCLİS

ƏHLİ-MƏCLİS

Ağa Məhəmməd şah Qacar
Cəfərqulu xan
Əliquluxan }onun qardaşları
Hacıİbrahimxan– vəzir
Mirzə Cəfər xan – eşik ağası
ƏlifxanƏfşar
Üç nəfər sərkərdə, qulam və fərraşlar

ƏVVƏLİNCİ MƏCLİS

Tehran. Ağa Məhəmməd şah Qacarın evi. Şah təxt üstündə əyləşib, yanında vəzir Hacı İbrahim xan.

Ağa Məhəmməd şah Qacar. Şükür olsun Allahın cəlalına ki, Farsistana qalib olduq. Mən bunu yəqin etmişdim ki, Əlimurad xanın oğlu Cəfər xan Qacar qoşunun qabağında davam edib İsfəhanda otura bilməyəcək. Belə də oldu və şükür olsun Allaha ki, İsfəhan torpağına davasız malik olduq. Bunu da bilginən, Hacı İbrahim xan, mən dəxi Mazandarana qayıtmayacağam. Mənim fikrim Tehranın qələsini möhkəmləşdirib, Tehranı həmişəlik, İsfəhan əvəzinə İrana paytaxt etməkdir. Tehranın köçəri türk tayfalarının yaxınlığında olmağı çox şərtdir. Mən bilirəm ki, buranın paytaxt olmağı həmişəlik farsla türk arasında ədavətə bais olacaq. Amma bu ədavət ancaq ürəkdə qalıb, nəticə verməyəcək, çünki mən farsları da, türkləri də lazımınca tanımışam.

Hacı İbrahim xan. Qibleyi-aləm, belə deyirlər ki, Cəfər xan hərçənd İsfəhandan qaçıb, amma başına qoşun cəm etməyə məşğuldur.

Ağa Məhəmməd şah Qacar. Fikir etmə, Hacı İbrahim xan, bunlar hamısı xəyali-xamdır. Fars firqələrinin sərkərdələri heç vədə Cəfər xanın baydağının altına gəlməzlər ta ondan bir kəramət görməyələr. Onlar hər biri bir iddiaya düşüb gözləyəcəklər ki, qacarlarla zəndilərin arasına bir qilü-qal düşsün. Ta ortalığa girib məramlarına

çatsınlar. Amma Əli xan Əfşar ki, böyük qoşunla gəlib Tehran ətrafında düşüb və padşahlıq arzusundadır, onunla dava çətin olacaq. (Mirzə Cəfər xan daxil olur.) Mirzə! Nə xəbərlə gəldin?

M i r z ə C ə f ə r x a n. Qibleyi-aləm, budur, sübhdən İndiyədək göftgudur. Söhbət axır bu yerə yetdi ki, Əli xan Əfşar bizim hər bir təklifimizi mən etdi: – bizim aramızda kəskin qılıncdan və iti nizədən başqa vasitə ola bilməz, – deyib, öz qoşununa tərəf müraciət etdi.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r. Qoşunlar ki, rubəru durublar?

M i r z ə C ə f ə r x a n. Bəli, Qurban. Qacar qoşunu bir işarəyə məəttəldir ki, cəmi Əli xanın qoşununu bir türfətüleyndə nabud eləsin. Əli xan özündən çox müştəbihdir və onun qürurla danışıb getməyi sərkərdələri və ələlxüsus Əliqulu xanı halətdən çıxardıb. Hamısının hirsdən gözləri qızarıb. Təzə kəməndə keçmiş xam ərəb atı tək özlərini yeyirlər. Qibleyi-aləm, mən qoca Mirzə Cəfərin qeyrəti qəbul etmir ki, sən tək qəvi padşahın müqabilində Əli xan Əfşar tək adam cürət edib söz danışsın. Qibleyi-aləm! Izin ver qoşuna, qabaqca qılınc vuran mən qoca olaram. Ax, haradan alım Cəfərqulu xanı!

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r. Səbr et, Mirzə Cəfər xan. Sən tədbirli kişisən, belə danışıq sənə şayistə deyil. Hər bir düşmənin müqabilinə qoşunla getsən, axırda qoşunsuz qalarsan. Dava var qılıncla qurtarar, dava var dillə. Əvvəl dil, sonra qılınc qoşunu mənə lazımdır. Mən Əli xanla dava etməyəcəyəm. Gəl əyləş, kağız, qələm götür, mən nə desəm yaz. (*Mirzə Cəfər xan əyləşib, kağız və qələm götürür.)* Yaz: Şahənşahi-İran Ağa Məhəmməd şah Qacar tərəfindən Əfşarın qəyur sərkərdələri ilə qoşunlarına! Əfşar qoşununun Qacar üstünə gəlməyini fikir etdikcə, mənim ürəyim qana dönür. Mənim səltənətimdən, cəlalımdan, şövkətimdən artıq İranın xoşbəxtliyidir. Amma iki türk tayfasının rubəru durub bir-birinin qanını tökməyi İranın tənəzzülünə səbəb olar və onun düşmənini ayaqlandırar. Mən heç mane deyiləm ki, Əfşar tayfası öz sərkərdələrinin təht-rəyasətində rahat dolanıb, özlərindən mənfəətbərdar olalar. Ancaq ürəkdən əfşarlarla qacarların birləşib ümumi düşmənin dəfinə çalışmaqlarını arzu edirəm. Qurtardın? Ver buraya. (*Qol çəkir.*) Bu kağızı götürüb çaparsan qoşuna, verərsən Əliqulu xana, deyərsən, sərkərdələrindən bir neçəsini götürsün, getsin. Əli xanın qoşununun müqabilində durub oxusun. Ümidvaram ki, bu kağız nəticə verə. Dayanma!

Mirzə Cəfər xan gedir.

H a c ı İ b r a h i m x a n . Qibleyi-aləm, bu çox böyük təbdir idi ki, sizdən sadir oldu. Afərin belə tədbirə!

Ağa Məhəmməd şah Qacar. Dünyada iki adam məni həlakətdən qurtarıb, biri qardaşım Cəfərqulu xan və biri də bu Mirzə

Cəfər. Mən Kərim xanın yanında olan vaxt onun qardaşı Hüseynəli xan xahiş etmişdi ki, Mazandaran əhlini Kərim xanın üzünə ağ elətsin. Kərim xan mənə qoşun verib qardaşının müqabilinə göndərmək istəyirdi. Amma Mirzə Cəfər mane oldu. Məni göndərmədilər. Sən belə güman etmə ki, Mirzə Cəfərin mənə məhəbbəti var idi. Xeyr, onu vadar edən öz ağasına olan kəsrəti-ixlası idi. Mirzə Cəfər yəqin eləmişdi, əgər mən Mazandarana gəlsəm, yəqin Hüseynəli xanla birləşəcəyəm. Bunu da bil ki, əgər mən o vədə baş qovzasaydım, Kərim xanda o qədər zor var idi ki, məni az zamanda fövt edərdi. Odur ki, mən bu kişini əziz tuturam və özümə söz vermişəm ki, heç vədə Mirzə Cəfərin və onun xişü əqvamının üstündən nəzərimi kəsməyim.

H a c ı İ b r a h i m x a n . Qibleyi-aləm, səbəb nə oldu ki, siz Cəfərqulu xan tək pəhləvanın qəlbinə dəydiniz? Qəzəbiniz tutmasın qibleyi-aləm ki, belə cəsarət edib soruşuram. Siz ki, ona İsfəhan hökumətini vədə vermişdiniz, nə səbəbə Mazandarana göndərdiniz?

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Məsləhət belə oldu.

H a c ı İ b r a h i m x a n . Məgər İsfəhana ondan layiq hakim tapacaqsınız?

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Ondan layiq tapılmaz, ancaq burada bir sirr var ki, açа bilmirəm.

H a c ı İ b r a h i m x a n . Qibleyi-aləm, məgər mən sizin qəzəbinizə düçar olmuşam? Buyurun belə olan surətdə cəllad mənim boynumu vursun. Mən dəxi zindəganlıq eləmək istəmirəm. İndiyədək mən şahın mübarək ağzından belə ləfz eşitməmişdim. Siz bilirsiniz ki, bu sirri daşa deyəsiniz daş camaata danışa bilər, amma mən Hacı İbrahim daşdan möhkəməm. (*Baş əyib çıxır.)*

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Hacı İbrahim, deyəsən, incidi. Eybi yoxdur, könlünü alaram. Axır mən ona, necə deyim ki, Cəfərqulu xandan qorxuram. Mən o vədə şəkkə düşdüm ki, Baba xanı vəliəhd təyin edəndə əvvəl beyət edən Cəfərqulu xan oldu. Mən, doğrudur, ona İsfəhan hökumətini vədə vermişdim. Amma mən necə bu vədəyə əməl edim? Mənim nə qədər qoşunum var, hamısı Cəfərqulu xanı ata tək istəyir. Deyə bilərəm ki, qoşun onu məndən artıq istəyir. Əgər xahiş

edə, qoşunun hamısını mənim üzümə durquza bilər. Necə ki, mənim qolumdan tutub, təxti-səltənətdə əyləşdirdi, həmçinin qolumdan tutub, endirib özü əyləşə bilər. Mən necə ona, İran padşahlarının paytaxtı olmuş İsfəhanın hökumətini verim? Mən ona Mazandaran hökumətini vermişəm, gedib əyləşib orada, olub guşənişin. Nə hökumətə şüru eləyir, nə çağırıram gəlir, nə yazdığım kağızlara cavab verir. Bu da məni daha artıq təşvişə salıb. Cəfərqulu mənə ərəbi beyət eləyib, ola bilər ki, mənim üzümə ağ olmasın, amma mənim varisimə rahatlıq verməyəcək. Bu mənim yəqinİmdir. İndidən tədbir lazımdır: əlacivaqiə piş əz vüqu, bayəd kərd[1]. (*Cağırır.*) Qulam. (*Qulam girir.*) Hacı İbrahim xanı buraya çağır. (*Qulam çıxır.*) Hacı İbrahim xan təbdirli vəzirdir, lazımlı vəzirdir. (*Hacı İbrahim xan daxil olur.*) Hacı, deyəsən məndən rəncidə xatir oldun?

Hacı İbrahim xan. Qibleyi-aləm, mən nəkarəyəm, sizdən rəncidə xatir olmağı xəyalımdan da keçirə biləm. Mən hələ o mərtəbədə özümdən müştəbeh olmamışam.

Ağa Məhəmməd şah Qacar. Sən çıxandan sonra mən fikir elədim. Həqiqət, mən Cəfərqulu xan haqqında zülm eləmişəm, onuntək qardaşın ürəyinə dəymək zəhi nainsaflıqdır. Mən indi öz əməlimdən peşman olub, qət etmişəm ki, Cəfərqulu xanı çağırıb, göndərim İsfəhana.

Hacı İbrahim xan. Qibleyi-aləm, bağışlayın, yenə cəsarət eləyirəm. Siz indiyədək Cəfərqulu xana neçə sifarişlər edibsiniz, neçə kağız yazıbsınız, heç birisinə cavab verməyib. Qorxuram indi də gəlməyə.

Ağa Məhəmməd şah Qacar. İndi mən onu ayrı yolla çağıraram. Mən bilirəm, Cəfərqulu xan anasının xatirini çox istəyir. Bu saat sən get Cəfərqulunun anasının yanına, deginən, şah ondan xahiş edir ki, özü zəhmət çəkib Mazandarana getsin. Əvvəl Cəfərqulu xana mənim dilimdən salam yetirsin və desin ki, mən öz əməlimdən peşman olub, onu İsfəhana hakim təyin etdim. Və mənim əziz qardaşımdan təvəqqe etsin ki, İsfəhandan qabaq Tehrana gəlsin, bir görüşək. Çünki könlüm onu çox istəyir və bir də İsfəhan barəsində bir para vacib məsələlərin müzakirəsi vacibdir.

Hacı İbrahim xan. Bu tədbir İranın dəxi də tərəqqisinə bais olacaq. Mürəxxəs olur. (*Çıxır.*)

[1] Baş verə biləcək vaqiənin əlacını baş verməzdən əvvəl etmək lazımdır.

M i r z ə C ə f ə r x a n (*daxil olur*). Qibleyi-aləm. Afərin tədbirə, necə ki, qibleyi-aləm hökm etmişdi, Əliqulu xan sərkərdələrdən iki nəfəri və məni götürüb yeridi Əli xanın qoşununa tərəf. Qoşunumüqabilində durub kağızı uca sövtlə oxudu. Kağız qurtaran tək Əlixanın sərkərdələri və qoşunu səs-səsə verib dedilər ki, Əliqulu xan,biz sənə tabeyik və nə qədər qəvi düşmən müqabilinə aparsan, baş və canla dalınca getməyə hazırıq. Amma qacarlarla biz dava etməyəcəyik. Əli xanın qolu boşaldı. İndi, budur, özü də, sərkərdələri də gəlib qapıda durub, hüzuri-aliyə müşərrəf olmağa izin istəyirlər.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Deyinən buyursunlar.

M i r z ə C ə f ə r x a n ç ı x ı r . Əli xan Əfşar sərkərdələri ilə daxil olur.

Ə l i x a n Ə f ş a r . Qibleyi-aləm, kamali-ixlas və iradə ilə mən vəmənim sərkərdələrim hüzuri-alidən əfv istəyirik. Biz böyük səhvdəimişik. Qibleyi-aləmin gözəl məktubunun məzmununu eşidəndən sonra səhvimizi anlayıb çox peşman olub gəlmişik. Mən, mənim ziri-dəstimdəolan sərkərdələr və qoşun, hamımız beyət edirik şahənşahi-İran Ağa Məhəmməd şah Qacara.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Çox məmnunam səndən, Əli xan. Şükür olsun Allaha ki, iki böyük türk taifəsi bir-birinə əl verib, düşməni sərnigun elədi. (*Çağırır*.) Mirzə Cəfər xan! (*Mirzə Cəfər xan daxil olur*.) Əli xana və sərkərdələrinə mənzil ver. Necə ki, padşah qonağına şayistədir hörmət elə buyuruq ver ki, Əli xanın qoşununun hər iyirmi nəfərinə bir qoyun və bir kuzə şərab versinlər. Əli xan, get rahat ol. Sən bundan sonra mənim əzizimsən, əziz sərkərdəm olacaqsan. (*Əli xan sərkərdələri ilə və Mirzə Cəfər gedirlər*.) Bunun da ürəyi mənlə düzəlməz, ona görə dəfi vacibdir... Xudavəndi-aləmin fədiqüdrəti mənim üstümdədir. Böyük dhüşmənin şərrindən qurtardım, İndi qalıb bir para xırda baş qovzayanlar. İran bu saat qaynar qazandır. Məlumdur ki, su qaynayanda onun içindəki nalayiq şeylər üzə çıxıb köpük olar. Həmçinin İrana tabe bir para xanlar bu növdürlər. (*Çağır*ır.) Qulam! (*Qulam daxil olur*.) Fərraşbaşıya deginən, bir adam göndərsin Əliqulu xanı buraya çağırsın.

Q u l a m . Qibleyi-aləm, Əliqulu xan gəlib buradadır.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Çağır gəlsin. (*Qulam çıxır*.) Deyirlər, Kirmanda Lütfullah xan baş qovzayır. Ona tənbih lazımdır. (*Əliqulu xan daxil olur*). Əliqulu! Gərək güclü qoşun götürüb gedəsən

Kirmana. Lütfullah xanın qoşununu tərk edərsən. Əgər qaçıb gizlənsə, Kirmanda daşı daş üstündə qoymazsan. Qoca kişilərə, övrətlərə, südəmər uşaqlara, heç birisinə rəhm etməzsən. Gərək Kirman əhlinə bir divan tutasan ki, cəmi İran titrəsin. Lütfullah xanı və onun qövməqrəbasını ələ gətirib hamısını ya qırarsan, ya gözlərini çıxardarsan. Xatircəm oluram ki, tapşırdığıma dürüst əməl edəcəksən.

Ə l i q u l u x a n . Padşah hökmü Allah hökmüdür, borcluyam itaət edim. (*Gedir. Hacı İbrahim xan daxil olur.*)

Ağa Məhəmməd şah Qacar. Necə oldu?

H a c ı İ b r a h i m x a n . Xanımı razı elədim, sabah yola düşür. Ağa Məhəmməd şah Qacar. Hacı İbrahim, dəxi dürüst xatircəm oldum, düşmənin qəvisini ələ gətirdim. Allahın köməkliyi ilə az keçər ki, İranda bir nəfərin adı çəkilər və o bir nəfər kimdir? Ağa Məhəmməd şah Qacar!

PƏRDƏ

İKİNCİ MƏCLİS

Tehran. Ağa Məhəmməd şah Qacar öz bargahında əyləşib səndəl üstündə.
Hacı İbrahim xan və Mirzə Cəfər xan durublar hüzurda.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Hacı İbrahim xan! Əli xan nə işlə məşğuldur?

H a c ı İ b r a h i m x a n . Qibleyi-aləm, dünya yadından çıxıb, əyləşib mənzilində, qulluq əmrlərinə məşğuldur.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Padşahlıq fikrindən əl götürüb, ya nə?

H a c ı İ b r a h i m x a n . Qibleyi-aləm, Əli xan məgər görmür ki, padşahlıq nə müşkül əmrdir? Gecə və gündüz gərək ancaq rəiyyət dərdi çəkəsən. Sair dövlətlərlə əlaqə fikrində olasan. Əli xan əyləşib qibleyi-aləmin sayəsində, rütbəsi gün-gündən artır, qoşun onun itaətində, dəxi o nə eləyəcək padşahlığı?

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Səhvdəsən, Hacı İbrahim xan! Bunu sən yəqin et ki, əgər Əli xanın sərkərdələri və qoşunu mənim məktubumu oxuyandan sonra ondan üz çevirməsə idilər, o gəlib itaət

etməzdi. Belə itaət də sidqlə olmaz. Əli xanın ölənədək ürəyində ədavət çıxmayacaq, sən buna inan! Əli xan ölsə, onun sümükləri və qəbrinin torpağı də mənimlə ədavət eləyəcək. Yəqin bil, belədir.

H a c ı İ b r a h i m x a n . Qibleyi-aləm, yoxsa Əli xan barəsində bir fikriniz var?

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Mən gecələr yuxu yata bilmirəm və İranın iki düşməni var, onlar yox olmayınca yata da bilməyəcəyəm. Mən o yandan, bu yandan baş qovzayanları demirəm, mən onları düşmən hesab etmirəm. Mən İranın gələcək düşmənlərini deyirəm ki, gərək onların hamısı tərk olsun ki, ta öləndə xatircəm ölüm. O düşmənlərini biri Əli xandır və o birisi də bilirsən kİmdir. Naçarlıqdan itaətə gələn düşmənlə müdara etmək aqil iş deyil. Elə düşmənin bilmərrə kökünü kəsmək gərək.

Q u l a m (daxil olur). Qibleyi-aləm, Əli xan gəlib fərmayişə müntəzirdir.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Get, fərraşbaşıya deginən necə ki, buyurmuşam. Əli xanı elə rahat eləsinlər.

Q u l a m ç ı x ı r . Şah qalxır ayağa, qapıya tərəf gəlir. Hacı İbrahim xan və Mirzə Cəfər bir-birinin üzünə baxırlar. Qapının dalından Əli xanın səsi gəlir: ay məlunlar! Nə qayırırsınız? Buraxın məni! Buraxın mənim qolumu! Ox, ox, ox!.. Ax, habelə ha, habelə ha! Oxay, canım dincəldi. (*Mirzə Cəfər xana.)*

Mirzə Cəfər xan, çıx binagüzarlıq et, neçə gün Əli xanı bargahda saxlasınlar və bir şəxs onun gözlərinin çıxdığını bilməsin və əlavə binagüzarlıq edərsən Əli xanın qoşununun bir hissəsini azad eləsinlər və qalanını sair fövclərə paylasınlar. (*Mirzə Cəfər xan çıxır.*) İkinci düşmənim qalıb, o da bu gün cəzasına çatar. Ax, nə ağır yük imiş padşahlıq!..

Q u l a m (*daxil olur.*) Qibleyi-aləm, Kərim xan Şirazinin xalılarını və sümüklərini gətiriblər.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Deginən içəri girsinlər! (*Qulam gedir.*) Böyük arzularımın birinə çatdım. *(Xalıları və bir torba sümük gətirirlər.*) Açın xalını! (*Açırlar.*) Çox gözəl xalılardır ha, Hacı İbrahim xan!

H a c ı İ b r a h i m x a n . Bəli, Qurban , çox gözəl xalılardır.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Mən, qədim vaxt yadımdadır, Kərim xanla müqabil oturub dövlət işlərini müzakirə edəndə bir yandan ona gözəl tədbirlər tökərdim və bir yandan və ədavətin kəsrə-

tindən xirqəmin altında bıçaq tutub bu xalıları doğrayardım. Əgər biləydim ki, bu xalılar axırda mənim olacaq, məgər mən bunları şikəst edərdim? *(Fərraşlara*.) Götürün xalıları və o sümükləri də aparın mənim yatacaq mənzilimin astanasında basdırın! (*Fərraşlar gedirlər*.) Hacı İbrahim xan, mən dünya ləzzətindən məhrumam. Göydə uçan quşlara, yerdə gəzən heyvanlara, torpaqda məskən tutan qarışqalara müyəssər olan ləzzət mən tək padşaha müyəssər deyil. Amma, hər sübh ki, yerimdən duranda ayaqlarımı Kərim xanın sümüklərinə basaram, ürəyimin yaraları yadımdan çıxar. Nadirin də sümükləri, inşallah gələr.

M i r z ə C ə f ə r x a n (*əlində kağız daxil olur*). Qibleyi-aləm, Əliqulu xan Kirmandan kağız göndərib.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Aç, oxu.

M i r z ə C ə f ə r x a n (*oxuyur*). Əlahəzrət şahən-şahi-İran hüzurimübarəkliyinə ərz olsun: hökmi-hümayuni-şahanəyə əməl edib üç gün, üç gecə Kirmanı oda və qılınca verdirdim. Axırda Lütfullah xan və onun cəmi əqrəbası ələ keçdilər. Hökmi-şahanəyə görə hamısını öldürtdüm. Kirman əhli izhari-itaət edəndən sonra qoşunu götürüb Tehrana müraciət edirəm. Kəmtərini-əlahəzrət Əliqulu.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Afərin, Əliqulu, xan! Kağız gətirənə, deginən, xələt versinlər! (*Mirzə Cəfər çıxır*.) Qulam! (*Qulam daxil olur*.) Sərkərdələr gəliblər?

Q u l a m . Bəli, qibleyi-aləm, gəliblər.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Deginən gəlsinlər. (*Qulam çıxır, üç nəfər sərkərdə daxil olur*.) Nə qədər qoşun hazır edibsiniz?

S ə r k ə r d ə . Qibleyi-aləm, altmış min nəfər atlı və piyada qoşun hazırdır.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . İndi mən sizə məramımı deyim. Gürcüstan valisi qoca İrakli İranı şuriş tutmuş hesab edib, götürüb Rusiya imperatricəsinə yazıbdır ki, necə mənim atam və babalarım həmişə Osmanlı və İran padşahlarının itaətində olublar, mən özümün və övladımın tərəfindən Rusiya padşahlarına itaət edirəm. Əlbəttə, İran şahları qəbul etməzlər ki, Gürcüstan tək vilayət əldən getsin. Ona görə İrakliyə tənbih lazımdır. Həmçinin Mustafa xan Lənkərani Rusiya imperatriçəsinə təəbiyyət edibdir. Əlavə Şəki, Şirvan, İrəvan, Gəncə və Qarabağ xanları da növbənöv iddialara düşüblər. Mən bu qoşunu cəm etmişəm ki, bu baş qalxızan şəxslərin hamısına məqamlarını tanıdım. Mən sizin və qoşunun rəşadətinə xatircəməm.

S ə r k ə r d ə . Qibleyi-aləm, baş və canla hazırıq.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Qoşun üç dəstə olacaq. Bir dəstəsi Şəki və Dağıstan tərəfinə və bir dəstəsini də özüm götürüb Qarabağ üstünə aparacağam. Gərək Əliqulu xan Kirmandan qayıdan tək yola düşək. Gedin, öz işinizə məşğul olun. Qoşun əhlinə məndən salam yetirin.

Sərkərdələr baş əyib çıxırlar.

Q u l a m (*daxil olur*). Qibleyi-aləm, Cəfərqulu xan hüzuruna izin istəyir.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Gəlsin, gəlsin. (*Cəfərqulu xan daxil olub baş əyir.*) Qardaş, yaxın gəl, bəs axşam Tehrana varid olub, İndi niyə mənim yanıma gəlirsən?

C ə f ə r q u l u x a n . Yornuq idim, qibleyi-aləm, əfv edəsən.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Eybi yoxdur, qardaş, yaxın gəl. (*Cəfərqulu xan gəlib dizi üstə çökür.)* Mən sənin haqqında zülm eləmişəm, gərək keçəsən. (*Alnından öpür.*)

C ə f ə r q u l u x a n (*qalxır ayağa*). Qibleyi-aləm, mən nəkarəyəm, sən məndən üzr istəyirsən?! Mən sənin qulluğunda özümü kəmtərin bəndələrdən hesab edirəm.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Qardaş, səbəb nə idi ki, İndiyədək sənə göndərdiyim kağızlara və sifarişlərə cavab vermirdin?

C ə f ə r q u l u x a n . Qibleyi-aləm, onu soruşma. Kiçiyin həmişə böyüyə bir ərki olar. Mən ərk bilmişəm. Yəqin yadındadır, Qacar fəthində İsfəhan hökumətini mənə vədə etdin?!

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Bəli, yadımdadır!

C ə f ə r q u l u x a n . Sonra ki, sən öz əhdinə vəfa etmədin və məni İsfəhan əvəzinə Mazandarana göndərdin, doğrusu, mənim ürəyim sındı. Mənə hökumətin artıq-əskikliyi təsir etmirdi. Amma məni qəmgin edən sənin, mənim tək yolunda canından və malından həmişə keçməyə hazır olan qardaşına etibar etməməyin idi. Mən sənə and içirəm ki, mən tək dəyanətli nökəri, cümlə İranı axtarsan tapa bilməzsən. Məni sən Mazandarana göndərmə, bir kəndə kəndxuda göndər, qapıda axırıncı fərraş elə, amma onu bil ki, mən etibarlı fərraşam. Sən heç soruşma ki, niyə sənin kağızlarına cavab vermirdim. Dübarə ərz edirəm, mən tərəfdən bir ərkdi. Amma, xudanəkərdə, sənə bir hadisə üz verəydi, yenə görərdin hamıdan qabaq düşmən müqabilində mən qardaşın dava eləyirəm.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Mən onda səhv elədim ki, gileyə başladım və sən də nahaq giley elədin. Iki küsülü arasında barışıq o vədə möhkəm olar ki, heç bir tərəf keçmişi yadına salmaya. Əlini mənə ver, necə ki, sən Qacar davasında əlini mənə verib öz iradətini izhar elədin, mən də bundan sonra gün-gündən məhəbbətimin sənə artmağını vədə eləyirəm.

C ə f ə r q u l u x a n (*şahın əlini öpür*). Qibleyi-aləm, sən mənim böyüyümsən və mənim ixtiyarım sənin əlindədir. Məhəbbət də eləsən, qəzəb də göstərsən, hər barədə sahibi-ixtiyarsan.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . İndi, qardaş, mən səni göndərirəm İsfəhana. O İsfəhana ki, İndiyədək İran şahlarının paytaxtı olub. Gərək İsfəhan vilayətini elə dolandırasan, necə ki, Səfəvilər dolandırıblar. Gərək camaatla elə rəftar edəsən ki, keçmiş padşahlar yadından çıxsın. Hətta sənin ədalətin müqabilində Şah Abbas ədaləti gün müqabilində ulduzcan olsun. Təzə padşah köhnəni ədalətlə camaatın yadından çıxartdırmasa, onun səltənəti möhkəm olub getməz. Nadir rəftar edə bilmədi. Cəmaatı üzünə ağ elədi. Ruhaniləri özündən incitdi. O idi ki, özü də fənaya getdi. Oğlu da pis oldu. Rəiyyət məhəbbəti qazanmaq padşahlığın ilk vəzifəsidir.

Rəiyyət çü bixəst, sultan diräxt,
Diräxt, ey pəsər, başəd əz bix səxt[1].

İndi, qardaş, səni göndərirəm İsfəhana, nəsihətim dürüst qulağında qalsın.

C ə f ə r q u l u x a n . Qibleyi-aləmin nəsihəti, əlbəttə, qulağıma doldu. Amma mən də bir neçə söz deyim. Mən əhd eləyirəm ki, İsfəhanı elə dolandıram ki, nəinki Şah Abbas, bəlkə Şah Səfidən indiyədək gəlib-getmiş padşahlar hamısı camaatın yadından çıxsın. Ancaq dillərdə tək bir ad söylənilsin: Ağa Məhəmməd şah Qacar! Mən əhd eləyirəm ki, İsfəhan camaatını bir məqama yetirim ki, Ağa Məhəmməd şah adı gələndə, zükurən, ünasən hamısı ayağa qalxıb, onun adına səcdə eləsinlər. Nəinki qorxudan, xeyr, kəsrəti məhəbbətdən! Əhd eləyirəm ki, cəmi Farsistanı bir məqama gətirəm ki, bundan sonra gələn Qacar şahlarını atalarından artıq istəsinlər. Qibleyi-aləm, mənim bu əhdimin nəticəsini, inşallah, tezliklə görərsən.

[1] Padşah ağacdır, rəiyyət onun kökü, ey oğul, ağac kökü üstündə möhkəm dayanar.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Qardaş, sözünə inanıram. Təzə mənsəbin mübarək olsun!

H a c ı İ b r a h i m x a n . Cənabi-Vala, təzə mənsəbiniz mübarək! Xudavəndi-aləm siz qardaşı, əlahəzrət şahənşahdan ayırmasın!

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Amin! Di, qardaş, bir keç tamaşa elə, gör sən gedəndən sonra nə gözəl otaqlar tikdirmişəm və özünü də, doğrusu, qoymayacağam bargahdan çıxasan. Gərək bir neçə gün burada qalasan, ta sənlə bir doyunca söhbət eləyim.

C ə f ə r q u l u x a n . Qibleyi-aləm, təvəqqe edirəm ki, izin verəsən, sabah yola düşüm.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Özün bil, qardaş, istəyirsən bu gün get. Mane deyiləm. Di get otaqlara tamaşa elə.

Cəfərqulu xan baş əyib, sağ tərəfə, otağa keçir. Qapının arasında bir nəfər gizlənmiş şəxs onun ürəyinə xəncər sancır.

C ə f ə r q u l u x a n (*arxadan*). Of... Namərd qardaş! (*Əli ürəyində dalı-dalı gəlib otağın ortasında yıxılır.)*

H a c ı İ b r a h i m x a n . Bu nə iş idi?

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r (*ağlayır*). Dayan, Hacı İbrahim xan! Mən bədbəxtin, mən birəhmin hökmünə əncam oldu. Nə yaman iş gördüm! Öz belimi sındırdım! Bilirsən, Hacı İbrahim xan, əlacım yox idi. And olsun Məhəmmədhüseyn xanın qəbrinə, o nəcib ruh ki, bu nəcib bədəni mühəyya eləmişdi, bir dəqiqə səltənət tacını mənim varisimin başında rahat qoymayacaqdı. Qoy mənim varisimgörsün ki, gözümün işığı, məni həlakətdən qurtaran, məni İran təxti-səltənətinə əyləşdirən qardaşımı onun ayağının altında Qurban kəsirəm ki, onun səltənəti salamat olsun və gələcəkdə İran parçalanmasın. Götürün bu binəvanın bədəni.

Pərdənin dalından iki nəfər gəlib Cəfərqulu xanın bədəninini götürürlər.

H a c ı İ b r a h i m x a n . Qibleyi-aləm, bu işə camaat nə deyəcək, qoşun nə növ baxacaq?

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Gərək ki, bir zinəfəs bunun ölməyinin səbəbini bilməyə. Qoy camaat bunu İsfəhana getmiş bilsin. Sonra bilsə də eyib eləməz. İndi deyə bilərəm ki, Qacar nəsli həmişəlik İranda salamat padşahlıq edəcək.

PƏRDƏ

ÜÇÜNCÜ MƏCLIS

ƏHLİ-MƏCLİS

Ağa Məhəmməd şah Qacar	
İkinciIrakli–	Gürcüstan padşahı
Yuhan –	onun nəvəsi, şahzadə
Tavad Amilaxvari –	katib, sərkərdə.
TavadOrbeliani	
Tavad Muxrani	
Tavad Keyxosrov Aveliani	}gürcü sərkərdələri
Tavad Çavçavadze	
Tavad Maçabeli	
TavadSereteli–	İmeretiya qoşununun sərkərdəsi
Sadıqxan –	İran atlı qoşunun sərkərdəsi

Sərkərdələr, elçilər, pişxidmət və qoşun adamları

ƏVVƏLİNCİ MƏCLİS

Tiflis. İkinci İraklinin bargahı. Irakli əyləşib səndəl üstündə, yanında sərkərdələr və katib.

İkinciİrakli. Həzərat! Gürcüstanın başı üstündə qara buludlar oynaşır. Nadir şahın xacəsi Ağa Məhəmməd özünə şah adı qoyub, bizlə İbrahim xan Qarabağı arasında olan ittifaqnaməni bəhanə tutub, Qarabağa hücum edib. Mən də, necə ki sizə məlumdur, öz oğlum Aleksandrı qoşunla İbrahim xanın köməyinə göndərdim. Allahın köməyi ilə qoşun birləşib, Ağa Məhəmmədin hücumunu dəf ediblər. İndi Ağa Məhəmməd çəkilib oturub Xatun arxında və bizim əlimizə keçən kağıza görə, istəyir Qarabağın ətrafında bir qədər qoşun qoyub, bizim üstümüzə gəlsin. (*Katibə*) Tavad, Ağa Məhəmmədin qardaşı Əliquluya yazdığı kağızı oxu, camaat qulaq assın.

Tavad Amilaxvari (*oxuyur*). Yazıb sənə məlum edirəm ki, hərçənd İran qoşununun hücumlarından Qarabağın camaatı və qoşunu bilmərrə zəifləşib, bain-həmə bu qış Qarabağda dava etməyəcəyəm. Süleyman xanı iyirmi min qoşunla burada qoyub, qalan qoşunumuzla

özüm gedəcəyəm Tiflisə. Ona binaən, yazıb müqərrər edirəm ki, İrəvanın ətrafında dörd min qoşun qoyub, qalan qoşunu hazırda saxlayıb mənim hökmümə müntəzir olasan, ta hökm sənə çatan tək bilatəxir qoşunu mənə yetirərsən və əgər İrəvan xanı öz övrətini və oğlunu girov versə, Irəvandan bilmərrə qoşunu götürəsən.

İ k i n c i İ r a k l i . Bu kağız bu gün gərək bir mötəbər qasiddən göndərilə qraf Qudoviçə və bizə lazımdır qoşun tədarükündə olmaq. Tiflisin camaatına xəbər edərsiniz şəhərin ətrafının möhkəmlənməyi barəsində tədbir etsinlər. Ağa Məhəmməd Tehranda ikən Gürcüstan üstünə gəlmək fikrinə düşəndə mən əhvalatı bilib, knyaz Potyomkinə yazmışdım imperatriçədən təvəqqe etsin ki, lazım olan vaxt bizə üç min qoşun köməkliyi etsin. Bu barədə mənim övrətim də imperatriçənin özünə kağız yazıb. Imperatriçə təvəqqemizi qəbul edib, buyurubdur ki, kömək məsələsi barəsində dövlət şurası rəy versin. Dövlət şurası bu növ rəy verib. *(Kağızı mizin üstündən götürüb verir katibə*.) Oxu!

T a v a d A m i l a x v a r i (o*xuyur*). Min yeddi yüz doxsan üçüncü ildə may ayının otuzunda dövləti-əliyyeyi-Rusiyanın şurası əlahəzrət imperatriçeyi-küll-Rusiyanın fərmanına itaət edib, Gürcüstan padşahı İkinci Iraklinin qoşun köməyi istəməyi barəsində məsləhət edib, bu növ qət etdi: Iraklinin Rusiya dövlətinin təht-himayəsində olmağına görə və Ağa Məhəmməd xanın gün-gündən güclənib Gürcüstan üstünə yeriməklə Rusiya dövlətinə ziddiyyət göstərməyinə görə, qraf Qudoviçə hökm olunsun ki, Ağa Məhəmməd xanın Gürcüstan üstünə gəlmək məramı yəqin olsa, İrakliyə kömək verməyi vədə etsin.

İ k i n c i I r a k l i . İndi həzərat, iş bu məqamdadır. Düşmən yaxınlaşıb. Necə ki, bizim əlimizə keçən kağızdan məlum oldu, payız düşən tək, yəni bir-iki həftədən sonra Tiflisə gələcək. Rusiya dövləti bişəkk kömək göndərəcək. Əlavə, İmeretiya padşahı Solomona mən yazmışam ki, Gürcüstanla onun arasında min yeddi yüz doxsanıncı ildə bağlanan ittifaqnaməyə görə, buraya qoşun göndərsin. Cavabında yazırdı ki, Tavad Zöhrab Sereteli güclü qoşunla rəvanə olub. Bu günlərdə, yaxud bu gün varid olar. Camaata məlum edin, onun istiqbalına çıxıb, artıq hörmət eləsinlər. (*Gedir*.)

Tavad Orbeliani (*birinci sərkərdə*). Heç ürək qısmaq lazım deyil, Allah kərİmdir. Qoy Ağa Məhəmməd Tiflisin yaxınlığına gəlsin, görərsən necə peşman edərlər... Gedim, padşahın əmrinə görə, şəhərdə binagüzarlıq edim. (*Gedir*.)

T a v a d M u x r a n i (*ikinci sərkərdə*). Tiflis camaatı bu saat qızmış şirə dönüb, beş Ağa Məhəmməd xan gələ, qabağına çıxmağa hazırdırlar.

T a v a d K e y x o s r o v A v e l i a n i (*üçüncü sərkərdə*). Doğrudur, İranın qoşunu Rəşiddir, amma çətini odur ki, bir dəfə oxları daşa toxunsun. O saat görərsən qayıdıb qaçdılar.

T a v a d Ç a v ç a v a d z e (*dördüncü sərkərdə*) Şəhərimiz möhkəmdir.

İnşallah, biz az da möhkəmləşər və camaatımız da pəhləvandır. Bundan əlavə, ümidvaram ki, padşahın oğlanları hər biri Gürcüstanın igidlərindən min nəfər gətirsin. Şəkk yoxdur ki, İranın qoşununu murümələx tək dağıdacağıq. (*Top atılır*). Bu nə top səsidir?

T a v a d M u x r a n i (*pəncərədən baxır*). Gözlərimiz aydın olsun, dəxi Gürcüstana ölüm yoxdur! Bir gəlin pəncərədən baxın, görün nə görərsiniz. (*Sərkərdələr gəlib baxırlar*.) İmeretiya qoşunu dünyanı tutub. Qabaqda Zöhrab Sereteli şiri-jəyan tək gəlir. Toplar şadlıq topudur!

T a v a d K e y x o s r o v A v e l i a n i. Bəh, bəh, bəh!.. Afərin belə qoşuna! Afərin bu gözəl oğlanlara. Hər biri on adama müqabil durarlar. Camaat necə qabağa gedir, hər kəsin əlində bir məta var. Kimisi çörək aparır, kimisi şərab aparır, kimisi mal-qoyun aparır. (*Top atılır.)* Nərildəyin, Gürcüstanın topları! Titrədin, zəmin və asimanı! Nə olardı, Ağa Məhəmməd xan bu cəlalı görəydi! Yəqin qorxudan qaçağı Tehranda bənd alardı.

T a v a d Ç a v ç a v a d z e. İnşallah, elə də olacaq. Məgər bir belə qoşunun müqabilində Ağa Məhəmməd xan dayana bilər?! Allahın köməkliyi ilə Gürcüstanın hünərli qoşunu ona sübut edər ki, padşahlıq iddiasına düşməkdə özündən xeyli müştəbihdir. Onun yeri həmişə qapı ağzında olub, yenə orada olar.

T a v a d M u x r a n i. Görəsən, qoşun nə qədər olar?

T a v a d Ç a v ç a v a d z e. Mənim gözümə görünən, gərək on mindən az olmaya.

T a v a d M u x r a n i. Mən də belə güman edirəm.

Şeypur səsi gəlir.

T a v a d S e r e t e l i (*daxil olur*). Gürcüstanın qəyur sərkərdələrinə salam olsun!

S ə r k ə r d ə l ə r. Xoş gəlibsiniz, Tavad! Allah sizin qədəminizi xeyir eləsin!

T a v a d S e r e t e l i . İnşallah, xeyir olar. Gürcüstana səkkiz min oğlan gətirmişəm. Hər biri yüz qan əvəzi və hamısı vətən yolunda canından keçmiş.

İ k i n c i İ r a k l i (daxil olur). Əziz qardaşım İmeretiya padşahı Solomonun qəyur qoşununu və onun qəyur sərkərdəsi Tavad Seretelini təbrik edirəm!

T a v a d S e r e t e l i . İmeretiya padşahının duasını hüzuri-padşahayetirməkdə özümü xoşbəxt hesab edirəm! (*Dizi üstə çöküb kağız verir).*

İ k i n c i İ r a k l i (*oxuyur*). Əziz qardaşım Gürcüstan padşahı İkinci İrakliyə salam yetirirəm! Bəd, vətənə üzü verən hadisəni eşidib, Gürcüstana tərəf yaxınlaşmaqda olan ittifaqnaməyə əmələ edib, İmeretiya qoçaq atlılarından bir qədər Tavad Zöhrab Seretelinin təhtirəyasətinə verib göndərdim ixtiyarınıza. Ümidvaram ki, Gürcüstanın, İmeretiyanın və bizim sair qonşumuz xanların qoşunu birləşib bu gələn bəlanı tezliklə dəf edə. Sizin qardaşınız Solomon. (*Katibə*) Tavad, bir yaxşı Rizaməndlik kağızı mənim əziz qardaşım İmeretiya padşahı Solomona yazarsan. (*Gəlib baş əyib gedir*.) Sən də, Tavad, get rahat ol, qoşun da bir neçə gün rahat olsun.

T a v a d S e r e t e l i . Mən o vaxt rahat olaram ki, cəmi Gürcüstan rahatlaşa.

P i ş x i d m ə t (*daxil olur*). Gəncədən, ağa Məhəmməd şah tərəfindən elçi gəlib, izin istəyir.

İ k i n c i İ r a k l i . Bu nə deyir? Bu xəbər yaxşı olmadı! Belə olan surətdə bir həftəyədək Tiflisdə ola bilər. (*Pişxidmətə*) Elçiyə deginən gəlsin. (*Pişxidmət çıxır*.) Ağa Məhəmməd şah!.. Bihəyalığa bax!..

Sadıq xan elçi sifətində daxil olub, baş əyir, kağızı verir.

S a d ı q x a n . Əlahəzrət şahənşah tərəfindən bu məktubu vali xidmətinə gətirmişəm.

İ k i n c i İ r a k l i (*kağızı verir sərkərdəyə*). Oxu!

T a v a d A m i l a x v a r i (o*xuyur*). Şahənşahi-İran Ağa Məhəmməd şah Qacar tərəfindən Gürcüstan valisi İkinci İrakliyə . Necə ki sənə məlumdur, Gürcüstan valiləri İndiyədək İran şahlarının təhtihimayəsində olub, şahlar tərəfindən həmişə lütfü mərhəmət və izzət görüblər. İran şahlarının sayəsində Gürcüstan həmişə salamat və camaatı kamal-asayişlə dolanıblar. Səbəb nədir ki, sən İrakli bizim sayəyimərhəmətimizdən qaçırsan? Hətta İrəvan, Gəncə və Qarabağ xanları

ilə bizim əleyhimizə ittifaqnamələr bağlayırsan? Məlum olsun ki, İrəvan və Gəncə xanları cəmi qoşunları ilə mənə beyət elədilər. Qarabağı bir halətə salmışam ki, camaatı yeməyə çörək tapmır. Bunu yazmaqda qəsdim sənə bunu bildirməkdir ki, sən heç bir yerdən köməyə ümidvar olmayıb, necə ki ata və babaların İran şahlarına itaət ediblər, elə də sən İrakli, mən Ağa Məhəmməd şah Qacara beyət elə ki, ta sən və sənin camaatın həmişə fəlahətdə olub, mənim iltifatıma nail olasınız. Əgər bu təklifi qəbul etməyəsən biləsən ki, Gürcüstanın başına hər nə müsibət gəlsə, hamısına bais olan sən İrakli olacaqsan. Çünki mən səksən min qoşunla Gürcüstana qonaq gəlirəm.

İ k i n c i İ r a k l i (*kağızı alır, sonra elçiyə*). Get, öz şahına deginən, çox da öz zoruna məğrur olmasın! Nəinki səksən min, bəlkə yüz səksən minlə gələ, yenə ona beyət eləməyəcəyəm. Mən dalımı Rusiya tək möhkəm dağa söykəyib onunla söhbət eləyəcəyəm. Buyura bilər...

S a d ı q x a n . Müraxxəs olum...Vali sağ olsun! Qorxuram dalınızı söykədiyiniz şimal dağı buzdan olub məşriqdən çıxan günün hərarətinə davam etməyə.

İ k i n c i I r a k l i (*ayağa qalxıb*). Get, hər nə dedim öz şahına yetir. Xoş gəldin. (*Elçi çıxır*.) Siz Allah, bir rövşən dünyaya tamaşa edin. Dünənki xacə, Kərim xanın pişxidməti padşahlıq arzusuna düşüb Keyxosrov, Keykavus məsnədində əyləşib, Gürcüstan padşahının adını vali qoyub, ona hökm yazır, hökm!.. (*Ağa Məhəmməd şahın kağızını cırır.*) Tarmar olasan sən, ey çərxigərdun! Qara yas libasına dönsün sənin buludların! Gurultun cəlalları pozulmuş, şövkətlərindən düşmüş bədbəxt hökmranların ciyər sədalarına bənzəsin! Bərqin Tehranla Qarabağın arasında xacə istibdadından düzlərə dağılan yetimlərin ahının şöləsi olub, səni yandırıb puç etsin! Puç, puç!.. Ey insafsız, mürüvvətsiz fələk!.. Baranın minlərlə günahsız qırılmış balalar və qardaşlar üstündə tökülən anaların, bacıların göz yaşlarına dönsün! Ulduzlarının hər biri bir sağalmaz yara olub, sənin namərd bədənini əridib yox eləsin! İnsafa gəl, ey biinsaf fələk! Gözlərini bir aç, ey kor fələk! Gör dünyada nə qəhti-ədalət törədibsən! Rəva deyil ki, gədalar padşah mərtəbəsinə çatıb, padşahlara fərman yazalar! Bax, belə fərman, belə fərman! (*Ağa Məhəmməd şahın kağızının parçalarını tapdalayır.)*

T a v a d S e r e t e l i (*irəli yeriyir*). Padşah sağ olsun, darıxdırmayın ürəyinizi, sizin bu səngərdə hirslənməyin sizə ziyanı var. Allah kərimdir, ümidini Allaha bağla.

İ k i n c i I r a k l i . Əlbəttə, Gürcüstanın Allahı böyükdür. Heç vədə qəbul etməz ki, Gürcüstanın övrətləri, uşaqları dübarə İran qoşununun qabağında pay-piyada qoyun sürüsü tək İsfəhana gedə. Mənim əvvəl ümidim Allahadır, sonra qoşuna. Öz oğlanlarımı və bir qoca canımı vətənə Qurban demişəm. Qeyrət yeridir, həzərat! Namus yeridir! Namus! Namus! (Bihalət yıxılır səndəlin üstünə.)

PƏRDƏ

İKİNCİ MƏCLİS

Tiflisin ətrafı. Pərdə qalxanda bərk top-tüfəng səsi gəlir. İkinci İrakli uca yerdə durub, yanında Tavad Amilaxvari, Tavad Maçabeli və üç ayrı sərkərdə.

İ k i n c i I r a k l i . Qoşun şir tək dava eləyir. Tiflisin yolunu oğlum David kəsib və onun toplarının nərəsinin müqabilində Ağa Məhəmməd iki gətirdiyi qoşunca qoşun gətirsə, davam edə bilməz. Qoşunun yasarında Tavad Muxrani deyəsən acizlik göstərir. Bu saat bir adam getsin, ona yetirsin ki, möhkəm dursun. Sərkərdələrdən biri gedir.

T a v a d A m i l a x v a r i . Padşah sağ olsun, biz qoşunu üç dəstə etmişik. İranın qoşunu on dörd dəstə olub.

İ k i n c i I r a k l i . Gürcüstan qoşunu hamısı canından keçib. Canından keçmiş qoşunun müqabilində İran qoşunu hər neçə dəstə olsa, davam edə bilməyəcək. Ələlxüsus Sereteli səkkiz min qoşunu ilə dalda durub, hər anda özünü köməyə yetirməyə hazırdır.

T a v a d A m i l a x v a r i . Padşah sağ olsun! Bir söz demək istəyirəm. Amma dilim gəlmir.

İ k i n c i I r a k l i . Nə olub? De görüm!

T a v a d A m i l a x v a r i . Solomon padşah bizə xəyanət edib.

İ k i n c i I r a k l i . Necə, xəyanət?

T a v a d A m i l a x v a r i . Göndərdiyi qoşun cümlətanı iki min adammış. Tavad Sereteli qoşunu topa-topa edib düzlərə dağıdıb imiş ki, çox görünsün. Bu gecə özü də, qoşunu da çıxıb qaçıblar və yollarda da hər nə kənd-kəsək görüblər, hamısını soyub, xaraba qoyub ötüblər.

İ k i n c i I r a k l i . Ay namərd insan! Allah bu davadan məni salamat qurtarsın, əvəzində yaxşı qulluq edərəm. (*Sərkərdəyə*) Tavad Maça-

beli, dayanma, min atını, çap qoşunun başından ayağına, hamıya ürək ver! Deginən ki, Gürcüstanın ümidi bir Allahadır, bir də öz gücünə. Qoşun ürəklə dava eləsin. (*Maçabeli gedir*.) Ey bivəfa Solomon!

T a v a d A m i l a x v a r i. Padşah sağ olsun, bir qoşunun qabağına bax, gör sənin nəvən Yuhan nə rəşadət göstərir. Bu rəşadətin axırı, inşallah, fəthdir.

İ k i n c i I r a k l i (*ucadan*). Qoçaq balam, möhkəm dur! Qorxma, Allahın əli bizim üstümüzdədir! Afərin, Yuhan! Tavad Amilaxvari! İranın üç bayrağı ələ keçdi, budur gətirirlər. Ay sənə Qurban olum, Yuhan! Amma qoşun, deyəsən, zor eləyir. Şahzadə Daviə bir atlı göndər, desin topların bir neçəsini dağın başına çəkib, İranlıları təngləşdirsin.

T a v a d A m i l a x v a r i. Padşah, dağın başına dürüst nəzər yetir. Şahzadə Davidin beş topu orada guruldayır.

T a v a d M a ç a b e l i (*üç bayraq gətirir*). Şahzadə Yuhan tərəfindən padşahın xaki-payinə bu üç İran bayraqlarını yıxıram. İnşallah, İran qoşununun hamısı bu bayraqlar tək sənin xaki-payinə yıxılacaq.

O r b e l i a n i (*bir nəfər qoşun əhli özünü yetirir*). Padşah sağ olsun, evimiz yıxıldı. Ağa Məhəmməd xan tərəfindən hökm oldu, on iki min Mazandaran atlısı hücum elədi. Bir bax, gör qoşun necə pərakəndə olub dağılır.

İ k i n c i I r a k l i (*ucadan*). Ey mənim öz ziri-dəstimdən olan qoşun, nə durubsunuz? Vətən namusu əldən getdi! Vurun özünüzü qabağa! (*Qılıncı çəkib enir*.)

T a v a d A m i l a x v a r i (*İraklini saxlayıb*). Padşah sağ olsun, dayan! Doğrudur, qoşunumuz basıldı, padşahzadələr əhatə olunub, amma cəmi rəiyyət sənin rəşadətinə bələddir və hamı bilir ki, sən vətən, millət yolunda ölməyi xoşbəxtlik hesab edirsən. Bir belə bədbəxtliyin müqabilində ki, vətənə üz verib, sən də öz ölməyinlə vətənin qəmini artırma! Sənin vücudun vətənə, millətə lazımdır.

İ k i n c i I r a k l i. Millət əldən gedəndən sonra, mənim vücudumun qalmağının faydası yoxdur. (*Özünü vurur qoşuna, sərkərdə dalınca.)* Yuhan (*gəlib təllin üstünə çıxır*). Bəs babam necə oldu? Yoxsa onu da öldürdülər? Bu nədir görürəm? Deyəsən babamı İranlılar əhatə edib, tutmaq istəyirlər! Qoymaram tutalar! Gərək mənim üstümdə qalan üç yüz qoşun da yox ola ki, babam əsir ola! (*Nərə vurur*.) Ey mənim qardaşlarım! Padşah əsir olur, qoymayın! (*Qılınc çəkir, təllin üstündən enib gedir, top-tüfəng səsi ucalır. Bir azdan sonra Yuhan Iraklini gətirir). Baba, yaralanmayıbsan ki?*

İ k i n c i I r a k l i . Yox, bala, yaralanmamışam. Niyə qoymadın məni öldürələr, vətəni bu halətdə görməyim?! Yuhan. Yox, baba, nə qədər vətənin nəfəsi var, sən ona lazımsan!

İ k i n c i I r a k l i . Təbil vurun, qoşun çəkilsin! Davidə xəbər verin nahaq yerə güllələrini sərf etməsin. Topları götürsün, çəkilsin dağlara. Tiflis əhalisinin hamısına xəbər edin ki, durmayıb hər nə maehtacları var, götürüb şəhərdən çıxsınlar. Ax, namərd dünya! Namərd Solomon!

Gedirlər.

İranın qoşunu səhnədən ötür. Ağa Məhəmməd şah Qacar yanında bir neçə sərkərdə gəlib, çıxır təllin üstünə.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Afərin Gürcüstan qoşununa! And olsun Məhəmmədhüseynxanın qəbrinə, bir belə dava etmişəm, bu rəşadətlə dava edən düşmən görməmişəm! Afərin! Ey İranın qəyur qoşunu, daha sizin vəzifəniz qurtarır. Vurun özünüzü Gürcüstanın paytaxtı gözəl Tiflisə. Zirü-zəbər edib, gərək daşı daş üstündə qoymayasınız. Gərək bu gün Gürcüstana məhşər gününün nümunəsini göstərəm. Üç gün qoşuna qarət izni verirəm. Amma, məbadə kəlisalara əl vurasınız... Kəlisa Allahın evidir, ehtiramı – müsəlmana vacibdir. Övrət, uşaq hər nə ələ keçsə əsir edərsiniz. Qocaları qılıncdan keçirərsiniz! (*Sərkərdəyə*) Sadıq xan, binagüzarlıq bu gün sənindir. Gərək sən girəsən şəhərin içinə.

S a d ı q x a n . Baş üstə, qibleyi-aləm!

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Ələ keçən əsirlərin hamısını itaətə gələn xanlara bağışlayacağam ki, satıb pullarını xəzinələrinə qoyub, mənim iltifatımı görsünlər. Qoşunun dal tərəfi salamatdır. Cəmi qoşunu, hər nə var, doldurun Tiflisə, dörd tərəfdən od vursunlar. Dayanma, Sadıq xan, get. (Sadıq xan gedir.) Qoy Irakli və cəmi Gürcüstan İranın qüdrətini görsünlər. Gərək İraklini bir halətə salam ki, gəlib mənim ayağıma sürünə. Gərək Gürcüstana bir divan tutam ki, onun ancaq bir adı dünyada qalsın. (*Məclisi alov işığı tutur*.) Gərək nağıllarda danışılsın ki, bəli, Gürcüstan adında keçmişdə bir vilayət var imiş. (*Şeypur səsi gəlir*.) Nə şeypurdur?

S ə r k ə r d ə . Qibleyi-aləm! Vali tərəfindən elçi gəlir.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Qoşuna xəbər elə, elçiyə yol versin. (*Sərkərdə gedir*.) Yəqin, Irakli öz mənfəətini anlayıb, təbəiyyət etmək istəyir. Çox aqilanə iş görür. Həm öz canını qurtarır, həm camaatın canını.

T a v a d K e y x o s r o v A v e l i a n i (*elçi sifətində daxil olub, kağızı verir).* Gürcüstan padşahı İkinci İrakli tərəfindən xidmətinizə məktubdur.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r (*oxuyur*). Əgər sən özünü şah və cəmi İranın hökmranı hesab edirsən, nə üçün mənim paytaxtımı dağıdırsan və rəiyyətimi əsir edirsən? Əgər sən padşahsan, padşahanə rəftar et. Sənə lazımdır ki, fəthdən sonra camaata əminlik verəsən ki, ürəyi sənə yapışa. Sən, gəl mənim bu təklifimi qəbul et! Davanı dayandır. Əsirləri azad et. Sonra mən hazıram sənինlə ittifaqnamə bağlamağa. Mən söz verirəm ki, bizim aramızda ittifaqnamə bağlansa, ona elə əməl edim, nə növ ki, mənim insafım, ürəyim və ədalətim mənə buyurur. Əgər mənim bu təklifimi qəbul etməyəsən, bil ki, mən ondan sonra Gürcüstanın hifzindən ötrü axıracan çalışacağam. Cəmi gürcü tayfasının ürəyi qisas arzusu ilə doludur. Və əlavə, Gürcüstanla həmməzhəb olan Rusiya heç vədə sənin Gürcüstana elədiyin zülmü qəbul etməz. (*Elçiyə*.) Gedib valiyi-Gürcüstana bizim də şərtlərimizi yetirərsən. Əgər qəbul etsə, biz söz veririk əsirləri azad edək. Tiflisdə dağılan evlərin təmiri üçün pul verək və vali ilə ittifaqnamə bağlamağı qəbul edək. Əvvəla, Qarabağdan Gürcüstana davaya gələnlərin verilməsi; ikincisi, öz oğlanlarının birini girov versin və üçüncü, Gürcüstan valilərinin əlinə Azad xandan keçən almazı göndərsin.

G ü r c ü s t a n e l ç i s i . Mən padşah tərəfindən sizə cavab verməyə vəkiləm. Padşah, namusuna və səltənətinə toxunan heç bir təklifi qəbul etməyəcək.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Onda ixtiyar sahibidir. Gedə bilərsən. Xoş gəldin. (Elçi gedir) Elçini salamat ötürün, getsin. (İşıq artıb məclisi tutur.) Bəh, bəh, bəh!.. Nə gözəl çıraqbandır! Yan ey Gürcüstanın gözünün nuru, şairlər təbinin mayəsi, gözəl Tiflis! Yanginən, ta hurilərin gül çöhrəsinə bənzər şölən asimana büləndolsun. Yanginən, ta afitabi-aləməfruz və cahangərd dastanını dünyanın hər qitəsinə yetirsin! Yanginən, ta buludlar səyyahları humaylar tamaşaya gəlsinlər! Sən də tamaşa et, ey uzaqdan almaz tək parıldayan Qaf dağı! Bu yanan sənin ürəyİndir! Tamaşa elə, ey qoca Şeyx Sənan! Gələcək zəmanələrdə ziyarətinə gələnlərə Tiflis macərasını nağıl elə! Qoy cəmi dünyada, yerlərdə, göylərdə zərb-dəsti Ağa Məhəmməd şah Qacar dillərdə söylənsin!

PƏRDƏ

DÖRDÜNCÜ MƏCLİS

ƏHLİ-MƏCLİS

Ağa Məhəmməd şah Qacar
Hacı İbrahimxan – vəzir
Şahrux Rzaqulu Mirzə – Nadir şahın oğlu
Sərdar Mustafaxan – irəvanlı.
Cavad xan – gəncəli
Sadıqxan
Hüseynxan } sərkərdələr
Üç nəfər əlahiddə sərkərdə, qoşun əhli və fərraşlar

ƏVVƏLİNCİ MƏCLİS

Muğan səhrasında Ağa Məhəmməd şah Qacarın çadırları. Cavad xan, Mustafa xan, Sadıq xan, Hüseyn xan.

Cavad xan. Şahın fikri görəsən haradır? Qarabağdır, ya Xorasan?

Mustafa xan. Qarabağla hələ şahın işi olmayacaq. Şuşa şəhərinin hasarı çox möhkəmdir. Şəhər özü bir uca dağın üstündə düşüb. Ancaq bir tərəfdən üstünə yerimək mümkündür. Bu növ qələni almaq üçün atlı qoşun yaramaz. Piyada qoşun və güclü top lazımdır. Amma şahın qoşununun, demək olar ki, hamısı atlıdır. Bu qoşunla Şuşa qələsini almaq mümkün deyil. Necə ki, mümkün olmadı. Şahın Qarabağ barəsində olan tədbiri çox gözəl tədbirdir. Ətrafda qoyulan qoşun Qarabağın kəndlərini dağıdar və çünki şəhərin zindəganlığı bağlıdır kəndlərə, şəhər əhli acından təngə gəlib, labüddən təslim olacaq.

Cavad xan. Yaxşı ki, biz təbəiyyət elədik. Yoxsa, yəqin İndi Gəncə, İrəvan xanlıqları da Gürcüstan tək tar-mar olmuşdu. Mənim təbəiyyətimin səməri bu oldu ki, həm xanlığım əlimdə qaldı, həm rəiyyətim dağılmadı və həm Gürcüstandan gələn otuz min əsirin çoxusunu şah mənə bağışladı. Hələ də satıb qurtara bilməmişəm.

Mustafa xan. Mənim özümə şahın iltifatı az olmayıb. Əsirdən mənə də az bağışlamayıb. Əlavə Borçalı və Qazax mahallarını Gürcüs-

tandan kəsib mənə bağışlayıb. Məni başdan çıxartmışdılar. Mən İraklinin zoruna və onun köməkliyinə xatircəm idim. Nə bilirdim ki, şahın tədbiri hamısına faiq gələcək. Onun qoşunundan artıq tədbiri iş gördü.

S a d ı q x a n . Şahın iltifatından mən də şaki ola bilmərəm. Mənə da az əsir bağışlamayıb. Əlavə necə ki, görürsünüz, cəmi atlı qoşuna sərkərdə mən Sadıq xanam!

H ü s e y n xan. Metsxetdən gətirdiyim dövlət mənə kifayətdir. Amma Metsxet keyfiyyəti hər yadıma düşəndə gülməyim tutur. Elə ki şah məni və Sadıq xanı göndərdi Metsxetə, şəhərə yetişib necə lazım idi kar gördük. Axırda yetişdik bir deyrə, rahiblər qaçmışdılar, deyr boş idi. Hücrələrin birinə daxil olub gördüm ki, divara bir nərdivan dayanıb. Dedim bu nərdivan nahaq yerə buraya qoyulmayıb. Nərdivana bir adam çıxartdım. Adam divarın üstündən güclü pul və cavahirat endirdi. Binəva rahiblər qaçan vaxt pulu gizlədib və qorxduqlarından nərdivanı da divara söykəli qoyub qaçıblar.

S a d ı q x a n . Metsxet ki, dağıldı və biz də ki, qoşunu rahat elədik, mən bir nəfər atlı götürüb şəhərin ətrafına səyahətə çıxdım. Mən orada bir faciə gördüm. İndi də yadıma düşəndə ürəyim qana dönür.

H ü s e y n xan. Nə faciə? Nağıl elə görək.

S a d ı q x a n . Şəhərin ətrafında gəzərkən yolum bir kəlisaya düşdü. Kəlisanın dörd ətrafı xaraba idi. Girdim həyətə. Həyət həmçinin boş, amma bir küncdə balaca daxmada gördüm bir qoca kişi yapıncı altında yatıb və yanında da qoca bir erməni əyləşib. Bunların bu xaraba yerdə olmaqları mənə çox təəccüb gəldi. Ermənidən sual elədim ki, burada nə qayırırsınız və bu yapıncı altında yatan kİmdir? Erməni bir dərin ah çəkib cavab verdi ki, bu şəxs bir böyük vücud idi. Qırx il bunun adı cəmi məşriqzəmində ehtiramla çəkilib. Ömrünün axırında buna bədbəxtlik üz verdi. Mülkünü, malını, rəiyyətini tarac elədilər. Oğlanları fəryadına yetişmədilər. Bu yapıncının altında yatan Gürcüstan padşahı İkinci İraklidir. Doğrusu, özümü saxlaya bilməyib, biixtiyar ağladım. Atın başını çöndərib yola düşdüm.

M u s t a f a x a n . Bəs niyə əsir eləmədin?

S a d ı q x a n . Məgər insafdır, bir evi yıxılmış, məmləkəti dağılmış, çırağı sönmüş qoca kişini əsir edəsən? Ondan sonra məgər Allahın qəzəbindən qurtarmaq olar?.. Deyəsən şah gəlir. (*Gedir.*)

M u s t a f a x a n . Lazımdır Sadıq xanın bu cür hərəkətini şahın qulluğuna ərz etmək.

H ü s e y n xan. Bu bir fikir deyil, şahın Sadıq xana o qədər məhəbbəti var ki, bizim sözümüzü şeytanlıq hesab edib, inanmayacaq və inansa da ona bir şey etməyəcək. O bizi yoldaş bilib bu sirri bizə açdı, nə rəvadır yoldaşlıqda onu şahın qəzəbinə salaq, yaxşı sifət deyil.

Gedirlər.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r (*Hacı İbrahim xanla daxil olur*). Hacı İbrahim xan! Belə deyirlər ki, Şirvan əhli mən göndərdiyim hakimi öldürüblər. Əlbəttə, o camaata gərək böyük tənbeh olsun, bir də bu cürəti eləməsinlər.

H a c ı I b r a h i m x a n . Hakim camaata çox zülm eləyirdi. Camaat da dada gəlib bu əməli tutub.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Mən ki o hakimi zülmünə görə əzl eləmişdim.

H a c ı İ b r a h i m x a n . Bəli, Qurban . Sizin bu mərhəmətiniz camaatı cürətə gətirib. Odur ki, hakimi öldürüblər. İndi Şirvan camaatı ağsaqqalları hüzuri-aliyə göndərib, üzr istəyirlər. Təvəqqe edirlər ki, onların əvvəlki xanlarını özlərinə verəsiniz. Xan özü də həmçinin izhari-təbəiyyətlə dərbari-aliyə gəlib.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Şirvan əhlinə xəbər göndər ki, mən onların təqsirlərindən keçdim və xanlarını da bağışlayıb öz yerində baqi qoyuram. Xanlar hamısı buradadırlarmı?

H a c ı İ b r a h i m x a n . Bəli, Qurban .

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Mən təəccüb edirəm İbrahim xana. Bilmirəm o nəyə xatircəm olub, bizim qoşunumuzun müqabilində durub. Keçmişdə Gürcüstana, Irəvana ümid bağlayırdı. İndi fikri nədir? Nə olardı, o da sair xanlar tək beyət edib, itaətə gələydi və mən də onu öz yerində qoyardım. Məgər bilmir ki, mən Şuşanı alacağam? Məgər mənim divanımın sədası onun qulaqlarına çatmayıb?

H a c ı İ b r a h i m x a n . Qibleyi-aləm, onun yanında bir nəfər çox aqil şəxs var. Molla Pənah adlı, Vaqif təxəllüs. İbrahim xanın hər bir məsləhəti onunla olur. Xanın Şuşa qələsində möhkəm durmağına bais Molla Pənahdır. Həmin şəxsdir ki, qibleyi-aləmin göndərdiyi fərdə cavab yazmışdı:

Gər nigahdari-mən anəst ki, mən midanəm,
Şişəra dər bağəli-səng nigah midarəd.[1]

[1] Əgər məni saxlayan mənim tanıdığımdırsa, o, şüşəni dağın bağrında saxlaya bilər.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Yadıma düşdü, görünür, həqiqət kamallı şəxsdir.

H a c ı İ b r a h i m x a n . Bəli, Q u r b a n . Onun təbinə və kamalına söz ola bilməz.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Buyur sərkərdələrin və xanların hamısını buraya çağırsınlar. (*Hacı İbrahim xan gedir.*) Qaldı bir Xorasan səfəri, inşallah, bu da qurtarar. Qayıdarıq Qarabağ üstünə. Amma mən yenə ümidvaram ki, İbrahim xan özü peşman olub, beyətə gələ. (*Sərkərdələr daxil olurlar.*) Həzərat, budur, neçə müddətdir, biz çalışırıq və çalışmağımızın da nəticəsi aşkardır. Bunun hamısı əvvəl Allahın tövfiqindəndir və sonra sizin rəşadətinizdən. İndi bizim bir ağır səfərimiz qalıb, o səfər Xorasan səfəridir. Gərək buradan Xorasana yola düşək. Mən belə güman edirəm ki, Xorasanı davasız alaq. Çünki nə Nadir Mirzə və nə atası kor Şahrüx bizim müqabilimizə çıxa bilməyəcəklər.

S a d ı q x a n . Qibleyi-aləm, biz hamımız İndiyədək sədaqətlə qulluq etmişik. Yenə hazırıq qulluq etməyə. Xorasanın alınmağına da şəkk ola bilməz və dava olsa da eyib etməz. Çünki əlahəzrətin dövlətinin sayəsindən nə qoşun yorulub, nə sərkərdələr. Amma bəndeyi-həqir, sərkərdələr və qoşun tərəfindən hüzuri-şahənşahiyə bir ərz edəcəyəm.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . De görüm, Sadıq xan.

Hacı İbrahim xan daxil olur.

S a d ı q x a n . Qibleyi-aləm, bu yerin ki, biz düşmüşük, adına Muğan deyərlər, o yerdir ki, burada qədim İran şahları başlarına tac qoyublar. Bu yerdə Nadir şah başına İranın tacını qoyub və Şah Səfinin qılıncını bağlayıb. Biz kəmtərin sərkərdələr və qoşun əhli təvəqqeyiacizanə edirik ki, əlahəzrəti-şahənşah bizə tacgüzarlıq bayramını bu Muğanda nəsib eləsin.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Həzərat! Bu təklif mənə neçə dəfə olub, mən qəbul etməmişəm. Onun səbəbini də İndi sizə bəyan edərəm. (Vəzirə) Hacı İbrahim, tacı və qılıncı gətir. (Hacı İbrahim xan gedir.) İndi ki siz belə təkid edirsiniz, mən də qəbul edirəm.

S ə r k ə r d ə l ə r . Qibleyi-aləm, hamımız təvəqqe edirik. Hacı İbrahim xan tacı və qılıncı xonçada gətirib, dizi üstündə çökür şahın

qabağında.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Mənim əziz və sevgili sərkərdələrim! Bir şəxs ki, camaat və qoşun bərgüzidə edib təbəiyyət gös-

tərə, o şəxs padşah olar. İstər başına tac qoydu, ya qoymadı. Tacgüzarlıq padşahlar arasında ancaq bir rəsmdir. Amma mən bu rəsmə ayrı bir nəzərlə baxıram. Bu qılınc ki, görürsünüz, şah Səfinin qılıncıdır. Bunu cəmi Səfəvi padşahları birbəbir bellərinə bağlayıblar və mən o vədə bu qılıncı bağlaya bilərəm ki, Şah Abbas Səfəvi tək padşahın bərabəri olam və padşah İsmayıl tək islama rəvac vermiş olam. Amma İndi sizin xahişinizə görə bu qılıncı bağlayıb dərgahi-rəbbilaləmdən iltimas edirəm ki, mərhəmət nəzərini İranın üstündən kəsməsin və mən fəqir bəndəsini də şah Abbas məqamına yetirsin. (*Qılıncı öpüb bağlayır.*) Qılıncı bağladım, amma bu tacı əsla başıma qoymayacağam. Bu tac Nadirin tacıdır. Bunun dörd qızıl lələyi iqlimin təsxirini sübut edir. Farsistanın, HİndistanınTürküstanın və Əfqanıstanın. Mən İndiyədək məmləkət almamışam, ona görə ancaq bu bir dənə cıqqanı bu tacdan götürüb başıma vururam. (*Cıqqanı başına sancır.*) İlahi, vətəni bəliyyatdan hifz elə! Salamat olsun vətən, salamat olsun İran! Hacı İbrahim xan və sərkərdələr (*bərabər*). Qibleyi-aləm, tacınız mübarək olsun!

S a d ı q x a n (*uca yerdən*). Ey İranın Rəşid qoşunları! Bilin, bu gün İran üçün böyük bayramdır! Bu gün, Ağa Məhəmməd şah Qacar İran padşahlarının tacını başına qoymaqla İranı şərəfraz elədi. Təbillər vurulsun. Topların, tüfənglərin nərəsi asimana bülənd olsun! Payəndə bad Ağa Məhəmməd şah Qacar!

Tüfəng atılır, qoşundan səs gəlir: payəndə bad Ağa Məhəmməd şah Qacar!

PƏRDƏ

İKİNCİ MƏCLİS

Xorasan. Ağa Məhəmməd şahın mənzili. Hacı İbrahim xan və Sadıq xan.

H a c ı İ b r a h i m x a n . Mən, doğrusu, çox ehtiyat eləyirəm. Bu tövr ki bəxt şahə yardır, qorxuram axırı bədbəxtlik ola. Mən belə güman eləyirdim ki, Xorasanda böyük dava olacaq və camaat Nadir Mirzəni saxlayacaq. Xorasanın davasız ələ keçməyini heç kəs güman etməz idi.

S a d ı q x a n . Axıra qalan Qarabağdır. Məgər Qarabağ Gürcüstandan möhkəm duracaq? Mən yəqin etmişəm ki, Qarabağın əhli

acından dava etməyi bacarmayıb, təslim olacaqdır. Ondan sonra cəmi İran olacaq bir can və canın başı Ağa Məhəmməd şah olacaq. Dəxi bədbəxtlik haradan ola bilər?

H a c ı İ b r a h i m x a n . Allahın işini bilmək olmaz. Ancaq mən hər namaz qılanda və hər gecə yatanda dua eləyirəm, deyirəm: pərvərdigara, sən şahı bəladan saxla.

S a d ı q x a n . Sən ümidini şahın tədbirlərinə bağla. O tədbirin sahibi özünü bəlaya düçar etməz.

H a c ı İ b r a h i m x a n . Xan, mənim qorxum Rusiya tərəfindəndir. Nə qədər olsa, Rusiya və Gürcüstan camaatı həmməzhəbdir. Mən inana bilmirəm ki, Rusiya Gürcüstan qisasını almaq fikrinə düşməyə.

S a d ı q x a n . Bu nahaq təşvişdir, Hacı İbrahim xan. Rusiya dövləti əgər Gürcüstana kömək vermək istəsəydi, vaxtında verərdi. İndi bədəz xərabeyi Bəsrə verilən köməkdən nə fayda?!

Ağa Məhəmməd şah Qacar (*daxil olur*). Sadıq xan, get Şahrüxü buraya gətir! (*Sadıq xan çıxır*.) Doğrusu, Hacı İbrahim xan, Allah qisası qiyamətə qoymaz. Nadirin günahının cavabını övladı verir.

S a d ı q x a n (*Şahrüxü gətirir*). Qibleyi-aləm! Budur Nadirin oğlu Şahrüx Rzaqulu Mirzə.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Yaxına gəl, qoca.

Ş a h r ü x . Kİmdir məni yaxına çağıran?

S a d ı q x a n . Səninlə danışan İranın şahı Ağa Məhəmməd şahdır.

Ş a h r ü x . İranda mən bir şah tanıyırdım, mənim atam Nadir şahı. Ağa Məhəmməd şah Qacar. Hədyan danışma, qoca, yaxına gəl! Sadıq xan, onu yaxına gətir! (*Şahrüxü yaxına gətirirlər*.) De görüm, oğlun Nadir Mirzə haradadır?

Ş a h r ü x . Nadir Mirzə Əfqan tərəfə keçib. Neyləyirsən Nadir Mirzəni? Mən onun əvəzinə gəlmişəm.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Qoca, sən dünyada çox müsibət çəkibsən. Mən istəmirəm sənin axır günlərin də əziyyətlə keçsin. Mən bilirəm Nadir hər nə cavahirat qoyub, hamısı səndədir. Bundan sonra onların heç biri sənə lazım deyil. Gərək verəsən mənim xəzinəmə.

Ş a h r ü x . Mənə Nadirdən heç şey qalmayıb.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Qoca, nahaq yerə özünü əzaba düçar eləmə, sənə əziyyət edərlər. Amma xoşla cavahiratın yerini desən, həmişə mənim iltifatım sənin üstündə olar.

Ş a h r ü x . Sənin iltifatın mənə lazım deyil. Buyur, hər nə əziyyət edəcəklər, etsinlər. Mən anadan dünyaya bədbəxt gəlmişəm, bədbəxt də gedəcəyəm. Mən iyirmi yaşından İndiyədək öz korluğuma ağlayıram. Ağlamaqdan da gözlərimin yaşı qurtarıb, əvəzinə ciyərimin qanı gəlib tökülürdü. İndi mən şükür eləyirəm Allahın dərgahına ki, mən koram və mənim atam Nadir şah tək padşahın məsnədində əyləşəni gözlərim görmür. Kim deyir dünyada insaf var? Kim deyir dünyada ədalət var? Əgər dünyada insaf və ədalət olsaydı, Nadir şahın Rzaqulu Mirzə tək istəkli oğlu öz atasının xacəsinin qabağında əsir saxlanmazdı. Kim deyir dünyada insaf var? Kim deyir ədalət var? Əgər dünyada insaf və ədalət olsaydı, tərlan yerində zağ və zəğan oturmazdı. (Ağlayır.) Ox!.. Yoxdur dünyada ədalət, yox, yox!.. Gözlərim əlimdən gedib, bu quru nəfəsi də bundan sonra istəmirəm, aparın, nə eləyəcəksiniz eləyin.

Ağa Məhəmməd şah Qacar. Sadıq xan! Bu qocanı verərsən fərraşların əlinə. Nadirin cavahiratını birbəbir bundan istərlər. Ələlxüsus böyük yaqutu vermək istəməsə, lazımi əziyyət buna verərlər.

Sadıq xan Şahrüxü aparır.

H a c ı İ b r a h i m x a n . Qibleyi-aləm, nə qədər olsa, bu, padşah oğludur. Qırx beş ildir ki, Allahın işıqlı dünyasına həsrətdir. Ona əziyyət vermək insaf deyil.

Ağa Məhəmməd şah Qacar. Hacı İbrahim xan! Bu, Nadirin oğludur. Əgər Nadirin cəmi övladını kabab edəm, yenə mənim ürəyimin yarası sağalmaz. Nadir mənə yaman yara vurub, Hacı İbrahim xan!

S a d ı q x a n (*daxil olur)*. Qibleyi-aləm, Süleyman xan tərəfindən hüzuri-aliyə məktubdur. (*Kağızı verir*.) Ağa Məhəmməd şah Qacar (*kağıza baxıb*). Hacı İbrahim xan! Sərkərdələri buraya çağır!

H a c ı I b r a h i m x a n . Qibleyi-aləm, rənginiz qaçdı, nə xəbərdir gələn?

Ağa Məhəmməd şah Qacar. Bu saat bilərsən. Çıx sərkərdələri buraya çağır. (*Hacı İbrahim xan çıxır*.) Bu yaxşı olmadı.

F ə r r a ş b a ş ı (*daxil olur*). Qibleyi-aləm, cavahiratın bir-bir yerini deyir. Amma böyük yaqutu vermək istəmir. Hər nə qədər əziyyət edirik, olmur. Dırnaqlarının arasına mıx çaldıq. Belindən parça-parça dəri qoparıb yerinə duz tökdük, yenə demir.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Necə demir? Get deginən onun başının ətrafına xəmir yapışdırıb ortasına qurğuşun töksünlər. Onda yaqutun yerini yəqin deyər. (*Fərraşbaşı çıxır, sərkərdələr və Hacı İbrahim xan daxil olurlar*.) Camaat, Süleyman xandan kağız gəlib. (*Kağızı verir Hacı İbrahim xana*.) Hacı İbrahim xan, al bu kağızı oxu, sərkərdələr qulaq assınlar.

H a c ı I b r a h i m x a n . Məruzi-hüzuri-ali olsun ki, otuz beş min rus qoşunu general Valeriyan Zubovun təhti-rəyasətində Lənkəran və Badkubə qələlərini alıblar. Gəncə və Şamaxı həmçinin keçib Rusiyanın ixtiyarına. General Zubov əyləşib Muğanda, Azərbaycan üstünə yerimək xəyalındadır və Azərbaycanı təsxir edəndən sonra, Tehran üstünə gedəcək.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Həzərat! Kağızın məzmununu bildiniz. Rusiyanın qoşunu cürət edib İran torpağına ayaq qoyub. Amma mənim Rəşid qoşunum onun müqabilinə şir tək gedəcək. Ümidvaram ki, Allahın köməkliyi ilə bir az müddətdə Rusiya qoşununun İran torpağında bir nişanəsi də qalmaz.

S a d ı q x a n . Qibleyi-aləm. Rusiyanın otuz beş min qoşunu müqabilində əlahəzrətin səksən min qoşunu var. Bir belə qoşununun müqabilində Rusiya qoşunu məgər davam edə biləcək?

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Dayanmayın, gedin qoşunu hazır edin!

Sərkərdələr gedirlər.

F ə r r a ş b a ş ı (*daxil olur*). Qibleyi-aləm buyuran tək edib, yaqutu aldıq. (*Yaqutu verir*.)

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Öldü, ya sağdır?

F ə r r a ş b a ş ı . Xeyr, Q u r b a n , sağdır, amma canı azdır.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Ona gedib deyərsən ki, əziyyətinə səbəb özü oldu və sabah göndərərsən getsin Mazandarana. (*Fərraşbaşı çıxır*.) Hacı İbrahim xan!

H a c ı İ b r a h i m x a n . Bəli, Qurban .

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Mən sərkərdələrə dediyim sözləri eşitdin?

H a c ı İ b r a h i m x a n . Bəli, Qurban , eşitdim!

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Sən yəqin eləyibsən ki, mən dediyim tək eləyəcəyəm?

H a c ı İ b r a h i m x a n . Əlbəttə, gərək qibleyi-aləmin xahişi əmələ gələ.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Hacı İbrahim! Mən səni ndiyədək çox aqil şəxs hesab edirdim. Amma heyf, sədd heyf mənim zənnimə! Mən güman eləməzdim ki, sən də mənim sərkərdələrim tək ağılsızsan. Sənin tək aqil şəxs heç xəyal edə bilərmi ki, mən aparım öz başımı Rusiyanın fulad divarına döyüm və ya qoyun sürüsünə bənzər qoşunumu aparam Rusiyanın müntəzəm qoşununun top-tüfənginin qabağına verəm. Mən bilirəm nə eləyəcəyəm. Bir rus gülləsi mənim qoşunuma çatmayacaq. Qoy Rusiyanın qoşunu nə qədər yeriyəcək yerisin! Lənkəranla Tehranın arasını biyabana döndərəcəyəm, hər nə tapsalar alsınlar. Gəl dalımca!

Gedirlər.

PƏRDƏ

BEŞİNCİ MƏCLİS

ƏHLİ-MƏCLİS

Ağa Məhəmməd şah Qacar
Hacı İbrahimxan
Sadıqxan
Səfərəli
Abbas bəy } pişxidmətlər

Bir nəfər sərkərdə.

Şuşa qələsi. Məhəmməd Həsən ağanın evində Ağa Məhəmməd şahın mənzili. Məclis ortadan iki bölünüb: sağ tərəfdə Səfərəli və Abbas bəy pişxidmətlərin otağı, sol tərəfdə Ağa Məhəmməd şah Qacarın yatacaq otağı. Otağın ortasından qırmızı ipək pərdə çəkilib. Pərdənin dalında Ağa Məhəmməd şah Qacarın taxtı qoyulub. Ağa Məhəmməd şah Qacar döşək üstündə əyləşib, yanında piysuz, qabaqda Hacı İbrahim xan ayaq üstündə durub.

Ağa Məhəmməd şah Qacar. Doğrudur, Hacı İbrahim xan, bir şəxsi ki, Allah ucalda, onu məxluqat heç vəchlə aşağı sala bilməz və bir şəxsi ki Allah aşağı sala, cəmi maxələqəllah yığıla ucalda bilməz. Əgər, xudanəkərdə, bizim qoşunumuz rus qoşunu ilə rubəru gələydi, bir atlımız qalmazdı və Allahın əli mənim üstümdə olmasaydı, İndi rus cümlə İrana malik olmuşdu. Qəzanın işini gör. Dava əsnasında imperatriçə vəfat edir, yerinə oğlu əyləşir və o da hökm edir ki, İran üstünə gedən qoşun geri qayıtsın. Çox böyük xoşbəxtlikdir, Hacı İbrahim xan.

Hacı İbrahimxan. Bəli, Qurban. İnşallah, həmişə Allahın tövfiqi qibleyi-aləmin üstündə olacaq.

Ağa Məhəmməd şah Qacar. Mən necə ki, yəqin etmişdim, elə də oldu. Şuşa qələsinə davasız malik olduq. Heyf ki, İbrahim xan ələ keçmədi. Amma ümidvaram ki, bu gün İbrahim xanın ya özü və ya başı gələ. Onun dalınca gedən iki min adamın əlindən haraya qaça biləcək? O şair Molla Pənah necə oldu?

Hacı İbrahimxan. Qibleyi-aləm, zindana salıblar.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Xub, sabah, mənə yazdığı fərdin ləzzətini ona göstərərəm.

H a c ı İ b r a h i m x a n . Qibleyi-aləm, deyirlər Molla Pənah gecə vaqiə görüb, deyirmiş ki, məni Ağa Məhəmməd şah öldürə bilməyəcək. Ağa Məhəmməd şah Qacar. Nə eləyim, cümə axşamı olmayaydı, onun vaqiəsinin doğru olmağını ona sübut edəydim!.. Amma İbrahim xan ələ keçməsə, mən rahat ola bilməyəcəyəm.

H a c ı I b r a h i m x a n . Qibleyi-aləm, İbrahim xan quş da olsa iki min R ə ş i d atlının qabağından heç bir yana qaçıb qurtara bilməz.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Allah sən deyəni eləsin. Hacı, dəxi get, rahat ol. Məni tək qoy, yatmaq vaxtı yaxınlaşır. Şam namazı qılım. (*Hacı çıxır, şah canamaz gətirib istəyir açsın. Bu halda Sadıq xan daxil olur*). Nə var? Niyə gəldin.

S a d ı q x a n . Qibleyi-aləmin fərmayişinə görə gəlmişəm.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Kim yetirdi sənə mənim fərmayişimi?

S a d ı q x a n . Səfərəli.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Buraya çağır onu. (*Sadıq xan çıxır.*) Məgər bu biinsaflar məni bir dəqiqə rahat qoymazlar? (*Səfərəli daxil olur.)* Nə vaxt mən sənə dedim get Sadıq xanı çağır? Səfərəli. Yarım saat bundan əqdəm.

A ğ a M ə h ə m m ə d ş a h Qacar (q*əzəbli*). Yalan deyirsən, namərbut!

S ə f ə r ə l i . Ola bilər ki, mənim qulaqlarım qibleyi-aləmin fərmayişini düzgün eşitməyibdir.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Bir qulaqlar ki, mənim fərmayişimi dürüst eşitməyələr, mənə lazım deyillər. Get cəllada deginən qulaqlarının ikisini də kəssin. (*Səfərəli çıxır. Sərkərdə daxil olur.)* Hə, necə oldu?

S ə r k ə r d ə . Qibleyi-aləm, Tərtər çayının kənarında yetişdik İbrahim xana. Üstündə beş mindən ziyadə atlı var idi. Çox dava elədik və İbrahim xanın qoşunundan da çox qırdıq. Amma çox olmaqlarına görə bizə faiq gəldilər. Xanı ələ gətirə bilmədik. Qaçdı Car Biləkan tərəfə.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Yalan deyirsən, namərbut! Doğrusunu de görüm, dava eləyibsən, ya yox? İbrahim xan haradan alırdı beş min qoşunu? Sən bilirsən ki, bu neçə ilin müddətində Qarabağın adamları bir halətə düşüblər ki, qollarından tutan olmasa, yatdıqları yerdən dura bilmirlər. Doğrusunu de görüm, dava eləyibsən, ya yox?

S ə r k ə r d ə . Qibleyi-aləm, necə ki, ərz elədim, elədir.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r (*durur ayağa*). Yalan deyirsən, yalan deyirsən! İbrahim xan iki yüz adamdan artıq aparmayıb! Qorxub qaçıbsız! Doğrusunu de! Yoxsa, and olsun Allaha, ətini tikətikə kəsdirib gözünün qabağında yandıracağam!

S ə r k ə r d ə . Sahibi-ixtiyarsınız, qibleyi-aləm. Amma necə ki, ərz elədim, o növdür.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Apardığın adamdan nə qədər qırılıb?

S ə r k ə r d ə . Qoşun hamısı salamat qayıdıb.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Get! Məlum oldu! Sabah sən də və sənin qoşunun da lazımi ənamınızı alarsınız. (*Sərkərdə gedir.*) Qalsın sənin tənbehin sabaha. Görünür, qarabağlıların küyündən qorxub qaçıblar. Dəxi bilmirlər ki, ölümdən qaçıb ölümə düçar gələcəklər. Yox, yox... Mən buna səbr edə bilməyəcəyəm. Necə ola bilər ki, mən Ağa Məhəmməd şah Qacar olam, cəmi İran mənim təhti-səltənətimdə ola, bir Qarabağ xanı iki yüz atlı ilə mənim əlimdən qaçıb qurtara! Yox, tab gətirə bilməyəcəyəm, görünür, yumşalmışam! Eybi yoxdur, yenə qiyaməti bərpa elərəm. Yenə Ağa Məhəmməd şah Qacar gözlərinin qızarmağını görərlər. (*Otaqda hirsli gəzinir. Səfərəli qulaqları dəsmalla sarınmış və Abbas bəy öz otaqlarına girirlər*).

S ə f ə r ə l i . Öhö... öhö... öhö... (*Ağlayır.*)

A b b a s b ə y . A kişi, yekə adamsan, uşaq tək niyə ağlayırsan?

S ə f ə r ə l i . Abbas bəy, niyə ağlamayım? Mən Qarabağda bir adam sayılırdım. İndi bu sifətdə mən camaat içinə çıxamı biləcəyəm? Mənim qulaqlarımı kəsdirincə şah buyuraydı birdəfəlik boynumu vuraydılar, bundan yaxşı olardı. (*Ağlayır, şah qulaq verir.*)

A b b a s b ə y . Ağlama, ayıbdır. Bir də şahın hirsi bərk tutub. Xudanəkərdə, eşidər, qəzəbi bir az da şiddət elər.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r (*qeyzli*). Kİmdir qapının dalında səs eləyənlər? İçəri gəlin! (*Səfərəli və Abbas bəy daxil olur.*) Səfərəli, sənsən övrət tək ağlayan? Gör mənim sənə nə qədər iltifatım var ki, sənin başını bədənində qoymuşam! Abbas bəy, sən də küy eləyib mənim istirahətimi pozursan?! Gedin, sabah hər ikinizin gərək başı kəsilə. Sizdən savayı bir neçə da naçizlər var, onların da başı kəsiləcək. Sabah gərək kəlllədən bir minarə qurduram ki, Şəmkir minarəsindən uca ola. O minarənin başında sizin ikinizin başını qoyduraca-

ğam, gedin! (*Səfərəli və Abbas bəy çıxırlar*.) Çoxdandır, divan eləməmişəm. Amma sabah gərək davadan qaçanlara özümü göstərəm. Gərək sabah Qarqar çayında su əvəzinə qan axa! Gərək sabah bir elə divan eləyim ki, Arazla Kürün arası zəlzələyə gələ! Gərək bir divan eləyəm ki, həzrəti-Musa minlərcə balaca uşaqlar başı kəsdirmiş Fironun günahının əfvini Allah dərgahından istixasə eləyə! Gərək bir divan eləyəm ki, Əmir Teymurun sümükləri Səmərqənddə cünbüşə gələ! (*Nəfəsini ağır-ağır çəkir*.) Gərək Bağrıqan dağının sinəsindən ələman səsası kəhkəşani-fələkə dürəklənə! Gərək bir divan eləyəm ki, Hüccac ibniYusif başını qəbirdən qovzayıb afərin desin! Of!.. Nə çətin əmrdir padşahlıq! (*Piysuzu götürüb gedir pərdənin dalına*.)

Səfərəli və Abbas öz otaqlarında.

S ə f ə r ə l i . Şahın sözü sözdür. Sabah ikimizin də başımız kəsiləcək.

A b b a s b ə y . Qəzanın təqdirinə çarə yoxdur. Ağa Məhəmməd şah taxta əyləşəndən İndiyədək minlərcə bizdən artıq canları yox eləyib, İndi növbət bizə düşüb.

S ə f ə r ə l i . Bəli, əlac yoxdur, sən get bu gecəni öz övrət-uşağınla keçir. Mən də tək adamam, əyləşim, razü Niyaz eləyim. Bəlkə Allah keçmiş günahları bağışlaya. Bir də, Abbas bəy, doğrusu, Qarabağı bu halda görməkdənsə ölmək yaxşıdır. Ölkə vİran, evlərdə çörək yox, anaların döşünün südü quruyub. Ac qalmış südəmər balaların mələşməsindən yer, göy titrəyir. Xan başını götürüb diyarbədiyar düşüb. Bir diqqətlə baxırsanmı, Abbas bəy, bu böyüklükdə şəhərdə necə sakitlikdir. Küçələrdə bir zinəfəs tapılmır. Ancaq, bir havada nəş arzusunda gəzən kərkəslərdən savayı bir canlı görünmür. Günorta və axşam müəzzin səsindən savayı bir səs eşidilmir?! Heç diqqətlə bir əzan səsinə qulaq veribsənmi? O, əzan səsi deyil, ciyərlər naləsidir. Bu nədəndir? Ondandır ki, xalq qorxusundan çəkilib evinə, qapıları bağlayıb, külfətini yığıb başına, qara gününə ağlayır... Abbas bəy, axır, biz qarabağlıyıq, bunu gərək bizim namusumuz götürməsin.

A b b a s b ə y . Bilirsən, Səfərəli, nə var? Niyə biz ölürük? Qoy şah ölsün. İranda yetimlərin, dul övrətlərin fəryadı ki, çıxıb göyə! Qoy, bir nəfs ölsün, bəlkə neçə min nəfs dirilə.

S ə f ə r ə l i . Abbas bəy! And olsun Allaha, sən mənim ürəyimdən xəbər verdin. Şah gərək ölsün! Özü də bu xəncərlə öləcək. Qoy onun öz başı, təmiri fikrində olduğu minarənin bünövrəsinə qoyulsun və minaräni də xudavəndi-aləmin yədi-qüdrəti tiksin.

A b b a s b ə y . Onda şah yatmışkən girək içəri, fürsət əldən getməsin.

Hər ikisi qəmələrini çəkib girirlər şah yatan otağa. Abbas bəy qabaqca yeriyib pərdəni yığışdırır əlinə. Qıçları tutulub, pərdə əlində qalır. Şah qədim xırda şüşəli pəncərənin yanında yatıb. Pəncərəyə ayın işığı düşüb. Taxtın ayağının altında piysus yanır. Abbas bəy və Səfərəli bir qədər vaxt bir-birinin üzünə baxırlar. Axır Səfərəli cəld şahın üstünə gedib, qəməni sancır onun ürəyinə. Abbas bəy və Səfərəli qaçırlar. Ağa Məhəmməd şah Qacar hövlnak yerindən qalxıb, onların dalınca, əli ürəyində, qapıyadək yüyürür, sonra qayıdıb otağın ortasında yıxılır.

A ğ a M ə h ə m m ə d ş a h Q a c a r . Ey xanəxərab, İranra virankərdi[1]! (*Ölür.*)

PƏRDƏ

[1] Ey evi dağılmış, İranı vİran qoydun

KİMDİR MÜQƏSSİR

Vodevil iki məclisdə
(Məzmun əxz olunub)

ƏŞXAS

Q a s ı m b ə y–	mülkədar
M a h m u d –	cavan kəndli
B a h a r –	onun övrəti

ƏVVƏLİNCİ MƏCLİS

Kənd. Mahmudun evinin qabağı. Sol tərəfdə evin qapısı, qapının yanında bir cəhrə qoyulub. Evin qabağı bağdır. Sağ tərəfdə, ağacın altında bir kötük var və kötüyün yanında neçə dənə odun. Mahmud odun yarır.

M a h m u d. Hm!.. Hm!.. Hm!.. Ay sənin içinə zəhrimar qarışsın. Məgər yarılmaq bilir. (*Alnının tərini silir.*) Hm!.. Hm!.. Hm!.. (*Qolu boşalır, söykənir baltaya.)* Yox, heç yarılası canavara oxşamır, belə nainsaf odun mən ömrümdə görməmişəm, başdan ayağa düyündür. Balta vurmaqdan qollarım düşdü, əllərim suluq-suluq qabar oldu. Tər alnımdan sel tək axır, amma bu evi yıxılmışın odunu uzanıb burada, heç dünya vecinə deyil. Deyir, nə qədər canında can var, baltadan çırp, ölsən də yarılmayacağam. (*Ah çəkir.*) Elə ki hərdənbir papağımı qabağıma qoyub, dürüst fikir eləyirəm, baxıb görürəm ki, Allahın dünyada insandan bədbəxt məxluqu yoxdur. Vallah doğru deyirəm. Bax, elə bu odun. O da məndən xoşbəxtdir. Iş görmür, bir ehtiyacı yox, aclıq, susuzluq bilmir, bəyəndiyi yerdə uzanır, kefi kök, damağı çağ. Amma insan bir az ağuya dönmüş gödən gülləsinin ucundan, gərək hər sübh tülküdurmazdan dursun, gecə yarısınadək tər tökə-tökə işləsin. Gecədən sübhədək bədənin ağrısından yata bilməsin. Bunun da adını dolanacaq, zindəganlıq qoyublar. Amma insan əvvəl yarananda işlər belə deyilmiş. İndi mən deyim necə imiş, siz qulaq verin. (*Əyləşir kötüyün üstündə.*) Allah Adəmlə Həvvanı yaratdı, gözəl behiştini də

verdi onlara dedi: oturun burada, oğulbəoğul yeyin-için, əlinizi ağdan qaraya vurmayın. Daha bundan gözəl nə olar? Yəni müftə, zəhmətsiz çörək yeyib yatmaqdan da bir ləzzətli şey olar? Ancaq Allah bir şərt qoydu: buyurdu ki, buğda ağacının meyvəsinə dəyməyin. Nə eybi var, dəymə, dəymə! Adəm dedi: baş üstə. Heç ağacın yaxınına da getmərəm. Amma Həvva... Aman, aman, aman!.. Dad arvad əlindən!.. Dedi: ortamdan dağılaram, buğdadan yeməsəm. Adəm yalvardı, yaxardı, ilan dili çıxartdı, olmadı ki, olmadı. Axırda yazıq kişi əlacı kəsilib, buğdanı üzüb verdi, dedi: ala, ye! Elə ki buğdanı yedilər, ikisinin də qolundan tutub saldılar eşiyə. Amma necə behişt!.. Deyirlər bizim ağamızın evindən yaxşı imiş! Adəmi behiştdən qovdular, onlar da düşdülər mən kökə. İndi mənim də behiştim budur. (*Ayağı ilə odunu itələyir.)* Budur mənim Həvvam da gəlir. (*Durur ayağa, başlayır odun yarmağa. Bahar çiynində xurcun daxil olur. Sonra xurcunu qoyur yerə.)*

B a h a r. Bu da mən. Gəldim çıxdım. Bazardan buraya birnəfəsə gəlmişəm. Ayaqlarım tökülür, qatığı satdım üç abbası bir şahıya, yağın da girvənkəsini altı şahıdan satdım, yaxşımı satmışam? A kişi, sımsırığını niyə sallayıbsan? De görüm yaxşımı satmışam?

M a h m u d (*naxahi*). Çox yaxşı satıbsan. (Başını aşağı salıb odun yarır.)

B a h a r . A kişi, yenə nə olub sənə? (*Mehriban*) Bircə bax gör bu çiyinlik yaxşıdırmı? Belə ucuz almışam ki.

M a h m u d (*naxahi*). Çox yaxşıdır.

B a h a r (*ağzını əyir*) Çox yaxşıdır!.. Bircə bax, sonra de, ağzını niyə göyşək mal kimi o yan-bu yana tutursan?

M a h m u d (*naxahi*), Görürəm, görürəm, heç belə çiyinlik olmaz.

Ba h a r . Baxarsan bəri, baxarsan! (*Xurcundan bir cüt çarıq çıxarır*.) Bircə bu çarıqlara da bax!

M a h m u d (*cəld*). Görüm.

B a h a r (dörd barmağını yumub baş barmağını göstərir). Ala, göstərdim a, gör nə tez baxır? (*Oturur cəhrənin yanında, çarıqları gizləyir altında. Başlayır cəhrəni bulamağa*.) Gör mən necə yaxşı arvadam ki, sənin kimi şah tənbəlinə çarıq alıram, amma sən heç mənim qədrimi bilmirsən.

M a h m u d. Mən tənbələm? Mən tənbələm? Elə ağzını açırsan: tənbəl, tənbəl!

B a h a r . Yalan deyirəm? Sənin tənbəlliyin cəmi kəndə məlumdur.

M a h m u d. Özün işləmirsən, elə bilirsən xalq da tənbəldir!

B a h a r . Necə? Necə mən işləmirəm?

M a h m u d. Elə-belə işləmirsən.

B a h a r (cəhrəni göstərir). Bəs bu nədir?

M a h m u d. Bu nə nədir?

B a h a r . Gözün görmür?

M a h m u d. Niyə görmür, cəhrədir. Onu bulamağın adını sən işə qoymusan? Mənim bir qoca rəhmətlik nənəm var idi. Qoltuğundan tutan olmasaydı, yerindən qalxa bilmirdi, onu o da bulayırdı.

B a h a r . Bəs sən iş nəyə deyirsən?

M a h m u d. Dünyada məgər iş azdır? Xanım ki deyilsən, belə yaxşı odun yar, get su gətir, ot biç, cüt ək!..

B a h a r . A kişi, nə danışırsan? Odun yar, cüt ək nədir, məgər bu mənim işİmdir?

M a h m u d. Utanmasan deyəcəksən, sənin işİndir. Belədirmi?

B a h a r . Əlbəttə, bunlar kişi işidir. Mən ki kişi deyiləm.

M a h m u d. Elə mən kişiyəm deyən, gərək bir belə zəhmətlərin hamısını çəkəm? Mən qələt eləmişəm, başımı daşın böyüyünə döymüşəm anadan kişi olmuşam?

B a h a r . Bəs necə, gərək işləyəsən, yoxsa çörək bacadan düşür?

M a h m u d. Bəli, mən işləyim, sən də böyrün üstündə yat, onunbunun qeybətini elə!

B a h a r . Kişi, məgər sənin Allahın yoxdur? Mən kimin qeybətini eləmişəm?

M a h m u d. Hamının, kimin qeybətini eləmirsən?

B a h a r (*durub gəlir onun yanına*). Mən tənbələm? Mən qeybətçiyəm?

M a h m u d. Bəli, bəli, bəli! Qeybətçisən bir də üstündən, iki də üstündən!

B a h a r (*ağlayır)*. Allah, bu zülmü məgər qəbul eləyəcəksən? Axşamadək cəhrə əyir, inək sağ, qatıq çal, nehrə çalxa, adını da tənbəl qoysunlar!

M a h m u d. Bah, bah, bah! Bu xanım böyük işlər görür! Bir de görüm mən inəyi tutub, gətirib ağaca bağlamasam, sən sağa bilərsənmi? Sən ayda bir yol nehrə çalxamırsan, elə həmişə mən çalxayıram. Görürsən qatığı tökdü nehrəyə, bir sənək də suyu hıqqına-hıqqına götürüb tökdü üstündən, ondan da çağırdı (*övrətini yamsılayır*): Mah-

mud! Mahmud! Mahmud! Gəl, sən Allah, bu nehrəni göydən as! Və ondan sonra başlayır ki, belim ağrıyır, nə bilim, qonşuya ip əyirirəm, bu nehrəni çalxa. İşin harada ağırı var, tökürsən mənim üstümə. Əməyimi də itirirsən. Budur ha, dünən nehrəni yerdən qalxızmışam, İndi də belim ağrıyır. O tövr mən zəhmət çəkirəm, sən də aparıb hər həftə yağı, qatığı satıb, əskiyə-üsküyə verib, götürüb gəlirsən.

B a h a r . Bəs nə eləyim? Çılpaq gəzim?

M a h m u d. Səni danışdİranın özünün ağlı yoxdur, arvadsan, arvadsan, arvadsan! Sizin anadan olandan ölənədək ayrı fikriniz yoxdur: elə paltar, paltar. Arvad tayfasının yüz dəst paltarı ola, yenə deyəcək çılpağam. Axır, ay arvad sən məni dağıtdın, tərk elədin, bircə insafın olsun, mürüvvətin olsun! Bir tək sənin ucundan mən bir belə tər tökürəm. (*Əli ilə alnını silir.*) Bir saat yanımı yerə verib, dincələ bilmirəm.

B a h a r . Yalan isə başın batsın! Araba kölgəsində yatırsan, elə bilirsən öz kölgəndir. Çox əziyyət çəkirsən, belinə çöpdən dirək! Məndən savayı bu evdə zəhmət çəkən var? Nə vaxt sən mənim ucumdan zəhmətə düşdün?

M a h m u d. Bircə Həvvanı yadına sal, onda bilərsən.

B a h a r . Nə dedin?

M a h m u d. Bəli, elə onu ərz elədim. Bizim behiştdən qovulmağımıza kim müqəssirdir? Həvva! Kimin səbəbinə bizim əlimiz behişt nemətlərindən üzüldü? Həvvanın! Kimə iştah zor elədi, dedi gərək buğdanı yeyəm? Mənə? Buyur görək, niyə dinmirsən? İndi belə beşeşşəkli xoca kimi, qəşəng, qıçımı qıçımın üstündən aşırıb behiştdə kef elərdim. Bilmirdim odun yarmaq nəyə deyirlər, su daşımaq nəyə deyirlər, ot çalmaq nəyə deyirlər...

B a h a r . Demək olmaz, elə işləməkdən arıq düşübsən...

M a h m u d. Sən olasan ölənlərinin goru, məni bu hirsimin tutmuş vaxtında haldan çıxartma! And olsun məni yaradana, dəyənəklə qabırğalarını sanaram! Qarnım sabunsuz araba çarxı səsi verir. Hanı ocaqda qazanın? Nə olar bir üç yumurta soyutma eləyib verəsən yeyim?

B a h a r . Deyirsən sabahdan bəri işləyirəm, hanı yardığın odun? Sən odun yar, mən də yandırım, sənə bişmiş bişirim.

M a h m u d. Odu ey... (*Odunu göstərir.*) Sabahdan balta çalıram, bir qıxmıq da qopara bilmirəm. Odun düyünlüdür, yarılmır, alnımdan bir çay axıb, məndə nə taqsır var?

B a h a r . Bəs taqsır məndədir?

M a h m u d. Bəli, səndədir.

B a h a r . Yaxşı, taqsır məndə niyə olsun?

M a h m u d. Səndə olmasın, olsun sənin nənən Həvvada, nə təfavütü var?

B a h a r . Xeyr, bu yerdə Həvvanın heç taqsırı yoxdur.

M a h m u d. Bəs taqsır Həvvada da deyil, məndədir? Hələ özü buğdanı yeməyi bəs deyil, aparıb binəva Adəmə də yedirtdi.

B a h a r . Çox da yedirtdi, Adəm yeməyəydi.

M a h m u d. Necə yeməyəydi? Sizin palçığınıza şeytan bir ovuc torpaq qatışdırıb, odur ki, kişiləri yoldan çıxartmaq sizə binadan irs olub! Görəsən nə dildə yazıq kişini yoldan çıxarıb, buğdanı yedirdib.

B a h a r . Gərək yeməyəydi. İndi ki yeyib, müqəssirdir.

M a h m u d. Adəm?

B a h a r . Bəli, elə özü.

M a h m u d. Yüz danışsan, taqsır Həvvadadır.

B a h a r . Xeyr, Adəmdədir.

M a h m u d. Həvvadadır, Həvvadadır, Həvvada, belə bir də üstündən!

B a h a r . Mən sənə bu saat sübut edərəm ki, taqsır Adəmdə idi.

M a h m u d. Elə görüm.

Ba h a r . Di qulaq as! O vədə buğda bir uca ağacda bitirdi. Həvva da istədi ki, dərsin, əli çatmadı. Adəmə dedi: gəl ayağımın altında yat, gəldi yatdı. Həvva da onun belinə çıxıb, buğdanı dərdi. İndi başa düşdünmü?

M a h m u d. Düşdüm.

B a h a r . Taqsır kimdədir?

M a h m u d. Kimdədir? (*Bir az fikirdən sonra*) Həvvada!

Ba h a r . Necə? Həvvada? Adəm niyə onun ayağının altında yatırdı?

M a h m u d. Necə eləyəydi? Əlacı nə idi? Yəqin arvad ağlayıbsıtqayıb, kişi də naəlac qalıb, yatıb ayağının altında.

B a h a r . Bəs o nə günün kişisi idi? Qulaq asmayaydı.

M a h m u d. Qulaq asmazdı, o da paltarını yumazdı, saqqalına xına qoymazdı, başını bitləməzdi.

Ba h a r . Bax sabahdan bəri boş-boş söyləyirsən, İndi istəsəydin bir qucaq odun yarmışdın. O qıxmıqlar hər nədi, yığ apar içəri, ocağı qala, qazana da su qoy, as üstünə, gəlim bir az şorba bişirim, di cəld ol!

M a h m u d (*odunu qucağına yığır*). Ay buğda, vay buğda!.. Heç Allah səni yaratmayaydı.

B a h a r . Get, daha söylənmə, İndicə deyirdin ki, acından ölürəm. (*Mahmud gedir. Bahar cəhrənin yanında oturur*.) Qoyasan elə axşamadək özündən gop vurub danışa, iş görməz, güc görməz, elə zoru verir çənəsinə. Deyəndə də tənbəlsən, atını, itini alıqlayır, düşür mənim üstümə. Tənbəl olmasa, əvəzi yoxdur. Heç indiyədək bir dəfə mənim üstümə əl qalxızmayıb. Özgə kişilər övrətlərini gündə bir döyürlər, amma bu mənə heç bir çırtma da vurmur.

M a h m u d (*qayıdır*). Suyu asdım, di buyur yenə yavan şorbanı bişir, yeyim, iki gün boğazımda qaynasın.

B a h a r . Aldatdım, hay aldatdım! Sən heç mənim qədrimi bilmə, bircə xurcunu aç bax gör içində nə var?

M a h m u d (*xurcunu açıb baxır*). Arvad deyəsən, ət alıbsan?

B a h a r . Bəs necə? Ət almışam, yağımız da var, İndi durub plov bişirəcəyəm. Elə sən deginən Bahar pis arvaddır.

M a h m u d. Bax, İndi sənə yaxşı arvad deyərəm. İndi görürəm ki, məni istəyirmişsən. Bilirəm, bazarda deyibsən ki, kişinin yavan şorba yeməkdən qarnında şorba ağacı bitib. Qoy bir az ət alım aparım, ona plov bişirim. Belədirmi, Bahar?

B a h a r . Mən yaxşı arvadam, amma sən pis kişisən, mənə acığın tutur, üstümə çığırırsan.

M a h m u d. Vallah, mənim sənə acığım tutmur, mənim acığım Adəmə tutur. Axır o, niyə arvada yepələk olurdu? Allahın altında onun yerinə mən olaydım!

B a h a r . Bəli, demək olmaz, dağı dağ üstünə qoyardın! Nə olsun, mən də Həvvanın yerinə olsaydım, heç buğdaya gözümün qulağı ilə də baxmazdım.

M a h m u d. Yəni inanım?

B a h a r . Niyə inanmırsan? Adama deyirlər: əlini vurma – vurma, yemə – yemə!

M a h m u d. Bəlkə ürəyin istədi, onda necə?

B a h a r . Cəhənnəmə istəsin, gora istəsin. Nəfsinə tət deyib səbr elərsən.

M a h m u d. Yəni səbr elərsən?

B a h a r . Əlbəttə elərəm.

M a h m u d. Elə ömrün olanı səbr elərdin?

B a h a r . Ömür olanı, daha da artıq.

Q a s ı m b ə y (*daxil olur*). Xoş gördük, əzizlərim!

Bahar üzünü örtüb, divara qısılır.

M a h m u d (*baş əyir*). Ağa! Sən bizim bu kasıb komamıza xoş gəlibsən! Evimiz, eşiyimiz hamısı sənə Qurban ! (*Övrətinə*). Ay arvad, divara niyə qısılırsan? Öz ağamızdır, yad adam deyil. Get içəridən bir təmiz döşək gətir, bəy otursun.

Q a s ı m b ə y. Lazım deyil, oturmayacağam, burada gəzirdim, sizing söhbətinizi eşidib gəldim. Siz bilirsiniz ki, mənim çoxlu dövlətim var, özümün də varisim yoxdur. Sizin söhbətiniz mənə çox xoş gəldi, ona görə istəyirəm sizi bir az xoşbəxt eləyim, öz dövlətimin, mülkümün yarısını sizə verim. Mən gedirəm, bir saat bundan sonra siz ikiniz də gərək mənim evimdə olasınız. Salamat qalın.

M a h m u d. Ağa! Biz nəkarəyik...

Q a s ı m b ə y (*gedə-gedə*). Artıq söz lazım deyil. Bir saatdan sonra mən sizi öz evimdə gözləyəcəyəm...

Qasım bəy gedir. Mahmud və Bahar baş əyə-əyə aparıb ötürüb, ikisi də mütəhəyyir qayıdırlar.

M a h m u d. B a h a r!

B a h a r . Nədir, M a h m u d?

M a h m u d. Bu nə işdi?

B a h a r . M a h m u d!

M a h m u d. Nədir, B a h a r?

B a h a r . Bu nə işdi?

M a h m u d. Ağlın nə kəsir?

B a h a r . Kimin? Mənim?

M a h m u d. Hə, sənin.

B a h a r . Mənim ağlım heç zad kəsmir. Bəs sənin ağlın nə kəsir?

M a h m u d. Kimin? Mənim?

B a h a r . Hə, sənin.

M a h m u d. Mənim də ağlım heç zad kəsmir.

B a h a r . İndi nə deyirsən? Gedək?

M a h m u d. Bəs ağamız buyurandan sonra nə qayıracağıq? Tez ol yığış, gedək.

B a h a r . Di onda mən cəhrəni, xurcunu qoyum içəri, qapını bağlayım gedək. (*Bahar cəhrəni, xurcunu götürür. Mahmud da odunları qucağına yığıb, onun dalınca gedir*). A kişi, balta qaldı. Görünür ağlın başından çıxıb. Baltanı burada qoyub, odunu niyə içəri aparırsan? (*Mahmud qayıdıb baltanı götürür.*) Odun nəyə lazımdır? Tök yerə.

M a h m u d. Yox arvad, elə demə. Bəy sözünə bel bağlamaq olmaz, bəlkə birdən saldılar eşiyə, yenə hər nədir odundur, əmələ gələr. Hər ikisi içəri girib şeyləri qoyurlar. Arvad çarşabını götürür, çıxırlar.

B a h a r . İndi deyirsən gedək?

M a h m u d. Bəs nədir, gedək.

B a h a r . Nə deyirəm, gedək deyirsən, gedək.

Gedirlər.

PƏRDƏ

İKİNCİ MƏCLİS

Qasım bəyin evində bir otaq. Otağın ortasında stol qurulub, stolun üstündə hər növ xörəklər və şərbətlər. Otağa xalılar salınıb və yumşaq divan və kürsülər qoyulub. Sol tərəfdə girdə stolun üstündə ağzı örtülü bir qab var. Mahmud və Bahar daxil olur.

M a h m u d. Yəni Qasım bəy görəsən bir belə cəlalı bizə verəcək? Vallah, heç inanmıram. Dəstgaha bax, cəlala bax! (*Kürsüləri göstərir.)* İndi görəsən bunları da qoyublar üstündə oturaq? (*Əyləşir divanın üstündə, divan onu yuxarı tullayır*). Bəh, bəh, bəh! Bahar, Bahar, ay Bahar, gəl yanıma!

B a h a r (*özünü divanın üstünə yıxır*). Bəh, bəh, bəh! Sənin canın üçün, Mahmud, arxın qırağındakı qumdan yumşaqdır.

M a h m u d. Sən bir ayağının altındakı xalıya bax, gör belə şeyi də adam qıyıb ayaq altına salarmı?

B a h a r (*qalxıb xalçanın üstündə çökür*). Mahmud, Mahmud! Pişiyə bax, gör nə göyçək toxuyublar! Bax, dişi də var, gözü də var, qulaqları da var. Görürsən bəy buna iyirmi manat veribdirmi?

Q a s ı m b ə y (*daxil olur, gülə-gülə*). İyirmi manat yox, on səkkiz manat yarım vermişəm.

B a h a r, M a h m u d diksinirlər.

B a h a r . Bıy, mənim başıma xeyir! Bəy burada imiş.

M a h m u d. Bəy, bağışlaginən, qanmaz rəiyyət adamıq.

Q a s ı m b ə y. Eybi yoxdur. Xoş gəlibsiniz, mənim əziz qonaqlarım. Bu mənzil sizin təzə mənzilinizdir. Ancaq sizlə mənim bircə şər-

tim var. Əgər o şərtə əməl edə bilsəniz, bu cəlalı həmişəlik sizə verəcəyəm, yox, əməl eləyə bilməsəniz, yenə qayıdacaqsınız öz komanıza.

M a h m u d. Buyur görək, nə şərtdir, bəlkə elə çətİndir ki, biz bacarası deyil.

Q a s ı m b ə y. Xeyr, mənim şərtim çox-çox asandır. Qulan asın: siz burada əyləşin, bu süfrənin kənarında, kefiniz istədikcə yeyin, için. Ancaq İndidən üç saat keçincə gərək ağzı örtülü qabı yerindən tərpətməyəsiniz və ağzını açıb içinə baxmayasınız. Çünki bu qabın içində bir şey var ki, onu siz gərək üç saat görməyəsiniz. Üç saatdan sonra qabın içindəkini sizə verəcəyəm. Mənim şərtim budur, əgər əmələ gətirdiniz, bu dövlət hamısı sizə qalasıdır, yoxsa...

M a h m u d. Yoxsa, bizi əl-ələ verib, hər birimizə bir təpik vurub, iti məsciddən qovan kimi qovacaqsan.

Q a s ı m b ə y. Yox, əgər mənim şərtimə əməl eləyə bilməsəniz, bu dövlət yenə mənim özümə qalasıdır. Başa düşdünüz? (*Saat bir dəfə vurur*.) İndi günortadan bir saat keçib, mən gedirəm, düz üç saatdan sonra gələcəyəm. (*Gedə-gedə*) Qab gərək açılmasın və içinə baxılmasın. (*Gedir*.)

M a h m u d. Ha!.. Ha!.. Mən də deyirəm, görəsən, bəy nə şərt qoyacaq. (*Arvadının qolundan çəkir*.) Süfrəyə tərəf gəl görək, ye bu gözəl xörəklərdən.

Otururlar.

B a h a r (*yeyir*). Deyirəm, Mahmud, Allah bizə elə gün veribdir ki, yatsaq yuxumuzda da görmərik.

M a h m u d. Əgər mənim vaqiəmə bir belə cəlal girvə, yalan deyən adam deyil, itə dönüm, o biri böyrüm üstünə çönüb, təzədən yataram. Belə bəxt haradan ələ düşər?

B a h a r . Üç saatdan sonra bunlar hamısı bizim olacaq. Sən də olacaqsan Mahmud bəy...

M a h m u d. Sən də olacaqsan Bahar xanım.

B a h a r . Deyəsən axır bizim bəyin ağlı çaşıb, yaxşı, üç saat qabın içinə baxmamaq nə böyük işdir ki, buyurdu?

M a h m u d. Eh! Qab mənim çoxdan yadımdan çıxıb, istər üç yüz qab orada bir-birinin yanına düzülə yenə mənim halıma təfavüt eləməz. Bir belə yeyinti olan yerdə adamın yadına qabmı düşər? Bir kətəyə bax, şit yağı da basıblar arasına, adamın ağzının suyu axır. Sənə də verimmi?

B a h a r . Bir tikə ver.

M a h m u d. Bir tikə nədir, ay axmaq? Bütövünü götürüb lombalaya bilmirsən? Ala qoy qabağına! Şərbət də istəyirsənmi?

B a h a r . Bir az tök ver.

M a h m u d. Şüşəsini götür çək başına. Bir az tök ver nədir, ay səfeh? Bunlar hamısı bizim ixtiyarımızdadır. Bircə ağzı örtülü qabdan savay. (*Saat iki dəfə vurur*). Gör vaxt nə tez keçir? Saatın biri heç bilmədik nə tövr keçdi.

Ba h a r . Allah, sənə şükür! Ikicə saatdan sonra qabın içindəkini biləcəyəm. Amma, Mahmud, bax gör nə gözəl qabdır, mən heç belə qab görməmişəm.

M a h m u d. İstəmirəm, baxmıram, nə lazım, yaxşı deyil, heç sən də baxma.

B a h a r . Niyə baxmayım, qıraqdan baxmaq da ki, qadağan deyil, nə olar baxanda?

M a h m u d. Baxma, bəlkə bir şey oldu.

B a h a r . Yaxşı, bəs gözüyumulu oturum? Qabdır, durub gözünün qabağında, nə tövr baxmayım?

M a h m u d. Üzünü o yana döndər, gözün görməsin.

B a h a r . Axır üzümü geri döndərsəm, səni görmərəm. Gəl yerimizi dəyişək.

M a h m u d. Yaxşı, dəyişək deyirsən, dəyişək. (*Çox ağır qalxır.*) Elə belə yaxşıdır, nə lazım, bəlkə bir şeytan xatası oldu.

Yerlərini dəyişirlər, Bahar gözünü döndərir qaba tərəf.

M a h m u d. Yenə niyə baxırsan?

B a h a r . Baxıb eləmirəm, qorxuram qolum toxuna, görmürsən, lap böyrümdədir? Heç bilmirəm bu qab nə idi, bəy gətirdi bizə aval elədi? Vallah, yalandır, onun içində heç zad yoxdur.

M a h m u d. Ay arvad, Allahı sevərsən, başını aşağı sal, çörəyini ye. Nə qab-qab deyib uculuyubsan?

B a h a r . Doğru deyirsən, Mahmud. Heç daha yadıma da salmaram.

M a h m u d başını aşağı əyir. Bahar ahəstə qalxıb qulağını qaba verir.

M a h m u d (*görüb ucadan qışqırır*). Ay arvad, nə qayırırsan?

B a h a r (*diksinir)*. A kişi, ürəyim qopdu, niyə belə bağırırsan? Əlimi ki, vurmuram, qulaq asmaq da olmaz?

M a h m u d. Yox, olmaz, mən izin vermirəm. Arvad, axır deyəsən şeytan sənə dinclik vermir?

B a h a r (*əyləşib*). Yaxşı, baxmaram, baxmaram. (*Bir azdan sonra*) Mahmud!

M a h m u d. Nə deyirsən?

B a h a r . Sən Allah, qoy bircə tikə qabın qırağını qalxızım baxım.

M a h m u d. Arvad, gəl sən, lənət şeytana de, mənim cinimi tutdurma, vallah sənə bir toy tutaram ki, ömrün olanı dadı damağından getməz.

B a h a r (*acıqlı*). Vallah, heç puf da eləyə bilməzsən! Axır mənə deyən gərək, bunun nəyinə yalvarırsan? (*İstəyir qapağı qalxızsın*).

M a h m u d (*hövlnak*). Gözünü qan örtübdür nədir, ay arvad? (*Qalxıb qolundan tutub sürüyür.*) Gəl bəri, gəl otur burada. Üzünü də belə çöndər. Ha belə ha!.. İndi nə gözlərin görsün, nə ürəyin bulansın.

B a h a r . Kişi, vallah, sən məni lap öldürmək istəyirsən! Mən dəxi burada oturmaram, gedəcəyəm öz evimizə, burada bir sən qal, bir də bu qab.

M a h m u d. Ay arvad, bircə gözlərin olsun! Axır bura xalis behiştdir, o hisli-paslı daxmada nə görübsən? Axır bircə başa düşgünən, vallah, baxmaq olmaz.

B a h a r . Baxmaq olmaz, çünki sənin məndən zəhlən gedir. İstəyirsən mən ölüm, gedib özünə bir göyçək xanım arvad alıb gətirəsən. Mən bu evə yaraşmıram. (A*ğlayır*.)

M a h m u d. Bahar, Bahar sən Allah, ağlama! Sən ağlayanda mənim də ürəyim kövrəlir, ağlamağım tutur... Ay arvad, nə olar bir azcasəbr eləyəsən.

B a h a r . Di onda salamat qal, dahı mən gedirəm. (*Durub qapıya tərəf gedir).*

M a h m u d. Nə deyirəm, gedirsən get, Allah yaxşı yol versin. Görünür sən ərindən əl çəkərsən, öz höcətliyindən əl çəkməzsən.

Ba h a r . Bəli, burada ağlayım, mənim bağrım çatlasın, sən də bunun adını höcətlik qoy! Mən burada bir dəqiqə oturmaram, salamat qal!

M a h m u d. Nə deyirəm, xoş gəldin. (*Gedib uzanır divanın üstündə*.)

B a h a r (*qapıya gedir, qayıdır*). Nə dedin? Tez ol sözünü de, tələsirəm.

M a h m u d. Kim nə dedi?

B a h a r . Bəs sən məni İndicə çağırmadın?

M a h m u d. Heç ağlıma da gəlmədi.

B a h a r . Onda salamat qal!

M a h m u d. Xoş gəldin.

B a h a r (*qapıya gedib, qayıdır*). Mahmud!

M a h m u d. Nə deyirsən?

B a h a r . İndi deyirsən qabın ağzını açmaq olmaz.

M a h m u d. Xeyr, olmaz.

B a h a r (*qeyzlə)*. Olmaz?!

Saat üç dəfə vurur.

M a h m u d. Yox, yox, yox! Bir az sakit ol, mənim yuxum gəlir, yatacağam, bəyin gəlməyinə bir saat qalır.

B a h a r . Hələ bir saat qalır?

M a h m u d. Bir saat çoxdur?

B a h a r (*qəzəbli*). Yəni deyirsən olmaz?

M a h m u d. Xeyr, olmaz!

B a h a r (*qeyzli*). Olmaz!

M a h m u d. Olmaz.

B a h a r (*yıxılır*). Ay ürəyim dağıldı!.. Ay öldüm!.. Ay Allahı sevən!..

M a h m u d (qalxıb cəld onun yanına gəlir). Bahar, nə qayırırsan? Nə oldu sənə, Qurbanın olum!..

B a h a r . Öldüm, öldüm, öldüm!

M a h m u d. Axır nə oldu sənə? Niyə elə eləyirsən? Ala, şərbət verim, iç... İçmirsən? Bəs nə istəyirsən, onu de?

B a h a r . O qabın ağzını açmasan, öləcəyəm.

M a h m u d. Di yaxşı, gəl açım. (*Bahar durub gəlir qabın yanına.)* İndi ürəyin sakit oldumu?

B a h a r . Hə, oldu.

M a h m u d. Çox gözəl, di get otur yerində.

B a h a r . Bəs qab?

M a h m u d. Axı olmaz, vallah olmaz. Bir azca gözləsən nə olar?

Ba h a r . Görünür, sən mənim ölməyimi istəyirsən, mən də ölürəm. (*Yıxılır.*) Daha mən öldüm, mən səni halal elədim, sən də məni halal et.

M a h m u d (*ağlayır*). Öldü, vallah öldü! Mən nə tövr eləyim, başıma nə çarə qılım? Bahar, Bahar, ölmə Qurbanın olum... Bax, budur, açıram...

B a h a r . Di tez ol, aç... Canım çıxmamış bir gözüm görsün.

M a h m u d. Pənah Allaha, hər nə ola-ola! (*Qabın ağzını açır, içindən bir quş çıxıb uçur.)*

B a h a r (*yerindən sıçrayıb*). Qoyma, qaçdı! Tut! Qoyma!

M a h m u d. Gör nə tez dirildi.

B a h a r . Ay əməzək, Allah səni döysün! Niyə qoyurdun qaçsın, İndi nə tövr eləyək?.. Gödən, heyvan, öküz!..

M a h m u d. Bəli, gəl insana yaxşılıq elə, adını da öküz qoysunlar! Mən sənə demədimmi ki arvad, səbr elə?

B a h a r (*ağzını əyir*). Səbr elə, səbr elə... Çox da mən səbr eləmədim, gərək elə sən heyvanlığına salıb quşu qaçırdaydın? Ayının yekəsi!

M a h m u d. Nə eləyəydim, arvad, ölürdün axır?

B a h a r . Elə mən ölürəm dedim, sən də inandın?

M a h m u d. Ay bədbəxt kişilər! Övrətlər işi xarab eləsinlər, size də söysünlər. Görünür, bizim bəxtimiz belədir. Ax!.. Ax!.. Ax!.. Bir belə dövlət, bu gözəl ev, böyük cəlal, hamısı bir dəqiqədə pırr.. uçdu göyə. (*Saat dörd dəfə vurur.*) Bəli, ləzzət qurtardı!

Q a s ı m b ə y (*daxil olur*). Necəsiniz, əzizlərim? Yaxşı keçindinizmi?

M a h m u d. Allah ömrünü uzun eləsin, ağa, çox yaxşı keçİndik.

Q a s ı m b ə y. Qabla işiniz olmayıbdır?

M a h m u d. Xeyr, işimiz yoxdur.

Q a s ı m b ə y (*qulağını verir qaba*). İçəridən bir səs gəlmir, deyəsən, qabın altındakı yoxdur? (*Qabın ağzını açır.*) Baho... Bəs buradakı quş necə oldu? İndi, əzizlərim, belə görünür ki, dünyada insane nə qədər naz-nemət versən, yenə onun gözləri doymaz. Çox yaxşı olar ki, siz yenə qayıdasınız öz daxmanıza. Sizin gününüz orada buradan yaxşı keçir. Hər bir ehtiyacınız da olsa yenə mənim yanıma gələ bilərsiniz. Mən sizə həmişə kömək eləməyə hazıram. (*Gedir.)*

M a h m u d. B a h a r!

B a h a r . Nədir, M a h m u d?

M a h m u d. Bu nə işdi?

B a h a r . M a h m u d!

M a h m u d. Nədir, B a h a r?

B a h a r . Bu nə işdi?

M a h m u d. Ağlın nə kəsir?

B a h a r . Kimin? Mənim?

M a h m u d. Hə sənin.

B a h a r . Mənim ağlım heç zad kəsmir. Sənin ağlın nə kəsir?

M a h m u d. Kimin? Mənim?

B a h a r . Hə, sənin.

M a h m u d. Mənim də ağlım heç zad kəsmir.

B a h a r . İndi deyirsən gedək?

M a h m u d. Bəs ağamız buyurandan sonra getməyib nə qayıracağıq? Dayanma, tez ol gedək.

B a h a r . Nə deyirəm, gedək deyirsən gedək.

M a h m u d. Di düş qabağıma. Ay Həvvanın halalca balası.

Gedirlər.

PƏRDƏ

AC HƏRİFLƏR

Məzhəkə bir məclisdə

ƏŞXAS

H ə s ə n –	kababçı
Z ə r b ə l i –	şagirdi
İb r a h i m b ə y –	çinovnik
V ə l i	
H ü s e y n	} artistlər
Mirzə M a h m u d – “	İftira” qəzetinin mühərriri
S a l m a n	
S ü l e y m a n	} iki yoldaş
L ə t i f	
S ə m ə d	}qonaqlar
Ə h m ə d	
R z a	

Əhvalat keçir kababçı Həsənin dükanında, bizim əsrimizdə.

Kababçı Həsənin dükanı. Beş dənə qırmızı süfrə ilə örtülmüş stol qoyulub, ikisi müqabildə, ikisi dalda, biri ortada. Dükanın iki qapısı var: biri ortadan küçə qapısı və sağ tərəfdən mətbəx qapısı. Müqabildə, sağ tərəfdə qoyulmuş stolun dalında üzü camaata tərəf İbrahim bəy əyləşib. Dal stolların birində Lətif və Səməd, ortalıqda Rza əyləşiblər. Hamı çörək yeməyə məşğuldular. Mətbəxdən dəhrə-taxta səsi gəlir.

İb r a h i m b ə y (*qaşıqla su şüşəsini döyür*). Kababçı! Kababçı!

Z ə r b ə l i (*gəlir*). Nə buyurursan?

İ b r a h i m b ə y . Xozeyni buraya çağır.

Z ə r b ə l i . Xozeyin dolma bükür, nə qulluğun var buyur.

İ b r a h i m b ə y . Get xozeyni çağır deyirəm sənə, xozeyni çağır. Füzul milləti füzul! Cəld ol! Sürük! (*Zərbəli gedir*.)

H ə s ə n (*daxil olur*). Bəy nə buyurardun?

İ b r a h i m b ə y . Yaxına gəl görüm. (*Həsən yaxına gəlir*.) Nə olub yenə qaş-qabağını turşaldıbsan?

H ə s ə n. Heç, elə belə, bazarın kasadlığı ovqatımı təlx eləyib.

İ b r a h i m b ə y . Ah, mən də deyirəm görəsən nə olub. Adam da dünya malı üçün ürəyini qısarmı? Bir gün mədaxil çox olar, bir gün az olar, nə lazım ürək qısmaq? Məsələn, mən dünən aldığım məvacibi qəpiyinədək uduzmuşam, heç əsla vecimə deyil.

H ə s ə n. Onda, görünür, bu gün də bizim hesabı çəkməyəcəksən?

İ b r a h i m b ə y . Hesabın bura nə dəxli var? Mən sənə neçə borcluyam?

H ə s ə n. Bu saat. (*Çağırır.*) Ay gədə, Zərbəli, Zərbəli! Zərbəli. Bəli!

H ə s ə n. Çortkəni bura gətir! Tez! (*Zərbəli çox çirkli çotkə gətirib verir, yenə gedir.*) Keçmişdən qalıb iki manat altı şahı üç qəpik, bugünkü də iki abbası. Cümlətani eyləyir iki manat on dörd şahı üç qəpik.

İ b r a h i m b ə y . Iki manat on dörd şahı üç qəpik. Yəni iki manat yetmiş üç qəpik.

H ə s ə n. Bəli, iki manat yetmiş üç qəpik.

İb r a h i m b ə y . Çox gözəl! Nə az imiş, mən çox bilirdim. İki manat yetmiş üç qəpik. A kişi, Allah bərəkət versin müsəlman aşpazxanasına. Qarnın doyunca yeyirsən, özü də ucuz. O gün bir nəfər yoldaşım məni restorana qonaq aparmışdı. Quzu əti istədim, bir parça gətirdi, heç yarım girvənkə olmazdı. Qiyməti neçə? Manat yarım. Dedim: ay nainsaf uşağı, məgər sizin Allahınız yoxdur? Bizim yerlərdə manat yarıma bir bütöv quzu almaq olar. Deyir ki, bəs nə bilim icarəyə bir belə verirəm, məvacib bir belə, tüstü pulu bir belə... Cəhənnəmə ver, gora ver! Allah bərəkət versin Həsən dayının restoranına, hesabın nə elədi?

H ə s ə n. İki manat yetmiş üç qəpik.

İ b r a h i m b ə y . Çox gözəl. (*Əlini şalvar cibinə salıb, əvvəl sağ tərəfə, sonra sol tərəfə, axırda qoltuq cibinə salıb, papiros qutusunu çıxarıb içindən bir papiros çıxardır.*) Bir spiçka ver.

H ə s ə n (*çağırır*). A gədə, Zərbəli!

Zərbəli (*mətbəxdən*). Bəli!

H ə s ə n. Çor bəli, zəhrimar bəli, vərəm bəli! Spiçka gətir.

Zərbəli spiçka əvəzinə maşada od gətirir.

İb r a h i m b ə y (*yandırıb ayağa qalxır*). İki manat yetmiş üç qəpik, xub, sabah çatar.

H ə s ə n. A başına dönüm, necə çatar? Ayın iyirmisinə vədə qoymuşdun, ayın iyirmisi də dünən keçdi, gəlmədin, bu gün də belə deyirsən, axı mən də yazığam.

İ b r a h i m b ə y. Yazığam deyəndə, mənim iki manat yetmiş üç qəpiyimə möhtac deyilsən. Adamsan, deyirəm sabah çatar.

H ə s ə n. Bəy, doğrusu, gərək bu gün verəsən, sabaha gözləyə bilməyəcəyəm.

İ b r a h i m b ə y. Gözləyə bilməyəcəksən, gözləmə! Yerdən çıxardım pulu? Adamsan, sənə dedim ki, olan pulumu uduzmuşam.

H ə s ə n. Ay bəy, bəlkə sabah da vermədin, necə olsun?

İ b r a h i m b ə y. Necə olsun? Sabah olmasın, iki gündən sonra olsun, beş gündən sonra olsun, gələn həftə olsun. Yeməyəcəyəm sənin

H ə s ə n (*onu qabaqlayır*). Bəy, Allahı arada gör, məni incitmə.

İ b r a h i m b ə y. A kişi, çəkil kənara, görüm a! Səninlə yumşaq danışdıqca azırsan. (*İtələyib tez qapıdan çıxır.)*

H ə s ə n (*onun dalınca*). Ay bəy! Ay bəy! (*Qayıdır, üzünü tutur sair çörək yeyənlərə*.) Bu da bəy! Qoyasan axşamadək papağını əyri qoyub, çəkməsini cırıldada, knyaz kimi gəzə. Cibində də bir qəpik qara pul yox! Adamla da elə danışır, guya Babaxan sərdarın oğludur! Apar, istəmədim o iki manat yetmiş üç qəpiyi. O da sənin, Allahın min bir bəlası da! Adın da utanmır, bəy qoyur.

Mirzə Mahmud daxil olur.

H ə s ə n. Mirzə, buyurgilən! Nə yeyəcəksən? (*Yer göstərir*.)

M i r z ə M a h m u d (*əyləşir, işarə ilə Həsəni çağırıb yavaşdan qulağına deyir*.) Mənim üçün, deginən, yarım porsiya kotlet versinlər.

H ə s ə n (*ucadan çağırır*). A gədə, Zərbəli!

M i r z ə M a h m u d işarə edir ki, qışqırmasın.

Z ə r b ə l i (*mətbəxdən*). Bəli.

H ə s ə n (*ucadan*). Mirzə Mahmud üçün yarım pors kotlet gətir!

Z ə r b ə l i (*mətbəxdən*). Bu saat!

Zərbəli boşqab, çörək gətirib qoyur. Lətif boşqabı döyür, Zərbəli ora tərəf gedir. Həsən mətbəxə gedir.

L ə t i f. Zərbəli, qoçaq oğlan, gəlsənə mənə bir manat borc verəsən, şənbə günü sənə bir manat altı şahı verim!

Zərbəli. Baş üstə, özümdə yoxdur, gedim xozeyndən alım. (*Gedir, sonra kotlet gətirib Mirzə Mahmudun qabağına qoyur. Manatı da aparıb Lətifə verir.*) Buyur!

L ə t i f (*pulu alır*). Çox sağ ol. (*Çağırır.*) Həsən dayı!

H ə s ə n (*mətbəxdən*). Bəli, bu saat! (*Daxil olur.*) Nə buyurursan?

L ə t i f . Neçə verəcəyik?

H ə s ə n. Zərbəli, ağalara nə veribsən? Zərbəli. Bir dənə piti, on dənə lüləkabab.

H ə s ə n. Piti iki abbası, lüləkabab da bir abbası, cəmi üç abbası.

L ə t i f . Al! (*Manatı verir.*)

H ə s ə n (*pulu alıb artığını qaytarır*). Bu da sizin iki abbasınız. Allah bərəkət versin.

L ə t i f v ə S ə m ə d . Xudahafiz.

Gedirlər.

H ə s ə n. Müşərrəf elədiniz, göz üstə gəldiniz.

H ü s e y n, Vəli daxil olurlar, ikisi də Həsənə yaxınlaşıb, qulağına söz deyirlər.

H ə s ə n (*ucadan)*. Xeyr, xeyr, əstəğfürullah, mən, əlhəmdülillah, özüm müsəlman, bura da müsəlman aşpazxanası, mən elə şeyləri burada saxlayamı bilərəm? Qiyamətdə mən nə cavab verərəm?

H ü s e y n. Mən ölüm, mümkün isə düzəlt, yoxsa biz artist babayıq, onsuz bir tikə çörək yeyə bilmərik.

H ə s ə n. Ərz eləyirəm ki, tapılmaz.

V ə l i (*Hüseynə*). A kişi, nahaq yerə nə başını ağrıdırsan? Görürsən vermir. Gəl gedək restoranların birisində qaydasınca özümüzü doyuzduraq. Mən dedim mənfəəti müsəlmana verək. Niyə qaradavoy dal qapıdan mətbəxə girəndə tapılar, artist gələndə tapılmaz? Gəl bəri, gedək.

İstəyirlər getsinlər.

H ə s ə n. Bir geri qayıdın. (*Hüseyn, Vəli qayıdırlar*.) Təvəqqe edirəm bir adam bilməsin, yoxsa aksız gələr dükanımı kökündən bağlar.

V ə l i v ə H ü s e y n . Bu nə sözdür, biz məgər şpiyonuq?

H ə s ə n. Onda buyurun mətbəxə.

H ü s e y n və Vəli mətbəxə gedirlər.

Mirzə M a h m u d *(onları səsləyir*). Cənab artistlər!

Və l i . Mirzə Mahmud, burada imişsən? Bağışla, sənin canın üçün görmədik.

M i r z ə M a h m u d. Artistin etibarı belədir, ehtiyacı olanda adamı gecə-gündüz axtarar, olmayanda arağı tək içərlər. Eybi yoxdur, mən də bu həftə qəzetdə sizin başınıza bir oyun açım ki, bir də səhnə adı eşidəndə gözləriniz xortdamış ölünün gözlərinə oxşasın. Eybi yox!

H ü s e y n v ə Və l i. A kişi, sən Allah, oyunbazlıq eləmə. Sən öləsən, görmədik, gəl bəri.

Dartıb onu mətbəxə aparırlar. Əhməd daxil olur.

Rz a . Di gəl çıx da! Gözləməkdən səni təngə gəldim ki. Budur, yarım saatdır naharı qurtarmışam, dura bilmirəm.

Ə h m ə d (*əyləşir*). Çox danışma, nökəri çağır.

R z a (*yumruqla stolu döyür, Zərbəli gəlir*). Gör ağa nə istəyir, gətir. (*Əhmədə*) Nə yeyəcəksən?

Ə h m ə d . Heç zad yeməyəcəyəm, bu saat nahar eləmişəm. Əgər olsa bir stəkan qəhvə içərəm.

Z ə r b ə l i . Qəhvə yoxdur, yaxşı təzə dəmlənmiş Popov çayımız var.

Ə h m ə d . Bir stəkan tök gətir, açıq elə, özü də dişləmə.

Z ə r b ə l i . Baş üstə. (*Gedir*.)

Hüseyn, Vəli, Mirzə Mahmud qayıdırlar. Hərəsinin əlində bir parça çörək və bir qədər penir. Mirzə Mahmud öz yerində əyləşir. Hüseyn, Vəli də özgə stulda. Zərbəli bir stəkan çay gətirib Əhmədə verir, sonra gedir Hüseynlə Vəliyə tərəf.

Z ə r b ə l i . Nə buyuracaqsınız?

H ü s e y n. Nəyin var yeməyə?

Danışıq əsnasında Salman ahəstə daxil olur, qapının ağzında dayanıb qarnını ovcalaya-ovcalaya o yan-bu yana baxır, sonra gəlib qabaqda, sağ tərəfdə qoyulmuş stolun yanında oturur.

Z ə r b ə l i . Yaxşı lətif piti var, küftə-bozbaş var, kəlləpaça var, kotlet var.

H ü s e y n. Mənim üçün kəlləpaça gətir.

Və l i . Mənim üçün də.

Z ə r b ə l i . Baş üstə. (*Gedir)*.

S ü l e y m a n daxil olub S a l m a nın yanında durur.

216

S ü l e y m a n. A balam, sən Salman deyilsən?

S a lma n . Dayan, bəs səndə Süleyman deyilsən?

S ü l e y m a n. Ay sənə Qurban olum, a Salman, bu neçə ildir haradasan? Bircə gəl öpüşək!

Qucaqlaşıb öpüşürlər.

S a lma n . Bir əyləş görək. (*Yumruğu ilə stolu döyür.)*

Z ə r b ə l i (*mətbəxdən*). Bu saat! (*Daxil olub, iki qab kəlləpaça Hüseynlə Vəliyə verir. Sonra Salmanla Süleymanın yanına gəlir).*

S a lma n . İki dənə piti gətir.

Z ə r b ə l i . Baş üstə (*Gedir).*

S a l m a n (Süleymana). Bircə de görüm, bu neçə ildə harada idin? Heç səndən bir xəbər gəlmirdi.

S ü l e y m a n. Sibirdə dəmiryol podratına girmişdim. Bir neçə il yaxşı qazandım. Axırda işim əydi. Əlimdə olanın hamısı çıxdı, ancaq bir yol xərci düzəldib vətənə qayıtmışam. Sən harada idin, nə işdəsən?

Zərbəli pitiləri gətirib qoyur.

S a lma n . Çörəyimizi yeyək, gedək şəhər bağına. Mənim qəzavüqədərim çox uzundur. Orada nağıl edərəm.

Yeyirlər, ahəstə söhbət edirlər.

M i r z ə M a h m u d (hirsli qalxıb stolu bərk döyür.) Kababçı! Kababçı!

Z ə r b ə l i (daxil olub). Nə buyursan?

M i r z ə M a h m u d. Bu saat xozeyni buraya göndər?

Zərbəli çıxır.

H ə s ə n (*daxil olub*). A mirzə, nə olub belə qışqırırsan?

M i r z ə M a h m u d. Nə olacaq, yaxına gəl. (*Həsən gəlir*.) Bu nədir?

H ə s ə n. Bir şey deyil, ətin damarıdır.

M i r z ə M a h m u d. Dürüst bax, bu, damardır, ya ki siçan quyruğu? Sən məni nə hesab eləyirsən? İndi mən düşünürəm ki, əhali arasında gündən-günə intişarı artan taunun, vəbanın, yatalağın və sair imrazi-misriyyənin səbəbi nədir. Hamısına bais sənin aşxanan tək mənbələrdir.

H ə s ə n (*üzünü qonaqlara tutur*). A sizə Qurban olum, bircə məni başa salın görüm, bu nə deyir? Itəm əgər bunun bir sözünü anlayıramsa.

Mirzə M a h m u d. Əlbəttə anlamazsan və anlamamağın da təbiidir. Siz loqantaçılar fəqət öz mənafeyi-şəxsiyyətinizi təqib etməkdəsiniz. Odur ki, mənafeyinizə aid olan bəyanatı anlamırsınız. Sən məni tanıyırsan, ya yox?

H ə s ə n. Necə tanımıram. Mirzə Mahmudsan da!

M i r z ə M a h m u d. Bəli, Mirzə Mahmudam, necə Mirzə Mahmud? "İftira" cəridəsinin məşhur mühərriri. Mən, əlbəttə, gərək öz hifzisəhhəti üçün müqəyyəd olanları müttəle edəm. İştə, sabah "İftira"nın əvvəlinci səhifəsində yüz sətirdən ibarət bu sərlövhəli məqaləni oxuyursan: "Təxribi-mədəhayi-xəlayiq, yaxud kotlet içində siçan quyruğu". O məqaləni oxuyanlar hamısı belə məbdəyi-imrazdan əlbəttə ictinab edərlər.

H ə s ə n. Ay mirzə, Allahı sevərsən, kasıb adamam, mənim evimi yıxma, yediyin nahar da ana südü kimi halalın olsun.

M i r z ə M a h m u d. Nə dedin? Sən mənim məsləkimi bir nahara satın almaq istəyirsən? Mən sənə o ixtiyarı heç vədə vermərəm.

H ə s ə n (*artistlərə*). Ay ağalar, siz Allah, bunu bir tövr görün rəhmə gətirə bilərsinizmi?

H ü s e y n. H ə s ə n dayı, buraya gəl. (*Kənara çəkir.*) Gör bir-iki manatın varmı, ver ağzı yumulsun. Həqiqət, gedib qəzetdə yazsa, gərək dükanını bağlayasan.

H ə s ə n. Vallah, bir manat pulum var.

H ü s e y n. Hər nədir ver, qəbul elər.

H ə s ə n (*gedib Mirzə Mahmudun ovcuna bir manat basır*). Mirzə, təvəqqe edirəm, bunu da papirosa verəsən. Altı baş külfətim var, mənim evimi yıxma.

M i r z ə M a h m u d (*pulu atır*). Xam xəyal etmə, əzizim! Sən bunu bil ki, qəzet mühərriri, ələlxüsus "İftira" cəridəsinin mühərriri heç vədə öz əqidəsini və məsləkini cifeyi-dünyaya satmaz.

V ə l i (*manatı götürüb verir Mirzə Mahmuda)*. A kişi, füzulluq nə lazımdır? Yüz sətir yazıb bir manat alacaqsan, bu sənin bir manatın. Nahar da müftə düşdü, dahı nə istəyirsən?

H ə s ə n (*Salmanla Süleymana*). Ay ağalar, siz Allah, siz də təvəqqe edin bəlkə mənə rəhmi gələ.

Salman, Süleyman və artistlər Mirzə Mahmudu əhatə edirlər.

Rza *(Əhmədə*). Aralıq qarışıq ikən mən əkilim, sən otur burada.

Ə h m ə d . Əkil, eybi yoxdur.

Rza gedir.

M i r z ə M a h m u d. Bu dəfə səni bu şəxslərə bağışladım. Bundan sonra təbəxlərə dürüst diqqət edərsən. (*Gedir.)*

H ə s ə n. Baş üstə, can üstə. Şükür Allaha, bir manat pul, yarım pors kotletlə qurtardım.

Qonaqlar qayıdıb yerlərində əyləşirlər. Əhməd stəkanı döyür,
Həsən ona tərəf gəlir.

Ə h m ə d . Al. (*Pul verir*.)

H ə s ə n (*pula baxır)*. Nə verirsən?

Ə h m ə d . Nə verəcəyəm?! Bir stəkan dişləmə çay içmişəm, elər bir qəpik, qəpiyini al.

H ə s ə n. Bəs yoldaşın yeyən naharın pulu necə olsun?

Ə h m ə d . Mən nə bilim necə olsun? Ona da ki, mən borclu deyiləm. Bir stəkan çay içmişəm, borcluyam pulunu verim.

H ə s ə n. Bəs yoldaşın necə oldu?

Ə h m ə d . Çıxdı. Dedi, bu saat qayırdıram. Qayıdar, pulunu alarsan.

(*Gedir*.)

H ə s ə n (*çağırır*). Zərbəli! Zərbəli! (*Zərbəli daxil olur*.) A gədə, kor oğlu kor, qonaq durur gedir, xəbərin niyə olmur? Bir çıx gör burada çörək yeyən necə oldu. Cəld! (*Zərbəli çıxır*.) Ay camaat, bugünkü gün mən nə günah eləmişəm? Kim mənə qarğıyıb? Çörək yeyən qaçır, çörək yeyən qaçır. Adlarını ağa qoyublar, hamısı julikdirlər, julik!.. (*Zərbəli gəlir*.) Necə oldu?

Z ə r b ə l i. Usta, getdim yolda ətəklədim, bir qapaz vurdu yıxıldım, mən durunca mindi konkaya qaçdı.

H ə s ə n. Yerə soxum səni, qaradavoy çağıra bilmirdin? Yaxşı, get mətbəxə, ay tamam olan kimi səni iti qovan kimi qovacağam! Get.

Həsən və Zərbəli mətbəxə gedirlər.

H ü s e y n (*Vəliyə*). Yedin, qurtardın?..

V ə l i . Qurtardım.

H ü s e y n. Di başla görək.

V ə l i (*öskürür*). A balam, sən özünə artist deyirsən? Sən yüz il qanqal otlayasan, Mazandaranskinin bir dırnağı ola bilməzsən.

H ü s e y n. Sən nə anlayırsan artist nəyə deyirlər? Nə qədər eşşək zəfəranplovdan bir şey anlasa, bir elə də sən anlarsan ki, artist-tragik nədir?

Və l i . Mən anlamıram? Mən özüm tragik olmadım, nə olar. Mən başımın tükü sanı artistlər görmüşəm. Sənin tək dövr-əz həzərat artistin yüzünü çaya susuz aparıb qaytararam. Mazandaranskinin müqabilində sən heç bir milçək də deyilsən. Onun Frans fon Moor rolunda atasını boğmağı sənin cəmi oynamağına dəyər.

H ü s e y n. Odur ki, heç zad anlamırsan da. Mən Mazandaranski tək adamla səhnəyə çıxmağı öz adıma layiq bilmirəm. Boynun ardından tutub şah damarı sıxmağa boğmaq deyərlər? Odur ki, qırx yaşın var, hələ prostaqsan.

Və l i . Hirslənmək lazım deyil.

H ü s e y n. Necə hirslənməyim? Qanmayıb, danışıb bədənimə od qoyursan. Mazandaranski də artistdir, o da artistdir?

H ə s ə n (*yaxına gəlib*). A başınıza dönüm, sizə nə olub dalaşırsınız?

H ü s e y n. Heç bir adını artist qoyan, adamı dalda boğmaz. Adamı, bax, belə boğarlar. (*Həsənin boğazından yapışıb boğur*.)

H ə s ə n (*qışqırır*). A başına dönüm, məni niyə öldürürsən? Ay boğuldum, ay öldüm, qoymayın. (*Yıxılır*.)

H ü s e y n (*Vəliyə*). İndi görürsənmi, heyvan, necə boğmaq lazımdır ki, effekt olsun? Sənin Mazandaranskin mənim əlimə su tökməyə yaramaz.

H ə s ə n (*ayağa qalxır*). Ay canım, məni niyə öldürürsünüz, mən nə günahın sahibiyəm?

H ü s e y n. Bağışla, Həsən dayı. (*Üzündən öpür*.) Artist ki qızışdı, daha gözləri yeri-göyü görməz. Mən bu heyvan yoldaşıma səhnədə adam boğmağın qaydasını göstərirəm.

H ə s ə n. Yoldaşına teatr qaydası göstərirsən, mənim boğazımın taqsırı nədir? Bəlkə mən öləydim?

H ü s e y n. Ondan xatircəm ol. Artist adamı elə boğmaz ki, ölə. Mən ölüm bağışla. Elə səndən soruşacağam, Həsən dayı, heç teatra gedibsən?

H ə s ə n. Bu il azından yüz dəfə.

H ü s e y n. Afərin, Həsən dayı!

H ə s ə n. Elə gün olub beş dəfə getmişəm.

H ü s e y n. Neçə, beş dəfə? Teatra bir gündə bir dəfə gedirlər. Düşəndə bir-iki dəfə gedirlər, o da bayramda-zadda.

H ə s ə n. Mənim yerimə sən olsaydın, gündə iyirmi beş dəfə gedərdin. Allah evlərini yıxsın rus oyunçularının. Məndən qırx-əlli manatlıq yeyinti aparmışdılar, gedib-gəlməkdən təngə gəldim. Axırda bir on iki manatım da qırıldı onlarda qaldı. Dedim, atalarının əti olsun, qoy aparsınlar.

H ü s e y n. Bəs heç teatrın içinə girməyibsən?

H ə s ə n. Teatrın içində mənim nə işim var? Kasıb babayam, mənim teatrım elə bu aşpazxanamdır. (*Gedir.*)

Və l i . Yoxsa öz oynamağın barəsində kababçı Həsən kimi böyük bir tənqidçinin rəyini soruşmaq istəyirdin? Afərin sənin tək tragik artistə.

H ü s e y n (*qeyzlə*). Vəli, buna namusa sataşmaq deyərlər. Artistin namusu hər namusa bənzəməz. Mən bunu qəbul eləyə bilmərəm. Gərək bu saat burada mənimlə duelə çıxasan. (*Tapança çıxarır.*) Bu dünyada gərək ya sən qalasan, ya mən. (*Salmanla Süleymana*) Qardaşlar, buraya zəhmət çəkin, siz burada bizim sekundantımız olun. (*Vəliyə)* Tapançanı çıxart!

Salman və Süleyman durub gəlirlər.

Və l i . Mənim əqidəmcə, duel haram bir əməldir. Mən harama mürtəkib ola bilmərəm.

H ü s e y n. Bəs onda sən qorxaq tülküsən. Tülkünü də gərək tülkü tək öldürmək. Al gəldi. (*Havaya bir güllə atır.*)

V ə l i (*qışqırır)*. Ay müsəlmanlar, qoymayın, bu kafir məni öldürdü! Ay haray, ay aman!

H ə s ə n (*cəld gəlir*). A kişilər, niyə bir-birinizi qırırsınız, amandır, Allahdan qorxun, bura qan tökməyin. A gədə, Zərbəli! Zərbəli!

Z ə r b ə l i . Buradayam, xozeyin!

H ə s ə n. A gədə, tez ol, qaradovoy çağır! Cəld ol! Yüyür!

Zərbəli qapıya tərəf gedir, Hüseyn qabağını kəsir.

H ü s e y n. Qayıt geri, yoxsa iti öldürən kimi öldürərəm! Zərbəli mətbəxə qaçır. Vəli isə "ay haray, ay qoymayın", deyə-deyə dolanır,

H ü s e y n onun dalınca. Axırda Vəli özünü pəncərədən çölə atır.

H ü s e y n. Mənim əlimdən sən heç haraya qaçıb qurtara bilməyəcəksən. (*Dalınca pəncərədən atılır.*)

H ə s ə n. A kişilər, görürsünüz? Heç nahaqdan bir-birini öldürüb, qanı tökəcəkdilər dükana, mən də düşəcəkdim işə. Gərək il uzunu

işimi-gücümü, dükanımı unudub, divana yol döyəydim. Yaxşı oldu rədd oldular. Kəlləpaçanın da pulu cəhənnəm, tək xatalarını başımdan sovsunlar. Lap dəli imişlər ki! Bu oyunbazların əlindən nələr çəkmişəm, onu bir tək mən bilirəm. Rus oyunçularından əlli manatımın otuz səkkizini alınca anadan əmdiyim süd burnumdan gəldi. Bu müsəlman oyunbazları da onlardan qalmazlar. Bunların hamısını bir qalıbdan çıxarıblar. Qəribə də özlərinə ad qoyublar: deyirlər, biz oyunbaz deyilik, biz "arsız"ıq. Heç belə ad olmaz, arsız ki, arsız. (*Gedir*.)

S a lma n . S ü l e y m a n, getməyək?

S ü l e y m a n. Naharı elədik, tay nə oturaq, dur gedək bağa.

S a lma n . Onda çağıraq aşpazı, pulunu verək. (*Əlini cibinə salır*.)

S ü l e y m a n. Nə qayırırsan? Elə şey ola bilməz. Naharın pulu məndən çatacaq.

S a lma n . Sənin canın üçün, əsla qəbul eləmərəm. Yoxsa neçə ilin ayrılığından sonra istəyirsən aramıza inciklik düşsün? Səni mən göydə axtarırdım, yerdə əlimə düşübsən. Mən ki səni bir dəfə qonaq etməyəcəyəm, nəyə lazımam?

S ü l e y m a n. Bu dəfə qoy mən verim pulu. Sabah mən sənə qonaq olaram.

S a lma n . Mən sənin canına and içmişəm, andımı pozsam adam olmaram.

S ü l e y m a n. Xub, sözüm yoxdur, tək sənin xatirin xoş olsun, verirsən ver.

S a l m a n. Bax belə söylə ki, xoşuma gələsən. (*Ciblərini axtarır*.) Süleyman, bir iş var axı... Sən öləsən, heç belə yaman işə düşməmişdim...

S ü l e y m a n. Nə olub?

S a l m a n . Nə olacaq, xəcalət çəkirəm deməyə, pul kisəm evdə qalıb.

S ü l e y m a n. Birdibli deginən pulum yoxdur. Sən öləsən, mənim özümdə də diş qurtlamağa bir quruş tapılmaz.

S a lma n . Bəs onda tədbir lazımdır. (*Durub Süleymanın qulağına söz deyib əyləşir yerində*.)

S ü l e y m a n. Çox gözəl tədbirdir. Heç belə tədbir olmaz. (Qabı döyür.)

H ə s ə n (daxil olur). Nə buyurursunuz?

S ü l e y m a n. Neçə çatacaq? (*Durur ayağa*.)

H ə s ə n. Dörd abbası.

S a l m a n (*yaxına gəlib*). Heç mümkün deyil, naharın pulu məndən çatacaq. Məşədi, buraya gəl. (*Həsənin qolundan tutub səhnənin o başına aparır.)*

S ü l e y m a n. Kişinin sözü bir olar. Demişəm nahara qonaqsan, danışma. (*Gedib Həsənin qolundan tutub səhnənin o biri tərəfinə çəkir. Orada cibini qurtdalayır, guya pul çıxarmaq istəyir*.)

S a lma n . S ü l e y m a n, mən ölüm, bu qədim höcətliyindən əl götür. Bu nə xasiyyətdir səndə? (*Gəlib Həsənin qolundan tutub o biri tərəfə aparır*.) Bəri gəl.

S ü l e y m a n. Deyirəm qəbul etməyəcəm, inan! Yoxsa aramızda həqiqət, inciklik olar. (*Həsənin qolundan tutub o başa aparır.*) Buraya gəl!

H ə s ə n. A başınıza dönüm, bunun maliyyəti dörd abbasıdır. Hansınız verirsiniz verin, daha məni niyə çaqqal sürütməsi eləyirsiniz?

S a l m a n (Həsənə). Məşədi, biz iki dostuq, neçə ildir bir-birimizdən ayrılmışıq. Heç sən də razı olmaginən ki, dörd abbasının üstündə bizim davamız düşsün.

H ə s ə n. Allah eləməsin, dörd abbası nə artıq şeydir ki, onun üstündə bir dava da salasınız. Hər biriniz iki abbası verin, qurtarsın getsin.

S a lma n . O da olmayacaq. Sən gəl bir şeyi qəbul elə. Biz dəsmalla sənin gözlərini bağlayaq. Hansımızı tutsan, pulu o versin.

H ə s ə n. Nə deyirəm, təki sizin aranızda inciklik düşməsin.

H ə s ə nin kəmərindən dəsmalını alıb gözlərini bağlayırlar, sonra qaçırlar.

H ə s ə n iki qollarını açıb axtarır. Bu halda Zərbəli mətbəxdən çıxıb Həsənə tərəf gəlir.

H ə s ə n (*Zərbəlini qucaqlayır*). Aha, yaxşı tutmuşam. (*Dəsmalı gözündən götürüb, Zərbəlinin başına qapaz vurur*). Sən nə əlayağa dolaşırsan, nadürüst məlun! Yolla düz gedə bilmirsən? Yə! *(Mat-məhbut o yan-bu yana baxır*).

PƏRDƏ

XƏYALAT

Mirzə Fətəli Axundovun təvəllüdünün yüz illik yubileyi münasibətilə yazılmış

Bir məclisdə

ƏŞXAS

Mirzə Fətəli Axundov	
Rəşid –	onun oğlu
Kitabpaylayanşəxs	
Hatəmxan ağa –	mülkədar, qarabağlı
Hacı Qara –	sövdagər
Dərviş Məstəlişah –	cadugəri-məşhur
Molla İbrahim Xəlil –	kimyagər
Nökər –	Mirzə Fətəlinin evində

Əhvalat vaqe olur Tiflisdə, Mirzə Fətəlinin evində. Mirzə Fətəli əyləşib yazıstolunun dalında. Daxil olur kitabpaylayan şəxs.

Mirzə Fətəli. Hə, nə xəbərlə gəldin? Kitabların hamısını paylaya bildinmi?

Kitabpaylayan. Nə ərz edim? Elə payladım ki, paylamasaydım ondan yaxşı olardı.

Mirzə Fətəli. Necə?

Kitabpaylayan. Bir müsəlman kitaba yaxın düşmədi. Hər kəsə verdim, dedi...

Mirzə Fətəli. Nə dedi?

Kitabpaylayan. Deyə bilmirəm. Qorxuram ovqatınız təlx ola.

Mirzə Fətəli. Sən deməmiş də mən özüm anlayıram. Deyiblər, at o yana kafirin kitabını! Belədirmi?

Kitabpaylayan. Bəli! Deyirlər kitab oxumaq istəsək, o qədər lazımlı kitablar var ki, üstünü toz basa-basa qalıb bu şkaflarda. Oturub hər qaravəllini oxusaq, gərək adımızı dəli qoyaq. Hətta bir bəy var idi, dedi: "Mən Mirzə Fətəlini yaxşı tanıyıram, özü ilə da qədimdən aşna-

lığım var. Ona deginən ki, o bir ağıllı adam sayılır, eyib deyilmi ki, belə cəfəngiyata qələmini sərf edib, özünü aləm içində rüsvay edir" Bu halda bir hacı üzünü camaata tutub dedi: "Camaat, qaçın bu kitablardan. Əgər bunlar mənfəətli kitablar olsaydı, camaata müftə paylamazdılar. Yəqin Mirzə Fətəli, necə ki, özü laməzhəb olub, Allahın yolundan çıxıb, elə də istəyir camaatı laməzhəb etsin". Xülasə, bir nəfər kitablara yaxın düşmədi.

M i r z ə F ə t ə l i . Bəs kitablar necə oldu?

K i t a b p a y l a y a n . Sabahı günü camaat kitabların üstünə bir halətlə töküldü ki, özüm də təəccüb etdim: dedim, aya, bir gecədə bu təğyir bunlarda haradan əmələ gəldi? Sonra eşitdim ki, bir mollanın təhkirinə görə gəlib, məndən kitabları alıb aparıb odlayıblar və bir qədərini də biri bir manatdan ermənilərə satıblar. Heyf olsun sizin zəhmətiniz, səyiniz.

M i r z ə F ə t ə l i . Eybi yoxdur. Anlayana nəsihət etmək ağılsızlığa dəlalət edər. Nəsihəti avama, qanmayana edərlər. Avam əvvəl sənin nəsihətini anlamayacaq, sənə əziyyət edəcək, föhş verəcək. Hamısına mütəhəmmil olmalı. Bizdən qabaq da kişilər gəliblər və millət yolunda çalışıbdırlar. Onları nə müsibətlərə düçar ediblər? Öldürüblər, oda atıblar, kitablarını mənim kitablarım kimi odlayıblar. İllər keçib, zəmanələr dolanıb, o şəxslərin əkdikləri toxumlar bar verib. İndi onların qəbirləri ziyarətgah olubdur. Vaxt olar mənim də toxumlarım bar verər. Mən bəlkə o günləri görməyim. Amma oğlum, nəvələrim də görsələr mənə hesabdır. Camaatın avamlığına baxma, mən səpdiyim toxum qabil torpağa səpilib. Mən millətimin gələcəyinə və xoşbəxt günlərinə xatircəməm və bu xəyalla da ölüb gedəcəyəm. Hər bir qaranlığın axırı işıqdır və mənim millətim də yəqinİmdir ki, zülmətiəbədi içində deyil, onun da bir ışıqlı günləri var. O vədə öz babalarının əməllərindən xəcalət çəkib, xeyirxahları ilə bədxahlarını, əlbəttə, tanıyacaqlar. Arzu edərdim ki, mənim tək təkfir olanların qədəri çox olaydı, bəlkə millətin işıqlı günü tez gələydi. (*Kitabpaylayana*) Zəhmət çəkibsən, yorulubsan, get rahat ol.

K i t a b p a y l a y a n . Mirzə, mənim zəhmətlərim sizin zəhmətlərinizin yüzdən biri ola bilməz. Millət yolunda zəhmət çəkmək böyük rahatlıq deyilmi?

M i r z ə F ə t ə l i . Kaş hamı belə anlayaydı! Nə olardı, bizim də sair millətlər tək hər şəhərdə üç-dörd qanan, oxumuş adamlarımız olaydı

ki, avama tərbiyə verib tərəqqi yolları göstərəydilər. Bu əyyamda şəhər camaatının ümidgahları axundlar və hacılardır. Kənd əhalisinin ümidgahı bəylərdir. Bunların heç birisi millət üçün çalışmır. Hamısı öz cibləri üçün zəhmət çəkirlər. Utanmırlar, həya eləmirlər, dindirəndə bir məsəl də çəkirlər, deyirlər: "El üçün ağlayan gözsüz qalar". Heç kəs onlara demir ki, ağlayın el üçün, ağlayın millət üçün, qoyun gözləriniz kor olsun. O qədər ağlayın, canınız çıxınca və bilin ki, sizin millət yolunda kor olan gözləriniz, ağlamayan gözlərin hamısından yaxşıdır! Namərdlər, namərdlər!.. Gözlü ikən korlar!.. Diri ikən ölmüşlər!.. (Kitabpaylayana) Get rahat ol!

Kitabpaylayan gedir. Rəşid – on beş yaşında uşaq, rəngi qaçmış daxil olur.

M i r z ə F ə t ə l i (Rəşidə). Bala, rəngin niyə qaçıb?

R ə ş i d . Ata, yola çıxıram, camaat məni rahat qoymur. Şkolaya gedib gəlincə iki min pis-pis sözlər deyirlər. Deyirlər ki, Mirzə Fətəlinin oğludur, bunun atası bütün müsəlmanların kişilərini, övrətlərini həcv edib. Onun evini dağıdıb, özünü də öldürəcəyik. Bir uşaq da dalımca bir daş atdı, dəysə idi, ölmüşdüm. Yaxşı ki, dəymədi. Ata, bəlkə gəldilər bizi qırdılar?

Mi r z ə F ə t ə l i . Qorxma, bala, heç kəs bizi öldürə bilməz. Sənin atan camaata haqq yolu göstərir. Böyüyüb təvarixdə də görərsən ki, haqq danışanlara nə əziyyətlər ediblər. Nə eybi var, qoy bizə də əziyyət etsinlər. Bir vaxt olar bu yaman danışan adamların övladları mənim zəhmətlərimə qiymət verərlər. Get ananın yanına, naharını elə.

Rəşid gedir.

N ö k ə r (*daxil olur*). Ağa, Hatəmxan ağa, budur, çox hirsli gəlir.

Mi r z ə F ə t ə l i . Qoy gəlsin.

Nökər çıxır.

H a t ə m x a n a ğ a (*daxil olur*). Çox sağ ol, mirzə! Çox sağ ol! Biz həmişə fəxr edərdik ki, müsəlmandan da bir nəfər çıxıbdır ki, bu mənsəbə çatıb, sərdara dilmanc olub. Sən də belə? A kişi, sənin atan bir mömin, müqəddəs molla idi. Heç utanmırsan, ata-babanın yolunu itirirsən?

Mi r z ə F ə t ə l i . Qızışma, Hatəmxan ağa! Bircə əyləş, görüm nə deyirsən?

H a t ə m x a n a ğ a . Əyləşməyəcəyəm. Gedirəm, elə bir neçə söz deməliyəm.

Mi r z ə F ə t ə l i . Buyur görək nə deyəcəksən?

H a t ə m x a n a ğ a . Cəmi aləm bilir ki, sən müsəlmanlıqdan çıxıbsan. Oruc bilməzsən, namaz bilməzsən, özün də rus qaydası ilə dolanırsan.Bu sənin öz işİndir, özün bilərsən və Allahına da qiyamətdə özün cavab verərsən. Bircə de görüm sair camaatdan nə istəyirsən? Sənsiz də elə camaat Allah yolunu itirib. Elə biri mənim özüm. Bir nəfər çör-çöp yığan kafir firəngi neçə vaxt evimdə saxlamışam. Evimeşiyim olub murdar. Qab-qacağım hamısı səgdəm. Dahı bundan artıq məndən nə istəyirsən? Yoxsa xahiş edirsən ki, bu ağsaqqal vaxtımda övrətin başından yaylığını alım, buraxım küçələrə? Və ya qolunu qoluma keçirib aparım o Müctəhid bağıdır, nə dağılmışdır, orada ona rusun çayını, qəhvəsini içirdim? Və ya bu ki, mən də qardaşım oğlu Şahbaz tək başımın tükünü uzadıb, iki yana darayım? Zəhmət çəkmə, mirzə! Zəhmət çəkmə! Mən heç vaxt ayağıma çəkmə geyib, küçələrin palçığını evimə gətirmərəm. Heç vaxt hənadan, rəngdən əl çəkmərəm. Yüz sənin tək Mirzə Fətəli gələ, mən bu gözəl əllərimi qoyub qaşıqla xörək yemərəm. Mən dəli deyiləm dörd ağacı bir-birinə calayıb adını kürsü qoyub, Məhərrəm bəyin qırğısı tək üstünə qonam. Ayıbdır, əzizim, özün, yenə deyirəm, hər nə bilirsən elə. Daha müsəlmanların əməllərinə toxunma. Bunun axırı xeyir nəticə verməz. Axırda rüsvayi-cahan olarsan.

Mi r z ə Fə t ə l i . Hatəmxan ağa! Mən əlimə qələm alanda rüsvayicahan olmağı, təkfiri, föhşü, hətta ölümü qəbul etmişəm. Hər nə deyəcəksən de. Hamısı qəbulumdur və nə səbəbə də qəbul etmişəm, onu sən anlamazsan. Ancaq bir vaxt olar, sənin oğlun və nəvən anlar. Sən mənə söyürsən, amma sənin oğlun və qəvən mənə rəhmət oxuyacaqlar, yəqin bil.

H a t ə m x a n a ğ a . Mənim oğlum? Mənim nəvəm? Səhv etmə! Mənim oğlum mənim belimdən əmələ gəlib. Mənim oğlum gədafərzənddən doğulmayıbdır! (*Qeyzli*) Əgər mənim oğlum mən tutduğum yoldan bir qədəm kənara qoya, mənə Allah lənət etsin əgər ona nifrət edib, onu oğulluqdan çıxartmasam. Elə oğlu Allah gərək qiyamətdə donuz sifətində gətirsin. Hələ bunlar hamısı bir kənara, sən mənim özümü məsxərəyə qoyubsan, bu heç, bu övrət-uşaqla nə işin var? Sən özün hərçənd müsəlmanlıqdan kənar bir adamsan, amma yenə nə qədər olsa, sənin qanın müsəlman qanıdır. Heç sənə müsəlmanın ismətinə toxunmaq yaraşarmı? Qardaş, niyə mənim övrətimin, qızımın adını camaat bilsin? Eyib olsun sənin üçün, çox eyib olsun!

Mi r z ə F ə t ə l i . Haqqın var, Hatəmxan ağa, sənin də cəmi sənə oxşayanların da haqları var. Mən sinəmi sizin nasəza sözlərinizə sipər eləmişəm.

H a t ə m x a n a ğ a . Bunlar hamısı heç bir şey deyil, məgərinki ədavət. Əlbəttə, gəda oğlu gəlib bir mənsəb sahibi olanda, bizim tək nəcib bəyləri bəyənməz. Eybi yoxdur, mən də gedərəm cəmi Qarabağın bəylərini yığaram bu yerə, deyərəm: "Ay bəylər, bir nəfər şəkili mollasının oğlu gedib oturub Tiflisdə, hamı biz bəylərdə sataşmamış yer qoymadı. Özümüzü məsxərə edib, övrət-uşaqlarımızı məsxərə edib, dolanacağımıza sataşır, dinimizə, məzhəbimizə əl atır, gərək bu... Əstəğfürullah, yenə ağzıma gələni demişdim... Gərək onun ağzı yumulsun. Onda görərsən başına nə oyun açarlar. (*Ayağa durur.*) Çiyninə bir qatma bağlayıbsan, elə bilirsən ki, heç kəsin sənə əli çatmaz? Səndən sərdarın xud özünə elə bir möhkəm donos verdirim ki, səni birbaş Sibirə itirsinlər. (*Gedə-gedə*) Biz bəylərin əlinin zərbini sınayarsan, sonra sakit olarsan!

M ir z ə F ə t ə l i . Get, get sahibi-ixtiyarsan. (*Çağırır.*) Ay gədə, ağanın başmaqlarını cüt edin.

Hatəmxan ağa gedir. Mirzə Fətəli qayıdıb özünü kürsünün üstünə yıxır, iki əli ilə başını tutub dirsəklərini bərk stola çırpır.

N ö k ə r (daxil olur). Ağa, bir kişi gəlib, sizi görmək istəyir. Deyir Ağcabədidən gəlmişəm, adım da Hacı Qaradır.

Mi r z ə F ə t ə l i . Çağır gəlsin içəri.

Nökər çıxır.

H a c ı Q a r a (daxil olur). Salaməleyküm!

Mi r z ə F ə t ə l i . Əleykəssalam. Hacı, buyur görək səndə nə xəbər var. Yəqin mənimlə dalaşmağa gəlibsən, belədirmi?

H a c ı Q a r a . Nə buyurursan, mirzə, mənim nə həddim var sənin lə dalaşam? Amma sənə şikayətim var.

Mi r z ə F ə t ə l i . Kimdən?

H a c ı Q a r a . Sənin özündən.

Mi r z ə F ə t ə l i . Mənim özümdən mənə şikayət?

H a c ı Q a r a . Bəli!

Mi r z ə F ə t ə l i . Necə yəni?

H a c ı Q a r a . Mirzə, bizim qədim haqq-salamımız var və özümüz də çoxdanın müştərisiyik. Neçə dəfə gəlib məndən mal alıbsan. Heç

bir dəfə səni aldatmışam? Getdiyim Beytə and olsun, sənə həmişə malın arşınını özgələrdən yarım qəpik aşağı vermişəm. Axır mənim taqsırım nədir ki, sən məni belə məsxərəyə qoyursan? Pulu batan mən, malı tutulan mən, evi yıxılan mən, bəs məsxərədə olan da mən?.. Nə eləyim, a sənə Qurban olum? Rus malı alıram solğun çıxır, qızılbaş malı alıram çürük çıxır. Mal gərək müştərigir olsun. Odur, dükanı doldurmuşam, bir nəfər malın üzünə də baxmır. Guya ələtdən qayırılanların sovxasıdır. Əlacım kəsildi, tamah zor elədi, dedim bu bəylərlə gedərəm Təbrizə, bir qədər firəng malı gətirrəm, bəlkə zərərim çıxa. O da belə getdi. Həm pulum əlimdən getdi, həm özüm rüsvay oldum.

Mi r z ə F ə t ə l i . Bilirsən, Hacı, sən bir ağlı başında kişisən. Özün görürsən ki, xatalı yola gedənin başına nə bəlalar gəlir. O səbəbə mən də sənin keyfiyyətini kitabımda yazmışam ki, xalq oxuyub ibrət edib, halal alış-verişi qoyub haramın dalınca getməsin.

H a c ı Q a r a . Qələt elərəm, tövbə, tövbə, tövbə! Qurbanın olum, getdim saqqal gətirməyə, bığı da qoydum gəldim. Hər bəydə yüz tümənim batdı. Malım tutuldu, özüm Arazdan keçəndə yıxıldım suya. Bir az qalmışdı batam, öləm. İndi qalmışam ac, əli qoynunda. Mirzə, bir təvəqqem var səndən. Sən bir böyük adamsan, gör bir tövr edə bilərsənmi ki, mənim malımı özümə qaytarsınlar.

Mi r z ə F ə t ə l i . Baş üstə, sizin murov mənimlə aşnadır. Ona yazaram, səy eləsin, sənin malını da özünə qayıtsın və bəylərdən də bir tövr sənin pulunu alıb versin.

H a c ı Q a r a . Onda canımı sənə Qurban edərəm. Allah səni müsəlmanlara çox görməsin. Allah oğlunu saxlasın! Mürəxxəs olum.

Mi r z ə F ə t ə l i . Xoş gəldin, Hacı! Bir neçə gündən sonra bir buraya gəl.

H a c ı Q a r a . Baş üstə. (*Gedir.)*

Mi r z ə F ə t ə l i . Get, get... Ehtiyacın olmasa, əvvəl təkfir edən sən olarsan.

D ə r v i ş M ə s t ə l i ş a h (*qəzəbnak daxil olur*). Ya hu, ya həqq!.. (*Nacağını yerə vurur.*) Sənsən biz Dərviş sinfini məsxərə edən? Sənsən caduya, sehrə şəkk gətirən? Sənsən cəmi əcinnə taifəsinin mənim itaətimdə olmağını inkar edən? Sənsən mənim Parisi dağıtmağıma inanmayan?

Mi r z ə F ə t ə l i . Nə qışqırırsan, nə istəyirsən?

D ə r v i ş M ə s t ə l i ş a h . Heç bir şey! Mənim buraya gəlməkdən muradım sənə öz qüvvətimi sübut etməkdir. Mən sənin bu evini başına uçurdaram, o vədə ağlın başına gələr və inanarsan ki, Parisi də uçurmuşam! Mən bu saat elə burada, bu otağın içində bir dairə çəkib əyləşərəm o dairədə, başlaram şah nəfiri çalmağa. Onda görərsən ki, necə sənin evin tar-mar olub başına uçar.

M i r z ə F ə t ə l i . Səbr et, ağa Dərviş, səbr et! Mən sənin barəndə səhv etmişəm və kitabımda da səndən yazmağıma peşman olmuşam. Mən bilirdim və etiqadım da bunadır ki, nə qədər siz Dərvişlər və sizing əmsalınız və həmməsləkiniz dünya üzündə mövcudsunuz, nəinki mənim evim, cəmi islam aləmi paymaldır. Doğru deyirsən, hələlikdə sizing qüvvətiniz çox böyükdür və sübutuna da ehtiyac yoxdur. Təvəqqe edirəm buradan gedəsən və məni əfv edəsən.

D ə r v i ş M ə s t ə l i ş a h . Belə ki yalvaracaqsan, bəs nə üçün hər hədyanı yazırsan? Bundan sonra adamını tanı!

M i r z ə F ə t ə l i (*çağırır*). A gədə. (*Nökər daxil olur*.) Dərvişi yola sal, getsin.

N ö k ə r . Baba D ə r v i ş, buyur.

D ə r v i ş Məstəli şah (*Mirzə Fətəliyə*). Əməlindən peşman olmasaydın, görərdin gününü. (*Gedir*.)

N ö k ə r (*Dərvişi yola salıb qayıdır*). Ağa! Kimyagər Molla İbrahim Xəlil çoxlu adamla gəlib, istəyir zorla içəri girsin. Nə buyurursan?

M i r z ə F ə t ə l i . Burax içəri.

Nökər çıxır.

M o l l a İ b r a h i m X ə l i l (*daxil olur*). Bəh, bəh, bəh!.. Yaxşı igidin adını eşit, üzünü görmə! Bu sifətdə adamdan məgər ondan artıq əməl baş verəcək?! Bir şəxsin ki, sifətində əsla müsəlmanlıq nişanəsi olmaya, ondan nə gözləmək olar?

M i r z ə F ə t ə l i . Sözünü buyur, dibaçə lazım deyil.

M o l l a İ b r a h i m X ə l i l . Bir de görüm, sənin Allahdan, dindən, imamdan, müsəlmanlıqdan xəbərin varmı?

M i r z ə F ə t ə l i . Təvəqqe edirəm müxtəsər edəsən.

M o l l a İ b r a h i m X ə l i l . Buyur görək sən nə haqla elmi-kimyanı danıb, biz kimyagərləri məsxərə edirsən? Bir elm ki həzrəti Süleyman əleyhissəlamdan qala, onu danmaqmı olar? Məgər sən Xacə Nəsiri-

Tusinin elmi-kimyada ictihad yetirdiyini və başqasının çərməkisini qızıl etdiyini oxumayıbsan? Və yainki sən Şeyx Bəhaini danacaqsan? Ya Mir Damadı inkar edəcəksən? Həkim Mir Fenderskidənmi xəbərin yoxdur? Ya risaleyi-Cabir Ənsarini oxumayıbsan? Bunlar keçəndən sonra, məgər mənə bu Tiflisdən verilən kimyagərlik şəhadətnaməsindən xəbərin yoxdur? Kim deyə bilər ki, neçə şahidin yanında Əylis ermənilərinin gəlib məndən əlli pud xalis gümüş apardıqları yalandır? Bunları götürüb məsxərə edincə, nə olardı ki, öz həmşəhrin Şeyx Səlahı çağırıb soruşaydın ki, gözü gördüyünü sənə söyləyə idi? Sən peyğəmbərlərdən qalan elmi danırsan. Ona görə sən layiqi-təkfirsən! Budur, qapıda minlərcə adamlar hazırdırlar. Əgər çıxıb onların gözünün qabağında tövbə eləməyəsən, mən səni təkfir eləyəcəyəm və bilginən ki, ondan sonra dünyada tək qalacaqsan. Bir nəfər sənə salam verməyəcək, bir nəfər sənin xeyir-şərrinə gəlməyəcək və öləndə də bir molla sənin namazını qılmayacaq.

M i r z ə F ə t ə l i . Ağa! Sən kimi aldatmaq istəyirsən? Sən get Xaçmaz dağlarında Nuxu bəylərini aldat, pullarını al. Kimya nədir? Mən elmi-kimyaya qailəm, nəinki daşın dönüb qızıl olmağına. Get, nə edəcəksən et. (Stolun üstündən bir dəstə kağız götürür.) Budur bax, Gəncədən təkfir, Nuxadan nifrin, Qarabağdan danos, Bakıdan təlin, Şirvandan həcv, Dərbənddən föhş! Get sən də təkfir et, qəbulumdur.

M o l l a İ b r a h i m X ə l i l . Görərsən axırını, görərsən! (*Çıxır, çöldən səsi gəlir! "Camaat! Bilin və agah olun ki, Mirzə Fətəli öz kafirliyini iqrar etdi".)*

Ç ö l d ə n s ə s l ə r . Kafirdir, kafirdir, kafirdir!..

R ə ş i d (*qorxmuş daxil olur*). Ata! Bu camaat niyə küyləşir? Yoxsa bizi öldürəcəklər?!

M i r z ə F ə t ə l i . Qorxma bala, heç kəs bizi öldürməz. (*Öz-özünə*) Hamı məndən üz döndərib və buna da səbəb mənim həqq yazmağım, həqq danışmağım və camaatın eybini açıq üzünə deməyim. Həqq acı isə də meyvəsi şirin olar! Bəli, İndi mən təkəm və bu təkliyimə də fəxr edirəm.

N ö k ə r (*daxil olub teleqram gətirir*). Ağa! Bakıdan gəlib.

M i r z ə F ə t ə l i (*açıb oxuyur*). "Bu saat burada, klubun zalında realnı məktəbinin şagirdlərinin iştirakı ilə sizin "Mərdi-xəsis" adlı komediyanız oynandı. Məktəb şagirdləri Nəcəf Vəzirov, Əsgər Adı-

gözəlov öz vəzifələrini layiqincə ifa etdilər. Cəm olan əşxasın təvəqqenə görə bu teleqramı sizə göndərib, sizin təsnifatınızın əvvəl səhneyi-tamaşaya qədəm qoymağını ürəkdən təbrik edirəm. Həsən bəy Məlikov". (*Rəşidə*) Eşitdinmi, oğlum? Daha mənim qəmim yoxdur. Çox şükür olsun Allahıma ki, əkdiyim toxum öz sağlığımda bar verdi. Dünyada çox yaşamağa ümidim yox idi. Çünki bir yandan qocalıq, bir yandan zülmət içində qalmış camaatın dərdi məni əldən salıb. Amma bu teleqram mənim ömrümü on il artırdı. Şükür olsun Allaha.

PƏRDƏ

QIRIMIZI QARI

Bir pərdədə (xəyalı)

İŞTİRAK EDƏNLƏR

Qırmızıqarı	Birinciqarovulçu
Padşah	İkinciqarovulçu
Vəzir	Rəqqasələr
Bargah əmələsi	Qırmızıəsgərlər
Kəniz	

Padşahın qəbul otağı. Müqabilində, qapının hər tərəfində bir qarovulçu,əlində nizə, dayanıb. Taxtın dalından Qırmızı qarı çıxıb, taxtın üstündə əyləşir.

Birinciqarovulçu. Taxta əyləşəni görürmüsən?

İkinciqarovulçu. Elə bu şəhərdə əhvalatı söylənilən Qırmızı qarı deyilmi? Bu dəqiqə nizəni onun ürəyinə soxacağam. Gözəl fürsətdir. Padşahdan ziqiymət ənam alaram. (*Hücum edir*.) Ey ifritə, nə vaxtadək sən bu camaatı narahat edəcəksən?! Al nizəni! (*İstəyir vursun, qarı əli ilə işarə edir, qarovulçunun əlindən nizə düşür. Qarı qalxıb ahəstə orta qapıdan çıxır. Qarovulçu dalınca baxır.)*

Birinciqarovulçu (*ikinciyə*). Mən səni belə qorxaq bilməzdim. Mən bu saat onu öldürərəm. (*Qarının dalınca çölə çıxır, məyus geri qayıdır*.) Yoxdur, bilmirəm yerə batdı, yainki göyə çıxdı? Nə vaxtadək belə böyük bir hökumət bu qoca qarının əlində aciz qalacaq?

Ayaq səsi gəlir, qarovulçular cəld özlərini düzəldirlər. Üzlərini tuturlar qapıya.Qabaqda vəzir, dalınca bargah əmələsi daxil olurlar.

Vəzir. Siz çoxdanmı buradasınız?

Birinciqarovulçu. Bir saatdan artıqdır.

Vəzir. Otağa kənar adam girməyibdir ki?

İkinciqarovulçu. Otaqda heç kəs yox idi. Qəflətən padşahın taxtı üstündə qırımızı libasda bir qarı göründü. Hücum etdik öldürməyə, gözümüzdən qeyb oldu.

Və z i r . Bu ifritə neçə vaxtdır ki, şəhərin o yan-bu yanlarında görünməkdədir. Yəqin böyük bir hadisə əmələ gətirəcəkdir.

B a r g a h ə m ə l ə s i . Üç ildir ki, görünməyirdi. Hamı onu ölmüş hesab edirdi. Nə hadisə eləmiş ola bilər? Padşahın canı səlamət, məmləkətdə əmin-asayiş. Vətən və padşah bədxahları hamısı dəstigir, möhkəm zəncirlərə vurulub. Kənar məmləkətlərdən heç bir afət gözlənmir. Nə ola bilər?

Və z i r . Beş il bundan qabaq gecələr Qırmızı qarı bargahın qabağında görünürdü. Az çəkmədi ki padşahın ən sevimli arvadı ficətən vəfat etdi. Iki il ondan sonra yenə qarını gecə vaxtı topxana meydanında görüblər. Sübh vəliəhdin şikarda atdan yıxılıb öldüyünün xəbərini gətirdilər. O vaxtdan qarı yox olmuş idi. İmdi yenə gəlib, padşahın bütün halını mütəğəyyir edib.

P a d ş a h (*daxil olur*). Ox!.. O məlun yenə şəhərin küçə və eydanlarında peyda olur. KİmdIr məni onun şərindən xilas etsin?

Rəqqasələr oynayır.

Və z i r . Qibleyi-aləm. Ona heç bir silah kar etməyir. Güllə vururlar, öldürməyir. Xəncər ətini kəsməyir. Hətta bir az vaxt bundan əqdəm qarovulçular qarını həmçinin bu otaqda, sizin taxtınızın üstündə əyləşmiş görüblər. Qarovulçular öldürmək üçün üstünə hücum ediblər, nəhayət, qarı gözdən qayıb olubdur.

P a d ş a h . Mənim taxtımın üstündə əyləşmiş görüblər?! Bu təzə xəbərdir.

Və z i r . Padşahım, ehtiyat ediniz.

P a d ş a h . Nə ehtiyat edəcəyəm? Ancaq onu yenə görünməyi oğlumun və övrətimin ölümünü yadıma salıbdır. Halımı pis edir. Neçə gündür ki, qarı şəhərdə görünür?

Və z i r . Ilk dəfə, cümə günü məscidin minarəsinin birində azan çəkilən vaxt, qarı minarənin üstündə görünübdür. Neçə nəfər fərraş minarənin ayağında onun düşməyinə müntəzir olublar. Oradan qarı düşməyib, minarədən qeyb olubdur.

P a d ş a h . Yox, bu nümayişlər mənim xoşuma gəlməyir, əlac lazımdır. Ələlxüsus da mənim taxtımda görünmüş. Daha harada görünübdür?

V ə z i r . Bir də kəniz nəql edirdi, caharşənbə günü axşam, sizin yatacaq otağınızda görüb. Nə qədər səslənibdir, qarı cavab verməyib.

P a d ş a h (*hiddətlə*). Mənim yatacaq otağımda! Bu saat sən kənizi bura çağır. (*Fikir edir.*) Mənim yatacaq otağımda?!

Və z i r . Qibleyi-aləm, təşvişə heç bir səbəb yoxdur. Şükür olsun Allaha, canınız səlamət, hamı məxluq dəstgir. Şəhərlərin izhariübudiyyət xəbərini hər gün eşidirik. Bütün məmləkət sizin ömrünüzə dua göndərirlər. Qorxu heç yerdən ola bilməz.

Kəniz daxil olur.

P a d ş a h (*kənizə*). Qarını necə gördün,söylə.

K ə n i z (*dizi üstə çökür*). Padşahım, çaharşənbə günü, azan vaxtı rəxtxab düzəltmək üçün sizin yatacaq otağınıza getmişdim. Qapını açan tək gördüm Qırmızı qarı çarpayının başı tərəfində durub, əyilibqalxmaqdadır. Onu görəndə dizlərimə titrətmə düşdü. İstədim qışqıram, qarı mənə bir nəzər ilə baxdı ki, qorxudan nəfəsim tutuldu. Səs çıxara bilmədim. Nazik bir səs ilə xəbər aldım: sən kimsən, burada nə iş görürsən? Mənə heç bir cavab verməyib, otaqdan çıxdı. Dalınca mən də çıxdım eşiyə. Gördüm ki, yoxdur. Dübarə otağa qayıdıb, çarpayının üstündən bir parça zəncir tapdım. (*Göstərir.*)

P a d ş a h . Buraya ver zənciri. (*Alıb baxır.*) Özüdür, özü! (*Kənizə*) Dur ayağa mürəxxəssən, gedə bilərsən. (Baş əyib gedir.) Ax, vəzir, çaharşənbə günündən bəri bu zəncir parçası mənə rahatlıq verməyir. Bir qədər gözümə yuxu gedən tək bu zəncir parçası vaqiədə həmin Qırmızı qarının əlində başımın üstündə zınqıldayan görüb həmin dəqiqə hövlnak yuxudan oyandım.

Və z i r . Qibleyi-aləm, qarının vahiməsi əbəs yerə camaatın ürəyinə düşüb, hamını qara basıbdır. Qarının nə həddi var sizin yatacaq otağınıza girsin və hətta gəlib taxtınızın üzərində əyləşsin?!

P a d ş a h . Mənə təsəllimi verirsən? Bəs bu zəncir parçasına nə deyirsən? Bunun mənasını bilmirsən, vəzir? Qarı bu zənciri qoymaqda xəbər verir ki, cəmi zəncirə tutulanların intiqamını səndən alacağam. (*Birdən*) Mənim dilimdən əmr ver. Məmləkətin hər bir şəhərinə, qəsəbəsinə və kəndinə casuslar göndərsinlər. Hər bir yerdə zərrəcə inqilab nişanəsi görünsə, onun kökünü kəssinlər. (*Fikir edir.*)

Və z i r . Qibleyi-aləm, rəiyyətdə üsyan yoxdur. Üsyançılar hər nə var, ərz etdim ki, tutulub. On yeddi kənd top atəşi ilə Yer üzündən süpürülüb, həbsxanalar üsyançılar ilə doludur. Hamısının boyunlarına zəncirlər vurulub, hərəkət etməyə halətləri yoxdur.

P a d ş a h . Dayan! Yenə zəncir dedin, zəncir yadıma düşdü, kifayətdir, deyirsən əmniyyətdir?

Və z i r . Bəli, Q u r b a n .

P a d ş a h . Çox gözəl, inanıram sözünə, amma gərək hər təhər olsa Qırmızı qarının dəfi üçün çarə etmək. Nə qədər bu ifritə sağdır, mən rahat olmayacağam.

Və z i r . Qibleyi-aləm, bu qarı bir sahirədir. Məmləkətin sahirlərini buraya cəm edərəm. Yəqin onun şərrinin dəfi üçün bir əlac tapılar. Siz, qibleyi-aləm, qara fikriləri başınızdan kənar ediniz. Məşğələnizi bir neçə gün eyş-işrətə verin. İnşallah tezliklə sahirlərin qüvvəsi ilə qarı yox olar.

P a d ş a h . Gözəl məsləhətdir, əmr ver hərəmxanada olan rəqqasələr buraya cəm olsunlar.

Vəzir çıxır, padşah zəncir parçasını alıb baxır. Bu halda Qırmızı qarı qapının ağzında peyda olur.

P a d ş a h . Sənsən bu dünyanı qarışdİran məlun! (*Qılıncı çəkib, yüyürür qarının üstünə*.) Al, məlun!

Q a r ı (*əli ilə işarə edir*). Dayan, nə sənin və nə də sən tək dünyadakı padşahların qılıncı mənə yara vura bilməz. Mən qırmızı tufan elçisiyəm. O tufan bu saatda Yer üzündə əsməkdədir. Onun qarşısında padşahlar taxtı davam gətirməyib, birbəbir sərnigun olmuşlar. İndi də qırmızı tufan sənin bargahına yaxınlaşmaqdadır. Bu gün, gün batanda sən də gün ilə batacaqsan! (*Qarı gedir. Padşah onun dalınca çıxır, məyus qayıdır yerində əyləşir. Rəqqasələr daxil olurlar.)*

P a d ş a h . Siz gərək bu gün məni lazımınca özünüzdən razı edəsiniz. Xələtin hesabı olmayacaqdır. Xəzinənin ağzını açıb cəmi dövlətimi qara fikirləri başımdan çıxaranlara verəcəyəm. Di başlayın.

Rəqqasələr oynayırlar.

V ə z i r (*daxil olur*). Qibleyi-aləm, məmləkət əldən getdi. Hər bir yerdən bu saatda xəbər gəlibdir ki, qırmızı tufan məmləkəti bürüyübdür. Tufanın qabağında bir nəfər oğlan, özü də qırmızı libasda! Ağ atın ayaqları yerə dəyməyir və qabağında heç bir qüvvə davam gətirməyir. Məmanət göstərən də fərən yanıb, puç olur. Zəncirlər özü özbaşına qırılıb yerə tökülür. Hər bir yerdə rəiyyət və qoşun onun tərəfinə keçirlər. Tufan bürüyübdür, təbdir lazımdır, tədbir.

P a d ş a h . Əmr ver şəhər darvazalarını, bargahın qapılarını və pəncərələrini möhkəm bağlasınlar. Qarovullar öz yerlərində dayansınlar. Vay o adamın halına səhlənkarlıq edə! (*Vəzir gedir, rəqqasələri*) Dayanmayınız! Bir növ rəqs ediniz ki, ayaqlarınızı qoyduğunuz yerlər lərzəyə gəlsin! (*Musiqi çalınır. Rəqqasələr oynayırlar*.) Habelə, qoçaqlarım, habelə, iyidlərim. (*Bu vaxt ətraf qızarır, ildırım çaxır, gurultu səhnəni tutur, pərdə düşənə qədər gurultu səsi kəsilməyir*.) Ax! Qırmızı tufan bargahı bürüdü. Eybi yoxdur, qapılar bağlıdır. Qarovullar yerlərindədirlər. Heç kəsin əli mənə çatmaz! Mən hamıdan qüvvətliyəm, qüvvətli! Ax, yenə bu zəncir səsi gəlir! Nə yaman halətdir! Çalın, oynayın, mən sizinlə oynayacağam! (*Rəqqasələr qarışıb oynayırlar*.) Gözəl aləmdir! Əcəb aləmdir!

Oynayırlar. Padşah bihalət yıxılıb ölür. Qapılar özbaşına açılır. Qabaqca iki cərgə əsgər daxil olub dururlar. Onların dalınca bir nəfər qırmızı libaslı oğlan əlində bayraq qapının arasından daxil olur.

Q ı r m ı z ı Q a r ı (*küncdən çıxır*). Qırmızı tufan bu məmləkəti də aldı! İndi daha mənim burada vəzifəm bitdi. Bu məmləkətdən mən İndi başqa məmləkətə gedirəm. Bu cavan nəinki tək bu padşahın, cəmi dünya padşahlarının qənimidir. Onun ismi cavan və insaniyyətdir! (*Qarı gedir*.)

PƏRDƏ

PADŞAHIN MƏHƏBBƏTİ

Bir məclisdə

ƏŞXAS

P a d ş a h	S ə i d
Ö v r ə t i	T ə l x ə k
V ə z i r	Q u l a m
T a c ü l - ü l ə m a	

Vaqe olur şahın sarayında.
Padşah və övrəti.

Ö v r ə t . Əzizim, əbəs yerə nə olub özünü bu hala salıbsan? Budur, tamam iki həftədir ki, sənin rahatlığın yoxdur. Gecələr gözünə yuxu getmir, hökumət işlərini bilmərrə buraxıbsan. Sən bu vaxtında məhəbbətdən dəm vurursan. Bu məgər padşaha yaraşan sifətdir ki, bir gədanın övrətinə aşiq olub, dərdindən özünü çürüdə-çürüdə yuxunu, çörəyini özünə haram edə?

P a d ş a h . Bu danışıqların heç biri mənim qulağıma girən deyil. Sən özün övrət olduqda, buraya bir başqa övrətin gəlməyinə davam etməzsən. Buna rəqabət deyərlər. Bunu bilginən, əgər Səidin övrətini boşadıb almaq mənə mümkün olmasa, bütün hərəmxanadakı övrətləri qırdıracağam səninlə bir yerdə və axırda özümü həlak edəcəyəm. Mən sənə əmr edirəm: Səidin övrətindən riza almaq sənin öhdənə tapşırılır. Səidi də razı etmək vəzirə tapşırılıb. Buna söz yoxdur ki, əsrin padşahıyam. Xahiş etsəm, bir anda Səidin başı boynundan götürülər və övrəti də fövrən hərəmxanaya çəkilər. Amma mən istəyirəm ki, həm mənim xahişim əmələ gəlsin, həm də məmləkətdə ədalətsizlik törəməsin. Get, nə təbdir edirsən et.

Ö v r ə t i . Sultanım, əzizim!

P a d ş a h . Danışma, get, əmrimə itaət tələb edirəm. *(Övrət gedir.)* Qulam! (*Qulam gəlir*.) Get vəziri buraya çağır! Qulam baş əyib çıxır. Padşah ayağa durub bir-iki baş, mütəfəkkir, otaqda gəzinir. Sonra pəncərəni açıb təzə havadan nəfəs alıb bir ah çəkir. Vəzir daxil olur.

Və z i r . Qibleyi-aləm, əmriniz?

P a d ş a h . Səidlə söhbətiniz nə yerə müncər oldu?

Və z i r . Qibleyi-aləm, heç vəchlə razı etmək olmur. Nə qədər nəsihət etdim, qulaq asmadı, hədsiz qızıl təklif etdim, qəbul etmədi. Axırda budur dörd gündür ki, burada zindandadır, quru çörəklə sudan başqa bir şey qoymuram verələr, bəlkə bu növlə razı etmək ola. Amma deyir bu zindanda çürüyüb ölərəm, övrətimi boşamaram.

P a d ş a h . Adın vəzirdir, başında ağıl yox, tədbir yox. Get, möhkəm tədbirlər et. Üləmanı cəm elə və onlardan fitva al. Bilirsən mən nə deyirəm? Xəzinənin yarısı lazım olsa, ver, ancaq fitva al!

Və z i r . Padşahım, üləma necə şəriəti poza bilər, vaxt ki, şəxs öz övrətini boşamaq istəmir.

P a d ş a h . Pul versən yol tapılar. Get, nə qədər istəsələr pul ver. Get, təlxəyi mənim yanıma gətir, bəlkə bir qədər mənim fikrimi məşğul edə.

Və z i r . Qibleyi-aləm! Böyük bir məmləkət sənin təhti-hökumətindədir. Əhalidə cavan qızlar var ki, Səidin övrətindən min dəfə vəcihəlidirlər, gəlin bu xəyaldan daşının. Ax, xudaya, nə olardı, bizim şikar yolumuz Səidin evinin qabağından düşməyəydi və qibleyi-aləm də onun övrətini görməyəydi!

P a d ş a h . Get, vəzir, əmrimə itaət et! Təlxəyi göndər gəlsin. Vəzir baş əyib çıxır. Padşah fikrə gedib, ah çəkir. Birdən təlxək "hopp..." – deyib atılaraq içəri düşür, padşah diksinir.

T ə l x ə k . Palçıq dizdən, su qurşaqdan, yerdən toz qopar, eşşək ağaca çıxar, camış başını qırxdırar, dəvə dəlləklik elədi. Qarışqa başını qırxdı. Qarışqa bir şıllaq vurdu, dəvənin gözü töküldü. Ha, ha, ha. Padşahım məni söhbətə çağırıb.

P a d ş a h . Gəl, gəl, mənim əbləhim, təlxəyim, gəl bir qədər hədyan söylə, bəlkə ürəyim açılsın. O sözü necə dedin? Qarışqa şıllaq vurdu, dəvənin gözü töküldü? Ay axmaq, qarışqa şıllağından dəvə gözü tökülər?

T ə l x ə k . Bəli, işlər, tərsinə dönəndə qarışqa şıllağı dəvə gözü tökər. İlanın quyruğunu basarsan, qayıdıb başındakı taca baxmayaraq çalar. Padşahım! Deyirlər, eşq divanəsi olubsan. Heç pis iş deyil. Padşah olub camaat fikri çəkincə, dəli ol, qoy camaat sənin fikrini çəksin. Vallah doğru deyirəm. Məcnun da Leyliyə aşiq idi, gedib meşədə əyləşmişdi, heyvanlarla üns tutmuşdu. Başında quşlar yuva tikmişdilər.

Sən də get meşədə otur, başında quşlar yuva tiksinlər, hərdən-birdən Səidin övrətinə quşlardan məktub göndər. Vallahı yaxşı olar. Amma, bəşərt ki, məni də özünlə aparasan. Məsləhət də belədir. Çünki iki dəlinin qiyməti bir dəlinin qiymətindən artıqdır.

P a d ş a h (*onu çubuqla vurur*). Dur, namərbut, rədd ol, dəxi də ovqatımı təlx elədin, get.

T ə l x ə k . Qibleyi-aləm! Axmaq sözün doğrusu ağıllı sözün yalanından yaxşıdır. Qəzəbin tutub, qovarsan, mərhəmət üstə gəlib yenə çağırarsan yenə gələrəm. Şirin yalanları buraxıb, acı doğrulardan danışaram. Getdim, hopp, milçək bir şıllaq vurdu, dəvənin gözü töküldü. (*Gedir.*)

Padşah iki əli ilə başını tutub yumruğunu taxta çırpır. Sonra əl çalır.
Qulam daxil olur.

P a d ş a h . Deginən rəqqasələr gəlsin.

Qulam baş əyib çıxır. Rəqqasələr gəlirlər. Musiqi çalınır, rəqqasələr rəqs edirlər.
Rəqqasələr gedirlər. Vəzir, Tacül-üləma və həmçinin
Səid daxil olurlar.

V ə z i r . Qibleyi-aləm, lazımi tədbir olubdur. Ağayi Tacül-üləma bir növ yol tapıb, ancaq iltifatınız olsa, bir dəqiqəliyə o biri otağa keçəsiniz. Məsələ həll olandan sonra təşrif gətirərsiniz.

Padşah gedir.

T a c ü l - ü l ə m a . Səid, görünür, sən Allahın ən bədbəxt və kor bəndələrindənsən. Vilayətin padşahı şikara gedərkən sənin övrətini görüb, ona eşq yetirib və əmr edir ki, sən övrətinin talağını verəsən və padşah onu özünə əyal etsin. Amma sən kor bəndə bunu qəbul etmirsən. Axmaq kişi, pul nə qədər istəyirsən verilir, rütbə istəyirsən hazır, məmləkətin gözəl qızlarından hər kəsi bəyənsən sənin üçün alsınlar və məmləkətdə möhtərəm şəxslərin biri ol. Belə bir nemətə sən öz axmaqlığından yaxın durmursan. Budur, neçə gündür zindanda əziyyət çəkirsən, nəyə lazımdır? Gəl, sən öz razılığınla övrətinin talağını ver, padşahi-aləmpənahı da özündən razı sal.

V ə z i r (S ə i d ə). Bilginən ki, Səid, padşah əmr etsə, səni bir anda yox edərlər. Amma gör, qibleyi-aləm necə rəhmdildir ki, istəmir sənin övrətini zorla alsın.

S ə i d . Cənab vəzir! Ağayi Tacül-üləma! Padşahın mənim malıma, canıma ixtiyarı keçər. Mənim malımı zəbt etdirə bilər, öldürməyə, yan-

dırmağa, dar ağacına çəkdirməyə muxtardır. Amma mənim namusuma heç kəsin əl atmasına haqqı yoxdur. Istər padşah ola, istər rəiyyət. Övrətə talaq vermək mənim ixtiyarımdadır. Mən də ölənə qədər talaq verməyəcəyəm.

V ə z i r . Sən bilginən ki, Səid, sənin övrətin bu saat buradadır. İndi ki sən öz inandında belə möhkəm dursursan, övrətin həmişə burada qalacaq, özün də zindanda həmişəlik məhbus olub xörəyin duzlu su ilə quru çörək olacaq. Hər gecə də övrətin padşahın yatacaq otağına aparılmasını sənə göstərəcəklər. İndi ixtiyarın var.

S ə i d . Siz ədalətdən dəm vurursunuz! Buna ədalətmi deyirlər? Xudaya, bir belə insana zülm edərlər?

T a c ü l - ü l ə m a . Cənab Səid! Mən vəzirin bu sözlərini heç vəchlə xoşlamıram, çünki vəzir buyuran xilafi-şərr bir əməldir və xilafi-şərr əmələ heç vaxt gərək adil padşah mürtəkib olmasın. Amma mən işin səlahı üçün bir məsləhət görürəm. Sən gəl bu yüngül məsələyə razı olginən, həm padşahın xahişi bir növ əmələ gəlsin, həm sənin övrətin qalsın özündə, əlavə və zindandan qurtar və bir qədər də pul sahibi ol.

S ə i d . Buyurun, ağa!

T a c ü l - ü l ə m a . Söz yoxdur ki, sənin övrətin şərən sənin malındır, tamamən sənin ixtiyarındadır. Sənə mümkündür ki, övrətə olan ixtiyarının yarısını padşaha satasan. Əvvəla, böyük məbləğ alarsan və bu satışın nəticəsi bu olar ki, padşah ürəyində sənin övrətinə bir qədər ixtiyarı olduğunu hiss edib, adi halına gələr, məşğul olar məmləkət işlərinə və axırda tədricən ümuratın çoxluğundan sənin övrətinin fikri onun başından bilmərrə çıxar. Sən gəl, səlahi-məmləkət üçün bu yüngül təklifi qəbul et!

S ə i d . Əgər sən övrətimin həmişəlik evimdə qalmasına zəmanət edirsənsə, mən bu təklifi qəbul edirəm. Tacül-üləma. Zəmanət edirəm.

V ə z i r . Mən də zəmanət edirəm. Cənab Tacül-üləma, siz bu beyişəri zəhmət qəbul edib, yazı vəzifəsini cari edin, mən də gedim padşaha müjdə verim. (*Çıxır*.)

T a c ü l - ü l ə m a (*kağızı yazıb verir Səidə*.) İmza et.

S ə i d . Siz alimin sözünə etibarən və səlahi-məmləkəti nəzərə alıb, imza edirəm. (*İmza edir).*

Vəzir, padşah daxil olurlar. Padşah əyləşir taxtın üstündə.

Və z i r . Cənab Tacül-üləma, kağız hazırdır?

T a c ü l - ü l ə m a . Bəli cənab, buyurun. (*Kağızı verir vəzirə.*)

V ə z i r (*oxuyur*). Cənab Tacül-üləma öz işini qurtardı. İndi mən öz işimə şüru edirəm. De görüm övrətini aldığın neçə müddətdir?

S ə i d . Üç ay tamamdır.

Və z i r . Fitvanın mövcibincə, çünki sən ixtiyarının yarısını əlahəzrətə satıbsan, gərək övrətin üç ay padşaha mal olsun. Ondan sonra həmçinin ilin yarısını övrətə sən malik olacaqsan və yarısını padşah.

S ə i d . Nainsaflar! Bimürvətlər! Məgər siz mənimlə belə şərt etdiniz? Cənab Tacül-üləma, məgər sizin fitvanızın nəticəsi budur?

T a c ü l - ü l ə m a . Fitvanı belə də imza etmək olar.

S ə i d . Nainsaflar! Canilər!..

Və z i r . Səid, çox söyləməyin yeri yoxdur, pul alıb mal satıbsan, danışıq fayda verməz. Əgər fitvanın əleyhinə söz söylərsənsə, qanuna görə qətlin vacib gələr.

S ə i d . Cənab vəzir! Siz unudubsunuz! Bu fitvadan başqa bir fitva da var. O da namus fitvasıdır. O da budur. (*Özünü vurur.*) Sizin qanunuza görə namusa təcavüz edənə edam cəzası verirlər. İndi mən sizing ixtiyarınızdayam. Mən öləndən sonra da övrətim azaddır. Məhv olsun zülm, yaşasın ədalət! (*Padşahın taxtının üstünə yıxılır, ölür.)*

PƏRDƏ

ƏDALƏT QAPILARI

Dram iki şəkildə

İŞTİRAK EDƏNLƏR

P a d ş a h
P a d ş a h ı n q ı z ı
R i z v a n – bağban oğlu
A s i y ə – kəniz
X a c ə F i r u z – qulam
Qulamlar, kənizlər, rəqqasələr

BİRİNCİ ŞƏKİL

Vaqe olur padşahın hərəmxanasında. Padşahın qızı, ətrafında neçə nəfər rəfiqələri əyləşiblər. Rəqqasələr oynayırlar. Hamısının gözlərində fərəh, şadlıq əlaməti görünür. Tək padşahın qızı məyus əyləşib. Rəqqasələr bir qədər rəqs etdikdən sonra padşahın qızı işarə edir, hamı gedir, kənizdən başqa.

P a d ş a h ı n q ı z ı . Mehriban bacım, budur, iki aydır mən naxoşam, mərəzim gün-gündən şiddət etməkdədir. Məmləkətdə bir təbib qalmayıbdır ki, atam onu mənə müalicə etmək üçün gətirməmiş olsun. Heç biri mənim dərdimin dərmanını tapmayıb, əl çəkib gediblər. Axırda əcnəbi vilayətdən gəlmiş bir təbibin məsləhətinə görə, məni hər gün rəfiqələr arasında, çəmənlər səyahətinə və rəqslər tamaşasına məcbur edirlər. Bunların heç birisi mənim dərdimin əlacı deyildir. Nə rəqs, nə xanəndə, nə çəmənlərdə və nə çay kənarında səyahət, heç biri mənim ürəyimi açmır. Baş ağrısı, ürək ağrısı gün-gündən artmaqdadır. Amma tənha qalıb, bir qədər ağlayandan sonra rahat oluram. Rica edirəm məni yalqız burax.

A s i y ə . Xanım, neçə ildir ki, mən sizin xidmətinizdəyəm, sədaqətim sizə məlumdur. Nə olar dərdinizi açıb mənə söyləyəydiniz. Sizin kənara çəkilib ağlamağınızdan bir şey anlamayıram. Əfv ediniz, açıq danışacağam. Mərəziniz məhəbbət mərəzidir. Nə olar ki, açıb padşaha deyəsiniz? Baxın, ətraf məmləkətlərin hamısından elçilər gəlir. Heç

birinə atanız sizin xahişinizi bilməmiş cavab vermir... Görünür, sizing xahişiniz padşah xahişidir.

P a d ş a h ı n q ı z ı . Əziz bacım! Mənim mərəzimi dürüst anlayıbsan. Fəqət mən atama bir söz açıb demərəm. Çünki atam bilsə, onu yüz parça elər. Odur ki, danışa bilməyib günü-gündən şam tək əriyirəm. (*Bir nəfər qara qul hərdən gəlib, xəlvət qulaq asır*.) Burada ancaq bir nəfər mənim dərdimi bilir. Ondan savayı heç kəsə dərdimi açmaram. Get, bacı, sən də get, məni tək burax. (*Asiyə gedir.)*

P a d ş a h ı n q ı z ı (*ahəstə gedib sol qapıdan çağırır*). Xacə Firuz!

X a c ə F i r u z (*qoca qara qul daxil olur*). Əmriniz nədir, xanım?

P a d ş a h ı n q ı z ı . Gəlibdirmi?

X a c ə F i r u z . Bəli, gəlibdir, müntəzirdir.

P a d ş a h ı n q ı z ı . Göndər gəlsin. Özün qapıda ol, gördün ki, gələn var, fövrən xəbər ver.

X a c ə F i r u z . Baş üstə, xanım. (*Çıxır, Rizvan – cavan, gözəl oğlan daxil olur).*

P a d ş a h ı n q ı z ı . Ax Rizvan! (*Boynunu qucaqlayır*.)

R i z v a n . Mən sizin aciz bəndəniz sizin məhəbbətinizə nail olmuşam. Mənim bu qaba ürəyimdə nazik hisslər gün-gündən artmaqdadır. Siz çəkən əziyyəti mən bilirəm. Fəqət mən iki-üç dəfə artıq çəkirəm. Nə gündüzlər iş görə bilirəm, nə gecələr gözümə yuxu gedir. Gecələr sübhə kimi ayla, ulduzlarla danışıram. Söz yoxdur ki, qibleyi-aləm size bağban oğluna verməyəcək və bizim məhəbbətimizdən xəbərdar olsa, yəqin nəticəsi həm sizin, həm mənim üçün yaman olacaq...

P a d ş a h ı n q ı z ı . Ölümdən yaman nəticə ola bilməz. Mən məhəbbət yolunda ölümdən qorxmuram. Bir vaxt ki, əlim yarımdan üzüləcək, əlbəttə, ölüm məsləhətdir. Sənin qorxmağın məni heyrətə gətirir. Mən səni belə aciz bilməzdim.

R i z v a n . Xanım! Dünyada iki dəfə ölüm yoxdur. Hər dünyaya gələn bir dəfə dünyadan gedəcək. Ancaq geci, tezi var. Hamımız öləcəyik və sizin məhəbbətiniz yolunda can vermək mənim üçün eyni səadətdir. Mən ölümdən qorxmuram, ondan bədtərindən qorxuram.

P a d ş a h ı n q ı z ı . Ölümdən bədtər nə ola bilər?

R i z v a n . Ölümdən bədtər ədalət qapısından keçməkdir. Ondan qorxuram.

P a d ş a h ı n q ı z ı . O necə qapıdır?

R i z v a n . Bu təzə binadır! Bir qaranlıq mağaranın içində dörd dənə qapı var ki, onlara "Ədalət qapıları" deyirlər. Padşahın əmri ilə müqəssirləri gətirirlər o qapının bərabərinə və hökm edirlər ki, qapıların birini öz xahişi ilə açıb daxil olsun. Qapının birindən daxil olan əfi ilanlara düçar olur. O birisindən girən vəhşi canavarlara xörək olur. Üçüncüsündən daxil olan cəhənnəm tək nərə vuran alov içinə düşüb yanır. Bir tək dördüncü qapını açan, qadına düçar gəlir və o qadını almağa məcbur olunur, taqsırı bağışlanır. Ancaq hansı qapıda bəla və hansı qapıda qadın olduğunu müqəssir bilmir. Budur ədalət qapıları. Hər qapıdan daxil olsam, əlim səndən çıxacaq. Atəş içinə, ilan və canavarlar yığıncağına düşsəm, özümü bəxtiyar hesab edərəm. Amma axırıncısından qorxuram.

P a d ş a h ı n q ı z ı . Qorxma, Rizvan! Xacə Firuz hər tədbiri görübdür. Bu gecə biz buradan qaçarıq. Sübh açılmamış məmləkət sərhədini keçərik. Ondan sonra bizi heç kəs ələ gətirə bilməz. Bir kənar guşəyə çəkilib, istirahətlə ömür başa apararıq və lazım qədər özümlə cavahirat götürmüşəm. O da olmasa, əlimizlə işləyib dolanarıq.

X a c ə F i r u z (*özünü itirmiş daxil olur*). Amandır, qibleyi-aləm buraya gəlir. (*Çıxır*).

P a d ş a h ı n q ı z ı (*tələsik*). Get, get, əzizim, tez get. Gecə üçün hazır ol. (*Rizvan çıxır*.)

P a d ş a h (*daxil olur, qəzəbini saxlamış*). Necəsən, qızım, başının ağrısı kəsilibdirmi.

P a d ş a h ı n q ı z ı . Bəli, ata, bir az yaxşıyam.

P a d ş a h (*istehza ilə*). Sağalarsan, qızım, tezliklə sağalarsan. Sənin üçün təzə bir cüft gözəl at almışam. Çıx bir tamaşa elə. (*Qız çıxır. Padşah qapıdan*.) Xacə Firuz!..

X a c ə F i r u z (*daxil olur*). Bəli, Qurban !

P a d ş a h (*xacənin iki qolundan tutub dizi üstə çökdürür*). Qoca məlun, sən ki mənim qızımın cəmi sirlərini bilirsən, İndiyədək niyə mənə xəbər etməyibsən?

X a c ə F i r u z . Qibleyi-aləm! Siz məni şahzadə xanımın xidmətinə təyin edəndə, əmr etdiniz ki, ona sədaqətlə xidmət edim və sədaqət də bundan ibarətdir ki, gördüyümü və eşitdiyimi bir kəsə söyləməyim.

P a d ş a h (*vurur*). Mənədəmi söyləməyəsən?

X a c ə F i r u z . Şahzadə xanımın əmri olmasa, sizə də söyləməyim.

P a d ş a h (*vurur*). Məlun! De görüm, bu saat burada kim var idi?

X a c ə F i r u z . Bilmirəm, qibleyi-aləm!

P a d ş a h . Yalan danışma, ifrit! Sən bilmirsən, mən bilirəm. Buradan gedən tutulub həbsdədir və sabah ədalət qapısından keçəcək və səni də sədaqətlə xidmət etdiyin xanımın qarşısında parça-parça etdirəcəyəm. (*Əl çalır, iki fərraş daxil olur.*) Aparın bunu, möhkəm saxlayın.

Xacə Firuzu aparırlar.

P a d ş a h ı n q ı z ı (*daxil olur*). Ata, atlar çox əcəbdirlər.

P a d ş a h . Bəli, gözəl heyvanlardır. Onları bir nəfər Məkkədən gəlmiş tacir töhfə gətirib. Di gəl, qızım, əyləş. İnşallah, iki günədək salamata çıxarsan. Sabah sənin üçün bir gözəl tamaşa tərtib etdirəcəyəm ki, İndiyə qədər görməyibsən. Sənə təzə bina etdiyim ədalət qapılarını göstərəcəyəm.

P a d ş a h ı n q ı z ı . Ax, eşitmişəm, eşitmişəm, istəmirəm. Nə gedərəm, nə tamaşa edərəm.

P a d ş a h (*istehza ilə*). Gedərsən, qızım, sənin üçün xüsusi bir tamaşadır. (*Padşah gedir.*)

A s i y ə (*padşahın qızına yaxınlaşır*). Sabah bir nəfər gözəl oğlanı ədalət qapısından keçirəcəklər. Padşah hökm verəndə eşitdim. Nədənsə, qoca Xacə Firuz da həbs edilmişdir.

P a d ş a h ı n q ı z ı (*mütəğəyyir*). Söylə, söylə!

A s i y ə . Padşah hökm verdi ki, həbəşdən təzə gətirilmiş qara kənizi üçüncü qapının dalında qoysunlar. Bilmirəm yazıq nə taqsırın sahibidir. Deyirlər, ədalət qapısından keçirilmək böyük bir tənbehdir.

P a d ş a h ı n q ı z ı . Deyirsən Xacə Firuz da həbsdədir?

A s i y ə . Bəli, şahzadə xanım! Nə oldu ki, rənginiz belə saraldı?

P a d ş a h ı n q ı z ı . Heç, bir şey yoxdur. Qoca nökərə yazığım gəldi. Mən gedib atamdan onun əfvini istərəm. Hə... hə... bilirəm... nə işdir... Deyirsən qapının dalında həbəş qızı qoyacaqlar?

A s i y ə . Bəli, üçüncü qapının dalında.

P a d ş a h ı n q ı z ı (bir qədər fikir edir). Çox gözəl, çox gözəl. (*Tələsik gedir.)*

PƏRDƏ

İKİNCİ ŞƏKİL

Qara, mağaraya oxşar bir mənzildir. Müqabilində dörd qapı var. Qapıların qabağında qara libasda dərbanlar dayanıblar və sol tərəfdə padşah üçün taxt qoyulubdur. Şeypur çalınır. Padşah əyanla daxil olub taxt üstündə qərar tutur. Yanında bir nəfər üzü örtüklü qız əyləşibdir.

P a d ş a h . Qızım, gör sənin üçün nə gözəl tamaşalar hazırlamışam. Gətirin müqəssirləri! (*Rizvanı və Xacə Firuzu gətirirlər*.) Rizvan, sən mənim köhnə və istəkli bağbanım Nəsirin oğlusan. Atan Nəsir kimi sadiq, fəqir və ədəbli kişinin oğlundan sadir olan bu bəd əməlin səbəbi nədir? Nə hədlə sən mənim hərəmxanama ayaq basırsan və öz məqamını anlamırsan? Hətta cürəti bu mərtəbəyə yetiribsən ki, mənim qızıma izhari-məhəbbət edibsən? Məgər sən öz mərtəbənlə şahzadə mərtəbəsinin təfavütünü anlamırsan? Bu taqsırların müqabilində bu dörd qapının birinə daxil olmalısan. Ya heyvanlara və atəşə xörək olarsan və ya bir arvada malik olarsan ki, onu almağa məcbur edilərsən. O vaxt ədalət yolu ilə səni azad edib, arvadınla bir yerdə xaric edəcəyəm...

R i z v a n . Qibleyi-aləm! Əmrinizə itaət etmək borcumdur. Fəqət ölməkdən qabaq bir neçə söz deməyə izin istəyəcəyəm.

P a d ş a h . Söylə.

R i z v a n . Qibleyi-aləm! Siz padşahsınız, mən rəiyyət və ədna. Buyurun görək, siz əcdadınız dünyaya padşahmı və mənim əcdadım bağbanmı gəlibdir? Və ya padşah bədəni qızıldan, bağban bədəni palçıqdanmı yoğrulub? Məgər padşah ürəyi cavahiratdan və bağban ürəyi ətdəndirmi? Hamının palçığı bir yerdən götürülüb, hamı bir nütfədən əmələ gəlibdir. Hamının ürəyi ətdəndir və öləndən sonra heç bir kəs padşah sümüklərini bağban sümüklərindən ayıra bilməz. Siz bağda gəzib, mənim əllərimlə becərilmiş güllərin ətrindən ləzzət aparırsınız. Siz padşah əmr edə bilərsinizmi ki, o güllərin ətrini mənim dimağım hiss etməsin? Insan dimağı birdir. İstər padşah olsun, istər gəda. Əmr edə bilərsinizmi havaya ki, məni bəsləməsin? Əmr edə bilərsinizmi günə ki, mənim üzərimə şəfəqini salmasın? Hansı padşah ürəyə hökm edə bilər ki, sevməsin? Hansı padşah gözəlliyə əmr edə bilər ki, ürəklərə təsir etməsin? Göz görən gözəli ürək sevəcək! Istər padşah ürəyi, istər bağban. Sizin qızınız məni sevib, mən də onu sevmişəm. Məhəbbət olan yerdə nə padşah olar, nə bağban və tək məhəbbət iki

ürəyin padşahı olub, onlara hökm verər. Sizin hökmünüz mənim canıma, malıma keçə bilər, amma ürəyimə xeyr. Canımı siz burada oda yaxa bilərsiniz, amma ürəyimdəki məhəbbət yanmaz.

P a d ş a h . Dəxi kifayətdir! Mənim qızım padşah qızıdır, heç vaxt sən tək gədalara rəğbət göstərməz. Əgər onun ürəyində zərrəcə məhəbbət olsaydı belə sakit oturmazdı. Kifayətdir! Aç, qapının birinə daxil ol!

R i z v a n . Ürəyimdə ölməz bir məhəbbətlə ölümə gedirəm.

Padşahın yanında əyləşən qız Rizvana üç barmağını göstərir. Rizvan üçüncü qapını açır, oradan bir üzü örtülü qadın çıxır.

P a d ş a h . Ədalətim mənə əmr edir ki, sənin taqsırından keçim. Gərək bu arvadı nikah edib, bununla bahəm məmləkətdən çıxasan!

R i z v a n . Qibleyi-aləm. Izin verin o biri qapılardan birinə daxil olum. Mənim ürəyimdə bir məhəbbət vardır. Onunla da ölmək istəyirəm. Mən bu arvada sahib ola bilmərəm.

İstəyir o biri qapını açıb daxil olsun, bu halda üçüncü qapıdan çıxmış olan padşahın qızı üzünün niqabını atır.

P a d ş a h ı n q ı z ı (*Rizvana*). Dayan, padşahın axırıncı sözü qətidir. Gərək buna əməl olunsun.

P a d ş a h (öz qızını tanıyır, təəccüblə). Ax qızım! Bu nə aləmdir? Sən nə növ buraya gəldin? Bəs bu mənim yanımda oturan kİmdir?

P a d ş a h ı n q ı z ı . Ata, əfv ediniz, mən xəbər tutdum ki, bu qapının dalında həbəş qızı qoyulacaq. Gecə gedib ona yalvarıb, onun libasını geyinib və öz libasımı ona verdim və özüm də gedib əyləşdim onun mənzilində, onu da göndərdim öz mənzilimə. Qızın mənzilindən məni götürüb buraya gətiriblər. Sənin yanında oturan həmin həbəş qızıdır ki, mənim yolumda canından keçibdir. Ata, əmrində baqi qal. Mən bu oğlanı sevirəm. Əgər bizim izdivacımızı öz şəninə layiq bilmirsən, buradan başımızı götürüb bir elə diyara gedərik ki, bizim harada olduğumuzu əsla bilməzsən.

P a d ş a h . Bu mümkün deyil. Bu saat səni də öldürəcəyəm!

P a d ş a h ı n q ı z ı . Mən Rizvanla bir yerdə ölməyə hazıram! Amma bu, ədalətdirmi?

P a d ş a h . Ədalət mənim xahişimdir. Götürün bu oğlanı atın birinci qapıya, dalınca bu həbəş qızını atınız! Qızımın tənbihini Xacə Firuzla bir yerdə edəcəyəm. Götürün!

X a c ə F i r u z (yeriyir qabağa). Dayanın, qardaşlarım! (*Hamı dayanır*.) Mən qoca xacə Firuz altmış ildir ki, bu dərbarda xidmət edirəm. Bu altmış ilin müddətində bu məmləkətdə ədalət nə olduğunu mən görməmişəm. Camaat həmişə azar və əziyyətdə. Ahu-nalə və nifrin göyə dirənibdir. Bu padşahın sayəsində hökumət ərkanı həmişə camaatı quldur tək soymağa məşğuldur. Camaatın əkdiyi, biçdiyi, qazandığı bunun ümərayi-dövlətinin və onun ətrafında duran bu müftəxorların cibindədir. Camaat ac, göz yaşı tökür. Amma bunlar yeyib şişirlər. Bu padşah taxta əyləşən gündən İndiyədək səlahi-məmləkət və camaat üçün bir dəqiqə də olsun fikir etməyib. Peşəsi vəzirləri başına yığıb, camaata azar vermək üçün ənvai-tənbihlər icad etməkdir. Gah HİndistandA camaat pulu ilə əfi ilanlar gətirdir və ya meşələrdən yırtıcı heyvanlar gətirib, müqəssirləri onlarla güləşdirib, ləzzət aparır. Qardaşlar, budur onun hökumətinin camaata xidməti! Onun axırıncı icadı da bu cəhənnəm qapılarıdır ki, adına "Ədalət qapıları" deyir. Arxadaşlar, dəxi kifayətdir! Göz yaşları silab tək məmləkəti tutub. Buna davam etmək olmaz. Mən qoca Xacə Firuza siz həmişə ata deyibsiniz. İndi də mənim ata sözümə qulaq asın. Alın bu zalım padşahın özünü və yanındakı xunxarları, onun öz tikdirdiyi binanın içinə atın! Qoyun qazdığı quyuya özü düşsün!

P a d ş a h (*qalxır ayağa, qeyz ilə*). Məlun, nə cürət edib bu sözü deyirsən? (*Qılıncı çəkir. Əmələlər padşahın və yanındakıların üzərinə hücum edib qılınclarını alıb, özlərini tuturlar*.)

X a c ə F i r u z . Mən yetmiş il dünyada ömr eləmişəm. Heç kəs bu müddətdə məndən yalan və yamanlıq görməyibdir. Məlun sənsən ki, məmləkəti məzarıstana döndəribsən! Götürün, qardaşlar! (*Əmələlər padşahı və vəzirləri atırlar odun içərisinə. Xacə Firuz Rizvanla padşahın qızını əl-ələ verdirir*.) Baxın, qardaşlar, budur ədalət!

H a m ı . Yaşasın ədalət! Yaşasın qoca atamız Xacə Firuz!

PƏRDƏ

AĞAC KÖLGƏSINDƏ

Dram, iki pərdədə

İŞTİRAK EDƏNLƏR

M u s t a f a b ə y –	mülkədar
G ü l m ə m m ə d –	onun darğası
O c a q v e r d i –	kəndli
G ü l p ə r i –	onun qızı, Mustafa bəyin siğəsi
M i r z ə K ə r i m –	kənd müəllimi

Kənd əhalisi, qadınlar, çocuqlar

BİRİNCİ PƏRDƏ

Əhvalat vaqe olur. Mustafa bəyin evinin qabağında. Səhnənin ortasında bir böyük ağac. Gülpəri ağacın altında bir böyük xalça və döşək salıb ətrafına su səpir. Neçə nəfər kəndli, əllərində torba, xurcun, müntəzir durubdurlar. Sair kəndlilər, əllərində oraq, balta, bel, kürək səhnədən gəlib, yığılanlara salam verib keçirlər.

O c a q v e r d i (*əlində torba, Gülpəriyə*). A qız, ağan hələ gəlməyibdir ki?

G ü l p ə r i . İndicə atdan düşüb, dədə, bu saat gələr. Amma çox hirslidir.

O c a q v e r d i . Yenə nə xəbərdir?

G ü l p ə r i . Nə olacaq, səhər darğa xəbər gətirdi ki, bu gecə Atakişi oğlu Cəfər su oğurlayıb. Kəhrizdən qol ayırıb, aparıb pambığını suvarıb. Bəy də çox hirsli durub, atını minib getdi. İndi Cəfərin boğazına ip salıb, yəhərin dalına bağlayıb burayadək sürüyüb. Yazığı o qədər döydürübdür ki, bədənində sağ yer qalmayıb. (*Səs gəlir.*) Budur, ağa gəlir.

Hamı kənara çəkilir.

M u s t a f a b ə y (*daxil olur*). Heyvan uşağı heyvan! (*Gülpəriyə*) Ay qız, get ayran gətir. (*Gülpəri gedir.*) Heyvan uşağı heyvan! (*Oturur ağacın dibində.*) Nə halal qanırlar, nə haram. Zalım oğlu, pambığa su lazımdır, insan kimi gəl istə, apar. (*Camaata.*) Hamınız haramxorsunuz,

hamınız oğrusunuz! Guya Allah buyuran yolla su aparıb, pambıq məhsulunun dörddən birini bəyə versəniz, canınız çıxar. Odur ki, Allahın qəzəbi sizə keçib, əkinlərinizi gah çəyirtkə yeyir, gah dolu vurur, gah quraq aparır. Özünüz də yaz əkinçi, qış dilənçi. (Gülpəri kasada ayran gətirir, bəy içir.) İndi, budur, buraya yığılıbsınız, nə istəyirsiniz?..

B i r i n c i k ə n d l i . Ağa, çörəyimiz qurtarıb, bir az arpaya gəlmişik. Özün bilirsən, biçin vaxtına bir şey qalmayıb, xırman vaxtı gətirib verərik.

M u s t a f a b ə y . Budur... Iki aydan sonra arpa döyəcəksiniz. İndi acından ölürsünüz. Nə qədər arpa lazımdır?

B i r i n c i k ə n d l i . Adama yarım çuval olsa, bəsdir.

M u s t a f a b ə y . Adama yarım çuval verərəm, bəşərtiha xırmanda hər biriniz bir çuval arpa verərsiniz!

İ k i n c i k ə n d l i . Ay ağa, axı biz sənin övladınıq. Bizi niyə belə dara qısnayırsan?

M u s t a f a b ə y . Əskik olmaz. Istəmirsiniz, canınız çıxsın, acından qırılın. Zalım uşaqları, mənimlə şərikli kəhriz çıxartdırıbsınız ki, suyumu da oğurlayırsınız?!

O c a q v e r d i . Uşaqlar, danışıq lazım deyil, bəy bir çuval istəyir, biz də bir çuval verərik. Gəlin bəri.

M u s t a f a b ə y . Ocaqverdi, sən çox baş aparırsan. Yoxsa güman edirsən ki, qızın mənim evimdədir, sənə mən heç bir şey edə bilmərəm? Vallah, səni Cəfərdən pis kökə qoyaram!

O c a q v e r d i . Bəy, bizim canımız bərkdir. Hər şeyə davamımız var, nə olar, döyəndə döyərsən. Qızımı zorla evimdən çəkdirib aparıb özünə sığə elədin, əlimdən nə gəldi ki, yenə də nə gəlsin?

M u s t a f a b ə y . Sənin qızın mənim evimdə arvaddır, sən gərək fəxr eləyəsən. Nəinki boş-boş danışırsan. (*Mirzə Kərim görünür*). Hamınızı, bax bu gələn (*göstərir*) xarab eləyib.

Ocaqverdi kəndlilərə əl edir, hamısı gedirlər.

G ü l p ə r i . A bəy, axı Cəfər kişi ölür. Bədənində salamat yer yoxdur. Ölü kimi yıxılıb, nəfəsi də çıxmayır. Boğazından bir damcı su keçməyir.

M u s t a f a b ə y . Heç zad olmaz. Rəiyyət canı it canından bərk olar. Get gedələrə deginən bədəninə təpitmədən zaddan salsınlar.

Gülpəri gedir.

M i r z ə K ə r i m (*daxil olur*). Salaməleyküm.

M u s t a f a b ə y . Təzə qəzet alıbsanmı? Nə var nə yox, yenə nə yalan-palan yazıblar?

M i r z ə K ə r i m . Yalan-palandan sonra sənə söylərəm. Ancaq, bəy, yaxşı iş görmürsünüz. İndi bu saat Cəfərin oğlu gəlmişdi yanıma, deyir, bəy atamı o qədər döyübdür ki, atam ölür. Bəy, doğrusu, belə işlərin axırı xeyir olmaz.

M u s t a f a b ə y . Mirzə Kərim, bu kəndin içində bircə ağıllı adam sənsən. Sən də bu cür danışanda mən təəccüb edirəm. Mən xərc çəkmişəm, pul tökmüşəm, qat-qat qabıq qoyub, kəhriz çıxartmışam. Camaatdan mən suyu müzayiqə etmirəm, gəlsinlər aparsınlar. Amma qaydası ilə, Allah buyuran yolla. Nəinki oğurluqla. Sən də, eşidirəm, camaata nəsihət etməkdən, onları başına yığıb hamısını da xarab eləyirsən. Budur, camaat tamam itaətdən çıxıb. Camaatı yığıb onlara qəzet oxuyursan, nə bilim, Rusiyədə bəyləri güllə qabağına qoyurlar, mülklərini alıb camaata verirlər, daha nə qayırırlar bilmirəm. Axır bunlar nəyə lazımdır? Nə qədər ki sən bu kəndə gəlməmişdin, camaat bundan yumşaq idi. İndi uşağı da dİndirmək olmur.

M i r z ə K ə r i m . Bəy, camaatın müəllimi mən deyiləm, vaxt özü müəllimdir, zəmanə özü müəllİmdir. Qaranlıqda qalanların, işıq arzusunda, əsarətdə, zindanda qalanların azadəlik arzusunda olmaları təbiidir. Dörd ətrafı işıq tutan zaman qapıları basıb camaatı işıqdan məhrum etməyin nəticəsi bu olar ki, təqazayi-vaxt o qapını açar və bağlayanı cəzasına yetirər. Bağışlayın, bəy, söhbət düşübdür, danışıram. Odur, Cəfər kişinin boğazına ip salıb sürütdüyübsən və özünü də o qədər döydürübsən ki, İndiyədək özünə gəlməyib. Bunun adını nə qoymaq olar? Məgər İndi xan əsridir? Camaatın ayağı Tiflisdə, Bakıda, Gəncədə. Hamısının gözləri açılıb, hamısı ayılıblar. Naçalniklərə, pristavlara, yasavula bel bağlamaq olmaz. Camaat qisası sel tək axarsa, onun qabağını almaq çətin olar. Siz İndi buyurdunuz ki, pul qoyub kəhriz çıxartmışam. Haradandır o pul? O pul rəiyyətlərin əziyyətinin nəticəsi

deyilmi? Buyursunuz qat-qat qabıq qoymuşam. Xeyr, yalandır. Siz qabıq qoymamışsınız. O qabığı bu fəqir camaat qoyub. Siz ancaq fəhlənin başının üstünü zalım kimi kəsdirib, tamaşa eləyibsiniz. Kəhrizi çıxaran fəhlədir. Bunlar keçəndən sonra Cəfər kişi su oğurlayıb. Sənin oğlun ona suyu bir gecəlik satıb, pulunu alıb şəhərə kefə gedib. Bunu mən təhqiq etmişəm.

M u s t a f a b ə y . Qurtardın?

M i r z ə K ə r i m . Bəli, bəy, qurtardın. Bağışlayın, başağrısı oldu.

M u s t a f a b ə y . İndi də mən deyim.

M i r z ə K ə r i m . Buyurunuz.

M u s t a f a b ə y . Bilirsən, Mirzə Kərim, mən sənin xatırını çox istəyirəm. Çünki doğrudan da başıdolu oğlansan. Amma səndən mən təvəqqe edirəm, gündüz gedib şkolada dərsini verib, qayıdıb evində oturarsan. Səndən də qabaq burada müəllim var idi. Nə camaat onu tanıyırdı, nə o camaatı. Sən uçitelsən, dərsinə məşğul ol. Sənin nə borcuna, bəy belə gəldi, rəiyyət belə getdi. Qəzet alırsan, özün oxu. Yığıb onlara qəzet oxumaq lazım deyil. Camaat qəzeti nə eləyir? Qoy getsinlər əkinlərinin, biçinlərinin dalınca. Yenə sənə deyirəm, ağıllı ol, sən bir ağıllı oğlansan. Bir kasıb kişinin oğlusan, gəlib burada bir parça çörək yeyirsən. Mən istəmirəm ki, bizim aramızda inciklik olsun.

M i r z ə K ə r i m . Bəy, mən sizin xeyrinizi dedim. Mən yoxsul bir müəllim babayam. Haraya getsəm, beş uşağa dərs verib dolanacağam. Mülküm yox, evim yox, malım yox, qovulmaqdan da qorxmuram. Dustaqxanaya saldırarsan, bir parça çörək yeyib Dustaqlara dərs verərəm. Sürgün elətdirərsən, haraya getsəm, müəllimlik mənə çörək verəcək. Amma vay sizin halınıza. Buna görə də mən sizin öz məsləhətinizi deyirəm. Yoxsa, bir ehtiyacım yoxdur. Axırı sizin üçün pis keçər.

M u s t a f a b ə y . Mənim üçün pis keçərsə, əlacını da özüm elərəm. Səndən təvəqqe edirəm camaatın işlərinə qarışmayasan. Hamını xarab edibsən. (*Bu halda Ocaqverdi, əlində torba, keçir.*) Nə halalı haramdan seçirlər, nə aldıqlarını verirlər. Budur, haman bu Ocaqverdi üç il tamamdır, beş manat alıb vermir.

O c a q v e r d i (*dayanır*). Bəy, necə beş manat?

M u s t a f a b ə y . Yadındadırmı ki, sənin evində qonaq qalan kazakın qamçıçı itmişdi. Kazak səni ağac altına salıb öldürürdü. Beş manat kazaka verdim, səni qurtardım.

O c a q v e r d i . Yadımdadır.

M u s t a f a b ə y . Vaxti ki, yadındadır, niyə İndiyədək borcunu vermirsən?

O c a q v e r d i . Bəy, mən səndən təvəqqe elədim ki, kazaka pul verib məni qurtarasan? Mənim belim ata-babadan ağaca öyrənib. Yüz dəfə sən döyübsən, qoy bir dəfə də kazak döysün. Nə olardı, ölməyəcəkdim ki! Əlbəttə, döyüb, döyüb çıxıb gedərdi və borc pul lazım

olsaydı, aldığım yeri bilərdim. Bir də mən belə güman elədim ki, sən o pulu kazaka peşkəş verirsən. İndi ki, borc hesab edirsən, baş üstə, gedib bu saat gətirim. (Mirzəyə) Mirzə Kərim, gör yanında pul varsa, beş manat ver. Sabah həftə bazarına inək aparacağam satmağa, satıb gətirib pulunu verərəm.

Mirzə əlini salır cibinə.

M u s t a f a b ə y . Bəs mənim pulum üç ildir qalıb, onun müamiləsi necə olsun? Mən hesab eləmişəm, sənin mənə olan borcun müamiləsi ilə bir yerdə iyirmi dörd manat elər.

M i r z ə K ə r i m . Bəy, siz belə etməyin, belə işlərə insaf yol verməz!

M u s t a f a b ə y . Mən gərək bunların nəfəsini kəsim ki, ağılları başlarına gəlsin.

O c a q v e r d i . Mirzə Kərim, heç bir söz lazım deyil. Belə dövlətli bəy istəyən yerdə, mən çulucırıq verəcəyəm. Istər iyirmi dörd manat olmasın, yüz iyirmi dörd manat olsun. Bəy, sabah pulun çatar. Bir günün də müamiləsini gələrsən üstünə, hər nə qədər edərsə, alarsan. Mən kasıb babayam, budur, arpa aparıram, çörək eləyib yeyəcəyəm. Amma sənə plov lazımdır, üstündə yağlı əmlik əti olsun.

M u s t a f a b ə y (*hirsli*). Di, sürün get. Gözünə girsin iyirmi dörd manat.

O c a q v e r d i . Xeyr, bəy, gözümə girməz, qəpiyinədək gətirib verəcəyəm. Yeyib gecələr də rahat yatasan! (*Gedir*.)

Camaat, dallarında torba, keçirlər.

M u s t a f a b ə y . Bihəya oğlu bihəyanın danışığına bax! Mirzə Kərim, bunlar hamısı sənin kələyİndir.

M i r z ə K ə r i m . Xeyr, bəy, ciyər yananda nəfəs əvəzinə alov çıxar.

U ş a q (*qəzet gətirir*). Mirzə, dəftərxanadan göndəriblər.

M i r z ə K ə r i m (*qəzeti açır*). Qəribə işdir! Şəhərdən uzaq olmağın səməri budur.

M u s t a f a b ə y . Nə olubdur?

M i r z ə K ə r i m . Təzə qəzetdir. Bakıdan gəlib, “Kommunist”.

M u s t a f a b ə y . Kommunist? Yəni nə olsun?

M i r z ə K ə r i m . Kommunist nə olduğunu camaat sizə anladar. Bakıda Şura hökuməti elan olundu. Dövlətlilərin mal, əmlakı keçir

ümumi camaat ixtiyarına. Fabriklər, zavodlar hamısı camaat malı olur. Bəylərin, xanların yerləri hamısı əllərindən alınıb camaata, rəncbərlərə verilir.

M u s t a f a b ə y . Yalandır, yalan! Elə şey ola bilməz. Kimin nə ixtiyarı var mənim ata-babadan qalan mal-dövlətimi, əmlakımı əlimdən alıb, camaata paylasın?! Yalandır!

M i r z ə K ə r i m (*qəzeti göstərir*). Budur, baxın.

M u s t a f a b ə y . Nəyə baxacağam! Hansı savadla baxacağam? Bu yalandır. Görəsən hansı əli dinc durmaz bu qəzeti yazıb göndəribdir. M i r z ə K ə r i m , təvəqqe edirəm, bu qəzeti bir adama göstərmə. Mən şəhərə atlı göndərərəm, bir səhih xəbər gətirsin. (*Çağırır.*) Gülməmməd! (*Gülməmməd daxil olur.*) Gərək bu saat atı minib şəhərə gedəsən.

G ü l m ə m m ə d . Bəy, Cəfər öldü. İndi necə eləyək?

M u s t a f a b ə y . Nə danışırsan? Necə öldü?..

Gülməmməd. Həqiqət, öldü.

M u s t a f a b ə y (*hövlnak qalxır*). Gedək! (*Ürəyi darıxmış yıxılır Gülməmmədin qucağına.*)

M i r z ə K ə r i m . Ölməz, qorxma, yuxuya gedib. Ayılıb başqa bir dünya görəcəksən. Qisas dünyası!..

PƏRDƏ

İKİNCİ PƏRDƏ

Həmin yerdə. Mustafa bəy və Gülməmməd söhbət edilər.

M u s t a f a b ə y . A balam, bu kəndə nə olub? Xarabaya dönüb, bir insan görünmür.

G ü l m ə m m ə d . Camaat axşamdan gedib, vaxtdır, İndi qayıdarlar.

M u s t a f a b ə y . Haraya gediblər?

G ü l m ə m m ə d . Həftə bazarına. Axşam yüzbaşı hökm gətirmişdi ki, Bakıda təzə hökumət əmələ gəlib. Nə bilim, deyirlər ki, bəylərin yerlərini bütün alıb rəiyyətə paylayacaqlar. İndi həftə bazarına hökumət adamları gəlib. Camaatı oraya çağırırlar ki, təzə zakonu onlara xəbər versinlər. Bu xəbər gələn kimi uçitel Mirzə Kərim camaatı yığıb başına dedi: gərək kənddə bir nəfər başıpapaqlı qalmaya. Hamını da

həftə bazarına apardı. Yüzbaşının da ayağına buxov vurub, tövləyə saldılar. Camaatdan ayağına gücü çatan, həmin saat piyada yola düşdü. Qalanı da adama bir at, iki adama bir at minib getdilər.

M u s t a f a b ə y . Bəs bunu niyə mənə xəbər vermədin? Gülməmməd. O vədə sən yatmışdın. Oyatmağa cürət eləmədim. Bir də, bəy, xəbər verməyin nə faydası?! Buranın bəyi Mirzə KərİmdIr. Camaatın uşaqlarının başlarını tutub bir-bir kəsə, ondan inciməzlər.

M u s t a f a b ə y . Mirzə Kərim də gedib?

G ü l m ə m m ə d . Məgər bilmirsən ki, camaat işlərində həmişə qabağa düşən Mirzə Kərimdir? Vaxtında cilovunu çəkmədin. İndi də dalını bağlamaq olmayır.

M u s t a f a b ə y . Nə çarə qılım? Pristava neçə dəfə dedim. Naçalnik bizə gələndə ona yalvardım, bu nadürüstü mənim başımdan rədd eləsin, söz verdi. Sonra şkolalar böyüyü gəldi. O da deyir ki, bəy, İndiyə tək bu kənd şkolası on-on beşdən artıq şagird görməyib. Amma Mirzə Kərim yetmişdən artıq yığıb. Belə əvəzsiz müəllimi heç vaxt götürmək olmaz. Deyir, əgər şkola tutsa, camaat ona iki yüz uşaq verər. Xülasə, ondan da əlac olmadı. İndi gərək başımızı noxtalayıb verək oğul-uşaq əlinə!

G ü l m ə m m ə d . Bəy, özün də boşluq eləyibsən. Nə olardı, gədələrin birinə min manat verəydin, qulağının dibinə bir güllə qoyaydılar, yataydı yerə!..

M u s t a f a b ə y . Elə onu de də! O da mənim axmaqlığımdan! Bundan sonra onun qabağında durmaq olacaq?!

G ü l m ə m m ə d . Bəy, mən bundan da bədtərindən qorxuram.

M u s t a f a b ə y . Necə bədtərindən?!

G ü l m ə m m ə d . Qorxuram, canımız da əldən gedə. Yüzbaşının ayağına buxov vuran kimi, bizə də əl qatarlar. Ələlxüsus ki, həftə bazarından ağzı yelli gələlər. Hətta bunu sizə demək istəyirdim. Gedəndə deyirdi ki, bazardan qayıdandan sonra Mustafa bəyi yüzbaşıdan pis kökə qoyacağam!..

M u s t a f a b ə y (*fikrə gedir*). Yaman günə düşmüşük. Doğrudan da, haramzadədən nə desən çıxar. Bilirsən, Gülməmməd, biz burada dayana bilməyəcəyik. Uşaqlara deginən atları çəksinlər, minək, bir yana çıxaq.

G ü l m ə m m ə d . At nə gəzir minəsən.

M u s t a f a b ə y . Necə? Nə söyləyirsən?!

G ü l m ə m m ə d . Söyləmək yoxdur, axşam mehtər tövlənin qapısını açıb, atların hamısını verdi camaata! Sənin kürən atını da Mirzə Kərim mindi.

M u s t a f a b ə y . Bircə a nadürüst mehtəri buraya çağır, onun atasına od vurum. Tez çağır!

G ü l m ə m m ə d . Burada mehtər nə gəzir, çağırım! O da mənim atımı minib gedib.

M u s t a f a b ə y . Bəs, o bədbəxt oğlu, niyə gəlib mənə xəbər vermədin? Yatmışdım, ayağımdan sürüyüb oyada idin.

G ü l m ə m m ə d. Çox da oyatdım, nə faydası? Bir az da hörmətin gedəcək idi. Mehtərə mən deyəndə ki, ay balam, mənim atımı niyə minirsən, dedi, dayan, bazardan gəlib sənin özünü minəcəyəm. Hələ çox söz dedi, doğrusu, demək istəmirəm. (*Bir az dayanıb*) Hələ sənin də haqqında bir az artıq-əskik danışdı. Deyir, ağanla sən mənə eşşək arpası yedirtmisiniz. İndi də plovu yeyib arpanı sizə yedirdəcəyəm. Xülasə, çox baş apardı.

M u s t a f a b ə y . Yox, iş qorxuludur. (*Gülməmədə)* Xata görünür, uşaqlara deginən ki, hamısı yaraqlansınlar.

G ü l m ə m m ə d . Bəy, bu kənddə başıpapaqlı bir sənsən, bir də mən!

M u s t a f a b ə y . Bəs nə etməli, nə çarə etməli?

G ü l m ə m m ə d . Özünü toxtaq saxla, budur, camaat qayıdır.

M u s t a f a b ə y (həyəcanla gəzir). Yox, yaman yerdə axşamladıq. Hamısını eləyən o Mirzə KərİmdIr. (*Cavan bir kəndli səhnədən keçir*.) Ay gədə, bir dayan görüm.(*Kəndli dayanıb əyri-əyri baxır*.) Keçəndə niyə salam vermirsən? (*Kəndli cavab verməyib keçərkən*) A gədə bir dayan!

C a v a n k ə n d l i (*dayanır*). Nə deyirsən?

M u s t a f a b ə y . Haradan gəlirsən?

C a v a n k ə n d l i . Həftəbazarından.

M u s t a f a b ə y . O Bakıdan gələnlər kİmdir? Nə danışırdılar?

C a v a n k ə n d l i . İndi vaxtım yoxdur, sonra deyərəm. (*Gedir*)

M u s t a f a b ə y . Bihəyanı görürsən!

G ü l m ə m m ə d . Allah bədtərindən saxlasın.

Mirzə Kərim səhnədən keçir.

M u s t a f a b ə y .Mirzə Kərim, Mirzə Kərim. Bir buraya zəhmət çək.

Camaat dəstə ilə keçir.

Mirzə Kərim. Nə buyurursan, bəy?

M u s t a f a b ə y . Bircə sən bu işləri mənə başa sal!

M i r z ə K ə r i m . Mən, doğrusu, heç bir şey başa sala bilmərəm!

M u s t a f a b ə y . Bu Bakıdan gələnlər necə şeydir?

M i r z ə K ə r i m . Bəy, mən bir neçə illərdir ki, bu barədə danışırdım. İndi dəxi sözüm yoxdur. Bundan sonra camaatla özünüz danışacaqsınız. Mən vəzifəmi qurtarmışam!

M u s t a f a b ə y . Doğrusu, mirzə, camaatın halını pis görürəm. orxuram, məni bihürmət eləyərlər. Sən onlara nəsihət elə. Deginən ağsaqqal ağanızdır, onun hörməti vacibdir. Əgər istəmirlər, baş üstə, mən elə bu gün buradan baş götürüb gedərəm. Kənd də sizin, mülk də sizin, əkin də, su da, heyvanlar da...

M i r z ə Kərim. Bəy, cavabını bir neçə gün bundan qabaq döydürüb öldürdüyünüz Atakişi oğlu Cəfərin oğlu sizə verər. Mən çox dedim. Hərgah mənim dediklərimə əməl olunsaydı, girə də düşməzdiniz!

M u s t a f a b ə y . Mirzə Kərim, avamam, savadım yoxdur, dərsim yoxdur. Başa düşməmişəm. Amandır, camaat hamısı sənin sözünə baxır. Gərək mənə sən bir təhər çəkəsən!

M i r z ə K ə r i m . Səhv edirsiniz, bəy. Heç bir savad əhli sən görən işi bacarmaz. Heç bir alim ustalıqda sizə çatmaz! Siz nə buyurursunuz! Bağışlayın, mənim əlimdən heç bir şey gəlməz. Budur, camaat gəlir. Söhbəti eləyə bilərsiniz.

Mirzə Kərim çəkilir kənara. Bu dəstə camaat, qabağında Ocaqverdi, əli ndəqırmızı örtülü tabaq daxil olur. Səhnə oğul-uşaqla dolur.

O c a q v e r d i (*baş əyir*). Bəy, sən İndiyədək bizə ağalıq eləyibsən. Babalarımız sənin babalarına qulluq edib. Atalarımız atanızın qapısında olublar. Özümüz də özünüzə nökər olmuşuq. İndi də işlər dəyişib. Hamı bəylərin yerləri və dövlətləri rəiyyətə paylanır. Biz də borc bilirik, gəlib səndən İndiyədək gördüyümüz insaniyyətin, yaxşılığın razılığını edək. Həmişə qapına taxıla, pula gəlmişik, çörəyə gəlmişik, heç vədə əliboş yola salmayıbsan! Biz səndən çox razıyıq. Allah səndən razı olsun.

M u s t a f a b ə y . Camaat, Allah bilir ki, mən heç vədə sizi öz övladımdan seçməmişəm. Həmişə sizin xoşbəxtliyinizi istəmişəm. Doğrudur, bəzinizi incitmişəm, ola bilsin döymüşəm, ya söymüşəm.

Hamısını atalıq, böyüklük cəhətincə eləmişəm. Amma yenə də təvəqqe edirəm məni bağışlayasınız!.. Mən özüm öz xoşumla var-yoxumu sizə verib, bu gün buradan gedəcəyəm.

O c a q v e r d i . Allah sizdən razı olsun, ağa! Biz səndən çox razıyıq və səni buradan heç yana qoymayacağıq gedəsən! Gərək həmişəlik bizim içimizdə qalasan. (Tabağı qoyur yerə.) Bu peşkəşi də təvəqqe edirik biz nökərlərinizdən qəbul edəsən.

Mustafa bəy peşkəşi alır, örtüyü götürdükdə bir dənə ilmək hörülmüş kəndir görüb rəngi qaçır və özünü itirir.

O c a q v e r d i . Bəy, bu bir şey deyil, bu həmin Cəfər kişinin boğazına çalıb sürütdürdüyün kəndirdir. Bilirsən, bəy, sən bu ağacı çox sevirsən və həmişə də deyirdin ki, mən vəsiyyət edəcəyəm ki, öləndə məni bu ağacın dibində basdırsınlar. İndi biz də belə məsləhət görmüşük ki, səni bu ağacdan asaq, həmin bu qanlı iplə və bədənini də öz vəsiyyətinə görə burada basdıraq! Ta həmişəlik bu sevgili ağacın kölgəsində yatasan. Bu istəkli nökərin Gülməmmədi də səndən ayırmayacağıq. Zəhmət olmasa, ayağa qalx! (*Mustafa bəy istəyir söz desin, dili tutulur, söz deyə bilmir*.) Uşaqlar, deyəsən bəyin qıçı ağrıyır, ayağa qalxa bilmir. Heç zəhmət verməyin! Gəlin özünüz götürün! (*Bəyə*) Bəy, heç sizə əziyyət olmayacaq. Kəndir qayda ilə sabunlanıbdır. Üç dəqiqdən sonra ruhun cənnətdə plov yeyəcək. Gətirin, uşaqlar. (*Neçə nəfər cavan, bəyi gətirib ağacdan asırlar*.) Gülməmmədin də qollarını bağlayın.

Gülməmmədi də tuturlar.

G ü l p ə r i (*daxil olur*). Bunumu istəyirdin, Mustafa bəy? İndi al payını! Camaat, mən sizin qızınızam. Bu zalım məni güclə atamın əlindən alıb, gətirib zindana salıb, İndiyədək əzab verirdi. İndi bu cəzasına çatdı. Mən də bunun qapısını sizə açıram. Gəlin nə qədər pulu, malı, dövləti, qızılı var, hamısını aparın. Hamısı sizə Qurbandır.

Camaat tökülüşürlər.

M i r z ə K ə r i m (*qabağa yeriyir)*. Camaat, sakit olun. (*Hamı sakit olur.)* Mustafa bəyin dövlətindən gərək heç şey dağılmasın. Hamısı gərək siyahiyə salınsın və qayda üzrə camaat vəkillərinin ixtiyarına verilsin ki, onlar da camaata təqsim etsinlər. İndi, camaat, min illərlə

boynumuzda olan əsarət zənciri qırıldı və bu əmlaka siz sahib oldunuz. Siz də gərək sübut edəsiniz ki, bu nemətlərə layiqsiniz. İndiyədək bəylərə işləmisiniz, İndi özünüzə işləyəcəksiniz. Bəy sizi zorla işlədib, İndi isə özünüz həvəslə, uşaqlı-böyüklü çalışasınız və ikiqat, üçqat zəhmət çəkib bu ixtiyarınıza keçən mülkü abad edəsiniz. İndiyə qədər gündüzlər işləyib gecələr yatıbsınız. İndi isə lazım olsa gərək gecə də işləyəsiniz. Gərək sizin hər birinizin daxmalar əvəzinə gözəl imarətiniz olsun. Qapınızda heyvanlarınız olsun. Evlərinizdə elektrik çıraqları yansın. Yavan çörək əvəzinə plov yeyəsiniz. Bunun hamısı zəhmətlə olar. İndiyədək hökumət pulun əlində idi. Bundan sonra hökumət zəhmətkeşlərin əlində olacaq. Ağ əllərin dünyası məhv oldu. İndi yaşasın qabarlı əllər!..

C a m a a t . Yaşasın Mirzə Kərim! Yaşasın bizim müəllimimiz!..

M i r z ə K ə r i m . Analar, bacılar! Siz də cəhrələrinizi, daraqlarınızı sazlayın, başlayın yun əyirməyə, şal toxumağa. Sizin yolunuzda qanlar töküləcək. Çünki hələ dünya təmizlənməyibdir. Mustafa bəylər çoxdur. Bu yolda çalışan cavanlarımıza libas lazımdır. Bunu siz analar verəcəksiniz. Xırda uşaqlar da gərək məktəbə getsinlər. Çünki bizim gələcək ümidlərimiz balalardır. Məktəbimiz dar olmağına görə Mustafa bəyin evini məktəb və camaat evi qayırırıq. Haydı, qardaşlar, ürəklə yapışın kotanın dəstəyindən! Yaşasın zəhmət! Məhv olsun zülm!

C a m a a t . Yaşasın zəhmət! Yaşasın Mirzə Kərim!

M i r z ə K ə r i m . Yaşasın camaat hökuməti!

PƏRDƏ

QOCA TARZƏN

Bir pərdə

İŞTİRAK EDƏNLƏR

T a r z ə n .
O n u n ö v r ə t i .
Üç nəfər sazəndə.

Tarzənin otağı, sadə döşənmiş. Müqabildə bir çarpayı qoyulub. Tarzənin övrəti əyləşib tikişlə məşğuldur. Qapıda taqqıltı eşidib, cəld qalxıb qapıya tərəf gedib açır. Tarzən-qoca ağaca söykənərək daxil olur. Övrəti onun qolundan yapışıb gətirib çarpayının üstündə əyləşdirir.

Ta r z ə n . Bir az su ver içim.

Ö v r ə t (*su verir*). A kişi, bu naxoş halət ilə bir belə harada idin?

T a r z ə n . Uzaq getmişdim. Əyləşmişdim bağda, təzə çıxan çiçəklərə, göy otlara tamaşa edirdim. Və özüm-özümə fikir edirdim ki, nə olardı, insan da ələfiyyat kimi qışda yuxuya gedəydi və Bahar gələndə gül-çiçək kimi açılaydı. Uşaqlar şad-xürrəm bağın xiyabanında hər tərəfə yüyürüşüb oynaşırlar. Onlara baxdıqca fikir edirdim ki, xudaya, görəsən bu uşaqların heç fikirlərinə gəlirmi ki, onlar da qocalacaqlar, əlil olacaqlar. İndi vəhşi ceyrantək yüyürən balalar bir vaxt mənimtək əli ağacsız yerdən qalxmayacaqlar. Bir vaxt var idi, mən də uşaq idim, cavan idim... İndi nəyə lazımam? Göz gedib, qol gedib, qabiliyyət gedib. Mən ilə bir çürük ağacın təfavütü yoxdur. Bir gün qəflətən yıxılacam. Və yıxıldım nə olacaq, dünyadan nə əskiləcək, kimə mənim ölməyim təsir edəcək?.. Ox, ox, ox... O tarı mənə ver görüm. (*Övrət tarı verir, qoca istəyir çalsın, bacarmayıb qoyur yerə.)* Yox, olmadı... Barmaqlarım mizrabı tutmayırlar. Ax keçən günlər! Məndən baş tar çalanmı tapılardı?! Şəhərlərdən teleqraf vurub məni aparardılar. Tarı sinəmə basıb, əvvəlinci mizrabı vuranda bütün camaatın nitqi batardı. Bir adamdan səs çıxmazdı. Çalıb qurtarardım, tarı qoyardım yerə, baxardım tarın təsirindən ayrılmayıb. Mənim rastımı

bir zinəfs çala bilməzdi. İndi bir mizrab vura bilmirəm. Mənim başımdan pulu yağış kimi yağdİranlar haraya gediblər? Məni məclislərində görməkdən fəxr edənlər İndi salam da vermirlər. Qəribədir təbiətin qanunu. Heç bir memar öz tikdiyi binanı öz əlilə uçurmaz. Bəs səbəb nədir insan kimi gözəl bir binanı yapan təbiət onu təxrib edir? Mənim halətimə salır. Məni barmağı ilə göstərənlər necə olublar? Haraya gediblər? (*Qapı döyülür*.) Övrət, dur qapını aç, gərək bizim uşaqlar olsun, bağda gördüm, dedim gəlsinlər, bir az ixtilat eyləyək. Bir tək sənətkar sənətkarın qədrini bilib yaddan çıxartmaz. (Övrət qapını açır, üç nəfər sazəndə çalğı alətləri ilə daxil olurlar.) Gəlin, gəlin, məni gözəl şagirdlərim, ancaq siz məni yaddan çıxartmayırsınız.

Ö v r ə t . A kişi, bu nə halətdir səndə! Budur üç aydır yorğandöşəkdəsən, bu haləti səndə mən görməmişəm. Gəzib gəlibsən, bir az uzan, yoldaşların səninlə söhbət etsinlər. Yoxsa çox danışmaq səni daha da zəif salar.

Ta r z ə n . Mən özüm də bugünkü halətimi anlamayıram. İstəyirəm çalam, oxuyam, oynayam. Baharın günündəndirmi, havanın xoşluğundandırmı, cəmi İndiyədək yatmış hissiyatım oyanıb. Xub, mən uzanım. (*Sazəndələrə*) Siz də mən öyrətdiyim rastı çalın. (*Uzanır, sazəndələr rast çalırlar*.) Ax bivəfa fələk, nə yadıma düşdü: Şamaxıyaylağında yay fəsli, aydınlıq bir gecədə çayın kənarında məclis qurulub. Ay durub başımızın üstündə, işığı düşüb çaya. Göz yaşı kimi çayın suyu şırıltı ilə axır və ayın işığı suya düşüb rəngarəng nəqşlər göstərir. Mən həmin bu rastı çalıram. Çay kənarındakı bağın bülbülləri səssəsə verib tar ilə bahəm oxuyurlar. Mən dayananda onlar da dayanır, mən çalmağa başlayanda onlar da oxumağa başlayırlar. Gecə sakit, məclis guşhuş ilə qulaq verir, guya ay və göyün ulduzları, hamısı öz gərdişindən dayanıb mat-məbhut mənim çalğıma qulaq asırlar. Onda gördüm bir dənə bülbül mənim üstümə gəlib özünü tara çırpıb getdi. Dərhal Mahmud ağa, Allah rəhmət eləsin, qalxıb mənim alnımdan öpüb dedi: “Afərin sənə! Ölmə, yaşa!”. Budur ölməyib yaşayıram, budur ölməyib yaşayıram. (Sazəndələr şikəstəyi-farsa keçirlər. Tarzən hövlnak qalxır.) Çalın, çalın, bu saat dərunimdə başqa bir fərəh, başqa bir ruh hiss edirəm. Mən bu dəmdə qoca deyiləm, cavanam və cəmi cavanlardan cavanam. Çalan siz deyilsiniz! Yox, yox, mən çalıram! O mənim mizrabım, mənim barmağımdır. Bir tamaşa edin, ay enir aşağı,

ulduzlar tökülüşürlər, bülbüllərin ağızlarından çıxan şərarələr ulduzların istiqbalına gedirlər. Dürüst baxın... Dürüst baxın! Göyün qapısı açıldı, oradan mələkələr əl çalıb, mənə afərin deyirlər. Eşidirsiniz, eşidirsinizmi? Baxın, bir mürəssə təxt mənim üçün enir. Təxtin hər tərəfindən iki mələk yapışıb. Mələklər əl edib məni özlərinə tərəf çağırırlar. Gəldim, gəldim, ay Allahın gözəl mələkləri, Şərqin ən namdar tarzəni sizə xidmət etməyə hazırdır. Gəlin, götürün məni, çəkin havaya... Əlvida, əlvida, yoldaşlar, daha yer məni görməz, mən göylərə lazım olmuşam, əlvida! (*Yıxılıb ölür*.)

PƏRDƏ

VAVEYLA

İki pərdəli dram

İŞTİRAK EDƏNLƏR

F a z i l D ə r b ə n d i n i n h e y k ə l i

Molla Kazım – İranda falabaxan,

Qafqazda mərsiyəxan.

Qoca arvad
Cavan oğlan
Qoca kişi
Molla Cabbar – İranda meymunoynadan,
Qafqazda şəbihgərdan.
K ə r b ə l a y i X u d a v e r d i
Ə k b ə r – onun oğlu
Ə k b ə r i n a r v a d ı
Ə k b ə r i n a n a s ı
R ə s u l – arif bir bir oğlan
K ə r b ə l a y i Q ə d i m

Bir nəfər erməni arvadı
İranlı bir oğlan
Mo l l a Q u r b a n – İranda Dərviş,

Qafqazda şəbihgərdan
Şəhər əhalisi, arvad-uşaqlar

BİRİNCİ PƏRDƏ

Pərdə açıldıqda İranda şəhər meydanı görünür. Səhnənin ortalığında Fazil Dərbəndinin heykəli eşşək üstündə əyləşib, ətrafında neçə nəfər köhnə kulak, boyunlarında kəndir və kəndirin ucları Fazilin əlində. Fazil gah məclisə, gah ətrafındakılara baxır.

F a z i l . İsməu-ifhəmu-ya əyyühəl-qafilun. Eşidin və ayılın, ey Allahın xabi-qəflətdə uyumuş bədbəxt bəndələri! Açın gözlərinizi və kar qulaqlarınızdan pənbeyi-qəfləti kənar ediniz. Mənəm qabağınızda duran, mənəm məşəli-dini-islam, mənəm əfzəlül-üləma, mənəm Fazil Dərbəndi... (Məclisə.) Nə baxırsınız gözümün içinə? Nə səbəbə hamılıqla ayağa qalxıb təzim etmirsiniz?! Fikir edin, hamınız öləcəksiniz və siz ki belə fikir dəryasına qərq olubsunuz, aya, qiyamətə nə sifətlə gəlib, günahlarınıza nə üzr gətirəcəksiniz? Huşunuzu başınıza cəm edin, tövbə qapısı həmişə açıqdır. Qorxun qiyamət əzabından, niyə sakit əyləşib etina etmirsiniz? Yoxsa günahlarınızın hesabının çoxluğu sizi mat edibdir? Qorxmayın, qorxmayın. Bir qətrə göz yaşı sizin cəmi günahlarınızı yuyub aparar. Isməu-ifhəmu-ya əyyühəl-qafilun. Mən

bəka-öv əbka-öv təbaka vəcabət-ləhül-cənnət. Hər kəs ağlaya, ağlada və ya ağlayana özünü oxşada behişt ona vacibdir. Bunu mən deyirəm, mən molla ağa Fazil Dərbəndi deyirəm sizə, məhərrəm ayı yaxınlaşır, ağlayın, başınıza döyür... Sinələrinizi qara daşla əzin, başınıza saman tökün, hər nə günah etmiş olsanız, istər səğirə, istər kəbirə, hamısı bir anda bağışlanar. Baxın mənim ətrafımdakı möminlərə. (*Ətrafdakılar dizləri üstə çöküb, ağlaşırlar*). Budur məşhur tacir, dünyada nə arşını, nə tərəzisi düz olmayıb, peşəsi avam kəndlilərə çürük malı ikiqat qiymətə aldadıb satmaq olub, neçə yetimə qəyyum olub, mallarını yeyib... Amma, ey qəflətdə yatanlar! Ey imansızlar! Bilin, bircə dəqiqə aşura günü sidqi-dildən ağlamağına görə cəmi günahları bağışlanıb, özünə də mənimlə bir yerdə behiştdə məkan verilib. Budur, iyirmi sənə qalabəyilik etmiş. Budur, otuz il kəndxudalıq edən. Budur, məşhur qoçu ki, əlindən hesabsız qanlar tökülüb. Budur, məşhur şürbi ki, ildə on bir ay ayıq olmayıb. Bircə məhərrəm ayı içkini kənar qoyub, təziyədar olub... Görün bunları, ibrət edin. Bir bu qədər işləri görəndən sonra, yoxsa yenə inanmırsınız? Dürüst fikir edin, özünüzə, övladınıza yazığınız gəlsin. Bilin ki, bir qətrə göz yaşı nəinki sizin, hətta ata-babalarınızın da günahlarını yuyub aparır. (*Ətrafdakılar yenə ağlayırlar*.) Bunu mən deyirəm, mən Fazil Dərbəndi, mən bəka-öv əbka-öv təbaka vəcabət-ləhül-cənnət. Gedin, ey Allahın mömin bəndələri. (*Gedir, camaat da dalınca*.)

Səhnənin dalından Molla Kazım əmmaməsiz, başında papaq, yanında bir qoca arvad, bir cavan oğlan və bir qoca kişi daxil olurlar. Molla Kazım daş üstə əyləşir.

M o l l a K a z ı m . Hə, söyləyin görüm, dərdiniz nədir? (*Arvada*) Bacı, sən yavuğa gəl, (*qalanlara*) siz bir qədər kənara gedin, bəlkə bacının dərdi xəlvətdir.

Çəkilirlər.

Q o c a a r v a d . Bəli, Qurbanın olum, mən gərək sözümü axund ağaya xəlvət deyim.

M o l l a K a z ı m . Onlar getdilər, sözünü de...

Q o c a a r v a d . Molla Kazım, ayaqlarının altında ölüm, göydə Allah, yerdə sənin ətəyindən tutmuşam. Nə istəyirsən məndən al, mənim dərdimə əlac elə.

M o l l a K a z ı m . Müxtəsər elə, görürsən xalq məəttəldir. Dərd bir sənin dərdin deyil.

Q o c a a r v a d . Deyirəm, sənə Qurban olum, Allahdan gizlin deyil, bəndədən nə gizlin. Üç il bundan qabaq gedib oğluma bir gəlin gətirmişəm. Necə gəlin! Bir gül parçası, bircə eybi yoxdur ki, övladı olmur. Oğlum deyir: o sənin ayağının ağırlığındandır, bunun əvəzinə gedib başqa arvad alsaydın, yəqin imdi iki uşaq atası olardım.

M o l l a K a z ı m . Oğlun bu saat haradadır?

Q o c a a r v a d . Oğlum, başına dönüm, bu səhər Təbrizə yola düşdü və tapşırdı ki, əgər mən Təbrizdən qayıdıb arvadımı hamilə görməsəm, haman gün boşayacağam və səni də o qədər döyəcəyəm, bədənin qara tuluğa dönüncə. Başına dönüm, Molla Kazım, əl mənim, ətək sənin. Ya əlimi kəs, ya ətəyimi...

M o l l a K a z ı m . Çox əcəb. Müalicəsi asandır. Belə arvadların çoxusunu mən müalicə etmişəm.

Q o c a a r v a d . Bilirəm, sənə canım Qurban , odur ki, ətəyindən yapışmışam.

M o l l a K a z ı m . Cəmi şəhərdə bizim ocağın kəraməti məlumdur.

Q o c a a r v a d . Ocağına Qurban olum, ay ağa!

M o l l a K a z ı m . Dayan. Bu axşam gəlinini gətirərsən bizim evə. Mən onun surətinə coşən-kəbir oxuyaram və bu gecə də bizim ocaqda yatar, sübh gəlib apararsan. Qabaqca səndən bir dinar belə istəmirəm. Əgər dörd aydan sonra gəlinin hamilə olduğu məlum olsa, onda mənim xələtimi gətirərsən, yoxsa olmasa, yenə bir dinar istəmirəm.

Q o c a a r v a d . Qurban olum, axund, oğlum gəlib bilsə, sümüklərimi sındırar.

M o l l a K a z ı m . Ürəyinə qara fikirlər gəlməsin, arvad, ayıbdır, günahdır. Molla Qiyas ocağına şəkk gətirənin gözləri tutular. Sənin gəlinin mənim zövcəmlə bir otaqda yatacaq. Dəxi get, camaatı məəttəl eləmə.

Q o c a a r v a d . Gedirəm, başına dönüm. Bu axşam gəlinimlə gələrəm. Mən də... Mən də gəlinlə bir yerdə yata bilərəmmi?

M o l l a K a z ı m . Yox, arvad, yoxsa yenə şəkk eləyirsən? Çıx get, mən gəlininə müalicə etmirəm.

Q o c a a r v a d . Acığın tutmasın, ay axund, nə deyirəm, sən buyuran olsun.

M o l l a K a z ı m . Naxoşun yanında mənim zövcəmdən başqa heç kimsə ola bilməz. Çünki gecə yarısı onu həzrət Xızır əleyhissəlam yoluxacaq, o vaxt orada yad adam ola bilməz.

Q o c a a r v a d . Həzrət Xızra da Qurban olum, sənə də. Bu bir cüt corabı da sənin adına toxuyub gətirmişəm. Bunu məndən qəbul elə.

M o l l a K a z ı m . Mən dedim ki, qabaqca bir dinar almaram. Dəxi sən gətiribsən, ürəyinə dəymirəm. (Corabı alır.) Əcəb corabdır. Nəzrin qəbul olsun...

Q o c a a r v a d . Dəxi mən qulluğundan müraxxəs oluram. (*Gedir.*)

M o l l a K a z ı m . Xoş gəldin. (*Arvadın dalınca baxıb öskürür və əllərini bir-birinə sürtür, sonra qoca kişini çağırır.)* A kişi, gəl görüm sənin dərdin nədir?

Q o c a k i ş i (*yaxına gəlir*). Molla Kazım, məni Molla Qiyas Axundun qəbrinə dolandır, mənə əlac elə.

M o l l a K a z ı m . Müxtəsər elə, dərdini de.

Q o c a k i ş i . Axund, Allahdan gizlin deyil, səndən nə gizlin. Budur, neçə gün olar ki, bir əyal gətirmişəm. Zalım qızı hərçi edirəm üzümə baxmır. Yavığına gedəndə elə qışqırır ki, guya ki bir ilan, əjdaha görür. Bağrım çatlayır, ölürəm, məni yerdən götür. Nə də istəyirsən al...

M o l l a K a z ı m . Əyalın neçə sinnindədir?

Qoca k i ş i . Bu da lazımdır?..

M o l l a K a z ı m . Əlbəttə lazımdır, lazım olmasa soruşaram?

Q o c a k i ş i . Olar bir on dörd, on beş yaşında.

M o l l a Kazım. Bəs nə əcəb belə bir cavan qız sənə əyallığa razı olub?

Q o c a k i ş i . Burasını xəbər almasanız yaxşıdır.

M o l l a K a z ı m . Yox, işin hər tərəfini bilmək lazımdır.

Q o c a k i ş i . Doğrusu, onu mən oğlumun adına gətirmişəm. Amma kəbini öz adıma kəsdirmişəm. İmdi gəlib görür əri oğlum deyil, mənəm. Axşamadək gözü oğlumdadır. Mən tərəfə heç baxmır.

M o l l a K a z ı m . Nə lazım belə eləyirdin ki, İndi əl-ayağa düşəsən? Qız sevmişdin, gələydin mən Molla Kazımın yanına, bir dəqiqədə düzəldəydim.

Q o c a k i ş i . Keçibdir, anlamamışam, Q u r b a n ın olum, əlac elə.

M o l l a K a z ı m . iki tümən pul ver.

Q o c a k i ş i . Al, Q u r b a n ın olum. (*Verir.)*

M o l l a K a z ı m (*bir parça kağız çıxardır*). Qızın və anasının adı?

Q o c a k i ş i . Qızın adı Pəricahan, anasının da adı Gülsümdür.

M o l l a K a z ı m . Pəricahan zayəndeyi-Gülsüm. (*Yazır.)* Al, mənim qoltuğumda hər dərd üçün dua hazırdır. Elə şəxsin öz adı ilə anasının adının yerləri qoyulur. Bu duanı dilinin altında gizlədib, gedərsən əyalının yanına, əlbəttə, sənə bundan sonra məhəbbət salar.

Q o c a k i ş i . Mürəxxəs olum. Allah səni bu camaata çox görməsin. Xudahafiz. (*Gedir.*)

M o l l a K a z ı m . Xoş gəldin. (*Cavan oğlana*) Sən gəl görüm, dərdin nədir? (*Oğlan yaxına gəlir.*) Amma sözünü müxtəsər elə, vaxtım yoxdur.

C a v a n o ğ l a n . Sözüm müxtəsərdir. Amma vallah, doğrusu, xəcalət çəkirəm deməyə.

M o l l a K a z ı m . Sən deməsən də mən bilirəm cavanın dərdi nə olar? Yəqin qız sevmisən, o da sənə gəlmir.

C a v a n o ğ l a n . Elə ona oxşayan bir işdir.

M o l l a K a z ı m . Necə ona oxşayan? Müxtəsər elə, vaxtım yoxdur!

C a v a n o ğ l a n . Qız deyil, gəlİndir. Ərinə artıq məhəbbəti olduğundan, mənə məhəl qoymur. Mən də od tutub yanıram.

M o l l a K a z ı m . Oğlan, sənə nə düşüb özgənin əyalına təəşşüq yetirirsən? Məgər bilmirsənmi bu, günahi-kəbirə hesab olunur?

C a v a n o ğ l a n . Nə eləyim, ay axund? Ürəyə əmr vermək olmaz. Göz görüb, könül sevib. Mənim nə günahım var? Hərgah macaranı başdan nağıl etsəm, doğrudan da, mənə yazığınız gələr.

M o l l a K a z ı m . Müxtəsər elə, vaxtım yoxdur?

C a v a n o ğ l a n . Müxtəsərmi? Beş tümən, vəssalam.

M o l l a K a z ı m . Bu, ağıl kəsən və çox müxtəsər dəlildir. Qızın adı və anasının adı.

C a v a n o ğ l a n . Qızın adı Mələknisa, anasının adı da Sərəncamdır. Molla xurcundan bir şüşə çıxardır.

M o l l a K a z ı m . Bu şüşədəki qurd yağıdır. Bunu arvadın ərinin paltarının üstünə sürtərsən. O vaxt arvad ondan nifrət edəcək və onu əsla görmək istəməyəcək. (*Bir at nalı çıxardır.*) Elə ki həmin yağı sürtdürdün, üç gün ondan sonra gecə yarısı ocaq qalayıb bu nalı salarsan ocağa, nal qızarantək həmin gəlin yanında olacaq. Əgər zəncirə bağlı olsa, yenə gələcək. Gəlinin adını və anasının adını bu saat bu nalın üstünə yazaram. (*Yazır.*) Mələknisa zayəndeyi-Sərəncam, buyur...

C a v a n o ğ l a n . Çox razıyam, axund ağa, buyurun. (*Pul verir*.) Gələcəkdə sənə artıq qulluq edərəm. Xudahafiz.(*Gedir*.)

M o l l a K a z ı m . Xoş gəldin! (*Pulları sayır.)*

Bu halda səhnənin sağ tərəfindən meymunoynadan səsi gəlir.

M e y m u n o y n a d a n :

Ay şələküm, məəlləküm,
Yeri-yeri, çoban yeri,
Dağları dolan, yeri,
Mərhaba, oğlan, yeri,
A bərəkallah, a bərəkallah.

M o l l a K a z ı m (*səs gələn tərəfə baxır*). Paho, ay Molla Cabbar.

Molla Cabbar meymunun ipini buraxıb gəlir.

M o l l a K a z ı m . Oğlan, bu nə oyundur?

M o l l a C a b b a r . Qardaş, nə etməli? Məhərrəmlik gəlincəyədək gərək bir növ dolanaq. Allah bərəkət versin, üç yoldaş bir meymunun səbəbinə çörək yeyirik. Bəs sən nə işdəsən, yoxsa mayadan yeyirsən?

M o l l a K a z ı m . Niyə, mən də döy-sındır dolanıram. Duadan, filandan yazıb camaatın karına gəlirəm, camaat da mənim karıma gəlir. Allahın dövlətindən nə çoxdur dünyada baş-qulaq, nə qədər istəyirsən qırx. Doğrudur, camaat bir qədər ayılana oxşayır, caduya, filana inanmırlar, amma yenə də bizə kifayət eləyən qədər tapılır.

D ə r v i ş (*sol tərəfdən*). Ey dust, mövlayi-mən, həzar şükür ki, tutdum təriqi-imanı, özümə fərz elədim məzhəbi-müsəlmanı. (*Daxil olur*.) Salaməleyküm, ağa Molla Kazım, ağa Molla Cabbar! Əhvalişərif, dimağilətif, nə əcəb siz də buradasınız?

M o l l a C a b b a r . Və əleyküsəssalam, ağayi Molla Qurban, sən də deyəsən bu lotuluqla meydana çıxıbsan, İndi də Dərvi şlik edirsən.

M o l l a Q u r b a n . Nə etməli? Ilin on bir ayını bekarıq, çörək lazımdır. Arvad-uşağı ac saxlamaq olmaz, gərək əldə bir vəsilə olsun.

M o l l a K a z ı m . A kişi, sənin peşən gözəl peşədir. (*Molla Cabbarı göstərir*.) Bu bədbəxt oğlu meymun oynatmaqla çörək qazanır.

M o l l a C a b b a r . Mən meymun oynadıb, xalqın pulunu alıb, heç olmasa, əvəzində bir tamaşa verirəm. Sən nə qayırırsan? Yalan-palan cadularla xalqın başını tovlayıb, pulunu alırsan.

M o l l a K a z ı m . Əslinə baxanda biz hamımız meymunoynadanıq!

Öz aramızdır, bir yad adam yoxdur. Onu söyləyin görək məhərrəm ayı yaxınlaşıb, haraya getmək lazımdır?

M o l l a Q u r b a n . Mənim xəyalım Gəncə-Qarabağ tərəfə getməkdir. Xeyirli, bərəkətli camaatdır, hər il oraya gedirəm və yaxşı mənfəətlə qayıdıram.

M o l l a K a z ı m . Mən özümü Bakı-Lənkəran tərəfə vuracağam. Orada mənim müridlərim çoxdur. Budur neçə ədəd kağız yazıblar, məni dəvət edirlər.

M o l l a C a b b a r . Mənim əlimdən mərsiyəxanlıq gəlməz. Meymunumu, ayıb olmasın, uşaqların anasına tapşırıb, düşəcəyəm yola, gedib Şirvan tərəfdə şəbih çıxarıb dolanacağam. Bir dənə uzun bayraq, dəbilqədən, zirehdən, qalxandan, qılıncdan eşşəyə yükləyib düşəcəyəm kəndbəkənd. Özüm də çox yaxşı Yezid, İbn-Səid, Şümür və Haris şəbihləri oluram. Yoldaşlarım da məndən qalmazlar.

M o l l a K a z ı m . Bəs sənin mollalıq libasın haradadır?

M o l l a C a b b a r . Budur yanımda. (*Xurcunu yerə qoyub, bir dəst molla libasını çıxarır*.) Bu mən!

K ə r b ə l a y ı X u d a v e r d i (*oğlu ilə daxil olur*). Salaməleyküm.

M o l l a l a r . Vəaleyküməssalam-vərəhmətullah-vəbərəkatü, haradan təşrif gətiribsiniz?

K ə r b ə l a y ı Xudaverdi. Oğlumla Kərbəla ziyarətinə getmişdim, İndi oradan qayıdırıq, vətənə gedəcəyik. Burada bir düşməli karvansara yoxdurmu?

M o l l a K a z ı m (*göstərir*). Bu küçənin axırında böyük bir təmiz karvansara var, düşə bilərsiniz. Səfəriniz harayadır?

K ə r b ə l a y ı X u d a v e r d i . Biz Azərbaycan tərəfə gedəcəyik. Məhərrəmlik yaxınlaşır, oğlumun da bir xeyir işi var. Gərək vətənə yetirib tamam edək. Allah sizin də övladınıza qismət eləsin.

M o l l a K a z ı m . Allah mübarək eləsin. Biz üçümüz də o tərəfə gedirik, yoldaşlı gedərik.

K ə r b ə l a y ı Xudaverdi. Tezmi yola düşəcəksiniz?

M o l l a K a z ı m . Sabah saat xoşdur. Sabah, Allah qoysa, yola düşərik.

K ə r b ə l a y ı X u d a v e r d i . Çox yaxşı olar. Elə mən də sizin qulluğunuzda gedərəm. Buyurdunuz, karvansara haradadır?

M o l l a K a z ı m . Bu küçə ilə gedib, Hacı Şükür karvansarasını soruşarsınız.

K ə r b ə l a y ı X u d a v e r d i . Xudahafiz. Allah sizin ömrünüzü uzun eləsin. Gedək, bala.

Hər ikisi gedirlər.

M o l l a K a z ı m . A kişi, doğru məsəldir ki, kor leyləyin yuvasını Allah öz əli ilə tikər. Budur, iki nəfər uzunqulaq keçib əlimizə. Arazı o tərəfə keçincə əlimizi cibimizə salmaycağıq!

Qol-qola verib oxuyurlar:

Çun gəldi məhərrəm, yenə meydan da bizimdir,
Meydan da bizim, ərsədə cövlan da bizimdir.

Sərsüfrədə ərbabi-naləm məhzərimizdə,
Eyvaz ilə, ikram ilə dövri-bərimizdə.
Min neməti əlvan düzülüb qənşərimizdə,
Sövdayi-plov, şuri-çığırtma sərimizdə.

Əlyovm yenə sərvəti-saman da bizİmdir…
Tacir də bizim, bəy də bizim, xan da bizimdir.
Əyan da bizİmdir, fərman da bizİmdir.
Çün gəldi məhərrəm, yenə meydan da bizimdir.

Gedirlər. Fazil Dərbəndi səhnənin dərinliyindən iki əlini uzadır.

F a z i l D ə r b ə n d i . Mən bəka-öv əbka-öv tabaka vəcəbət-ləhülcənnət.

PƏRDƏ

İKİNCİ PƏRDƏ

Qafqazda şəhər meydanında böyük izdiham. Arvad, uşaq, kişilər bir-birinə qarışıb. Səhnənin dalından təbil və zinc səsi gəlir. Şaxsey, vaxsey sədası eşidilir. Cavanların boyunlarına arvadlar bir-bir kəfən tikib, yola salırlar. Əkbər, əlində qılınc, qoltuğunda ağ, gəlib, arvadların içində anasını tapıb çağırır.

Ə k b ə r . Ana gəl bu ağı mənim boynuma tik.

Ə k b ə r i n a n a s ı (*gəlininə)*. A balam, gəl, özün Əkbərin boynuna ağ tik. (*Gəlin əlləri titrəyə-titrəyə Əkbərin boynuna ağ tikir*.)

Ə k b ə r i n a r v a d ı . Əkbər, gəl sən boynundakı ağı biç, bir yetimə bağışla. Gecə pis yuxu görmüşəm, ürəyimə qara fikirlər gəlir.

Ə k b ə r . Elə danışma, bu, imam yoludur, bu yolda xata ola bilməz. Dörd ildir qürbətdəyəm, ağköynək olmamışam, İndi gərək hamısının əvəzini çıxam. Sən bir uca yerə çıx, oradan tamaşa et, gör nə qiyamət qopardacağam.

Ə k b ə r i n a n a s ı . Əkbər, nə söhbət edirsən?

Ə k b ə r . Heç, ana, gəlinin mənə ağköynək olmağı məsləhət görmür.

Ə k b ə r i n a n a s ı . O səni çox istəməkdəndir. (*Gəlininə*) Balam, imam yoludur, burada danışmaq günahdır. Mənim oğlum necə taytuşdan geri qala bilər?

Ə k b ə r . İgid gərək özünü belə-belə yerlərdə göstərsin. (*Onlardan ayrılıb, bir neçə qədəmdə Rəsula rast gəlir.)*

Rə s u l . Sən haraya gedirsən?

Ə k b ə r . Görmürsən haraya gedirəm? Daha soruşmağın nə lüzumu?

Rə s u l . Görürəm haraya gedirsən, dörd il gedib dünyanı səyahət edib qayıdandan sonra, yenə ağlın başına gəlməyib. Vurdun başını yardın. Bir beş girvənkə də qanın axdı, görək nə qazanacaqsan dünya üçün və ya axirət üçün…

Ə k b ə r. Dünyada özüm üçün ad qazanaram, axirətdə behişt. Mənim danışmağa məcalım yoxdur. Təvəqqe edirəm belə günlərdə mənimlə belə söhbətləri eləməyəsən. Özgə vaxt danışarıq. İndi mənim gözlərim qızışıb, qan vurub başıma, qulağım heç bir şey eşitmir, hətta əlimdən xata da çıxa bilər. Odur Molla Kazım mərsiyəxan gəlir. Onunla danış, o məndən ağıllıdır. Budur, on beş gündür bizim evimizdə qonaqdır. İrandan mənimlə bir yerdə gəlib. On beş gündə mənə söylədiyi nəsihətlərdən sənə də desə, bəlkə sən də imana gələrsən. Sən çoxdanın bidinisən.

Arvadlar və Əkbər gedirlər, bir neçə nəfər daxil olurlar.

M o l l a K a z ı m . Həzərat, bilin və agah olun, hər kəs bu gün bir qətrə göz yaşı töksə, onun yetmiş yeddi min günahı olsa bağışlanar. Hamı ağlayır.

K ə r b ə l a y ı Q ə d i m (*yüyürərək daxil olur*). Xudaya, cəlalına şükür! İndi sənə inanmayanlar sənin qüdrətini öz gözləri ilə gördülər.

Rə s u l . Nə var, ay kərbəlayi, nə olub?

K ə r b ə l a y ı Q ə d i m . Sən çəkil kənara. İndi görərsən nə var.

M o l l a K a z ı m . Kərbəlayı, nə olub?

K ə r b ə l a y ı Q ə d i m . Nə xəbər olacaq, xudavəndi-aləm bu saat öz qüdrətini bütün bidinlərə sübut etdi. Bundan sonra kafirin dili var, danışsın. Belə böyük möcüzənin qabağında görüm bir para dini, məzhəbi bəyənməyənlər, adlarını müsəlman qoyan məlunlar nə danışacaqlar və nə danışa biləcəklər?..

M o l l a K a z ı m . Bir tez de görüm nə möcüzədir?

Hamı onu əhatə edir.

K ə r b ə l a y ı Q ə d i m . Yarım saat bundan əqdəm, bir nəfər erməni arvadı, on beş yaşında, anadan doğma kor oğlunu gətirib yıxdı məscidin qapısına. Dedi: ay müsəlmanların Allahı! Əgər sən haqq Allahsan, mənim bu oğlumun gözlərinə işıq ver. Fövrən uşağın gözləri açıldı, erməni arvadı haman saat dönüb müsəlman oldu. Uşağın libasını parça-parça edib camaat öz arasında qismət etdi. Pul arvadın başından dolu kimi yağır, budur, buraya gəlir.

Erməni arvadı, yanında uşaq, ətrafını camaat almış, daxil olurlar.

E r m ə n i a r v a d ı . Belə musurmanların Allahına ğurban olum. Musurmanların dininə, məzhəbinə ğurban olum. On beş ildir bu pağır uşaq kor idi, elə anadan kor gəlib. Dedim: aparıb bu şaxsey-vaxsey günü musurmanların Allahının ayağına yıxacağam, oğlumun gözlərinə şapaq versin. Budur, kor gözü gedib, yerinə şapaqlı göz gəlib.

Rəsul kənardan gülür.

C a m a a t . Xudaya, kəramətinə şükür. Sənə inanmayana min lənət, möcüzə şəkk gətirənlərə min lənət!

M o l l a K a z ı m . Azançı Məşədi Səlimə deyin çıxsın minarədən minacat çəksin, ta bütün şəhər belə böyük möcüzədən xəbərdar olsun.

K ə r b ə l a y ı Q ə d i m . Məşədi Səlim çoxdan minarənin başındadır. Məgər səsini eşitmirsiniz?

M o l l a K a z ı m . Həzərat, axır vaxtlarda bir para bidinlər çıxıblar ortalığa, camaatı da özləri kimi bidin eləmək istəyirlər. Deyirlər: oruc nahaq, namaz nahaqdır. İmam təziyəsi nahaqdır. Allah, filan yoxdur. İnsanı dolandıran havadır. Insanın Adəm əleyhissalamdan xəbəri yoxdur, hamı meymundan əmələ gəlibdir. Belə bidinlər haqq yoldan çıxıb camaatın da əqidəsini pozmaq istəyirlər. Mən hər il bu tərəflərə gəli-

rəm. İlbəil camaatın əqidəsinin gəldikcə pozğunluq tərəfinə getməyini müşahidə edirəm. Belə getsə, bütün camaat axırda bidin olub yoldan çıxacaqlar. Odur ki, xudavəndi-aləm belə möcüzələrlə o bidinlərin bətalətlərini sübut edir. İlahi, cəlalına şükür.

H a m ı. Xudaya, cəlalına şükür!

M o l l a K a z ı m. Camaat, hər kəs qüvvəsindən nə gəlir, az-çox bu arvada ehsan edin, qəbul olası ehsandır.

Camaat pul verir.

E r m ə n i a r v a d ı. Allah sizə bərəkət versin, məzhəbinizə ğurban olum.

Ş ə h ə r l i (*Rəsula*). Sən niyə belə kənardan baxırsan?

Rə s u l. Möcüzəyə tamaşa edirəm, qəribə möcüzədir.

Ş ə h ə r l i. Ay Rəsul, sən həmişə danışırsan, İndi nə olub dilin batıb? Axır mən bu erməni arvadını tanıyıram, o da məni yaxşı tanıyır. Mən bunların kəndindən həmişə gedib toyuq-cücə, yumurta alıram. Vallah, bunun kor oğlu yoxdur. Bu uşağın özünü də həmişə qapıda görürdüm ki, oynayır. Kor, filan da deyildi. Danışmaq yeri indidir.

Rə s u l. Bu halda belə başların hansını inandırmaq olar? Gözlər qanla dolub, beyin qızışıb, çox danışarsan vurub cəmdəyini yıxarlar yerə. Hər kəs bir lotuluqla çıxır meydana, camaatın qulağını kəsir. Erməni arvadı da bu kələklə meydana çıxıb. Kasıb arvaddı, qoy puldan-zaddan versinlər, aparıb qapısına bir-iki öküzdən-inəkdən alsın. Erməni arvadı ilə Molla Kazımın heç təfavütü yoxdur. Vaxtında bu qoyun kimi camaat xeyir-şərrini gözəlcə anlayacaq. Bu erməni arvadını tək sən tanımırsan, səndən də savayı tanıyan çoxdur. Amma danışmağa qorxurlar, çünki mövqe müsaid deyil, vaxtı deyil. (*Erməni arvadı camaatdan uzaqlaşır*.) Getdi qulaq kəsməyə, aybı yoxdur.

K ə r b ə l a y ı X u d a v e r d i (*başına döyə-döyə*). Evimi yıxan oğlum vay! Məni qoca vaxtımda düzlərdə qoyan oğlum vay! Belimi sındıran oğlum vay! Gözümün işığı, qolumun qüvvəti oğlum vay!..

M o l l a Kazım. Ay Kərbəlayı Xudaverdi, nə vaqe olub?

K ə r b ə l a y ı Xudaverdi. Nə olacaq? Gözümün ağı-qarası bircə oğlum əlimdən getdi.

M o l l a K a z ı m. Ağlama, Kərbəlayı Xudaverdi, günahdır. Sənin oğlun bu saat cənnəti-əlada məqam tutub. Belə ölümü hamı gərək arzu eləsin, ağlama…

K ə r b ə l a y ı X u d a v e r d i . Mənim evimi yıxan sən Molla Kazımsan! Allah sənin evini yıxsın! Səni də mənim kimi əli qoynunda balasız qoysun! Budur, iki həftədir gecə-gündüz oğlumun başını doldurdun. Bir ucdan dedin: hər kəs bu yolda özünü şəhid eləsə, yeri, bisual, cənnətdir. İndi mən qoca atasını, qoca anasını, cavan, on beş günlük övrətini kim saxlayacaq? Allah sənin evini yıxsın! (*Gedir.)*

Ə k b ə r i n a n a s ı . Hanı mənim oğlumun qanlısı? Hanı o insafsız, mürüvvətsiz? Ala gözlü balam vay! (*Molla Kazımı görür*.)

M o l l a K a z ı m . Bacı, nahaq yerə özünü günaha batırma. Allah bizim hamımıza elə bir ölüm qismət eləsin. Oğlun bu saat behiştdə əyləşib, sənin və atasının günahını bağışlamağı istirham edir.

Ə k b ə r i n a n a s ı . Toyu yasa dönən balam vay! Allah, məni oğulsuz qoyanı oğulsuz qoy!

R ə s u l . Bu da mövhumat Qurbanı!

B i r n ə f ə r ş ə h ə r l i . Üç nəfər də yenə öldü. Biri Hacı Vəlinin oğlu, biri Kərbəlayı Namazın oğlu Əsəd, biri də Hacı Qəmbərin oğlu Bəşir.

Üç nəfər başlarına döyə-döyə yüyürürlər.

R ə s u l . Bu da üç Q u r b a n .

M o l l a K a z ı m . Hamısının ruhu bu dəmdə cənnətdədir.

B i r n ə f ə r i r a n l ı (*daxil olur*). Həzərat, burada Molla Kazım kimdir?

M o l l a K a z ı m . Mənəm, nə buyurursan?

İ r a n l ı . Sənmisən o məlun, bidin lotu? Mən sənin sorağını kəndbəkənd, şəhərbəşəhər alıb, gəlib burada tapmışam. Çox yaxşı əlimə keçibsən. İndi sənin kim olduğunu camaata bildirrəm!

M o l l a K a z ı m . Məlun, küfr danışma! Üləma üzünə ağ olanın yeri cəhənnəmdir!

İ r a n l ı . Alim sənmisən, qırışmal?! Həzərat, tanıyın bunu, bu Molla Kazım deyilən bizim şəhərdə gəlib əyləşib arvadlara cadu yazırdı. Uşağı olmayan arvadları gətirib evinə yatırdıb, onlara əl atırdı. İstəyirdi bu oyunu mənim də arvadımın başına gətirsin. Amma yaxası və saqqalı namuslu arvad əlinə keçdi. Mən bunun necə lazımdır qulluğun edəcəyəm. Amma siz də bilin, mərsiyəxan sifəti ilə gəlib sizi tovlayıb, pulunuzu alan lotular İranda çoxdur!

M o l l a K a z ı m . Həzərat, bu, babıdır, yalançıdır. Bunun sözünə inanmayın!

İ r a n l ı . Yalançı mən deyiləm, sənsən. Fikir edin, həzərat, heç bir cavan, ürəyi yanmasa, gəlib camaat arasında öz arvadının söhbətini edərmi? Görün bu ləin vücud məni necə oda yaxıb?

Rə s u l . Həzərat, bu oğlan yalançı deyil. Mən hər vaxt sizə deyəndə bir para lotulara inanıb malınızı, pulunuzu çöllərə dağıtmayın, mənə kafir dediniz. Budur, bu gün dörd cavan, əcəlsiz, dünyadan getdi. Onların ana-bacıları, əyalları sahibsiz qaldılar. İndi görək Molla Kazım onlara çörək verəcəkmi? Bunlar sizə deyirlər ki, bu yolda ölən şəhid zümrəsindən olurlar. Elə isə bəs bunlar özləri niyə başlarını çapmırlar? Fikir edin bircə, heç bir molla ağköynək olub, başını yardığını görən varmı? Səbəb nədir?

C a m a a t d a n b i r i . Doğrudan da, heç molladan, mərsiyəxandan ağköynək, baş yaran, zəncir vuran görməmişəm!

Rə s u l . İndi ki görməyibsiniz, bilin ki, bu əməl yaxşı olsa, qabaqca mollalar gedər. Bunlar ancaq mövhumatları özləri üçün mədaxil yolu qayırıblar. Camaatın başını doldurub, kənardan tamaşa etməklə ləzzət aparırlar. İnanmayın, camaat, belə adamlara. Gedin sənət dalınca, elm dalınca, ta bir işığa çıxasınız! O guya kor uşaq ki, erməni arvadı gəzdirirdi, onu bu şəhərdə çox adam tanıyır. Mənim bir yaxşı dostum bu saat mənə dedi ki, o erməni arvadını ildə bir otuz dəfə görür və özünü də tanıyır. Onun oğlu kor deyil. Deyir: burada onu tanıyan çoxdu, danışmağa qorxurlar.

N e ç ə n ə f ə r c a m a a t d a n (*ürəklə*). Mən də tanıyıram.

Rə s u l . Budur, eşidin, ağlınızı başınıza cəm edin! Molla Kazımlardan özünüzü qoruyunuz.

İr a n l ı (*istehza ilə*). İndi, cənab axund Molla Kazım, zəhmət çək gedək söhbətə!

M o l l a K a z ı m . Oğlan, əl çək məndən!

İ r a n l ı . Hələ sənə əl vurmamışam ki, əl çəkim. Bir qədər əlim dəyəndən sonra əl çəkərəm. Buyur, zəhmət çək! (*Bir-iki dəfə boynuna vurub aparır*.)

Camaat mat-mütəhəyyir onların dalınca gedirlər. Neçə ədəd meyit səhnədən keçirib aparırlar. Meyitlərin dalınca arvad-uşaq ağlayaraq gedirlər.

S ə h n ə d a l ı n d a n s ə s . Mən bəka-öv əbka-öv təbaka vəcabətləhül-cənnət...

PƏRDƏ

SƏHNƏ QURBANI

Hüseyn Ərəblinskinin vəfatından yeddi il keçməsi münasibətilə

Bir məclisdə

İŞTİRAK EDƏNLƏR

H ü s e y n Ə r ə b l i n s k i	D a y ı s ı .
A n a s ı	Y o l d a ş ı V ə l i – aktyor

Vaqe olur Ərəblinskinin odasında. Divardan aktyora lazım olan libas, əsləhə, tac və növbənöv şeylər asılmış. Hüseyn, əlində rol dəftəri, daxil olaraq gah dəftəri oxuyur, gah gəzinərək oxuduğunu əzbərləyir.

H ü s e y n. Kim onu tələn edib[1] evdən təbid etdi?[2] Kim onu müharibəyə getməyə məcbur etdi? Ah, istəkli qardaşım Karl! Ox, ata siz, özünüz tələnə layiqsiniz! Siz qatilsiniz! (*Bu sözləri təkrar oxuyur. Bir kürsü gətirib odanın ortasında qoyur. Qoca Mooru kürsü üstündə əyləşmiş zənn edərək danışır.)* Qoca əlil, axirətə kimi sağmı qalacaqsan? Öl! Öl! (*Guya boğur*.) Yox... (*Çağırır.*) Ana, ana.

Anası başını qapıdan içəri salır.

A n a s ı . Nə var, ay oğul?

H ü s e y n. Ana can, bircə dəqiqəliyə gəl bu kürsünün üstündə əyləş.

A n a s ı . Nə üçün, ay bala?

H ü s e y n. Sən mənim canım, gəl əyləş, İmdi bilərsən.

A n a s ı . Hələ gör bir az pulun varmı? Günorta gəlib xörək istəyəcəksən. Göndərim bir az ətdən, soğandan alıb gətirsinlər.

H ü s e y n. Bu saat ət-soğan vaxtı deyil, bir burada əyləş, işim var.

A n a s ı . Ay oğul, Allahı sevirsən məni oynatma, yaxamdan əl çək.

H ü s e y n (*anasının qolundan tutub əyləşdirir*). Ha belə, əyləş, başını aşağı sal, danışma.

A n a s ı . Axır nə eləmək istəyirsən?

---

[1] Lənətləndirilib.

[2] Uzaqlaşdırdı.

H ü s e y n. Bu saat görərsən.

A n a s ı . Di kələyin nədir, göstər.

H ü s e y n (*kənara çəkilib birdən anasının üzərinə hücum edir*). Qoca əlil, axirətə kimi sağmı qalacaqsan? (*Boğur, anası qışqırıb qalxır.*)

A n a s ı . Ay oğul, amandır, sənə nə yamanlıq etmişəm məni öldürürsən? (*Hüseyn gülür.)* Amandır, oğul, yazığam, məni öldürmə. Saxlamayırsan çıxım gedim qardaşımın evinə.

H ü s e y n. Ay arvad, məyər mən səni öldürmək istəyirəm? Adam da öz anasını öldürərmi? Sən mənim yaxşı anamsan, göyçək anamsan. (*Üzündən öpür.*) Bircə gəl yenə əyləş.

A n a s ı . Ay oğul, vallah, sənin ağlın çaşıb. Məni öldürəcəksən. Əyər məni öldürmək xiyalın yoxsa, niyə qışqırıb deyirdin: "Qoca əlil, axirətə kimi sağmı qalacaqsan?". Ya dəli olmusan, ya da ki piyansan.

H ü s e y n. Piyan-zad deyiləm, ana can, dediyim sözlərə bax. Bu dəftərdə yazılıbdır. Bu mənim rolumdur. Bunu əzbərləyib sonra teatrda oxuyacağam. Yoldaşlardan biri də mənim qoca atam olub kürsü üstündə əyləşəcək. Mən onu boğub öldürəcəyəm. İmdi gərək mən məşq edəm ki, orada yaxşı çıxsın. Boğub öldürmərəm. (*Əyləşdiri*r.)

A n a s ı . Ay oğul, sən Allah, yavaş boğ, yoxsa qoca adamam, ölərəm.

H ü s e y n. Xatircəm ol, ana, boğmaram. Di otur, tərpənmə! (*Yenə hücum edir*.) Qoca əlil, axirətə kimi sağmı qalacaqsan? Öl! Öl!

V ə l i (*daxil olur*). A dəli, arvadı niyə boğursan?

A n a s ı . Ay oğul, sən gəl bu dəli yoldaşına nəsihət elə. İmdicə məni boğub öldürmüşdü ki, mən teatr çıxarıram.

H ü s e y n. Nə eləyim, ay Vəli? Frans Moorun rolunu öyrənirəm. Boş kürsü ilə nə qədər çalışdım bir şey çıxmadı. Axır əlacım kəsildi. Qoca Moorun əvəzinə anamı əyləşdirdim.

V ə l i . Elə iş eləmə. Qoca arvaddır. Xətadır, birdən qızışıb doğrudan yazığı boğarsan, səndən nə desən çıxar.

A n a s ı . Elə mən də onu deyirəm. Ay oğul, bunu mən oğul bəsləmədim, canıma bir bəla bəslədim. Evdə yeməyə çörək yoxdur, əlinə düşəni aparıb xəncərə, qılınca, qalxana verir, nə bilim, tac qayıtdırır, nə oyun çıxarır. Guya mənim üçün Yezid şəbihi olacaq.

V ə l i . Düz deyirsən, ana. Bizim işimiz elə Yəzid şəbihi olmaq kimi bir şeydir.

A n a s ı . Zəhmət çəkdiyindən əlinə də bir şey gəlməyir. Budur, sabahdan deyirəm pul ver, bazara göndərim, durub mənimlə Şah Səlim oyunu oynayır.

H ü s e y n. Eybi yoxdur, ana! Bir neçə vaxt səbr et. Bir vaxt gələr hər yerdə məni barmaqla göstərərlər. Məni küçədə "bığı qırxıq lotu" deyib daşlayan uşaqların hamısı deyəcəklər: ax, biz də böyüyəndə onun kimi olaydıq. Məni evinə qoymayan, məni özünə qohum hesab eləməyən dayım, bir vaxt olar, hər yerdə fəxr edər ki, Hüseyn Ərəblinski mənim bacım oğludur. Mənim dayımın pulu, malı var, mənim qabiliyyətim, bacarığım, iqtidarım var. Ancaq bir azdan sonra özü gedəcək, adı da öləcək; malı, dövləti, pulu da tələf olacaq. Amma Hüseyn Ərəblinskinin adı qiyamətə kimi diri qalacaq. Hər məclisdə sən anamı Hüseyn Ərəblinskinin anasıdır deyib, yuxarı başa keçirəcəklər. Səbr elə, anam, axırda görərsən ki, bu Yezid şəbihi oğlun nə bir oğul olacaq. Belədir, Əbülfət!

V ə l i . Belədir ki var!

H ü s e y n. Gör bir manatın varsa, ver buraya, bazara göndərim.

V ə l i (*əlini cibinə salır*). Sən öləsən, var-yox bu gün bir manatım var idi. Altı şahısını papirosa vermişəm, on dörd şahısı durur. (*Verir.)*

H ü s e y n. Ver buraya, bir bozbaş əmələ gələr. Sən də naharını burada elərsən. Al, ana, göndər bazara. (*Anası gedir*.) Di gəl əyləş burada, bir balaca məşq edək. Əyləş.

V ə l i (*əyləşir*). Frans, ver mənim oğlumu!

H ü s e y n. Kim onu tələn edib evdən təbid etdi? Kim onu müharibəyə getməyə məcbur etdi? Ah, istəkli qardaşım Karl! Ox, ata, siz özünüz tələnə layiqsiniz, siz qatilsiniz!..

V ə l i . Vallahi, tələnə layiqəm, öz övladımın qatiliyəm. O, məni özündən artıq sevirdi.

H ü s e y n. O öldü. Sonrakı peşmançılıq fayda verməz. Ölmək yaxşıdır!

V ə l i . Frans! Onu tələn etməyə sən məni məcbur etdin. Ver mənim oğlumu! Ver mənim Karlımı!

H ü s e y n. Məni siz hirsləndirməyiniz. Vallah, sizi tək buraxmaram. Sizi ölüm… ölüm məqamında saxlaram!

V ə l i . Ver mənim oğlumu! Of! Ver mənim oğlumu!

H ü s e y n. Qoca əlil, axirətə kimi sağmı qalacaqsan? Öl! Öl! (*Boğur.*) Ölübdür, ölübdür! Bəlkə yatır? Bəli, öylə yatır ki, bir daha onun qalxmağa ixtiyarı olmayacaqdır. (*Gözlərini örtür*.) Gözlərini örtmək lazımdır.

V ə l i (*qalxır*). Sox gözəl! Bərəkallah! Rolu əvəzsiz aparacaqsan.

H ü s e y n. Sən Allah, əyər bir qüsur gördünsə, de. Hər kəs mənə qüsurumu göstərə, onun başına dolanaram. Dünən gedib Orlenovun oyununa tamaşa edirdim. Zalım balası özgə artistdir. Ondan nə qədər hərəkətlər əxz etmişəm. Hamısı vaxtında lazım olacaq… hələ xəbərin yoxdur ki?

V ə l i . Nədən?

H ü s e y n. Atanın goru üstün, atamın goru üçün, Ağa Məhəmməd şah üçün bir tac qayırtdırmışam, bir ata dəyər. (*Sandıqdan çıxarır.)* Gör bir nə maldır.

V ə l i (*əlində dolandırır*). Doğrudan da gözəl tacdır. Elə bil şəkildə çəkilibdir. O yan-bu yanı yoxdur. Bir başına qoy görüm. (*Hüseyn tacı başına qoyur*.) Bəh, bəh, çox gözəldir.

D a y ı s ı (*daxil olur*). Öl ha! Öl ha! Adə, pəs nə vaxt adam olacaqsan? Bu nədir, şeytan papağıdır, başına qoyubsan? Xələf oğlu Məhəmməd səni qoyub gedincə bir parça daş qoyub gedəydi. Sirinə bax, sifətinə bax!

H ü s e y n. Dayı, təvəqqe edirəm məni öz halıma qoyasan. Elə bil heç Hüseyn adlı bacıoğlun yoxdur.

D a y ı s ı . Adə, necə məni öz halıma qoy? Məgər mən insan deyiləm? Məgər mən abru sahibi deyiləm? Mən bazardan ötüb keçə bilmirəm! Hər görən deyir: “Odur, buğu qırxıq Hüseynin dayısı gedir". Adə, a binamus! A biqeyrət! Ayna qabağında durubsan? Bir sifətinə dürüst diqqət ilə bax! Gör nəyə oxşayırsan?! Adə, kişi də buğlarını qırxdırıb özünü bu sifətə salar? Bığ qırxdırmaq binamusluq, biqeyrətlik nişanəsidir. A binamus, məgər özünə bir peşə tapmayırsan? Gəl mənim kontorumda otur. Xaricilərə verdigim məvacibi artıqlığı ilə verim sənə, padşah kimi dolan! Yoxsa əlinə düşəni apar ver zir-zibilə, tax başına, oyunbazlıq elə, adını da iş adamı qoy! Bu da sənətdir? Bu da peşədir? Tfu sənin üzünə!

H ü s e y n. Sözünü qurtardın?

D a y ı s ı . Qurtardım. Necə?

H ü s e y n. Mən durub sənə sənətimin nə olduğunu nəql etsəm, sən eşitməyəcəksən, eşitsən də anlamayacaqsan! Mən oyunbazam, hoqqabazam, biaram, binamusam, yaxşı! Təvəqqe edirəm buradan düz çıxasan.

D a y ı s ı . Adə, nə qələt eləyirsən? Yoxsa istəyirsən təpənə bir güllə vurum orada yatasan?

H ü s e y n. Səndən onu da gözləmək olar. Mən sənətim yolunda canımı qoymusam. Əvvəl-axır sənin kimi pula Allah deyənlərin biri o güllənin birini mənim başıma vuracaq. Mən hazıram. Nə vaxt istəsəniz məni öldürə bilərsiniz. İmdi isə zəhmət çək, buradan təşrif apar.

D a y ı s ı . Binamus, biqeyrət, gör sənin başına nə gətirəcəyəm. (*Gedir)*.

H ü s e y n. Vəli, görürsən? Küçədə günüm bu, bazarda günüm bu. Əmi, dayı, qohum, qardaş, hamı məndən üz döndərib. Küçədə uşaqlar məni daşlayırlar. Bir gün bu nainsaflar məni öldürəcəklər. Bu mənim yəqinimdir. Amma qoy öldürsünlər. Nə qədər canım sağdır, məsləkimdə möhkəm durmuşam və duracağam.

V ə l i (*əl verir*). Hara getsən sənlə varam. İstəyir getdiyin yol ölüm yolu olsun.

H ü s e y n. Bizim yolumuz batmaz bir günəşə tərəfdir. Qoy kor şəbpərələr öz qaranlıq yuvalarında dünyadan bixəbər yatıb özlərini insane hesab etsinlər. Bir vaxt gələr, kimin insan olduğu məlum olar.

PƏRDƏ

KÖHNƏ DUDMAN

Dörd pərdədə

İŞTİRAK EDƏNLƏR

Pərvizxan –	böyük mülkədar
Mirzə İsmayıl –	xanın vəkili
Sadıq bəy –	xanın yaxın köməkçisi
Rəcəb kəndxuda –	kəndxuda
Xanınqızı	
Baş hərəm	
İkincihərəm	
Rəşid –	xanın qulluqçusu
Allahqulu –	kasıb kəndli
Bədəl –	onun oğlu
Gülsənəm –	onun qızı
Hüseyn –	pişxidmət
Abdulla xan –	Pərviz xanın düşməni
Cavan kəndli	
Erməni	
Tağı }	
Heydər }qaçaqlar	
Xəlil }	
Şirin }	
Səfi }	

Ağsaqqallar, cavanlar, nökər, xacə, pəhləvan, qasid, sərkərdə, qarovul, uşaq və kənd camaatı

BİRİNCİ PƏRDƏ

Pərviz xanın kəndində. Amilin evi. Evin qabağında vaqe meydançada böyük izdiham. Xanın vəkili Mirzə Ismayıl balkonda əyləşib. Camaat dəstə-dəstə orada-burada toplaşıb danışırlar. Bir kənarda bir qoca kəndli – Allahqulu ilə bir cavan kəndli söhbət edirlər.

Cavan kəndli. Deyirlər, xan bu gün kəndə buyuracaq. Heç bilirsən, onun hər gəlməyindən rəiyyətə nə qədər ziyan toxunur? Onun da ki, öz rəiyyətinə yazığı gəlmir. Rəiyyət, deyəndə, ağanın övladıdır. Ağa da gərək öz övladına zülm etməsin.

Allahqulu. Oğlum, hələ sən cavansan. Elə ki, mən yaşa yetdin, onda bir az ağıllı danışarsan. (*Ətrafa baxır.*) Bir az kənara çəkilək, danışdığımızı eşitməsinlər. (*Çəkilirlər kənara.*) Bala, ağa nə qədər uzaqda olsa, kəndli üçün bir elə yaxşıdır. Oturar evində, lazım olanda malcəhət üçün öz vəkilini göndərər. Biz də vəkilə az verib, çox yalvararıq, çox verib, az yalvararıq, bir tövrlə yola salarıq gedər.

C a v a n k ə n d l i . Ağa da gələndə, gedib ayağına yıxılıb, deyərsən, Qurbanın olum, məhsulumuz az oldu, quraqlıq düşdü, su azlıq elədi, sel gəlmədi, çəyirtkə yedi. Dövlətli xandır, görərsən camaata rəhm eləyib, verginin yarısından keçdi.

A l l a h q u l u . Oğlum, dünya görməyibsən, sən deyən Pərviz xan deyil, kölgəsidir. Bir xan ki, rəiyyəti qaramal kimi qulağından tutub sata, ona nə yalvarmaq, nə yaxarmaq! Onun elə kəndə gəlib, üç gün qalıb getməsi, mədaxil istəməsə də, camaatın nəfəsini kəsir.

M i r z ə İ s m a y ı l (*balkondan*). Rəcəb kəndxuda, camaatı bir yerə topla!

R ə c ə b k ə n d x u d a . Ay camaat, buraya yığılın. Mirzənin sizə buyruğu var.

Camaat balkonun qabağında toplaşır.

A l l a h q u l u . Gedək yavuğa. Qulaq as, gör mirzə nə buyuracaq, o vaxt mən dediklərimi anlarsan.

Gedirlər yavuğa.

M i r z ə İ s m a y ı l . Camaat, Pərviz xan, necə ki, sizə məlumdur, iltifat eləyib, bu gün sizə qonaq gəlir.

C a m a a t . Çox xoş gəlir, gözümüz üstündə yeri var. Allah onun kölgəsini bizim başımızdan əskik eləməsin.

M i r z ə İ s m a y ı l . Gərək qonağa, necə ki lazımdır qulluq eləyəsiniz. Əvvəla, ağsaqqallar hamısı qabaqlarında kəndin mollası, gərək kəndin girəcəyində gedib dayansınlar. Cavanlar da hamısı atlanıb xanın qabağına getsinlər. Xana yetişib, baş əyəndən sonra, qayıdıb kəndə girincə xanın qabağında at oynatsınlar. Yaxşı at oynadanlara xan xələt bağışlayacaq. Xan kəndə daxil olan tək, gərək ayağının altında bir öküz kəsilsin. İkinci öküz Qurbanı kəndin ortasında kəsilməlidir. Xan sizə üç gün qonaq qalacaq. Bu üç gündə xanın özünə və onun üstüncə gələn otuz nəfər atlıya gərək bacardığınız hörməti eləyəsiniz. Rəcəb kəndxuda, binagüzarlıq səninlədir. (*İçəri daxil olur.)*

R ə c ə b k ə n d x u d a . Camaat, mirzənin buyruğunu eşitdiniz ki?

C a m a a t . Bəli, eşitdik.

R ə c ə b k ə n d x u d a . Di dayanmaq yeri deyil. Xan kəndə yaxınlaşmaqdadır. Ağsaqqallar gedib xanlıq dəyirmanının qabağında xanı gözləsinlər. Mollaya da xəbər verin. Cavanlar, nə dayanıbsınız?! Haydı,

tez olun. Bu saat yola düşün! Yoxsa sizə bir elçi də göndərəcəklər? Tez olun!

Ağsaqqallar, cavanlar gedirlər.

A l l a h q u l u (*cavana*). Di get, sən də atını min, çap xanın qabağına. Görürsən, bala? Xanın gəlməyi belə olur. İki öküz bu gün kəsiləcək. Hər gündə də gərək iki öküz kəsilsin ki, bəlkə xanın üstüncə gələn ac qurdların qarınları dolsun. Ondan savayı da hər kəsin evində nə var, gərək xanın qulluğuna çəksin: qatıqmı, qaymaqmı, yağmı, motalmı, quzumu. Xan buradan gedəndə də bir neçə araba da belə şeylərlə doldurub özü ilə aparacaq. İndi, bala, görürsənmi, "xan gəldi" necə olar?

C a v a n k ə n d l i . Görürəm, əmi, mən belə bilmirdim.

A l l a h q u l u . Hələ bu nə ucudur, nə ortası, çox şey görəcəksən. Bundan da yaman işlər var. Xan üçün camaatın arvadlarını, qızlarını çəkəcəklər.

C a v a n k ə n d l i . Əmi, məgər rəiyyətin namusu ağanın namusu deyil? Belə işi də ağa elərmi?

A l l a h q u l u . Rəiyyətdə məgər namus qoyublar? Bizim hamımızı binamus eləyiblər.

C a v a n k ə n d l i . Əgər bir kəs mənim külfətimə, anama, bacıma toxuna, hər kəs olur-olsun, cəmdəyini yerdə qoyaram.

A l l a h q u l u . Bu sözləri çoxları deyiblər.

R ə c ə b k ə n d x u d a (q*ocaya*). Allahqulu, nə uzun söyləyirsən? Gəl, cəld ol, xanlıq dəyirmana tərəf yola düş. İndi xanın gələn vaxtıdır. (*Cavan kəndliyə*) Bala, Qənbər, sən də dayanma. Söhbətin xan gedəndən sonraya qalsın.

A l l a h q u l u . Deməli, mən xanın qabağına çıxmasam xan yoldan qayıdıb, kəndə girməyəcək?

R ə c ə b k ə n d x u d a . Gəl get, ayıbdır, qanının bahasını ağzına alma. Bilirsən ki, xan eşitsə atanı qəbirdən çıxardar.

A l l a h q u l u . Gedirəm, gedirəm. (*Cavan kəndliyə*) Bala, sən də get, atını min, çap xanın qabağına. Bəlkə xələtdən, filandan sənə iltifat eləyə.

R ə c ə b k ə n d x u d a . Allahqulu, get deyirəm sənə. Uzun danışıq fayda verməz. Görünür ağsaqqal vaxtında belin kötək istəyir.

A l l a h q u l u . Biz kötəksiz məgər dolana bilərik? Belimiz adət eləyib. İki gün kötək dəyməyəndə bədənimiz qaşınmağa başlayır.

R ə c ə b k ə n d x u d a . Gəl, get deyirəm. Ondan qorx ki, bir kötəklə canın qurtarmaya.

A l l a h q u l u (*cavana*). Gedək bala!

Gedirlər.

M i r z ə İ s m a y ı l (*balkona çıxır*). Rəcəb kəndxuda, camaat hamısı getdimi?

R ə c ə b k ə n d x u d a . Bəli, mirzə, hamı getdi. (*Qoca və cavanı göstərir*.) Bunlar da, budur, gedirlər.

M i r z ə İ s m a y ı l . Onlarla nə söhbət eləyirdin? Sən də, füzul oğlu füzul, söhbət eləməyə vaxt tapıbsan? Bir adamın yaxasından yapışanda buraxmaq istəmirsən. (*Kəndlilərə*) Gedin, qardaşlar, dayanmayın. (*Qoca və cavan gedirlər. Mirzə Ismayıl enir aşağıya*.) De görüm onlarla nə danışırdın?

R ə c ə b k ə n d x u d a . Bir danışmaq yox idi. Bu Allahqulu kişi də bir dikbaşın biridir. Heç kəsdən dilini saxlamır. Onun dilini kəsib bir yaxşı tövbə vermək lazımdır.

M i r z ə İ s m a y ı l . Necə?

R ə c ə b k ə n d x u d a . Necəsi yoxdur. Ağzına gələni xanın haqqında danışır. Bir adam da yoxdur ki, onun ağzının ipini çəksin. Deyirəm get dəyirmanın qabağına, deyir, mən getməsəm, xan küsüb dala qayıdacaq?

M i r z ə İ s m a y ı l . Necə, yoxsa xanın qəzəbindən xəbəri yoxdur? Bilmirmi ki, o qədər vurarlar, qamçı altında canı çıxıb, it kimi murder olar?

R ə c ə b k ə n d x u d a . Həqiqət, mirzə, belə adamlara tövbə vermək lazımdır. Yoxsa görərsən, camaatı da yoldan çıxartdı.

M i r z ə İ s m a y ı l . Xub, xan gələr, mən qulluğuna ərz elərəm.

R ə c ə b k ə n d x u d a . Mirzə, sənə bir söz deyim. Sənin çörəyin haqqı, Allahqulunun evində təzə yetişmiş elə bir qızı var ki, dünyanın yarısına verməzsən. Mən deyə bilərəm ki, xanın hərəmxanasında elə can yoxdur. Xalis padşah malıdır.

M i r z ə İ s m a y ı l . Bəs, a zalım oğlu, İndiyədək bunu mənə niyə xəbər verməyibsən?

R ə c ə b k ə n d x u d a . Xəbər verərdim, qızın qardaşından qorxurdum, ondan qan iyi gəlir.

M i r z ə İ s m a y ı l . Onun qorxusu yoxdur. Həqiqət, qız çox gözəldir?

R ə c ə b k ə n d x u d a . Ərz elədim ki, padşaha layiq qızdır: uzun boylu, qara gözlü, yanaq, – demə görmədim, – bir şüşə dolu qan, yerişi sona yerişi, saçları topuğundan, guya zalım qızına gün işığı dəyməyib.

M i r z ə İ s m a y ı l . Daha kəs səsini, kafir! Ağzımın suyu axdı. Əlbəttə, xana bir belə peşkəş vacibdir.

R ə c ə b k ə n d x u d a . Ancaq, mirzə, səndən təvəqqe eləyirəm, xanın qulluğuna o qızın xəbərini mən gətirdiyimi ərz eləyəsən. Bəlkə xandan mənə bir xələt çıxa.

M i r z ə İ s m a y ı l . Əlbəttə deyərəm.

R ə c ə b k ə n d x u d a . Ancaq, mirzə, bir şey var.

M i r z ə İ s m a y ı l . Nə şey?

R ə c ə b k ə n d x u d a . Doğrusu, yenə deyirəm, Allahqulunun oğlunun xatasından gərək məni qoruyasan.

M i r z ə İ s m a y ı l . Onun əlacı asandır. Arxayın ol. (*At ayağı səsi eşidilir.*) Rəcəb kəndxuda, gör xandırmı gələn?

R ə c ə b k ə n d x u d a (*yüyürüb baxıb, tez dala qayıdır*). Bəli, mirzə, xan təşrif gətirir.

M i r z ə İ s m a y ı l . Yüyür xanın atını özün tut. Sonra mən səni xanın nəzərinə verərəm: qoçaq adamsan, sədaqətli qulluqçusan.

R ə c ə b k ə n d x u d a . Ölənədək başla, canla xana qulluq eləmək borcumuzdur.

M i r z ə İ s m a y ı l . Tez ol, yüyür!

Rəcəb kəndxuda, Mirzə İsmayıl da onun dalınca gedirlər. Pərviz xan, yanında Mirzə Ismayıl, ətrafında kəndin ağsaqqalları və cavanları daxil olurlar.

P ə r v i z x a n . Camaat, sizin hamınızı xoş gördük!

C a m a a t . Xoş bəxtiniz olsun, xan!

P ə r v i z x a n . Necəsiniz, salamatsınızmı?

C a m a a t . Şəfaətin artıq olsun, xan! Allah sizin kölgənizi bizim başımızdan əskik eləməsin!

P ə r v i z x a n . Əkənəcəyiniz necədir? Malınız, qoyununuz salamatdırmı?

C a m a a t . Dövlətinizdən salamatlıqdır.

Camaatla xan danışan əsnada Allahqulu kənarda durub dinməz qulaq asır. Xan ona tərəf baxanda naxahi baş əyir.

M i r z ə İ s m a y ı l . Camaat, xan yorulubdur. Siz də sabahdan ayaq üstündə məəttəlsiniz. Gedin evlərinizə, xan da dincini alsın. Hər kəsin nə dərdi var, sabah gəlib xana ərz eləyə bilər.

Camaat bir-bir: mürəxxəs olaq, mürəxxəs olaq, – deyərək gedirlər.
Allahqulu baş əyməyib camaatın dalınca gedir.

P ə r v i z x a n . Mirzə, tək kənarda duran kişi kim idi?

M i r z ə İ s m a y ı l . Qurbanın olum, ona Allahqulu Oruc oğlu deyirlər.

P ə r v i z x a n . Bəli, eşitmişəm. O yenə camaata qarışmayıb, bizdən boyun qaçırtdı?

M i r z ə İ s m a y ı l . Xan sağ olsun, onun öhdəsindən nə mən, nə də yazıq Rəcəb kəndxuda gələ bilirik. Başıdikin biridir. Kənddə ağzına gələni danışır, camaatı da yoldan çıxardır.

P ə r v i z x a n . Eybi yoxdur, cəzasına çatar.

M i r z ə İ s m a y ı l . Amma, xan sağ olsun, deyirlər, evində elə bir vəcihə qızı var ki, heç vəsfə gələn deyil.

P ə r v i z x a n . Nə danışırsan?

M i r z ə İ s m a y ı l . Başın üçün, xan, əgər deyilən doğru isə, həqiqət hərəmxana malıdır ki, özünlə aparasan.

P ə r v i z x a n . Bu gecə onu mənim yanıma gətirərsən. Xoşuma gəlsə, apararam hərəmxanaya.

M i r z ə İ s m a y ı l . Baş üstə, xan. Xoşuna gəlsə, Rəcəb kəndxudaya gərək xələt verəsən. Çünki qız xəbərini gətirən odur. Özü də it sədaqətində bir qulluqçudur.

P ə r v i z x a n . Bir adam göndər, Allahqulunu buraya gətirsin.

M i r z ə İ s m a y ı l (*çağırır).* Rəcəb kəndxuda!

R ə c ə b k ə n d x u d a (yüyürərək gəlir). Bəli, Mirzə!

M i r z ə İ s m a y ı l . Bu saat xanın fərraşlarından da bir neçə nəfər götürüb, gedib Allahqulu Oruc oğlunu xanın qulluğuna gətirərsən. Deyərsən, xan səni hüzura istəyir.

R ə c ə b k ə n d x u d a . Baş üstə! (*Baş əyib gedir*.)

P ə r v i z x a n . Mirzə, cavanların siyahısı hazırdırmı?

M i r z ə İ s m a y ı l . Bəli, hazırdır. Igidlərdən on beş nəfər seçmələrinin adlarını siyahı eləmişəm.

P ə r v i z x a n . Bilirsən bu nə üçündür?

M i r z ə İ s m a y ı l . Xeyr, Qurban , bilmirəm.

P ə r v i z x a n . Yadındadırmı neçə il bundan əqdəm Rəhim xan mənə iki güləşən dəvə və iki də yaxşı boğuşan köpək göndərmişdi?

M i r z ə İ s m a y ı l . Bəli, Qurbanın olum, çox gözəl yadımdadır. Hətta qızıl köpək, Abdulla xanın yüz qızıla aldığı köpəyini boğdu da, yadımdadır. Abdulla xan haman saat iti güllə ilə vurub öldürdü. Özü də atını minib naharsız getdi.

P ə r v i z x a n . Afərin! Gözəlcə yadındadır. İndi də Rəhim xan mənə məktub göndərib, yazır ki, sizin Heydərxanlının cavanları çox igid olurlar. Təvəqqe edirəm, onlardan on beş nəfər mənə satasınız ki, yanımca lazım olan yerlərə atlansınlar. Hər birinə də yüz əlli qızıl təklif eləyir. Bu da çox yaxşı qiymətdir. Mən də cavabımda yazdım ki, bu qiymətdən satmağa hazıram. Burada həm pul var, həm də dəvələrin və köpəklərin xəcalətindən çıxaram. Abdulla xan indi də mənimlədanışmır. Ha, ha, ha…

M i r z ə İ s m a y ı l . Çox yaxşı sövdadır, Allah xeyir versin. (*Siyahını uzadır*.) Buyur, Q u r b a n ! (*Xan siyahını alıb oxuyur*.) Ancaq burada bir səhv var, onu düzəltmək lazımdır.

P ə r v i z x a n . Nə səhv?

M i r z ə İ s m a y ı l . Yaxşı olar ki, siyahıdan Həsən Pirqulu oğlunu pozub, əvəzinə Allahqulu oğlu Bədəli yazaq. Onun buradan getməsi məsləhətdir. Dəli igiddir, əlindən xəta çıxa bilər.

P ə r v i z x a n . Anladım nə deyirsən. Çox gözəl, al, pozursan poz! Əvəzinə Bədəli yaz! (*Siyahını verir*.)

M i r z ə İ s m a y ı l (*siyahını alıb, düzəldir*). Buyur, Qurban ! (*Verir xana.)*

Allahqulunu oğlu ilə xanın qulluğuna gətirirlər. Hər ikisi baş vurub əli bağlı dururlar.

P ə r v i z x a n (*diqqətlə Allahqulunun oğluna baxır*). Yavuğa gəl, qoçaq! (*Bədəl qabağa yeriyir*.) Adın nədir?

B ə d ə l . Xanın nökərinin adı Bədəldir.

P ə r v i z x a n . Afərin! Gözəl cavab verdin. Yəqin ki, mənim sadiq rəiyyətlərimdənsən. (*Bədəl baş əyib bir söz demir*.) Mirzə Ismayıl, bu oğlanı haraya lazım bilirsən göndər.

M i r z ə İ s m a y ı l (*Rəcəbə*). Rəcəb kəndxuda, siyahı ilə çağrılan cavanlar haradadırlar?

R ə c ə b k ə n d x u d a . Divanxanadadırlar.

M i r z ə İ s m a y ı l . Bu oğlanı da apar oraya. Həsən Pirqulu oğlunu da boşla getsin evinə.

R ə c ə b k ə n d x u d a (*Bədələ*). Yeri gedək. (*Aparır*.)

P ə r v i z x a n . Çox qaçaq oğlana oxşayır.

M i r z ə İ s m a y ı l . Igidlikdə, qoçaqlıqda tayı, bərabəri yoxdur.

P ə r v i z x a n . Sifətindən, baxanda, qoçaqlıq yağır. Belə bir oğlanı yüz əlli qızıla vermək cəfadır.

M i r z ə İ s m a y ı l . Məsləhət belədir.

P ə r v i z x a n . Doğrudur, belə oğlanı görüb, Rəhim xan da məndən razı qalar.

A l l a h q u l u . Mirzə, mənim oğlumu haraya göndərdin?

M i r z ə İ s m a y ı l . Sən nə haqla bu sualı mənə verirsən?

A l l a h q u l u . Necə? Məgər ata deyiləm? Oğlumun haraya aparılmağını bilməyim?

M i r z ə İ s m a y ı l . Hamının atası xandır. Hamının ixtiyarı da onun əlindədir. Nə istərsə elər. Hər kəsə öl dedi, gərək ölsün, qal dedi, qalsın və sənin də xan qulluğunda danışmağa ixtiyarın yoxdur. Qoca kişisən, bu yolların hamısını yaxşı bilirsən. Səni hüzura çağırıblar, nə xəbər alarlar, cavab verib, evinə gedərsən.

A l l a h q u l u . Mirzə, mən oğlumun haraya aparılmağını yaxşı bilirəm. Məgər rəiyyət qaramaldır ki, bir-bir aparıb satasınız?

M i r z ə İ s m a y ı l . Xan sağ olsun, İndi özünüz bunun nə növ bir insane olduğunu görürsünüz. Xan qulluğunda cürət eləyib bu dildə danışan, görün kənarda nələr söyləyə bilər.

P ə r v i z x a n . Görürəm. (*Allahquluya*) Allahqulu, mən sənin haqqında çox şeylər və sözlər eşitmişdim. Amma böhtan hesab eləyib inanmırdım. İmdi mən səni dürüst tanıdım. Gərək mənimlə gedib həmişəlik yanımda qalasan. Səni bu kənddə qoymaq olmaz.

A l l a h q u l u . Xan sağ olsun, məgər ata ürəyi yananda danışmaq da qadağandır? Heyvanın balası itəndə o da görürsən hər yeri dolanıb axtarır. Məgər mən heyvanca da deyiləm?

R ə c ə b k ə n d x u d a (*daxil olur*). Mirzə, aparıb divanxanada qoydum. Pirqulu oğlunu da buraxdım getdi.

P ə r v i z x a n (*Allahquluya*). Mənim nəinki sənin oğluna, hətta tamam külfətinə, sənin malına, canına belə ixtiyarım çatar. Sənin gözlərinin qabağında azmı adam dara çəkilib? Rəcəb kəndxuda, bunu aparıb üç yüz çubuq vurdurarsan. Bir də xan qulluğunda cürət eləyib danışmaz.

R ə c ə b k ə n d x u d a (*Allahqulunun qolundan yapışır*). Gedək!

Allahqulu çəkinir.

B a l a c a u ş a q (*yüyürərək gəlir*). Ata! Bu saat xanın adamları gəlib, bacımı çəkib apardılar. Qardaşımı nə qədər axtardım tapmadım.

A l l a h q u l u (*başına döyür*). Bu da bir müsibət! Xan, oğlumu aparıb məni köməksiz qoydun. İndi də mənim namusuma əl atırsan? Adını

beləmi ata qoyubsan? Batsın sənin kimi ata! Sən ata deyilsən, qaniçənsən, canavarsan!

P ə r v i z x a n . Daha kifayətdir! Rəcəb kəndxuda, bunun boğazına kəndir keçirib, dal həyətdə, mənim gözümün qabağında tut ağacından asarsan! Məlun, köpək! Sən bilirsənmi ki, sizin hamınızın canının, malının, külfətinin ixtiyarını Allah özü mənə tapşırıbdır?!

A l l a h q u l u . Bir Allah ki, camaatın ixtiyarını sənin kimi canavara tapşıra, elə Allaha mən bəndəlik eləmək istəmirəm!

P ə r v i z x a n . Cəld olun, aparın dilini kəsin!

Allahqulunu çəkirlər.

A l l a h q u l u (*fərraşları itələyir*). Çəkilin kənara! Mənim oğlum getdi, qızım getdi, namusum ayaq altında tapdalandı, canım da gedir! Xan məni dara çəkdirməsə də, mən özüm dünyada bundan sonra yaşamayacağam! Heç kəsdən də bu saat qorxum yoxdur! (Xana) Xan, sənin atan Surxay xan mənim atamı qayadan atdırdı. Yazıq qayanın sinəsində bitmiş bir kola ilişib başı üstündə asılı qaldı. Quzğunlar, çalağanlar diri-diri onun bədənini sökdülər. Axırda kişinin quru sümükləri qayanın dibinə töküldü. Sən də məni dara çəkdirirsən, nə eyib elər?! Əlbət bir vaxt səndən və sənin övladından hayıf alan tapılar.

Allahqulunu çəkib aparırlar.

P ə r v i z x a n . Həqiqət, ölməli məlunmuş!

M i r z ə İ s m a y ı l . Allaha da səbb elədiyini eşitdiniz?! Belə adamın şərən də qətli vacibdir.

P ə r v i z x a n . Əlbəttə, vacibdir.

Fərraş gəlib kənardan Mirzə Ismayıla başı ilə işarə edir.

M i r z ə İ s m a y ı l (*xana*). Xan sağ olsun, qız hazırdır.

P ə r v i z x a n . Çox gözəl, ötürsünlər yatacaq otağına. Gedək, Mirzə, istəyirəm pəncərədən o məlun Allahqulunun çapalamasına tamaşa eləyim. Sonra da bir qədər istirahətə məşğul olam. Gedək!

Gedirlər.

PƏRDƏ

İKİNCİ PƏRDƏ

Pərviz xanın sarayında bir otaq. Hərəmlər, hərəmxana əmələləri çalıb oynayırlar.

X a c ə (*daxil olur*). Xan təşrif gətirdi. Özü ilə də bir maral gətiribdir ki, yemə, ismə, xəttü-xalına, gül camalına, tamaşa elə.

H ə r ə m l ə r d ə n b i r i . Necə, yoxsa bizim hamımızdan gözəldir?

X a c ə . Ah! Sizin heç biriniz onun bərabəri ola bilməzsiniz. Baş hərəm. Gələr baxarıq. (*O biri qadınlara*) Dağılın buradan, heç kəs qalmasın!

Hamı baş əyib gedir. Pərviz xan daxil olur. Baş hərəm təzim edir.

P ə r v i z x a n . Necəsiniz, salamatlıqdırmı?

B a ş h ə r ə m . Bizim salamat olub, ya olmadığımız sizə lazımdırmı? Sizin üçün öz rahatlığınız hər şeydən əfzəldir. Buyurub, kənddə istirahət eləyib, bir nazənin sənəm də qulluğunuzda gətiribsiniz. Guya buradakılar sizin üçün azdırlar.

P ə r v i z x a n . Ürəyinə başqa bir fikir gəlməsin, əzizim. Sən bu hərəmxananın baş hərəmi olub, həmişə öz yerində möhkəm əyləşəcəksən. Sən güman etmə ki, mən özüm üçün təzə bir kəniz gətirmişəm. Xeyr! Daha kifayətdir. Ancaq yetim və bilmərrə sahibsiz bir qız olduğundan gətirmişəm ki, hərəmxanada sizə qulluq eləsin.

B a ş h ə r ə m . Gətirsən də, gətirməsən də, sahibi-ixtiyarsan. Bizim nə sözümüz ola bilər?

P ə r v i z x a n . Mən sənə yenə deyirəm ki, xəyalına özgə fikir gəlməsin. (*Əl çalır, qulam daxil olur*.) Get, kənddən təzə gələn qızı buraya göndər. (*Qulam baş əyib çıxır*.) Onu sənin ixtiyarına verəcəyəm. Necə bir həyalı qız olduğunu görərsən. (*Qız daxil olub qapıda dayanır*.) Qorxma, yaxşı qız, yavuğa gəl. (*Qız qısılaraq yavuğa gəlir*.) Sən bu gündən bu xanımın qulluğunda olacaqsan. Onun gərək hər əmrinə sədaqətlə itaət eləyəsən. Anladınmı, yaxşı qız? (*Qız başı ilə işarə edir. Xan baş hərəmə*) Görürsən necə həyalı qızdır? İmdi özün bununla söhbət eləyə bilərsən. (*Gedir. Ikinci hərəm daxil olur*.)

B a ş h ə r ə m . Ay qız, adın nədir?

G ü l s ə n ə m . Adım Gülsənəmdir.

B a ş h ə r ə m . Atan, anan çoxdanmı ölüblər?

G ü l s ə n ə m . Anam çoxdan ölüb. Atamı da xanın üzünə ağ olduğuna görə, üç gün bundan qabaq boğazından asdılar.

B a ş h ə r ə m (*ikinci hərəmə*). İmdi bunun necə yetim qız olduğunu bildik. (*Gülsənəmə*) Neçə yaşın var, qızım?

G ü l s ə n ə m. On altı.

İ k i n c i h ə r ə m . Yenə danışdır, bundan çox əhval bilmək olacaq.

B a ş h ə r ə m . Bacından, qardaşından nəyin var?

G ü l s ə n ə m . Iki qardaşım var. Böyük qardaşımı xan bu səfər gələndə

R ə h i m xana satdı, apardılar. Bir balaca qardaşım var, o da evdə qaldı.

B a ş h ə r ə m . Bəs ona kim pərəstar olur?

G ü l s ə n ə m . Bilmirəm.

B a ş h ə r ə m . Necə bilmirəm? Bəs sən onu necə sahibsiz qoyub gəldin?

G ü l s ə n ə m . Mən özüm gəlmədim. Məni fərraşlar güclə çəkib gətirdilər xanın yanına. Oradan da buraya gətirdilər. Daha qardaşımdan xəbərim yoxdur.

B a ş h ə r ə m . Çox gözəl. Di get qızım, kənizlərin içində otur. Çağıranda gələrsən. (*Qız gedir. İkinci hərəmə*). Bu işlərdən nə görürsən?

İ k i n c i h ə r ə m . Iş aydındır. On altı yaşında bir qız, həqiqət də, hamımızdan gözəl. Bir az keçəcək ki, hamımızın üstümüzdə böyüklük eləyəcək.

B a ş h ə r ə m . Onda tədbir lazımdır.

İ k i n c i h ə r ə m . Tədbir nə ola bilər? Başını batırmaqdan özgə bir tədbir ola bilməz.

B a ş h ə r ə m . Ondan sonra xanın qəzəbinin qabağında durmaqmı olar?

İ k i n c i h ə r ə m . Nəticəsinə mən cavab verərəm.

B a ş h ə r ə m . Tədbirin nədir söylə?

İ k i n c i h ə r ə m . Burada, bizə əl-ələ verib işləmək lazımdır. Ona görə səndən bir söz xəbər alacağam. Ancaq gərək sualımdan qəzəblənməyəsən.

B a ş h ə r ə m . Qəzəblənmərəm, xəbər al!

İ k i n c i h ə r ə m . Pişxidmət Rəşidin sənə bənd olduğundan xəbərin varmı?

B a ş h ə r ə m . Bu nə növ sualdır eləyirsən?

İ k i n c i h ə r ə m . Vədində möhkəm dur, qəzəblənmə. Mən qulağımla eşitdiyimi deyirəm. Mətbəxdə aşpazla danışdığını eşitmişəm. Deyirdi ki, bir gün xanımı görməyəndə gecə yata bilmirəm.

B a ş h ə r ə m . Onun nə həddi var mənim adımı çəkir? Məgər bilmir ki, xan xəbərdar olsa, onun atasının sümüklərini qəbirdən çıxardıb odlar?

İ k i n c i hərəm. Eşq başa vurandan sonra, adam ölümə də həvəslə gedər. Ancaq İndi qəzəblənmək yeri yoxdur. Nə tənbeh lazımsa, sonra eləyə bilərsən. Hələlik düşməni aradan götürmək lazımdır. Sən

R ə ş i d i xəlvət gətirt yanına, onunla bir növ mehriban söhbət elə, qaşgözlə ona bir para ümidlər ver. Sonra Gülsənəmin aradan götürülməsini ona təklif elə.

B a ş h ə r ə m . O bu təklifi qəbul elərmi?

İ k i n c i hərəm. O sözləri ki, mən eşitmişəm, nəinki baş və canla qəbul elər, hətta sənin yolunda öz atasının da başından keçər.

B a ş h ə r ə m . Sonra xanın öhdəsindən necə gələrsən?

İ k i n c i h ə r ə m . Hələlik onun adı kənizdir. Bir kəniz üstündə xan özünə zəhmət verib danışmaz. Ona nə var? Xanlığın qızlarının hamısının təəllüqü ona deyilmi? Gedib birini də gətirər. Onun üçün ya arvad ölümü, ya bir toyuq ölümü. Bir az söylənib oturacaq yerində. Amma vaxt ki, ona hərəm adı qoyub yuxarı başa addatdı, onda gərək biz hamımız buradan başımızı götürüb, çıxıb gedək.

B a ş h ə r ə m . Xan bu saat haradadır?

İ k i n c i h ə r ə m . Yorulub yatıbdır.

B a ş h ə r ə m . Xub, mən Rəşidi bu saat buraya çağırtdırıb, onunla danışaram. (O biri qapını açıb xacəni çağırır. Xacə daxil olur.) Mənim üçün bir qəlyan gətir. Rəşidi də bu saat xəlvətcə mənim yanıma ötür. (*Xacə gedir. Ikinci hərəmə*). Sən xanın yatacaq otağının qapısında gizlən. Elə ki oyandığını gördün, mənə tez xəbər ver, Rəşidi qaçırdım.

İ k i n c i h ə r ə m . Baş üstə, mən gedirəm. Gərək Rəşidlə elə bir şirin dillə danışasan ki, səndə ona məhəbbətin olduğuna dürüst inana.

B a ş h ə r ə m . Yaxşı, mehriban danışaram. Sən get, qapıdan uzaqlaşma.

İ k i n c i h ə r ə m . İşini xatircəm tut. (*Gedir.*)

Xacə, əlində qəlyan, dalınca Rəşid daxil olur. Qəlyanı xanıma verib çıxır. Rəşid əli bağlı qapıda dayanır. Baş hərəm taxt üstündə əyləşmiş, qəlyan çəkir, hərdənbir gözünün altı ilə Rəşidə baxır. Bu minvalla neçə dəqiqə keçir. Sonra üzünü Rəşidə tutur.

B a ş h ə r ə m . Yavuğa gəl, Rəşid , səndən söz soruşacağam.

R ə ş i d (*yavuğa gəlib*). Əmriniz nədir, xanım?

B a ş h ə r ə m . Sən mənim üzümə niyə belə məzlum baxırsan? Guya ürəyində dərmansız bir dərdin var?

Rə ş i d . Sizin tək xanımın, Pərviz xan tək ağanın qulluğunda yaşayanın nə dərdi ola bilər?

B a ş h ə r ə m . Rəngin gün-gündən saralır. Yoxsa bir adama bəndsən? Hər kəsdirsə, deginən bu saat əmr edim versinlər sənə. (*Rəşid dərin bir ah çəkir*.) Niyə belə ah çəkdin?

Rə ş i d . Bağışlayın, xanım, qulluğunuzda biədəblik elədim.

B a ş h ə r ə m . Səndən bir söz soruşacağam, doğru cavab ver.

Rə ş i d . Yalan cavab verməyə həddim yoxdur, xanım.

B a ş h ə r ə m . De görüm, mən sənin xoşuna gəlirəmmi?

Rə ş i d . Xanım, bu nə sualdır edirsiniz?

B a ş h ə r ə m . Sualıma cavab ver, ya deginən bəli, ya deginən xeyr.

Rə ş i d . Xanım, mən nəkarayam, nə cürət eləyib belə şeyləri xəyalımdan da keçirə bilərəm?

B a ş h ə r ə m . Mən soruşduğumu bilirəm. Sənin də danışdıqlarını eşitmişəm.

Rə ş i d . Atam sənə Qurban, xanım, məni Pərviz xanın qəzəbinə toxuma. Yoxsa bədənimin hər tikəsi bir kolda qalar. Hər nə deyiblərsə, ədavətlə deyiblər. Axı mən nə cürət edib sizin sözünüzü danışa bilərəm?

B a ş h ə r ə m . Dörd gün bundan qabaq mətbəxdə aşpazla nə danışırdın? Ha, rəngin qaçdımı? Görürsən, hamısını bilirəm. Di sualıma cavab ver!

R ə ş i d (*onun ayağına yıxılır*). Xanım, məni balalarının başına çevir. Məni Pərviz xanın başına çevir. Bir qələtdir eləmişəm, anlamamışam. Artıq-əksik söz danışmışam.

B a ş h ə r ə m . Dur ayağa. (*Rəşid qalxır*.) Eybi yoxdur, göyçək xanımların haqqında hamı danışar. Nə olar? Məgər nökər ürəyi ilə sair ürəklərdə təfavüt var? Hamının ürəyində məhəbbət ola bilər. Pərviz xan, məsələn, xandır, neçə min rəiyyətin canının, malının sahibidir. Bununla belə, məhəbbət nə olduğunu anlamır. Budur, hərəmxanasında on iki arvadı var. Onların hansına o, məhəbbət bağlayıb? Hər birindən doyandan sonra, gedib bir təzəsini gətirir. Buna məhəbbət deməzlər, bu, heyvanlıqdır. Budur, İmdi də kənddən bir təzəsini gətirib. Görək onunla neçə müddət dolanacaq. Amma biz arvadlar heyvanlıq axtarmırıq. Biz həqiqi məhəbbət axtarırıq. Sən mənim evimdə nökərsən.

Sənin də dilindən məhəbbət sözü eşidəndə ürəyimiz oynayır. De görüm, aşpaza dediyin sözlər ürəkdən idi, ya yox?

Rəşid. Ayağının altında Qurban kəsilim, xanım, mənə izin ver bu gün buradan çıxıb, başımı götürüb bir az uzaq yerə gedim.

Başhərəm. Əgər doğrusunu söyləməsən, səni Pərviz xanın əlinə verəcəyəm. O da bilirsən ki, ətini kabab eləyəcək.

Rəşid. Ay xanım, sənə atam, anam Qurban ! Axı mən evi yıxılmış nə dedim?

Başhərəm. Boynuna al, görüm mən sənin xoşuna gəlirəm, ya yox?

Rəşid. Bu nə qələt idi mən elədim? Nə daş idi başıma saldım?

Başhərəm. Axır sualımdır, cavab ver!

Rəşid. Doğrusu, xanım, bir qələt eləyib demişəm, qəzəbin tutmasın.

Başhərəm. Ürəkdən deyibsən, ya lağ ilə?

Rəşid. Mənim nə həddim var sənə lağ eləyim. Ürəkdən demişəm.

Başhərəm. Deməli, mən göyçək xanımammı?

Rəşid. Məgər buna bir söz olar? Göyçək olmasaydın, Pərviz xan səni baş hərəm elərdimi?

Başhərəm. Onu demirəm. Sənin gözündə necə?

Rəşid. Vaxt ki mənim ağamsan, əlbəttə gözəlsən.

Başhərəm. Açıq danış, yoxsa bu saat dərini soyduraram.

Rəşid. Daha nə gizlətmək, gözəlsən!

Başhərəm. Di al mənim əlimdən öp.

Rəşid. Qələt elərəm, xanım.

Başhərəm. Öp deyirəm sənə! (*Rəşid onun əlindən öpür.*) Necədir, dadlıdırmı?

Rəşid. Daha nə söz ola bilər?!

Başhərəm. Əgər mənim xahişimi əmələ gətirsən, mən də sənin hər xahişini əmələ gətirərəm. Bu gün əlimdən öpdün, sonra da anla nə deyirəm…

Rəşid. Əmr elə, xanım, özümü suya qərq eləyim, bədənimi odlara atım, yandırım. Gözünün qabağında xəncəri ürəyimə çaxıb, qanımı sənin ayağının altına töküm.

Başhərəm. Xeyr, mənim xahişim bunların heç birisi deyil. Xan kənddən təzə bir kəniz gətirib. Mən baxıram, o, cavan, məndən gözəl. Qorxuram bir azdan sonra xan onu bizim başımıza mİndirə. Əgər sənin ürəyində mənə məhəbbət varsa, gərək o qızın başını batırasan.

Rə ş i d . Xanım, mənim öz canıma qüvvətim çatar. Onu da, necə ki, ərz elədim, sənin yolunda qoymağa hazıram. Ancaq mənə sən nahaq qan tökdürmə.

B a ş h ə r ə m . Bəs onda sənin məhəbbətin yalanmış.

R ə ş i d (*özünü dübarə onun ayağına atır*). Xanım, al bu xəncəri, çax mənim ürəyimə, gör mən "uf" da deyərəmmi?! Amma mənim məhəbbətimə yalan demə… Nə buyursan, hazıram.

B a ş h ə r ə m . Mən sabah o qızı xacələrin birisi ilə çay kənarına paltar yumağa göndərəcəyəm. Bir kolun dalından onu güllə ilə vurub öldürərsən. Əgər xacə eşidib, səni görüb-tanısa, eyb eləməz, onu da vurub öldürərsən. Qəbul eləyirsən?

Rə ş i d . Qəbul elərəm, xanım, ancaq…

B a ş h ə r ə m . Bu saat hər şeyi qəbul elərsən. (*Barmağı ilə üzünü göstərir.*) Di buradan da bir öpüş ala bilərsən.

Rəşid xanımın üzündən öpən halda Pərviz xan daxil olur.
Rəşid qaçır.

P ə r v i z x a n . Ay ləçər, ay fahişə, bu on səkkiz ilin müddətində beləmi sədaqətlə dolanıbsan?! Bəs görünür on səkkiz il mənim öz binamusluğumdan xəbərim olmayıb! Mən Pərviz xan olum, tamam ətraf xanlar mənim adım gələndə titrəşməyə düşsünlər, amma evimin içində, öz hərəmim, baş hərəmim məni binamus eləsin? Yox!.. Yox!.. Burada qiyaməti bərpa edəcəyəm! Tamam hərəmxana əhlini qıracağam! Baxın, Pərviz xanın baş hərəmi öz ərinin gözünün qabağında nökərlə mazaq eləyir. Daha dünyada bundan da böyük biabırçılıq mümkündürmü? Bundan sonra hansı arvada etibar eləyəsən? (*Əl çalır, xacələr daxil olurlar.*) Gəlin aparın bu fahişəni salın zindana! Sabah buna bir cəza verim ki, cəmi hərəmxanaya ibrət olsun. O məlun Rəşidi də harada olsa, tapıb yanıma gətirərsiniz.

Baş hərəmi aparırlar.

İ k i n c i h ə r ə m (*daxil olur*). Gördünmü arvadının vəfasını? Mən deyəndə, inanmırdın. Axırda onun əməlinə öz gözlərinlə tamaşa elədin. Deyirdin, ondan sədaqətli arvad yoxdur. Gətirib baş hərəm eləyib, bizim başımıza çıxartmışdın. İndi sədaqətli kim olduğunu görürsənmi?

P ə r v i z x a n . Hamınız bir nəsildənsiniz, hamınız fahişəsiniz, hamınızı qılınca səkdirəcəyəm!

İ k i n c i h ə r ə m . Bizlərdən bir xata görsən, baş üstə. Bir dəfə çəkdirmə, iki dəfə, beş dəfə qılınca çəkdir. Mən çox sevİndim ki, sən doğru ilə əyrini gördün.

P ə r v i z x a n . İmdi sabah görərsən ki, ona mən nə cəza verəcəyəm. Gərək onu sizin gözünüzün qabağında öz aşnası Rəşidə öldürdəm. Sonra Rəşidin bədənini iki parça eləyib, şəhərin darvazasına vurduram.

İ k i n c i h ə r ə m . Rəşid də taqsır nədir? Cavan oğlan göyçək arvadda eşqi görəndə, əlbəttə, susayacaq. Rəşid də taqsır yoxdur.

P ə r v i z x a n . Yox! O məlun böyük tənbehə layiqdir. Onun nə həddi var, məndən biizin mənim arvadımın otağına girsin! Mən ona tənbeh etməsəm, sair əmələnin də ağlı başına gəlməz.

İ k i n c i h ə r ə m . Mən sənə bundan da bədtərini deyərəm ki, xəbərin yoxdur. Ancaq qəzəbin tutmuş vaxtı deməyə qorxuram.

P ə r v i z x a n . Söylə görüm daha nə bilərsən?

İ k i n c i h ə r ə m . Doğrusu, qəzəbindən qorxuram.

P ə r v i z x a n . Söylə, yoxsa nəşini burada yıxaram yerə!

İ k i n c i h ə r ə m . Onun qızı da özü kimidir.

P ə r v i z x a n . Nə dedin, mənim qızım?

İ k i n c i h ə r ə m . Bəli, sənin qızın.

P ə r v i z x a n . Böhtan deyirsən, ləçər! Heç kəs mənim qızıma ləkə vura bilməz. Mənim qızım qızıl güldən təmizdir.

İ k i n c i h ə r ə m . Yalan olsa, hər bir cəzaya layiqəm. Sənin qızın Rəhim xanın göndərdiyi pəhləvanla aşnadır. Onun mərdanə güləşməyini görüb, bənd olubdur. Neçə dəfə onları bir yerdə görüblər. Amma qorxudan sənə xəbər verə bilməyiblər. Budur, qızın özü də gəlir. (*Gedir*.)

X a n ı n q ı z ı (*daxil olur*). Ata, mənim anamın günahı nə idi, onu zindana saldırıbsan? Ata can, vallah mənim anamın heç taqsırı yoxdur. Yalvarıram ata, ayaqlarından öpürəm, əmr elə mənim anamı zindandan çıxartsınlar.

P ə r v i z x a n . Sənin özünə anandan bəd tənbeh eləyəcəyəm!

X a n ı n q ı z ı . Mən nə günah eləmişəm, ata?

P ə r v i z x a n . Söylə görüm, Rəhim xan göndərən pəhləvanla sənin aranda nə var?

X a n ı n q ı z ı . Heç bir şey yoxdur, ata.

P ə r v i z x a n . Heç bir şey yoxdur? *(Əl çalır, xacə daxil olur*.)

Çubuq hazır eləyin. Rəhim xanın yanından gələn pəhləvanı mənim yanıma gətirin. (*Xacə baş əyib gedir*.) Doğrusunu de, yoxsa səni so-

yundurub bədəninə ölüncə çubuq vurduracağam. (*Xacə bir dəstə çubuq gətirir*.) Soyundur bunu!

X a n ı n q ı z ı . Ata, rəhm elə, mənim günahım yoxdur.

P ə r v i z x a n . Çubuq dəyəndə boynuna alarsan. (*Pəhləvanı gətirirlər*). Yavuq gəl, qoçaq! (*Pəhləvan yavuğa gəlir*.) De görüm, nə hədlə mənim qızıma əl atıbsan?

P ə h l ə v a n . Xan sağ olsun, burada əl atmaq sözü yoxdur. Sənin qızın məni sevib, mən də onu sevmişəm. Aramızda da kəbin var.

P ə r v i z x a n . Bəs belə?! Elə olan surətdə mənim özüm sizə yaxşı kəbin kəsdirərəm.

X a n ı n q ı z ı . Ata, izin ver ikicə söz deyim. Sən məni Rəhim xanın oğluna nişanlandırıbsan. Mən gendən o oğlanı görmüşəm. Arıq, rəngi saralmış, yol gedəndə, deyirsən İndicə yıxılıb öləcək. Özünün də, deyirlər, başında bir tikə ağlı yoxdur. Amma sən bircə bu oğlana bax. Gör necə gözəl, necə şad, qüvvətli, boylu-buxunludur. Özü də məni sağ gözündən artıq istəyir. Rəhim xanın oğlu çox da olsun xan oğlu, mən qızıl təşti neyləyirəm içinə qan qusam. Mən bu şücaətdə oğlanı iki yüz Rəhim xanın oğlu kimi tülküyə dəyişmərəm. Mən bunu sevmişəm, nə bilirsən mənə elə! Ölümə də göndərsən, şövqlə gedəcəyəm! Onu da bil ki, boyum doludur.

P ə r v i z x a n . Ax, nə binamusluq, nə böyük biabırçılıq! Rəhim xana mən nə cavab verəcəyəm? Sən məni Rəhim xan kimi kişinin yanında xəcalətli elədin! Səni görüm iki dünyada üzün qara olsun! (*Xacələrə, fərraşlara*) Bunları aparın! Deyin daş və qum hazır eləsinlər! Gərək bunların ikisini də mənim gözümün qabağında diri-diri divar içində qoyub hörsünlər. Aparın ikisini də!..

P ə h l ə v a n . Xan, bunların mənə gücləri çatmaz. Amma mən özüm gedib öz sevgilimlə bir qəbrə həvəslə daxil olaram.

X a n ı n q ı z ı . Gedək, əzizim. Əlvida, sevgili atam. Qulam (*daxil olur*). Xan sağ olsun, Rəşidi heç yerdə tapmaq mümkün olmur. Tamam ətrafı atlılar gəziblər, kənddən gətirdiyiniz qız da onunla bahəm qaçıbdır.

P ə r v i z x a n (*qəzəbnak*). Bu nə xəbərdir? Bu saat iki yüz atlı hər tərəfə salınsın və onların ikisinin də özlərini, ya meyitlərini tapıb gətirsinlər! Yoxsa, qanı su yerinə axıdaram. Ax, ax!.. (*Başını tutub taxtın üstünə yıxılır.)*

PƏRDƏ

ÜÇÜNCÜ PƏRDƏ

Dağlar arasında qaçaqlar məskəni. İki nəfər qaçaqlardan Tağı və Heydər qazanda xörək bişirirlər. Bir nəfər yuxarıda əli tüfəngli qarovul çəkir.

Q a r o v u l (əlini gözünün üstünə qoyub, uzağa tamaşa eləyir). Heç bir qaraltı görünmür. Gedən yoldaşlardan da gözə bir nişan dəymir. Dəstəbaşımız da öz mağarasında əyləşib. Üç gündür nə isə bizimlə danışmaq istəmir.

Ta ğ ı . Dəstəbaşının dərdini mən bilirəm. Onun nigarançılığı evindəndir. Bacısını xan çəkdirib aparandan sonra, evdə qalmış balaca qardaşının qeydi onu alıbdır.

H e y d ə r . Yox, o, atasının və bacısının hayfını almayınca, rahat olmayacaq.

Ta ğ ı . Pərviz xanın adı gələndə cəmi aləm tük salır. Bədəl ona nə eləyə biləcək?

H e y d ə r. Dünyanın işini bilmək olmaz. Fələk çox Bədəl kimiləri yuxarı qalxızıb. Pərviz xan kimiləri ayaq altına salıbdır. Pərviz xanın camaatla rəftarı bir az da belə gedərsə, axırda tək qalar.

Q a r o v u l . Bir xan ki öz rəiyyətini qaramal kimi sata, o, rəiyyət məhəbbətini qazanamı bilər ki, çətinə də düşəndə rəiyyət onun arxasında dursun?

Ta ğ ı . Rəiyyət alış-verişi eləyən bir Pərviz xan deyil, hamı xanlar bu işi tuturlar.

Q a r o v u l . Hamısının da axırı bir olacaq.

H e y d ə r. Doğru deyirsən, qardaşım. Biz qoçaq çıxdıq. Rəhim xana satılmış on beş nəfər silahlanandan sonra, dağlar arasına qaçıb, quldurluğa qurşandıq. Qaçmaq bacarmayanlar hamısı orada, burada boyunduruq altında qırılırlar.

H e y d ə r . Bəxtimiz onda kəsdi ki, bizim on beşimizi də bir adama satdılar. Yoxsa bölüşdürüb hər birimizi bir yana satsaydılar, hamımız puç olmuşduq.

Ta ğ ı . Bədəltək igid yoldaş bizim aramızda olmasaydı, Rəhim xanın qulluğunda bizim ətimiz tökülüb, sümüklərimiz qalacaqdı.

Bədəl içəridən çıxır, qaçaqlar qalxırlar.

B ə d ə l . Gedən uşaqlardan bir xəbər yoxdur?

Q a r o v u l . Bu yerdən göz işlədikcə, dörd ətrafa baxıram, heç bir şey görsənmir.

Ta ğ ı . R ə h i m xanın adamları imdi bizi axtarmamış yer qoymayıblar. Qorxuram yoldaşlarımız girə keçələr.

B ə d ə l . Mən Rəhim xandan qorxmuram. Heç kəsdən də qorxmuram. Bizim qaçdığımıza görə, Pərviz xanla Rəhim xanın aralarında, əlbəttə, ədavət düşəcəkdir. Bu da bizə əlverişli olar. İt itlə boğuşar, yolçunun işi avand düşər. Bizə bu dağların arasında heç bir qüvvət bata bilməz.

Q a r o v u l . İki qaraltı görünür, yəqin onlardır.

Ta ğ ı . Ay Bədəl, nə olubdur sənə ki, necə gündür halın özünlə deyil? Yoxsa bir şeydən qorxursan? Əgər bir qorxu varsa, bizi də xəbərdar elə.

B ə d ə l. Mən nədən qorxacağam? Uzaq başı ölümdür. Ölümdən də mən qorxan deyiləm. Ancaq məni çərlədən bir dərddir. Mən Bədəl olam, igidliyim hər yerdə danışıla, mənim atamı öldürüb, bacımı gəlib sürüyüb aparsınlar?! Yox, mən bu biabırçılığı yeyə bilməyəcəyəm və nə qədər də ki, hayıf almamışam, mən özümə gəlməyəcəyəm.

Q a r o v u l . Yoldaşlar özləri ilə bir gözü bağlı adam gətirirlər.

B ə d ə l . Gətirsinlər görək, nə işdir. Yəqin geri qayıdası bir adamdır, istəmirlər yolu öyrənsin.

Qaçaqlardan Xəlil və Şirin bir nəfəri gözü bağlı gətirirlər.

B ə d ə l . Açın onun gözlərini, özünü də aparın bir kənarda saxlayın. Sonra danışdıraram. (*Əsirin gözlərini açıb bir kənara aparırlar.*) Xəlil, söyləyin görüm, nə iş görə bildiniz?

X ə l i l . Xoruzlar banlaşan zaman girdik kəndə. Hamı yatmışdı. Novruzqulunun evinə çatanda itlər üstümüzə gəldilər. İtlərin qabağına yanımızca götürdüyümüz bir parça əti atıb, yeridik qabağa. Qapını döydük. Novruzqulu oyanıb, xəbər aldı: "Kimsən?" Dedik: "Bizik". Səsimizdən tanıyıb qapını açdı, girdik içəri. Xoruzların üçüncü banınadək söhbət elədik. Deyir, camaatın canı boğazına yığılıb, bircə güllənin atılmasına məəttəldir. Xalqın gözü, deyir, Bədəldədir. Hamı, deyir, Bədəlin atlı, kəndin ortasına girməyini gözləyir. Deyir, camaatın sözü budur: belə yaşamaqdansa ölmək yaxşıdır!

B ə d ə l (*bir qədər fikirdən sonra*). Novruzqulu yalançı kişi deyil. O, işin həqiqətini söyləyib. Mənim balaca qardaşımdan nə əhval bildiniz?

X ə l i l . Novruzqulu dua göndərib deyirdi, qardaşından hər barədə arxayın olsun. Hamımız ona atalıq, qardaşlıq eləyirik. Keçən il xan

dara çəkdirdiyi Səfdər kişinin arvadını gətirib sənin evində qoyublar. Qardaşına müqəyyəd olur. Hər gün də dolanacağına lazım olan camaatdan verilir. Novruzqulu deyir, özümüz ac, çılpaq qalmağa razıyıq, amma Bədəlin qardaşını korluq çəkməyə qoymarıq.

B ə d ə l . Qardaşlar, çox razıyam sizdən. Çox zəhmət çəkdiniz. Vaxtında Novruzqulunun da xəcalətindən çıxarıq. Gözü bağlı gətirdiyiniz kimdir?

X ə l i l . Bu adam bizə yolda rast gəldi. Dedi Bədəl xana vacib sifariş aparıram, onun yerini mənə göstərin. Biz də gözlərini bağlayıb gətirdik, ki, xəlvət yolu görməsin.

B ə d ə l . Buraya gətirin onu. (*Xəlil gedir*.) Yoldaşlar, daha bundan sonra məni bikef görməsiniz. Bircə qeydim bacımın əsirlikdən qurtarmasıdır. O da sizin köməyinizlə mümkün olar. (*Xəlil kişini gətirir*.) Kimsən, nəçisən?

K i ş i . Mən Abdulla xanın yaxın adamlarındanam. Məni xan özü sənin yanına göndərib. Sənlə görüşüb, bir para işlər haqqında söhbət eləmək istəyir.

B ə d ə l . Abdulla xanın qaçaqlar dəstəbaşçısı ilə nə alıb-verəcəyi ola bilər?

K i ş i . Xanın sizinlə və sizin yoldaşlarınızla vacib söhbəti var. Razı olsanız ikicə nəfər adamla gələr.

B ə d ə l . Abdulla xan uzaqdadırmı?

K i ş i . Xeyr, bu yavuqda, çayın kənarında quş ovladır.

B ə d ə l . O yerlər ki Pərviz xanın ovlağıdır?

K i ş i . Bəli!

B ə d ə l . Pərviz xan ona quş ovlatmağa izin veribdirmi?

K i ş i . Xeyr. Abdulla xan buyurur ki, gərək Pərviz xanın ovlağını xaraba qoyam.

B ə d ə l . Səbəbi nədir? Onlar ki, dost idilər?

K i ş i . Daha səbəbini bilmirəm.

B ə d ə l . Get Abdulla xana mənim tərəfimdən ərz elə ki, hər vaxt buyursa, onun qulluğunda hazıram. Bu kişini aparın ötürün getsin.

Bir nəfər onu aparır.

Q a r o v u l . Yolla bir atlı gedir, tərkində də dolu xurcun.

B ə d ə l . İki nəfər gedin, görün kimdir, gətirin buraya. (*İki nəfər gedir*.) Bilirsinizmi, qardaşlar, biz, doğrudur, adımızı qaçaq-quldur qoy-

muşuq, amma bizim qəsdimiz yol adamlarını çapıb talamaq deyil. Birinci qəsdimiz çalışıb özümüzü və öz kasıb qardaşlarımızı Pərviz xan və Rəhim xan kimi qaniçənlərin caynaqlarından qurtarmaqdır. Bizim kimi evindən, eşiyindən didərgin düşənlər çoxdur. Onların hər birinin dalınca qalan gözlər var. Camaat xanların zülmündən təngə gəlib. Onlara bircə işarə eləmək lazımdır ki, hamısı bir adamtək xanların üzlərinə dursunlar. Odur ki, biz gərək qüvvəmizi artırıb, kəndlilərin arasına adam salıb, camaatı tərpədək. Ondan sonra asanlıqla məramımıza çatarıq...

Ta ğ ı . Ondan sonra sən bizim xanımız olarsan.

Bədəl. Heç kəs xan olmaz. Farağat çəkilib, xışımın dəstəsindən yapışsam, özümü xanların hamısından böyük hesab elərəm.

Ş i r i n . Bəs belə olan surətdə, biz burada nə yeyib dolanacağıq?

B ə d ə l. Əvvəla, Rəhim xandan gətirdiyimiz sursat neçə müddət bizi görər. Əlavə, mən demirəm ki, biz burada bikar oturacağıq. Dövlətli xandan, bəydən, tacirdən ələ keçdi, əlbəttə, soyacağıq. Amma kasıb-kusubla gərək heç kəsin işi olmasın. Dövlətlinin malı halaldır. (*Qaçaqlar bir erməni gətirirlər*.) Yolda gedən atlı bu idimi?

Q a ç a q . Bəli.

B ə d ə l . Allah saxlasın, a kirvə, yaxına gəl görüm.

Er m ə n i . Ay xan, Qurbanın olum, məni balalarının başına pırlandır. Hər nəyim var verim, məni boşla gedim. İmdi balalarımın gözləri yoldadır.

B ə d ə l . Mən xan deyiləm, yaxına gəl. (*Erməni yavuğa gəlir*.) Hardan gəlirdin?

E r m ə n i . Qurbanın olum, xan…

B ə d ə l . Yenə mənə xan dedin? Bir də xan desən səni öldürərəm.

E r m ə n i . Yox, başığa dönüm, daha demərəm. Şəhərdən gəlirəm. Qızım üçün bir az yalavaşlıq almışam, aparıram. Sabah qızımın toyudur.

B ə d ə l . Aç görüm nə alıbsan. (*Erməni qorxa-qorxa xurcunun açır*.) Elə bu?

Er m ə n i . Bə nə olar, başına dönüm? Mənim də gücüm buna çatır. Elə bunu al, məni boşla gedim. Istəmirəm, qızımı cehizsiz də yola salaram.

B ə d ə l . Bu azdır, ay kirvə, bununla toy olmaz. (*Çıxarıb pul verir*.) Al bu beş qızılı, qayıt bazara, bir az da parçadan-zaddan al apar. Qızına əməlli toy elə.

E r m ə n i (*qorxub, pulu almaq istəmir*). Yox, Qurbanın olum, mənimlə zarapat eləmə. Pağır adamam, burax gedim. Həmişə sağa kilisada dua eləyim.

B ə d ə l. Duan lazım deyil. Al pulu. (*Erməni pulu alır*). Di şeylərini də qaytar yığ xurcuna. (*Erməni yığışdırır*.) Di gedə bilərsən. (*Yoldaşlarına*) Uşaqlar, bunu salamat ötürün, getsin.

E r m ə n i. Allah səni öz pənahında saxlasın. Tavahqa eləyirəm zəhmət çəkib yoldaşlarınla mənim ğızımın toyuna gələsən.

B ə d ə l. Yox toya gələ bilmərik. Ancaq hər kəs səndən soruşsa ki, bu bir belə pulu sənə kim verdi, deginən Allahqulu oğlu Bədəl.

E r m ə n i. Başığa dönüm, o Bədəl deyilən sənsən? Bəs səni bir yaman ğaniçən adam söyləyirlər?

B ə d ə l. Qan içdiyimi gördün. Di get, nağıl elə.

E r m ə n i. Muraxas olum.

B ə d ə l. Xoş gəldin.

Er m ə n i (*gedə-gedə*). Hər bazar günü sağa dua eləyəcəyəm.

B ə d ə l. Get, nə qədər kefİndir dua elə.

Erməni gedir. Abdulla xan iki nəfərlə daxil olur.

A b d u l l a x a n. Bədəl sənsənmi?

B ə d ə l. Bəli, mənəm. Mənə görə qulluğun nədir, xan?

A b d u l l a x a n. Xahiş edirəm burada səndən və məndən başqa adam qalmasın.

B ə d ə l (y*oldaşlarına*). Kənara çəkilin.

Hamı gedir.

A b d u l l a x a n (adamlarına). Siz də gedin, o yanda məni gözləyin. (*Adamlar gedirlər, Bədələ*) İmdi əyləş söhbət eləyək.

Hər ikisi daş üstündə əyləşirlər.

A b d u l l a x a n. Bilirsənmi mən sənin yanına niyə gəlmişəm?

B ə d ə l. Buyur xan.

A b d u l l a x a n. Buraya gəlməkdən qəsdim, səndən özümə kömək istəməkdir.

B ə d ə l. Xan, mən bir balaca adamam. Beş-on yoldaşla sənə nə kömək verə bilərəm?

A b d u l l a x a n. Sənin igidliyin hər yerdə söylənir. Pərviz xanın əlindən rəiyyəti cana doyub. Hər dəqiqə onun üstünə hücuma hazır-

dırlar. Ancaq başbilənləri yoxdur. Sənin kimi bir igid onların qabağına düşsə, hamısı onun dalınca gedərlər. Odur ki, sənin mənə çox köməyin dəyə bilər. Mənim beş yüzdən ziyada atlım var. Hamısının da sərkərdəliyini sənə verərəm. Sənin ürəyin Pərviz xandan dağlanıb. Mən də gərək onun həftad püştünə od vuram.

B ə d ə l . Sizin aranızda, ədavət olduğunu mən eşitməmişəm.

A b d u l l a x a n . Üç il bundan qabaq o mənə bir yara vurub, hələ də sağalmır.

B ə d ə l . Necə yara?

A b d u l l a x a n . Bu əhvalatı hamı bilir. Mən Abdulla xan olam, hamı bəylərin, xanların yanında mənim hörmətim olsun, amma Pərviz xan mənim köpəyimi öz köpəyinə boğdursun? Mən bu binamusluğu heç vaxt yeyə bilmərəm.

B ə d ə l . Ay xan, iti boğulmaq nə böyük işdir?

A b d u l l a x a n . Sən bilmirsən, oğul. Biz xanların arasında adamın ya iti boğuldu, ya özü, heç təfavütü yoxdur. Mən gərək Pərviz xanın özünü it kimi boğam.

B ə d ə l . Xan, sənin bu təklifin ürəkdəndir, ya dildən?

A b d u l l a x a n . Abdulla xan yalan danışmaz. Mən sənə xalis ürək sözümü dedim. Əlini mənə ver. Sən mənə köməkçi, mən də sənə.

B ə d ə l (*bir az fikir edib).* Al, bu da mənim əlim. Hazıram.

A b d u l l a x a n . Mən gedirəm, hər hazırlığımdan hər vaxt səni xəbərdar edəcəyəm.

Bə d ə l . Çox gözəl, etibar elədiyin adamlardan bir neçəsini dilənçi, ya çərçi sifəti ilə sal Pərviz xanın kəndlərinə, camaatı hazırlasınlar.

A b d u l l a x a n . Gözəl məsləhətdir, elərəm. Salamat qal. (*Əl verir.)*

Bə d ə l . Xoş gəldin, xan. Yaxşı olardı, əyləşəydin bir quzu kəsdirəydim.

A b d u l l a x a n . Çox sağ ol. Sənin mənimlə birləşməyin özü bir böyük qonaqlıqdır. (*Gedir*.)

B ə d ə l (*onu ötürüb qayıdır*). Yoldaşlar, buraya yığılın. (*Yoldaşları cəm olurlar*.) Qardaşlar, az keçər ki, hamımız yenə evlərimizə qayıdıb kasıbçılığımızla məşğul olarıq.

Ş i r i n . Yoxsa, Pərviz xan bizim taqsırımızdan keçib və Abdulla xanı da buraya təvəqqe üçün göndərib?

B ə d ə l. Yox, Abdulla xan bizimlə bir yerdə onun üstünə gedəcək.

Ş i r i n .İnanma, Bədəl. Adam xana inanmaz. Xan xanın ayağını basmaz. Axırda yenə hər nə toxunsa bizə toxunacaq.

B ə d ə l . Yox, elə deyil. Bizim birimizin bacısını çəkiblər, birimizin qızını çəkiblər. Kiminin atasını öldürüblər, kiminin oğlunu atasının gözünün qabağında satıblar. Bunlar çox böyük zülmdür. Amma Abdulla xana dəyən zülm bunların hamısından yamandır.

Y o l d a ş l a r . Nə zülm? Nə zülm?

B ə d ə l . Pərviz xanın köpəyi Abdulla xanın köpəyini boğubdur.

Yoldaşlar gülüşürlər.

Ş i r i n . Doğrudan da böyük zülmdür. Xanın iti boğula, hayfını çıxmaya? Onda gərək xanlığından əl çəksin.

B ə d ə l . Həqiqət, zarafata salmayın, yoldaşlar, xan iti boğulmaq böyük işdir.

Səfi və bir nəfər yoldaşı Mirzə İsmayılla Rəcəb kəndxudanı qolu bağlı gətirirlər.

B ə d ə l . Bəh!.. Bəh!.. Nə gözəl qonaqlarımız gəlirlər! Bu böyüklükdə qurbanları hardan ovladınız?

S ə f i . Doğrusu, axır günlərdə biz sənin üzünə baxa bilmirik. Səni bikef gördükcə ürəyimiz qana dönürdü. Axır fikirləşdik ki, gedib buna bir yaxşı peşkəş gətirək, bəlkə kefi açıla. Gecə, xəlvət gedib girdik kəndə. Uşaqlardan bir neçə nəfər götürüb, gedib Mirzə İsmayılın yatdığı yerdə ağzını bərk bağlayıb, evindən çıxarıb çəkdik xanlıq dəyirmana. Orada qoyub, getdik Rəcəb kəndxudanın üstünə. Birbaş girdik evinə, "kimsən" deyib, qalxan kimi iki tərəfdən tüfəngi dayadıq qabırğasına. Səsini orada kəsdi. Onu da apardıq dəyirmana. Orada hər ikisinin qollarını qıs-qıvraq bağlayıb gətirdik qulluğuna. Bundan sonra bunların ixtiyarı sənin əlindədir. Istərsən öldür, istərsən dirilt.

B ə d ə l . Çox razı oldum sizdən, qardaşlar. Belə qulluğa candan keçmək deyərlər. Həqiqət, dəyərli peşkəş gətiribsiniz. (*Mirzə İsmayıla*) Mirzə İsmayıl! Əhvalın necədir, salamatsanmı?

M i r z ə İ s m a y ı l . Daha mən nə söyləyim, əhvalımın necə olduğunu görürsən.

B ə d ə l . Görürəm, yaxşı görürəm. Bəs bilmirdinmi ki, xan evində yediyin plovu bir gün burnundan tökərlər? Güman edirdin ki, həmişə xan qulluğunda qalıb, yeyib yatacaqsan?

M i r z ə İ s m a y ı l . Ay Bədəl xan...

B ə d ə l . Xan özünsən, hər bir quldura xan deməyə dilin öyrənib. Mənim atamı xana çuğullayıb, boğazından çəkdirəndə, bacımı sürüyüb xanın yatacaq otağına salanda mənə xan demirdin, İmdi nə olubdur?

M i r z ə İ s m a y ı l . Biz ata-babadan xan evində, xan qulluğunda, xan çörəyi ilə böyümüş adamlarıq. Sədaqətlə xanlara xidmət eləmək bizim vəzifəmiz olubdur. Başqa qulluğu nə görmüşük, nə də eşitmişik. Biz rəiyyəti xanın qapısında gəzən dördayaqlıdan ayırmamışıq. Bu taqsır da bizdə deyil. Bizə ata-babadan verilən tərbiyədir.

B ə d ə l . Bəli, sənin sözünü eşitdik. İmdi, Rəcəb kəndxuda, buyur görək sənin üzrün nədir? Bu kişi at-babadan, necə ki, söylədi, xan qulluğunda olub. Xana doğruluqla qulluq eləyir. Sən ki, ay yekəbaş heyvan, kəndli oğlusan, kənddə yeyib, içib böyümüsən, sənə nə düşübdü bu müftəxorlara qoşulub, rəiyyəti xanın ayağına verirdin? Kənddə qız qalmadı çəkib aparıb xana verməyəsən. Kəndin neçə igidlərini güdaza verdin. Tfu sənin sifətinə! İmdi özün de görüm, sənin cəzan nədir?

R ə c ə b k ə n d x u d a . Bədəl, əmioğlu, Qurbanın olum, bir qələtdir eləmişəm. Başımı daşın böyüyünə döymüşəm. Məni Allahqulu əminin goruna bağışla. Burada məni yanında saxla, sənə it kimi qulluq eləyin.

B ə d ə l . Sənin qulluğun mənə lazım deyil. (*Yoldaşlarına*) Çəkin bunu daşın dalına rahat eləyim.

R ə c ə b k ə n d x u d a (*Bədəlin ayaqlarına yıxılır*). Atam, anam sənə

Q u r b a n , Bədəl. Mənim balalarımı yetim qoyma.

B ə d ə l . Sən özün az balalar yetim qoymayıbsan. Sürüyün bunu buradan! (*Rəcəb kəndxudanı sürüyüb aparırlar*.) Mirzə Ismayıl, İmdi sənin axır sözün nədir?

M i r z ə İ s m a y ı l . Mənim bir sözüm yoxdur. Mənim ixtiyarım sənin əlindədir. Öldürmək, ya bağışlamaq səninlədir. *(İki güllə səsi gəlir*.) Xahiş elərsən, sənin yanında qalıb, sədaqətlə xidmət elərəm. Sənə bir savadlı adam lazımdır... Rəcəb kənxudanı aparanlar qayıdırlar.

B ə d ə l . Necə oldu? Yoldaşlardan biri. Sağ-salamat göndərdik ata-babasının yanına.

B ə d ə l . Çox gözəl. (*Mirzə İsmayıla*) Biz öz başımızın çarəsini özümüz eləyəcəyik. Qarnı xanlıq aşpazxanasının qazmağı ilə dolu olanlardan bizə fayda çatmaz. (Y*oldaşlarına*) Uşaqlar, bunu da aparın Rəcəb kəndxudanın yanına. Bunları bir-birindən ayırmaq günahdır.

Mirzə İsmayılı aparırlar.

Q a r o v u l . Yuxarıdan bir nəfər atlı, tərkində bir qız, çaparaq buraya gəlir.

B ə d ə l . Yəqin hər kəs isə, qız götürüb qaçıb, bizə pənahlanmağa gəlir, qoy gəlsin görək. (*İki güllə atılır.)* Bəli, Mirzə Ismayıl da təşrif apardı. İmdi növbət Pərviz xanındır. Qardaşlar, doğrudur, hər yerdə məni igid söyləyirlər, amma İndiyədək heç kəsin nə malına və nə canına qəsd eləməmişəm. Yanımda toyuq başı kəsiləndə üzümü kənara tutmuşam. Amma bu məlunların ölümü mənə ləzzət verir. Qaçaqlardan biri . Niyə, bir oymağın adamları deyilikmi? Səni kim tanımır?

Rəşid , yanında Gülsənəm, daxil olur.

G ü l s ə n ə m . Ölümüm ayağının altında olsun, ay qardaş! Yüz şükürlər olsun ki, səni gəlib sağ-salamat tapdım. (*Özünü Bədəlin üstünə atır.)*

B ə d ə l (*onu qucaqlayır*). Əziz bacım, xoş gəldin. Daha mənim bir qeydim qalmadı. Bəs bu səni gətirən oğlan kİmdir?

Rə ş i d . Mən Pərviz xanın pişxidmətlərindənəm. Adım Rəşiddir. Bu qızı gətirdilər xanın evinə. Baxdım ki, hərəmlər bunu, gözəlliyinə görə, öldürəcəklər. Doğrusu, mən özüm kəndli balasıyam, bir kəndli qızının mənim gözümün qabağında öldürülməsini namusum götürmədi. Bunu qapıda görüb dedim, bacı, sən buradan qaçmasan, səni öldürəcəklər. Gəl mən səni qaçırım. Qız razı oldu. Pərviz xanın atlarının bir yaxşısını yəhərləyib, minib, bunu da tərkimə alıb qaçdım. Hara qaçdığımı özüm də bilmirdim. Kəndbəkənd gəzib orada, burada gizləndik. Sonra sənin Rəhim xanın yanından yoldaşlarınla qaçdığın xəbəri yayıldı. Bu ağlayıb özünü öldürdü ki, gərək məni qardaşıma yetirəsən. Budur, mən də gətirdim.

B ə d ə l . Çox razıyam, qardaşım. Adın Rəşiddir, yəqin özün də Rəşid sən.

R ə ş i d . İzin olsa, mən də həmişəlik burada, sizin yanınızda qalaram.

B ə d ə l . Çox yaxşı olar. Qardaş, sənin bu yaxşılığın əvəzində sənə bir layiqli ənam verəcəyəm. Onu da Pərviz xanın nəşinin üstündə alacaqsan. Yoldaşlar, buraya yığılın! (*Yoldaşlar cəm olurlar*.) Yoldaşlar daha biz burada qala bilmərik. Pərviz xan, Mirzə İsmayılın və Rəcəb kəndxudanın oğurlandığını eşidib, yəqin gəlib kəndi dağıdacaq. Ona görə gərək özümüzü kəndin köməyinə yetirək. Kənd və bizim gəlmə-

yimizi gözləyir. Hazırlaşın, qaranlıq düşən tək gərək buradan tərpənək. (*Rəşidi göstərir*). Bu oğlan da ki, mənim bacımı əsirlikdən qurtarıb, bizim yoldaşımız və qardaşımız olacaq. Az keçər, qardaşlar, Pərviz xan xaraba qoyduğu yerlərdə abadlıq görərsiniz. Camaatımız xan caynağından qurtarıb öz əlinin əməyini rahat yeyib yaşayar. İmdisə, yoldaşlar, bir qədər kef çəkməyin eybi yoxdur. Bir az çalıb-oynayıb yola düşərik.

Balaban çalınır. Cavanlar oynayırlar.

PƏRDƏ

DÖRDÜNCÜ PƏRDƏ

Pərviz xanın sarayı. Böyük, şeyləri dağınıq bir otaq. Xacələr otağın şeylərini dişarı çıxardırlar. Pərviz xan, əlində tüfəng, əsəbi halətdə otaqda gəzinir. Sadıq bəy daxil olur.

P ə r v i z x a n . De görüm, nə xəbər var?

S a d ı q b ə y . Nə xəbər olacaq?! Abdulla xan xanlıq qoruqda çadırlarını qurub əyləşib. Xanlığın hər yerindən də ona kömək gəlməkdədir.

P ə r v i z x a n . Mənim öz camaatım mənim üzümə ağ olub, düşmənimə kömək verir. Heydərxanlı atlıları gərək bu gün özlərini buraya yetirələr. Oradan da bir xəbər yoxdur. Mirzə İsmayıl, bilmirəm, hansı cəhənnəmə gedibdir. Budur, bir həftədir ondan kağız yoxdur. Hətta Abdulla xanın mənim üstümə yerimək xəbərini eşidən tək Mirzə Ismayılın üstünə çapar göndərmişəm. O da İndiyədək qayıtmayıb. Nə qədər fikir edirəmsə, bir şey anlaya bilmirəm. Çıx əmr ver, təzədən Heydərxanlıya bir çapar göndərsinlər. Bəlkə Abdulla xanla bizim danışığımız qurtarınca atlılar özlərini yetirələr.

S a d ı q b ə y . Xan, Heydərxanlıya çapar göndərməyin faydası yoxdur, göndərsək də gedib gəlməyəcək.

P ə r v i z x a n . Bu nə sözdür? Nə demək istəyirsən? Mənimlə açıq danış.

S a d ı q b ə y . Bağışlayın, xan. Biz ancaq iki yüz nəfər atlı cəm edə bilmişik. Onlara da artıq ümid bağlamaq olmaz. Bərkə düşəndə hamısı üz döndərəcəklər. Rəhim xana satdığınız Bədəl Allahqulu oğlu bu saat yoldaşları ilə bir yerdə əyləşib Heydərxanlıda. Tamam kənd əhli də yaraqlı, əsləhəli onun buyruqlarına itaət eləməkdədirlər.

P ə r v i z x a n . Bəs Mirzə İsmayıl niyə İmdiyədək mənə bir məlumat vermir? Mən bu əhvalatı bilsəydim, Abdulla xanla özgə dillə danışardım.

S a d ı q b ə y . Xan, Heydərxanlıda bu saat nə Mirzə İsmayıl və nə də Rəcəb kəndxuda var.

P ə r v i z x a n . Necə olublar?

S a d ı q b ə y . Onların hər ikisini, gecə yatdıqları yerdə, Bədəlin adamları oğurlayıblar və yəqin ki, öldürüblər.

P ə r v i z x a n . Bəs bu xəbəri indiyədək mənə niyə gətirməyiblər?

S a d ı q b ə y . Kim gətirəcək? Heydərxanlıdan buraya bir nəfər gəlmir. Siz göndərən adamları da öldürməyiblərsə də, tutub kənddə saxlayıblar.

P ə r v i z x a n (*bir qədər fikirdən sonra*). Deyirsən iki yüz atlın var?

S a d ı q b ə y . Bəli, ancaq toplamaq mümkün oldu.

P ə r v i z x a n . Rəhim xandan da neçə gündür bir xəbər yoxdur. Onun atlıları bu günədək gərək burada olaydılar.

S a d ı q b ə y . Xan, məgər Rəhim xan sizə kömək göndərər?

P ə r v i z x a n . Necə göndərməz? Bəs niyə Rəhim xan Xudayar xanla dava eləyəndə mən ona üç yüz nəfər Heydərxanlı atlısı göndərdim? Və onların köməkliyi ilə Rəhim xan qalib gəldi.

S a d ı q b ə y . Özünüz bir fikir edin? Rəhim xana on beş nəfər Heydərxanlı cavanlarından satdınız. Onlar da Rəhim xandan aldıqları silahları götürüb, onun mal-qoyununu da qabaqlarına salıb, dağlara çəkildilər və quldurluğa qurşandılar. Qızınızı Rəhim xanın oğluna verməyi vədə etdiniz, o da baş tutmadı. Bundan sonra Rəhim xan sizə köməkmi verər?

P ə r v i z x a n . Məgər Rəhim xan anlamırmı ki, Abdulla xan məni məğlub eləyəndən sonra güclənib, Rəhim xanı da rahat qoymayacaq. Rəhim xan öz canını saxlamaqdan ötrü gərək mənə kömək versin.

S a d ı q b ə y . R ə h i m xanın Abdulla xanla bir ədavəti yoxdur. Hələ, necə ki, sizə məlumdur, aralarında qohumluq da var. Rəhim xanın qızı Abdulla xanın oğlundadır. Əlavə, lazım olan vaxt Rəhim xan İrandan kömək də ala bilər. Bunun üçün ancaq İran şahlarının təhti-himayələrinə keçmək lazımdır.

P ə r v i z x a n . Məgər mən də bu yolla kömək ala bilmərəm?

S a d ı q b ə y . Gecdir, xan. Düşmən ətrafı bürüyüb, hətta sizə qaçmaq yolu da qoymayıblar.

P ə r v i z x a n . Onda sən mənə bir məsləhət tök. İşdən çıxmış, neçə belə çətinliklərə düşmüş adamsan.

S a d ı q b ə y . Məsləhət yolu qalmayıbdır. Xan, ya gərək Abdulla xanın istədiyini verəsiniz, ya onunla davaya girişəsiniz.

P ə r v i z x a n . Abdulla xanın təklifi məgər eşidiləsidir? O məndən xalqımın yarısını və on min qızıl pul tələb eləyir. Mən də cavabında ona məktub göndərib yazmışam ki, biz xırda xanların hamısının başlarının üstündə İran kimi böyük bir düşmən durubdur. Onun müqabilində biz ancaq birləşməklə davam gətirə bilərik. Bizim aramızda ədavət olarsa, təklikdə bizi asanlıqla yox eləyərlər. Bunu yazandan sonra ona on beş kənd və iki min də qızıl təklif eləmişəm. İmdi cavab gözləyirəm. Yəqin təklifimi qəbul eləyəcək. Ondan sonra, mən bilirəm üz döndərən, nəməkbəhəram kəndlilərin başlarına nə müsibət gətirəcəyəm. Sən daha get qoşunlarının yanına. Hər halda bizə hazırlıq lazımdır. (*Sadıq bəy gedir. Pərviz xan, başını tutmuş, otaqda gəzinir. Qasid daxil olur.*) Hə, nə xəbər gətirdin?

Q a s i d . Xan sağ olsun, Abdulla xan kağızı oxuyandan sonra sərkərdələrini yığıb məsləhət elədi. Sonra məni çağırıb buyurdu ki, Pərviz xanla daha heç bir danışığa girməyəcəyəm. Hətta ondan istədiyimi də versə qəbul eləməyəcəyəm. Mən gərək onun bütün xanlığına sahiblənim. Heydərxanlı Allahqulu oğlu Bədəl də neçə yüz atlı ilə oradadır. Məni kənara çağırıb dedi, gedib xanına deyərsən, Abdulla xanla barışsa da işi mənimlə olacaq və Abdulla xanı onunla barışmağa da mən qoymuram.

P ə r v i z x a n . Çıx, cəld Sadıq bəyi geri döndər. (*Qasid çıxır. Pərviz xan başını tutmuş halda otaqda gəzinir və tez-tez gedib pəncərədən baxır. Sadıq bəy daxil olur.*) Sənə məlum etməliyəm ki, bizim müharibədən savayı başqa yolumuz qalmayıbdır. Abdulla xan bizim təklifimizi rədd eləyibdir. Əgər Abdulla xanın qoşununa faiq gəlsəniz, məndən istədiyi on min qızılı sənə və sənin sərkərdə yoldaşlarına vədə eləyirəm. Get, qardaşım.

S a d ı q b ə y . Biz davaya hazırıq və dava da eləyəcəyik. Ancaq Abdulla xanın qoşunu beş bizimki qədərdir.

P ə r v i z x a n . Səngərlərinizi bacardıqca möhkəm edin. Atlılara mümkün olduqca ürək verin və mənim tərəfimdən onlara yaxşı ənamlar və xələtlər vədə eləyin.

S a d ı q b ə y . Baş üstə, xan. Əlimizdən gələn qədər çalışacağıq. Daha mən gedim.

P ə r v i z x a n . Get, qardaşım, get, oğlum.

Sadıq bəy gedir. Xan divanəvarı gəzinir.

B a ş h ə r ə m (*sabiq ikinci hərəm, daxil olur*). Əzizim xan, bu nə işdir? Deyirlər bu saat Abdulla xanla dava başlayırsan?

P ə r v i z x a n . Bəli, başlayıram, sənlik nə var?

B a ş h ə r ə m . Məgər heç hərəmxananın fikrini çəkməyibsən? Bəs biz haraya qaçacağıq?

P ə r v i z x a n . Siz qaçacaqsınız cəhənnəmə, gora! Nə bilim haraya qaçacaqsınız? Mənim başıma gələn müsibətlərin hamısının səbəbi sən məlunsan!

B a ş h ə r ə m . Dahı gör nə var? Mən niyə səbəb oluram? Mən nə eləmişəm?

P ə r v i z x a n . Daha nə eləyəcəksən? Baş hərəm olmaq üçün mənə öz arvadımı öldürtdün. Öz əlimlə qızımı divar arasına qoyub hördürdüm. İmdi mənim qızım Rəhim xanın evində olsaydı, Abdulla xan heç vaxt mənim üstümə ayaq almağa cürət eləməzdi.

B a ş h ə r ə m . Qızıyın aşnabazlıq elədiyini mən ki, sənə yalandan demədim. Arvadıyın Rəşidlə öpüşdüyü gözünlə görmədinmi?

P ə r v i z x a n . Gördüm, gözümlə gördüm. Məgər mənim hərəmxanamda bir salamat arvad var? Hamınız fahişəsiniz. Bu saat sənin başını öz əlimlə kəsəcəyəm, məlun! (*Boğazından yapışıb yıxır yerə, xəncəri çəkir.)*

B a ş h ə r ə m . Ay haray, ay aman, qoymayın!

H ü s e y n (*cəld daxil olub, xanı itələyir*). Kənar ol!

P ə r v i z x a n . Sən nəçisən? Nə ixtiyarla buraya daxil oldun?

H ü s e y n. Mənim gözümün qabağında heç kəs sevgilimi öldürə bilməz!

P ə r v i z x a n . Nə söyləyirsən, namərbut? Kimdir sənin sevgilin?

B a ş h ə r ə m . Sevgilisi mənəm, mən! Sən hərəmxananı arvadla doldurub, hamısını yoxsa itaətdə bilirsən? (*Hüseynə qısılır.*)

P ə r v i z x a n . İkinizi də burada parça-parça eləyəcəyəm. Nacinslər, nəməkbəhəramlar! *(İstəyir üstlərinə getsin, Hüseyn onu itələyib yıxır, baş hərəmlə otaqdan çıxır. Xan, əlində xəncər, onların dalınca yüyürür. Atışma başlanır, nökər xanı gətirir otağa.)*

N ö k ə r . Xan sağ olsun, hər tərəfdən güllə dolu kimi yağır. Özünü xataya toxuma. Əyləş otaqda. Biz, nə qədər canımız var, dava edəcəyik.

P ə r v i z x a n . Getmə, dayan burada mənim yanımda, getmə. *(Özünü taxtın üstünə yıxıb, gözləri böyümüş halda o yan-bu yana baxır. Atışma getdikcə artır və yavuqlaşır.)*

S ə r k ə r d ə (*daxil olur*). Xan sağ olsun, qoşun davam gətirə bilmir. Abdulla xanın atlıları dolublar kəndə və xanlıq tikililərinə od qoyublar. Od gəldikcə saraya yavuqlaşmaqdadır. Buradan sizin yayınmağınız lazımdır. (*Çıxır.*)

P ə r v i z x a n . Mən xan deyiləm, heç zad deyiləm. Mən yırtıcı köpəyəm, canavaram, cəlladam! Ayağımı buradan bir qədəm də kənara qoymayıb, ölüncə qalacağam. (*Nökərə*) Tüfəngi doldur, buraya ver. (*Nökər tüfəngi sümbə ilə lüləsindən doldurub verir. Xan atır.*) Ölməkdən qabaq bu məlunlardan gərək bir neçəsini cəhənnəmə göndərim. *(Xan bir tüfəngi tuşlayıb atınca, nökər o biri tüfəngi doldurub hazır edir.)* O biri tüfəngi ver buraya! (*Atır.*) Al, bunu doldur. Bax, o atlını gözlə. (*Atır.*) Gör atdan necə də dəydi yerə. Al bunu, o birisini ver. (*Atır.*) Bu da birisi. Afərin, Pərviz xan! Bu da biri.

Atışma daha da şiddət eləyir. Xan güllə atmaqda davam edir. Alov evi əhatə edir. Pəncərədən bir güllə nökərə dəyir. Nökər yıxılır. Xan qəfəsə düşmüş vəhşi heyvan tək özünü o yan-bu yana çırpır. Bədəl və Rəşid daxil olurlar.

P ə r v i z x a n . Sən kimsən?

B ə d ə l . Xan sağ olsun, yoxsa tanımırsan?

P ə r v i z x a n (*divanəvarı*). Yox, tanımıram!

B ə d ə l . Mən boğazından asdırdığın Allahqulunun oğlu, zorla çəkdirib apardığın Gülsənəmin qardaşı, Rəhim xana yüz əlli qızıla satdığın Bədələm.

P ə r v i z x a n . Sən nə ixtiyarla öz xanının üstünə gəlirsən?

B ə d ə l . Nə ixtiyarla? Bu ixtiyarla! (*Güllə ilə vurur. Xan yıxılır.*) Daha ürəyimdə dərdim qalmadı. Axırıncı hayıfı aldım. (*Ayağını qoyur xanın bədəninin üstünə*). Rəşid , yavuğa gəl. Mən bu xanın nəşinin üstündə sənə bir xələt vəd eləmişdim. Bu peşkəs mənim bacımdır ki, burada sənə verirəm.

R ə ş i d . Çox gözəl, bu mənim ürəyimdən keçən peşkəşdir. Gəl qardaş, bu fəthdən sonra bir şirin öpüşək.

Qucaqlaşıb öpüşürlər.

PƏRDƏ

BABA YURDUNDA

Beş pərdədə

İŞTİRAK EDƏNLƏR:

C a h a n g i r a ğ a –	iyirminci əsrin əvvəlində, Pərviz xan nəslindən bir mülkədar, otuz beş yaşında
E h s a n x a n –	qoca mülkədar, Cahangir ağanın mülk qonşusu
N a m a z –	Cahangir ağanın darğası
G ü l n i s ə	} kənd qızları
B a l a q ı z	} kənd qızları
H ə s ə n –	Gülnisənin atası
T u b u –	Həsənin arvadı
S a d ı q	} kəndli
H ə z r ə t q u l u	} kəndli
Ş a h m a r b ə y -	pristav
Aşıq Cəfər –	saz aşığı
I s k ə n d ə r z a d ə –	dairə icraiyyə komitəsi sədri
M i r z ə S ə m ə d –	katib

Kəndlilər, şikayətçilər, qadın, yasovul,yüzbaşı, toybaşı, fərraş, mirab,milisioner və s.

BİRİNCİ PƏRDƏ

Cahangir ağanın evinin qabağında bir bağça. Neçə nəfər fəhlə işləyir. Arvadlar, qızlar alaq edirlər.

G ü l n i s ə (*Balaqıza*). A Balaqız, daha mən sabahdan buraya işləməyə gəlməyəcəyəm.

B a l a q ı z . Niyə gəlməyəcəksən? Gündə dörd abbası pul alırsan, az ki deyil.

G ü l n i s ə . Dörd abbasını mənə harada işləsəm verərlər.

B a l a q ı z . İmdi ki elədir, daha niyə gedib qapılarda işləyəsən? Öz evinin içində öz ağamıza işlə.

G ü l n i s ə . Yox, iş onda deyil.

B a l a q ı z . Bəs nədədir?

G ü l n i s ə . Doğrusu, mən ağadan qorxuram.

B a l a q ı z . Niyə qorxursan? Ağa ki, səni tutub yeməyəcək.

G ü l n i s ə . Danışanda adamın gözünün içinə bir tövrlə baxır ki, az qalır adamın bağrı yarılsın. Hərdənbir ondan elə sözlər eşidirəm ki, heç anadan olandan eşitməmişəm, lap qulaqlarım taqqıldayır.

B a l a q ı z . Özgə ağalar da bunun kimi. Ağalar, bəylər hamısı bir cürdür. Bir düzgün qız sifəti görəndə ağızlarının suyu axır.

G ü l n i s ə . Məndə düzgün sifət nə gəzir, ağaların xoşuna gələ?

B a l a q ı z . Nahaq yerə özünü mazata qoyma. Bu kənddə səndən gözəl kim var ki? Kəndin oğlanları hamısı səndən ötrü divanədirlər. Bax, o qıraqda işləyən Sadığı görürsən? Budur, iki ildir sənin dalınca sürünür. Elə bilirsən heç kəsin xəbəri yoxdur? Səfi oğlu İskəndər gecələr səhərədək sizin doqqazda bayatı çağırır. Heç nahaq yerə ağzını yorma. Bilirəm, sənin də onda könlün var. Nə olar? Yaxşı oğlandır. Çox mübarək olsun. Atayın deyəsən ondan xoşu var.

G ü l n i s ə . Atamın çox da xoşu olsun, mənim onda (*barmağının ucunu göstərir*) heç bircə belə də könlüm yoxdur. Qoy boğazı yırtılınca bayatı çağırsın.

B a l a q ı z . Bilirəm, bilirəm! Özünü faqqılığa vurma. O günü qızlar nağıl eləyirdilər ki, sən bulaqda su dolduran vaxt İskəndər səni gendən alma ilə vurub. Sən də dönüb baxıb gülübsən. Sonradan o yan-bu yana göz gəzdirib, görübsən ki, baxan yoxdur, almanı yavaşcadan götürüb cibinə qoyubsan.

G ü l n i s ə . Yalandır, atamın canı üçün yalandır. Üstümə nahaqdan şər atırlar. Qadam onun almasına da, özünə də.

B a l a q ı z . Yalan deyil. Nahaq yerə and içmə. Doğrudur, bir də üstündən. Gözləri ilə görənlər deyiblər.

G ü l n i s ə . İmdi ki belədir, yaxşı eləyirəm. Əlimin içindən gəlir. Əvvəl-axır bir qız bir oğlanındır. Atam evində qalıb un çuvalına tay olmayacağam ki?!

Cahangir ağa içəridən çıxır. Qızlar danışığı kəsirlər.

C a h a n g i r a ğ a . Namaz! Namaz! (*Çağırır.*)

N a m a z (*kənardan*). Bəli, ağa.

C a h a n g i r a ğ a . Bu axşam uşaqlardan bir-iki nəfər göndər, gedib suyun başını pambığa sarı çevirsinlər. Pambıq yanır, heç kəsin xəbəri yoxdur.

N a m a z . Çox yaxşı xəbərim var, ağa. Ancaq iki gün Cəbrayıl kişiyə axacaq, ondan sonra növbət bizim pambığa düşəcək.

C a h a n g i r a ğ a . Cəbrayıl kişi qələt eləyir. Onun yarım desyatin pambığı yanacaq deyə mən özümə otuz min ziyan vura bilmərəm ki. Nə tövr deyirəm, elə də elə.

N a m a z . Baş üstə, ağa.

C a h a n g i r a ğ a . Uzaqdan niyə danışırsan? Yavuğa gəl görüm. (*Namaz yavuğa gəlir*.) Gədələrin çörəkləri qurtarıb. Dəyirmana yarım çuval darı, yarım çuval arpa göndər, üyüdüb gətirsinlər. Yoxsa axşam uşaqlar ac qalarlar.

N a m a z . Baş üstə.

C a h a n g i r a ğ a . Arvadına da tapşır, yağ çalxayandan sonra ayranını çürüdüb şor qayırsan a... Səhər uşaqlar çörəklərinə yavanlıq eləsinlər.

N a m a z . Baş üstə, ağa.

C a h a n g i r a ğ a . Ova gedən uşaqlar bir şey vura biliblərmi?

N a m a z . Bəli, ağa, iki qırqovul, bir turac, bir dənə də dovşan vurublar.

C a h a n g i r a ğ a . Xub, dovşanı ver özləri bişirib yesinlər. Turacı ver kabab eləyib axşam plovun yanına qoysunlar. Qırqovulları da bir adamnan pristava göndərərsən.

N a m a z . Ağa, pristav səhər buradan Xocabəhmənliyə adlayıb və deyibdir ki, qayıdan baş Cahangir ağa ilə görüşəcəyəm. Qırqovulları da qayıdanda yasavuluna verərəm.

C a h a n g i r a ğ a . Xocabəhmənlidə görəsən nə ittifaq olub? Qanzad düşməmiş ola. Olsaydı, biz bilərdik. Gərək ki, camaat zorla bəyin yerini əkib. Pristav da bəyin harayına gedib. Qayıdanda özündən soruşaram, nağıl elər. Camaat getdikcə xarablaşır. Gədə-güdəni dİndirmək də olmur. Namaz, bir buraya gəl. (*Çəkir səhnənin qabağına*.) Heç görürsən bu Həsən kişinin qızı Gülnisə nə maldır?! Dünyanın xəracına dəyər.

N a m a z . Nə çarə eləməli, ay ağa? Armudun yaxşısını meşədə ayı yeyər. Səfi oğlu İskəndər bu qıza bənddir. Həsən kişinin də yedəyini əldən qoymur. Həsən kişinin də deyəsən qızı ona verməyə könlü var. Odur, yenə ikisi bir yerdə gəlirlər.

Həsən və İskəndər, əllərində şana, gəlib salam verib keçmək istəyirlər.

C a h a n g i r a ğ a . A Həsən, axır deyəsən bu İskəndərlə çox dostsan?

H ə s ə n. Neyləyim, ay ağa? Oğulsuz gərək özünə oğul axtarsın. İskəndər də mənim oğlum olub. Cüt əkirəm, öküzlərin qabağınca gedir, xırman döyəndə, yenə kömək eləyir. Taxılı putqa qayırır, sovurur... Yaxşı oğlandı, ömrü uzun olsun.

C a h a n g i r a ğ a . Deməli, İskəndəri özünə oğul eləmək istəyirsən? Çox mübarəkdir! Toyunu da özüm eləyəcəyəm.

H ə s ə n. Şəfaətin artıq olsun. Kölgən bizim üstümüzdən əskik olmasın. Eləsən də sağ ol, eləməsən də.

C a h a n g i r a ğ a . Yox, yox!.. İskəndər yaxşı oğlandır, qulluqdar oğlandır.

H ə s ə n. Öz nökərindir. Mürəxxəs olaq qulluğundan.

C a h a n g i r a ğ a . Xoş gəldiniz. (*Həsən və İskəndər gedirlər. Namaza*.) Heç insafdır ki, belə məlaikə kimi qızı əldən buraxım? Keçmiş zamanlar olsaydı, asandı, çəkib aparardım evə, heç kəsin də ağzını açıb danışmağa həddi olmazdı. İmdi zəmanə başqadır, zakon başqadır. Eləmək olmaz. Kəndlilərin gözəl qızları hamısı mənim babalarımın malları idi. Amma biz gendən baxıb ağzımızın suyunu uduruq.

N a m a z . Ağa, istəsən H ə s ə n kişinin qızı yenə sənin ola bilər, birçətin iş deyil.

C a h a n g i r a ğ a . Necə ola bilər? Mən gedim rəiyyətimin nişanlısını əlindən alım? Bu yaramaz. Bir özgə yol da bilmirəm.

N a m a z . Ayrı yol, bir təhərlə İskəndəri aradan çıxartmaq. Sonra iş asandır.

C a h a n g i r a ğ a . Onu mən də fikir eləyirəm. Ancaq necə eləməli ki, üstü açılmasın?

N a m a z O mənim əlimdə.

C a h a n g i r a ğ a . Yəqin?

N a m a z . Yəqin.

C a h a n g i r a ğ a . Bəşərti, mənim adıma ləkə toxunmaya.

N a m a z . Dərə işi mənim əlimdə, divan işi sənin. Pristavla dostsan, silistçi ilə dostsan. Onlar səni heç kəsin ayağına verməzlər. Heç sənin adını da çəkən olmaz. Sən yayın get evə, işin axırını gözlə. Mən Namaz deyiləm, əgər Gülnisə sənin olmasa.

C a h a n g i r a ğ a. Mən getdim, xələtin də gözümün üstündə. (*Gedir*.)

N a m a z (*kənarda işləyən kəndlini çağırır*). Sadıq! Sadıq!

S a d ı q . Nə deyirsən, Namaz əmi?

N a m a z . Gəl, dəyirmana bir az arpa ilə darı apar, üyüt gətir. Axşam yemək istəyəcəksiniz.

S a d ı q (*yavuğa gəlir*). Dəni dəyirmana nədə aparacağam?

N a m a z . Həmişə nədə aparıbsan, yenə onda. Öküzləri qoş arabaya, dəni at arabanın üstünə, sür apar... Bir yavuğa gəl, bir söz də deyəcəyəm sənə.

S a d ı q (gəlir onun yanına). Nə söz deyəcəksən?

N a m a z . H ə s ə nlə İskəndərin buradan keçdiklərini gördün?

S a d ı q . Gördüm.

N a m a z . Gördün necə mehriban gedirdilər? Həsən Gülnisəni ona vermək istəyir. Payız düşən kimi də toyunu eləyəcək.

S a d ı q . Elə iş ola bilməz, Namaz əmi! Mən dünyanı dağıdıram. Özümü öldürərəm ki, o qızı qoymaram başqa adam aparsın.

N a m a z . Sənin namuslu oğlan olduğunu bütün aləm bilir. Hamıya da məlumdur ki, budur, iki ildir sən Gülnisəni istəyirsən. Əgər mən səni oğlumdan artıq istəmirəmsə, Yezidə gələn lənət mənim canıma gəlsin. Doğrusu, bu işi mənim də namusum götürmür.

S a d ı q . Qızın anası mənim anama söz veribdir. İmdi necə qızı özgə adama verə bilərlər? Yoxsa mənim dəli cinimdən xəbərləri yoxdur?

N a m a z . Anası çox da söz verib. Həsən kişi arvadın ağzına baxacaq? İmdi gül kimi qızı götürüb verəcək İskəndər kimi itin birinə. O da papağını qiyğac qoyub sənin qabağında gəzəcək. Sən də ondan sonra adını kişi qoyub, tay-tuş arasında gəzəcəksən.

S a d ı q . Onda mən atamın oğlu olmaram, ona bir elə güllə vurmayam ki, toyuq kimi partlamasın!

N a m a z . Qız əldən çıxandan sonra İskəndərə otuz güllə vur, nə faydası? Bu saat Həsən özü ağaya dedi ki, İskəndəri oğulluğa götürmüşəm. Yəni ki, qızımı ona verəcəyəm. Doğrusu, mən yenə deyirəm, bu işləri mənim namusum götürmür. Nə deyim?! Sənin yerinə mən olaydım... Bu saat o kafir oğlu İskəndərin qabırğasına bir şax güllə çaxardım. İskəndər qızı alandan sonra gərək daha sən kəndin arasında görünməyib, başını alıb gedəsən.

S a d ı q . Nə olub qürbətə gedim? Heç getmərəm, bir də üstündən, elə bu saat onun atasını yandıraram.

N a m a z Bax, belə danış, qoçaq oğlum! İmdi görürəm sən Aslan kişinin aslan oğlusan. Əlindən gələni əsirgəmə. Cahangir ağa kimi kişinin nökərinə kimin ağzıdır güldən ağır söz deyə bilsin?! Qanı arada gedər. Gülnisə də olar sənin halal malın.

S a d ı q . Yəqin İskəndər bu saat Həsən kişinin qapısında ot tayalayır.

H ə s ə n kişinin həyəti, ağalıq damın üstündən apaçıq görünür. Çıxıb oradan onu tuşlayıb elə vurram ki, ağzını bircə dəfə açıb yumar.

N a m a z . Onda daha dayanmaq yeri deyil.

S a d ı q . Namaz əmi, tüfəng haradadır?

N a m a z . Damda, divardan asılıdır. Özü də dolu. (*Sadıq yüyürür. Namaz onun dalınca ucadan*). Arpa da, darı da anbardadır. Hər birindən yarım çuval ölç, apar dəyirmana.

S a d ı q . Baş üstə. (*Gedir.*)

Cahangir ağa pəncərədən baxıb, əhvalatın hamısını görür, Sadıq gedəndən sonra, çıxır eşiyə.

C a h a n g i r a ğ a . Namaz, deyəsən şeytan işi tutdun.

N a m a z . Ağasına doğruluqla qulluq eləyən, şeytanın atasının da işini tutar. İndicə iş tamam olar.

N ö k ə r (*yüyürərək gəlir*). Pristav bu saat atdan düşdü, gəlir buraya.

C a h a n g i r a ğ a . Gəlsin.

Cahangir ağa qabağa gedir. Bağçada işləyənlər qalxırlar ayağa. Camaat pristavın gəldiyini görüb, ordan-buradan həyətə yığışırlar.

C a h a n g i r a ğ a (*pristava*). Şahmar bəy, sübh buradan ötüb getdiyinizi eşitdim. Nə vaqe olmuşdu ki, yol üstündən dönüb bir-iki rumka konyak da içmədiniz?

Ş a h m a r b ə y . Eybi yoxdur, əvəzini İmdi çıxaram. Yorulmuşam, istəyirəm bu gecə sizdə qonaq qalım.

C a h a n g i r a ğ a . Bu, əvəzsiz iş oldu. Bəxtinizdən uşaqlar bu gün iki dənə qırqovul vurublar. Axşam plovun başına qoyarıq.

Ş a h m a r b ə y . Cahangir ağa, mən gəlməsəydim, yəqin qırqovulları tək yeyəcəkdiniz, belə dostluq olmaz.

C a h a n g i r a ğ a . Sizin canınız üçün, ikisini də sizə göndərəcəkdim. Namaza da tapşırmışdım. Namaz xəbər gətirdi ki, sübh gəlib buradan ötübsünüz və sifariş də eləyibsiniz ki, qayıdan baş buraya dönəcəksiniz. O səbəbə saxladım ki, özünüzlə aparasınız. İmdi ki burada qalmalı oldunuz, daha yaxşı, qırqovulları şərakətli yeyərik. (*Çağırır.*) Namaz!

N a m a z . Bəli ağa!

C a h a n g i r a ğ a. Deginən Şahmar bəyin yasovullarına bir doğlu versinlər, özləri kəsib nə kefləri istəsə bişirsinlər.

N a m a z . Baş üstə. (*Gedir.*)

C a h a n g i r a ğ a (nökərə). Ay gədə, get içəridən iki dənə kürsü gətir.

(*Nökər gedir.*) Şahmar bəy, Xocabəhmənliyə getməkdə xeyir idimi?

Ş a h m a r b ə y . Əjdər bəy kağız yazmışdı ki, camaat mədaxil vermək istəmir, əlbət özünü mənə yetirəsən. Onun üçün getmişdim.

C a h a n g i r a ğ a . Bu nə əhvalatdır?

Şahmar bəy. Boş işdir. Bu əyyamın cavanlarına Allah insaf versin. Həm hökuməti rahat qoymurlar, həm də öz evlərini yıxırlar. Bir nəfər cavan oğlan Moskvadanmı, haradanmı gəlib, camaata deyir ki, nə haqla bəy gedib evində ayaqlarını uzadıb yatır, siz də işləyib yığdığınızı aparıb ona verirsiniz? *(Nökər iki ədəd kürsü gətirib qoyur. Cahangir ağa, pristav əyləşir*.) Deyir, bəyin nəyi sizdən artıqdır, canı çıxsın, bəy də gəlsin sizin kimi işləsin. Camaat da onun sözünə inanıb, bəyin darğasını döyüb qovublar. Kəndə gedib haman oğlanı çağırıb ona dedim: "Oğlum, sən zəhmət çəkib oxuyursan ki, axırda bir çörək yiyəsi, ya rütbə yiyəsi olasan. İmdi mən səni tutub hökumətə versəm, bilirsənmi sənə nə elər?". Birdən başını qalxızıb görün mənə nə deyir: "Mən elədiyimi çox yaxşı anlayaram. Hökumət əlinə də keçsəm, bilirəm mənə nə eləyəcəklər. Təvəqqe edirəm bu nəsihətləri öz qulluğunuzda saxlayasınız və nə qədər də mən ac qalsam, sizin qapınıza gəlməyəcəyəm".

C a h a n g i r a ğ a . Axmaq oğlu axmağın bihəyalığını görürsən?

Ş a h m a r b ə y . Mən ömrümdə belə bihəya görməmişəm. Doğrusu, bir istədim buraxım çıxsın getsin, dedim, uşaqdır, anlamır. Ancaq daha belə danışmaqdan sonra, labüd qalıb, qollarını bağlayıb, göndərdim şəhərə naçalnikin ixtiyarına. Yolda deyirmiş ki: "Az keçməz, pristavın da qolunu ha belə bağlarlar".

C a h a n g i r a ğ a . Yox, zəmanə tamam dönüb.

Ş a h m a r b ə y . Onu şəhərə göndərəndən sonra, kəndin neçə nəfər ağsaqqallarından qarın-qarına sarıtlayıb, ağılları başlarına gəlincə döydürdüm. Söz verdilər ki, ağanın mədaxili üç gün ərzində çatar.

Güllə açılır pristav diksinir.

C a h a n g i r a ğ a . Namaz, o nə tüfəng səsidir? Gör tüfəng atan kimdir? Zalım uşaqlarına min dəfə tapşırmışam ki, kənd içində tüfəng atmasınlar. Gedib adama, ya heyvana dəyər, peşmançılığı olar.

Namaz gedir.

Y a s a v u l . Tüfəng ağalıq damın üstündən atıldı.

Ş a h m a r b ə y *(yasavula*). Uşaqlara xəbər ver, evi əhatə eləsinlər. Güllə atan məlunu da hər kəs isə, gətirsinlər buraya. (*Yasavul gedir. Namaz qayıdır.)*

C a h a n g i r a ğ a . Namaz, atılan güllə idi?

N a m a z . Deyəsən, güllə H ə s ə n kişinin qapısında bir adama dəyib. Oradan qışqırıq səsi gəlir. Arvad-uşaq da hər yerdən oraya yüyürüşür.

G ü l n i s ə (*birdən qışqırır*). Oy!.. Onu vurdular! Aman, aman! (*Yıxılır. Balaqız onu saxlayır*.)

B a l a q ı z . Qışqırma, ay qız, ayıbdır, ağa baxır. Kim bilir, ölən kimdir. Bəlkə heç adama dəyməyibdir.

G ü l n i s ə . Yox! Yox!.. Onu vurdular. Qolun qırılsın, qanlı! Qana batasan, qanlı! Oy, oy!.. (*Ağlaya-ağlaya yüyürür, Balaqız da dalınca*.)

Y a s a v u l (*Sadığı gətirir*.) Ağa, damdan güllə atan bu idi.

Ş a h m a r b ə y . Qoçaq, damdan gülləni haraya atırdın?

S a d ı q . Qarğaya güllə atırdım, gündə gəlib toyuqların cücələrini daşıyır.

Ş a h m a r b ə y . İmdi vurduğun qarğanı görərik.

H ə s ə n (*ağlaya-ağlaya daxil olur*). Ay pristav ağa! Ay Cahangir ağa! Mənim evim yıxıldı, qolumun qüvvətini, köməyimi əlimdən aldılar. Cavan, lay divar tək oğlanı vurub yıxdılar yerə. Əgər ədalət varsa, gərək zalımı cəzasına çatdırasan!

Ş a h m a r b ə y . Vurulan kİmdir?

H ə s ə n. Başına dönüm, vurulan Səfi oğlu İskəndər, öldürən də bu zalım oğlu. (*Sadığı göstərir*.)

S a d ı q . Ay ağa, başın üçün mən qarğaya güllə atmışam. Mənim xəbərim yoxdur. Bəlkə güllə qəflətən dəyib. (*Namaza*) Namaz əmi, məni pristav ağadan zamına götür, mən heç yana qaçan deyiləm. Əgər sonra mənə bir günah sübut olsa, məni boğazımdan çəksinlər. Cahangir ağa, sən də pristav ağadan təvəqqe elə, məni zamına versin.

N a m a z . Heç kəs səni zamına götürməz. Məlun, Allahın lənəti sənin canına gəlsin! Mən səni dəyirmana dən üyütməyə göndərdim, yoxsa, dedim get, adam vur, öldür? Canın çıxsın, cəzanı çək!

C a h a n g i r a ğ a . Şahmar bəy, təvəqqe edirəm, bu haramzadəyə necə lazımdır tənbeh olsun. Haramzadə, mənim evimdə əziz qonaq, sən çıxıb mənim başımın üstündən güllə atıb, adam öldürəsən?

Ş a h m a r b ə y . Tənbeh, qanuna görə olacaq. (*Yasavullar*a) Yüzbaşını buraya çağırın!

Y ü z b a ş ı : Buradayam, ağa. (*Yeriyir qabağa*.)

Ş a h m a r b ə y (*yüzbaşıya*). Bunu apar Dustaq elə. (*Yasavula*) Sən də cəld get atını hazırla, kağız verəcəyəm, çaparaq aparıb verərsən

silistçiyə, həkimlə bir yerdə sabah burada olsunlar. (*Yüzbaşıya*) Yüzbaşı, sən də əmr elə silistçi və həkim gəlincə meyiti dəfn eləməsinlər. (*Cahangir ağaya*) Cahangir ağa, buyurun kağız qələm versinlər.

C a h a n g i r a ğ a . Buyurun, içəridə yazın.

Pristav gedir.

Y ü z b a ş ı (*Sadığa*). Düş qabağıma, silistçi gəlincə səni mən yaxşı danışdıracağam.

S a d ı q . Ay ağa, ay Namaz əmi, məni zamına götürün. Mən silistçi gəlincə heç yana qaçmaram.

C a h a n g i r a ğ a (*yüzbaşıya*). Yüzbaşı, pristavın əmrinə əməl elə. (*Sadığa*) Haramzadə, güllə atmağa başına yer qəhət idi? Gərək məni pristavın yanında xəcil eləyəydin, haramzadə!

Y ü z b a ş ı (*Sadığı itələyir*). Düş qabağıma! (*Aparır, camaat da dalınca gedir.)*

H ə s ə n (*ağlayır*). Ay insafsız oğlu, o yazıq sənə nə eləmişdi, onu qanına bələdin?

C a m a a t d ə n b i r i . Gərək bunu boğazından asalar ki, xalqa da göz olsun.

B a ş q a l a r ı . Ay zalım oğlu, adam da İskəndər kimi oğlana qıyıb güllə atarmı? Ay sənin qolun yanına düşsün.

Gedirlər.

C a h a n g i r a ğ a . Bəd olmadı, Namaz, qoçaq adammışsan.

N a m a z . İmdi bunun dalından dəyib, əlli-ayaqlı itirmək lazımdır.

C a h a n g i r a ğ a . O mənim əlimdə. (*Gedir, Namaz da dalınca*.)

PƏRDƏ

İKİNCİ PƏRDƏ

Həsən kişinin evi. Ortalıqda ocaq yanır. Küncün birinin qabağına çətən çəkilib, divarlardan torbalar asılıb. Bir küncdə iki-üç dəst yorğan-döşək yığılmış. Həsən kişinin arvadı Tubu əyləşib cəhrə əyirir, qızı Gülnisə tikiş işinə məşğuldur.

T u b u . Ay qız, atanla bir yerdə şəhərə gedənlər hamısı qayıtdılar, İmdicə atan da gələcək. Qalx ayağa, ocağın üstünə bir qazan qoy. Bir az düyü arıtla, atana bir dövrə sütlü yayma bişir.

G ü l n i s ə . Bu saat duraram, ana. Tikişimin bir azca yeri qalıb, onu da qurtarım.

T u b u . Bilmirəm bu bir arxalıq nə olubdur ki, budur beş gündür onu tikib qurtara bilmirsən. Mən evə girəndə tikişi alırsan əlinə, mən çıxanda dəm verirsən gözlərinə. Axır, ay bala, nə vaxtacan sən ağlayacaqsan? İmdiyəcən oğlu ölən kiridi, qardaşı ölən kiridi, amma sən kirimək bilmirsən. İskəndər sənin ərin deyildi, nişanlın deyildi. Öldürüblər, yəqin öldürənə də bir cəza verərlər. Daha sən niyə gözlərini kor eləyirsən?

G ü l n i s ə (*qalxıb orta ocağı düzəldir*). Ana, mən ona ağlamıram. Məni yandıran odur ki, onu Sadıq mənim üstümdə öldürdü. Atam vaxtında məni Sadığa versəydi, İmdi o bədbəxt sağ idi.

T u b u . Onda da İskəndər vurub Sadığı öldürəcəkdi. Yenə elə sənin üstündə bir qan olacaqdı. Nahaq yerə, qızım, ölən ölüb, sən də öz canını puç eləmə. Nə çoxdur kəndimizdə yeniyetmə cavanlar. Onlardan da yaxşısına gedərsən. Bu ölüm də yadından çıxar. Özün də xoşbəxt olarsan.

G ü l n i s ə . Ana, məni daha öldürsələr də heç kəsə getməyəcəyəm. Bir də, atam gələndə deginən məni aparsın Qızıləhmədliyə, xalamgilə.

T u b u . Çox yaxşı olar. İmdi atan gələndə deyərəm. Bir neçə gün orada qalarsan, qəmin-qüssən dağılar.

G ü l n i s ə . Doğrusu, ana, daha mən oradan buraya qayıtmayacağam. Mən buradan qorxuram.

T u b u . Nədən qorxursan, qızım?

G ü l n i s ə . Özüm də bilmirəm nədən qorxuram. İskəndər ölən gündən gecələr rahat yata bilmirəm. Ürəyimə min cür qara-qara fikirlər gəlir. Gecə yuxuda gah məni qayadan atırlar, gah quyu dibinə salırlar. Axır ki, mənim başımın bir bəlası var.

T u b u Bunlar hamısı İskəndərin fikridir. Bacar, yadından çıxart. Ondan sonra pis yuxu görməzsən.

G ü l n i s ə . Ondan deyil, ana, ürəyimə özgə fikirlər gəlir. Amma demək istəmirəm.

T u b u . A qızım, bəs sən dərdini anana deməyib kimə deyəcəksən?

G ü l n i s ə . Ana, düyü torbası haradadır?

T u b u . Orada, çətənin dalında göydən asılıb. (*Gülnisə gedib düyünü gətirir).* Di bircə de görüm dərdin nədir?

G ü l n i s ə . Ana, südlü yaymanı cılxaca süddən bişirim, yoxsa su da qatışdırım? (*Düyü arıdır*.)

T u b u . Yarı süd elə, yarı su. Di tez ol dərdini söylə.

H ə s ə n (*yorulmuş daxil olur*). Bir belə əzab olar ki, bu ölmüş yabı mənə verdi. Budur, tamam bir ildir, deyirəm aparım bu çər dəymişi satım, məni qoymursan. Şallaq vurmaqdan qollarım, təkan vurmaqdan ayaqlarım az qalıb düşə. Zalım oğlunun satdığı, deyir, canın da çıxsa yerişimə bircə tikə haram qatmayacağam.

T u b u . Yabı, yenə hər nədir, ayaqlarını yerdən götürür. Satanda ona nə pul verəcəklər ki, bir yaxşı at ala biləsən?

H ə s ə n. Yoldaşlar nə vaxtdır gəlib, evlərindədirlər, amma mən İmdi gəlib çıxıram. Hamıdan dalda qalmışam. Yolda Namaz deyir: "A Həsən kişi, özünə niyə bir əməlli at almırsan?". Dedim: "A səni pir olasan, əməlli ata əməlli də pul istəyirlər. Haradan alım?". Deyir: "Sən bunu sat, başdan elə, Cahangir ağaya mən deyərəm kəhər yabını sənə bağışlasın, quş kimi uçan bir atdır". Deyirəm: "Yaxşı, Cahangir ağa mənə nə üçün at bağışlasın?". Deyir: "Ağanın sənə çox iltifatı var". (*Bu yerdə Gülnisə düyü boşqabını əlindən salıb hönkürtü ilə ağlayır*.) Ay qız, sənə nə oldu, niyə belə ağladın?

G ü l n i s ə . Heç, ata, elə sənə ürəyim yandı. Axır sən niyə elə olasan ki, özgələrin rəhmi gəlib, at bağışlayalar.

H ə s ə n. Ağlama, qızım, ağanın məgər rəiyyətinə şəfaəti olmaz?

G ü l n i s ə . Istəmirəm, bağışlamasın, lazım deyil. (*Hönkürərək evdən çıxır.)*

H ə s ə n. Bilmirəm bu yazıq qıza nə olub, dİndirirsən gözlərindən yaş tökülür.

T u b u . İskəndər vurulandan bəri, elə günü budur. Nə qədər nəsihət eləyirəm, olmur. İmdi deyir atam məni xalam evinə aparsın. Sabahda-zadda onu apar qoy xalasının yanında, bir-iki ay orada qalsın, bəlkə fikri dağıla.

H ə s ə n. At məni çox incidib. Bir-iki gün dincimi alım, götürüb apararam, yaxşı olar.

Gülnisə daxil olub, qazanı gətirir.

T u b u . Ay qız, qazanı haraya aparırsan?

G ü l n i s ə . Aparıb qapıda bişirəcəyəm. Burada ocaq tüstü elər, bəlkə atam yatacaq. (*Çıxır.)*

T u b u . Yazıq qız saralıb, zəfərana dönüb.

H ə s ə n. Qara torpağın üzü soyuq olar. Ağlayıb, ağlayıb, axırda sakit olub, oturacaq yerində.

T u b u . Bircə de görüm, Sadığın işi hancarı oldu?

H ə s ə n. Ay kişi, cümlə dünyanı axtarsan Cahangir ağa kimi ağa bir də özüdür. Şahidləri necə var doydurmuşdu. Namazın sözü ilə şahidlərə beş yüz manatacan pul paylayıbdır və tapşırıbdır ki, bacardıqca o kafir oğlunun peyini vursunlar. Şahidlər də, qoçaqlarım, necə ki lazımdır danışdılar. Gör kafir oğlu sudlara nə deyir? Deyir: "Mənim İsgəndərlə bir ədavətim yox idi, məni yoldan çıxardıb, onu öldürən Cahangir ağanın darğası Namaz oldu". Guya Namazın İskəndərlə bir karası var idi. Axmaq oğlu axmaq, danışmağa söz də tapmadı. Axırda yeddi il Sibir kəsdilər.

T u b u Bəs İskəndər kimi cavanın qanı yerdə qalacaq idi?

Gülnisə daxil olub, düyü gətirir və danışığı eşidib, dayanır.

H ə s ə n. Xülasə, Cahangir ağa olmasaydı, şahidlərin çoxu sözlərini dəyişdirəcəkdilər. Ağa deyir: "Mənim İskəndər kimi qoçaq rəiyyətimi öldürəni gözümün qabağında tikə-tikə doğrayalar, uf da demərəm". Sağ olsun Cahangir ağa, əsl ağadır.

Çöldən Namazın səsi gəlir.

N a m a z . Ay H ə s ə n, ay H ə s ə n!

H ə s ə n (*qalxır)*. Bu, Namazın səsidir. (*Cavab verir*.) Bəli! Bəli!

N a m a z (*çöldən*). Bir çıx, bu itlərin qabağında dur.

G ü l n i s ə . Ata, o buraya niyə gəlir?

H ə s ə n. Nə bilim, ay bala, əlbət bir işi var ki, gəlir. Gələndə nə olar?

G ü l n i s ə . Yox, gəlməsin, gəlməsin! O buraya gəlsə, mən özümü boğub öldürəcəyəm.

H ə s ə n. Axmaq qızı axmaq. Başına hava gəlməyib? Özünü niyə boğursan? Namaz buraya gələndə qiyamət qopmaz ki? Mən durub ağanın darğasını evimdən qovacağam? (*Qapıya tərəf gedir*.)

G ü l n i s ə (*onun ətəyindən yapışır*). Ata, Qurbanın olum, o kişini evinə qoyma. Mən ondan qorxuram.

H ə s ə n. Axmağın biri, əl çək görüm a!..

Gülnisə ağlayaraq o biri qapıdan gedir.

T u b u . Bu qız başını götürüb haraya getdi? Dəli oldu, nədir? (*Durub dalınca çıxır.)*

H ə s ə n (çöldən). Buyur içəri, buyur!

N a m a z (daxil olur, dalınca Həsən). Bəs bu evin adamları haradadırlar?

H ə s ə n. Yəqin bayırdadırlar. Gəl otur görək. Bizi belə yada salmaqda xeyirdirmi?

N a m a z . Nəhlət şərrə! Xeyir olmamış nə var? Elə bir əhvalat var idi, onu sənə söyləməyə gəldim... (*Çubuğunu çıxardıb doldurur*.) Hələ qabaqca bir de görüm, nənəsi ölmüş Cahangir ağanı necə gördün? Nərdi, nər!..

H ə s ə n. Doğrusu, mən onu belə bilmirdim. Kişi nəcib nəsildən olduğunu hamıya apaçıq göstərdi.

N a m a z . Zarafat deyil, ona Pərviz xanın nəvəsi deyərlər. Pərviz xanın adı İmdi də dillərdə danışılır. Necə ola bilər ki, onun rəiyyətini gözünün qabağında öldürsünlər, o da tamaşa eləsin? Yox, Cahangir ağa özgə kişidi. Sən bir o axmaq oğlu Sadığa bax, deyir: "Məni öyrədən ağanın darğası Namaz oldu". Yaxşı, İskəndər Namaza nə eləmişdi? Namazın atasını öldürmüşdü? Namazın çörəyini əlindən alırdı, Namaz onu öldürtsün? Namaz ki, bir adamın toyuğuna daş atmayıb.

H ə s ə n. Bir az bundan qabaq elə mən də həmin sözü arvada deyirdim. Səni kim tanımır? Axmaq sözlərdi, ağzına gəlib danışırdı, elə bilirdi onunla canını qurtaracaq.

N a m a z . Hamı bilir ki, o sənin qızına nə qədər elçi göndərib. Axır baxıb gördü ki, sənin könlün İskəndərdədir, vurdu yazığı öldürdü.

H ə s ə n. Həqiqət, ədalət divan oldu. Yeddi il Sibir ona azdır, gərək onu boğazından çəkəydilər.

N a m a z . Cahangir ağaya deyirəm: ağa, doğrudan, böyük iş gördün. Deyir: "Bəs insafdır ki, oğulsuz, yiyəsiz Həsənin əlindən onun axır ümidini alıb, yazıq kişini əli qoynunda qoysunlar?". Deyir: "Gərək mən əlimdən gələn yaxşılığı Həsənə eləyim, ta İskəndərin ölümü onun yadından çıxınca". Mən dedim: ay ağa, Həsən kişinin yabısı heç zada yaramır, İndi ki, ona şəfaətin var, elə kəhər yabını ona bağışla. Buyurdu: "Yox, al bu üç yüz manatı, apar ver Həsənə, deginən özünə yaxşı at alsın. Artığına da bir muzdur tutub, işini gördürsün". (*Pulu verir*.)

H ə s ə n (*pulu alır*). Şəfaəti artıq olsun, ömrü uzun olsun. Allah onun kölgəsini bizim üstümüzdən götürməsin.

N a m a z . Cahangir ağa bir söz də buyurur.

H ə s ə n. Bəli?

N a m a z . Buyurur ki, bu camaatın acığına gərək Həsəni öz döşümə çəkəm. Gərək onu elə bir adam eləyəm ki, baxanın paxıllığı tutsun.

H ə s ə n. Ağa mənə bir yerdən üç yüz manat pul göndərib. Daha bundan artıq nə iltifat ola bilər?

N a m a z . Xeyr, bu nədir ki? Belə xələtlərdən çox alacaqsan. Ağa buyurur ki, İmdi, ki İskəndəri özünə oğul eləyə bilmədi, camaatın gözünün qabağında özüm ona oğul olacağam.

H ə s ə n. Nə dedi? Anlamadım. Yəni necə oğul olacağam?

N a m a z . Daha niyə anlamırsan? Cahangir ağa məni sənin qızına elçi göndərib.

H ə s ə n. Namaz! Bu danışığı sən elə burada qoy qalsın. Mən hara, Cahangir ağa hara? Rəiyyətlə də ağanın qohumluğu tutarmı? Qızımı aparıb beş gün, on gün saxlayıb, axırda bir murdar əski kimi gətirib üstümə atacaq.

N a m a z . Nə danışırsan, a kişi, ağlını bir başına yığ. Cahangir ağa kimi nəcib ağa heç bir oymaqda tapılar? O səninlə niyə elə rəftar eləsin? O, Allahın əmri ilə sənin qızını istəyir. Məni də öz tərəfindən kəbin kəsdirməyə vəkil eləyib. Sən də öz qızıyın vəkili. Dur bu saata gedək axundun yanına, kəbinini kəsdirək, qurtarsın getsin.

H ə s ə n. Dayan, ağlım başıma gəlsin, sonra.

N a m a z. Ağlına nə oldu ki? Ağanın ancaq sənə yazığı gəlir. Deyir: “Ürəyin sınıqdır, düşmənin acığına, Həsənin qızını xanım, özünü qayınata eləyəcəyəm”. Budur, İmdi üç yüz manat göndəribdir, dalınca bir neçə sağmal inək verər, qapında saxlarsan. Ucu-bucağı tükənməz meşəsindən ağac-uğac verər, özünə bir yaxşı otaq tikdirərsən. Özünə və arvadına paltar alar. Bir beş adamın içində də təşəxxüslə özünü çəkib deyərsən ki, mən Cahangir ağanın qayınatasıyam. Pristav, görəcəksən, sənə əl verir. Bir hampa kişi olacaqsan. Yoxsa, deyirsən, qoy ağlım başıma gəlsin. Sənin ağlın başına gəlincə, görərsən ağanı da yerindən oynatdılar. Odur, Ehsan xan ayda bir ağanı evinə qonaq çağırır, neçə günlərlə yanında saxlayır. Mən də həmişə ağanın yanınca gedirəm. Gözüm də kor deyil, açıq görürəm ki, Ehsan xan istəyir Darab ağadan qızını boşadıb, bizim Cahangir ağaya versin. Ağa da deyir: “Mən dul arvad alan deyiləm”. Bir də görərsən Ehsan utandırdı, razı elədi və ya arvada cadudan-filandan düzəltdi. Fürsəti əlindən vermə, dur gedək mollanın yanına.

H ə s ə n (*bir qədər fikirdən sonra*). Yəni sən zamın olursan ki, mənim qızım həmişəlik Cahangir ağanın evində arvad olacaq?

N a m a z . Səhərdən bəri Quran oxuyuram, bu yenə öz dediyində durub.

H ə s ə n. Yaxşı, sən get, mən də dalınca gələrəm. Deyirəm, qızın anasına da bir gənəşim.

N a m a z . Daha nə gənəşmək? Arvadlıq burada nə iş var?

H ə s ə n. Arvadlıq bir iş yoxdursa da, yenə elə yaxşı olar. Xülasə, sən get məni mollanın evində gözlə.

N a m a z . Yaxşı, sən deyən olsun. Mən gedim, ancaq ləngimə, tez gəl.

H ə s ə n. Ləngimərəm. Bu saat gəlirəm.

Namaz gedir.

T u b u (*daxil olur*). Namaz getdi? O heç bizi bəyənib buralara gəlməz. İmdi nə olmuşdu?

H ə s ə n. Gəl bir yanını qoy, gör nə deyirəm.

T u b u (*oturur*). De görüm nə var?

H ə s ə n. Şəhərdən biz yola düşəndə, bayaq sənə dedim ki, Namaz söz verdi ki, Cahangir ağaya desin, mənə bir yabı bağışlasın. İmdi budur, ağa Namaznan üç yüz manat pul göndərib ki, getsin özünə bir at alsın.

T u b u . A kişi, bu pullardan ağa irəlilərdə niyə göndərmirdi? Yadındadırmı, darın yanırdı, getdin ağadan üç günlüyə yarım baş su istədin, onu sənə pulsuz vermədi. Dedi: "Gərək darıyın dörddə birini mənə verəsən". Sən vermədin, darı da yandı. İmdi üç yüz manat birdən göndərir. Burada yəqin bir kələk var.

H ə s ə n. Kələk-mələk yoxdur. Ağa deyir ki, Həsənin əli İskəndərdən çıxıb, İmdi mən özüm ona, camaatın acığına, oğul olacağam.

T u b u. Bir belə mıs-mıs eləyincə, bir yolluq deginən Mustafa. Deginən Namaz qızıma elçi gəlmişdi. Dur bu saat o üç yüz manatı at ağanın üstünə, soxsun gözlərinə! Bizə onun pulu lazım deyil. Mən üç yüz manata gül kimi qızımı satmaram.

H ə s ə n. Arvad, dəli-dəli nə söyləyirsən? Səndən pulnan qız alan kimdir? Kişi Allahın əmri ilə məndən qız istəyir. Namazı da öz tərəfindən kəbin kəsdirməyə vəkil eləyib. İmdi Namaz məni mollanın evində gözləyir.

T u b u . Kişi, deyəsən, sənə qarğa beyni yediriblər, ağlın oynayıb. Ağa sənin tayın, tuşundur, ona qız verirsən? Qızını bir eləsinə ver ki,

lazım olan vaxt qolundan yapışsın. Bircə de görüm, sən cüt əkən vaxt ağa gəlib sənin çargovuna minəcəkdirmi?

H ə s ə n. Axmaq-axmaq nə danışırsan, ay arvad?

T u b u. Axmaq danışmıram, sözün gerçəyini mən deyirəm. Axmaq sənsən ki, bir az pul görmüsən, ağzıyın suyu axır. De görüm, sən darı cadını ayrana doğrayıb yeyəndə, ağa da bir qaşıq götürüb sənin lə o doğramadan yeyəcəkdirmi? Sən boyunduruğu öküzlərin boynuna qoyanda, ağa da gəlib onun samı bağısını bağlayacaqdırmı?

H ə s ə n. Ay axmaq qızı axmaq! Çürük-çürük nə danışırsan? Kişi məni gözləyir. Sən də burada vələzzalin oxuyursan. Bunlar məgər ağa işidirmi? Ağanın cibi pulnan doludur. Əsginazdan verib fəhlə tutub işlədər. Özü niyə çargova minsin, ya xırman döysün?

T u b u. Bizə özü işləyən lazımdır. Mən gedib günortayacan boynumu büküb ağanın qapısında işimdən avara ola bilmərəm ki, görüm ha vaxt ağa yuxudan oyanıb, mənim əlimə pul uzadacaq, mən də gedib muzdur tutacağam. Yox, ağa mənim tayım, yoldaşım deyil. Mən razı deyiləm.

H ə s ə n. Mən səni xəbərdar eləmək istədim. Sənin razılığını soruşan kimdir? Mən öz xeyrimi hamıdan yaxşı görürəm. Razı olmursan, heç olma!

T u b u. Gedirsən get. Can sənin, cəhənnəm Tanrının. Sonra vaysınanda sənin lən danışaram.

G ü l n i s ə *(yüyürək daxil olub, atasının ətəyindən yapışır*). Ata, ayaqlarının altunda ölüm, otur evdə, getmə!

H ə s ə n. Ay qız, sən nə deyirsən? Mən hara gedirəm ki?

G ü l n i s ə. Hamısını eşitmişəm, Qurbanın olum, dədə, getmə! Ya gedirsən, qabaqca mənim başımı kəs, ondan sonra hara gedəcəksən, get!

H ə s ə n. Axmağın qızı, çəkil o yana, qoy işimi görüm. Doğru deyiblər: "Rəhmət qapısı açıq olanda köpəyin yuxusu gələr". Çəkil o yana! (*İtələyib çıxır.)*

G ü l n i s ə (*yıxılır qalır, qeyri-təbii qışqırtı ilə*). Ana, Qurbanın olum, onu qoyma getsin! Ana, sənə yesir olum, qoyma!

T u b u. Anayın başına daş düşsün, öhdəsindən gələ bilirəmmi?

G ü l n i s ə. Ana, sən qardaşımın əziz goru, qoyma gedə! *(Hönkürtü ilə yıxılır yerə.)*

PƏRDƏ

ÜÇÜNÜCÜ PƏRDƏ

Səhnə iki parçadır: solda Cahangir ağanın evində bir otaq, sağda kənd meydançası. Kəndlilər yolda o yan-bu yana ötürlər. Neçə nəfər kəndli, evin girəcəyində pillə üstündə əyləşib söhbət edir. Otaqda Namaz və Həsən.

N a m a z . Həsən! Axır sən mənimlə düz dolanmırsan. Qorxuram axırda aramızda bir dava düşə.

H ə s ə n. Necə?

N a m a z . Daha burada bir "necə" yeri yoxdur. Sən deyəndə bir qotur kəndlinin biri idin. Mən səni gətirib bu mərtəbəyə çıxartmışam. Cahangir ağa ilə bir süfrədə oturub xörək yeyirsən. İmdi sənin mənə badalaq qurmağının heç adı yoxdu. Mənim adım darğadır. Səndən qabaq ağanın sağ əli mən idim. Sən bu qapıya ayaq qoyandan bəri, mən bilmirəm mənim işimin adı nədir? Sən gəl mənimlə düz yola get. Yoxsa doğrudan dalaşarıq. Mənə də Namaz deyərlər. Özün yaxşı bilirsən ki, mən istədiyimi tikərəm və tikdiyimi də bir göz yumub açınca uçurdaram.

H ə s ə n. Namaz, sən nahaq yerə məndən inciyirsən. Sən öz işindəsən, mən öz işimdə. Mənim qabağıma bir ətək qızıl tökələr, mən istəmərəm ki, sənin əlindən darğalığı alıb mənə versinlər. Mən ağanın qayınatası olub, üstümə darğa adı qoyum? Bu heç mənə layiq deyil. Deyirsən, sən məni çörəyə yetiribsən? Mənim qızım olmasaydı, görüm məni necə çörəyə yetirərdin? Mən qızımın səbəbinə bu çörəyə çatmışam. Mənə minnət qoymağın nahaqdır. Get, atam, öz işində ol, mən səni dİndirib söylətmirəm.

N a m a z . Yaxşı danışmırsan. İmdiyədək ağa ilə işi olanların hamısı mənim yanıma gəlirdilər. İmdi isə heç məndən soruşan yoxdur ki, ayın neçəsidir. Yerindən qalxan birbaş sənin üstünə gəlir.

H ə s ə n. Canları çıxsın, yüyürməsinlər. Mən heç kəsə nə elçi göndərirəm, nə də qənd başı.

N a m a z . Yox, Həsən, doğrusu, belə getsə, aramıza inciklik düşəcəkdir. Bundan da ziyan çəkən sən olacaqsan.

H ə s ə n. Mənə nə eləyəcəksən? Əlindən nə gələcək? Bu qapıda azdan, çoxdan çörək yeyirsən. Çox danışarsan, onu da əlindən alarlar. Dinməz otur yerində, mənə də sataşma!

N a m a z . Belə?

H ə s ə n. Bəli, belə!

N a m a z . Onda görək! (*Sol qapıdan gedir.)*

H ə s ə n. Görək! (*Gedib yola çıxan qapını açıb, pillə üstündə oturanların birini çağırır.*) Həzrətqulu, buraya gəl! (*Həzrətqulu içəri daxil olur.*) Səni bura mən çağırtmışam. Budur, neçə gündür ki, sənin heyvanların ağalıq yataqda otlayır, onun iznini sən kimdən alıbsan?

H ə z r ə t q u l u . Mənim heyvanlarım hər il payızda ağalıq yataqda otlar. İznini də darğa Namazdan alaram.

H ə s ə n. Namaz nə adamdır, izin versin, ya verməsin? Bu saat heyvanlarını yataqdan çıxardarsan. Özüm də gəlib yatağın ziyanlığını yoluxacağam. Ziyanlığın hamısını sənin gönündən soyacağam.

H ə z r ə t q u l u . Həsən əmi, bu danışıq nəyə lazımdır? Mən müftə mal otarmıram. Cığcığa əsginazlar sayıb yataq almışam, heyvanlarımı niyə çıxardım, ziyanlıq niyə verim?

H ə s ə n. Sən qabaqca bir ağzıyın danışığın bil. Mən hər adamın əmisi deyiləm ki, mənə Həsən əmi deyəsən. İkincisi, cığcığa əsginaz saymayıb, sarı qızıl saymış olasan, yenə sənin gönünü soyacağam. Yataq lazımdır, mənim yanıma gəl! Sözün var, mənə de! Namaz kimdir, nə adamdır? Bu saat gedib heyvanlarını yataqdan çıxaracaqsan. Yoxsa gəlib orada nə heyvan görsəm, hamısını gülləyib qıracağam!

H ə z r ə t q u l u . Axır mən pul verib aldığım yataqdan mənim heyvanlarımı sən nə haqla çıxaracaqsan?

H ə s ə n. Sən çox qələt eləyib pul veribsən. Sənə yataq icarəyə verən də başını daşın yekəsinə döyüb. İmdi gəlib sənin heyvanlarını yataqdan çıxardanda görərsən! Yekə-yekə danışmağına bax! Di get!

H ə z r ə t q u l u . Axır, Həsən əmi...

H ə s ə n. Axır-maxır yoxdur. Get deyirəm, get! (*İtələyib çıxardır.*)

H ə z r ə t q u l u (*çıxıb, qapıdakı kəndlilərə*). A başınıza dönüm, bu nə bəla olub bizim canımıza! İki yüz manat pul sayıb yataq icarəyə götürmüşəm. İmdi deyir, ya get heyvanlarını oradan çıxart, ya gəlib hamısını güllə ilə qıracağam.

K ə n d l i . Ondan nə desən çıxar. Onun kəsdiyi başın sorğu-sualı yoxdur. Varın isə beş, on, iyirmi manat apar, bas ovcuna, ağzı yumulsun. Onun qarnının ağrısı elə odur.

Həsən otaqda gəzinir və hərdən qapıya gedib kəndlilərin danışığına qulaq verir.

H ə z r ə t q u l u . Axır, pulum yoxdur, iyirmi manat haradan alım. Bir də, Həsə nin qırımı yaman qırımdır, pula-zada yaxın düşən canavara oxşamır.

K ə n d l i . Sən mən deyənə qulaq as.

H ə z r ə t q u l u . Kişi, deyirəm pulum yoxdur.

K ə n d l i . Mən verərəm. (*Pul verir*.) Al, apar ver!

H ə z r ə t q u l u . Yox, qardaş, mən bir də onunla üz-üzə gəlməyəcəyəm. Elə mənim əvəzimdən sən apar ver.

K ə n d l i . Çox yaxşı. (*Kəndli içəri girir*.) Həsən əmi, Həzrətqulu bir yaxşı qulluqdar oğlandır. Sən onun könlünə nahaq dəyirsən. Bilməyib, başa düşməyib. Həmişə yatağı Namazdan icarəyə götürüb, yenə onun yanına gedib. Qələt eləyib, bir də bundan sonra Namazın həndəvərinə dolanmaz. Bu iyirmi manatı da al tənbəkiyə ver, onun taqsırından keç.

H ə s ə n. Sənin atan Məstalı kişi bir yaxşı adamdı. Sən də elə ona oxşayıbsan. Hər adamın yerini bilirsən, ədəb-ərkanla da danışırsan. Mən Həzrətquluya adam kimi söz deyirəm, deyir, cığcığa əsginaz vermişəm. Cığcığa adamın bəbəklərinə dürtərlər.

K ə n d l i . Daha bir qələtdir, eləyib, cahıldır, anlamayıb. (*Pulu verir.)*

H ə s ə n (*pulu alır*). Bu səfər onu sənə bağışladım. Deginən gələcəkdə bir belə qələtləri eləməsin. (*Orta qapıdan gedir*.)

K ə n d l i (*dalınc*a). Çox sağ ol, Həsən əmi, böyük inayət elədin. (*Çıxır, Həzrətquluya*) Pulları alıb ötürdü içəri. Di get işində ol.

H ə z r ə t q u l u . Axır, ay qardaş, nə vaxtacan bu Həsən kişi xalqın başına büyələkçi olacaq? Qızını ağaya verib, deyin, gərək xalqın başına minsin?

K ə n d l i . Belədir də! Nə eləməli?

H ə z r ə t q u l u . Tamam camaat onun əlindən cana doyub, Namaza min rəhmət! Mən bunu belə qoymayacağam. Aləmi bir-birinə qarışdıracağam. Qoy xalq hamı yığılıb gəlsin ağanın yanına, Həsənin qovulmağını istəsin. Ağa camaatı bir yerdə görüb söz deyə bilməyəcək. Qəbul eləməz, biz də papağımızı tərsinə çevirərik. Beş yüz ev camaatı qırdırmayacaqdır ki.

Kəndlilər gedirlər. Orta qapıdan Həsən çıxır. Dalınca arvadı Tubu.

T u b u . Hara gedirsən? Bir dayan görüm.

H ə s ə n. Hara gedirəm, mən billəm. Nə istəyirsən məndən?

T u b u . Əməzək! Allah səni döysün. Sənin kimi kişilər görüm qara torpaq altında yatsın. Gör necə Allahdöymüşsən ki, bu dörd ildi Namaz kimi bir azğın gədənin də öhdəsindən gələ bilmirsən!

H ə s ə n. Nə eləyim, ay arvad? Namaz ata-babadan bu qapıdadır. Mən dünən gəlmişəm. Onu necə qovdurum? Neçə dəfə ağaya demişəm, qulaq asmır. Gah da görürsən qulaqardına verir.

T u b u . İndi ki, sən onu qovdura bilmirsən, mən arvadlığımla onu qovdurum, sən də tamaşa elə. Mən gecəyazanı ağanın canına salışdırım, ondan sonra gör qovar, ya yox?

H ə s ə n. Nə danışırsan, arvad "gecəyazan" nədir?

T u b u . Gecəyazan – hər kişinin arvadı. Mən imdi Gülnisəni öyrədərəm, o onu yaxşı qovdurar. *(Gedib sol qapıdan çağırır.)* A qız, Gülnisə, buraya gəl!

G ü l n i s ə (*gəlir*). Nə deyirsən, ana?

T u b u Ay qız, sımsırığını niyə sallayıbsan? Nə vaxtacan qaşqabağın yerlən gedəcək? Nə vaxt bir sənin üzün güləcək?

G ü l n i s ə . Xoş gün görənin üzü gülər. Axır mənim taqsırım nə idi, məni götürüb bu cəhənnəm odunun içinə saldınız?

H ə s ə n. Yoxsa yamanlıq eləmişik? Ağa arvadı olubsan, xanımsan, qabağında qulluqçular durublar. Yoxsa tumanın balağını belinə sancıb alaq elədiyin günlərin xiffətini eləyirsən?

G ü l n i s ə . Kaş ki, yüz alaq eləyəydim, daş daşıyaydım, bu cəhənnəm oduna yanmayaydım.

H ə s ə n. Axmaq qızı axmağın danışığına bax! A qız, Tanrına niyə təpik atırsan? Süd gölünün içinə düşüb üzürsən, yenə sənə azdır?

G ü l n i s ə . Istəmirəm bu süd gölünü. Ağaya ancaq mənim bu mürdəşir yumuş ağzım, burnum lazımdır. Mənimlə bir söz danışmaz. "Nə göyçək gözlərin var, nə qəşəng qaşların var, gərdənin mina kimidir. Boyun sərv ağacına oxşayır". Bundan savayı bir söz eşitmirəm. Qulluqçular məni lağa qoyub gülürlər, məni gendən görəndə deyirlər: "Ora baxın, sərv ağacı gəlir". Məgər belə günə davam eləmək asandır?

T u b u . Odur ki, axmaqsan. Ağa sənlə nə dillə danışır, sən də onunla o dillə danış. Arvadın gərək qılığı olsun. Sənin qılığın yoxdur, kişinin də gözünə girə bilmirsən.

G ü l n i s ə . Mən onun gözünə girim? Mənim onun gözlərindən zəhləm gedir. Onun gözləri görüm kor olsun!

T u b u . Hələ giley-güzarı qoy dursun. Əlində üç yaşında oğlun var, ölənəcən burada qalacaqsan. Sənə bir söz deyəcəyəm. Onun üçün çağırmışam.

G ü l n i s ə . Əlimdə bir olmaya, səndən də ayıb olmasın, yüz uşaq ola, yenə burada mən cəhənnəm əzabı çəkəcəyəm.

T u b u . Di yaxşı, qulaq as, gör nə deyirəm. Sən ağa arvadısan. Lazımdır ki, sənin atan da ağanın yanında, camaatın gözünün qabağında

sayılan bir adam olsun. Sənin atan qalıb qıraqda, Namaz hər yerdə quyruq bulayır. Atayın xatirəsi üçün gərək ağanın qılığına girib, Namazı buradan qovdurasan.

G ü l n i s ə . Mənim bədbəxtliyimə səbəb elə mənim bu atamdır. Mən nə qılığa girərəm, nə ağaya söz deyərəm.

T u b u . Qızım, dəli olma, Həsən hər necə olsa, sənin atandır. Ona niyə kömək eləməyəsən?

G ü l n i s ə . Mən Cahangir ağa ilə İndiyədək üz-üzə oturub danışmamışam və danışmayacağam da. Danışığa da gəlsəm, ona çox söz deyə bilərəm. Onun da axırı yaxşı olmaz. Odur ki, mən onunla danışmaq istəmirəm. Ana, bağışla məni. (*Cəld gedir*.)

Ş a h m a r b ə y (*daxil olur, Tubu qaçır)*. Baho, Həsən! Xoş gördük, kefin necədir?

H ə s ə n. Niyə, pis deyil.

Ş a h m a r b ə y . Cahangir ağa evdədirmi?

H ə s ə n. Gərək evdə olsun.

C a h a n g i r a ğ a (*sol qapıdan çıxır*). Ya Allah, ya Allah, Şahmar bəy! Belə xəbərsiz gəlməkdə xeyirdirmi?

Ş a h m a r b ə y . Gəlməyimin xeyir olduğunu deyə bilmərəm, şər də deyil. Ancaq səninlə bir-iki kəlmə ayaqüstü danışıb gedəcəyəm. Konyakın varmı?

C a h a n g i r a ğ a . Konyaksız düşmənin olsun. Dövlətindən tapılar.

H ə s ə n, Şahmar bəyə konyak gətir.

H ə s ə n (*sol qapını açıb*). Namaz, Cahangir ağa konyak istəyir.

Ş a h m a r b ə y (*Cahangir ağaya*). Səninlə bir xəlvət söhbətim var. Lazımdır ki, burada kənar adam olmasın. Həsən, sən get həyətdə bir çubuq çək, sonra gələrsən.

H ə s ə n. Cahangir ağanın məndən xəlvət söhbəti olmaz.

Ş a h m a r b ə y . Cahangir ağanın səndən xəlvət söhbəti olmaz, amma mənimki var. (*Namaz konyak gətirir, pristav üç rumka içir*.) Di haydı! Ikiniz də çölə zəhmət çəkin. (*Namaz sol qapıdan gedir*, *Həsən həyətə çıxır*.) İmdi mən gəlməyimdən niyyət nə olduğunu deyərəm.

C a h a n g i r a ğ a . Bəli, buyur.

Ş a h m a r b ə y . Sən kənddə oturubsan, dünyadan xəbərin yoxdur. Neçə vaxt bundan qabaq Rusiyada hamı dəmir yollar yatmışdı. Poçtteleqraf qulluqçuları tamamən işdən əl çəkib bikar oturmuşdular. Fabriklərdə işləyən fəhlələr işləri yatırmışdılar. Bunların xahişləri bu idi ki, gərək camaata hürriyyət verilsin.

C a h a n g i r a ğ a . Hürriyyət nədir?

Ş a h m a r b ə y . Yəni hər kəs nə istəyir danışsın, istədiyin yazsın. Bu gün birisi rusdur, sabah dönsün müsəlman olsun, ya erməni olsun, nə məzhəbə keçəcək keçsin. Belə-belə ixtiyarlar istədilər. Deyirlər, vəzirlər gərək öz işləri haqqında camaat vəkillərinə hesab versinlər. Daha belə işlər.

C a h a n g i r b ə y . Deməli, bundan sonra hər qor-qoduq çıxıb ağzına gələni dəyəcək, yazacaq, biz də gərək dinməz qulaq asaq. Bəs buna padşah nə deyir? O belə işlərə heç vaxt razı olmaz. Çox danışarlar, qoşununa buyurar, hamısın it unu kimi dağıdar. Axmaqlar, gör nə xəyala düşüblər!

Ş a h m a r b ə y . Elə dərd budur ki, padşah da bu ixtiyarı veribdir. Hətta üç-dörd il bundan qabaq tutduğum studenti də açıb buraxıblar. Yenə kəndbəkənd düşüb ağzına gələn hədyanlar danışırdı. Labüd qalıb təzədən tutub damlamışam. Qışqırır, çığırır, deyir: "Sənin məni tutmağa ixtiyarın yoxdur. Məni manifestə görə buraxıblar". İmdi bu gecə onu şəhərə göndərəcəyəm, uşaqlara da tapşıracağam ki, onu yolda manifestə versinlər. Ha, ha, ha!..

C a h a n g i r a ğ a . Yox, bu yaxşı olmadı. Belə işlərin axırından xeyir çıxmaz.

Ş a h m a r b ə y . Advokat İbrahim bəy bir ağıllı adamdır. Deyir rus, yapon davasında basıldı. O səbəbdən məmləkətə belə şuriş düşüb. Deyir əgər rus padşahı bir dava da eləyib basılsa, onun özünü camaat taxtdan salıb, hökumət ixtiyarını öz əlinə alacaq.

C a h a n g i r a ğ a . Allah elə günləri göstərməsin.

Ş a h m a r b ə y . Mən, naçalnikin əmrinə görə, mülkədarları birbir görüb xəbərdar eləyirəm. Rusiyanın işləri şuluqdur. Hər yerdə rəiyyət tökülüb bəylərin mülklərini dağıdırlar, qarət eləyirlər, yandırırlar. Bəzi vaxt özlərini də öldürürlər. Oralardakı küləkdir, olsun ki, buralarda əsə. Odur ki, sizə lazımdır rəiyyətlə bir növ müdara ilə dolanasınız və rəiyyəti üzə durğuzmayasınız. Yoxsa o oyunlar burada da çıxsa, camaatın öhdəsindən gəlmək çətin olar. Gərək qoşun gətirdəsən, camaatı gülləbaranla dağıda. Qoşun da güllə atarmı, ya atmazmı, məlum deyil. Çünki Rusiyada bir-iki yerdə qoşuna əmr veriblər ki, kəndlilərə güllə atsınlar, atmayıblar, deyiblər, biz hamımız kəndli balalarıyıq, öz kəndlilərimizi qırmarıq. Dünən Ehsan xanın yanında idim. Onunla da bu barədə çox danışdım. O da bu gün istəyirdi sənin yanına söhbətə gəlsin.

C a h a n g i r a ğ a . Deməli, Ehsan xan bu gün mənə qonaq gələcək?

Ş a h m a r b ə y . Bəli!

C a h a n g i r a ğ a . Onda binagüzarlıq lazımdır.

Ş a h m a r b ə y . Daha mən dayana bilmərəm. Gərək gedib sair mülkədarlarla da görüşüm.

C a h a n g i r a ğ a . A kişi, özün deyirsən Ehsan xan gəlir, gözlə gəlsin, bu gecəni burada keçirin. Bizim camaat dinc camaatdır. Ondan sarsaq iş baş verməz.

Ş a h m a r b ə y . Bu sözləri Rusiya mülkədarları da deyirlər. Rəiyyətə etibar olmaz. Hələ ki, xudahafiz!

C a h a n g i r a ğ a . Deməli, qalmağa heç təhərin yoxdur?

Ş a h m a r b ə y . Ara sakitləşsin, asandır, çox vaxt keçirəcəyik. Hə, yaxşı yadıma düşdü. Həsən kişinin qızı nə qayırır? Tasası yatıbdırmı?

C a h a n g i r a ğ a . Yatmayanda od olub məni yandırmayacaqdır ki!

Ş a h m a r b ə y . Qoçaqsan. Gül vurubsan. Xudahafiz. (*Gedir.*)

C a h a n g i r a ğ a . Xudahafiz.

N a m a z (*daxil olur*). Ağa, sənə bir söz deyəcəyəm, ancaq acığın tutmasın.

C a h a n g i r a ğ a . Nə var, nə sözdür?

N a m a z . Doğrusu, ağa iki qoçun başı bir qazanda qaynamaz. Bu evdə gərək ya Həsən otursun, ya mən.

C a h a n g i r a ğ a . Necə, istəyirsən ki, mən Həsəni qovum?

N a m a z . Həsəni niyə qovursan? Həsən sənin arvadıyın atasıdır. Mənə izin ver, gedim özüm üçün bir kasıblıq tapım.

C a h a n g i r a ğ a . Mən sizin heç birinizi buraxa bilməyəcəyəm. Sənsiz, özün bilirsən, mənim tamam işlərim yatar. Həsən də ki... belə, başa düşürsən... Həsəni rədd eləsəm, gərək qızını da rədd eləyim.

N a m a z . Onu sən bilirsən. Çörəyini mənə halal elə. Mən burada qala bilməyəcəyəm. On-on beş ildir sənə nökərçilik eləyirəm. Bundan sonra da gedib başqa bir çörək pulu axtaracağam.

C a h a n g i r a ğ a . Mən yenə deyirəm, nə səni və nə də Həsəni buraxa bilməyəcəyəm.

N a m a z . Mən də qala bilməyəcəyəm.

C a h a n g i r a ğ a . Ay Namaz, buna, adamı divara qısnamaq deyərlər. Bir-iki gün dayan, bir fikir eləyim, sonra sənə cavab verərəm.

N a m a z (*ciddi*). Fikir yeri yoxdur. Düzü, gərək Həsən də, arvadı da və qızı da buradan çıxsınlar. Mən Həsəni gətirib burada çörək

yiyəsi eləmişəm, İmdi yeyib, kökəlib, qudurub. Minib mənim başıma. Mən də papağımı tərsinə çevirəndə qorxuram çox adam dolaşa. Mənim əlimin altında çox adamların işdəkləri var. Mən də ki, özün bilirsən, heç zaddan, heç kimdən qorxan deyiləm. Elə ki höcətə düşdüm, məndən ötrü qazamat, Sibir – hamısı birdir. Amma mənim dalımca dolaşanlara çox təfavüt elər.

C a h a n g i r b ə y . Ay Namaz, axır bu bir təklif deyil ki, sən eləyirsən. Doğrudur, mən nə Həsənin qızını arvad yerində, nə onun uşağını uşaq yerində sayıram. Sənin də insafın yoxdur? Bir neçə vaxt səbr elə, sonra yenə burada bir sən qalacaqsan, bir də mən!

N a m a z . Camaat Həsənin əlindən dad çəkir. Pristavın da danışığını tamam-kamal eşitmişəm. Xalq mənim bircə sözümə məəttəldir ki, Həsənin də, arvadının da cürümünü çəksinlər. Əlavə, özün bilirsən ki, prokuror səni dolaşdırmağa mahna axtarır. Gedib özümü onun əlinə verib, sənin uğrunda tutduğum işlərin hamısının hesabını ona verəcəyəm. Ondan sonra məndən incimə. Daha qulluğundan müraxxəs olaq. *(İstəyir getsin*.)

C a h a n g i r a ğ a . Hara gedirsən? Bir dayan, qulaq as, gör nə deyirəm. (*Namaz dayanır*.) A kişi, sən hirsli adammışsan. Al bu yüz manatı qoy qoynuna, bir-iki gün səbr elə, bəlkə sən deyəni elədim.

N a m a z . Mənə nə yüz manat lazımdır, nə də yüz min manat. Ehsan xan neçə ildir səninlə qohum olmağa çalışır, özü də indicə gəlib evinə düşəcək. Günü bu gün Ehsan xanın qızına elçi düşüb, Həsənin özünü də, qızını da evdən çıxardacaqsan.

C a h a n g i r a ğ a . Bəs onun kəbini?

N a m a z . Kəbinə qol çəkibsən?

C a h a n g i r a ğ a . Necə?

N a m a z . Kəbində mən olmuşam. Onu mən bilmərrə boynumdan ataram, deyərəm kəbin saxtadır. Molla, Həsəndən rüşvət alıb, öz tərəfindən kəsib. Mən də ki, savadsızam, mollanın evinə getdiyimi köküdən danaram. Onda həm qızı başdan elərsən, həm uşağını qəbul eləməzsən. Aralıq soyuyandan sonra Həsəni çağırıb, bir-iki yüz manat xərclik verib yola salarsan.

C a h a n g i r a ğ a . Bəs onda da molla dolaşar.

N a m a z . Molla dolaşanda qiyamət ki, qopmaz. Cəhənnəmə dolaşsın. Gedib qazamatda bir az müftə çörək yeyib, yenə çıxacaq. Çöldə camaat toplaşır.

C a h a n g i r a ğ a (Namaza). Bir bax gör çöldəki nə səsdir?

N a m a z (*qapını açıb baxıb qayıdır*). Ehsan xan buyurubdur.

C a h a n g i r a ğ a . Di çıx uşaqlara de, xanın atını tutsunlar. (*Namaz çıxır. Ehsan xan neçə nəfərlə daxil olur. Cahangir ağa onun istiqbalına yeriyir*.) Xan, bu evə çox xoş gəlibsiniz. Bu ev-eşiyin hamısı sizə peşkəşdir.

E h s a n x a n (*üzündən öpür).* Sən bilirsən ki, mən səni öz oğlum kimi istəyirəm. Budur, neçə vaxtdır səni görmək arzusundayam. Nə eləyim, işin çoxluğundan bir yana tərpənə bilmirəm. Qocalıq da bir yandan qol-qıçımı boşaldıb. Sizin kimi cavanlar gərək biz qocaları yada salalar. Mən gərək sənin qulağını çəkəm, xərəngə. (*Gülür.*)

C a h a n g i r a ğ a . Məni öldürməyə də ixtiyarınız var, buyurun içəri.

H ə s ə n çöl qapıdan daxil olub, gəlib Ehsan xanın yanından etinasız eçir.

E h s a n x a n (*Həsəni dayandırır*). Ay gədə, bir dayan! (*Həsən dayanır.)* Sən quduz Pirverdinin oğlu Həsən deyilsən?

H ə s ə n. Necə?

E h s a n x a n . Məgər bu adamları gözün görmür?

H ə s ə n. Kor ki, deyiləm, niyə görmürəm?

E h s a n x a n . Vaxt ki görürsən, niyə salam vermirsən? Başın ki, qopub yerindən düşməyəcək.

H ə s ə n. Elə ki mənim qızım Cahangir ağadan boşandı, yerinə sənin qızın gəldi, o vaxt baş üstə, salam verərəm.

E h s a n x a n . Axmaq oğlunun danışığına bax! (İstehza ilə) Pah, bağışla, bilmədim, Həsən ağa. Sən axır Cahangir ağanın qayınatasısan. Biz gərək sənə salam verək. (Cahangir ağaya) Ay Cahangir, məgər beş-on girvənkə arpa tapa bilmirsən, bunun qabağına tökəsən, məşğul olub tövlədən eşiyə çıxmaya? *(Gedir sol qapıya tərəf*.)

C a h a n g i r a ğ a (*onu içəri salıb qayıdır, Həsənə*). Heyvan oğlu heyvan! Gərək hər yerdə mənim başımı aşağı eləyəsən? İtil mənim gözümün qabağından!

H ə s ə n. Necə? Məni qovursan?

C a h a n g i r a ğ a . Qovuram, bir də üstündən!

N a m a z (H ə s ə nə). Çox danışma, çıx çölə, naqqal oğlu naqqal! (*Boynundan tutub salır eşiyə, çöldə camaat küyləşir.)*

B i r i n c i k ə n d l i . Ay camaat, gözünüz aydın olsun, ağa Həsəni iti məsciddən qovan kimi qovdu.

Camaat Həsəni əhatə edir.

İ k i n c i k ə n d l i . Kefin necədir, ay ağanın qayınatası?

Ü ç ü n c ü k ə n d l i . Bildirçinin bəyliyi darı sovuluncadır. Bundan da sonra get Kəbədə yağ iç.

H ə z r ə t q u l u . Həsən əmi, bircə o iyirmi manatı çək eşiyə.

H ə s ə n. Necə iyirmi manatı, ay oğul?!

H ə z r ə t q u l u . İmdi oğul oldum. Yarımca saat bundan qabaq aldığını. Çox dayanma, çək eşiyə, yoxsa çuxanı çıxardaram.

S ə s l ə r . Kişinin pulunu ver, kişinin pulunu ver!

H ə s ə n (*pulu verir*). Al, atam, əl çək məndən.

H ə z r ə t q u l u (camaata). Qardaşlar, bu pul məndən çıxmışdı. İmdi əlimə müftə keçib. Bir qoyun alıb, hamınızı kababa qonaq eləyəcəyəm.

C a m a a t . Ura!..

Na m a z (*orta qapıdan Tubunu çıxardır*). Gəl, sən də əriyin dalınca buyur. (*Çölə salır.*)

B i r i n c i k ə n d l i . Budur, Tubu xanım da gəldi. Ura!..

İ k i n c i k ə n d l i . Ağamın qayınanası gəldi. Ura...ura!..

Ha m ı . Ura... Ura... ura!

Uzaqdan alov görünür.

B i r i n c i k ə n d l i . Ay uşaqlar, o görünən alov nədir?

İ k i n c i k ə n d l i . Deyəsən cüvəllağılar H ə s ə nin evinin yandırırlar.

B i r i n c i k ə n d l i . Yaxşı oldu, haqqında oldu. Yellə gələn sellə gedər.

Tu b u (*alovu görüb*). Oy!.. Oy!.. Evinə od düşsun, a mənim evimi yandİran! Ay üstünüzə od tökülsün, evimi niyə yandırırsınız? A sizing ananız mələsin, evimi niyə yandırırsınız? (*Həsənin boynuna bir yumruq vuru*r.) A başı daşlı, əməzək, bivec! Allah döysün səni! Evin yanır, ölü kimi niyə dayanıb baxırsan? Yüyür, bir təhər çək! Hər ikisi yüyürür.

C a m a a t (*dalınca*). Ay qoymayın, getdilər ha! Alabaş, tut ha!..

B i r i n c i k ə n d l i . Xalqdan soyub aldığı maldır, indi də istisinə qızışsın. Canına lənət gəlsin, ay onun evinə bir aftafa su tökən! Sol qapıdan Gülnisə, qoltuğunda üç yaşında bir uşaq, başının tükləri pəjmürdə, çıxır.

N a m a z . Atayın evi yanır, sən də haraya yüyür.

G ü l n i s ə . Gedirəm, gedirəm... Məni qovanın üstünə gün doğsun. Bu gün mənim üçün toy-bayramdır. Mən zindandan qurtarmışam. Gordan evə qayıdıram. Atamın evini yandırırlar. Elə atamın özünü gərək yandırsınlar. Mən gedirəm, amma bu uşaqdan mənə cəza verənlərin canına bir yağı bəsləyəcəyəm ki, gərək onun öhdəsindən gələ bilsinlər. (*Yüyürüb çıxır*.)

DÖRDÜNCÜ PƏRDƏ

Toy məclisi. Böyük bir otaqda kəndlilər halə vurub əyləşiblər. Yuxarı başda toybaşı əyləşib, fərraş, əlində çubuq, ortalıqda dolanır. Balabanlar çalğısı təqibi iləşamlarla bəzənmiş və qızıl vərəqələrlə örtülmüş, meyvəcatla, həlviyyatla dolu birxonça gətirib toybaşının müqabilində qoyurlar. Cavanlardan iki-üç nəfər oynayıbəyləşirlər. Cavanlar oynayan əsnada fərraş çubuğunu camaatın dizlərininqabağında yerə çırpır, qışqırır və özü də musiqinin havasına atılıb-düşür.

F ə r r a ş (*qışqırır)*. Əl vurun! Əl vurun! Bu toy hər toya bənzəməz! Bu, Cahangir ağanın toyudur! Ehsan xanın qızının toyudur! Əl vurun!

T o y b a ş ı . Ağa bu gün toyu camaata verib, biz də gərək eninə, boyuna şadlıq eləyək. Fərraş!..

F ə r r a ş . Bəli!

T o y b a ş ı . Qız-gəlinlərdən yavaş-yavaş çağır, oynasınlar.

F ə r r a ş . Baş üstə! (*Çıxır*).

Bir nəfər üzü örtülü qadın daxil olub, məclisin ortasında dayanır. Aşıqlar ağır havaçalırlar. Qadın ahəstə oynayır. Aşıqlar ağır havadan keçirlər döndərməyə. Qadınbir qədər də iti oynayıb çıxır. Bu minvalla neçə qadın gəlib, belə oynayıb gedirlər. Qadınlar oynadıqca fərraş gəlib camaata əl vurdurur və bir yandan da "şabaş"çağırır. Kənd adətinə görə, camaat oynayan qadınların şərəfinə pul verirlər. Bupulları fərraş alıb, pul verənin adına belə elan edir: "Yenə "filankəsin", yenə "filankəsin" evi abadan olsun! On tümən şabaş elədi. Oyunçular başına, ay şabaş,toy şabaş!". Fərraş bu sözlərlə başqa pul verənlərin də adlarını çəkib qışqırır.Aldığı pulları aparıb xonçaya qoyur.

T o y b a ş ı (*axırıncı qadın oynayıb gedəndən sonra saz aşığına*). Aşıq Cəfər, İmdi dur bir az söhbət elə, görək!

Aşıq Cəfər, əlində saz, balabançı ilə çuxalarını çıxarıb dururlar ayağa. Qabaqca çalğı ilə məclisi dolanırlar, ondan sonra bir oyun havası çalıb, qoşa oynayıb məclisin ortasında dayanırlar və keçirlər "arazbarı" çalğısına. Aşıq Cəfər yekpay oxuyur.

Aşıq Cəfər (*oxuyur*):

Dedim: ey dost, belə sallanma,
Burda yaxşı var, yaman var.
Dedim: ay yar, qadan mən allam,
Dedi: səbr elə, zaman var, ay zalım,
Dedim: ay gül, həmdəmin kİmdir?
Dedi: həmdəmim bülbüldür.
Dedim: ay gül, xara yalvarma!
Dedi: neyləyim, işim müşküldür, ay zalım!
Gözəllər bağda gəzərlər.
Ömrümün gülün üzərlər.
Özlərin bulə bəzərlər.
Biri o yandan, biri bu yandan, ay zalım!

(*Yekpaydan sonra balabançı əyləşir. Aşıq Cəfərin əlində saz, bir az otağı dolaşır.)*
Həzərat, əvvəla, Cahangir ağanın toyu mübarək olsun, ustada da min rəhmət, ustaddır!

Açıq başda olsa əgər bir dilbər,
Onda bu nişanlar müəyyən gərək.
Əndamı ayinə, qəddi mötədil,
Siyah zülfü qamətinə tən gərək.

Yanağı lalənin Baharı kimi,
Ləbləri yaqutun kənarı kimi,
Bir danə nasüftə mirvari kimi,
Başdan ayağadək ağ bədən gərək!

Qövlü sadiq ola, hər feli həlal,
Bilməyə ki, fitnə nədir, məkrü al,
Şam kimi qabaqda dura, nitqi lal,
Kəsilsə də başı dinməyən gərək!

Növrəsidə, on dörd, on beş yaşında,
Eyb olmaya kirpiyində, qaşında,
Həyası üzündə, ağlı başında,
Ağzı-burnu nazik, üzü gen gərək!

Tavus kimi cilvələnə hər səhər,
Bəzək verə cəmalına sərbəsər,
Dİndirməmiş verə könüldən xəbər,
Işarə anlayıb, hal bilən gərək!

Vaqif, yaxşı canan gərək, can üçün,
Nədir çox çalışmaq bu cahan üçün,
Bir gözəl lazımdır bizim xan üçün,
Vali qulluğunda ərz edən gərək!

(*Balabançı yenə durub gəlir aşıq Cəfərin yanına, aşıq Cəfər "Kərəmi" oxuyur:)*

Qatar-qatar olub qalxıb havaya,
Nə çıxıbsız asimanə, durnalar!
Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkanə durnalar?

Ərz eləyim, bu sözümün sağıdır,
Yollarınız həramidir, yağıdır.
Şahin-şonqar sürbənizi dağıdır,
Boyanarsız qızıl qanə, durnalar!

Bir baş çəkin dərdməndin halinə,
Ərzə yazsın, qələm alsın əlinə,
Vidadi xəstədən Bağdad elinə,
Siz yetirin bir nişanə, durnalar!

ŞİKƏSTƏ:

Bu dağlar, dəmir könlüm, daş könlüm!
Hicran gəldi, qaç könlüm.
Çəkil bağlar küncünə.
Qəm dəftərin aç könlüm!

Şikəstədən sonra balabançı çalır, aşıq Cəfər tək oynayıb, toybaşıya baş əyib gedir yerinə.

T o y b a ş ı . Fərraş!

F ə r r a ş . Bəli!

T o y b a ş ı . Uşaqlardan durğuz bir yallı tutsunlar!

Yallı tutulur. Neçə nəfər cavan əl-ələ verib düzülürlər. Bir nəfər əli çubuqlu onlara dəstəbaşı olur. Oynayanların hamısı dəstəbaşının işarələrinə itaət və əməllərinə də təqlid etməyə məcburdurlar. Əks surətdə dəstəbaşı boyun qaçıranı çubuqla vuracaq. Cavanlar qabaqca yerlərində dayanıb, ağır bir havaya dabanları üstündə sağa, sola yırğalanaraq, qalxıb-düşürlər. Çalğı getdikcə qızışır, cavanlar da qızışıb, qabaqlarında dəstəbaşı, oynayaraq, otağı dolanırlar. Dəstəbaşı gah dayanır, gah yerə əyləşib əl çalır. Gah yenə cəld sıçrayıb oynayır. Hamı ona təqlid edir. Axırda yallı tutanlar dayanırlar. Dəstəbaşı ayrılıb tək oynayır. Hamı əl çalır. Dalınca yallı gedənlər növbə ilə oynayanlar. Yallı tamam olur. Həsən oyunun qızğın vaxtında, əynində cındır libas, sifət, saqqal pəjmürdə, divanə halında özünü içəri salır.

H ə s ə n.

Həsənəm, yol kəsənəm, tarı mənəm,
Bil mənəm, hamını mən yaratmışam.
Sizi də mən yaratmışam!

Aşıq! Çal oynayacağam, qızımın toyuna gəlmişəm. Oynamasam arzum ürəyimdə qalar. (*Qışqırır*.) Ay Gülnisə! Atan toyuna gəlib, gəl oynamağına tamaşa elə!

F ə r r a ş (*gəlib qolundan tutur*). Həsən əmi bu, Gülnisənin toyu deyil. Gülnisə çoxdan xalası evinə köçüb gedib. Bu, Cahangir ağanın toyudur. Ehsan xanın qızının toyudur.

H ə s ə n. Nə Cahangir ağa? Nə Ehsan xan? Onları da mən yaratmışam. Şahqulu oğlu Namazı da mən yaratmışam. Aşıq, çal, yoxsa dəyənək başında oynar!

İstəyirlər çıxartsınlar.

T o y b a ş ı . Uşaqlar, görürsünüz dəlidir. Qoyun oynasın, oynar, yorular, çıxıb gedər. Aşıq, çal!

Aşıqlar çalırlar. Həsən divanəvarı oynayır. Gəldikcə qızışıb başlayır dolaşmağa, birdən yıxılır.

F ə r r a ş (*istəyir durğuzsun*). Ay uşaqlar, bu ki ölübdür!
S ə s l ə r . Necə ölübdür? Nə danışırsan?

Durub Həsənin meyitini əhatə edirlər.

T o y b a ş ı . Bəli, sağlığında camaata əziyyəti az dəymişdi, gərək ölüsü də xanımın kefini pozaydı. Götürün bu mərdimazar oğlunun meyitini!

Meyiti götürürlər.

PƏRDƏ

BEŞİNCİ PƏRDƏ

Bir kənddə Dairə icraiyyə komitəsi. Bir masa rubəruda sədr üçün və birisi də sağ tərəfdə katib üçün qoyulmuşdur. Masaların yanında neçə taburet və divar boyu skamyalar düzülmüş. Skamyalar üzərində neçə nəfər qadın və kişi əyləşmiş. Katib yazıya məşğuldur. Sədr hələ gəlməmiş.

Q o ç a ş i k a y ə t ç i . (*katibə*). Ay oğul, bəs İskəndərzadə yoldaş nə vaxt gələcək? Çoxdandır gözləyirəm.

M i r z ə S ə m ə d . Bir azca dayan, əmican, İndicə gərək gəlsin. Mərkəzdən şkolaların böyüyü gəlibdir. Bu gün kənddə şkola binası qoyacaqlar.

Q o c a . Görünür, xeyir işə gedibdir, ziyanı yoxdur, gözlərəm. Axşamacan da gəlməsə incimərəm.

M i r z ə S ə m ə d . Yox, bu saat gələr, məəttəl olmazsan.

Q o c a . Ay oğul, mənim başım çəkməyən bəla yoxdur. Gedirdik pristavın qapısına, deyirdilər ağa yatıbdır, gözlə, oyanıb işinə baxar. Günorta olurdu, ağa yatıb, gün əyilirdi, ağa yatıb. Deyirdik, ay canım, yolumuz uzaqdır, qaranlığa düşərik, yolda atımızı əlimizdən alarlar, burada yatmağa yerimiz yoxdur. Deyirdilər, nə çoxdur bağlarda ağac, get birinin altında yat. Ağa bu gecə səhərəcən filan bəyin evində qumar oynayıb, gün çıxandan sonra evə gəlibdir. O, gün batınca durmayacaq. Dursa da səni sənin işinə baxası olmayacaq, çünki çox pul uduzub, sağ-solunu qapır. Çıxıb gedirdik işimizə. Çox vaxt olurdu ki, bir iş düşəndə beş ağsaqqal çağırırdıq, gəlib işimizi barışdırırdılar. Deyir-

dik, qoy ziyan çəkək, pristavın sifətini görməyək. İmdi, budur, təzə hökumət gələndən bəri pristavların piyan sifətlərindən qurtarmışıq. Gəlirsən, altına kürsü çəkirlər, sənlə insan kimi danışırlar. İşinə də də oyanlıq, bu yanlıq, insafla baxıb yola salırlar. Bu İskəndərzadə yoldaş gələndən bəri işlər gün-gündən yaxşılaşır. Yaxşı oğlandır, ona mənim belə bu qoca canım Qurban olsun.

M i r z ə S ə m ə d . Əmican, pristavı padşah təyin eləyirdi. O da padşahın tərəfini gözləyib, camaatın belində qamçı işlədirdi. İmdi hökuməti camaat seçir, o da camaata qulluq eləyir.

Q o c a . Düzdür, Qurbanın olum, elədir. (*Hamı əyləşənlərə*) Elədir?

H a m ı ə y l ə ş ə n l ə r . Elədir, elədir. Yoldaş mirzə düz buyurur.

İ k i n c i ş i k a y ə t ç i . Ay kişilər, mən sizə bir gülməli şey nağıl eləyim. Bir az bundan qabaq Xədicə oğlu Kərbəlayı Əhmədin evinin yanından keçirdim. Gördüm çox adam yığılıb. Soruşdum nə var, dedilər, təzə şkol açırlar. Yoldaş İskəndərzadə orada idi. Bir də baxdım ki, Molla Talıb yanından küsmüş uşaq kimi, qıraqda boynunu bükmüş oturub bir daşın üstündə. Yeriyib salam verdim. Dedim: molla əmi, dəstgahı görürsənmi? Dedi görürəm, Allah bu Şura hökumətinin cəzasını versin, tamam uşaqlarımızı dindən çıxardacaq. Hər kənddə bir belə şeytan yuvası tiksələr, işlər düzələr. Dedim nə baxırsan, niyə vurub dağıtmırsan? Deyir məgər bu kafirlər məndə hərəkət qoyublar? Ancaq başımın milçəyini qoruyuram. Keçmiş vədə olaydı, şkolun altında od qoyub yandırmışdım. Deyir başımın milçəyini qoruyuram... ha!.. ha!.. ha!..

Hamı gülüşür.

M i r z ə S ə m ə d . Onun kimi başlarının milçəklərini qoruyanlar çoxdurlar. Daha onların dövranı qurtardı.

Q o c a . Çox yaxşı olur. Qoy hamısının aclarından ağızlarına qurd düşsün, qırılsınlar. Hamımızı bisavad, dünyadan bixəbər eləyən onlardırlar. Bəylərin plovların yeyib, camaatı da onların xatiri üçün qaranlıqda saxladılar. Deyir: hər kəs rus elmi oxusa, rusca danışsa, qiyamətdə dilinə əqrəb yapışacaq. Biz də inanırdıq. Ay sizin diliniz düşsün.

M i r z ə S ə m ə d . Əlbəttə, onlara elə sərf elərdi. Qoyun ağıllanarsa südünü öz balasına verər. Odur ki, qoyunun ağıllanması çobana ziyandır. İmdi budur, məktəb açırlar, uşaqlarınız oxuyarlar. Əkini elmlə əkərlər, barama qurdunu elmlə saxlarlar, bağlarını elmlə becərərlər.

Görərsən biri mənim kimi katib oldu, biri komitə sədri oldu, biri üzv oldu... Savadlı kəndliyə həmişə iş tapılar.

İ k i n c i ş i k a y ə t ç i . Qardaşlar, təzə hökumətin işinə nə söz ola bilər? Bundan qabaq bəy min çuvalın yerini əkirdi, rəiyyət bir çuval toxum səpməyə yer tapmırdı. Buradan durub, gedib Əzizsultanlı yerində əkin əkirdik. İmdi isə yeri öküzünə tök, nə qədər gücün çatır, ək. Pul lazım olardı, gedərdin həftəbazar kərbəlayıların, hacılarının yanına, adamın qulaqlarının dibindən kəsib buraxırdılar. Ölənəcən onların borclarının altından çıxmırdıq. İmdi budur, gözəlcə bankımız var. Pul lazım olanda, gedib yüngülcə müamilə ilə götürürük. Vaxtında da aparıb veririk. Mirzə Səməd. Bəylər də, hacılar da, kərbəlayılar da, hamısı cəzalarına çatdılar. İmdi də onlar geridən baxırlar.

Q o c a . Şamçıraqlı Cahangir ağanı eşidibsənmi?

İ k i n c i ş i k a y ə t ç i. Necə?

Q o c a . Camaatın başına nə oyun qaldı gətirməsin! Öz rəiyyətindən birinin qızına aşiq olub, yazığın nişanlısını öldürüb, sonra da arvad adına aparıb evində dörd il saxlayandan sonra, qucağına bir uşaq verib evindən qovdu. Padşah taxtdan düşəndən sonra o qızın nişanlısını öldürəni buraxdılar, gəldi evinə. Gələndən sonra, tamam camaatı durğuzdu Cahangir ağanın üstünə. Camaat tökülüb ağanın evini yandırdı. Namaz adlı bir darğası var idi, onu tikə-tikə elədilər. Ağa da o vaxtdan başını götürüb qaçıb. Yerini də bilən yoxdur.

İ k i n c i ş i k a y ə t ç i . Haqq olub, ona o da azdır, gərək özünü də evi kimi yandıraydılar.

İ s k ə n d ə r z a d ə (*daxil olur, xalq ayağa qalxır*). Əyləşin, yoldaşlar, zəhmət çəkməyin, köhnə, paslanmış adətləri buraxın getsin. Mən sizin hamınızdan cavanam, gərək mən sizin ayağınıza duram. Sizə bu gün bir yaxşı məktəb açdıq. Bu kənd bina olunandan məktəb görməyibdir. Bir azdan sonra məktəbsiz bir kənd qalmaz. Gərək məmləkətimizdə bir bisavad olmasın. Hamı oxusun. Qızlar, oğlanlar, hələ qocalar da gərək oxusunlar. (*Katibə*) Mirzə Səməd, doğrudan da, məktəbimizin binası çox gözəl binadır, otaqlar böyük, işıq!

M i r z ə S ə m ə d . Heyf ki, mən dəftərxananı buraxıb gedə bilmədim. Yəqin gözəl nitqlər söyləndi.

İ s k ə n d ə r z a d ə . Bəli, mərkəzdən gələn inspektor göyçək danışdı. Mən də bir neçə söz dedim. Danışdığım yerdə gözüm Molla Talıba sataşdı. Bir kənardan durub dəvə nalbəndə baxan kimi tamaşa

eləyirdi. (*Əyləşir yerində, şikayətçilərə*) Di gəlin görüm, dərdiniz nədir? (*Qadına*) Bacı, qabaqca sən gəl.

Q a d ı n (*qabağa yeriyir*). Ay oğul, mənim, ayıb olmasın, bir qızım var, on yaşı ola, ya olmaya. Özünü də kənddə məktəbə qoymuşam. İmdi mənim kişim deyir, gərək qızı ərə verim. Deyirəm, ay kişi, bir insafın olsun, mürüvvətin olsun. Qoy bir az oxusun, böyüsün. On yaşında uşağı sən hara ərə verirsən? Deyir, olmaz ki olmaz. İmdi, budur, neçə gündür, ağacın birini itdə eləyib, birini məndə. Axır labüd qalıb, yanına gəlmişəm.

İ s k ə n d ə r z a d ə . Haralısan, bacı?

Q a d ı n . Çuxurkəndliyəm.

İ s k ə n d ə r z a d ə . Ərinin adın nədir?

Q a d ı n . Onu görüm adı batsın. Ramazan Ilyas oğlu.

İ s k ə n d ə r z a d ə (*katibə*). Yoldaş Mirzə Səməd, Çuxurkənd komitəsinə bir əmr yaz, sabah Ramazan Ilyas oğlunu buraya göndərsinlər. (*Qadına*) Məgər sənin ərinin gözləri kordur? O demirmi ki, mən bu balaca uşağı hara verirəm? Bundan nə arvad olacaqdır?

Q a d ı n . Qurbanın olum, elə mənim də dediyim odur. Mən deyib, mən eşidirəm. Deyir qırxdır, biri əksik deyil. Deyir şəriətə baxsan, gərək qızı doqquz yaşında ərə verəsən. Bu qızın yaşı, deyir, az qalıb on bir olsun. Ərə verməsəm, məni cəhənnəm oduna yandırarlar.

İ s k ə n d ə r z a d ə . İndi, bacı, istəyirsənmi ərinə tənbeh olsun?

Q a d ı n . Onun boğazından da assalar ürəyi soyumaz.

İ s k ə n d ə r z a d ə . Çox yaxşı, sabah gələr buraya, mən ona bir yaxşı şəriət dərsi verərəm. (*Katibə*) Mirzə Səməd, kağızı yazdınız?

M i r z ə S ə m ə d (*məktubu təqdim edir*). Buyurun.

İ s k ə n d ə r z a d ə (*oxuyub imza edir*). Bu kağızı bir atlınan göndər. (*Qadına*) Bacı, bu gecə burada qalmağa yerin varmı?

Q a d ı n . Var, qadan alım, bacım evi var.

İ s g ə n d ə r z a d ə . Çox yaxşı, sən get. Sabah ərin buraya gələr, onda sən də gələrsən.

Q a d ı n . Ömrün uzun olsun, cavan qəddin yerə dəyməsin. (*Gedir*).

İ s k ə n d ə r z a d ə (q*ocaya*). Dayı, gəl görüm sənin qulluğun nədir?

Q o c a (*qabağa gəlir*). Ay oğul, mənim, ayıb olmasın, üç oğlum var, üçünü də evləndirmişəm. İmdi əkin yerimiz azlıq eləyir. Kənd komitəsinə neçə dəfə getdim-gəldim, əlac olmadı. İmdi səni deyib gəlmişəm. Yazasan qonşumuzdakı xali yerdən bir az kəsib bizə versinlər.

İs k ə n d ə r z a d ə . Əlinizdə nə qədər yer var?

Q o c a . Olar bir üç çuvalın yeri.

İ s k ə n d ə r z a d ə . (*katibə*). Yoldaş Mirzə Səməd, götürün bunların kənd şurasına yazın ki, buna, arvad və uşaqlarına nüfuz hesabı ilə nə qədər yer düşürsə, müəyyən edib versinlər. (*Mirzə başlayır yazmağa.*) Dayı, sən get, arxayın ol.

Qo c a . Ömrün uzun olsun. Sənə bu qoca canım Qurban . (*Katibə*) Mirzə, kağızı yaz ver, elə özüm aparım.

M i r z ə S ə m ə d . Budur, əlimdə yazıram. Dayan qurtarım, qol çəkdirim, apar.

Qoca çıxır.

İ s k ə n d ə r z a d ə (şikayətçiyə). Buyur görək sənin nə qulluğun var?

Ş i k a y ə t ç i . Mənim şikayətim, a yoldaş, mirabdandır. Bağım yanırdı, getdim, yalvardım, üçcə gecəlik ondan su istədim. Gör mənə nə deyirlər, deyir, avcıma qoy, avcına qoyum. Yəni pul ver, su apar. Verməyə pulum olmadı, ağaclarım yanır, bağa baxsan yazığın gələr.

İ s k ə n d ə r z a d ə . Mən mirabı çağırtdırmışam. Sən də get, arxayın ol, sabah bağın su içər. Hansı kənddənsən?

Ş i k a y ə t ç i . Quruqatlaq kəndindən.

İ s k ə n d ə r z a d ə . Adın nədir?

Ş i k a y ə t ç i . Behbud H ü s e y nqulu oğlu.

İ s k ə n d ə r z a d ə (*yazır*). Di get, xatircəm ol. (*Katibə*) Mirzə Səməd, mirab gəlibdirmi?

M i r z ə S ə m ə d (y*azır*). Bəli, gəlibdir. Iki nəfər çağırdığımız kəndlilər də gəliblər.

İ s k ə n d ə r z a d ə (*qapıdakı milis nəfərinə*). Çıx, mirabı da, onunla bir yerdə çağırılan kəndliləri də buraya gətir. (*Milisioner çıxır. Şikayətçiyə)* Sən, yoldaş, dayanma, get evinə.

Şikayətçi gedir. Mirab iki nəfər kəndli ilə daxil olur.

İ s k ə n d ə r z a d ə (*miraba*). Yoldaş, bu camaat sizi mirab seçib, sizə məvacib təyin edibdir ki, siz də qayda ilə camaatın əkənəcəyinə, bağına, bostanına su verəsiniz. Nəinki kəndlinin birindən rüşvət alıb, suyu tamam oraya buraxıb, qalan kəndlilərin əkinəcəklərini yandırasınız. *(Mirab başını aşağı salır.)* Niyə cavab vermirsiniz?

M i r a b . Daha nə cavab verim?! Məgər mən camaatdan rüşvət istəyirdim? Öz xahişləri ilə mənə peşkəş veriblər. Budur, gətirmişəm, yenə özlərinə qaytar. (*Pulu verir*.)

İ s k ə n d ə r z a d ə (*pulu alır*). Bu hələ qalsın burada. Bunun yeri Mtapılar. (*Birinci kəndliyə*) De görüm bu pulu miraba kim verdi? (*Katibə)* Mirzə, qocanın kağızı hazır isə, ver, qol çəkim, onu yola sal getsin.

M i r z ə S ə m ə d . Bəli, hazırdır. (*Təqdim edir. İskəndərzadə imza edir. Mirzə çıxıb, söhbət əsnasında yenə qayıdır.)*

İ s k ə n d ə r z a d ə (*birinci kəndiyə*). Hə, söylə görüm, kim verdi rüşvəti?

B i r i n c i k ə n d l i . Tamam camaat.

İ s k ə n d ə r z a d ə . Necə tamam camaat? Biz kəndə gələndə iki günlərlə camaatın hamısını bir yerə toplaya bilmirik. Nə oldu, mirab gələn kimi, hamı camaat birdən yığıldı?

B i r i n c i k ə n d l i . Doğrusu, əkin-əkinəcəyimiz yanırdı. Camaatdan üç-dörd vəkil seçib göndərdik mirabın yanına. Mirab cavab verdi ki, su, budur, mənim əlimdə, cibimdə, atımın quyruğunda. Elə ki, iki gündən sonra kəndə gəldi, camaat hamısı "su mirabın atının quyruğundadır" deyib, hər yerdən axnaşdı. Kağıza bükülü pulu mənə verdilər, mən də buna verdim.

İ s k ə n d ə r z a d ə . Nə qədər pul idi?

B i r i n c i k ə n d l i . Qədərini bilmədim, saymadım.

İ k i n c i k ə n d l i . Mən pulu bunun əlindən alıb saydım, tamam yeddi yüz manat idi.

İ s k ə n d ə r z a d ə (*pulu sayır*). Düzdür. İndi, yoldaş mirab, sizi də, bu iki nəfəri də göndərəcəyəm şəhərə, prokurorun ixtiyarına.

M i r a b . Qələt eləmişəm, yoldaş İskəndərzadə, mənə nə tənbeh eləyirsən özün elə. Məni prokurorun caynağına vermə.

İ s k ə n d ə r z a d ə . Yox, yoldaş. Şura idarəsində rüşvətxorun yeri yoxdur. Sizə tənbeh olmasa, özgələrinə də ibrət olmaz. *(Milisionerə*) Bunları apar saxla. (*Milisioner aparır*.) Mirzə Səməd, bir kağız götürün, bu həftənin seksiyalar iclaslarının siyahısını yazın.

M i r z ə S ə m ə d (*kağızı götürür*). Bəli, buyurun.

İ s k ə n d ə r z a d ə . Şənbə – abadanlıq seksiyası, bazar ertəsi – maarif seksiyası, çaharşənbə – təsərrüfat seksiyası. Elanları vaxtında göndərin.

M i r z ə S ə m ə d . Baş üstə.

M i l i s i o n e r (qayıdır). Yoldaş İskəndərzadə, bir nəfər qoca kişi, budur neçə gündür səfil, sərgərdan kənddə gəzir. Nə adını deyir, nə yerini. İmdi gətiriblər buraya, onu nə eləyək?

İ s k ə n d ə r z a d ə . İçəri gətirin, görüm necə adamdır. *(Milisioner çıxır. Bir nəfər beli bükülmüş, başı, saqqalı ağ kişini gətirir.)* Dayı, gəl otur görək. (*Qoca əyləşir*.) Gəlişin nə yerdəndir?

Q o c a . Soruşmasan yaxşıdır. Yerim yadımdan çıxıb. Dövlətim var idi, mülküm var idi. Hamısı əlimdən getdi. Üç dəfə məni Dustaqxanaya salıb çıxartdılar. İmdi ac, sərgərdan dolanıram.

İ s k ə n d ə r z a d ə (*katibə*). Mirzə, buna bir stəkan süd və çörək gətir. (*Mirzə Səməd masanın dalındakı qapıdan gedib, danışıq əsnasında süd, çörək gətirib qocaya verir Qoca içir*.) Dayı, mən də sənin kimi üç dəfə Dustaqxanaya düşüb çıxmışam. Deməli, dərdimiz birdir. Ancaq məni Dustaq eləyən hökumət səni Dustaq eləmədi. Necə ki, səni Dustaq eləyən hökumət məni Dustaq eləmir. Deməli, dövlətli, varlı bir bəy idin.

Q o c a . Bəli, neçə para kəndim var idi. İlxılarımın, naxırlarımın hesabı yox idi. Yüz nəfər qonaq qəflətən qapıma düşsə idi, hamısını qonaq eləməyə məqdurum var idi. İmdi dilənçi sifətində gəzirəm.

İ s k ə n d ə r z a d ə (*bir qədər fikrə gedir*). Qoca, sən kim olduğunu mənə söylə. Mən də söz verirəm ki, bir kəsə açıb deməyəm. (*Katibə)* Mirzə, bizi tək qoyun. (*Katib çıxır.)* Burada İndi bir mənəm, bir də sən.

Q o c a . Bala soruşma adımı. Çörək verdin yedim, evin abad olsun. Daha izin ver çıxım gedim.

İ s k ə n d ə r z a d ə . Bu ətrafda neçə nəfər mülkədar var idi. Birisi Süleyman ağa idi ki, öz rəiyyətləri öldürdülər. Birisi Ehsan xan idi...

Q o c a (*diksinir*). Daha kifayətdir, dalını sadalama.

İ s g ə n d ə r z a d ə . Sən Ehsan xan deyilsən. O, şura hökumətindən qabaq ölübdür. Diksinmə. İndi bildim sən kimsən? Sən Cahangir ağasan, belədirmi? (Qoca özünü yıxır skamyanın üstünə.) Mən səni tanıdım, İndi sən də məni tanı! Mən Həsən kişinin qızı Gülnisənin oğluyam. Gərək anamı yaxşı tanıyasan!

Q o c a (*qışqırır*). Oğlum! (*İstəyir qucaqlasın*.)

İ s k ə n d ə r z a d ə (*soyuq*). Əyləş yerində. Mən sənin kimi vücudun oğlu olmağımı özümə əskiklik hesab edirəm. Sən mənim anamın sevgili adaxlısı Səfi oğlu İskəndəri öldürüb, anamı kef üçün aparıb, Ehsan xanın qızını alanadək saxlayıb, axırda qovdun. Mənim anamın ölə-

nədək gözünün yaşı qurumadı. Mən də anamın təskini üçün özümə İskəndərzadə adı qoydum. Əlində ixtiyar olan zaman camaatın qanını su yerinə axıtdığın vaxtlarda, öz kefin üçün özgənin qanını tökməyə ar etməyən zamanda, belə bir günün gəlməsini fikir etsəydin, bu halətə düşməzdin.

Q o c a . Oğul, deginən məni burada öldürüb, əziyyətdən qurtarsınlar.

İs k ə n d ə r z a d ə . Yox, sənin üçün ölüm səadətdir. Səni öldürən sənə böyük iltifat etmiş olar. Özün fikir elə, gör sənin vücudun bir güllənin qiymətinə dəyərmi? Sənə böyük tənbeh, səni bu halətdə qoymaqdır ki, ömrüyün axırınadək avara dolanıb, köhnə hökumətin qayıtmasına müntəzir olasan. Get buradan, get, get. (*Zəng çalır, milisioner daxil olur*.) Bu kişini aparıb, qədim xanlıq meşənin ortasında yola buraxıb, qayıdarsan.

M i l i s i o n e r . Baş üstə. Gedək, qoca.

İ s k ə n d ə r z a d ə *(milisionerə pul verir)*. Götür pulu. Buna çörəkdən, yavanlıqdan al ver, özü ilə aparsın. (*Qocaya*) Di get, qoca! Sənin kim olduğunu heç kəs bilməz. Mən də arzuma çatdım. Qoca və milisioner çıxırlar. İskəndərzadə onu yola salıb, yerində əyləşir. Sonra iki əli ilə başını tutub, özünü masanın üstünə yıxır.

PƏRDƏ

MƏŞƏDİ QULAM QİRAƏT ÖYRƏNİR

Bir pərdə, iki şəkildə

İŞTİRAK EDƏNLƏR:

M ə ş ə d i Q u l a m	M ə ş ə d i R a m a z a n
Ş a h p ə r i – onun arvadı	M i r z ə Y u s i f
C a h a n g i r – onun oğlu	N a t a ş a

BİRİNCİ ŞƏKİL

Əhvalat vaqe olur Məşədi Qulamın evində. Məşədi Qulam əyləşib, əlində çotgə, hesab çəkir. Mirzə Yusif, əlində kitab, durub.

M i r z ə Y u s i f . Bu gün sizin ev xərci həmişəkindən birə yüz artıqdır. Nə vaqe olub?

M ə ş ə d i Q u l a m . Nə işin var? Hesabını de. Bir neçə nəfər molla tələbə çağırmışam, atama Quran oxutduracağam.

M i r z ə Y u s i f . Allah rəhmət eləsin.

M ə ş ə d i Q u l a m . Allah sənin də ölənlərinə rəhmət eləsin. Bir-bir de görüm.

M i r z ə Y u s i f . Bir dənə toyuq üç manat.

M ə ş ə d i Q u l a m . Bu da üç manat toyuq. Evin dağılmasın, üç manata bütün dəniz kənarındakı evləri almaq olardı, içi cavahirat qarışıqlı... Sonra?..

M i r z ə Y u s i f . Beş girvənkə sədri düyüsü beş manat.

M ə ş ə d i Q u l a m . Bu da beş manat.

M i r z ə Y u s i f . İki girvənkə yağ səkkiz manat.

M ə ş ə d i Q u l a m . Allah evini yıxsın, baqqal tayfası, hər yerdə varsan. Bir neçə gün bundan qabaq getmişəm yağ almağa. Soruşdum girvənkəsi neçəyədir? Dedi üç manatdır. Dedim, balam, nə üçün belə baha? Dedi bu gün qızıl qalxıbdır. O səbəbdən yağ da qalxıbdır. Qızıl aşağı düşəndə getdim yağ almağa. Bu səfər beş manat dedi. Dedim, balam, qızıl ki düşüb, niyə belə yağ qalxıb? Dedi yağın işi başqadır. Dedim Allah insafınızı kəssin.

M i r z ə Y u s i f . Səhər dükana kağız gətirən rus balasına verilib iki qızıl onluq. Bu da elər otuz altı manat.

M ə ş ə d i Q u l a m . Onu dəftərə yazma, poz getsin.

M i r z ə Y u s i f . On da yumurta iki manat.

M ə ş ə d i Q u l a m . Bu da iki manat.

M i r z ə Y u s i f . Axundovların mağazasından qənd gətirən hambala bir manat.

M ə ş ə d i Q u l a m . Bir manat hanı, zalım oğlu zalım? Vurub mənim pullarımı belə dağıdır. Atalarının malı deyil. Alnının tərini töküb qazanmayıb ki, qədrini də bilsin. Sabah inşallah o pirkeşiklərin hamısını qovacağam.

M i r z ə Y u s i f . Məşədi, bu vaxta görə bir manat çox deyil. Bir girvənkə çörək verməyirlər.

M ə ş ə d i Q u l a m . Bir hambal deyil, hər işiniz belədir. Hər cümə axşamı beş-altı onluq xərc olur. Hətta üç manat, a kişi, dilənçi pulu hesabda göstərirsən.

M i r z ə Y u s i f . Nə olar ki. Gündə yüz manat, səksən manat qazanmağıma bəs deməyirsən?

M ə ş ə d i Q u l a m . Yüz manatın da yeri var. Pulu havayı dağıtmaq olmaz.

Qapının dalından zümzümə səsi gəlir. Məşədi Ramazan daxil olur.

M ə ş ə d i R a m a z a n :

Pərişin türreyi-tərrar, gahi rast, gahi gəc,
Tökülmüş qamətə oynar, gahi rast, gahi gəc.

M ə ş ə d i Q u l a m . A Məşədi Ramazan, nə olub yenə kefin ərşiələda seyr edir? (*Mirzə Yusifə*) Daha axşamdır, get, hesabı sabah çəkərik.

M ə ş ə d i R a m a z a n . Buralarda yaramaz yoxdur ki? (*Ətrafa baxır.*)

M ə ş ə d i Q u l a m . Arxayın ol, sözünü danış.

M ə ş ə d i R a m a z a n . Sən öl, iş var, nağıl özgədir. Bu gün cuhud qızı ilə barışmışam, ancaq bilmirəm evdə nə bəhanə eləyəcəyəm?

M ə ş ə d i Q u l a m . A kişi, bugünkü gün nə gözəl gündür! Allah ömrümüzdən hesab eləməsin.

M ə ş ə d i R a m a z a n . Necə, yoxsa sən də barışmısan?

M ə ş ə d i Q u l a m . Barışmısan da sözdür?! Bu gün özü mənə kağız göndərib. Amma necə kağız? Hər hərfi yüz milyona dəyər. Yazır

ki, mənim sevgilim, Maşaduşkam. Pəh, pəh, pəh... Maşaduşka sənin bir cüt ala gözlərinə Qurban olsun. Yazır ki, mənim sevgilim, Maşaduşkam, bu gecə evdə bir qazan toyuqplov bişitdirib, gətir yanıma; əgər gətirdin, sənə bir cüt öpüş verəcəyəm; gətirməsən, daha gözümə görünmə. Necə yəni gətirmərəm?! Bu canımı toyuq edib plovun başına qoyub qulluğuna gətirrəm. Tapşırmışam, plov hazır olacaq. Ancaq, Məşədi Ramazan, bir əhvalat var. Plovu arvad hazırladı. Əbləh qızı elə biləcək ki, mən də evdə oturub, balalarımı başıma yığıb yeyəcəyəm. Ay hay. Şükür ha. Daha nə bilsin:

Şəkkəre Mazandaran, şəkkəre Hindistan,
Hər do şirinəst, kocavu, an koca.

Bir iş var ki, mən də sənin köküdəyəm. Bilmirəm plovu arvadın əlindən nə tövr alacağam, ay məşədi Ramazan? Heç bir plan tapa bilmirəm. Axı sən bir ağıllı kişisən. Eşq havası mənim gözümü örtüb, ağlım heç bir zad kəsmir.

M ə ş ə d i R a m a z a n . Məşədi Ramazanın evini Allah yıxsın. Ay kişi, keçəl dərman bilsə, öz başına çarə edər. (*Fikirləşir.)* Yavaş, yavaş, deyəsən tapmışam.

M ə ş ə d i Q u l a m . De, de, görüm, qoçağım.

Mə ş ə d i R a m a z a n . Deyilən Allah rəhmət eləsin.

M ə ş ə d i Q u l a m . Kimə?

M ə ş ə d i R a m a z a n . Sənin işin yoxdur, deyilən Allah rəhmət eləsin.

M ə ş ə d i Q u l a m . Axı kimə? Bəlkə heç rəhmətə layiq deyil?

Mə ş ə d i R a m a z a n . Belə məni əkib, adımı Ramazan qoyan ataya.

M ə ş ə d i Q u l a m . Allah rəhmət eləsin.

M ə ş ə d i R a m a z a n . Atam yadıma düşən kimi dərdimin əlacını tapdım.

M ə ş ə d i Q u l a m . De gəlsin, atam sənə Qurban.

M ə ş ə d i R a m a z a n (*yavuqlaş*ır). Bax, arvadlara deyərik ki, gedirik axundun qulluğuna, qiraət öyrənməyə. Plovu da, deyərsən, aparıram axund ilə bərabər yeməyə, vəssalam.

M ə ş ə d i Q u l a m (*bir az fikirdən sonra*). Bəs elə isə İndi ağızağıza verib ağlaşsaq necə olar?

Mə ş ə d i R a m a z a n . Çox yaxşı olar, başla görək.

M ə ş ə d i Q u l a m . Evi yıxılan canım vay!

M ə ş ə d i R a m a z a n . Başına daş düşən canım vay!

M ə ş ə d i Q u l a m . Bütün ibadəti hədərə gedən canım vay!

M ə ş ə d i R a m a z a n . Cəhənnəmə təpəsi üstə salınan canım vay!

M ə ş ə d i Q u l a m . Cəhənnəmdə ilanlara, əqrəblərə, gürzələrə xörək olan canım vay!

Daldan səs eşidilir.

M ə ş ə d i R a m a z a n . İnkir-minkir toppuzu altında əzilən canım vay!

M ə ş ə d i Q u l a m (*gedir qapıya*). Arvad eşidib, əkil.

Məşədi Ramazan gedir.

Ş a h p ə r i (*daxil olur*). A kişi, nə olub belə ağız-ağıza verib mələşirsiniz?

M ə ş ə d i Q u l a m . Arvad, heç soruşma, atamızın evi yamanca yıxılıb. İndicə Məşədi Ramazan burada idi. Dedi ki, bu gün axundun yanında idim. Axund buyurub ki, hər kəs qiraətini bilməsə, min il ibadət edə, elə ona əyilib-düzəlmək qalacaq. Qiyamətdə onun ibadətinə bir qəpik verməyəcəklər. Bəs mən budur altmış ildir ibadət edirəm, Xorasana ziyarətə getmişəm. Bəs necə ola bilər ki, mənim bir belə ibadətim hədərə getsin? İndi Ramazan ayı yavuqlaşır. Əlacım yoxdur. Gərək gedib qiraətimi öyrənəm. Məşədi Ramazan deyir ki, hər gün otaqda otuz-qırx adam qiraət öyrənir.

Ş a h p ə r i . Plov bişib hazırdır, ye get, nə öyrənirsən öyrən.

M ə ş ə d i Q u l a m . Rəhmətliyin qızı, nə qoyub nə axtarırsan? Nə plov, nə dolma, nə fisincan, nə badımcan? Hamısı zəhrimar olsun. Heç zad yeməyəcəyəm. Hamısı zəhərdir. O plovu bir böyük qaba çək, təmiz qab olsun. Toyuğu qoy üstünə, bağla bir təmiz dəsmala, özümlə götürüb aparım axundun qulluğuna. Həm də orada qiraət öyrənim. Plovun qalanının üstünə bir-iki yumurta vur, ver uşaqlar yesin. Mənim boğazım tikilib, bu saat bir qaşıq su da getməz.

Ş a h p ə r i . Nə deyirəm, a kişi, sən deyən olsun. Novruz bayramından sonra bir dəfə toyuqplov bişib, o da belə. Eybi yoxdur.

M ə ş ə d i Q u l a m . Eybi yoxdur, arvad. Gələn cümə axşamı yenə toyuqplov bişirib uşaqlara verərsən. Get plovu çək, gətir bura.

Arvad gedir. Məşədi Qulam üst-başını düzəldənə kimi plov gəlir.

Ş a h p ə r i . Ala, apar. Məşədi Ramazanın qıçı sınsın, gəldi bu gün uşaqların çörəyinə mane oldu, haram elədi.

M ə ş ə d i Q u l a m . Elə mən də dedim. Dedim, rəhmətliyin oğlu, bu sözü sabah gəlib mənə xəbər edəydin. Bu gecə balalarım ilə rahat çörək yeyərdim. Boğazım, nə isə, arvad, töküldü (ö*skürür*). Pərvərdigara, günahkar bəndənəm. Özün mənim günahımdan keç. (*Gedir, bayırdan səsi gəlir.)* Ada fayton!

Şahpəri gedərkən oğlu Cahangir gəlir.

C a h a n g i r . Ana, atam bu vədə fayton ilə haraya getdi? Xeyirdirmi?

Ş a h p ə r i . Nə bilim, balam? Dedi gedirəm axundun yanına qiraət öyrənim.

C a h a n g i r . Ha... ha... ha... Qiraət! Ay bədbəxt övrətlər.

Ş a h p ə r i . Necə? Yoxsa bir şey bilirsən?

C a h a n g i r . Heç zad bilmirəm. Atam doğru deyir, qiraət öyrənməyə gedib. Çörəyimizi yeyək, sonra çarşabı salarsan başına, düşərsən yanıma. Səni bir baş aparram atamın yanına. Görərsən nə gözəl qiraət öyrənir. Gedək, bədbəxt atamın qiraəti var. Ha... ha... ha...

PƏRDƏ

İKİNCİ ŞƏKİL

Vaqe olur Nataşanın otağında. Məşədi Qulam əyləşib başında araqçın. Nataşa qolunu onun boynuna salıb, şərab verir.

Na t a ş a . Bu rumkanı da mənim sağlığıma vur.

M ə ş ə d i Q u l a m . İçmirəm, ay məşədinin maral balası, dəxi doymuşam.

Na t a ş a . Mənim sağlığıma içmirsən, mən də səndən küsəcəyəm. Ölsən də sənə öpüş verməyəcəyəm.

M ə ş ə d i Q u l a m . İçsəm, öpüş verərsən?

Na t a ş a . Əlbəttə.

M ə ş ə d i Q u l a m . Ver bura, ay madam. (İçir.) Bir busə məndən eləmə müzayiqə. Mən səndən etmərəm müzayiqə. Can, di buxaqdan iki busə ver.

Na t a ş a . Sonra.. sonra. Görürəm yuxun gəlir. Gəl uzan təxtin üstündə.

Məşədi Qulamı təxtin üstə uzadır.

M ə ş ə d i Q u l a m . Əyləş yanımda, başımı al dizinin üstünə.

N a t a ş a (*onun pul bumajnikini çıxarır*). Deyilən lyublyu.

M ə ş ə d i Q u l a m . Loblu, loblu.

Na t a ş a . Əməlli de, lyublyu, lyublyu...

M ə ş ə d i Q u l a m . Loblu, loblu.

Na t a ş a . Lyublyu de, maşaduşka.

M ə ş ə d i Q u l a m . Loblu... Yenə loblu.

Cahangir və Şahpəri gəlirlər.

Ş a h p ə r i. A sənin üstünə kül tökülsün, belə qiraət öyrənirsən? Hə?

M ə ş ə d i Q u l a m (*Şahpərinin üstünə gedir*). Loblu, loblu...

Ş a h p ə r i . Allah səni bundan da pis günə salsın. Getdiyin Xorasan sənə qənim olsun. Bu sifət sənin saqqalına yaraşır?!

M ə ş ə d i Q u l a m . Arvad, acığın tutmasın. Atanın goru haqqı, sən çox yaxşı arvadsan. Allah sənin atanı sovnarxoz eləsin. Hamısını öyrənmişəm ancaq bir vələzzalin çıxmayır. Valazzalimik... valazzalimik...

Ş a h p ə r i . Kəs səsini, murdar pyaniskə...

M ə ş ə d i Q u l a m . Arvad, sənin canın üçün öyrənmişəm. Yalan demirəm. Yalan deyirəmsə, atanın gorunda qurbağa olum, qur-qur quruldayım. İt olum, ham... ham... mır-mır mırıldayım. Hamısını bilirəm

Məsələn, loblu... loblu.

Ş a h p ə r i . Kül başına, daş düşsün başına, Allah səni yox eləsin!

C a h a n g i r (*qolundan dartır*). Gedək evə, ata.

M ə ş ə d i Q u l a m . Valazzalimik, valazzalimik... zındıq oğlu zındıq.

C a h a n g i r . Çox gözəl... Çox gözəl. Gedək.

M ə ş ə d i Q u l a m . Gözəl öyrənmişəm. Bax, arvad, oğlun səndən çox bilir, deyir gözəl bilirsən. Valazzalimik... Görürsən necə öyrənmişəm! Hə, loblu, loblu.

Ş a h p ə r i . Allah üzünü qara eləsin!

M ə ş ə d i Q u l a m . Loblu... loblu... loblu...

Ş a h p ə r i . Düş qabağıma, abırsız! Sənə bir lobyə yedirdərəm, ölənə kimi yadında qalar, dadı damağından getməz.

M ə ş ə d i Q u l a m (*gedərkən*). Valazzalimik... loblu, loblu...

Məşədi Qulamı aparırlar. Nataşa onların dalınca baxır, sonra gülə-gülə qayıdır, əlində də Məşədi Qulamın pul bumajniki.

PƏRDƏ

QADINLAR BAYRAMI
(8 Mart)

İki pərdəli pyes

İŞTİRAK EDƏNLƏR:

Z a m a n	}
F e y z i	} kəndlilər
B a l a k i ş i	}
H a d i	}
C a h a n –	Zamanın arvadı
N ö v r ə s t ə –	Zamanın qızı
B i r i n c i q a d ı n	}
İ k i n c i q a d ı n	} Cahanın qonaqları
S a i r q a d ı n l a r	}
A h ı l q a d ı n	
B i r i n c i q ı z	} kənd qızları
İ k i n c i q ı z	}
C a b b a r –	müəllim

Mərkəzdən gəlmiş nümayəndə
Qadınlar, qızlar, pioenerlər, məktəb
uşaqları, cavanlar, kənd əhalisi

BİRİNCİ PƏRDƏ

Əhvalat Azərbaycan kəndlərindən birində vaqe olur. Qolçomaq Zamanın evində kəndin hampalarından bir neçə nəfər əyləşmişlər.

Z a m a n . A kişilər, biz hamımız bu saat binamus olmuşuq! Bundan sonra biz adımızı kişi qoyub başımıza papaq geyib, el içinə çıxa bilməyəcəyik. Arvadları gətirib mİndiriblər bizim boynumuza. İmdi, odur, qudurublar, hərəsinin ağzından bir loğaz çıxır! Bu yazıqcığaz başı qapazlı, qoyun kimi arvadların hər biri qızmış şirə dönüb, düşüblər bizim canımıza! Üstlərinə əl qaldırsan, deyir, bu saat gedib şikayət elərəm, səni tutub qazamata salarlar!

F e y z i . Canım, heç zad deyil, yəqin dünyanın axırıdır! Bundan qabaq toyuq xoruz kimi banlayanda başını kəsirdilər. İmdi toyuqlar hamısı xoruz olublar. Gərək İmdi də xoruzlar yumurta üstündə cücə çıxardalar.

Ba l a k i ş i . Yumurta üstündə yatıb cücə çıxartmaq bu saat elə mənim peşəmdir. Bir də gördün ki, arvad deyir: a kişi, sən uşaqlara mu-

ğayat ol, bu gün nümayəndə iclasına, nə bilim, savad kursuna, nə bilim haraya gedəcəyəm. Deyirəm, a mürtədin qızı, mən uşaq saxlamağı nə bilirəm? Mən inək sağmağı nə bilirəm? Budur, çuxam dağılıb, bu gün oraya getmək əvəzinə, xana qurub mənə bir çuxalıq şal toxu. Cavabından gör mənə nə deyir: mən seçilmişəm, vəzifəmdir ki, gərək gedib işləyəm. Sən də mənə mane ola bilməzsən! Ay sizi bizim başımıza çıxardanlar dərbədər düşsünlər!

H a d i . Mənim arvadımı hamınız tanıyırsınız. Allahın ağzı otlu bir heyvanı idi. Hamı deyirdi ki, mələsə, əti halaldır. Başına yüz qapaz vursaydın, yuxarı baxmazdı. Bir gün orucunu yeməzdi, namazını keçirməzdi, həmişə də deyirdi ki, a kişi, sən atanın goru, məni bir Xorasana apar, gedim ağamı ziyarət edim. İmdi namazın da, orucun da vaxtını yadından çıxarıbdır. Axmağın qızı, nənəm yaşına çatıb, İmdi başlayıb ki, dərs oxuyuram. Şurada gedib çalışacağam. Elə bil ki, bu kəndin kişiləri şuranın işlərini onsuz apara bilməyəcəklər.

Z a m a n . Yox, canım, buna bir təhər çəkmək lazımdır. Arvad cəhənnəm, pisdir, boşarsan gedər işinə. Bundan da yaman dərdimiz var. Arvadlara baxıb qızlarımız da pis öyrənirlər. İmdi qızların hərəsi qoltuğuna bir kitab vurubdur ki, dərs oxumağa gedirəm. Qızlarımız da oxudular, molla oldular, işimiz bitdi. Başlayacaqlar cavan oğlanlara kağız yazmağa, onda gəl eşşəyini palçıqdan çıxart da! Arvad, atanın gorunu sevirsən, arı, namusu yemisən, Allah əzabını versin, barı bu qızları rahat qoy, məni binamus eləmə! Deyir, axmaq danışma, köhnə fikirləri başından çıxart, qızla oğlanın nə təfavütü var? Qız da oğlan kimi insan deyilmi? O da istəməzmi ki, açıq gözlə dünya işığına baxsın? Bilmirəm mürtədin qızı bu dilləri haradan öyrənibdir? Məni belə danışığa basır ki, lap mat qalıb, cavab da verə bilmirəm.

F e y z i . Bir gün arvadı çağırıb dedim, ya arvad, gəl əyri oturaq, düz danışaq. Sən bilmərrə abrı, həyanı qurşağına düyünləmisən. Mən də olmuşam binamus. Gündə bir qaçırsan sobranyalara, yığıncaqlara, nəmənəqomlara, adlarını da dilim tutmur. O günləri də deyir ki, gedib şurada kişilərin içində danışırmış. İmdi ki belədir, deyirəm, elə birdibli boşan get! Ondan sonra nə qələt eləyəcəksən, özün bilərsən. Deyir, çox danışma, boşanmaq lazım olsa, sənə deyərəm. Deyirəm, ay ala donquzun qızı, səni boşamaq ixtiyarı məndədir, ya yox? Deyir, onlar keçmiş ola! O sənin şəriətİndir. Deyirəm, arvad, şəriətə də şəkk gətirirsən? Deyir, bu şəriəti yazan hamısı kişilərdir, arvadlar yazsaydılar, belə yazmazdılar.

Z a m a n . Qardaşlar, burada oturub boğaz yırtmaqdan fayda yoxdur. Durun, buradan hamımız gedək molla Xəlil axundun yanına. Yenə o bizdən ağıllıdır. Görək nə məsləhət görəcək. Bu tüstü bir bizim bacamızdan çıxmır, hamının bacasından çıxır.

Ba l a k i ş i . Pis məsləhət deyil. Axır, ay Zaman kişi, bir buraya bir işdən ötrü gəlmişik.

Z a m a n . Necə iş, xeyir ola?

Ba l a k i ş i . İnşallah xeyirdir. Şər düşmənin qapısından girsin. Sən bu Hadi kişini necə tanıyırsan?

Z a m a n . Hadi kişini kim tanımır? Bunun kimi düz, doğru adam harada tapılar?

Ba l a k i ş i . Çox gözəl. Atan rəhmətlik. Bunun oğlu Qədimi necə görürsən?

Z a m a n . Niyə, yaxşı oğlandır. Əkən, tökən, qoçaq, əlindən hər iş gələn oğlandır. Allah öz pənahında saxlasın.

Ba l a k i ş i . İmdi bizim buraya gəlməyimizdən qəsdimiz budur ki, Hadinin oğlu Qədimi sənə oğulluğa verək. Sən də gərək bizim sözümüzü yerə salmayasan. Bir qız əvvəl-axır bir oğlana qismət olasıdır. Hadidən yaxşı qohum, Qədimdən yaxşı yeznəni də sən tapmayacaqsan.

Z a m a n . Mən heç vədə Qədimə bilayiq oğlan demərəm. Yaxşı, başıaşağı, həyalı oğlandır. Hadi də nəinki öz kəndimizdə, hətta cəmi mahalda abırlı bir adam sayılır. Ancaq, izin verin, bir qızın anası ilə də danışım. Onun da ürəyini bilim. Sonra sizə cavab verərəm. Keçən vaxtlar olsaydı, dinməz-söyləməz deyərdim: “Allah xeyir versin!”. Amma İndi özünüz arvadların xasiyyətlərinə bələdsiniz. Kişinin bir sözünə otuz bir cavab verirlər.

Ba l a k i ş i . Nə eyib elər, arvadınla da bir danış. Yəqin onun da bir sözü olmayacaq.

H a d i . Eybi yoxdur, danış, sabah cavabına gələrəm.

Ba l a k i ş i . Inşallah, əliniz yaxşı yağa bulaşar. İmdi qalx, Zaman kişi, düş qabağa, gedək, görək axund bizə nə yol göstərəcək.

Z a m a n . Siz yavaş-yavaş gedin, mən də daldan gəlib sizə çataram. Qonaqlar bir-bir çıxırlar.

Ba l a k i ş i . Qırılasınız sizi, ay arvad tayfası!

F e y z i . Toxumunuz kalana düşsün, kalana da bir od.

Z a m a n . Amin, ya rəbbi! (*Qonaqları yola salıb, qayıdır.)*

C a h a n (*daxil olur*). Kişi, yenə dost-aşnalarını başına yığmısan, xeyirdirmi?

Z a m a n (*şuxluqla*). Sən hər gün gedib, sobranyalarda şaftalı tabağı kimi ortalığa atılıb reç oxuyursan, biz də dul, sahibsiz adamlar kimi bir yerə yığışıb öz günümüzə ağlayırıq. Deməli, buna da gərək sizdən izin istəyək?

C a h a n . A balam, ağlamalı günlər keçdi. İmdi isə sevinməli, xoşlanmalı günlərimiz gəlibdir!

Z a m a n . Zarafat qalsın kənarda, bir gəl otur, sənə bir neçə deməli sözüm var.

C a h a n . Əgər yenə mənimlə şəriətdən, zaddan danışacaqsan, boş yerə başını ağrıdıb, mənim də vaxtımı əlimdən alma.

Z a m a n . Yox, şəriətdən danışmayacağam. Sən bir yolluq buğda yeyib cənnətdən çıxmısan. Mən də danışmaqdan yorulmuşam. Otur, ayrı söhbət var.

C a h a n (*oturur*). Di oturdum, buyur görək.

Z a m a n . Bu kişilər bilirsən nə üçün gəlmişdilər?

C a h a n. Yox, bilmirəm, söylə sən bilərəm.

Z a m a n . Bunlar elçiliyə gəlmişdilər. Bizim Növrəstəni Hadinin oğlu Qədimə istəyirlər.

C a h a n . Yəqin sən də dedin "Allah xeyir versin!". Beləmi?

Z a m a n . Elə onun kimi bir iş oldu. Dedim sənə gənəşməsəm qurtaran cavab verə bilmərəm. Hadinin oğlu bir yaxşı oğlandır. Hadi də hər bir yerdə sayılan bir adamdır.

C a h a n . Hadi də yaxşı kişidir, oğlu da yaxşı oğlandır. İmdi mən də səndən bir şey soruşum. Bircə de görüm ki, sən göydən düşmüsən, yoxsa o dünyadan gəlmisən? Axmaq kişi, budur, tamam on ildir, dörd ətrafında çəkic vururlar. Sən deyirsən, bu nə taqqatuqdur? Vay sənin başına daş düşsün! Yaxşı, Hadinin oğluna sən ərə gedəcəksən, yoxsa mən?

Z a m a n . Nədir, yoxsa dediyin budur, mən on beş yaşında qızla məsləhətə oturum? Elə bircə bu qalmışdı, arvad! Atamın goru haqqı, məni cana doyduracaqsan, axır bir gün səni də öldürəcəyəm, uşaqların da bir-bir başlarını kəsəcəyəm. Qoy ondan sonra məni də aparıb güllə qabağına qoysunlar. Daha bu yerədək adamı saymamazlıq olmaz ki! Lap bir belə ağ eləmək olmaz ki! Ata olasan, öz qızını ərə verməyə ixtiyarın olmasın? Bu hansı şəriətdədir, hansı zakondadır? (*Papağını*

başından götürüb yerə çırpır.) Ay sahibsiz qalasan belə papaq! (*Cahan qəhqəhə ilə gülür*.) Niyə gülürsən, ay mürtədin qızı?!

C a h a n . Nəticəsini görərsən! (*Çağırır*.) Ay Növrəstə, ay Növrəstə!..

N ö v r ə s t ə (*daxil olur*). Nə deyirdin, ana?

C a h a n . Atan səni Qədimə vermək istəyir, nə deyirsən?

Z a m a n (N*övrəstəyə*). Ay qız, çəkil buradan cəhənnəmə! (*Cahana)* Ay arvad, bu uşağı niyə çağırıb, üzünü açırsan?

N ö v r ə s t ə . Ata, hələ mən dərs oxuyuram, elə ki oxudum qurtardım, bəyəndiyim oğlanların birisinə də gedərəm. Bir də, ata can, qoyun satmırsan, keçi satmırsan. Məndən xəbərsiz məni necə ərə verirsən?

Z a m a n (*qəzəbli*). Axmaq qızının danışığına bax! Doğru deyiblər, anası çıxan ağacı balası budaq-budaq gəzər! Belə anadan belə qız törəyəcəkdir! Zamananız dağılsın! Sizə tərbiyə verənin evi yıxılsın! Əbləhin qızı, elə bu saat itilərsən gözümün qabağından. Oturarsan evdə, qapıdan çölə çıxarsan, durub qıçını sındıraram. Gəlib sənin o kitablarının hamısına od vuracağam! Bir də uşkola adı çəksən, dilini tutub dibindən kəsəcəyəm. Çəkil buradan, bihəya!

N ö v r ə s t ə . Kəndin qızları hamısı oxuyur. Mən də oxuyacağam. Sənin də məni məktəbdən çıxarmağa heç ixtiyarın yoxdur.

Z a m a n . Mənim ixtiyarım yoxdur? Mürtədin qızı, yoxsa mən ata deyiləm? İmdi mən sənə öz ixtiyarımı göstərərəm. Budur, gedirəm axundun yanına, orada mən sənin kəbinini Hadinin oğlu Qədimə kəsdirərəm. Onda sənin bu uzun dilin gödələr!

C a h a n . Zakon on beş yaşında qızı ərə verməyə ixtiyar vermir!

Z a m a n . Zakon ixtiyar vermir, şəriət ixtiyar verir. A mürtədin balaları, mənim atalıq ixtiyarımı əlimdən aldınız, namusumu tapdaladınız, şəriətimi də əlimdən alacaqsınız?! Şəriət doqquz yaşında qızları ərə verməyi rəva görür, qurtardı getdi. Mənim qarşıma zakon çıxaranların qarşısına şəriət çıxardaram. Görək kim güclüdür!

N ö v r ə s t ə . İşin yoxdur, ana, qoy nə bilir eləsin. O, axundun yanına gedər, mən də kənd şurasının. Ondan sonra kim güclü olduğun baxıb görərik. Dur, ata, buyur axundun qulluğuna!

Z a m a n . Gedərəm də, sənin o qurd düşmüş dilini də yaxşı kəsərəm! *(Durur*.)

N ö v r ə s t ə . Get, get!..

Z a m a n (*gedə-gedə*). Laməzhəb uşağı laməzhəb. İmdi sizə əlimin suyunu göstərərəm (*Cəld çıxır*.)

C a h a n . Qoçaq qızım, yaxşı cavab verdin.

N ö v r ə s t ə . necə eləyim, ana? Bir də görəcəksən gəldi qapını bağladı. Bir gecədə götürüb bir axmağın birisinin tərkinə atdı. Bu saat gedib kənd şurasına deyəcəyəm ki, atam məni oxutmaq istəmir, özümü də ərə verir. (Gedir. Qapı açılır, beş-altı nəfər qadın içəri daxil olurlar).

C a h a n . Nə var, ay arvadlar, xeyirirmi?

B i r i n c i q a d ı n . Xeyir olmamış nə var? Sənin canın üçün, bütün kəndin arvadlarını görmüşük. İmdiyədək yatdıqları bəsdir, gərək hamısı bugünkü seçkiyə getsinlər. Daha bir nəfər "ay mən uşaqlarımı yiyəsiz qoyub camaat işlərinə məşğul ola bilmərəm" demir. Hamı bu on ilin müddətində lazımınca ayılıbdır.

İ k i n c i q a d ı n . Elə ki, məni də istədilər aparıb iş üstə qoysunlar, yalvardım, dedim amandır, məni uşaqlarımdan ayırmayın. Mənim balalarım gözümün qabağında olmasalar, bir dəqiqə rahat ola bilmərəm. Axırı olmadı, əl çəkmədilər, aparıb qadınlar şöbəsində oturtdular. Mən camaat işinin, camaat qulluğunun belə şirin olduğunu bilmirdim.

Q a d ı n l a r d a n b i r n e ç ə s i . Belədir, həqiqət belədir!..

C a h a n . İmdi bizim hüququmuz kişilərlə bərabərdir. Gərək biz də öz bacarığımızı göstərək. Kənd şurasına qadınlardan bir neçə nəfər üzv seçək. Bacarsaq, şura sədrini də qadından seçək!

Q a d ı n l a r . Cahan xala düz deyir, belə də edilməlidir!

C a h a n . Kəndimizin məktəbi yoxdur, bulağı yoxdur. Bu seçkidə ən bacarıqlı və qanacaqlı adamları şuraya seçməliyik ki, bu məsələləri həyata keçirtsinlər! Camaatın qara su içməkdən hamısının qarnı şişibdir. Çalışıb kəndə bir bulaq suyu gətirtmək lazımdır. Arvadlarımız Bahar girəndən sonra payızın axırınadək bağda, əkində gedib işləyirlər. Aya, bir yer lazımdırmı ki, işə gedən arvadlar körpə uşaqlarını aparıb orada qoysunlar? Bundan ötrü də çocuq yaslisi açmaq lazımdır.

H a m ı . Bu hər şeydən vacibdir.

C a h a n . Hər yerdə qiraət komasi açılır, amma biz İmdiyədək onun adını eşidib, üzünü görmürük. Yağış yağandan sonra küçələrimizdə yerimək olmur. Heç olmasa kəndin bir küçəsini də daşlamaq lazımdır.

İ k i n c i q a d ı n . Cahan xala gözəl danışır. Biz gərək hamımız birləşib, bizə verilmiş ixtiyaratdan tamamilə istifadə edək. Qoy görsünlər ki, biz də iş bacarırıq. Gərək bacardıqca seçkidə çox qadın keçirək. (*Cahana)* İmdi bilirsənmi, Cahan xala, biz bir çox qadınların tərəfindən buraya deleqat gəlmişik. Biz çalışacağıq da, məramımıza da çata-

cağıq. Biz səni kənd şurası sədrliyinə namizəd seçmişik. Sən də gərək boyun qaçırmayasan.

C a h a n . Mən camaat qulluğundan, özünüz bilirsiniz, qaçmamışam və qaçmaram da. Amma bir şey var, mənim yaşım qırx beşi adlayıb. Aranızda qoçaq, işbilən, savadlı qadınlar var, onlardan birinin namizədliyini qoyun.

İ k i n c i q a d ı n . Yox, Cahan xala. Gərək bizim sözümüzü yerə salmayasan. Sən bizim savadlılarımızdan artıq iş görə bilərsən və halonki savadsız qadınlar üçün gecə kursları açıb, tamam savadsız qadınları savadlandırarıq.

C a h a n . Baş üstə, siz istəyəndən sonra mənim də sözüm yoxdur, razıyam. Ancaq seçki yavuqlaşır, gərək kənd arvadlarının hamısının ağızlarını bir yerə yığasınız.

İ k i n c i q a d ı n . Bu barədə arxayın ol. Kəndin cavan, qoca qadınları hamısı bir dil, bir ürəklə seçkiyə gedəcəklər.

C a h a n . Çox gözəl! Yaşasın çalışqan kənd qadınları!

H a m ı . Yaşasın qeyrətli Cahan xala!

İ k i n c i q a d ı n . Salamat qal, Cahan xala, biz də gedən işimizdə olaq.

Arvadlar gedirlər.

N ö v r ə s t ə (*tələsik daxil olub*). Ana, getdim kənd şurasına xəbər verdim. Onlar da adam göndərib atamı mollanın evindən çağırdılar. Özünə də dedilər ki, əgər qızının oxumağına mane olasan, ya onu özündən bixəbər ərə verəsən, səni tutub qazamata salacağıq. İmdi budur, hirsli gəlir. Mən qaçıb gizlənəcəyəm. (*Çıxır.*)

Z a m a n (*daxil olur*). Məramına çatdın, arvad. Bundan sonra sən çal, mən də oynayım. (*İstehza ilə*) Anlamamışam, qələt eləmişəm, cənab Cahan xanım, bağışla məni, taqsırlarımdan keç! (*Qeyzlə*) Məlun uşağı məlun! Namusumu əlimdən aldınız. (*Hirsli, papağını yerə çırpır.*) Alın, bu da papağım!

PƏRDƏ

İKİNCİ PƏRDƏ

Kənd meydançası. Evlər qırmızı bayraqlarla müzəyyəndir. Bir tərəfdə qiraət koması. Qiraətxanadan kəndlilər çıxır və oraya daxil olurlar. Müqabilində qırmızı parçalara bükülmüş su budkası. Dəstə-dəstə uşaqlar orada-burada oynaşırlar. Su budkasının yanında yekə bir daş. Növrəstə budkanı bəzəməkdədir. Neçə nəfər ahıl və cavan qadınlar, arxalarında sənəkləri, gəlib səhnədən keçmək istəyirlər. Növrəstəni görüb dayanırlar.

A h ı l q a d ı n . A bala, Növrəstə, bu nə xəbərdir? Kənd belə bəzənməkdə kimi gözləyir?

N ö v r ə s t ə . Heç kimi. Bilmirsən ki, bu gün martın səkkizi və qadınların bayramıdır? Axşamdan hamıya xəbər verilməyibdirmi?

Ah ı l q a d ı n . Xəbər verilibdir, ancaq hər martın səkkizində bayram olursa da, bu cəlalla olmur. Bugünkü başqa cəlaldır. Dedim bəs Bakıdan qonağımız gələcək.

N ö v r ə s t ə . Qonağımız da gələcək. Amma bir iş var, İmdiyədək iş başında qolçomaqlar dururdular, onlar hamısı qadınların və qadınlığın düşməni idilər. Onlar heç vaxt qəbul eləməzdilər ki, qadınlar başıaçıq meydanlara çıxıb bayram saxlasınlar. İmdi qadınlar da iş başındadırlar. Bugünkü bayramımızı şərəfətlə keçirməliyik. Qayıdın geri, sənəklərinizi qoyub, buraya cəm olun.

Ah ı l q a d ı n . Necə qayıdaq? Evdə bir içim su yoxdur.

N ö v r ə s t ə . Bu gün, günorta çağı su budkası açılıb, kəndə şirin bulaq suyu axacaqdır. Dünən bu barədə elan olunmuşdu, eşitmədinizmi?

Ah ı l q a d ı n . Vallah, Cahan hər işləri düzəldir, qoçaq arvaddır.

B a ş q a b i r q a d ı n . Onun qoçaqlığını ondan bil ki, bu yaşında, üç-dörd ayın içində savadlandı. İmdi yazır, oxuyur. Hər gün ona Bakıdan qəzet gəlir.

A h ı l q a d ı n . İmdi biz gəlib Cahan xalaya tay ola bilmərik. Özü də bir qabil arvaddır. Budur, bu ilin içində gör kəndi necə abad eləyibdir.

N ö v r ə s t ə . Yox, qabillikdə iş yoxdur. Mollaxanada köhnə qayda ilə, köhnə əlifba ilə dərs verirdilər, odur ki, orada boş yerə neçə il sərf eləyib, bir şey də öyrənə bilmirdilər. Amma İmdi şura məktəblərində təzə əlifba ilə dərs verirlər. Bir aydan sonra, görərsən, adam gül kimi oxuyub-yazır.

A h ı l q a d ı n . Mən də oxumaq istərdim, ancaq ərimdən qorxuram.

N ö v r ə s t ə . Mən sənə İndidən deyim, heç qorxma. Sən məktəbə bir ərizə yaz ver, ondan sonra işin yoxdur. Ərin mane olsa, mənə xəbər ver.

Ah ı l q a d ı n . Səni boya-başa çıxasan, ay belə qız! Günü sabah ərizə verəcəyəm. Bəs ərizəmi kim yazacaq?

N ö v r ə s t ə . Gələrsən, mənim özüm sənə ərizə yazaram.

A h ı l q a d ı n . Çox gözəl. Səni görüm ağ günə çıxasan.

N ö v r ə s t ə . Di haydı, qayıdın geri, sənəklərinizi evinizdə qoyub, qayıdın buraya. Sonra gəlib buradan gözəl şirin su apararsınız.

Q a d ı n l a r . Gedək, gedək. Sağ olsun Cahan xala!

Gedirlər. Neçə nəfər məktəb qızları Növrəstənin yanına gəlirlər.

B i r i n c i q ı z . Yoldaş Növrəstə, bizi niyə çağırmırsan, gələk sənə kömək eləyək? Sən tək bunu nə vaxta qurtaracaqsan?

N ö v r ə s t ə . Nə bilim, zəhmət vermək istəmədim.

İ k i n c i q ı z . Zəhmət nədir, bayramımızdır, gərək işləyək, təntənəli keçsin. Qızlar, gəlin.

Hamı birlikdə başlayırlar budkanı bəzəməyə. Bu halda üç nəfər on altı-on yeddi yaşlarında oğlan gəlir.

C a b b a r . Yoldaşlar, bizə də bir iş verin, sizə kömək eləyək. Nərdivana dırmaşmaq, çəkic vurmaq qadın işi deyil.

B i r i n c i q ı z . Niyə deyil? Qadın sizdən acizdir?

C a b b a r . Biz “acizdir” demədik. Hər kəs öz işində gərək mahir olsun. (*Növrəstəni görür.*) Ay qız, Növrəstə deyilsən? Böyüyüb yekə qız olmusan. Üç ildir səni görmürəm. Mən gedəndə balaca, bu boyda bir qız idin.

N ö v r ə s t ə . Sən də Salman əminin oğlu Cabbar deyilsən?

C a b b a r. Yaxşı tanıdın. Məni buraya, öz kəndimizə müəllim təyin ediblər.

C a h a n (*daxil olur*). A qızlar, cəld olun, qurtarın, vaxta az qalıbdır!

N ö v r ə s t ə . Bu saat, ana can, görmürsən nə qədər köməkçim var? Ana can, bu oğlanı da tanıyırsanmı? Salman əminin oğlu Cabbardır. Burada təzə açılan məktəbə müəllim təyin eləyib göndəriblər.

C a h a n . Çox yaxşı olub. Xoş gəlmisən, bala! Ümidvaram ki, kənd balalarına qaydasınca təlim verəcəksən.

C a b b a r (*əl verir).* Əlimdən gələn səyi eləməyə hazıram.

Hadi, Balakişi, Zaman gəlib səhnədən keçirlər. Zaman vəziyyəti görüb, qızını çağırır.

Z a m a n . Növrəstə, buraya gəl. (*Növrəstə gəlir.*) O danışdığın oğlan kİmdir?

N ö v r ə s t ə . Salman əminin oğludur. Təzə müəllim gəlibdir.

Z a m a n . A mürtədin qızı mürtəd, Salmanın oğlu sənin qardaşındır, əmin oğludur, dayın oğludur?! Onunla nə laqqırtı vurursan?

N ö v r ə s t ə . Ata, danışanda məgər bir xata olar?

Za m a n . Xata da olar, ötər də. Gələrsən evə mürtədin qızı. Bədəninə dağ basmasam, atamın oğlu deyiləm. Məni sən cana doydurdun!

C a h a n (*yavıuqlaşır*). A kişi, uşaqdan nə istəyirsən? Nə qışqırtı salmısan bu meydana?

Z am a n . Uşağın atasının cəmdəyinə min lənət! O günə daş düşəydi ki, sən mənim dağılmış xarabamın qapısından girdin! Özün şura sədri olmusan, nə olmusan, sən bilirsən, daha bu uşağın abrısını tökmə. Cavan qız sənin gözünün qabağında oğlanlarla danışır, sən də durub tamaşa eləyirsən. Ay arvad, heç olmasa bir insafın olsun. *(Qızına*) Gələrsən evə mürtədin qızı, görərsən nə divan tutacağam!

C a h a n . Kişi, dinməz-söyləməz get evə. Mənim xatirim üçün camaat sənin hörmətini saxlayır, sən də yolundan, izindən çıxma!

Z a m a n . Gedirəm, sözüm yoxdur. Vaxta ki namus gedir, qoy köküdən getsin. Hadi, Balakişi, gedək!

C a h a n , Növrəstə budkaya qayıdıb, işə məşğul olurlar.

H a d i . A kişi, qanını xarab eləmə. Gəl gedək Molla Xəlilin yanına söhbətə.

Gedirlər. Cavanlar budkanın bəzəyini qurtarıb çəkilirlər. Növrəstə və Cabbar söhbət edə-edə mehriban gedirlər. Səhnənin sağ tərəfində bir dəstə pioner baraban çalaraq gəlib bir tərəfdən nizamla dayanırlar. Sol tərəfdən məktəb uşaqları – qızlar və oğlanlar qarışıq, qabaqlarında bir dəstə aşıq, əllərində bayraq, daxil olub bir tərəfdən dayanırlar. Bir dəstə kənd qadınları və kişilər də gəlib dayanırlar. Iki-üç dəqiqədən sonra iki nəfər kişi, bir nəfər qadın çıxırlar. Dallarınca Cahan gəlib sədarətdə əyləşir. Cahanı gördükdə hər tərəfdən alqış qalxır.

C a h a n (*sakitlik bərpa olandan sonra ayağa qalxır*). Yoldaşlar! Mart ayının səkkizi münasibətilə çağırılmış iclası açıq elan edirəm. (*Alqış)* Bu gün cəmi dünyanın zəhmətkeş qadınları üçün əhəmiyyətli bir gündür. Bu gündə dünyanın hər tərəfindən, əziyyət, məşəqqət, təzyiq altında qalan, evlərdə dünya işığına həsrət qalıb qara qul mənziləsində olan, fabriklərdə, zavodlarda gündə on iki saat və daha da işləyib qarınları dolusu çörəyə əlləri çatmayan zəhmətkeş, sərhədlərə, fəsillərə baxmayıb əllərini şura işçi-kəndli qadınlarına uzadırlar. Bu gün onların hamısına işıqlı bir günün, gələcəyin müjdəsini verir. Yaşa-

sın Şuralar İttifaqı! Yaşasın fəhlə-kəndli birliyi! Yaşasın Səkkiz mart günü! (*Hamı əl vurur, çalğıçılar çalırlar. Pionerlər barabanlarını vururlar. Cahanın əlinin işarəsilə hamı sakit olur.*) Söz verilir mərkəzdən gələn yoldaşımıza!

Əyləşən kişilərdən biri qalxır ayağa, hər tərəfdən alqış.

M ə r k ə z d ə n g ə l m i ş n ü m a y ə n d ə. Yoldaşlar! Mən torpaq komissarlığı tərəfindən buraya nümayəndə sifəti ilə gəlib, həmin komissarlıq tərəfindən sizin iki bayramınızı təbrik edirəm. (*Alqış*) Birinci bayram keçirməkdə olduğunuz qadınlar günü, martın səkkizi. İkinci bayram, əhalinin qızdırma xəstəliyi kimi ağır bir naxoşluğun əlindən qurtarması bayramıdır. Yoldaşlar! Siz İmdiyədək içdiyiniz iki arşın dərinlikdən çıxan quyu suyu idi. Belə dayazdan çıxan suya kənd arasında "qara su" deyirlər. Hamınız bilirsiniz ki, qara su olan yerdən naxoşluq əskik olmaz. O yerlərin camaatının rəngi sarı, bədəni zəif, qarınları köplə dolu olar. Bu gün kəndə şirin bulaq suyu axacaq və bu suyun səbəbinə sizin içinizdən dediyim azar götürülər. Bu suyun kəndə gətirilməsi, tək şuranın və bir də bu şuranın sədri olan Cahan yoldaşın səyi və ciddiyyəti nəticəsidir. Ona görə üzümü ona tutub deyirəm: yaşa, Cahan xala! (*Alqış, dəf, balaban.*) Yoldaşlar! Azərbaycanda şura hökumətinin səkkiz ili yavuqlaşır. Yeddi il bundan əqdəm Azərbaycanda savadlı qadın tək-tək tapılardı. Şərq qadınlarının arasında yoldaş Cahan və sair kimi fəal qadınlar çıxırlar. Keçmişdə qab-qazan aləmindən savayı bir şey tanımayan qadınlar İmdi iş başına keçib, böyük-böyük idarələri dolandırırlar və kişilərlə bərabər, artıq fəaliyyət göstərirlər. Yaşasın Şərq qadını və onun parlaq istiqbalı!

Alqış, dəf, balaban.

C a h a n (*ayağa durur*). Yoldaşlar! Cəmi əhali tərəfindən, buraya nümayəndə göndərən torpaq komissarlığına izhari-təşəkkür edirəm. (*Alqış*) Mən bu bulaq məsələsi üçün neçə dəfə mərkəzə getdim. Komissarlıqların hamısından məhəbbət gördüm. Biz qadınlar İmdiyədək kişilərin ayaqları altında əzilirdik. Bizi işləməyə qoymayıb, adımızı bacarıqsız qoyurdular. Şura hökuməti sayəsində bizlər də əlimizdən gəldiyini meydana çıxara bilirik. Nümayəndə yoldaş məni tək göstərdi. Amma mən tək işləmirəm. Bütün şura üzvü olan qadınlar və kişilər də bu işlərdə mənə köməkçidirlər. Onların köməyi ilə, höku-

mətin müavinəti ilə, budur, kəndə təmiz şirin su gətirmişik. İkinci, bir məktəb açmışıq. Yaşları ötmüş qadınlar üçün gecə məktəbimiz var. Yaslı bina etmişik. Kənddə mama yoxluğu hiss edilirdi. Qızlarımızdan birisini göndərmişik ki, mərkəzdə oxuyub, bu işi öyrənib gəlsin. Bir az müddət içində biz bu qədər iş görmüşük. (*Alqışlar)*

M ə r k ə z d ə n g ə l m i ş n ü m a y ə n d ə (*qayçını alıb enir*). Torpaq komissarlığı namindən xəlayiqin səhhətinə bais olası bu suyun lentini kəsirəm. (*Lenti kəsir*.) Su başlayır axmağa. Uşaqlar internasional oxuyurlar. Ondan sonra halay vururlar. Cavanlar oynayırlar.

Q ı z l a r d a n b i r i. Ay uşaqlar, Cahan xalanı ortaya çəkin! Gərək onu da oynadaq! (*Bir nəfər Cahanı ortaya çəkir*.) Cahan xala gərək oynasın!

C a h a n. Belə bayramda oynamamaq günahdır! (*Oynayır*.)

PƏRDƏ

KAMRAN

Beş pərdə, on səkkiz şəkildə

İŞTİRAK EDƏNLƏR:

Hacı Mirzə Əhməd ağa –	müctəhid.
Hacı Kamyab –	dövlətli tacir
Bibixatun–	onun arvadı
Gövhər tac –	onun qızı
İbrahim–	baqqal, Hacı Kamyabın qardaşı
Cahanbanu –	onun arvadı
Kamran –	onun oğlu
Xudayar xan –	adlı-sanlı xan
Firidunxan–	onun oğlu
Mirzə Mehdi –	həkimbaşı
Cahanbəxş	}
Fəramərz	} Kamranın yoldaşları
Xurşid	}
Kərbəlayı Mədəd –	Kamranın dayısı.
KərbəlayıQafar	
Seyid Cabbar	
Səyyahvəonunqadını	
Hacı Xudadad və onun arvadı	
HacıRzavəonunarvadı	

Qoca və cavan kəndlilər, qızlar və qadınlar, katib və mirzələr, amil, nökər,qulluqçu və kənizlər, məşşatə, minacatçı və b.

BİRİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

İranda böyük şəhər meydanı. Güclü izdiham. Qoca və cavan qadınlar və kişilər Hacı Mirzə Əhməd ağanın gəlib keçəcəyinə müntəzirdir. Uzaqdan azan səsi eşidilir. Neçə nəfər carubkeş (*süpürgəçilər)* yolu süpürməkdədirlər.

Birnəfərcavan (*bir qocaya*). Əmi can, bu süpürgəçilər nə üçün böylə ciddi-cəhd ilə küçəni süpürürlər? Küçənin bu səhər süpürülüb sulandığını gözümlə gördüm.

Q o c a . Bala, müctəhid ağa indi gəlib buradan məscidə gedəcəkdir. Küçəni süpürməkdən məqsəd budur ki, ağanın ulağının ayağının altında qarışqalar qalıb qırılmasınlar. Ağanın mübarək vücudundan bir zinəfsə, hətta qarışqaya da gərək əziyyət və azar toxunmasın. Eşitməyibsənmi Firdovsi yazır: Meyazar muri ki danəkeş əst, ke can barədə cane şirin xoş əst.[1]

C a v a n . Eşitmişəm, bilirəm gözəl kəlamdır. Ancaq bir məsələ var, onu mənə başa salın.

Q o c a . Nə məsələdir?

C a v a n . Ağa məscidə gedib qayıdınca, onun ulağının ayaqlarının altında çox olsa bir əlli, yüz qarışqa tələf olacaqdır. Amma bu süpürgəçilər bir süpürgə vurduqda neçə yüz qarışqa tələf edirlər. Buna nə deməli?

Q o c a . Bala, belə yerlərə əl aparmaq küfrdür. Bu sirləri ağa sizdən yaxşı bilir.

C a v a n . Bağışlayın, əmi can, mən bunu gözə pərdə çəkmək hesab edirəm.

Q o c a . Nə danışırsan? Müctəhid Hacı Mirzə Əhməd ağa məgər gözlərə pərdə çəkəndir? Oğul, cavan vaxtında imanını yelə vermə. Belə sözlər cəhənnəmi satın almaqdır. Xahiş edirəm mənimlə daha söhbət etməyəsən. Get, bala, məni tək burax.

C a v a n . Baş üstə, gedirəm, bağışlayın. (Gedir.)

İ k i n c i q o c a (birinciyə). Nə üçün o cavan sənin qeyzini tutdurdu?

B i r i n c i q o c a . Bu barədə danışmasaq yaxşıdır. Bu əyyamın cavanları hamısı dini, məzhəbi unudublar. Namaz qılmazlar, oruc tutmazlar, ülamə haqqında hər bir hədyanı söylərlər. Hörməti bir yana yetiribdir ki, Hacı Mirzə Əhməd ağanın haqqında nalayiq sözlər danışır. Bu yəqin ya babıdır, yainki Rusiyada bolşeviklər ilə yoldaşlıq edib, dinindən, məzhəbindən çıxıb qayıdanların birisidir. Qovdum getdi. Belə şəxslərin sözünü eşidən qulaqlardan qiyamətdə əqrəblər yapışar... Əstə fürullahə rəbbi və ətubi ileyh.

İ k i n c i q o c a . Əstəğfürüllahə rəbbül aləmin. Xudavənd-aləm özü bu camaatın fəryadına yetişsin.

İki qadın qocaların danışığı əsnasında əllərini ölçərək qızğın söhbət edirlər.

B i r i n c i q a d ı n . Ay bacı, bu danışdığın əhvalatı öz gözünlə gördün?

İ k i n c i q a d ı n . Yalan deyirəmsə, bu gözlərimin ikisi də bir gündə kor olsun. Istəyirsən bir gün gəl bizə, həmən Xanbacını çağırım, özü sənə nəql eləsin. Deyir gəlinimin üç il idi uşağı olmayırdı. Oğlum

[1] Dən daşıyan qarışqaya əziyyət vermə, çünki onun canı var, can da şirindir.

da deyirdi ki: bir il də saxlayacağam, övladı olmasa, boşayacağam. Deyir müctəhid ağa məscidə gedəndə ulağının ayağının altından bir ovuc torpaq götürüb gətirdim evə, suda çalıb sürtdüm gəlinin göbəyinə. Bir il keçmədi gül parçası kimi bir oğul doğdu. Uşağın da adını deyir Əhməd qoymuşam. Xanbacı qonşumdur. Uşaq da axşamadək gözümün qabağında oynayır.

Üçüncü qadın (*bunlara yavuq gəlib, birinciyə*). A bacı, sən heç bunun (*ikinci qadını göstərir*) sözlərini qəribliyə salma. Ağanın kəramətinə Qurban olum. Onun oxuduğuna mənim atam, anam Qurban. Mənim özümün gözlərim xarab idi. Göstərməmiş həkim qoymadım. Axırda bir iman yiyəsi olmuş dedi: "Ay qız, gözlərini niyə kor eləyirsən və nahaq yerə niyə belə pullarını həkimlərin ciblərinə doldurursan? Get cümə günü Hacı Mirzə Əhməd ağa məscidə, camaat namazına gedəndə ulağının ayağının altından torpaq götür. Gətir bir az təhvil suyuna çal, tök gözünə". Elə də elədim. İndi gözlərim görür. Onun qədəmlərinə mənim bu canım Qurban . Onun ulağının ayaqlarının altında Allah mənə ölüm versin.

Uzaqdan salavat səsi eşidilir. Camaat hərəkətə gəlir. Neçə nəfər fərraş, əllərində ağac, peyda olub, camaatın arasından yol açırlar və qışqırırlar: "Kənar olun, yol verin". Camaat yol verir, salavat səsi gəldikcə yavuqlaşır. Müctəhid Hacı Mirzə Əhməd ağa ağ ulağa savar olmuş, məiyyətində neçə nəfər molla və şəhərin tacirlərindən, o cümlədən Hacı Kamyab görünürlər. Qabaqda bir nəfər minacatçı iki əlini qulaqlarına qoyub salavat çəkir.

Minacatçı:

Yazılar nameyi-emalına yüz min Həsənat,
Deyə hər kimsə bir övlad Məhəmməd, səlavat.

Camaat (*hamılıqla)*. Salavat!
Minacatçı. Məhəmmədi-ərəbi xətmi-ənbiya, salavat!
Camaat (*hamılıqla*). Salavat!
Minacatçı. Əliyyü vəli xuda nur Mustafa, səlavat!
Camaat (*hamılıqla*). Salavat!

Müctəhid məiyyətindəki adamlarla gəlib keçir. Qadınlar dalınca tökülüb onun ulağının ayaq qoyduğu yerlərdən torpaq götürürlər.

Birnəfər (*müctəhidin məiyyətindəkilərdən biri geri qayıdıb).* Eyyühənnas, ey şəhərin füqərası, yoxsulları, əlilləri, şikəstləri! Namaz

qurtardıqdan sonra müctəhid Hacı Mirzə Əhməd ağa füqəraya imam malı paylayacaq. Hamınız ağanın qapısında cəm olasınız. Xudavənda, sən ağanın ömrünü uzun və vücudunu bibəla elə!

C a m a a t (*hamılıqla*). Amin!

B i r n ə f ə r . Xudavənda, sən ağanın kölgəsini cəmi islam dininə qulluq eyləyənlərin üstündən əskik eləmə və onun düşmənlərini, bədxahlarını cəhənnəm oduna yandır!

C a m a a t (*hamılıqla)*. Amin!

PƏRDƏ

İKİNCİ BŞƏKİL

Hacı Mirzə Əhməd ağa ağanın həyəti. Füqəra, əlil, şikəst kişilər və Q a d ı nlar toplaşmışlar.

M ü c t ə h i d i n a m i l i (*çıxır*). Camaat, sakit olun! Nə qeylü-qaldır? Bura müctəhid qapısıdır, zənanahamam deyil. Səs-küy salıb ağanın istirahətini pozmayın.

C a m a a t d a n b i r n e ç ə n ə f ə r . Baş üstə, sakit durarıq.

B i r q o c a . Xalqa nə verəcəksiniz verin, dağılıb getsinlər, ağa da istirahətindən qalmasın.

Amil gedir.

B i r q o c a (*o birisinə*). Görəsən ağanın iltifatı bu gün nə qədər olacaq?

O b i r i s i . Hər nə qədər olar, evi abadan.

B i r ç o l a q c a v a n . Necə yəni nə qədər olar? Ağa məgər bu xalqa atasının malını verir? Məmləkətin hər yerindən göndərilən imam malıdır. Çox gələr çox versin, az gələr az. Keçən cümə axşamı hər adama iki qıran pul verib yola salıbdır. Mən bədbəxt özümdən savayı üç baş adam saxlayıram. İki qıran onların bir günlük çörəklərini ödəmir. Bəs bu külfət həftənin altı gününü nə yesin?

B i r i n c i q o c a (*cavana*). Ay oğul, niyə belə xam danışırsan? Budur mən bu qapıdan neçə sənədir cümə axşamlar nəzir aparıram. Bu nəzirlər hamısı gözə pərdə çəkməkdir. Hacı Mirzə Əhməd ağaya ildə

neçə yüz min tümən imam malı gəlir. Ondan hər cümə axşamı bir iyirmi tümən görk üçün füqəraya paylanır, qalanı da...

Şəhər əyan və tüccarından beş-altı nəfər gəlib camaatı yarıb keçirlər, amil onları pişvaz edir.

A m i l . Buyurun, qədim əziz edibsiniz, ağa sizə müntəzirdir.

B i r i n c i q o c a (c*avana*). Gəlib keçənləri gördün? Bu adamlar hər gecə müctəhidin evində plov basırlar. Pulların qalanı bunların qarnına gedir. Əlavə, ağanın yeddicə nəfər arvadı var. Bunları da ki acçılpaq saxlamaq olmaz.

C a v a n . Bəs belə olan surətdə bu barədə qışqırıb danışmaq lazımdır, bəlkə camaatın gözü açıla.

B i r i n c i q o c a . Hünərin var, buyur çıx bazara, qışqır. Mitilinə fərman verərlər, mitilin bazarın ortasında düşər.

A m i l (*çağırır*). Oğlan bir buraya gəl, qoca, sən də buraya gəl. (*Hər ikisi gəlirlər*.) Orada nə söhbət eləyirdiniz?

Q o c a . Nə söhbət eləyəcəyik, acın söhbəti qarından olar, bir-birimizə dərdimizi söyləyirdik.

C a v a n . Həqiqət belədir. Budur mənim iyirmi beş yaşım tamam deyil. Hacı Kamyabın pambıq zəmisində işləyirdim, qolumdan ilan çaldı, sağ qolum düşdü, oldum əlil. Yoxsa mənim taylarımın əlləri də, ayaqları da pul qazanır, mən olmuşam möhtac. Hər cümə axşamı gəlib buradan iki qıran imam malı aparıram. Qoca əmi ilə bu barədə söhbət edirdik.

A m i l . Müctəhid ağanın qulluğunda beş nəfər amil var. Bizim hər birimizin yüz qulağı var. Qapını bağlayıb arvadınla danışdığın söhbəti biz eşidirik. Sizin də söhbətinizi gözəl eşitdik. Mən bu saat sizin ikinizi də əliboş bu qapıdan qovardım, ancaq sizin külfətinizə rəhmim gəlir. Mən görürəm siz ikiniz də fikirli, qanacaqlı adamlarsınız. Ona görə sair fürqəradan seçirəm. Sizin hər biriniz həftədə bir tümən pul alacaqsınız, bəşərti belə söhbətləri boşlayasınız (*pul verir*). Bu tümənləri qoyun

cibinizə, yenə qarışın camaata. Sonra camaat ayağından da nəzir çatar.

Qoca və cavan pulları alıb qayıdırlar.

Q o c a *(cavana*). Bala, bu işin adına nə deyərlər?

C a v a n . Nə deyəcəklər? Dilə qıfıl vurmaq.

Q o c a . Dürüstdür. Bizim dilimizi bağlamaq üçün hər birimizə həftədə bir tümən məvacib kəsdilər. İndi fikir et, gör şəhərdə dolanıb, ağanın kəşfi-kəramətindən danışan müftəxorlar nə qədər məvacib alırlar?!

B i r q a d ı n (a*milə*). Ay qardaş, bizə nə verirsən ver, yola sal, qapımı bağlı qoyub gəlmişəm, evim yiyəsizdir.

A m i l . Çox danışma, dayan Xalq alanda sən də alarsan.

İ k i n c i q a d ı n (*birincisinə*). A Fatmanisə, sən də buradasan? Oğlun azarlı idi, sağaldımı?

B i r i n c i q a d ı n . Oğlum sağaldısa, mənim burada nə işim var?! Həkim pulu tapmadım. Dedilər ki, bizim naxoşlarımızın dərmanı ancaq Hacı Mirzə Əhməd ağanın ulağının ayaq basdığı yerin torpağıdı. Getdim bir ovuc gətirdim. Təhvil suyuna çalıb tökdüm naxoşun boğazına. O saat yuxu tutdu, yatdı. Elə o yatan idi ki, yatdı. Heç ayılmadı. Evim yıxıldı, qaldım düzlərdə.

A m i l (*Q a d ı nın üzərinə acıqlanır*). Arvad, çox füzulluq eləmə, səsini kəs!

B i r i n c i q a d ı n . Mən nə danışdım, ay qardaş, dərdimicə qonşuma dedim.

Am i l . Xub. Xub, sakit ol.

İ k i n c i a m i l (*çıxır*). Camaat, növbə ilə düzülün, arvadlar bir tərəfə, kişilər də o biri tərəfə. Ağa təşrif gətirir.

Hacı Mirzə Əhməd ağa çıxır, qapıda dayanıb yavaşcadan dua oxuyub salavat çevirir. Dalınca bir nəfər, əlində içi pul ilə dolu cam, çıxır. Müctəhid camaatın arasında yeriyərək sağa və sola pul paylayır. Hamı baş əyərək pulları alır. Pulu payladıqdan sonra üzünü camaata tutur.

H a c ı M i r z ə Ə h m ə d a ğ a . Eyyühənnas!

A m i l (*ucadan*). Xamuş! Ağanın sizə sözü var.

H a c ı M i r z ə Ə h m ə d a ğ a . Eyyühənnas, xudavənd-aləm buyurur: əlfüqərai əyali vəl əğniyai vükəlai. Yəni füqəra mənim əyalımdır və sərvətdarlar mənim vəkillərim. Bu sizə təqsim olunan imam malını göndərənlər həmin Allahın vəkilləridirlər. Onların gün-gündən artmasına dua eləmək hər fəqirin borcudur. Allahümmə təqəbbəl ehsanəlməhsinin behəqqi Mühəmməd və aleh və behörməti sərətülfatihə. (*Müctəhid və camaat fatihə oxuyurlar.)* Gedin, Allah sizə yar olsun.

Camaat dağılır.

PƏRDƏ

ÜÇÜNCÜ ŞƏKİL

Müctəhid Hacı Mirzə Əhməd ağanın qəbul otağı. Ağ döşək üstündə əyləşib puştiyə söykənmiş, qəlyan çəkməkdədir. Neçə qədəm aralıq ağanın amili, qabağında dəftər və məktubat olaraq dizi üstündə ədəb ilə əyləşmiş.

A m i l . Bəradəran Sərrafan vasitəsilə Marselyaya göndərilən xam ipək, qiyməti iyirmi beş min tümənin vüsulunu Ingiltərə bankı xəbər verir.

M ü c t ə h i d . Xub, gedib alıb haman bankda bizim hesabi-cariyəmizə yazdırarsan.

A m i l . Çəşm! Rusiya ticarət nümayəndəsinin məktubudur. Mövqufat mülkündən alınmış kişmiş və səbzə müqabilində verilmiş təməssüklərin vədəsinin tamam olmasını xəbər verib, təməssükləri gətirib paralarını almağımızı təklif edir.

M ü c t ə h i d . Para nə qədərdir?

A m i l . Otuz iki min altı yüz əlli dörd tümən.

M ü c t ə h i d . Rusiya ticarət nümayəndəliyi bizim ən məqbul müştərimizdir. Təməssüklərinin yarım saat vaxtından keçməsinə yol verməzlər.

A m i l . Bəli, ağa, onlar ticarət işlərini çox diqqətlə aparırlar. Bir qərzdar borcunun vədəsinin yetişdiyini xəbər verməz. Tələbdarın həmişə gəlib istəməyini gözlər. Amma bunlar belə deyillər. Budur yazırlar: təməssükün vaxtı tamamdır. Xahiş olunur buyurub vəchini qəbul edəsiniz.

M ü c t ə h i d . Kafirdirlərsə də, alış-verişlərində düzgündürlər. Bir dəfə olmayıbdır ki, gəlib vədəsinin uzatmasını xahiş etsinlər.

A m i l . Bəli, ağa belədir.

M ü c t ə h i d . Qabaqca məni qorxuzurdular. Deyirdilər ki, təzə Rusiya hökuməti öz rəiyyətinin cəmi əmlakını əlindən alıbdır... Bu hökumət ilə ticarət etmək olmaz. Aldıqlarını verməzlər. Bu fikirlərin səhv olduğunu biz asan görürük. Bircə dərd var ki, bizim, Rusiyaya fəhləliyə gedib qayıdan cavanlarımızın hamısının əqidələri dəyişilir. Allaha səbb edirlər, hətta-nəəzubillah-Allahın varlığını danırlar. O ticarət nümayəndəsini görəndə ona mənim tərəfimdən deyin: öz məmləkətlərində nə siyasət aparırlarsa, öz işləridir, ancaq bizim Rusiyaya gedən adamlarımızın əqidəsinə toxunmasınlar. Bunun nəticəsindən ehtiyat etməlidir.

A m i l . Əlbəttə, əmrinizi yetirrəm.

M ü c t ə h i d . Gedib pulları alıb İngiltərə bankına verərsən və mənim sözlərimi də ona yetirərsən.

A m i l . Çeşm! Bu məktubunda "Çarbağ" mövqufat mülkünün daruğəsi yazır ki, Rusiyadan, fəhləlikdən qayıtmış bir neçə nəfər xəbislər camaatı başdan çıxardıblar. İndi camaat mədaxil verməkdən boyun qaçırır.

M ü c t ə h i d . Bu nə xəbərdir? Camaat bilmirmi ki, mövqufat mülkünün təəllüqü xudavənd-aləmə və onun əyalı olan füqərayadır? Məgər bu mədaxilin it qanından, hətta şərabdan da haram olmasını düşünmürlər? Mənim tərəfimdən məhəllə hakiminə və hakimişərə yazıb "Çarbağ" mülkünün mədaxilinin ikiqat yığılmasını tələb edərsən. Camaat arasında iğtişaş salan bidinlər gərək tutulub şəriət məhkəməsinə verilsinlər. Onlar ilə mürtədlər haqqında sadir olmuş ehkam üzrə rəftar olunsun.

A m i l . Çeşm!

M ü c t ə h i d . Daha nə var?

A m i l . Daha, qabili-ərz, bir məktub yoxdur.

M ü c t ə h i d . Cümə axşamı füqəraya nə qədər təqsim olundu?

A m i l . On yeddi tümən.

M ü c t ə h i d . Füqəranın sayı gün-gündən artmadadır. (*Saata baxır*.) Bu gün mənim yanıma iki qəribə müsafir gələcəkdir. Bir nəfər firəng səyyahı Qadını ilə şəhərə varid olub məni görməyi xahiş ediblər və mən də onların məmnuniyyətlə qəbul etməmi xəbər vermişəm. Bu saat onların gəlmək vaxtıdır. Mən gedim təğyiri-libas edim. Sən də əmr et bu otağı Avropa qaydasilə tərtib etsinlər və qəhvə hazırlasınlar. (*Gedir*.)

A m i l (*səslənir*). Oğlan, Sultanəli! (*Nökər daxil olur*.) Bu saat otağa masa, sandalya düz, ağanın avropalı qonaqları gələcəklər. Bir az vaxtda otaq Avropa vəziyyəti alır.

N ö k ə r (*daxil olur*). Bir nəfər firəng və bir üzüaçıq Qadın hüzura gəlmək istəyirlər.

A m i l . De buyursunlar. (*Nökər gedir. Səyyah və Qadı nı daxil olurlar*.) Buyurunuz, buyurunuz.

S ə y y a h . Bəs ağa haradadır?

A m i l . Əyləşin, bu saat təşrif gətirərlər. (*Gedir*.)

Q a d ı n (*otağa göz gəzdirir*). Mən belə eşitmişdim ki, islam ruhanilərin xırdaca sovməələri olar və özləri də quru həsir üzərində otururlar. Amma bunun cəlalətini biz Tehranda, şahın sarayında görmədik.

S ə y y a h. Bunlardan uzaq yaşayanlar hamısı bu fikirdədirlər. Belə söhbətləri Avropa avamları arasında və Roma papası haqqında danışırlar.

M ü c t ə h i d *(başdan ayağa bir dəst ağ ipək libas geyinmiş daxil olur. Səyyah və Q a d ı nı baş əyib qabağa gəlirlər. Müctəhid hər ikisinə əl verir*.) Əyləşiniz. Xoş gəlibsiniz və səfa gətiribsiniz. Çoxdanmı bizim şəhərə təşrif gətiribsiniz?

S ə y y a h. Dünən varid olmuşuq.

M ü c t ə h i d. Şəhərimizi necə görürsünüz?

S ə y y a h. Sair şəhərlərə nisbətən yaxşıdır. Fəqət bir şeyə biz diqqət yetirdik. Küçələrdə həddən artıq sail var. Məgər bunların haqqında fikrə gəlmək olmaz? Bizə məlumdur ki, sizin ixtiyarınızda böyük mövqufat pulları var. Bu saillər üçün xüsusi evlər bina etmək, qocaları yeməkdən təmin edib paltar vermək, cavanlara bir iş öyrətmək və beləliklə sailliyi kəsmək lazımdır.

M ü c t ə h i d. Biz hər tədbir görürük. Hər həftə mövqufatdan füqəraya pul paylanır, fəqət onlar sailliyə adət ediblər. Nə qədər onlara pul verilsə, yenə peşələrindən əl çəkməyəcəklər.

Nökər üç fincan qəhvə və bir neçə şüşə likör gətirir.

Q a d ı n. Müctəhid əfəndim, bu nədir? Məgər bu içkilər haram deyil?

M ü c t ə h i d. Haramdır, xanım, biz istemal etmirik. Fəqət hər yerdən varid olan müsafiri onun vətəni adətilə qəbul etməyi vacib bilirəm. Buyurun qəhvə götürün.

Səyyah və Qadın qəhvə götürürlər. Müctəhid bir fincan da öz qabağına qoyur.

Q a d ı n. Cənab, budur, bizim İranın çox şəhərlərini səyahət etmişik, çox tacirlərin, xanların, hakimlərin məclisində olmuşuq. Nədənsə hamısı Qadınlarını bizdən gizlədirlər. Biz burada əyləşib söhbət edirik. Nə olar, sizin Qadınınız da bizimlə burada əyləşib qəhvə içsin.

M ü c t ə h i d. Avropa xanımlarında olan ağıl, kamal, qabiliyyət bizim Qadınlarda yoxdur. O səbəbdən onları üzə çıxarmaq mümkün deyil.

Q a d ı n. Cənab, belə sözləri nə üçün buyurursunuz? İnsaf etmirsiniz. Mən neçə evlərdə əndərunə keçib arvadlar ilə söhbət etmişəm.

Mən onlara ağılsız, qabiliyyətsiz, kamalsız deyə bilmərəm. Burada ayrı səbəb var. Deyin şəriət izin vermir.

M ü c t ə h i d . Belə də var. Allahın əmrinə görə, arvadlar kişilərin məzrəidir, yəni əkin yerləridir və bu əkin yerlərinin məhsulu da övladdır. Qadınların vəzifəsi fəqət övlad doğmaq və ev saxlamaqdır. Onların camaat işlərinə qarışmaqları, kişilərtək bazarlarda, şəhərlərdə dolanacaqları nəinki xilafi-şər, hətta xilafi-əqldir. Siz avropalıların əqidələri başqadır. Ona görə sizi inandırmaq çətİndir. Qadın, necə ki ərz etdim, naqisüləql və zəif olar. Odur ki, kişilər ilə bir yerdə onların dolanması od ilə pambığın bir yerdə olması mislindədir. Bizim eşitdiyimizə görə, Avropada fahişəlik həddən aşmış və hamısına səbəb arvadların açıq gəzmələridir. Hətta deyirlər Avropa şəhərlərində xüsusi fahişəxanalar var.

S ə y y a h . Bağışlayın, cənab. Biz çox şəhərlər gəzib, çox adamlar ilə təmas etmişik. Gördüyümüz xanların, tacirlərin və sairlərinin hər birinin evində üçdən başlamış on-on ikiyədək və daha artıq Qadın görmüşük. Bu, fahişəxana deyil, nədir?

M ü c t ə h i d . Bu, Allahın buyruğuna və peyğəmbərin xəbərinə əməl etməkdir. Burada xilafi-şər bir əməl yoxdur.

S ə y y a h . Siz deyirsiniz Avropa şəhərlərində fahişə evləri var. Bəs bu bir belə şəhərlərdəki siğə evləri, bir Qadının hər gündə beş-altı və daha çox sadamlara siğə olması və bir nəfər başı əmmaməli axundun da burada vasitə olması fahişəxana deyildir, nədir?

M ü c t ə h i d . Şəriətdə siğə halaldır.

S ə y y a h . Deməli, fahişəlik də halaldır. Mən başı çadralı Qadınların küçələrdə kişilərə toxunub evlərinə təklif etdiklərini gözümlə gördüm. Hətta fahişəlik edən Qadınların libaslarında xüsusi əlamət olduğunu bir nəfər mənə göstərdi. Bağışlayın, cənab, fahişəliyə meyli olanı yüz çadra altında saxlamaq olmaz və pak Qadınları üzüaçıq dünyanın bu başından o başına göndərsələr də üstlərinə toz qonmaz. Nə qədər məmləkətinizdə fahişəlikdən xəstələnmiş Qadınlar var! Bunların da xəstəlikləri səlamət adamlara sirayət edib azarın artmasına və millətin izmehlalına səbəb olur. Fahişəlik ictimai bir xəstəlikdir. Onun müalicəsi də başqadır. Çadra müalicə deyil.

M ü c t ə h i d . Bu dəlillər mənə kafi deyil. Biz öz əqidəmizdə möhkəm qalacağıq.

S ə y y a h . Gələcək nəsil bu yol ilə yəqin getməyəcək.

M ü c t ə h i d . Bunu düz buyurursunuz. Biz camaatın gün-gündən dindən, məzhəbdən çıxmasını aydın görürük. Hətta eşitdiyimizə görə, Şura məmləkətində islam Qadınları kişilərə qarışıb üzüaçıq gəzirlər. Hətta məktəblərdə bahəm dərs oxuyurlar. Bizim oraya əlimiz çatmır. Nəsihətdən və Allahın əmrini və şəriətinin ehkamını yetirməkdən savay əlimizdən bir iş gəlməz. Gələcək nəsil cəhənnəm odunu qəbul edirsə etsin, biz edə bilməyəcəyik.

S ə y y a h (*durur ayağa*). İzin verin bizi hüsni-qəbulunuzdan dolayı, izhari-məmnuniyyət edib qulluğunuzdan mürəxxəs olaq.

M ü c t ə h i d . Bir neçə gün burada qalıb mənimlə söhbət etsəydiniz, mən sizə, sizin Qadınlar haqqında səhv olmağınızı əqli və nəqli dəlil ilə sübut edərdim.

S ə y y a h . Çox həvəs ilə sizin söhbətinizə gələrdim, ancaq sabah tezdən biz getməliyik. Xudahafiz.

Q a d ı n . Xudahafiz. Mənim ərim bir qədər tündməcazdır. Xahiş edirəm rəncidə olmayasınız.

M ü c t ə h i d . Yox, yox, nə üçün rəncidə oluram? Əmr be məruf, nəhy əz münkər bizim vəzifəmizdir.

Q a d ı n . Salamat qalın, cənab.

M ü c t ə h i d . Xoş gəldiniz. (*Səyyah və Qadın gedirlər.*) Ay gədə

S u l t a n ə l i . *(Sultanəli daxil olur.)* Masanın üstünü yığışdır və bir aftabaləyən gətir, əlimi suya çəkim.

Nökər podnosu aparıb, aftaba-ləyən gətirir, müctəhid əllərini suya çəkir.

A m i l (*daxil olur*). Ağa, Həmədan əyalətindən Hacı Qafur adında bir tacir yüz min tümən pul ilə bir cavan qızını göndərib. Özünün zərrini bir qız olduğunu bəyan edir yazır ki: mənim qızımı zövcəliyə qəbul edib və bu pulları da Allah yolunda məsrəf etsəniz, məni cəhənnəm odundan təmin etmiş olarsınız.

M ü c t ə h i d . Gözəl sovqatdır və gözəl niyyət ilə göndərilibdir. Bundan sonra kim deyə bilər ki, dünyada Allah bəndəsi və sadiq peyğəmbər ümməti yoxdur? O qızı buraya gətirin. (*Amil qapını açır, qız daxil olur.*) Bala, atan səni mənə peşkəş göndəribdir. Sən mənə məhrəmsən, aç üzünü, yaxşı qız. (*Qız üzünü açmaq istəmir, müctəhid onun üzünü açır və bir qədər tamaşadan sonra*) Ötürün hərəmxanaya. Fətəbarəkallahü əhsənül xaliqin!

PƏRDƏ

İKİNCİPƏRDƏ

DÖRDÜNCÜ ŞƏKİL

Hacı Kamyabın kontoru. İki nəfər kontor əməlacatından əyləşib yazıya məşğuldurlar.

K a m r a n – Hacı Kamyabın qardaşı oğlu hərdən bir içəri girib kontora qayıdır.

B i r i n c i m i r z ə . Kamran sən ki, bir belə Hacı Kamyaba can yandırırsan, nə olar, Hacı Kamyab da bunun müqabilində öz qardaşı – sənin atan İbrahimə dörd-beş min tümən verə, o da gedib bir növ güzəran keçirə. Atan baqqallıqdan nə qazanacaq və nə külfət saxlayacaq?

İ k i n c i mi r z ə . Kamran. qoçaq bir oğlandır. Hansı tacirin yanında dayansa, ayda yüz tümən məvacib alar. Burada müftə çalışmasının mənası aydındır.

B i r i n c i m i r z ə . Məna aydındır, düz buyurursan. Hacı Kamyabın bircə nəfər qızı, bircə nəfər də qardaşı oğlu var. Kamranın fikri İndi müftə qulluq edib axırda Hacı Kamyabın sərvətinə malik olmaqdır.

K a m r a n . Səhv edirsiniz. Hacı Kamyab mənim əmimdir. Bununla belə, onun sərvətində zərrəcə gözüm yoxdur. O sərvətin nə yol ilə cəm olmasını yaxşı bilirəm. Siz də bilirsiniz, məni buraya bağlayan sərvət deyil. Mən harada olsam dolanacağam. Kəsilsin o iki əli ki, bir başı saxlaya bilməyir. Bircə çıxıb qapıda göz yaşı tökənləri görsəniz, Hacı Kamyabın sərvət yolları sizə aydın olar.

İ k i n c i mi r z ə . Deməli, səni buraya cəlb edən ahənruba sərvət deyil, başqadır, boş xəyaldır.

K a m r a n. Necə boş xəyaldır? Nə demək istəyirsən?

İ k i n c i mi r z ə . Sərvətdarların təməkarlıqları hamıya məlumdur. Onlar nə qədər qazansalar “kifayətdir” deməzlər. Hacı Kamyab bir həris kişidir. Özünü özü kimi bir sərvətdar ilə qohum etməyə çalışacaq. Sənin əl-ayaq vurmağın da özünə qalacaqdır.

Hacı Kamyab (*daxil olur, mirzələr qalxıb salam verib əyləşirlər).* Kamran, o qapıdakı kişilər nəçidirlər?

K a m r a n . Əmi, Xudayar xanın rəiyyətlərindəndirlər, sizi görməyə gəliblər.

H a c ı K a m y a b . Xub, çıx söylə dayansınlar. Deyilən bu dəqiqə vaxtım yoxdur.

Kamran cəld çıxır, birinci mirzə durub, gəlmiş ticarət məktublarını təqdim edir.

B i r i n c i m i r z ə . Marselya vəkilimiz yazır ki, baramanın qiyməti dörd faiz artıbdır. Sizdən əmr gözləyir. Satsın, ya dayansın.

H a c ı K a m y a b . Ona teleqraf ilə xəbər ver, neçə gün səbr etsin və hər gün birja qiymətlərini teleqraf ilə bizə xəbər versin.

K a m r a n (*daxil olur*). Əmi, Rusiya ticarət nümayəndəliyinin katibi sizi görmək istəyir.

H a c ı K a m y a b . Buyursun, buyursun. O mənim həmişə əziz qonağımdır. (*İkinci mirzəyə*) Işinlə məşğul ol, kağızlara sonra baxarıq.

K a t i b (*daxil olur).* Salam.

H a c ı K a m y a b . Buyurun əyləşin. (*Papiros təklif edir, Kamrana*) Kamran, katib cənablarına qəhvə gətir.

K a t i b . Çox razıyam, hacı, qəhvə içməyəcəyəm. Sizin məktubunuz dünən vüsul oldu və xahiş etdiyiniz zürufat, çit, qənd və sair mallar üçün ticarət komissarlığına yazıldı. Əlavə, bu sənənin smetinə görə, İrandan bizim fabriklər üçün altı min ton pambıq getməlidir. Bu barədə təbdir edib qiymətini və kredit şərtlərini bizə xəbər verməniz xahiş olunur.

H a c ı K a m y a b . Cənab katib, sizin pambıq sifarişinizin qədərinin ilbəil azalması məni heyrətə salır. Keçən sənə nümayəndəlik səkkiz min ton pambıq aldı. Bu il altı min ton pambıq istəyirsiniz. Buna səbəb nədir? Çit bazarı kasadlaşmışmı, ya pul tərəfdən çətinlik çəkirsiniz? Siz, cənab, heç bir fikir etməyin, sizin mötəbərliyiniz bizə gün kimi aydındır. Nə qədər mal lazım olsa, hamısını göndərməyə hazırıq və nə qədər istəsəniz, ona da varıq.

K a t i b . Hacı, nə bizim bazarımız kasaddır və nə də puldan çətinlik çəkirik. Bizim pambıq sifarişi qədərinin azalması da təbiidir. Bu sifariş gələn sənə bundan da az olacaq. Bir neçə sənədən sonra bizim üçün kənar məmləkətlərdən pambıq gətirməyə ehtiyacımız olmayacaq. Çünki Zaqafqaziya və Türküstanın pambığı bizim fabriklərin hamı ehtiyaclarını ödəyəcəkdir.

H a c ı K a m y a b. Elə olan surətdə gərək biz pambıqlarımıza od vuraq.

K a t i b . Od vurmaq nə lazım? Əvvəla, pambıq bazarı az deyil. İkincisi, öz məmləkətinizdə çit fabrikləri bina edib, hasil olan pambıqlarınızı da oraya məsrəf edin. Bağışlayın, məni idarədə gözləyirlər, gərək bu saat gedəm. Deməli, altı min ton pambıq bizim üçün hazır edərsiniz. Xudahafiz.

H a c ı Kamyab. Çeşm! Xudahafiz. (*Nümayəndə gedir, mirzələrə)* Katibin bizə yol göstərməsini eşitdiniz? Deyir: fabrik, zavod bina edin. Gözəl məsləhətdir. Fabrik bina elə, fəhlə ilə doldur, o da sonra başına bir bəla olsun. Yox, aşna, fabrik-zavod da sizin, fəhlələr də sizin. Biz burada bolşevik yuvası tikməyi bacarmarıq. Heç bir axmaq öz barmağı ilə öz gözünü tökməz. (*Kamrana*) Qapıdakı adamları çağır görüm nə istəyirlər? (*Kamran çıxmaq istəyir*.) Dayan! Xudayar xandan məktub almışam. Bu axşam özü və oğlu bizə qonaqdırlar. Evdə tapşır tədarük görsünlər və özün də axşam burada ol.

K a m r a n . Baş üstə. (*Çıxır. Neçə nəfər kəndli daxil olub, baş əyib salam verirlər.)*

H a c ı K a m y a b . Nə var? Niyə gəlibsiniz, nə istəyirsiniz?

Q o c a k ə n d l i . Hacı ağa, biz yazığıq, bizi balalarınızın başına çevir, bizə rəhmin gəlsin.

H a c ı K a m y a b . Sözün nədir onu de.

Q o c a k ə n d l i . Biz Xudayar xanın rəiyyətlərindənik. Bizi kəndimiz vəkil eləyib sənin qulluğuna göndəribdir.

H a c ı K a m y a b . Hansı kəndin adamlarısınız?

Q o c a k ə n d l i . Dördbulaqlı kəndinin. Biz hamımız mal-qoyun saxlarıq. Məhsulumuz yundur. Budur, bir neçə gündür bir firəng gəlib camaatın yununu almaq istəyir və yununun hər batmanına doqquz qıran pul təklif edir. Biz yunları vermək istəyirik. Xudayar xan buyurur ki, gərək nə qədər yununuz var isə batmanı yeddi qıran yarımdan Hacı Kamyabın vəkilinə verəsiniz.

H a c ı K a m y a b . Doğrudur, biz Xudayar xan ilə danışıb qiymət kəsmişik.

Q o c a k ə n d l i . Ay Hacı, özün bir fikir elə, biz kasıb, ac məxluq. Hər batmanda bir qİran yarım bizim üçün böyük puldur. Sən gərək bizim ziyanımıza, nəinki ziyanımıza, evimizin yıxılmağına razı olmayasan.

H a c ı K a m y a b . Sən dürüst fikir eləsən, yunun batmanının mənə neçəyə mal olmasını bilərsən. Siz malınızı kafirə satınca, öz müsəlman qardaşınıza bir qİran yarım ucuz satın, halal pul alın. Yeyib-içməyiniz də halal olsun. Onların pulları, hamısı araq-çaxırdan qazanılır.

Q o c a k ə n d l i . Ay hacı, onların haradan pul aldıqları bizə nə borcdur? Biz mal satıb, pul alırıq.

H a c ı K a m y a b . Odur ki, xudavəndi-aləm bərəkətinizi kəsibdir. Hamınız yaz əkinçi, qış dilənçi və çörəyə möhtacsınız. Gedin, bir şahı artıq vermək mənə sərf eləməz, çıxın.

Q o c a k ə n d l i . Hacı, bizim hər birimiz kənddə bir kişi sayılırıq. Bizi adam bilib sənin qulluğuna göndəriblər.

H a c ı K a m y a b . Kəndinizdə bəlkə adamsınız, çıxın gedin! Firəngə də xəbər verin, gəldiyi yol ilə düz getsin. Çox artıq-əskik etsəniz, işiniz Xudayar xan ilə olacaqdır. Onun divanına yaxşı bələdsiniz. Çıxın bayıra! (*Kəndlilər gedirlər*). Qəribə bihəya tayifədirlər. (*Mirzəyə*) Kağızları buraya gətir.

M i r z ə . İstanbul vəkilimizin yazmağına görə, xalı-palazın ağzı bir qədər aşağıdır. Amerika birjasından xəbər gözləyir.

H a c ı K a m y a b . Gözləmək lazımdır. Daha nə var?

M i r z ə . Berlin vəkilimiz xəbər verir ki...

PƏRDƏ

BEŞİNCİ ŞƏKİL

Hacı Kamyabın əndəruni bağçası. K a m r a n bikef oturub, fikrə qərq olmuş. Gövhərtac bağçanın girəcəyində peyda olur. Bir qədər dayanıb K a m r a na baxır. K a m r a n onu görmür. Gövhərtac bir gül qırıb ona atır, K a m r a n ayılmayır, bir gül də qırıb atanda K a m r a n diksinir.

K a m r a n . Böyük qız olubsan, yenə uşaqlıq hərəkətindən əl çəkməyirsən.

G ö v h ə r t a c . Yoxsa gül səni bir yerindən yaraladı? (*Dəsmal çıxarır*.) Gətir yaranı bağlayım.

K a m r a n . Mənim yaram bağlanası yara deyil.

G ö v h ə r t a c . Bu nə sözdür danışırsan? Dilini başa düşmürəm. Nə olubdur belə fikrə gedibsən?

K a m r a n . Ürəyim çox darıxır, Gövhərtac.

G ö v h ə r t a c . Nə üçün ürəyin darıxır?

K a m r a n . Özüm də bilmirəm. Hərdən bir ağlamağım tutur. Saralmış yarpaq, sınmış ağac budağı görəndə istəyirəm ağlayam. (*Yerə düşmüş gülü götürüb göstərir.)* Bax, bu gülü qırıb mənim üstümə atdın. Mənə belə gəlir ki, bu gül qırıldığından ağrıdı. Bu gün mənim başımda cürbəcür fikirlər oynaşır. Özüm də anlamıram bu nədir.

G ö v h ə r t a c . Dəli-dəli danışma. Gül niyə ağrısın? Gülün ki, canın yoxdur.

K a m r a n. Bilirəm canı yoxdur, amma mənə belə gəlir. (*İçində gül əkilmiş bir vaz göstərir.)* Bax bu vaz, bunu palçıqdan yoğurub, kürədə bişirib, indiki halətinə salıb satıblar. Mənə belə gəlir ki, bu torpaqdan yoğrulub kürədə bişmiş vazın canı var və bizim kimi yaşayır və düşüb sındıqda onun bədəni ağrıyacaq.

G ö v h ə r t a c . Heç bir şey bu danışıqdan anlamıram.

K a m r a n Mən özüm də bilmirəm bu nə halətdir məndə. Heçdən bu xəyal başıma girib, çıxmayır. Ağaclar yaşayırlar, onlara balta dəydikdə ufuldayırlar. Rəssam çəkmiş rəsm yaşayır, daş yonulmuş heykəl də yaşayır və düşüb sınanda ağrıyır. İnsan çox şeyi özü yaradır və özü də sındırır. Budur, mən də sınmışam, mən də ufuldayıram.

G ö v h ə r t a c . Səni kim sındırıb? Kimin nə həddi var əminin qorxusundan sənə güldən ağır söz deyə bilə?

K a m r a n Məni sındİran əmim özüdür. Sən mənə iki gül atdın, amma əmim bir ağır daş vurub, mənim ürəyimi sındırıb. Odur ki, gül qırılanda, bir çini qabın düşüb sınmağını mülahizə eləyəndə ağlamağım tutur.

G ö v h ə r t a c . Əmioğlu, sənin ürəyində bir dərdin var, mənə demək istəmirsən. Əgər atamdan inciyibsən, səbəbini de, mən onunla danışım.

K a m r a n Gövhərtac, bilirsən ki, bu axşam Xudayar xan buraya gələcək?

G ö v h ə r t a c . Gələndə nə olar? Xudayar xanın atam ilə alış-verişi var. Onun mülkündən çıxan tamam məhsulat atamın əlilə satılır. Odur ki, o buraya tez-tez gəlir.

K a m r a n O deyil.

Gö v h ə r t a c . Bəs nədir?

K a m r a n Xudayar xan həmişə tək gəlib-gedər. Bu dəfə o, fərasətsiz oğlu Firidun xanı da özü ilə gətirir. Bu xəbər məni nədənsə təşvişə salıb, ürəyim az qalır partlasın.

G ö v h ə r t a c . Bir belə danışıq elə bunu demək üçün idi? (*Cibindən bir qələm bıçağı çıxarıb göstərir*.) Bunu görürsən, təzə alınıb, almaz kimi itidir.

K a m r a n Nə olsun?

G ö v h ə r t a c . Arifsən, anla. Sənin fikrindəki mümkün deyil. Atam heç vədə istəməz ki, onun qardaşı oğlu duran yerdə, mülkü, malı, dövləti Xudayar xanın oğluna keçsin.

K a m r a n . Gövhərtac, yoxsa belə güman edirsən ki, mənim əmimin malında, dövlətində gözüm var? Yox, o dövlət mən bilirəm nə yol ilə qazanılıb. O pullar göz yaşı və ciyər qanıdır. Bu səhər Xudayar xanın rəiyyətləri gəlib, ağlaşıb əmimin ayağına sərilirdilər. Əmim Xudayar xana üç min manat rüşvət veribdir. Xudayar xan da rəiyyəti məcbur edir ki, məhsulunu ucuz qiymətə əmimə satsın. Bu vəziyyəti görən adam onun dövlətinə, sərvətinə təmə elərmi? Mənim qüvvətli qollarım var, heç kəsdən ağılsız olmayan başım var. Məni avara edib əmimin qapısında qul edən bircə qüvvət var, o da.. (*Başın salır aşağı.*)

G ö v h ə r t a c . Əmioğlu, yoxsa belə güman edirsən ki, bu dövlətin içində yaşamaq mənim üçün xoşdur? Məgər mən az ədalətsizlik, az insafsızlıq görürəm?! Mən də bir Dustaqxana içindəyəm.

K a m r a n . Atan səni Xudayar xanın oğluna versə, nə eylərsən, nə eyləyə biləcəksən, nə danışa bilərsən? Satdıq mal kimi lal-dinməz duracaqsan. "Mən getmirəm" deməyi bacaracaqsanmı?

G ö v h ə r t a c . Bilirəm, getmirəm sözünü deməyə mən cürət eləməyəcəm. Nə edək, elimizin adəti belədir. Qızları mal, qoyun kimi ata-anaları satırlar. Ancaq əlimdəki sədəf dəstəli bıçağı gördünmü?

K a m r a n .Əmi qızı, buçaq sözünü bir qədər unut, axır dəqiqəyədək gözlə. Mən də özümü bir şey hesab edirəm. Dünyanın işini bilmək olmaz. Bəlkə atan deyən olmadı, biz deyən oldu.

B i b i x a t u n (*daxil olur*). Ay qız, Gövhərtac, buradasan? Gəl evə, hava sərindir, soyuq dəyər. Kamran , sən də buradasan? Əmin səni axtarmamış yer qoymayıb, deyir harada qaldı, bir azdan sonra xan gələcəkdir.

K a m r a n . Bu saat. (*Yüyürək gedir.*)

B i b i x a t u n (q*ızına*). Ay qız, indiyədək uşaq idin, sənə söz demirdim. Kamran sənin əmin oğlu isə də, böyük, on yeddi-on səkkiz yaşında oğlandı. Sənin onunla təklikdə danışmağın yaxşı deyil. Xalq onu da bir söz qayırar ki, guya Hacı Kamyab qızını qapıçı İbrahimin oğluna verir. Hacı Kamyab hər avaraya qız versə idi, min yerdən elçi gələrdi. Cavan oğlandır, malı, dükanı, bağı-bağatı, alış-verişi. O boyda oğlan, bikar, əmi qoltuğunda qalmaz, gedər çörək qazanar.

G ö v h ə r t a c . Necə, yoxsa Kamran pul qazanmağa acizdir? Çox qoçaq oğlandır.

B i b i x a t u n . Kəs dilini, ləçər, gəl içəri!

PƏRDƏ

ALTINCI ŞƏKİL

Hacı Kamyabın evində böyük salon. Neçə nəfər tüccarından əyləşib, söhbətdədirlər və Xudayar xanın vüruduna müntəzirdilər. Kamran tez-tez girib çıxır.

H a c ı X u d a d a d . Hacı Kamyab, qəribə xəbərlər qulağıma gəlir. Deyirlər mövqufat mülklərində iğtişaş nişanələri var. Rəiyyət Hacı Mirzə Əhməd ağaya mədaxil verməkdən boyun qaçırır.

H a c ı R z a . Mövqufat əmlakının mədaxilinin Hacı Mirzə Əhməd ağaya nə dəxli var? Bu mədaxil Allahındır. Allah yolunda da təqsim olunur. Hacı Mirzə Əhməd ağa fəqət Allahın vəkilidir.

H a c ı K a m y a b . Bəli, düz buyurursunuz...

N e ç ə n ə f ə r q o n a q l a r d a n . Bəli, belədir ki, var.

H a c ı K a m y a b . Bilirsiniz nə var, həzərat? Bizim yerin avara cavanları burada guya iş olmadığını bəhanə edərək gedib Rusiyada, xüsusən Bakıda özlərinə iş arayırlar, orda da işləyirlər, ya işləmirlər, onu Allah bilir. Ancaq onu bilirəm ki, orada onların başlarını xarab eləyib göndərirlər geri və oradan gətirdikləri xəstəlik də buranın camaatına sirayət edir. Deyirlər, məsələn: sərvətdarların alın təri ilə qazandıqları dövlət oğurluqdur, imarətləri zəhmətkeşlərin sümüklərinin üstündə tikilibdir. (*Kamrana*) Kamran, oğul, sən bir bayıra çıx, gör gələn varmı? (*Qonaqlar*) Cavandır, eşitməsin, onların danışıqlarını deməyə adamın dili gəlmir.

H a c ı X u d a d a d . Bunlar yola gedər. Deyirlər gərək kəndlilər yığışıb zor ilə padşahı yıxıb, hökuməti öz əllərinə alsınlar. Qəribə işdir. Ayaqyalın Pirqulunun biri hökumət başında əyləşəcək, biz də itaət edəcəyik.

H a c ı R z a . Bu hələ boş danışıqdır. Hökuməti yıxmaq arıq-cırıqlar işi deyil, bundan yamanı var. Deyirlər, nəəzubillah, Allah yoxdur. Axundlar, müctəhidlər hamısı adam aldadan, xalqın başını qırxan fırıldaqçılardır.

H a c ı Ş ü k ü r . Belə şəxslərinki vacibülqətldir.

H a c ı R z a . Əlbəttə, Hacı Mirzə Əhməd ağa əmr edibdir ki, belə adamlar xalq arasına çıxdıqda fövrən öldürsünlər. Bunları öldürənlərə behişt vacibdir. Ağa cəmi məsuliyyəti öz öhdəsinə götürür.

H a c ı Ş ü k ü r . Mövqufat əmlakında iğtişaş edənlər cəzalarına çatdılarmı?

H a c ı K a m y a b . Ağa hakimi-vilayətə məktub göndərmişdi. O da lazımi tədbir edib. Neçə adam həbsə alınıb, bir nəfər döyülüb, Rusiyadan gəlmiş bir nəfər bidin bu gün dara çəkilib. İndi rəiyyət sakitləşib, borcunu lazımınca əda edir.

H a c ı Ş ü k ü r . Xudavəndi-aləm öz cəlalı hörmətinə Hacı Mirzə Əhməd ağanı bu başıaçıq camaata çox görməsin və onun vücudunu bibəla eləsin.

H a m ı . Amin.

Bayırda at tappıltısı eşidilir.

K a m r a n (*cəld daxil olur*). Xan təşrif gətirir.

H a c ı K a m y a b . Cəld çıx, özün xanın atını tut. Deyilən xanın qulluğunda gələnlərin hamısına yer verib rahat eləsinlər. Kamran çıxır və Hacı Kamyab da onun dalınca.

H a c ı K a m y a b (*bayırda*). Buyurun, xan zəhmət çəkibsiniz, qədəm əziz edibsiniz. Mənim bu kasıb komam sizin mübarək xakipayınıza qurban.

Xan daxil olur, dalınca oğlu, sonra Hacı Kamyab və xanın xidmətçilərindən bir nəfər əlində bir mürəssə mücrü, xalq ayağa durur.

X u d a y a r x a n . Salaməleyküm.

H a m ı . Əleykəssalam.

X u d a y a r x a n (*əyləşir*). Bu gün hava çox istidir. Yolda çox əziyyət çəkdik.

H a c ı K a m y a b . Xan, əgər meyl etsəniz, duzlu abduğ var.

X u d a y a r x a n . Afərin, Hacı Kamyab. Mən həmişə deyirəm ki, Hacı Kamyabda hər dərdin dərmanı tapılar. İstinin dərmanı abduğdur. Mərhum Nəsrəddin şah Avropa səfərinə gedəndə həmişə yanınca abduğ götürərdi.

F i r i d u n x a n (*atasına*). Ağa, abduğla bizim kəndin arvadları başlarını yuyurlar.

X u d a y a r x a n . Danışma, sakit otur.

F i r i d u n x a n . Atamın canı üçün doğru deyirəm, gözümlə görmüşəm.

X u d a y a r x a n . Sənə dedim səsini kəs.

K a m r a n daxil olub qapıda dayanır.

H a c ı K a m y a b . Kamran, get xan üçün abduğ gətir. Kamran çıxır.

X u d a y a r x a n . Hacı, bu oğlan kİmdir?

H a c ı K a m y a b . Xan sağ olsun, bu mənim qardaşım İbrahimin oğludur.

X u d a y a r x a n . Afərin, afərin, çox yaxşı oğlana oxşayır.

H a c ı K a m y a b . Nökərinizdir.

Kamran gümüş podnos üzərində bir kasada abduğ gətirir. Xan kasanı alıb sağ və soluna təklif edir və sonra içir.

X u d a y a r x a n (*ayranı içəndən sonra*). Səlamüllahü ələl Hüseyn və lənətüllahi əla qatilül Hüseyn.

H a m ı . Afiyət olsun, xan!

X u d a y a r x a n . Səlamət olasınız, inşallah.

H a c ı K a m y a b . K a m r a n, çay gətir.

F i r i d u n x a n (K a m r a n*a*). Ay gədə, sənin adın Kamrandır?

K a m r a n . Bəli, xanzadə.

F i r i d u n x a n (*atasına*). Ağa, mənim dayımın da adı Kamrandır.

X u d a y a r x a n . Çox danışma.

F i r i d u n x a n (*Kamrana)*. Sənin də anan başını abduğ ilə yuyur?

X u d a y a r x a n . Sakit ol, kəs səsini.

Kamran çıxır.

H a c ı X u d a d a d . Xan, sizin rəiyyətin də arasında az-maz iğtişaş varmı?

X u d a y a r x a n . Mənim rəiyyətimin içində iğtişaş ola bilməz. Bir nəfər Bakıya gedənlərdən gəlib artıq-əskik danışırdı. Verdim oğlumun əlinə, dedim bunun tənbehini özün elə, ta görüm mənim yerimdə qatillik eləməyi bacaracaqsanmı?

F i r i d u n x a n . Bir dəfədə qılıncımla vurub başını quş başı kimi atdırdım.

Q o n a q l a r . Afərin, xanzadə.

K a m r a n çay gətirib qonaqların qabağına qoyur və sonra gedib mürəbbə gətirir.

X u d a y a r x a n (*çay içir*). İğtişaşın qabağını başqa növlə almaq olmaz. Məsələn, axundlar minbərə çıxıb camaata nəsihət edirlər. Nə-

sihət ilə kar aşmaz. Məsəldir, bağışlayın, deyərlər səlavət ilə donuz darıdan çıxmaz.

H a c ı R z a . Əlbəttə, xan sağ olsun, kötək lazımdır.

F i r i d u n x a n . Keçən həftə mən güllə ilə meşədə iki donuz vurdum.

X u d a y a r x a n . Danışma, xamuş ol.

H a c ı Ş ü k ü r . Deyirlər Rusiyanın imperatorutək qəvi padşahı camaat təxtdən yerə saldı, biz də şahı yerə salıb ixtiyarı əlimizə alacağıq.

X u d a y a r x a n . Rusiya müharibədə məğlub olmuşdu, qoşunu dağılmışdı. Padşah da baxdı gördü hökumətlik edə bilməyəcək, təxtdən əl çəkdi. Bizim hökumətimiz qəvi, şəriətimiz möhkəm və qoşunumuz müntəzəm. Burada Allahın dövlətindən heç bir inqilab ola bilməz.

H a c ı X u d a d a d . Əlbəttə belədir.

F i r i d u n x a n . Çox danışanın qılınc ilə başını "şırt" üzdürrəm.

X u d a y a r x a n . Sənə deyirəm az danış.

İki nəfər hacının nökərindən əllərində aftaba və ləyən gəlib qapının iki tərəfində dururlar.

H a c ı K a m y a b . Xan, buyurun bir qədər şam meyl edin.

Qabaqca xan, sonra qonaqlar birbəbir əllərini yuyub, nökərlərin çiyinlərindəki məhrəba ilə silib, içəri adlayırlar. Kamran stəkanları yığıb, qonaqların dalınca bir qədər baxıb dərin bir ah çəkir və cəld çıxır.

PƏRDƏ

YEDDİNCİ ŞƏKİL

Həmin salon. Xudayar xan və Hacı Kamyab əyləşibdir. Xanın pişxidməti, əlində mücrü, kənarda durubdur.

H a c ı K a m y a b . Xan sağ olsun, buyurun bu otaqda bir qədər rahat olun. Sabah hesaba əyləşərik.

X u d a y a r x a n . Neçə sənədir mən sənin vasitən ilə ticarət edirəm. İndiyədək aramızda bir güftgu olmayıb və bundan sonra da olmayacaq.

H a c ı K a m y a b . Nə buyurursunuz, xan! Mən nəkarəyəm sizə xəyanət edəm, aramızda da güftgu olsun. Ancaq bu pul adlanan şey hesab sevən bir şeydir.

X u d a y a r x a n . Xub, necə sənin xahişİndir. Mən buraya gələndə neçə nəfər mənim rəiyyətlərimdən qabağa çıxdılar. Gün əziyyət etdiyindən mən onları dayandırıb danışdırmadım. Baş əyib ötdülər. Onlar burayamı gəlmişdilər?

H a c ı K a m y a b . Bəli, mənim yanıma gəlmişdilər.

X u d a y a r x a n . Nə işə?

H a c ı K a m y a b . Əslinə baxsanız şikayət sizdən idi. Bir nəfər yun alan firəngin onlara məndən çox pul təklif etdiyini söyləyib, yunun qiymətini bir qədər artırmamı xahiş edirdilər.

X u d a y a r x a n . Nahaq mən onları orada dayandırıb günün istisində canları çıxınca döydürmədim. Bihəya uşağı bihəya, istəyirlər alış-veriş eləsinlər, arada xan bir qıran da olsa mənfəət görməsin. Hacı Kamyab, xanın qulluğuna saydığım əşrəfilərdən xəbərləri yoxdur. Həqiqət, hacı, rəiyyət azıb, yolundan çıxıb.

H a c ı K a m y a b . Sizin buraya təşrifinizdən qabaq biz də bu məsələni söyləyirdik. Rəiyyətdə əsla böyüyə hörmət və ehtiram qalmayıb. Hamısının üzləri dönüb, hətta etiqadları da xarab olubdur. Bu vəziyyətə yol verməyin, ağır nəticələri ola bilər.

X u d a y a r x a n . Bilirsiniz, hacı, əhalinin cavanları bilmirəm Rusiyada nə tapıblar? Hamısı vətənlərini buraxıb, gedib orada özlərinə iş axtarırlar. Guya ki, Rusiyada yel əsib, qoz tökülübdür. Bir necə il neft mədənlərində it günündə işləyib, qayıdıb gəlirlər vətənlərinə. Di gəl danışıqlarına bax! Allah tanımazlar, peyğəmbər tanımazlar. Axundlara, seyidlərə, xanlara ehtiram yox. Əlbəttə, buna bir əlac lazımdır.

H a c ı K a m y a b . Əlbəttə lazımdır.

X u d a y a r x a n . Mən bir neçə nəfər belə əclaflardan tələf etdirdim. İndi də belə əmr etmişəm. Heç bir kəsin məndən biizin Rusiyaya getməyə ixtiyarı yoxdur. Qaçaq gedənlər də gərək qayıtmasınlar. Qayıdanların boyunları fərmandadır. Mənə Xudayar xan deyərlər. Mənim divanım şaha da məlumdur.

H a c ı K a m y a b . Əlbəttə, belə olmasa tamam hökumət əldən gedər.

X u d a y a r x a n . Bu məsələləri sonra müzakirə edərik.Nə qədər mən sağam və mənim oğlum sağdır, rəiyyətin arasında heç bir iğtişaş mümkün deyildir. Mən istəyirəm bu gün sizə qonaq gəlməyimin səbəbini söyləyim.

H a c ı K a m y a b . O da evinizdir, mənə dəxli yoxdur. Mən də sizin sadiq çakərinizəm.

X u d a y a r x a n . Xeyr, əstəğfürulla, əziz qardaşımsınız. Bilirsiniz, hacı, neçə sənədir biz bir yerdə ticarət edirik.

H a c ı K a m y a b . İyirmi sənədən artıqdır və bu yediyim çörək də sizin dövlətinizdəndir.

X u d a y a r x a n . Halal çörəkdir, çünki alış-verişinizdə haram olmayır... Mənim bu gün buraya gəlməkdən niyyətim sizinlən daha da yavuq və hətta qohum olmaqdır. Fəqət sizin qardaşınız oğlunu burada gördükdə bir qədər fikrə getməyə məcbur oldum. Sizin qızınız var, mənim oğlum var. Əgər qızınız qardaşınız oğluna namizəd deyilsə, mənim oğluma verməyi xahiş edirəm, qəbul edəsiniz.

H a c ı K a m y a b . Mən heç kəsə qızımı vədə etməmişəm. Bəlkə qardaşım oğlunun ürəyindən keçir, o başqa işdir. Ancaq, xan sağ olsun, mənim qızım Xudayar xan xanədanına layiq ola bilərmi?

X u d a y a r x a n . Layiq olmasaydı, mən buraya gəlməz idim.

H a c ı K a m y a b . Xan, sizin mənim canıma ixtiyarınız çatar. Qızımın başını kəsməyə də haqqınız var.

X u d a y a r x a n . Deməli, razısınız.

H a c ı K a m y a b . Heç kəs bəxtinə arxasını çevirməz.

X u d a y a r x a n . Belə olan surətdə əlinizi mənə verin, öpüşək. (*Ələlə tutub öpüşürlər. Xan nökərinə*) A gədə, Şirəli, mücrünü mənə ver. (*Nökər irəli gedib mücrünü xana verir. Xan alıb ötürür Hacı Kamyaba.*) Bu mücrüdəki cavahiratı da mənim oğlumun sevgili nişanlısına verin.

H a c ı K a m y a b (*mücrünü alır*). Mərhəmətiniz artıq olsun, xan.

X u d a y a r x a n . İndisə gedib bir qədər dincəlmək olar. Gəlin dübarə öpüşək.

Öpüşürlər.

PƏRDƏ

SƏKKİZİNCİ ŞƏKİL

Hacı Kamyabın əndərunində. Gövhərtac və Kamran.

G ö v h ə r t a c . Əmioğlu, axır bu gün sənin sifətin mənim xoşuma gəlməyir. Bilmirəm ürəyində nə ağır fikirlər var. Guya tamam məmləkətin xəracını sənin üstünə qoyublar. Gah deyirsən gül qırılanda ağ-

rıyır, gah ağac kəsiləndə ufuldayır, gah da bilmirəm nə. İndi də mat durubsan, nə danışırsan, nə gülürsən.

K a m r a n. İndiyədək uşaq idim, insanların arasında olan fərqi düşünmürdüm. İndi böyüdükcə baxıb görürəm ki, dövlətli ilə kasıbın aralarında böyük fərq var. Məsələn, mənim əmim Hacı Kamyab pulunun hesabını bilməyir. Atam baqqal İbrahim borclarının hesabını dinarınadək bilir. Bunların hər biri bir sinif nümayəndələridir. Odur ki, onlarınkı bir-birilə tutmur. Mən burada, budur neçə ildir, məvacibsiz, müftə hambalam. Səbəbini sən yaxşı bilirsən. Bağban bir gül üçün yüz xarə xidmətkar olar. İndi sənə də baxıram, özümə də baxıram və bir böyük səhv içində olduğumu düşünürəm. Sən hara, mən hara?! Sən dövlətli, mən kasıb. Sən Hacı Kamyabın qızı, mən baqqal İbrahimin oğlu.

G ö v h ə r t a c. Kamran, mən bilirəm sən nə deyirsən. Ancaq adətə qarşı da getmək çətİndir. Bizim ixtiyarımız hələlik ata-anamızın əlindədir. Bizi qaramal kimi ürəkləri istədikləri adamlara satırlar. Bizim əlimizdə ancaq bircə haqq qalıbdır. O da ölmək və ya yaşamaq haqqı. Bu haqqı bizim əlimizdən heç kəs almaz.

K a m r a. Gövhərtac, mənim səndən xahişim budur: biz ayrıldıqmı, ya ayrılmadıqmı, ölüm söhbətini araya gətirmə.

H a c ı K a m y a b (*daxil olur, əlində mücrü, mücrünü bir kənara qoyur)*. Kamran, buradasan?

K a m r a n. Bəli, əmi, buradayam, əmriniz var?

H a c ı K a m y a b. Bir əmrim yoxdur. (*Qızına*) Gövhərtac, sən buradan get, K a m r a n ilə xəlvət danışmalı sözüm var. (*Gövhərtac çıxır.)* Oğul, Kamran biz müsəlmanıq, bizim hamımızın başı şəriətə bağlıdır. Sən uşaqlıqdan bu evdə böyüyübsən. İndiyədək evlərin hamısına girib-çıxıbsan. İndi sən həddi-buluğa yetişibsən. Bundan sonra sən əndərunə naməhrəmsən.

K a m r a n. Əmi, yoxsa məni evindən qovursan?

H a c ı K a m y a b. Bu nə sözdür, oğul, mənim evim sənin evin deyilmi? Yenə elə burada yaşayacaqsan, kontorda işləyəcəksən. İndiyədək uşaqdın. İndi sənə bir xırda məvacib də təyin elərəm. Bir müddət qulluq elərsən, sonra kontorun tamam ixtiyarını sənə tapşıraram. Səni Parisə, Londona, Istanbula göndərrəm və mənim, doğrudan da, oğlum olarsan.

K a m ran. Sözüm yoxdur, əmi, indiyədək əmrinizdən boyun qaçırmamışam, indi də itaətinizdə varam. Mən bu əndərundan çıxdıqdan

sonra tamam bu evdən uzaqlaşacağam. Hətta bu evə gendən tamaşa etməyə mənim ürəyim davam gətirə bilməyəcək.

H a c ı K a m y a b . Belə sözü danışma, oğul. Sən iki qardaşın bir oğlusan. Səndən mən əlimi çəkə bilərəm?!

K a m r a n . Yox, əmi, çörəyinizi mənə halal ediniz, mən getməli oldum. Ancaq sizdən bir təvəqqem var. Gövhərtacın cibindəki iti bıçağı onun əlindən alın. Xudahafiz. (*Cəld çıxır*.)

H a c ı K a m y a b (*səsləyir*). Kamran, Kamran.

G ö v h ə r t a c (*çıxır*). Ağa, Kamran haraya getdi?

H a c ı K a m y a b . Evlərinə göndərdim, qızım, getsin, yatsın, sübh tezdən gərək gəlib Xudayar xanı yola salsın. Bibixatun daxil olur, hirsli. Hamam boğçasını bir yana atır, tas boğçanın içindən çıxıb otağın ortasına yumarlanır.

H a c ı K a m y a b . Arvad, nə olubdur sənə, niyə belə qəzəb-alud olubsan?

B i b i x a t u n . Arvadın günü qara gəlsin, arvadın doğulduğu günə daş düşsün, arvadı əkənin yurdu dağılsın!

H a c ı K a m y a b . Axır bir de görüm nə olubdur, nə xəbərdir?

B i b i x a t u n . Nə olacaqdır?! Sənin kimi kişinin mənim kimi də arvadı olacaq! Kor atın kor nalbəndi olar! Bir azdan sonra şəhərin it, pişikləri də məni görəndə gülüşəcəklər.

H a c ı K a m y a b . Arvad, bir əməlli danış görüm, sənin qışqırtından heç zad başa düşmək olmayır.

B i b i x a t u n . O Hacı Rzadır, nədir, bir də bu qapıdan girsə, mən bu evdə yarım saat dayanmayacağam.

H a c ı K a m y a b . Mən imanım, sənin ağlın çaşıbdır. Hacı Rza ilə sənin nə alış-verişin?

B i b i x a t u n . Hacı Rza olmasın, olsun onun arvadı. Sən atayın goru, bir bax: hamamda oturub başımın hənasını tökürəm, bir də gördüm bir arvad deyir: ay qız, kimsən, başını qıraqda yu, soyuq su üstümə sıçrayır. Onun yanında oturan mənim kim olduğumu ona deyəndə gör nə cavab verir: Hacı Kamyabın arvadı çox böyük vücuddur, guya xan arvadıdır, şah arvadıdır. Belə deyincə deyin baqqal İbrahimin qardaşı arvadıdır!

H a c ı K a m y a b . Elə bu? Dedim görəsən nə qiyamət olubdur.

B i b i x a t u n . Hələ bu azdır?! Yox, istərdin ki, əlindəki kasa ilə vurub başımı yaraydı. Təqsir hamısı səndədir. Hacı Rza kimi adamlara üz verəndə arvadları da adamın başına çıxarlar. Dövlətli kişisən, Xudayar xan kimi adam sənin evinə qonaq gəlir. Özünü elə saxlasanamı ki, xalq da səni saysın! Hələ mən bundan bədtərindən qorxuram!

H a c ı K a m y a b . O nədir?

B i b i x a t u n . Bir azdan sonra da qızını götürüb verəcəksən qardaşın oğlu qotur K a m r a na. Ondan sonra hünəri olan evdən bayıra çıxsın. Adım olacaq qotur K a m r a nın qaynanası. Bəxtəvər başımıza, qır satıb qazanc eləyəcəyik.

H a c ı K a m y a b . Sözünü qurtardın?

B i b i x a t u n . Qurtardım, nə olsun?

H a c ı K a m y a b . İndi mənə danışmağa macal verərsən?

B i b i x a t u n . Danış görüm, nə deyəcəksən.

H a c ı K a m y a b (*mücrünü verir arvadına*). Al bax.

B i b i x a t u n . Neyləyim bunu?

H a c ı K a m y a b . Aç içinə bax.

B i b i x a t u n (*mücrünü açıb cavahiratı görür*). Bu nədir, a kişi?

H a c ı K a m y a b . Bu, nişandır. Xudayar xan bizim qızımızı oğluna istəməyə gəlmişdi. Mən də söz verdim.

B i b i x a t u n . Aldadırsan məni. Hanı səndə elə şüur?! Görəsən kİmdir, gətirib girov qoyubdur.

H a c ı K a m y a b . Doğru deyirəm. Payız daxil olan kimi toyunu da eləyəcəyik. Bir az bundan qabaq Kamrana əndərunə girməyi qadağan etdim. O da deyəsən küsüb həmişəlik buradan getdi.

B i b i x a t u n . Cəhənnəmə getsin, gora getsin. Bundan sonra görüm hansı ləçər hamama girəndə ayağıma durub mənə yer göstərməyəcək! Bax, ömründə gördüyün ağıllı iş bircə budur. Bərəkallah, kişi. Bundan sonra hamıdan hayfımı alacağam. Xudayar xanın oğlunun qayınanası! Zarafat deyil.

H a c ı K a m y a b . Mən gedirəm, qızını çağır, özün necə bilirsən xəbər ver. (*Hacı gedir*.)

B i b i x a t u n (*çağırır*). Gövhərtac, a qızım, bir bura gəl.

G ö v h ə r t a c (*daxil olur*). Nə buyursan, ana can?

B i b i x a t u n . Bir gəl gör bu cavahirat xoşuna gəlirmi?

Gö v h ə r t a c . Bunlar kimin üçündür?

B i b i x a t u n . Belə sənin üçün!

Gövhərtac. Ağam alıbdır?

Bibixatun. Bəs kim alacaqdır?! Bir otur, qızım. Bu gərdənbəndi boynuna keçirt. Bəh, bəh, nə gözəldir! Bu gülü də döşünə tax. Bu sırğaları da gətir qulaqlarına taxım. Bu üzükləri də barmağına tax. Afərin, qızım. İndi hər kəs səni görsə deyər, bu, mələkdir, göydən enib. Mən sənin ananam, səni bu mərtəbədə gözəl bilmirdim. Bilirsənmi, qızım, bu nədir? Bu, nişandır, Xudayar xan gətiribdir. Atan səni Xudayar xanın oğluna verir. Gör sənə nə böyük bəxt açılır. (*Gövhərtac söz deməyərək anasının döşünə qısılıb ağlayır.)* Ağla, qızım, elə belə olar. Atam məni sənin atana verəndə, mən də bir gün ağladım.

Gövhərtac. Bunu Kamran bilirmi?

Bibixatun. Kamran kimdir?! O nə itdir, bu sözü dilinə gətirirsən! Atan sənin başını it qibləsinə kəsər. Sən gərək fəxr eləyəsən ki, xan arvadı olub hökumət işlədəcəksən. Neçə min adam sənə baş əyəcək. Anan bir yerə gələndə hamı onun ayağına qalxacaq. Hacı Rzanın arvadı kimi itlər cürət edib mənə deyə bilməyəcəklər ki, başını kənarda yu. Hamamçıya sifariş gedəcək: Xudayar xanın oğlunun qayınanası hamama gəlir. Gərək hamama bir nəfər buraxılmasın. Bircə buraya bax. (*Qalxıb əlini belinə vurur.*) Ay camaat, geri çəkilin, Xudayar xanın oğlunun qayınanası gəlir!

Gövhərtac üzünü örtmüş ağlayaraq otaqdan çıxır.

PƏRDƏ

ÜÇÜNCÜ PƏRDƏ

DOQQUZUNCU ŞƏKIL

Hacı Kamyabın evinin əndəruni. Hacı Kamyab və Bibixatun.

Bibixatun. Qızımın nə dərdi olacaq? Deməsə də mən bilirəm. Qızım məhz Allahına təpik atır. Onun dərdi qotur Kamrandır, vəssalam.

Nökər (*daxil olur*). Həkimbaşı Mirzə Mehdi.

Hacı Kamyab. Buyursun, buyursun.

Mirzə Mehdi (*daxil olur*). Salaməleyküm. Xeyr ola, hacı?

Hacı Kamyab. Həkimi xeyrə çağırmazlar. Bizim qız bir-iki gündür xəstələnibdir. Zəhmət olmasa ona bir baxasınız.

M i r z ə M e h d i. Baş üstə. Allah onu öz pənahında saxlasın. Nə olacaq! Yəqin özünü soyuğa veribdir, ya səfrası artıbdır. Xəstə haradadır?

H a c ı K a m y a b. Bu otaqdadır, buyurun. (*Mirzə Mehdi gedir.*) Əgər Mirzə Mehdinin dərmanının təsiri olmasa, teleqraf çəkəcəyəm, Tehrandan şahın xüsusi həkimi gəlsin. Parisdən, Londondan həkim gətirəcəyəm. Bəs bu cəm etdiyim dövlət nə üçündür?

B i b i x a t u n. Teleqraf çəkib Loğmanı qəbirdən dirildib gətirəsən, ya yazıb göydən Cəbraili gətirdəsən, ona əlac olmayacaq. O gərək hər yerdə anasının başını aşağı saldıra. İndi sən gir onun yanına, deyilən: "A qızım, səni verirəm Kamrana". Əgər o saat durub sağ-salamat oturmasa, gəl yüz dəfə mənim üzümə tüpür.

H a c ı K a m y a b. Boş danışırsan, arvad, Kamran nədir? Mən onu xan arvadı, rəiyyət, əmlak sahibi eləyirəm, sən də başlayıbsan Kamran belə gəldi, Kamran belə getdi.

B i b i x a t u n. Düzünü mən deyirəm. Lalın dilini anası bilər. Onun da dilini mən bilirəm. Gərək Hacı Rzanın arvadı kimi it məni hamamda təpik ilə vura, Hacı Xudadadın arvadı məni görəndə ağzını yanaca verə. O da baqqal İbrahimin evində oturub qotur Kamran ilə mazaqlaşa. Doğru deyiblər ki: "Qızı öz xoşuna qoyarsan, ya zurnaçıya gedər, ya nağaraçıya".

M i r z ə M e h d i (*içəridən çıxır*). Naxoşa baxdım.

H a c ı K a m y a b. Nə tapdınız, mirzə?

M i r z ə M e h d i. Xatircəm olun, xəstəliyi yoxdur. Nəbzi salamatdır. Hərarəti az, xırdaca ürək döyünməsi var, o da rəf olub gedər. Onun ümdə naxoşluğu yuxusuzluqdur. Iki gecə rahat yatsa, sağalıb oturacaqdır. Budur, dərman yazmışam. Gündə üç qaşıq verərsiniz içər. Bu dərman əlbəttə ona yuxu gətirəcəkdir. Əlavə, onu qoymayın artıq fikir edə. Ürəyi istəyən qızlardan, gəlinlərdən onun başına cəm edin, danışsınlar, gülsünlər, oynasınlar. Yenə deyirəm, təşviş etməyin, axırı xeyir olar. Iki gündən sonra yenə gələrəm. Xudahafiz.

H a c ı K a m y a b. Zəhmət çəkdiniz, mirzə. Məni xatircəm etdiniz. (*Pul verir.)*

M i r z ə M e h d i. Bu nəyə lazımdır, hacı? Mən bu evin çörəyini az yemişəm ki, mənə pul verirsiniz?

H a c ı K a m y a b. Yox, mirzə, xahiş edirəm qəbul edəsiniz.

M i r z ə M e h d i. Ərz edirəm ki, almaram.

H a c ı K a m y a b. Almasanız, doğrudan sizdən inciyərəm və yəqin edərəm ki, qızımın xəstəliyi ağırdır.

M i r z ə M e h d i. Xub, belə olan surətdə sözüm yoxdur. *(Pulu alıb gedir.)*

H a c ı K a m y a b (*arvadına)*. Sən get qızın yanına. Mən də dərmanı göndərim əczaxanada hazırlasınlar.

B i b i x a t u n . Dərman-mərman hamısı nahaqdır. İndi gör söz mən deyəndir, yoxsa yox? Onu həmişə, başın yerə qoyan kimi, yuxu aparardı. İndi nə olub yatmayır? Qotur Kamranın eşqi düşüb beyninə, yatmayır. Hacı Kamyab. Rəhmətlik qızı, Kamran, Kamran, – deyə oturubsan. Bilmirəm Kamran sənə neyləyib?

B i b i x a t u n . Kamran mənə neyləyəcək? Atamı öldürməyib, anamı öldürməyib. Məni yandıran odur ki, mənim qızım heç anasının rüsvay olacağını fikrinə gətirmir. Qoy Hacı Rzanın arvadı hamamda məni təpikləsin, ancaq onun keyfi kök olsun.

H a c ı Kamyab. Ay arvad, burada eşq söhbəti yoxdur. Qızım Kamranı da görür, Xudayar xanın oğlunu da. Gövhərtac ilə Kamran bir yerdə böyüyüblər. Iki yoldaş biri-birindən ayrılanda, söz yox, xiffət edir. Bir neçə gün keçər, adət edib oturar yerində.

B i b i x a t u n . Sən belə bil. Mən də bildiyimi bilim... Get dərman hazırlat. Belə dərmanlardan çox hazırladacaqsan. (*Qızının otağına tərəf gedir və gedə-gedə*) Sənin hər iki dünyada üzün qara olsun, qız! Südüm gözündən gəlsin! (*Gedir. Hacı Kamyab da çıxır*.)

PƏRDƏ

ONUNCU ŞƏKİL

Baqqal İbrahimin evi. Kamran əyləşib. “Leyli və Məcnun” oxuyur.

K a m r a n :

Ləzzət rüxi-yari-dilsitandan,
Candır bulan, ey diriğ candan!..
Canım gedəli bəsi zamandır,
Cismimdəki indi özgə candır...
Məndə olan aşikar sənsən,
Mən xud yoxam, ol ki var, sənsən!

Ah çəkir.

C a h a n b a n u (*daxil olur*). Ay oğul, əmin bu gün yenə adam göndərmişdi. Deyir neçə gündür işə gəlmir.

K a m r a n. Nəyə gedəcəyəm? Mənim orada bir işim qalmayıb.

C a h a n b a n u. Necə işin qalmayıb? Bəs İndiyədək orada nə iş görürdün?

K a m r a n. Ana can, gəl otur, dərdimi sənə deyim. Düzü budur ki, əmim məni evindən qovdu.

C a h a n b a n u. Evindən qovdu, bəs niyə yenə çağırır?

K a m r a n. Ana can, adam kasıb olanda gərək hamı onun başına qapaz vursun? İndi mən neyləyim ki, mənim atam baqqal İbrahim xalqın qanını sormayıb, cibini soymayıb, malını oğurlamayıb, bir balaca baqqal dükanına qənaət edib külfət saxlayır?

C a h a n b a n u. Odur ki, bir adam da sənin atayın adına pis söz demir.

K a m r a n. Atamın adına pis söz demirlər, məni də yavuğa qoymayırlar. Ana can, mən indiyədək Gövhərtac ilə bir yerdə böyümüşəm. O məni sevir, mən də onun dərdindən ölürəm. Siz də hamınız güman edirdiniz ki, o, əlbəttə, qızını mənə verəcək. Bir neçə gün bundan əqdəm məni çağırıb buyurdu ki, onun evinin əndəruninə daxil olmayım, guya mən onun arvadına, qızına naməhrəməm. İndi də çağırır ki, gəl məvacib verim, mənim kontorumda qulluq elə. Mən necə gedim?

C a h a n b a n u. Ay bala, bu dərdini mənə çoxdan deyəydin. İstəyirsən elə bu gün çadramı salım başıma, gedim Bibixatunun yanına, qızına elçi düşüm.

K a m r a n. Zəhmət çəkmə, ana, mənim naməhrəmliyim bəhanə idi. Əmim, qızını Xudayar xanın oğluna verir, ona görə də məni evindən qovdu.

C a h a n b a n u. Bu nə sözdür, ay oğul? Xudayar xan kimi böyük şəxs Hacı Kamyabın qızını alarmı? Onun xan yoldaşı azmıdır?

K a m r a n. Ana can, bu dünya pul dünyasıdır. Xudayar xan dövlətli, əmim dövlətli və varisi də bir tək qızı. Xudayar xana iki dövləti biri-birinə qarışdırmaq lazımdır. İş qurtarıb gedib, ana. Ancaq bu dərdə mən davam edə bilməyəcəyəm.

İ b r a h i m (daxil olur). Yenə ana-bala nə söhbət eləyirsiniz?

C a h a n b a n u. Nə söhbət olacaq, oğlum anasına dərdini deyir.

İ b r a h i m. Cavan oğlanın dərdi cavan qız olar. Evlənmək istəyir, get bir halal süd əmmiş qız al, gətir qoy evinə.

C a h a n b a n u. Belə oğlun əmisi qızının dərdindən ölür. Mənə də dediyi odur.

İ b r a h i m . Keçinin qoturu bulağın gözündən su içər. Bala, bircə papağını qoy qabağına, fikir elə. Hacı Kamyab sənə nə üçün qız versin? Onun qardaşı oğlusan? O, Hacı Kamyab, sən baqqal İbrahimin oğlu. O, özü kimi bir dövlətli tapıb qızını verəcək. Hər kəsin öz tayıtuşu olar. Sənə hacı qızı yaramaz. Sənə mənim kimi bir baqqalın qızı lazımdır. Əmin qızının vədəsini Xudayar xanın oğluna veribdir. Dərdqəm çəkməyin mənası yoxdur. (A*rvadına*) Bunu da deyirlər ki, həmin gündən qız xəstələnib yatır. Həkimbaşı Mirzə Mehdi gündə onun yanındadır. Hər çe müalicə edir, bir nəticə vermir.

K a m r a n . Gövhərtac xəstədir?! Afərin vəfasına.

İ b r a h i m . Ay oğul, bilirsən nə var? İndi bu saat mən Hacı Kamyabın yanından gəlirəm. Özü məni çağırmışdı. Deyir: bilmirəm nə var ki, Kamran küsüb, çağırıram da gəlməyir. Deyir, mən ona məvacib kəsirdim və gəldikcə də mərtəbəsini artıracaq idim. İndi ki gəlmək istəmir, özü bilsin. Kamran, deyir, qoçaq, bacarıqlı, əlindən hər iş gələn bir oğlandır. Doğrusu, mənim namusum qəbul etməz ki, desinlər: Hacı Kamyabın qardaşı oğlu avara gəzir. Apar, – dedi, – bu iki min tüməni ver oğluna, əlində maya qayırıb ticarət etsin. Deyir: yəqinimdir ki, az keçməz Kamran adlı bir tacir olar. (*Pul verir.*)

K a m r a n . Ata, apar bu saat o pulu ver hacı Kamyaba, qoysun dövlətinin üstünə. Buna haqqı-sükut, ağızyumma deyərlər. Mən onun nə iki min tüməninə və nə iki yüz min tüməninə möhtac deyiləm. Mənim başım da, möhkəm qollarım da var. Işlərəm, başımı saxlaram. Ver pulunu özünə, deyinən çox sağ olsun.

C a h a n b a n u . Ay bala, nə danışırsan? Sənin atan İbrahim ömründə iki min tümən görməyib. Niyə belə danışırsan?

İ b r a h i m . Oğlum, bu az pul deyil. Bununla sən böyük ticarət açа bilərsən. Yoxsa bunu az hesab eləyirsən?

K a m r a n . Mən sənə necə dedim, elə də elərsən. Apar ver əmimə, deyinən qoysun dövlətinin üstünə, azalmasın. (*Qapı döyülür, Kamran çıxır.*)

İ b r a h i m . Ay arvad, oğluna sən nəsihət elə, uşağın ağlı özündə deyil.

K a m r a n (*qayıdır)*. Yoldaşlarım gəlirlər. Siz gedin. Sonra söhbət edərik. (*İbrahim və Cahanbanu gedirlər. Daxil olurlar: Cahanbəxş, F əramərz, Xurşid*). Buyurun, buyurun.

C a h a n b ə x ş . Oğlan, harada qalıbsan? Bu gün neçə gündür görünmürsən. Biz fikir etdik xəstələnibsən.

K a m r a n . Elə xəstə kimi varam.

C a h a n b ə x ş . Yəni necə?

K a m r a n . Ta mən nə söyləyim? Neçə gündür ovqat təlxliyim var. Ona görə evdən çıxmıram.

F ə r a m ə r z . Ovqat təlxliyinin səbəbini biz hamımız bilirik.

K a m r a n . Bilirsiniz, daha nə xəbər alırsınız?

F ə r a m ə r z . Biz gəlmişik sənin dərdinə bir çarə tapaq. Sənin namusun bizim hamımızın namusudur. Tamam şəhərə məlumdur ki, Hacı Kamyab qızını Xudayar xanın oğluna verir. Hacının arvadı danışmamış yer qoymayıbdır. Hacı çox da olsun dövlətli, sən kasıb. Əmi qızı əmi oğluna düşər. Biz bilirik, sən bu işlərdən sınıbsan və bu məsələ bizim hamımızı sındırıbdır.

K a m r a n . Sizin əlinizdən nə gələ bilər?

X u r ş i d . Mən bu gün Hacı Kamyaba bir adsız kağız yazaram ki, qızını Kamran a ver, ya özünü ölmüş bil.

F ə r a m ə r z . Qəribə təklifdir! Istəyirsən sabah gəlib Kamranı aparıb bassınlar həbsə?

X u r ş i d . Sən buyur, cənab Fəramərz!

F ə r a m ə r z . Əlacı qızı götürüb qaçmaqdır. Kamran ilə qızı elə gizlərik ki, şeytan da tapa bilməz. Bir neçə ay keçdikdən sonra üzə çıxardarıq.

X u r ş i d . Bilirsənmi ki, onda Xudayar xanın atlıları hacı Kamyabda istitaət qoymazlar?

F ə r a m ə r z. Cəhənnəmə qoymasınlar. Kamran a hacı Kamyabın məgər dövləti lazımdır? Ancaq onun və bizim namusumuz tapdalanmasın.

K a m r a n . Qardaşlarım, sizdən çox razıyam. Ancaq iş-işdən keçib. Qız götürüb qaçmaq istəyən gərək qız ilə bir əlaqə bağlasın. Məni hacı Kamyabın evinə yavuq qoymazlar. Amma qızın yanına mən adamımı göndərə bilərəm.

F ə r a m ə r z . Sən bir yol tap, biz də sənə kömək eləyək. Qızı götürüb qaçaq, aparaq elə bir möhkəm yerə ki, heç kəs oraya yaxın çıxmasın.

C a h a n b ə x ş . Hanı o qüvvətli yer ki, Hacı Kamyabın oraya əli çatmasın?

F ə r a m ə r z . O qüvvətli yeri mən ərz eləyim. O yer Hacı Mirzə Əhməd ağa müctəhidin evi. Hacı Kamyab heç bir cürətlə müctəhidin evinə hücum edə bilməz.

X u r ş i d . K a m r a n, sən fikirləş, qız ilə əlaqə bağlamağa yol ara, qalan iş asandır. İndi bir boş çanağı dolu çanağa vurarıq, pənah Allaha. Gedək, uşaqlar. Ancaq iş baş tutmasa da qəm yemə.

Gedirlər.

K a m r a n (*bir qədər fikirdən sonra*). Ata.
İbrahim (*daxil olur*). Nədir, ay bala?
K a m r a n. Deyirlər Gövhərtac xəstə yatır.
İ b r a h i m . Bəli, neçə gündür xəstədir.
K a m r a n. Həkimbaşı Mirzə Mehdi onu müalicə edir?
İ b r a h i m . Bəli.
K a m r a n. Çox yaxşı, heç zad olmaz, bir az yatıb sağalacaq. Ata, əmim sənə verdiyi iki min tüməni neylədin?
İ b r a h i m . Məndədir, oğul. (*Pulu çıxarır.)*
K a m r a n. Ver buraya. (*Alır.*)
İ b r a h i m . Bax belə. Ay oğul, hər adamın bir tayı olar. Yəqin bu yoldaşlarının evində qızları var. Birinə elçi düşərik, alarsan, dərd-qəmin yadından çıxar. Əlində də ki, maya var, alış-veriş edərsən.
K a m r a n. Gözəl alış-veriş edəcəyəm, ata, görərsən.

PƏRDƏ

ON BİRİNCİ ŞƏKİL

Həkimbaşı Mirzə Mehdinin evi. Mirzə Mehdi öz otağında əyləşib xəstələri qəbul edir. Mirzə Mehdi və bir nəfər xəstə.

M i r z ə M e h d i. Sənin xəstəliyin elə ağır bir xəstəlik deyil. Bir neçə günə bilmərrə sağalarsan. (*Nüsxə verir.*) Burada həb yazmışam. Gündə üç dəfə çörəkdən sonra bu həbdən iki dənəsini atarsan, xəstəlik rədd olub gedər.

Xəstə. Zəhmət verdim, mirzə, mərhəmətiniz artıq olsun. (*Pul verir, mirzə pulu alıb döşəyin altına qoyur.)*

B i r q a d ı n (*daxil olur*). Mirzə, Qurbanın olum, səni deyib gəmişəm, ya məni burada öldür, ya dərdimə bir əlac elə.

M i r z ə M e h d i. Bacı, təbib yanına gəlibsən, dərdini söylə, uzun dibaçə lazım deyil.

Q a d ı n. Oxuduğuna Qurban olum, mirzə, gözümün ağı-qarası bircə oğlum var. Dünən yoldaşları ilə nahardan sonra gedib hamama, oradan qayıdan kimi dili tutulub, ölü kimi düşübdür. Amanın günüdür, mirzə.

M i r z ə M e h d i. Bacı, sən nahaq mənim yanıma gəlibsən. Oğlun bir heyvanın çörəyini yeyib gedib hamama, çıxıb özünü verib soyuğa, olub heyzə, zatülcənb. Sən get bir baytar tap, apar oğluna müalicə eləsin. Ona insan müalicəsi kar eləməz. Heyvan müalicəsi lazımdır.

Q a d ı n. Mirzə, mənim əlimi ətəyindən üzmə, izin ver, ayaqlarına sərilim. Al, bu balaca xərcliyi də ətə ver.

M i r z ə M e h d i. Bu azdır. Mən belə pullara həkimlik eləmərəm.

Q a d ı n. Artıq pulum yoxdur, Qurbanın olum. Yoxsul, dul arvadam.

M i r z ə M e h d i. Yoxsulsan, get Mirzə Heydərquludan, Mirzə Ələkbərdən birisini apar, oğluna müalicə eləsin. Mənim həqqül qədəmim üç tüməndir. Onlar yarım tümənə də gedirlər.

Q a d ı n. Əlacım nədir, Qurbanın olum? Qalanını də gələrsən, evdə verərəm.

M i r z ə M e h d i. Evin haradadır?

Q a d ı n. Evim Zərgəran məhəlləsində, Hacı Kamyab ilə qapıqapıyadır.

M i r z ə M e h d i. Xub, get, məni evində gözlə. Bir azdan sonra mən hacı Kamyabın evinə gedəcəyəm. Oradan çıxanda, sənin də naxoşuna baxaram.

Q a d ı n. Qədəminə Qurban olum, mirzə, mürəxxəs olum.

M i r z ə M e h d i. Xoş gəldin.

Qadın gedir, Kamran. daxil olur.

K a m r a n. Salaməleyküm, mirzə əmi.

M i r z ə M e h d i. Bay, əleykəssalam, qardaş oğlu. Sən nə əcəb buraya gəlibsən? Məgər sən xəstələnmişsən? Gəl-gəl, yavuğa gəl. Burada, yanımda əyləş. Söylə görək nə xəbərdir, dərdin nədir?

K a m r a n. Mirzə əmi, mənim dərdim böyük dərddir, çarəsi ancaq sizdədir. Siz müalicə etməsəniz, yəqin ki, öləcəyəm. Ancaq, doğrusu, açıb deməyə utanıram.

M i r z ə M e h d i. Qardaş oğlu, adam dərdini həkimdən gizlətməz və gizlənən dərdə də çarə olmaz. De görüm, oğlum, dərdin nədir?

K a m r a n . Siz özünüz bilirsiniz ki, bu boyda uşaqlıqdan əmim Hacı Kamyabın evində qızı Gövhərtac ilə bir yerdə böyümüşəm və uşaq-

lıqdan bir-birimizə məhəbbət yetirmişik. Bu məhəbbət get-gedə özünün təbii yoluna düşdü. Bağışlayın, mirzə əmi, baş ağrısı verirəm və sizin vaxtınızı əlinizdən alıram.

M i r z ə M e h d i. Söylə, oğlum, söylə eybi yoxdur.

K a m r a n. Bəli, axırda biz biri-birimizi sevdik. Doğrudur, mən böyüyəndən sonra əmim məni evindən genizdi. Bu da təbiidir. Bununla belə, həm mənim və həm Gövhərtacın yəqinimiz bu idi ki, əmim bizi biri-birimizdən ayırmayacaq və cəmi qohum-əqrəbanın da yəqini bunda idi ki, hamı deyirdi: Hacı Kamyab heç vaxt istəməz ki, dövləti kənar bir şəxsin əlinə keçsin. Yəqin qızını qardaşı oğluna verəcək. İndi əmim qızını Xudayar xanın oğluna verir. Ondan nişan da qəbul edibdir. Mən də qalmışam kənarda, əlim qoynumda. Gövhərtac da həmin gündən bəstəri naxoşdur. Onun heç bir mərəzi yoxdur, məgərinki məhəbbət.

M i r z ə Mehdi. Onu mən də yəqin etmişəm. Bəs mənim yanıma gəlməkdən məqsədin nədir?

K a m r a n. Mirzə əmi, bu yerdə ancaq siz mənə kömək verə biləcəksiniz.

M i r z ə Mehdi. Mən nə kömək verə bilərəm?

K a m r a n. Siz Gövhərtaca müalicə edirsiniz. Onunla hər gün görüşmək imkanı sizdə var. Mənim bircə sifarişimi ona yetirin.

M i r z ə M e h d i. Nə sifarişin var? Deyilən, yetirim.

K a m r a n . Allah sizdən razı olsun, mirzə əmi. Mən sabah gecə onu neçə nəfər rəfiqlərimin köməyi ilə aparmağı qət etmişəm. Sizdən xahişim budur: ona deyərsiniz azandan bir saat keçmiş əndərunun küçə qapısında olsun.

M i r z ə M e h d i (*hiddətli*). Bu nə növ təklifdir mənə eləyirsən?! Mənim boynuma atdığım vəzifənin qəbahətini düşünürsənmi? Eyib olsun sənə! Sənin atan İbrahim bir ağıllı kişidir. Amma sən ona oxşamayıbsan. Əgər İbrahimin və Hacı Kamyabın xatiri olmasaydı, sənə çox ağır sözlər deyərdim. Dur buradan zəhmət çək, get. Gör bir küpəgirən qarı tapa bilərsənmi ki, belə sifarişləri onunla göndərəsən.

K a m r a n. Mirzə əmi, məgər siz cavan olmayıbsınız? Məgər cavanlıq, məhəbbət nə olduğunu bilmirsiniz? Siz görürsünüz ki, mən cavanam, bu saat başıma hava vurub, danışığımı özüm də bilmirəm. Məni bağışlayınız. Siz həkimsiniz, mərizlərə dərman edirsiniz. Vəxt ki, sizin bircə sözünüz bir cavan mərizi ölümdən qurtaracaq, o sözü deməyi siz necə qəbul etmirsiniz? Rəhmətiniz gəlsin, mirzə əmi. Bu xır-

daca töhfəni də məndən qəbul edin. (*Atasından aldığı pulları həkimbaşıya təqdim edir.)*

M i r z ə M e h d i. Oğul, bu yol nahaqdır. Sənin axırkı sözlərin kifayətdir. Bir söz ki bir cavanın diriliyinə səbəb olacaq, onu deməmək günahdır.

K a m r a n . Yox, mirzə əmi, xahiş edirəm qəbul edəsiniz. Bu xırdaca töhfə mərəzimə müalicə etmənizin həqqi, zəhməti olsun.

Mirzə Mehdi (*pulları götürür*). Əlbəttə, oğlum, sifarişini yetirrəm.

K a m r a n. Allah sizdən razı olsun, mirzə əmi, izin verin əlinizdən öpüm.

M i r z ə M e h d i. Yox, yox, oğlum, lazım deyil.

K a m r a n zorən onun əlini öpür.

K a m r a n. Qulluğunuzdan mürəxxəs olum.

M i r z ə M e h d i. Xoş gəldin, oğul, səni xoşbəxt olasan. (*Kamran çıxır, bir başqa xəstə daxil olur.)* Gəl əyləş görüm...

PƏRDƏ

ON İKİNCİ ŞƏKİL

Hacı Kamyabın evi. Bibixatun və Gövhərtac.

G ö v h ə r t a c . Həkimbaşının dünən mənə verdiyi nə gözəl dərman idi! Bir qaşıq içəntək naxoşluğum bilmərrə rəf oldu getdi. İndi daha heç yerim ağrımır.

B i b i x a t u n . Atan da buyurdu, bir yaxşı qoyun aparıb, məscid həyətində kəsib, füqəraya paylasınlar. Bir atlı da Xudayar xanın yanına göndər ki, sənin salamat çıxdığını xəbər versin. Yoxsa yazıq xanın gündə adamı gəlirdi.

G ö v h ə r t a c . Vallah, ana can, Mirzə Mehdi kimi həkim Yer üzündə yoxdu. Atam istəyirdi Parisdənmi, haradanmı həkim gətirtsin. Onların heç birisi mənim dərdimi tapmayacaqdı. Amma Mirzə Mehdi belə asanlıqla tapıb, məni diriltdi.

B i b i x a t u n . Mirzə Mehdinin xidmətinə bu anayın canı Qurban .

G ö v h ə r t a c . İndi, ana can, yemək, içmək istəyirəm. Könlümdən oxumaq, oynamaq keçir.

B i b i x a t u n . Həkimbaşı da elə buyururdu. Deyirdi gərək Gövhərtacın başını qarışdırasınız oxumağa, çalmağa. Gərək xiffət eləməsin.

G ö v h ə r t a c . Kimin xiffətin eləyəcəyəm?

B i b i x a t u n . Nə bilim? Bir para Hacı Rzanın, Xudadadın arvadları kimi ağzı göyçəklər orada, burada danışırdılar ki, guya sən qotur

K a m r a nın dərdindən xəstələnibsən.

G ö v h ə r t a c . K a m r a n nədir? Adam onun dərdindən xəstə olar? O gedəndən bir az bikef oldum. Çünki həmişə onunla bir yerdə olurduq, uşaqlıqda bir yerdə oynayırdıq, atılıb-düşürdük. Sonra yadımdan elə çıxdı ki, heç bilmirəm Kamran. adlı dünyada adam varmı.

B i b i x a t u n . Atan istərdimi ki, sən gedib qotur Kamran a arvad olaydın?! Səni verdi Xudayar xan kimi kişinin oğluna. Gedəcəksən, qılıncının dalı da kəsəcək, qabağı da. Qoy Hacı Rzanın arvadının canı çıxsın.

G ö v h ə r t a c . Ana can, mən bu gün atama deyəndə ki, sağalmışam atam dedi sənin sağalmağına görə mən böyük ziyafət düzəldib, tamam şəhərin qız-gəlinlərini bura dolduracağam, kef eləsinlər.

B i b i x a t u n . Elədir, bala. Odur bax, yavaş-yavaş gəlirlər. Neçə nəfər qız gəlib Gövhərtac ilə öpüşürlər.

Q ı z l a r d a n b i r i . Gözümüz aydın, ay Gövhərtac, şükür Allaha, salamat çıxdın.

B i b i x a t u n . Şükür içində olasan, a qızım, Allah sənə də bir belə bəxt açsın. (*Pəncərədən baxır.*) Ora bax, ora. Hacı Rzanın arvadı ilə Hacı Xudadadın arvadı gəlir. İndiyədək dalda ağızlarına gələni mənim haqqımda söyləyirdilər. İndi gəlib iki min yaltaqlıq eləyəcəklər.

H a c ı R z a n ı n a r v a d ı . Ay Bibixatun, and olsun oğlumun canına, Hacı gəlib mənə deyəndə ki, Hacı Kamyab qızını Xudayar xanın oğluna verir, elə bildim dünyanı mənə verdilər. O qədər şad oldum. Sən bilirsən ki, mən səni bacımdan artıq istəyirəm. Allah qızını xoşbəxt eləsin. Sonra onun xəstələndiyini eşidib çox qəmgin oldum. İndi şükür olsun Allaha, salamat çıxdı.

B i b i x a t u n . Mənim qızımın Xudayar xanın oğluna verildiyinə çox adam köks ötürür. Guya Hacı Kamyab Xudayar xandan əskik kişidir. Xudayar xanın mülkündən, dövlətindən Hacı Kamyabınkı çoxdur. Siz elə bilirsiniz ki, mən çox şadam? Mən heç Xudayar xanın oğlunu qızıma layiq bilmirəm.

H a c ı X u d a d a d ı n a r v a d ı . Nə sözdür, Hacı Kamyabın özü də bir xandır.

Qadınlar, qızlar bir-bir daxil olub Gövhərtac ilə, anası ilə öpüşürlər.
Bir dəstə Qadın sazandası gəlir.

B i b i x a t u n . Əyləşin, şam hazır olunca doyunca çalın, oynayın. Sazandalar çalırlar. Böyük rəqs.

H a c ı R z a n ı n a r v a d ı . A Bibixatun, qızıyın şadlıq günüdür, sən niyə bir durub oynamırsan?

B i b i x a t u n . Oynamaq mənim harama yaraşır? Heç mənim bir yerdə oynadığımı görübsən?

H a c ı X u d a d a d ı n a r v a d ı . Elə demə, Bibixatun, Hacı Səttarın oğlunun

toyunda heç kəsə macal vermirdin. İndi nə olubdur oynamırsan?

B i b i x a t u n . O bir başqa vaxt idi, keçdi.

H a c ı R z a n ı n a r v a d ı . A Bibixatun, ondan bəri qocalmadın ki? Ana məgər qızının şad günündə şad olmaz, dur ayağa, bir-ikibaş oyna. Hər bir tərəfdən. Bibixatun oynayacaq, Bibixatun oynayacaq.

Hacı Rzanın və Hacı Xudadadın arvadları onun qolundan tutub durğuzurlar.

B i b i x a t u n . Hərçənd mənə layiq eləməz, ancaq xahiş eləyirsiniz, oynaram. Sazandalar çalırlar, Bibixatun oynayır.

H a c ı R z a n ı n a r v a d ı (*Hacı Xudadadın arvadına*). Eşitdin?

H a c ı X u d a d a d ı n a r v a d ı . Eşitdim.

H a c ı R z a n ı n a r v a d ı . Yəni mən xan qayınanasıyam, belə adamların məclisində oynamaq mənə yaramaz. Gör nə sümük sındırmadan oynayır.

H a c ı X u d a d a d ı n a r v a d ı . Bəli, Ərdəbil pişiyi, küftə görməmiş.

B i b i x a t u n (*yorulmuş oturur*). Bu da mən, sizin xatiriniz üçün oynadım.

H a m ı . Sağ olsun Bibixatun, sağ olsun Bibixatun! Yenə böyük rəqs.

Q ı z l a r d a n b i r i . İndi növbət Gövhərtacındır, gərək o oynasın.

B i b i x a t u n . Gövhərtac, qızım, gəl. (*Çağırır*.) Ay qız, Gövhərtac,

G ö v h ə r t a c ! Bu qız necə oldu? Bircə otağına baxın, yoxsa ürəyi pis oldu?

Bir nəfər qızlardan otağa baxıb qayıdır.

Q ı z l a r d a n b i r i . Öz otağında da yoxdur.

B i b i x a t u n (*təşvişə düşür*). Ay uşaq, bu evləri dürüst axtarın. Bu qız hara getdi?!

Neçə nəfər çıxır.

H a c ı R z a n ı n a r v a d ı . Hara getmiş olacaq?

H a c ı X u d a d a d ı n a r v a d ı . Harda olsa İndi gəlib çıxar, evdən qaçmayacaqdır ki!

Q u l l u q ç u l a r q a y ı d ı r l a r . Xanım, otaqların hamısını axtardıq, heç yerdə yoxdur.

B i b i x a t u n . Bəlkə bağçaya çıxıbdır?

Q u l l u q ç u . Bağçada da yoxdur.

B i b i x a t u n . Bəs bu qız yerə batmadı, göyə çıxmadı?! (*Qadınların arasına qarışıqlıq düşür.)* Tez Hacı Kamyaba xəbər verin.

H a c ı R z a n ı n a r v a d ı . Mən imanım, qız qaçdı.

H a c ı X u d a d a d ı n a r v a d ı . Qəbrinə qaçsın, hara qaçacaq?

H a c ı R z a n ı n a r v a d ı . Belə sevgilisi K a m r a nın evinə.

H a c ı X u d a d a d ı n a r v a d ı . Sən də danışdığını bilmirsən, Xudayar xanın oğlunu buraxıb itin birinə gedəcək?!

H a c ı R z a n ı n a r v a d ı . Bilirsən ki, qızı öz xoşuna qoysalar, ya zurnaçıya gedər, ya balabançıya.

Q u l l u q ç u l a r . Hacı ağa gəlir.

Q a d ı nlar hamısı çıxırlar, Bibixatundan savay.

H a c ı Kamyab. Bu nə xəbərdir? Qız yoxdur nədir?

B i b i x a t u n . Gəl ay başı daşlının oğlu, başına çarə qıl, gör qızın necə oldu?

H a c ı K a m y a b . Qızım necə olacaq?

B i b i x a t u n . Necə olacaq? Elə olacaq ki, çıxıb evdən qaçıb. Get axtar tap! Hacı Kamyab. Vay mənim başıma, sinəmdə ilan bəslədim. Qızı yəqin Kamran apardı. Bu saat şəhəri adam ilə dolduraram, hər yerə atlılar göndərrəm. Qızımın ölüsünü, ya dirisini tapıb gətirərlər. Qəm yemə, arvad. Mənə Hacı Kamyab deyərlər. Dünyanın altını üstünə çevirərəm! (*Çıxır.*)

B i b i x a t u n (*qışqırır*). Aman Allah, aman! Allah, mənim başıma bir daş sal, Allah! Yer ayrılsın, məni udsun! Pərvərdigara, Əzraili göndər gəlsin, mənim canımı alsın! Xudaya, mən bundan sonra Hacı Rzanın, Hacı Xudadadın arvadlarının üzlərinə nə gözlə baxacağam?! Aman Allah, aman, Allah aman! (Çıxır.)

PƏRDƏ

DÖRDÜNCÜ PƏRDƏ

ON ÜÇÜNCÜ ŞƏKİL

Müctəhid Hacı Mirzə Əhməd ağanın evində. Hacı Mirzə Əhməd ağa və Kamran.

K a m r a n Ağa, bir qələt işdir tutmuşam. Sizi narahat etdiyimi əfv edəsiniz. Nə edim, mənim bir başqa yolum yox idi. Əmim qızını götürüb qaçmağa məcbur idim. Əmimin də qüvvətinə siz bələdsiniz. Onu hər kəsin evinə aparsaydım, əmim gedib çıxardacaqdı. Labüd qalıb sizin sayəyi-himayənizə qaçdım.

M ü c t ə h i d . Eybi yoxdur, oğlum, çox gözəl fikir edibsən.

K a m r a n. Sizin eviniz bəstdir. Sizə pənah gətirən qatil olsa, hökumət ərkanı gəlib apara bilməz.

M ü c t ə h i d . Sən xatircəm ol, oğul. Mən Hacı Kamyaba adam göndərmişəm. İndi gələcək bura. Mən onunla müfəssəl söhbət edərəm. Belə güman edirəm ki, bir söz deməsin.

K a m r a n. Sizin sözünüzün və əmrinizin qarşısında Hacı Kamyab nə danışa bilər? O ancaq Xudayar xanın oğluna söz verdiyini ərz edəcək.

M ü c t ə h i d . Söz vermək başqa, qız vermək başqa. Vəqt ki, arada əqd nikah carı olmayıb, sözü dəyişdirmək mümkündür. Xüsusən ki, bizim el arasında məşhur məsəldir: əmioğlu ilə əmiqızının kəbinini göydə mələklər kəsiblər. Sən İndi get, cavab gözlə.

K a m r a n. Mürəxxəs olum. Allah sizdən razı olsun, müctəhid ağa. (*Baş əyib çıxır.)*

N ö k ə r (*daxil olur*). Ağa, Hacı Kamyab izin istəyir.

M ü c t ə h i d . Gəlsin, gəlsin.

H a c ı K a m y a b (*daxil olur*). Salaməleyküm.

M ü c t ə h i d. Və əleyküməssalam, buyur əyləş, hacı. (*Hacı əyləşir*.) Əhval və damağınız necədir?

H a c ı K a m y a b. Ərz edim, ağa, mən nəinki öz vilayətimdə, hətta xarici məmləkətlərdə də ad, san sahibi idim. İndi mən binamus olmuşam. Camaat arasına çıxmağa xəcalət çəkirəm. Mən, görünür, sinəmdə ilan bəsləmişəm. On beş il zəhmətini çəkdiyim, oğul kimi saxladığım bir binamus məni rüsvayi-cahan etdi.

M ü c t ə h i d. Hacı Kamyab. İşə dürüst diqqət etsəniz, bir qədər də təqsir sizin özünüzdədir. Sizin, şükür olsun xudavəndi aləmin dərgahına, çörəyiniz var, adınız, şöhrətiniz var. Sizə, qızınızı qardaşınız oğluna vermək vacibatdan idi. Mənim sizi çağırmaqdan məqsədim nə olduğunu söyləyim.

H a c ı K a m y a b. Bəli, buyurun.

M ü c t ə h i d. Sizin qızınız bu saat mənim hərəmxanamdadır. Lazım gələn məhəbbəti də ona göstərirlər. İndi mənim xahişim qızı Kamrana verməkdir və sizin də danışmağa haqqınız yoxdur.

H a c ı K a m y a b. Cənab ağa, sizin xahişiniz mənim üçün əmrdir və sizin əmrinizdən də çıxmaq mənim üçün qəbahətdir. Sizə məlum olsun ki, neçə gün bundan əqdəm mən qızımı Xudayar xanın oğluna verməyə razı olmuşam. Siz çox gözəlcəsinə bilirsiniz, mənim cəmi sərvətimin səbəbi Xudayar xan ilə olan münasibətİmdir. Mən bu halda neçə kənd sahibiyəm, neçə əmlak sahibiyəm, hamısı Xudayar xanın dövlətindəndir. Belə olan surətdə mən sözümdən qaçamı bilərəm və qaçsam, bilirsiniz ki, Xudayar xan mənimlə ədavət başlayıb, tamam əmlakımı talan etdirəcək.

M ü c t ə h i d. Mən Xudayar xana cavab verməyi öhdəmə alıram. Xudayar xan sənə bir çırtma vurmaz.

H a c ı K a m y a b. Buna mən əminəm. Xudayar xan sizin əmrinizdən boyun qaçırmağa cürət edə bilməz. Fəqət Xudayar xanın əmlakından qalxan tamam məhsulat mənim əlimlə satılır və bu satışın dəllallıq haqqı ildə neçə yüz min tümən edir. Bunun hamısından mənim əlim çıxır.

M ü c t ə h i d. Hacı Kamyab, siz necə güman edirsiniz? Xudayar xanın əmlakının məhsulatı ilə mövqufat əmlakının məhsulatında təfavüt varmı?

H a c ı K a m y a b. Zəminü asiman. Söz yox ki, mövqufat əmlakının mədaxili ikiqat artıqdır.

M ü c t ə h i d . Mən mövqufat əmlakının məhsulatının satışını sizə vagüzar edirəm. Mədaxiliniz daha da artar. İndi sözünüz nə ola bilər?

H a c ı K a m y a b . İltifatınız artıq olsun, ağa. Heç sözüm ola bilməz. Fəqət bir ərzim var. Siz mənim qızımın başını kəsin, itlərə verin, mən bir söz demərəm. Ancaq mən qızımı məni rüsvay edənə, götürüb göydən yerə çırpana verməyəcəyəm.

M ü c t ə h i d . Hacı Kamyab, belə danışmayın. Bu dəb peyğəmbər axirəzzəman səlavatullahdan qalmışdır. Cənab Rəsul qızını öz əmisi oğluna verib, hamıya da bunu tövsiyə buyurmuşdu. Əmioğlunu əmi qızından ayırmaq yaxşı deyil.

H a c ı K a m y a b . Yenə ərz edirəm, sizin xahişiniz mənim üçün əmrdir. Amma mən qardaşım oğluna heç vaxt qız verməyə razı olmayacağam. İzin verin qulluğunuzdan mürəxxəs olum, ixtiyar sahibisiniz.

M ü c t ə h i d . Hacı Kamyab, qeyziniz tutub, danışırsınız. Ancaq bir az keçəndən sonra qeyziniz soyuyacaq və Kamran sizə yenə köhnə qayda oğulluq edəcəkdir.

H a c ı K a m y a b . Ağa, sizin əmrinizdən boyun qaçırmaq mənim üçün ölümdən bədtərdir. Ancaq namus ilə müdara etmək çətİndir. İzin veriniz rəfi-zəhmət edim. Xudahafiz. (İstəyir getsin.)

M ü c t ə h i d . Bir qədər dayanın. (*Hacı Kamyab dayanır. Müctəhid bir qədər fikirdən sonra)* Siz qızınızın nikahının Kamrana oxunmasınariza vermirsiniz?

H a c ı K a m y a b . Bəli.

M ü c t ə h i d . Və bu sizin qəti cavabınızdır?

H a c ı K a m y a b . Tərəfimdən biehtiramlıq olduğunu etiraf edirəm, fəqət cavabım qətidir.

M ü c t ə h i d . Elə olan surətdə mənim bir başqa təklifimi qəbul edin.

H a c ı K a m y a b . Buyurun.

M ü c t ə h i d . Ərəblər deyərlər: xeyrül-ümur övsətüha. Yəni hər işin yaxşılığı onun ortasındadır. Siz qızınızı nə Xudayar xanın oğluna və nə Kamrana verin. Izin verin onun nikahını mən özümə oxuyum. Buna sözünüz nədir? (*Hacı dayanıb baxır*.) Nə üçün sükut etdiniz?

H a c ı K a m y a b . Heç zad anlamıram. İzin verin bir qədər fikirləşim.

M ü c t ə h i d . Fikirləşmək yeri yoxdur, mənim ciddi sözümdür. Mənim təklifi-şərim sizə itmami-höccət etmək idi. Onu da etdim. Bundan sonra bu təklifi etməyə haqlıyam. Xudayar xanın, Kamranın cavabını mən verrəm. (*Hacı Kamyab dayanıb baxır*.) Cavab gözləyirəm.

H a c ı K a m y a b . Ağa, bu təklif mənim üçün böyük səadət və bu iki günün müddətində çəkdiyim müsibətin layiqli bir mükafatıdır. Mən danışa bilmərəm, qızımın başını kəsməyə haqlısınız.

M ü c t ə h i d . Razısınız?

H a c ı K a m y a b . Səmimi-qəlbdən.

M ü c t ə h i d . Əlini mənə ver. *(Hacı Kamyab istəyir onun əlindən öpsün, izin vermir.)* Yox, yox, şiəlikdə əl öpmək haramdır. (*Bərk əlini sıxır*.) Çox mübarəkdir.

H a c ı K a m y a b . Çox mübarək və böyük səadətdir. Bu saat gedim bu xeyir xəbəri qızın anasına da yetirim. Mürəxxəs olum.

M ü c t ə h i d . Xoş gəldin. *(Hacı Kamyab baş əyib çıxır. Müctəhid əl çalır, nökər daxil olur.)* Hacı Kamyabı yola sal. (*Nökər istəyir çıxsın.)* O buraya qız gətirən oğlan haradadır?

N ö k ə r . Bizim mənzilimizdə əyləşibdir.

M ü c t ə h i d . Qız ilə görüşür, ya yox?

N ö k ə r . Hərdənbir əndərun bağçasına keçir, qız da oraya çıxır, görüşürlər.

M ü c t ə h i d . Ona deyinən evdən bilmərrə çıxıb getsin və dübarə qayıdıb gəlmək istəsə, evə buraxma, eşitdin?

N ö k ə r . Bəli, ağa.

M ü c t ə h i d . Di get.

PƏRDƏ

ON DÖRDÜNCÜ ŞƏKİL

Hacı Kamyabın evi. Bibixatun əyləşib, yanında iki kəniz. Xanım dinmir, danışmır, tez-tez “ox”, “ox” deyib, iki əlilə dizlərinə yumruq çırpır.

K ə n i z . Xanım, sakit olun, Allah kərİmdir, özünüzə bir belə əziyyət verməyin.

B i b i x a t u n . Xanımın dünyaya gəldiyi günə daş düşsün! Aman, aman, Allah, yandım! Allah, məni rüsvay eləyəni rüsvay elə! Allah, məni oda yandıranı cəhənnəm odunda yandır! Kamran, sənə əlimlə verdiyim çörək səni dizim-dizim süründürsün! Allah, belə bəlamı olar?! Allah, belə müsibətmi olar?! Bundan sonra mən xalq arasına çıxamı biləcəyəm?

Ox, ox, yandım, Allah, yandım! Alışdım, Allah, alışdım! Kül mənim bu beyinsiz başıma! (*İstəyir başına döysün, kənizlər qoymurlar.)*

K ə n i z . Xanım, Allahı sevərsiniz, bir qədər rahat olun. Budur, iki gündür özünüzə bir belə cəza verirsiniz, buna davammı etmək olar?

İ k i n c i k ə n i z . Xanım, dünəndən acsınız, iki qaşıq abguşt yeyin.

B i b i x a t u n . Cəhənnəm olsun yemək, cəhənnəm olsun içmək! Nə yeyəcəyəm, nə içəcəyəm. Qoy birdəfəlik acından ölüm. Belə rüsvay olmaqdansa bir dəfə ölüb qurtarmaq yaxşıdır.

K ə n i z . Xanım, heç olmasa bircə fincan çay iç.

B i b i x a t u n . Içmirəm, apar, o yana, ləçər! Bundan sonra şəhərin it-pişiyi də mənə güləcək. Hacı Rzanın arvadı bir ata minib, bir at da yedəyinə alıb, düşəcək şəhərin canına. Ona deyəcək: "Gördünüzmü Bibixatun necə xan qayınanası oldu". Buna deyəcək: "Gördünüzmü Bibixatun necə xan qaynanası oldu". Uşaqlar küçələrdə gülüşüb deyəcəklər: "Ora baxın, xan qayınanası gedir". Dalımca daş atacaqlar. Başına daş düşsün, a belə xan qayınanası! (*İstəyir başına yumruq vursun, qoymurlar.)*

H a c ı K a m y a b (*daxil olur*). Arvad, nə qiyamətdir?

B i b i x a t u n . Arvadın atasının qızı ölsün! Arvadın anasının başına daş düşsün! Qara torpaq arvadın üstündən dörd qarış yuxarı dursun! Hələ bir soruşursan da, a binamus? Sənin namusun olsa əriyib yerə girərsən. Utanmayıb başına papaq qoyub gəzirsən, deyirsən kişiyəm.

H a c ı K a m y a b . Arvad, bir dayan, gör nə deyirəm.

B i b i x a t u n . Nə deyəcəksən? Bilirəm nə deyəcəksən. Deyəcəksən getdim qızın kəbinini kəsdirdim qotur Kamrana, götürüb apardı. Bundan sonra mən camaat içinə çıxa biləcəyəm? Bundan sonra mən Hacı Rzanın, Hacı Xudadadın bihəya arvadlarının üzlərinə baxa biləcəyəm? Bundan sonra...

H a c ı K a m y a b . Ay canım, bircə dil qəfəsə sal, bircə aram ol, gör nə deyirəm. K a m r a na qız verən kİmdir? Qız yiyəsi məgər dəlidir?

B i b i x a t u n . Sən çox da vermə. Bu biabırçılıqdan sonra Xudayar xanın oğlu sənin qızına yiyəmi duracaq?! Bir kor pişik kimi qalacaq ocağının qırağında. Axırda qotur Kamranı çağırıb, yalvarıb verəcəksən.

H a c ı K a m y a b . Bircə aram ol, gör nə deyirəm.

B i b i x a t u n . Hə, de görüm nə deyəcəksən?

H a c ı K a m y a b . Mən qızımı nə Kamrana verirəm, nə də Xudayar xanın oğluna. Qız bu saat müctəhid ağanın evindədir. Bu saat ora-

dan gəlirəm. Müctəhid ağa məndən çox xahiş etdi ki, qızı o binamus Kamrana verim. Dedim: öldürüb itlərə verərəm, Kamrana vermərəm. Axırda müctəhid ağa özü qıza müştəri düşdü. Buyurdu ki, mənim himayətimə gələn mənim evimdən çıxmaz.

B i b i x a t u n . Bax, İndi görürəm ki, ağlın başından çıxıb, hədərənpədərən danışırsan. Müctəhid ağa nədir? Yoxsa başına hava gəlibdi?

H a c ı K a m y a b . Başıma hava gəlməyib, işin olanını deyirəm. Doşab alıbsan, bal çıxıbdır.

B i b i x a t u n . A kişi, sən atanın goru, doğru deyirsən?

H a c ı K a m y a b . Atamın da goru haqqı, anamın da goru haqqı, belədir ki deyirəm. Bu gün müctəhid ağa qızın nikahını özünə oxuyacaq. İndi onun cehizini hazır eləyib, ağanın evinə göndərməlidir.

B i b i x a t u n . A kişi, bir dayan özümə gəlim. (*Kənizlərə*) A bihəyalar, nə durub mat-mat tamaşa eləyirsiniz? Görmürsünüz iki gündür mən ac-susuzam. Cəld mənə çay gətirin, nahar da hazır eləyin. (*Kənizlər gedirlər*.) Bəs Xudayar xana nə cavab verəcəksiniz?

H a c ı K a m y a b . Xudayar xanın nişanlarını Hacı Mirzə Əhməd ağanın vasitəsilə göndərəcəyəm. Ağa onun cavabını öz öhdəsinə götürübdür.

B i b i x a t u n . Bundan sonra Xudayar xan məhsulatını sənin əlinlə satacaqdırmı?

H a c ı K a m y a b . Əvvəla, Xudayar xan nə qədər özünü oraya, buraya çırpsa, yenə mənim yanıma gələcəkdir. İkinci, müctəhid ağa mövqufat əmlakının məhsulatının satılmasını mənə mühəvvəl edir. Mövqufat əmlakı iki dəfə Xudayar xanın əmlakından böyükdür.

B i b i x a t u n . Deməli, müctəhid ağa daha Hacı Rzanın əlilə iş görməyəcəkdir?

H a c ı K a m y a b . Yox, yox, Hacı Rza nəçidir?

B i b i x a t u n . Bax indi ürəyimdən tikan çıxdı. (*Durur*.) Gedək, iki gündür mən acam. (*Təşəxxüslə yeriyir*.) Kənar olun, arvadlar, müctəhidin qayınanası gəlir!

PƏRDƏ

ON BEŞİNCİ ŞƏKİL

Müctəhid Hacı Mirzə Əhməd ağanın yatağı. Qadınlar ilə əhatə olunmuş Gövhərtac bəsti üzərində əyləşib, məşşatə ona ziynət verir.

M ə ş ş a t ə . Ay xanımlar, bura müctəhid evidir. Burada çalmaq, oynamaq haramdır. Mən gəlinə ziynət vururam, siz də yığılın bir mahnı düzəldin.

Q ı z l a r , q a d ı n l a r (*səs-səsə verib oxuyurlar)*

Gəlin, qızlar, sürmə çəkin gözünə,
Ay həsrətdir bu gəlinin üzünə.
Toy olunur Kamyabın qızına;
Ay qız, sənin toyun mübarək olsun. (*İki dəfə*)

Qızıl güldən qırmızıdır yanağı,
Ənbər qoxur dodaqları, buxağı.
Bu evdə sayəli olsun ayağı;
Ay qız, sənin toyun mübarək olsun. (*İki dəfə)*

Qapının dalında durubdur yarı,
Tükənib oğlanın səbri-qərarı,
Bəd nəzərdən hifz et bunları, tarı;
Ay qız, sənin toyun mübarək olsun. (*İki dəfə)*

Çiçək düzün tellərinə, saçına,
Canlar Qurban kirpiyinə, qaşına.
Oğlan dönmüş qızıl quşa, laçına;
Ay qız, sənin toyun mübarək olsun. (*İki dəfə)*

M ə ş ş a t ə . Qurban olum belə qızı doğan anaya. Bircə tamaşa eləyin, bu gözəllikdə can şahın hərəmxanasında da tapılmaz. Bu gözəllikdə gül də, mələk də yoxdur.

M ü c t ə h i d i n b ö y ü k a r v a d ı . Ay qızım, səni həmişə xoşbəxt yaşayasan. Onunla mehriban dolan, onun itaətində ol. Allahın əmri də belədir. Bacılar, daha durun dağılın.

H a m ı (*bir-bir*). Allah xoşbəxt eləsin, boya-başa çatdırsın, oğullu, qızlı olsun.

Gedirlər. Gövhərtac gözünü qapıya dikib. Qapı açılır.

Gövhərtac (*hövlnak*). Kamran!

Müctəhid (*daxil olur. Gövhərtac qalxıb, üzünü örtmüş, ona təzim edir).* Ay qız, sən bu evə xoş gəlibsən. Bu ev sənə peşkəş.

Gövhərtac baş əyir. Müctəhid əbasını açıb divardan asır, əmmaməni çıxarıb kənara qoyduqda Gövhərtac şəkkə düşüb bir kənara qısılır.

Müctəhid. Ay qız, bir üzünü mənə göstər görüm, tərifə layiqsənmi? (*Gövhərtac bərk üzünü tutur.*) Allahümmə rəzəqna şənnətən, lətifətən, vəchətən və zəvvicna minəl huril-eyn! (*Bunu deyib qızı qucaqlamaq istəyir. Gövhərtac onu döşündən itələyir. Müctəhid yıxılıb, bir də durub qıza hücum edəndə qız qışqırıb yıxılır. Arvadlar qışqırtıya yüyürürlər.*) Götürün qoyun çarpayının üstünə, qız uşağıdır, qorxudan qışqırdı, İndi ayılar. (*Gövhərtacı götürüb çarpayının üstünə uzadırlar.)*

Di çıxın gedin, burada işiniz yoxdur.

Arvadlar çıxırlar.

Müctəhid gəlib Gövhərtacın sifətinə baxır.

Bu nə qaşdır, bu nə gözdür, bu necə türfə buxaq,
Həq səni eyləsin, ey şux, yaman gözdən iraq.

(*Əyilib öpür, qaranlıq olur.)*

PƏRDƏ

ON ALTINCI ŞƏKİL

Çayxana. Cavanlar, qocalar, işçilər, kəndlilər. Hərə bir tərəfdə oturub çay içir. Çayçı Kərbəlayı Qafar samovarın böyründə əyləşib çay tökür. Qulluqçu aparıb qonaqların qabağına qoyur.

K ə r b ə l a y ı Q a f a r (*bir nəfər qonağa*). Ağa Seyid Cabbar, təzə xəbəri eşitməyibsən?

S e y i d C a b b a r . Şəhərdə bir təzə xəbər var, o da Hacı Mirzə Əhməd ağanın Hacı Kamyabın qızını alması. Doğrusu, bu əhvalat Hacı Kamyabın daha da şöhrətinə və başıucalığına səbəb olacaq. Hacı Kamyab yatsaydı, yuxusunda da müctəhid ağanın ona damad olmasını görməzdi.

K ə r b ə l a y ı Q a f a r . Xeyr a, əhvalatı başdan-başa bilməlidir. Məsələ bir tək ağanın evlənməsi deyil. Ağa indiyədək yeddi-səkkiz arvad alıb. Məsələ qızın öz ayağilə gəlib ona düçar olmasıdır.

S e y i d C a b b a r . Deməli?

Səyyad peyi seyd dəvidən əcəbi nist,
Seyd əz peyi səyyad dəvidən məzə darəd.

K ə r b ə l a y ı Q a f a r . Bəli, bəli! Bundan sonra Hacı Kamyabın qabağında durmaq olmayacaq.

B i r n ə f ə r c a v a n . Hacı Mirzə Əhməd ağa yaxşı iş görübdür? Bu sifət müctəhidə yaraşan sifətdirmi? Heç bir insanlıqdan az-çox xəbər olan, əmanətə xəyanət etməz. O ki Allahın elmini oxuyubdur.

S e y i d C a b b a r . Hansı əmanətə xəyanət edibdir?

B i r n ə f ə r c a v a n . Iki cavan vücud biri-birlərini sevib, ona pənah gətirirlər. O da onların biri-birlərinə yetirməyin əvəzində onları biri-birindən ayırıb, özü qıza sahib olub, oğlanı qovdurur. Eyib olsun ona.

S e y i d C a b b a r . Bihəya, sən nə cürət edib burada müctəhid ağanın sözünü danışırsan?! Müctəhid ağa məgər sənin yoldaşındır? Qorxmayırsan burada sənin cəmdəyini yıxalar?

İ k i n c i c a v a n . Doğru danışanın papağı yırtıq olar. Kimin nə haqqı var ona bir çırtma vura?! Bəlkə biz hamımız əhvalatdan müxbirik. Hacı Mirzə Əhməd ağanın hərəkəti hamımıza toxunubdur. Hətta ürəyimizdə ona bir nifrət də əmələ gəlibdir.

S e y i d C a b b a r . Kərbəlayı Qafar, bu oğlanlar ikisi də kafirdirlər. Bunların hər ikisinin qətli vacibdir. Bunların çay içdikləri qab murdardır, suya çəkilməlidir.

B i r i n c i c a v a n . Istədiyimi dedim, arif olan anlar.

S e y i d C a b b a r (çay içənlərə). Həzərat! Bunlar mürtəddirlər, qanları halaldır vurun bu binamusları! Neçə adam cavanların üstünə tökülür. Cavanlardan biri müdafiə üçün xəncər, o biri tapança çəkir. Üç nəfər kəndli cavanlara tərəf düzülürlər.

B i r i n c i k ə n d l i . Qardaşlar, nə istəyirsiniz bu cavanlardan?

S e y i d C a b b a r . Görmürsünüz Hacı Mirzə Əhməd ağanın haqqında nə danışırlar?

B i r i n c i k ə n d l i . Hacı Mirzə Əhməd ağa da bizim kimi bir adam deyilmi? Onun haqında söz danışılanda qiyamətmi qopar?

S e y i d C a b b a r . Qopar, o bizim müctəhidimizdir, atamızdır, peyğəmbərimizin canişinidir.

K a m r a n (*rəfiqlərilə daxil olur*). Nədir, nə qeyl-qaldır?

B i r i n c i c a v a n . Budur, işin sahibi gəldi, sizinlə özü söhbət eləsin.

K a m r a n. Nə söhbət?

B i r i n c i c a v a n . Burada Hacı Mirzə Əhməd ağanın evlənməyinin söhbətidir. Biz ağanın əməlinin müctəhidlik sifətinə yaraşmadığından danışdıq. İndi camaat bizim adımızı kafir qoyub, bizi öldürmək istəyir.

K a m r a n . Qardaşlar, bir qədər sakit olun. Mən də bir neçə söz deyim. Sonra vacib bilsəniz, məni də, bu cavanlarla bir yerdə öldürə bilərsiniz.

S e y i d C a b b a r . Mürtədin biri də gəldi.

K a m r a n. Ağa, mürtəd nəyə deyirsiniz?

S e y i d C a b b a r . Mürtəd sizin kimi dindən çıxanlara: Allaha, dinə, müctəhidlərə səbb edənlərə.

K a m r a n. İndi, ağa, izin verin mən də bir neçə söz deyim. Əgər məni haqsız görsəniz, öldürə bilərsiniz.

S e y i d C a b b a r . Mən sizin kimi mürtədlərin danışığına qulaq da asmaq istəmirəm. Sizə qulaq asmaq da günahdır.

Cavanlar və kəndlilər. Danış, danış!

K a m r a n. Qardaşlar, mən əmim qızını sevirdim, o da məni sevirdi. Əmim qızını başqasına vermək istəyirdi. Biz sözləşib, qaçıb gedib Hacı Mirzə Əhməd ağaya pənah gətirdik. Müctəhid qızın kəbinini özünə kəsib, məni rədd elədi. Mən sizi inandırıram ki, mənim müctəhid ilə ədavətim var isə də, şəxsidir. Onu meydana çəkmirəm. Mən bilirəm, o bilir. Ancaq bir məsələ var ki, əvvəla, müctəhid bir şəxsin sevgilisini əlindən alıb özünə zövcə etdikdə, günah əməl tutur, ya yox?

C a v a n l a r v ə k ə n d l i l ə r . Bəli, günah əməl tutur.

S e y i d C a b b a r . Necə şəriəti pozub peyğəmbər özü oğlum dediyi Zeydin arvadını görüb, ona eşq yetirib, boşadıb aldı?! Deyəcəksiniz: o da günah əməl tutub.

K a m r a n. Mən bu əhvalatı bilmirdim, günahdan da günahdır və belə əməl tutana mən peyğəmbər demərəm.

S e y i d C a b b a r . Yox, bu, mürtədlikdən də ötdü. And olsun cəddimə, bunun qanı halaldır.

K ə n d l i . Əgər peyğəmbər bu işi tutubsa, mən ona peyğəmbər demərəm. Bu işi heç bir avam kəndli eləməz.

K a m r a n. Peyğəmbər tutmasa, onun nəvəsi deməz. Yəqin bu, olmuş işdir. Müctəhid mənim əmimə buyursa idi ki, mən qızı Kamrana verəcəyəm sən danışma, əmim nə deyə bilərdi?

C a v a n l a r . Heç bir şey.

K a m r a n. Müctəhid bilmirmi ki, qızın razılığı olmasa, ona kəbin kəsmək şərrən haramdır?

C a v a n l a r . Əlbəttə bilir.

K a m r a n. Bunu bilə-bilə zorən mənim nişanlımın kəbinini özünə kəsmək şəriəti pozmaqdır, ya yox?

H a m ı . Pozmaqdır, pozmaqdır.

K a m r a n. Müctəhid Hacı Mirzə Əhməd ağanın yeddi nəfər arvadı var. Bu arvadları nə ilə saxlayır? Yüz min tümənlər ilə ona imam malı gəlir. Ondan min tümən füqəraya vermir. Qalan pullar necə olur? Şəhərin tacirlərinin qarnına dolan plov kimin hesabınadır?

C a v a n l a r . Füqəranın.

K a m r a n. İndi siz fikir eləyiniz. Bir belə günah əmələ bizim birimiz mürtəkib olsaq, deyərlər avamdır, hamildir. Bu sözləri müctəhidə demək olarmı? O, avam, cahil deyil, alİmdir. Cəmi ülumdan xəbərdardır. O bilir ki, şəriətdə onun yeri cəhənnəmdir. O ya cəhənnəm odunu özünə qəbul edir, yainki cəhənnəm odunun yoxluğunu yəqin edibdir. Vəxti ki, füqəraya məxsus iman malını mənimsəyib şərafətlə yeyib, kef çəkir və Allahın buyurduğunu pozur, yəqin ya boynuna günah götürür, yainki Allahın yoxluğunu öz elmilə təyin edibdir. Bunu görəndə mən yəqin edirəm ki, nə yuxarıda, nə aşağıda heç bir şey yoxdur. Məhz bu avam camaatı qoyun kimi soymaq üçün din büsatını üləma əlində bir alət qayırıbdır. Yəqin bilin ki, müctəhid Mirzə Əhməd ağa Allahın və cəhənnəm odunun varlığını etiqad etsə idi, bu əməlləri tutmazdır. O ki alimlikdə etiqad etmir, yəqin yoxdur.

C a v a n l a r v ə k ə n d l i l ə r . Doğrudur, qardaş, doğrudur.

B i r k ə n d l i . Bizim kəndimiz mövqufat kəndlərindəndir. Bir nəfər bizim kəndlilərdən neçə sənə idi ki, Bakıda mədəndə işləyirdi. Bu günlərdə gəlmiş idi. Camaatı çağırıb bir para bu oğlan söyləyən sözlərdən söyləyib dedi ki: camaat, siz ki bu yeri əkirsiniz, bu bağı becərirsiniz, bunun mədaxilini də özünüz götürün. Biz dedik ki, mədaxil imam malıdır, xəyanət edə bilmərik. Dedi, imam malı-filan yoxdur,

hamısı müctəhidin cibinə dolur. Füqəraya da görk üçün beş, on tümən verirlər. Bu günlərdə, müctəhidin əmrinə görə, o yazığı boğazından asdılar. Buna nə deyirsiniz?

S e y i d C a b b a r . Həqq eləyiblər. Hər əclaf Rusiyadan gəlib, burada bir qanun düzəldəcək. Rusiyanın camaatı çoxdan kafir olublar, istəyirlər bizi də, dindən çıxartsınlar.

K a m r a n . Ağa, din insanın insafı, vicdanıdır. İnsaf, vicdandan uzaq olanlara ancaq bidin demək olar. Məsələn, Hacı Mirzə Əhməd ağa müctəhidə.

S e y i d C a b b a r . Ay camaat, ay müsəlmanlar! Məgər karsınız, bu mürtədin danışığını eşitməyirsiniz? Niyə vurub öldürməyirsiniz? Bunu öldürənin cəmi vəbalını öz öhdəmə götürürəm. Vurun, bu mürtədi!

Camaat dayanır.

K a m r a n . Ağa, görürsünüz, haqq söz təsir edir. Qabaqca sizin tərəfinizdə olanlar da, İndi fikrə gediblər.

S e y i d C a b b a r . Görünür, bu camaat hamısı bidİndir. Mən burada qala bilmərəm və bu saat bu keyfiyyəti Hacı Mirzə Əhməd ağaya yetirərəm. (*Gedir.)*

K a m r a n. Buyura bilərsiniz, ağa. (*Hamı gülüşür*.) Di əyləşin qardaşlar çay içək, Kərbəlayı Qafar camaata çay ver.

B i r i n c i c a v a n . Afərin, Kamran, yaxşı döşədin.

F ə r a m ə r z . Ax, ay Kamran, bir minbər olaydı, səni çıxardaydım oraya, oradan bu sözləri camaata deyəydin.

K a m r a n. O minbər olar və az zaman keçər ki, o minbəri görərsən.

PƏRDƏ.

ON YEDDİNCİ ŞƏKİL

İbrahimin evi. İbrahim və arvadı Cahanbanu.

C a h a n b a n u. Kişi, bu işlərə sən nə deyirsən, dünya görmüş adamsan? Allah sənin qardaşına insaf versin. Ayrı bir söz dilimə gətirə bilmirəm. Adamda da bir belə məgər hirs olarmış! Onda deyən gərək, a bədbəxt, bir belə dövlət ki cəm eləyibsən axırda gedib dolacaq Hacı Mirzə Əhməd ağanın cibinə. Hacı Mirzə Əhməd ağa onsuz da varlıdır.

Bircə qızın var idi, bircə də qardaşın oğlu. Oğlum deyib çəkəydin sinənə, var-yoxun da yenə öz qardaşın oğluna qalaydı. Uşağı neçə il müftə hambal kimi işlədəndən sonra döşündən itələdi. İndi biçarə az qalıb divanə olub, Məcnun kimi biyabana düşsün.

İ b r a h i m . Arvad, olan olub. Müctəhidi görən, baqqal İbrahimin oğluna qız verməz. Mən oğlumun divanə olmasından qorxmuram. Mən başqa bir müsibət gözləyirəm ki, divanəlikdən bədtərdir.

C a h a n b a n u . Bismillah! Nə müsibət, a kişi? Yoxsa qorxursan uşaq vurub özünü öldürər? Ya, xudanəkərdə, əmisinə, ya müctəhid ağaya biehtiramlıq eləyə?

İ b r a h i m . Bunlar da yola gedər. Bunlardan bədtərdir.

C a h a n b a n u . Bəs nədir, a kişi? Mənim bağrımı yarma.

İ b r a h i m . Bundan bədtər odur ki, Kamran ora-burada oturub bir para hədyanat danışır. Dinə, məzhəbə dolaşır. Nəəzubillah, dilim də gəlməyir deyim, hətta peyğəmbərə, Allaha əl aparır. Bu yaman dərddir. Özünü öldürər, bir neçə gün ağlayıb sakit olaram.

C a h a n b a n u . A kişi, sözünün qüvvəti, qoy mən də sənə bir söz deyim. Dünən oturub namaz qılırdım. Qapıdan girib mənə bir az tamaşa eləyib güldü, sonra başladı: ana can, nə vaqe olub? Nə belə əyilibqalxırsan? Yoxsa behişti satın almaq istəyirsən? Rükəti qurtarıb dedim: ay bala, görürsən namaz qılıram, daha nə soruşursan? Namaza niyə sataşırsan? Gör nə deyir. Deyir: əyilib-qalxmaqla adama behişt verməzlər. Əgər behiştə getmək istəyirsən, get Hacı Mirzə Əhməd ağanın ətəyindən yapış, özü gedəndə səni də aparar. Dedim, ay oğlum, get, belə danışıqlara qulaq asmaq da günahdır. Qoy namazımı qurtarım. Üz çöndərib gülə-gülə getdi.

İ b r a h i m . İndi dərdimizi görürsən, arvad. Mən, özün bilirsən, yarım saat namazımı keçirmərəm. Bir cümə camaat namazından geri qalmaram. Axır mənim oğlum niyə belə olsun? Bu dərd məni çərlədər. Hər yerdə deyirlər ki: İbrahimin oğlu vələdüzzinadır. Çünki halal oğul Allahı danmaz. Budur, deyəsən gəlir.

K a m r a n (*daxil olur*). Ata, yenə bikefsən? Deyəsən söhbət eləyirdiniz. Mən gəldim mane oldum.

C a h a n b a n u . Ay oğul, bizim səndən savayı nə danışığımız olacaq? Olan olub, keçən keçib. Bir yazıq, kasıb kişinin oğlusan. Get bir peşədən yapış. Müctəhid ilə nə işin var? Allah ilə nə işin var? Məyər qiyamət əzabından qorxmursan?

K a m r a n. Ana, bir qəribə keyfiyyət eşitmişəm. Əgər bu keyfiyyət dürüst olsa, gedib tövbə eləyib müctəhid ağadan üzr istəyib deyəcəyəm: Ağa, qələt eləyib, sizə səbb eləmişəm. Məni cavan qızların çəmxəminə bağışla.

İ b r a h i m. Kəs səsini axmaq! Bu nə cür danışıqdır?

K a m r a n. Qoy keyfiyyəti söyləyim, sonra. Hacı Mirzə Əhməd ağanın amilini ki, tanıyırsan. Bu gün bəzzaz Hacı Şükürün dükanında əyləşib söhbət eləyirdi. Camaat da onun başına toplaşıb qulaq asırdı. Mən də gəlib bir kənarda dayandım. Gördüm deyir: Ağa, gecə yarısı olanda otağından çıxıb gedir şahniştə, orada iki rükət hacət namazı qılıb, əllərini qozayır qazəlhacat dərgahına, ondan başlayır danışmağa və tez-tez də deyir: bəli, bəli, itaətdəyəm, ya rəbbi, rəhm et, günahkar bəndənə; buyurduqlarının hamısını asi bəndələrinə yetirrəm. Amil and içdi ki, ağanın Allahla danışığını qulağı ilə eşidibdir. İndi mən də istəyirəm gedəm xəlvətcə qulaq asıb, bu sözlərdən eşidəm, bəlkə imana gələm.

İ b r a h i m. Qurtardın sözünü?

K a m r a n. Qurtardım, necə?

İ b r a h i m. Belə ki, Allahın lənəti sənin canına gəlsin. A bidin, sənin müctəhid ilə nə işin var? Müctəhid sənin adaxlını əlindən alıb, qərəz ilə hər həzyanatı onun haqqında danışacaqsan?

K a m r a n. Mən həzyanat danışmıram, amilin söhbətini dedim. Mənim heç kəs ilə düşmənçiliyim yoxdur. Pişik yağlı tikə görəndə movuldayacaq. Ağa da bir yağlı tikə gördü, ötürdü içəri. Hətta mən ağadan bir tərəfdən razıyam. Mən İndiyədək kor idim, o mənim gözlərimi açdı. İndi baxıb görürəm ki, din, məzhəb, iman, kitab, Allah, peyğəmbər – bunlar hamısı avam xalqı aldadıb cibini soymaq üçün bir alətdir. Bu alətdən həm üləma, həm sərvətdarlar istifadə edirlər. Müctəhidin hərəkəti mənə bunu açıq sübut elədi. Mən ondan çox razıyam. Əmimin qızı ona halal olsun, doyunca yesin.

İ b r a h i m. Ay bidin, belə sözləri danışıb mürtəd olma. Allah sənin əvəzinə mənim başıma daş salar.

K a m r a n. Allah sənin başına niyə daş salsın? Allahın daşı olsa Hacı Kamyabın başına salar ki, Xudayar xanın mülkünü icarəyə götürüb əhalini kabab kimi şişəyə taxır. Allahın daşı varsa, müctəhid Hacı Mirzə Əhməd ağanın başına salar ki, neçə nəfər həqq və onun mayasına ziyan gətirən sözləri danışanların adlarını babı qoyub dara çəkdiribdir.

Badkubədən gələn bir bədbəxti nə üçün dara çəkdirdi? O bədbəxt nə etmişdi? Onun sözü bu idi: yer əkinçinİndir, ağa nə üçün mədaxil aparsın? Məgər bu, babilikdir, məgər günahi-kəbirədir? Allah var isə, daşı var isə, bunların başına salsın, sənin başına niyə salır?

İ b r a h i m . Elə Allah daşın böyüyün mənim başıma salıbdır.

K a m r a n *(gülür*). Mənim kimi oğulu sənə veribdir, beləmi?

İ b r a h i m . Dəxi özün danışırsan, mən nə eləyim! Allah sənin üzünü hər iki dünyada qara eləsin!

K a m r a n . Ata, acığın tutmasın, sənə bir söz deyim. Mən gəlib sənə deyirəm: bir atım var, başı yoxdur, bədən yoxdur, ayaqları yoxdur, quyruğu da yoxdur. Bunun mənası bu deyilmi ki, atam yoxdur?

İ b r a h i m . Nə demək istəyirsən?

K a m r a n. Cisim deyil, cövhər deyil, ərəz deyil, mərkəb deyil, yeməz, içməz, yatmaz, doğmaz, doğulmaz...

Qapı döyülür.

İ b r a h i m . Tfu, Allah sənə lənət eləsin! (*Cəld çıxır*.) Görüm qapını kim döyür?

C a h a n b ə x ş (*pozğun bir halətdə daxil olur*). Yaxşı səni evdə tapdım!

K a m r a n. Necə?

C a h a n b ə x ş . Necəsi yoxdur! Dedim İndi görəsən sənin nəşini itlər hansı dərədə yeyirlər.

K a m r a n. Ağıllı danış görüm nə deyirsən?

C a h a n b ə x ş . İş belədir, qardaş. Dünən gecə Mirzə Əhməd ağanın evində böyük bir iclas olmuş. O iclasda ancaq sənin söhbətin olubdur.Iclasda sənin əmin Hacı Kamyab da var imiş. Orada səni mürtədlikdə müttəhim tutub, qətlinə fitva veriblər. Bu fitvaya görə, səni öldürənə nəinki tənbeh yoxdur, hətta behişt belə vacibdir. Müctəhid tərəfindən polis nazirinə əmr var ki, səni öldürəni həbsə almasın. Görk üçün həbsə alsa da, bu qapıdan salıb, o biri qapıdan buraxsın. İndi şəhərin uzunqulaq cavanları hər biri bir ğədr pişto bağlayıb səni gözləyir ki, öldürüb behişt qazansınlar.

K a m r a n. Müctəhiddən bunu gözləməli idi.

C a h a n b ə x ş . İndi sərvaxt olmalısan. Biz yoldaşların sənin evinin ətrafında qarovul çəkməkdəyik. Sənin evinə daxil olmadan qabaq gərək bizim dördümüzü də öldürsünlər. Hamısından yaxşı buradan baş götürüb qaçmalıdır.

K a m r a n. Haraya qaçmalı? Mən yerin deşiyində də olsam, Hacı Mirzə Əhməd ağanın xərə müridləri məni tapıb öldürəcəklər. Yaxşısı budur ki, öz evimdə öldürələr.

C a h a n b ə x ş . Mən sənə yerin deşiyindən möhkəm yer göstərim.

K a m r a n. O yer haradır?

C a h a n b ə x ş . O yer Şura Azərbaycanı, Badkubə, Şura hökuməti, hamı sənin kimi din əleyhinə olanların hamisidir. Xalq üçün dini tiryəkə nisbət ediblər. Gedək oraya. Biz də sənlə orada asudə yaşayıb vətənimizin gələcəyi, Hacı Mirzə Əhməd ağaların, Xudayar xanların, Hacı Kamyabların pəncəsindən qurtarması üçün təbdirlər edə bilərik və vətənin xoşbəxt günlərinə nail olub buraya qayıdarıq.

K a m r a n. Qaçaq, qardaşım, elə bu gecə buradan yola düşək. Yaşasın Şura Azərbaycanı!

C a h a n b ə x ş . Yaşasın Şura hökuməti!

PƏRDƏ

BEŞİNCİ PƏRDƏ

ON SƏKKİZİNCİ ŞƏKİL

Bakıda mexanik emalatxanasında. Kamran, Fəramərz, Xurşid, Cahanbəxş dəzgahlar dalında işləyirlər.

K a m r a n (*çəkiş vuraraq oxuyur):*

Yolu bəri baxan dağlar
Mənim səndə nəyim qaldı.
Əlim yetməz, ünüm çatmaz,
Bir gül üzlü yarım qaldı,
Yarım qaldı, yarım qaldı.

F ə r a m ə r z . Oğlan, deyəsən eşqin yenə təzələnibdir. Ürəyin yönü bəri baxan dağların arxasına uçur.

Fit verilir, hamı əllərini işdən çəkir.

K a m r a n. Budur, iki ildir biz bu emalatxanada işləyirik. Bir dəfə də olsa mənim dilimdən Gövhərtacın adını eşidibsənmi? Mənim ba-

şımdakı xəyalət, mənə hər bir şeyi unudub. Mənim qərq olduğum dərya Xəzər dəryasından da dərİndir. Dörd ətrafına baxıb, nə xan, nə müctəhid, nə seyid, nə tacir və nə də zülm zəncirinə bağlı, zülmət dəryasına qərq olmuş dəhat əhlini və nə də çarşab altında, dörd divar arasında əsarətdə qalan ana-bacıları görürəm. Xəyalıma gəlir ki, bir gün olar bu gün mənim vətənimə də doğar. Müctəhid Hacı Mirzə Əhməd ağanın dalınca İndi ulaq kimi anqıranlar onun eşşəyinin torpağını tutiya deyə gözlərinə çəkənlər onun əmmaməsini boynuna dolayıb küçələrdə sürüyərlər. Xudayar xanlar xalqın qisasından qaçmağa yer ararlar. Hacı kamyablar bilməzlər dövlətlərini götürüb hansı məmləkətə qaçsınlar.

C a h a n b ə x ş . Yəni bu gün bizim vətənimizə doğacaq? Camaatımız çox avamdır. Onun ayılması çox-çox illər istər.

K a m r a n. Camaat avam isə də, ona bir rəhbər lazımdır. Kommunizm yolu şirin yoldur. Qabil, bacarıqlı rəhbər dalınca gedər.

X u r ş i d . Sənin sözünlə o günü görəcəyimizə şəkk yoxdur.

K a m r a n. Heç şəkk yoxdur. Biz vətən ilə əlaqədar olub xalqı hazırlamalıyıq. Hazırladıqdan sonra hamımız gedib ona rəhbər olmalıyıq. Mənim dərin siyasi savadım yoxdur. Ola bilsin fikrimi asan izah eyləyə bilmirəm. Amma gərək belə olsun.

F ə r a m ə r z . K a m r a n, sən cavansan, niyə bu məktəblərin birinə daxil olub oxumayırsan? Oxu, bizi də öyrət.

K a m r a n. Məgər xəbərin yoxdur? Bir neçə gündən sonra məni fəhlə fakültəsinin tələbəsi görərsən.

F ə r a m ə r z . Yenə sən mənim sözümə cavab vermədin. Bu söylədiyin xəyalət dəryasına qərq olandan sonra köhnə eşqi yada salmağına səbəb nədir?

K a m r a n. Əvvəla, mənim o qıza yazığım gəlir. Onda təqsir yoxdur, yəqin İndi o da mənim xiffətimi eləyir. İkincisi, onu bu gecə yuxumda görmüşəm. Gördüm bir qan dəryasına qərq olub. Əlini mənə tərəf uzadıb deyir: əmioğlu, tut əlimdən məni kənara çıxart. Doğrusu, bu yuxu bir az mənim halımı dəyişibdir.

K ə r b ə l a y ı M ə d ə d (*çöldən səslənir*). Burada Kamran. İbrahim oğlu işləyirmi?

K a m r a n (*diksinərək*). Bu, dayımın səsidir. (*Qapıya tərəf gedib səsləyir.*) Dayı can, gəl, buradayam.

K ə r b ə l a y ı M ə d ə d (*daxil olur. Kamran ilə, yoldaşları ilə öpüşür*). Mən dünən gəlmişəm, axşamdan səni axtarmışam, soraq verən olmayıb. Axırı bu gün bir nəfər oğlan sənin yerini göstərib.

K a m r a n. Bəs harada mənzil eləyibsən?

K ə r b ə l a y ı M ə d ə d. "Şərq" mehmanxanasındayam. Anan da mənimlə gəlibdir.

K a m r a n. Anam! Anam nə üçün gəlibdir?

K ə r b ə l a y ı Mədəd. Bir-iki ay bundan əqdəm atan vəfat elədi.

K a m r a n. Atam öldü, yazıq ata! Niyə can verdiyi zaman sənin yanında olmadım?!

K ə r b ə l a y ı M ə d ə d. Bəli! Axır nəfəsində yazığın gözləri ətrafı gəzirdi. (*Kamran gözlərini silir.*) Atandan sonra anan davam gətirə bilmədi. Hər gün gəlib mənə yalvarırdı ki, məni oğluma yetir. Axır mən də götürüb gəldim. Bunu da deyim ki, Hacı Kamyab atanın dəfninə böyük maya qoyub, çox cəlal ilə götürtdü.

K a m r a n. Şöhrəti üçün vacibdir. Deməsinlər Hacı Kamyabın qardaşının meyitini götürən olmadı.

K ə r b ə l a y ı M ə d ə d (*bir başıbağlı məktub, bir boğça verir).*

Bunları da həkimbaşı Mirzə Mehdi sənə göndəribdir.

K a m r a n (*kağızın açıb oxuyub, əlindən yerə salır, dübarə qaldırır, bir dərin ah çəkir*). Bəli, bunu gözləməli idi. Bu da Hacı Kamyabın hirsinin nəticəsi. Bundan sonra başına döyüb ağlasın, görək nə fayda qazanacaq?

X u r ş i d. Nə xəbərdir, Kamran?

K a m r a n. Mirzə Mehdi yazır ki, Gövhərtac müctəhidin evinə gedən gündən bir sağalmaz mərəz tutub vəfat etdi və boğçadakı yadigarın da sənə göndərilməsini ölən günü məndən xahiş elədi. (*Boğçanı açır, bir köynək və bir qana bulaşmış dəsmal çıxarır.*) Baxın, yoldaşlar! Bədəninə ən yaxın olan köynəyini və ciyərinin qanını mənə töhfə göndərib. Belə bir vücudu unutmaqmı olar? (*Fit verilir, tənəffüs qurtarır.*) Dayı can, sən get, işdən çıxantək gələrəm yanına. (*Dəsmala baxır.*) Əziz yarım, bir gün olar bu qanlı dəsmalı qan rəngində bir bayrağın başına bağlayıb sənin qisasını almağa gələrəm. (*Maşının çarxları başlayır işləməyə, kürədən alov baş verir. Kamran bir parça qızarmış dəmir götürüb çəkic ilə döyür.*) İndi, yoldaşlar, gücünüz gəldikcə çəkic vurun. Bu çəkiclərin hər zərbəsində sosializm imarətinə bir mıx çalınır. Vurun, yoldaşlar, bu çəkiclər bir gün olar çox başlar dağıdar. Yaşasın dünya inqilabı! Siz də deyin.

Y o l d a ş l a r ı. Yaşasın dünya inqilabı!

PƏRDƏ.

SAĞSAĞAN

İki pərdə, beş şəkildə

İŞTİRAK EDƏNLƏR:

Tarıqulu –	kəndli
Fatmanisə –	onun arvadı
Qədim –	oğlu
Qurban –	Fatmanisənin qohumu
Komsomolçu –	pionerlərin rəhbəri
Molla Zaman	
Arvadı	
GülpərI	}qonşu Qadı nlar
Sərəncam	
Güləndam	
Qızyetər	
Mahpəri	
Həmşəri Cahan	

Kəndlilər, pionerlər, çalğıçılar, uşaqlar

BİRİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Kəndli Tanrıqulunun evi. Arvadı Fatmanisə cəhrə əyirir. Oğlu Qədim bir kənarda oturub, doğrama yeyir.

Fatmanisə (*cəhrəni əyirərək oxuyur*):

Sən gedən bir il oldu,
Vİrana bağlar gül oldu.
Vədə verdin gəlmədin,
Bu nə yaman dil oldu.

Qədim. Ana, nə oxuyursan?

Fatmanisa. Nə oxuyacağam, ay oğul? Dərdimi ağlayıram. Atan ay yarımdır gedibdir, heç bir xəbər yoxdur, oxuduğum elə odur.

Qədim. Atam gedəndə dedi ki, mayın birinə on gün qalmış gələcəyəm, sənə də bir dəst yaxşı paltar gətirəcəyəm.

Fatmanisə. Bəs niyə gəlmir? Sabah da mayın biridir, gəlsin çıxsın. Onun köhnə peşəsidir, getdiyi yerdə batıb qalar. Onunla gedənlər hamısı

qayıdıb gəldilər. Səfiqulu, Qurban , Yetər oğlu Qara, Talıb kişinin iki oğlu. Gedəndə dedi ki, nə bilim, dilim tutmayır, Tovuz tərəfdə kolxozçuların əkin işləri dalda qalıbdır, onlara hav eləməyə gedirik. Elə o gedəndir. (*Pəncərədən baxır.*) Qurban dayın odur gedir, bircə çıx onu çağır gəlsin.

Qədim cəld çıxır, bayırdan səsi gəlir.

Q ə d i m . Ay Qurban dayı, ay Qurban dayı!

Q u r b a n (*bayırdan*). Nə deyirsən, ay bala?

Q ə d i m (*bayırdan*). Nənəm səni çağırır. (*Qayıdır evə.*) Nənə, budur gəlir.

Əlli-əlli beş yaşında Qurban , əlində ağac, daxil olub məfrəş üstündə oturur.

Q u r b a n . Sabahın xeyir, a Fatmanisə, kişinin korluğunu çəkmirsən ki?

F a t m a n i s ə . Səni elə ondan ötrü çağırdım. Axı bu kişiciyi aparıb başını harada batırdınız?

Q u r b a n . Kişinin niyə başı batır? Onu dəyirmanın novundan salsan, donuzluğundan diri çıxar.

F a t m a n i s ə . Bəs bu bədbəxt oğlu harada qaldı? O da sizinlə getməmişdimi?

Q u r b a n . Bizimlə getmişdi, doğrudur. Biz getdik Tovuzun kolxoz yerlərinin əkininə kömək eləyib, vaxtında qurtardıq. Sonra xəbər gəldi ki, Qasım İsmayılov dairəsində də əkin işi ləngə düşmüş. Tarıqulu özünü udarnik yazdırıb getdi oraya. Biz evə qayıtdıq. Vəssalam...

F a t m a n i s ə . Necə? Udernik yazdırdı? İndi ki, udernik-mudernik yoxdur?

Q u r b a n (*gülür*). Udernik nədir, ay dayı qızı? Udarnik, yəni zərbəçi.

F a t m a n i s ə . Anladımsa, başıma daş düşsün. Bu camaat gündə bir təzə söz çıxardacaq: kolxoz, udernik, nə bilim zorbaçı! Mən zorbaçı-zurnaçı anlamıram. Bircə de görüm, kişi nə vaxt gələcək?

Q u r b a n . Arxayın ol, bu gün-sabah burada olar.

Q ə d i m . Mənə də təzə paltar gətirəcək.

Q u r b a n . Əlbəttə, elə ki, işini qurtardı, palaqaysasını aldı, sənə də bir dəst pioner paltarı alıb gətirəcəkdir.

F a t m a n i s ə . Ay Qurban , atanın gorunu sevərsən, dədə-baba dilini danış. Bu sözləri haradan öyrəndin gəldin?

Q u r b a n . Ay rəhmətliyin qızı, dədə-baba nədir? Dədə-baba getdi, dilini də özü ilə apardı. Sən göydən düşübsən, nədir? Məgər ətrafı gözlərin görmür? İndi Şura hökumətidir, hər hökumətin bir dili olur. Şura hökuməti tək bir dil gətirməyibdir, savad gətiribdir. Keçən vaxtlarda kəndxuda bir baviska göndərəndə qapı-qapı gəzib oxutmağa adam axtarırdıq. İndi, bax (*cibindən qəzet çıxarır*), mən qəzet oxuyuram, dünyada olan işlərin hamısından xəbərdaram. Kəndin çox yarısı savadlanıbdır. Bir az keçməz Azərbaycanda bir savadsız arvad, ya kişi qalmaz.

Q ə d i m . Qurban dayı, o gün müəllim məni dədəmin yanında görüb dedi: "Bunun oxumaq vaxtı yetişibdir, əlbəttə, payız girən kimi bunu məktəbə göndərərsən". Dədəm də əlini gözünün üstünə qoyub dedi: "Baş üstə". Payız olan kimi məktəbə gedəcəyəm.

Q u r b a n . Bəs nədir? Əlbəttə, gərək oxuyasan. Oxu, öyrən, öyrəndiyini anana da öyrət.

F a t m a n i s ə . Bəli, düzəlib hər yarağımız, qalıb saqqal darağımız.

Q u r b a n . Burada saqqal darağı-filan yoxdur. Odur, mənim qızım, Səfərin arvadı, Cəfər kişinin gəlini, Pərinisə qarının nəvəsi, hamısı axşamlar gedib dərs oxuyurlar. Sən də oxuyarsan, onlar kimi savadlanarsan, daha zərbəçiyə zurnaçı, udarnikə udernik deyib, xalqı özünə güldürməzsən.

F a t m a n i s ə . Atayın gorunu sevərsən, mənim yaxamdan əl çək, nə zorbaçı tanıyıram, nə zurnaçı. Onu bilirəm ki, başıma daş düşüb, balam yetim qalacaq. Belə boş danışıqlarla başımı tovlayırsan. Nə oldu, gedənlər hamısı qayıtdı, elə bir mənim kişim zorbaçı çıxdı?

Q u r b a n . Səninlə danışanın gərək dəmirdən bir boğazı olsun. İndi ərin Tarıqulu gələndə, gəlib sənin kefini soruşaram. Rəhmətliyin nəvəsi, məni nahaq yerə yolumdan elədin. Tələsiyirəm, qiraət komasında iclasımız var, gərək özümü oraya yetirəm. (*Durub gedir.*)

F a t m a n i s ə . Allah, bəndələrinə yazığın gəlsin, xalq ata-baba dilini unudub, özündən təzə dil çıxarıb. (Qapıdan sağsağan səsi gəlir. Oğluna) Ay oğul, sağsağan qırıldayır, çıx gör atan gələcəkdirmi? Deginən: sağsağan, sağsağan, xeyirxəbər olasan. Oğlunun da oğlu olubdur, qızının da oğlu olubdur.

Q ə d i m . Ana, hancarı deyim?

F a t m a n i s ə . Sağsağan, sağsağan, xeyirxəbər olasan. Oğlunun da oğlu olubdur, qızının da oğlu olubdur.

Q ə d i m (“*sağsağan, sağsağan, xeyirxəbər olasan” deyə-deyə çıxır. Bayırdan səsi gəlir.*) Sağsağan, sağsağan, xeyirxəbər olasan. Oğlunun da oğlu olubdur, qızının da oğlu olubdur.

F a t m a n i s ə . Ay Göy imam, sağsağanın xəbəri doğru olsun, gəlim qurbanımı kəsim. (*Qədim qayıdır.*) Əyə, dedinmi?

Q ə d i m . Başı Murad uşağının qapısına tərəf idi. Quyruğu da bizə tərəf.

F a t m a n i s ə . Daha başımıza daş düşdü. Ay yazıq balam, atanın başında bir şey var. Evin yıxılsın, səbəb! Kişini tovladılar, evini yıxdılar, biz də qaldıq çöldə.

Qədim ağlayır. Kənd uşaqlarından üç nəfər daxil olur.

U ş a q l a r d a n b i r i . Qədim, nə oturubsan evdə? Tez ol gedək.

Q ə d i m . Mən heç bir yana getməyəcəyəm.

U ş a q . Sabah mayın biridir. Budur, uşaqlar hamısı yığışıblar, gedirik bağlarda bənövşə yığıb gətirib, guşəmizi bəzəyək.

Q ə d i m . Mən heç yana gedən deyiləm. Evimizdə oturacağam.

U ş a q . Getmirsən getmə, daha niyə ağlayırsan?

Q ə d i m (*ağlayaraq)*. Odur, nənəm deyir ki, dədən ölüb. Sən yetim qalacaqsan.

U ş a q . Bu xəbəri sizə kim gətirdi? Odur mənim atam da sənin atanla getmişdi, qayıdıb gəldi. Deyir: Tarıqulu da zərbəçi olub, getdi Qasım İsmayılov dairəsində əkinə kömək eləməyə. Sabah gələcək.

F a t m a n i s ə . Arxayın olun, gələcək. Elə sağsağan da onu deyir.

U ş a q . Sağsağan nədir, ay Fatmanisə xala?

Q ə d i m . Qapıda sağsağan qarıldayırdı. Nənəm dedi, yəqin dədən gəlir. Çıx deginən: “Sağsağan, sağsağan, xeyirxəbər olasan. Oğlunun da oğlu olubdur, qızının da oğlu olubdur”. Mən də çıxdım dedim. Sağsağanın quyruğu bizim evə tərəf idi, başı Murad uşağının həyətinə. İndi nənəm deyir ki, yəqin sağsağan atanın ölüm xəbərini gətiribdir. Atan sağ olsaydı, sağsağan başını bizim evə tərəf tutub qırıldardı.

Uşaqlar gülüşürlər.

U ş a q . Sağsağan xəbər gətiribdir? Ha!.. Ha!.. Ha!.. Xəbəri poçt gətirər, teleqraf gətirər. Sağsağan da xəbər gətirərmi? Bax, belə şeylərə inanarsan, biz də səni görəndə sataşarıq, sənə gülərik, ağız-ağıza verib deyərik: “Səlli əla sağsağan, isti fətir, göy soğan!”.

F a t m a n i s ə . Sizdə təqsir yoxdur, təqsir sizə tərbiyət verib dindən, məzhəbdən çıxardanlardadır. Camaatın üzü Allahdan dönüb. Uşaqları da xarab edirlər. (*Qədimə*) Oğlum, sən də yoldaşlarınla get, evdə qalıb xiffət eləmə.

U ş a q l a r (*Qədimin qolundan tutub, atılaraq*). Səlli əla sağsağan, isti fətir, göy soğan.

Çıxırlar.

F a t m a n i s ə (*bir dərin ah çəkib, gedib başını qapıdan bayıra çıxarır).* Ay Gülpəri, ay Gülpəri!

G ü l p ə r i (*eşikdən*). Nə var, ay qız?

F a t m a n i s ə. Bircə, özünü mənə yetir, sən balalarının canı. (*Qayıdır otağa.)*

G ü l p ə r i (*daxil olur*). Nə var, ay qız, nə xəbərdir?

F a t m a n i s ə . Nə olacaq? Kəndin avaraları yazıq kişini tovlayıb Tovuz dairəsində hava apardılar. İndi onunla gedənlər hamısı qayıdıb gəliblər, ondan bir xəbər yoxdur. Deyirlər zorbaçı olub, ya nə olub, dilim də tutmur deməyə, oradan da bir ayrı dairəyə gedibdir. Ancaq məni aldadırlar. Kişinin başı əlində deyil. Bir az bundan qabaq gördüm qapıda sağsağan qırıldayır. Dedim, Allah, sənə şükür, kişi gəlir. Bir də baxdım ki, sağsağanın quyruğu bizə tərəfdir. Əlim-ayağım yerdən üzülüb, bilmirəm nə qayırım, nə çarə qılım.

G ü l p ə r i . Nə çarə qılacaqsan? Allah axırını xeyir eləsin. Sağsağan ki quyruğunu evə tərəf çöndərib qırıldadı, yəqin, ölüm yoxsa da, bir bədbəxtlik üz veribdir.

F a t m a n i s ə . İndi mənə məsləhətin nədir?

G ü l p ə r i . Dur gedək Molla Zamanın yanına. O bir Qurana məşvərət eləsin. Sağsağan yalan deməz. Bu, min dəfə sınanmış bir işdir. Amma yenə arxayınlıq üçün Qurana məsləhət elərik.

F a t m a n i s ə . Nə deyirəm, gedək. Bir cüt kişiyə corab hörmüşdüm, onudaca aparım verim mollaya.

G ü l p ə r i . Di dayanma, elə indicə gedək.

F a t m a n i s ə . Allah, bəndənə özün rəhm elə, mənim bircə balamı yetim qoyma.

Çıxırlar.

PƏRDƏ

İKİNCİ ŞƏKİL

Molla Zamanın evində. Molla və arvadı.

M o l l a Z a m a n . Arvad, günortaya bir şey düzəldə bilibsən, ya ac qalacağıq?

A r v a d ı . Günortaya nə var ki, nə bişirim? Səhər Həmidə dedimki, get qəssab Bağırdan iki girvənkə nisyə ət al gətir. Deyir, vaxtım yoxdur, uşaqlarla bənövşə yığmağa gedirik, sabah may bayramıdır. Gərək guşəmizi gül və çiçəklə bəzəyək. Nə qədər dedim, ağzıma baxmadı, çıxdı getdi.

M o l l a Z a m a n . Bu zamanın uşaqlarını Allah qırsın, nə ata sözünə baxırlar, nə ana sözünə. Kefləri necə istəyir elə də dolanırlar.

A r v a d ı . A kişi, sən, nə qədər olsa, mollasan, Allahın elmindən xəbərdarsan. Bir gün oğlunu çağır yanına, ona nəsihət elə. Ona şəriətin yollarını göstər, onun üzünə ağ olanın yeri qiyamətdə cəhənnəmin isti bucağıdır.

M o l l a Z a m a n . Rəhmətliyin qızı, sən də nə qoyub, nə axtarırsan! Bu zamanın uşaqlarına nəsihətmi kar elər? Danışırsan, deyir: mən səndən çox anlaykam. Sənin, deyir, siyasi savadın yoxdur. Xülasə, başımıza daş düşübdür, bu ilin sərçəsi bildirki sərçəyə civ-civ öyrədir. Bir neçə gün bundan əqdəm onu çağırıb, yanımda oturtdum, bir az nəsihət elədim. Dedim, bala, gəl sənə namaz öyrədim. Gör mənə bu fındıq boyda tülkü nə deyir? "Namaz bekar adam işidir. Mən səhərdən axşamadək işləyirəm. Mənim, gedib taqqataq başımı yerə döyməyə vaxtım yoxdur..." Bilmirəm, niyə göydən daş yağmır, niyə Allah camaatın başına od tökmür. Tamam el Allahdan üz döndəribdir. Nə namaz qılan var, nə oruc tutan var. Bir deyən yoxdur ki, axı, bu kişi molladır, Allahın elmini oxuyub, ona da bir əl uzadaq. Budur neçə ramazan gəlib keçibdir, bir quruş cibimə girməyibdir. Necə qurban keçibdir, bir bozbaşlıq ət gətirən yoxdur. Deyirlər, orucluğu, qurbanı mollalar özlərindən çıxardıblar, özlərinə mədaxil yolu düzəldiblər. Kitablarda yazırlar ki, dəccal xüruc eləyəcək. Xalq Allahdan üz döndərib dəccalın dalına düşəcək. Daha dəccalın xurcu bundan artıq olmaz ki?! Hanı o gözlədiyimiz sahibəzzaman? Gəlib bu dəccalın şərrini xalqın başından rəf eləyə.

A r v a d ı . Hanı? Gəlsin də! Vallah, adam fikir elədikcə, əqidəsi də dönür.

M o l l a Z a m a n . İstiğfar elə, arvad, istiğfar elə, günaha batdın.

A r v a d ı . Əstəğfürullah, əstəğfürullah. Qələt elədim, dilim-ağzım qurusun.

M o l l a Z a m a n . Bunlar keçəndən sonra, yenə bir de görüm, günortanın fikrini çəkibsən, ya yox? Axı bir azdan sonra acacağıq. Qız, Həmid də ac gəlib, çörək istəyəcək.

Ar v a d . Həmidi görüm zəhrimar yesin. Onun yediyi çörək də heyfdir...

M o l l a Z a m a n . Onun xoşbəxtliyi ondadır ki, səğirdir. Kəbir olsaydı, şəriətə görə onun qətli vacib olardı. Axı heç demədin, günorta nə yeyəcəyik?

A r v a d ı . O gün naxoş oğluna dua yazdığın arvad beş yumurta gətiribdir.

Onları bişirib verərəm yeyərsən. Sabah üçün də Allah kərimdir.

M o l l a Z a m a n . Yəqin ki, arvadın uşağı mənim duamın səbəbindən sağaldı.

A r v a d ı . Yox, uşaq öldü. Amma deyir, yenə mollanın yolu boş qalmasın.

M o l l a Z a m a n . Allah atasına rəhmət eləsin. (Qapı döyülür.) Gör qapını döyən kimdir.

A r v a d ı (*çıxıb baxıb, qayıdır*). Gülpəri qarıdır, bir də Tarıqulunun arvadı Fatmanisə.

M o l l a Z a m a n . Gəlsinlər, gəlsinlər. (*Gülpəri və Fatmanisə daxil olub, salam verirlər*.) Əyləşin, bacılar, xoş gəlibsiniz. Ay Fatmanisə, Tarıqulu Tovuz tərəfə hava getmişdi, gəlib çıxmadı?

G ü l p ə r i . Axund, elə onun üçün qulluğuna gəlmişik. Tarıqulu ilə gedənlər hamısı qayıdıb gəlmişlər. Deyirlər, nə bilim, Tarıqulu oradan da başqa bir yerə hava getdi. İndi külfətinin ürəyinə qara-qura gəlir. Deyir, yəqin kişinin başında bir iş var, mənə demək istəmirlər.

F a t m a n i s ə . Axund, elə səni deyib gəlmişəm. Oxuduğuna mənim bu canım qurban . Bircə Quranı aç bax, görək bu kişicik harada qaldı. Bu bir cüt corabı da ayaqlarına gey. Neyləyim, gücüm elə ona çatır.

M o l l a Z a m a n . Allah qəbul eləsin, bacı, çox-çoxdur. Tarıqulu nə qədər bu bolşeviklər gəlməmişdilər bir təmiz Allah bəndəsi adam idi. Bilmirəm, ona sonra nə oldusa, birdən rəyi xarab oldu, yolundan azdı.

F a t m a n i s ə . Qurbanın olum, ay axund, mən də nə qədər çalışdım, onu yola gətirə bilmədim. Özü dindən çıxıb, məni də dindən çıxar-

maq istəyir. Axır əlacım kəsilib, bir gün canımı dişimə tutub dedim: ay kişi, sən mənim balamın atası olmasaydın, bir gün də sənin evində oturmazdım. Cavabında deyir: "Səbr elə, bir az gözlə, mən deyənə gələrsən".

M o l l a Z a m a n . Bilirsən, Fatmanisə, nə var? O ki, dindən çıxıb, İndi şəriətə görə sənin kəbinin puçdur, bu saat çıxıb ərə gedə bilərsən.

F a t m a n i s ə . Başına dönüm, axund, bayaq dedim, balamın atasıdır, ona görə dustaq olub onun ocağının qırağında qalmışam. Əgər uşaq olmasaydı, onun evində bir günorta oturmazdım. Neyləyim ki...

M o l l a Z a m a n . İndi deyirsən, Qurana bir istixarə eləyim, ərin gələcək ya yox?

F a t m a n i s ə . Quranına qurban olum, elə onu deyirəm.

M o l l a Z a m a n (*Quranı götürür, gözlərini yumub dua oxuyan adam kimi dodaqlarını tərpədir. Sonra salavat çevirib Quranı açıb oxuyur.)* Nə varsa bəd gəlir. Amma yenə ümidi Allahdan üzmək yaxşı deyil.

F a t m a n i s ə . Quranda nə yazılıbdır ki?

M o l l a Z a m a n . Xudavəndi-aləm belə buyurur: cibillən kəsira, əffəlləm təkunu təqulun.

G ü l p ə r i . Bay atovun evi yıxılsın, Fatmanisə, başına daş düşdü. Odur Qurandan Tarıqulunun adı da çıxdı. Deyir, Tarıqulunun cibini kəsiblər, özünü də iflim-iflim eləyiblər.

F a t m a n i s ə . Vay, mənim başıma daş düşsün, evim yıxıldı, balam qaldı düzlərdə. İndi mən onu nə ilə saxlayacağam?

M o l l a Z a m a n . Dayan bir məna eləyim.

G ü l p ə r i . Daha nə mənası? Açıq yazır ki, Tarıqulunun cibini kəsib, özünü öldürüblər. Yəqin fəqir, quldur-qaçaq əlinə keçdi, vurdular yıxdılar yerə. Dur gedək, görək başımıza nə gəlir.

F a t m a n i s ə (*ayağa durur*). Başımıza bundan artıq nə gələcək? Allah mənim kişimi yolundan eləyənin balalarını qırsın! Mənim kimi onu görüm əli qoynunda qalsın! Axı ona bir deyən gərək idi ki, başıdaşlının, qaragünlünün oğlu bu nə özünə udernik, zorbaçı, ya bilmirəm nə adı qoyub, bilmədiyin, tanımadığın adamların havına getməkdir? Allah, məni avara qoyanı avara qoy! Mənim bircə balamı yetim qoyanın balalarını yetim qoy! Aman! aman... (*Gedir.*)

A r v a d ı . Ay kişi, Quranda nə yazılmışdı?

M o l l a Z a m a n . İstixarə doğrudan bəd gəldi. Tarıqulunun başında bir xata olmasına şəkk yoxdur. Bunların da özlərinin Qurana məna

vermələri çox qəribədir. Dur, arvad, gör bu corabları bir üç-dörd manata sata bilərsənmi? Bir az yeyinti al gətir. Xalqın içində belə avamların olması da bəd deyil. Yoxsa molla sinfi acından ölər. (Əllərini yuxarı götürür.) Xudaya, pərvərdigara, yaratdığın bəndələrinin fikrini özün çək, yolundan çıxmışları yoluna qaytar.

PƏRDƏ

ÜÇÜNCÜ ŞƏKİL

Fatmanisənin evi.

F a t m a n i s ə (*hirsli, qapıdan daxil olur*). Evin yıxılsın mənim evimi yıxan! Balaların yetim qalsın, mənim bircə balamı yetim qoyan! Yazıq kişinin beynini yedilər, apardılar başına daş saldılar. Nə qədər dedim: a kişi, getmə, dedi: olmaz! Bu da canyandırmanın axırı.

Daxil olurlar: Sərəncam, Güləndam, Qızyetər, Mahpəri.

S ə r ə n c a m . A Fatmanisə, bu nə bəladır sənin başına gəldi? Deyirlər Tarıqulu əlli-ayaqlı itibdir.

F a t m a n i s ə . Nə bilim, ay Sərəncam, ağlım başımdan çıxıb, heç zad anlamıram.

G ü l ə n d a m . Ay qız, mənim kişim də onunla bir yerdə getmişdi. And içir ki, sağ-salamat, bir havı qurtardıqdan sonra, özü-öz əli ilə kişiciyi bir ayrı hava göndərdi. Yerin adın da dedi, yadımdan çıxıbdır.

F a t m a n i s ə . Qasım İsmayılov dairəsinə?

G ü l ə n d a m . Hə, hə. İman yiyəsi olasan.

F a t m a n i s ə . Öz əli ilə göndərdiyini mən də bilirəm. O sözü Qurban da deyirdi. Ondan sonra başına nə gəldiyini get molladan xəbər al. Səhər sağsağan quyruğunu qapıya döndərib, qır-qır qırıldayanda bildim evim yıxılıb. Getdim, molla Qurana baxdı. Orada da yazılıbdır ki, cibini kəsiblər, özünü də iflim-iflim eləyiblər. Hətta Tarıqulunun Quranda adı da var.

Q ı z y e t ə r . Nə danışırsan, ay balam? Quranda imam, peyğəmbər adı olar, Tarıqulunun adının Quranda nə işi var?

F a t m a n i s ə . Gülpəri qarı Allah şahididir. (*Gülpəri daxil olur*.) Budur, özü də gəldi.

G ü l p ə r i . Nə var? Nə xəbərdir?

F a t m a n i s ə . Ay Gülpəri, mən danışıram, inanmırlar. Gəl bunları sən inandır.

G ü l p ə r i . İmansız olum ki, özcə qulaqlarımla eşitdim. Quranda yazılmışdı ki, cibini kəsiblər, özünü də iflim-iflim eləyiblər.

Q ı z y e t ə r . Tarıqulunun adı da Quranda var idi?

G ü l p ə r i. İmansız olum ki, var idi. Molla beləcə oxudu. İflim-iflim Tarıqulu.

F a t m a n i s ə . İndi inandınız, ya yox? Sağsağana nə deyirsiniz ki, gözümlə gördüm?

G ü l ə n d a m . Sağsağan sınanmış bir şeydir. Mənim kişim ayda bir ya Bakıya, ya Gəncəyə, ya Tiflisə gedir. Kişi hər gələndən qabaq sağsağan gəlib qapıda qırıldayır.

Q ı z y e t ə r . Ay Fatmanisə, yüyürən yıxılmağına baxmaz. Get, bir həmşəri Cahanı da çağır gəlsin. O yaxşı noxud falı açır. Görək o nə deyəcək.

G ü l p ə r i . Həmşəri Cahan Qurandan çox bilir?

Q ı z y e t ə r . Kim deyir çox bilir? Yenə arxayınlıqdır.

F a t m a n i s ə . Mən ki kişidən əlimi üzmüşəm. Siz ki deyirsiniz, nə sözüm var, gedib həmşəri Cahanı da çağıraram.

M a h p ə r i . Get, sən gəlincə biz də burada oturub, səni gözləyirik. *(Fatmanisə gedir.)* Ay canım, yanında danışmaq olmur. Bulaqdan dalımda su gətirirdim, iki kişi danışırdı. Biri deyirdi ki, lüt soyundurub, kolun dibinə atmışdılar. Yaxın kənddən gəlib, aparıb basdırdılar. Kar olum, əgər eşitmədimsə.

S ə r ə n c a m . Danışanları tanımadın?

M a h p ə r i . Bizim kəndin adamlarından deyildilər.

G ü l ə n d a m . Balam ölsün ki, onu mən də eşitdim. Amma bilmirəm, kim danışırdı. Öldürən olmayıb. Yolda avtomobil aşıb, başı təkərin altında qalıb əzilibdir, aparıb basdırıblar. Bu gün-sabah paltarını gətirəcəklər.

G ü l p ə r i . Molla oxudu ki, cibini kəsiblər.

G ü l ə n d a m . Ölənin cibini də kəsərlər, lüt də edərlər.

S ə r ə n c a m . Bunların heç birisi deyil. Mən yaxşısını bilirəm. Bulağa su gətirməyə getmişdim, gördüm arvadlardan biri deyir: ay qızlar, Fatmanisənin ərinin başına gələn oyunu eşitmisinizmi? Hamı dedi, yox. Sonra arvad yenə söylədi. Bilmirəm, hansı kolxozamı hava getmişmiş,

orada ora nə qədər çit, çay, qənd, iki cüt çəkmə verirlər. Cibində də pulu varmış. Qayıdıb evinə gələndə, yolda üstünə quldur düşür. Kişini soyurlar, ondan sonra da öldürüb, gətirib Qaraqurşaqlının yavuqluğunda atıb gedirlər. Qaraqurşaqlının ispolkomu onu oradaca basdırıb və tapşırıbdır ki, evinə mayın birindən sonra xəbər versinlər. Sabah mayın biridir. O birisi gün xəbərini gətirəcəklər. Deyirdi ki, bədəninə altmış-yetmiş yara vurublar. Özünü lüt soyub çılpaq qoyublar.

G ü l p ə r i . Elə molla da belə deyirdi: cibini kəsiblər, özünü də iflim-iflim eləyiblər.

S ə r ə n c a m . Onu bilirəm ki, biçarə Fatmanisənin başına daş düşdü. Ölən öldü, yazıq yerdə qaldı. Yanında yeddi-səkkiz yaşında uşaq kimin qapısına gedəcək?

G ü l ə n d a m . Qapılara niyə gedir? Qızıl kimi əlləri var, əlindən hər bir iş gəlir, işləyib özünü də dolandırar, uşağını da.

S ə r ə n c a m . Cavan gəlİndir, o tək dolanamı bilər? Adına əlli min söz qoşarlar.

G ü l p ə r i . Gülməmməd kişinin oğlu Mədəd onu bir vaxt istəyirdi. Fatmanisəni atası ona verməyib, Tarıquluya verdi. O gündən indiyədək Mədəd evlənməyir. Deyir, Fatmanisənin əri ölüncə subay oturacağam. Elə ki Tarıqulu öldü, gedib Fatmanisəni alacağam. İndi Mədəd muradına çatdı.

S ə r ə n c a m . İşlər düzələcək, ortalıqda başı qapazlı qalan yetim olacaq.

Fatmanisə, dalınca həmşəri Cahan daxil olurlar.

F a t m a n i s ə . Mən başıma düşən daşı yaxşı bilirəm. İndi doqqazla gedirdim, görürəm arvadlar, qıraqdan baxıb, başlarını bulayırlar. Sonra da mənə deyirlər ki, özünü toxtaq saxla. Ərinə heç zad olmaz, sağsalamat gəlib çıxacaq. Sağsağan yalan deyir? Mən min dəfə sınamışam. Deyək, sağsağan yalançıdır, mollanın Quranı da yalan deyir? Orada aydın yazıblar: cibini kəsiblər, özünü də iflim-iflim eləyiblər. Qurana inanmayanın Allah başına daş salar. Amma yenə sizin deməyinizə görə, getdim həmşəri Cahanı gətirdim, bu da fala baxsın görək.

H ə m ş ə r i C a h a n . Quranın qarşısında bizim falımızın adı yoxdur. Ancaq mən bircə şey soruşacağam. Molla Qurana baxmaqdan qabaq dəstəmaz aldı, ya yox?

F a t m a n i s a v ə G ü l p ə r i . Yox, almadı.

H ə m ş ə r i C a h a n . Onda onun istixarəsinin düzlüyünə şəkk gətirmək olar.

G ü l ə n d a m . Di sən fal aç, görək.

H ə m ş ə r i C a h a n (*cibindən bir ovuc noxud çıxarır*). Bismillahi rəhmanir rəhim! Falımız faldır, falmanımız Allah! Hürü qarının əli ilə, Pəri qarının əli ilə, cin padşahının tacı xatirinə, Seyid Şəbinin cəddi xatirinə, on iki imam, yüz iyirmi dörd min peyğəmbər xatirinə, noxudlarım, sizdən doğru xəbər istəyirəm. (*Noxudları əlində oynadıb yerə atır.*) Biri tək düşdü, dördü də onun qarşısında hamısı burun-buruna. Birini buradan götürdüm, birini də buradan, yenə birisini buradan götürdüm, birini burdan, ikisini buradan, ikisini oradan. Bu bircə dənə tək qaldı. Qalanları çıxıb getdilər. Falı yaxşı görmürəm.

G ü l p ə r i . Daha nəyi yaxşı görəcəksən? Kişinin qabağına dörd nəfər çıxıb öldürüb, tək qoyub gedirlər. Yazıq, bədbəxt Tarıqulu.

F a t m a n i s ə . Bu da noxud falı. Buna da bir söz deyəcəksiniz? Daha nə deyirsiniz, onu da eləyim.

Q ı z y e t ə r . Ay qız, yenə ümidini Allahdan kəsmə. Bəlkə deyilənlər yalandır. Seyid Şəbinin ocağına bir nəzir də de.

F a t m a n i s ə . Nəziri nəyə deyəcəyəm? Seyid Şəbi mənim kişimi dirildib gətirib mənə verəcəkdir? Başıma daş düşüb, qurtarıb gedib.

Qədim məyus daxil olur.

F a t m a n i s ə . Ay bala, gəldiniz? Yoldaşların da gəldilərmi?

Q ə d i m . Yox, ana. Getdik bənövşə yığmağa, uşaqlar başladılar mənə nəsihət eləməyə. Deyirlər, sənin anan avamdır, sən də avamsan, adam da, deyirlər, sağsağana inanarmı? Mən dedim ki, anam çox sınayıb, sağsağan həmişə doğru danışır. Bunun əvəzində hamısı ağız-ağıza verib, oxudular: səlli əla sağsağan, isti fətir, göy soğan. Mən də ağladım, küsdüm gəldim evə.

F a t m a n i s ə . Yaxşı elədin, bala, qayıtdın gəldin. Onların ataanaları da dinsizdir. Uşaqları da onlara baxıb dindən, məzhəbdən çıxıblar.

G ü l p ə r i . İndiki uşaqları demə. Heç birisi Allaha, peyğəmbərə inanmır. Tamam dünya dinsiz olubdur.

Q ı z y e t ə r . A Fatmanisə, nə olar, gedib bir ispolkoma xəbər verib, onlardan bir səhih əhval alasan.

F a t m a n i s ə . İspolkom mayın biri keçməsə, mənə xəbər verməz. Nə olubdur? Sağsağan yalan, noxud falı yalan, ispolkom doğru? Din-

məz oturub evdə dərdimi ağlayacağam. (*Qədimə*) Bala, gəl yanıma. Acmısanmı?

Qədim. Hə, ana, acam.

Fatmanisə (*durub taxçadan bir az pendir, çörək alıb verir*). Al ye, axşama bozbaşımız var.

Gülpəri. Ay arvadlar, durun gedək. Axşama az qalıbdır, inəklər naxırdan qayıdacaqlar.

Sərəncam. (*Fatmanisəyə*). Ümidini kəsmə.

Güləndam. Neyləməli, səbrdən başqa əlac yoxdur.

Qızyetər. Bu işlər hamısı keçəndən sonra, bir səhih xəbər gəlincə özünə əziyyət vermə.

Həmşəri Cahan. Mən də durum gedim, a Fatmanisə, axşamdır.

Fatmanisə (*pul verir*). Xoş gəldin.

Hamı gedir.

Fatmanisə (*oğlunu qucaqlayır*). Yazıq balam, atasız yetim balam!

PƏRDƏ

İKİNCİ PƏRDƏ

DÖRDÜNCÜ ŞƏKİL

Kənd meydançası. Mayın biridir. Evlər, dükanlar qırmızı bayraqlarla, yaşıl otlarla bəzənmiş. Arvadlar, kişilər, uşaqlar faxir libasda gəzişirlər. Bir tərəfdə musiqi – yastı balaban çalınır. Kəndin cavanları oynayırlar. Qədim bir kənardan durub tamaşa edir. Bir qədər keçdikdə şeypur, baraban səsi eşidilir. Bir dəstə pioner nizamla gəlib meydançada toplaşırlar. Musiqi kəsilir.

Komsomolçu. Yoldaşlar! Bu gün cəmi dünya proletarlarının böyük bayramıdır. Bu gün dünyanın hər yerində işçilər, kəndlilər əllərində qırmızı bayraqlar: "Yaşasın hürriyyət! Yaşasın əmək azadlığı! Yaşasın dünya inqilabı! Yaşasın beynəlmiləl!" – deyə on minlərlə, küçələrə, meydanlara çıxıb qışqırırlar. Avropa məmləkətlərində işçilər zavodçuların, fabrikantların əllərində, kəndlilər mülkədarların əllərində qul olub işləməkdədirlər. Milyonlarca işsiz qalanların bu gün bayram ocağı boşdur. Bunların hamısının ümidləri dünya inqilabında və

Şuralar İttifaqındadır. Yaşasın hamı proletarları əzabdan qurtaran dünya inqilabı! Ura!..

C a m a a t v ə p i o n e r l ə r (q*ışqırırlar*). Ura!..

K o m s o m o l ç u (p*ionerlərə*). Pioner yoldaşlar! Siz Vladimir İliç Leninin əziz, istəkli balalarısınız və onun yolu ilə gedən rəhbərlərin və müəllimlərin gələcəkdə əvəzisiniz. Bu rəhbərlərə layiq əvəz olmaq üçün sizə üç şey lazımdır: əvvəlinci oxumaq, ikincisi oxumaq və üçüncüsü yenə oxumaq. Bu, sizi ürəkdən sevən atanız Vladimir İliçin siz balalarına vəsiyyətidir. Yaşasın Lenin yolu ilə gedən inqilab rəhbərliyi!.. Ura!..

P i o n e r l ə r v ə c a m a a t . Ura!.. Ura!..

Şeypur və baraban çalınır.

K o m s o m o l ç u . Yaşasın sizə tərbiyə verən müəllimləriniz!.. Urra!..

P i o n e r l ə r . Urra!..

Şeypur və baraban çalınır.

B i r i n c i p i o n e r . Yoldaşlar, mənim təklifim var: gəlin səs-səsə verib, bir yaxşı nəğmə oxuyaq.

P i o n e r l ə r . Oxuyaq, oxuyaq. Ura!..

Hamısı nəğmə oxuyurlar.

İ k i n c i p i o n e r (*Qədimə tərəf gəlir*). Qədim, kənardan niyə durub baxırsan? Niyə bizimlə nəğmə oxumursan?

Q ə d i m . Nə bilim?

İ k i n c i p i o n e r . Nə bilim bir cavab deyil.

Ü ç ü n c ü p i o n e r . Sağsağan atasının ölüm xəbərini gətiribdir, ona görə yas saxlayır.

K o m s o m o l ç u . Qədim, bilirsən nə var? Şuralar yolunda yüz minlərcə adamlar can qoyublar. İşçilər kapitalistlərin əlindən qurtarmaq üçün, rəiyyət bəylərin, xanların, müamiləçi hacıların, mollaların, seyidlərin, mərsiyəxanların, Dərvişlərin əllərindən qurtarmaq yolunda nə qədər qan töküblər. Sənin atanın ölümü hələ məlum deyil. Elə deyək doğrudur. O da şuralar yolunda verilən qurbanlardan biri. Sənin Şura hökuməti kimi atan var, səni atandan yaxşı saxlayacaq. Şura hökuməti onun yolunda can qoyanların külfətini başıaçıq qoymaz. Get yoldaşlarına qarış, sən də onlar ilə nəğmə oxu. Bu gün bayramdır. Oxumaq, oynamaq, gülmək günüdür, ağlamaq günü deyil. Pioner bu gün hər dərdini yaddan çıxarmalıdır.

Q ə d i m . Atam deyirdi, səni məktəbə qoyacağam. İndi məni məktəbə kim qoyacaq?

K o m s o m o l ç u . Səni məktəbə də qoyacaqlar, yaxşı da oxudacaqlar. Böyüyüb müəllim olacaqsan, sən də pionerlərə dərs verəcəksən.Ondan sonra sağsağana, qarğaya, tasa, fala inanmayacaqsan. Görəcəksən ki, bunların hamısı fəqir-füqəranı tovlayıb, ciblərini kəsmək üçündür. Get, bala, get yoldaşlarınla sən də nəğmə oxu.

İki pioner Qədimin qolundan tutub çəkirlər: gəl gedək!

Q ə d i m . Bir də mənə sataşıb, "səlli əla sağsağan" deməyəcəksiniz?

B i r i n c i p i o n e r . Yox, bizə yavuq gələn, bizimlə bir fikirdə olan yoldaşlara sataşmarıq.

Q ə d i m . Onda gedək. (*Gedib uşaqlara qarışır*.)

B i r i n c i p i o n e r . Yoldaşlar, Qədim gəldi. Daha sağsağanın quyruğunu əldən qoydu.

P i o n e r l ə r . Ura!.. Ura!..

Təzədən nəğmə oxuyurlar.

K o m s o m o l ç u (*qabağa gəlir*). Uşaqlar, nəğməni gözəlcə oxudunuz. İndi oynamaq da lazımdır. (*Aşıqlara*) Çalın, İndi də pionerlər oynayacaqlar.

Aşıqlar çalırlar, pionerlər birbəbir oynayırlar.

İ k i n c i p i o n e r . Yoldaşlar, təklifim var.

P i o n e r l ə r . Necə təklif? Nə təklif?

İ k i n c i p i o n e r . Gərək Qədim oynasın. Qəbul edənlər əllərini qaldırsınlar. (*Hamı əl qaldırıb ura qışqırır*.) Qəbul olundu, Qədim, keç ortalığa.

Q ə d i m . Mən oynamaq bacarmıram.

İ k i n c i p i o n e r . Olmaz, gərək oynayasan.

B i r i n c i p i o n e r (*Qədimə*). Özün bil, oynayırsan oyna, oynamırsan yenə "səlli əla sağsağan" oxuyacağıq.

Q ə d i m . Yox, oxumayın, oynaram.

B i r i n c i p i o n e r . Di oyna. (A*şıqlara*) Aşıq, çal!

Aşıqlar çalırlar.

P i o n e r l ə r (*Qədim oynayıb qurtardıqdan sonra*). Afərin! Sağ ol! Malades!

Komsomolçu (*pionerlərə tərəf gəlir. Aşıqlar sakit olurlar*). Uşaqlar, sizə bir qəribə nağıl söyləyim. Bizim kənddən bir kişi Tovuz dairəsində bir kolxoza buksirə getmişdi. Orada buksir qurtardıqdan sonra özünü zərbəçi elan edib Qasım İsmayılov dairəsindəki kolxozlara köməyə gedib. Buradan qayıdanda yolda üstünə quldurlar tökülüb onu öldürüblər. İndi o kişi dirilib, budur gəlir.

P i o n e r l ə r . Hanı, hanı? (*Qədimin atası Tarıqulunu görürlər*.) Qədimin atası gəldi! Qədimin atası gəldi! Qədimin atası gəldi!

Hoppanırlar.

Q ə d i m (*atasını görüb yüyürür qabağına*). Ay dədə, bəs deyirdilər səni öldürüblər?

T a r ı q u l u . Kimin nə hünəri var sənin atanı öldürə? Onu kim deyirdi?

Q ə d i m . Arvadlar deyirlər.

T a r ı q u l u . Arvadlara qalsa, adamı gündə beş dəfə öldürüb, basdırırlar.

P i o n e r l ə r . Sağsağanlar xəbər gətiriblər, sağsağanlar.

T a r ı q u l u . Gedək evə, gör sənə nə yaxşı peşkəşlər gətirmişəm.

B i r i n c i p i o n e r . Qədim, sağsağanı necə gördün?

T a r ı q u l u . Bu nə sağsağandır?

Q ə d i m . Gedərik evdə bilərsən. (*Yoldaşlarına*) İndi mən də sizinlə bir yerdə oxuyacağam. (*Oxuyurlar*.) Səlli əla sağsağan, isti fətir, göy soğan!

Xalq meydançada çalıb-oynamaqda davam edir.

PƏRDƏ

BEŞİNCİ ŞƏKİL

Tarıqulunun evi. Fatmanisə cəhrə əyirir, hərdənbir ah çəkir.

G ü l p ə r i (*daxil olur*). Necəsən, a Fatmanisə? Heç kişidən bir xəbər yoxdur?

F a t m a n i s ə . Kişi haradadır ki, ondan bir xəbər də gələ. Kişini aparıb harada başını əkdilərsə, Allah bilir. Kənddə, budur, hamı danı-

şır ki, sabah onun ölüm xəbərini gətirəcəklər. Heç nahaq yerə qaldım qara günün qarasına. Əlimdə də bir yetim uşaq.

G ü l p ə r i . Deyirlər ki, onun nəşini Qaraqurşaqlıda basdırıblar. Gəlsənə oraya bir adam göndərəsən.

F a t m a n i s ə . Adamı nahaq yerə avara eləyib niyə göndərəcəyəm? Adam da gedən kişilərin biri. Hər kəsə ağzımı açıram, deyir: arvad, ayıbdır, boş sözlərə inanma. Kişinə bir şey olsaydı, biz bilərdik. Məni arxayın eləyib yola salırlar, sonra dalımca əlli min söz danışırlar. Deyirlər, qoy Tarıqulunun ölüm xəbərini hökumət özü versin. Adam göndərəcəyəm, o da gedib bir az boş-boşuna dolanıb bir yalan xəbərlə qayıdacaq.

G ü l p ə r i . Elədir, ay qız, elədir! Yazıq sənin gününə. Bir üzü qız, bir üzü gəlin, qalacaqsan bu damın altında. Kişiciyi nahaq yerə aldadıb, otundan, suyundan avara elədilər. Ay qız, hərdənbir fikir eləyirəm ki, bəlkə Tarıqulu sağdır. Sonra istiğfar eləyirəm. Nə oldu, Allahın kəlamı da, iki fal da yalan oldu? Arvadların, kişilərin hər yerdə danışıqlarına nə deyirsən? Yazıq Fatmanisə!

F a t m a n i s ə . Yazıq dedin qoydun? Yazıq günə qaldım, yamanca yerdə axşamladım.

Ta r ı q u l u *(daxil olur*). Arvad, nə olubdur ki, yaman yerdə axşamlayasan?

Fatmanisə ərini görüb, gözləri böyümüş halda bir az ərinin üzünə mat baxdıqdan sonra qışqırıb özünü bir küncə soxur, başlayır titrəməyə.

T a r ı q u l u (*Gülpəriyə)*. Ay Gülpəri, gör bu arvada nə oldu, niyə belə eləyir?

G ü l p ə r i (*qışqırıb özünü o biri küncə soxur*). Əstəğfürullah, əstəğfürullah! Haradan gəlibsən, oraya qayıt!

F a t m a n i s ə *(titrəyir*). Bismillah, bismillah!

T a r ı q u l u (*Fatmanisəyə*). Dəli olmayıbsan, ay arvad, nədən qorxursan? Görmürsən ki, mənəm, Tarıquluyam?! (*Qolundan tutur*.)

F a t m a n i s ə (*qışqırıb əlləri ilə üzünü örtür*). Aman, yavuq gəlmə, yavuq gəlmə!

T a r ı q u l u . Bu adamlar dəli olublar, nədir?

Gülpəri dizləri üstündə yavaş-yavaş qapıya tərəf sürünür. Tarıqulu dönüb baxdıqda ucadan qışqırıb qapıdan çıxır.

Q ə d i m (*yoldaşları ilə daxil olur*). Bu qarı niyə qışqıra-qışqıra, bismillah deyə-deyə qaçdı?

T a r ı q u l u . Bilmirəm nə işdir? Odur anan da küncə girib titrəyir, yavuğa gedəndə, qışqırıb məni qovur.

Qədim və uşaqlar gülüşürlər.

B i r i n c i p i o n e r . Tarıqulu əmi, bilirsən nə var? Kənddə xəbər çıxmışdı ki, səni öldürüblər. İndi Fatmanisə xala elə bilir ki, sən xortlayıbsan. (*Gülür*.) Odur ki, qorxudan qaçıb divara qısılıb titrəyir.

Q ə d i m . Dədə, budur iki gündür nənəm ağlayır, mən də ona baxıb ağlayıram.

T a r ı q u l u . Di belə söylə də! (*Arvadına*) Ay axmaq, dur bəri gəl. Mən də qorxdum, dedim arvadın başına hava gəlibdir, nədir?

F a t m a n i s ə (*titrəyərək*). Pə... pə... pə... Bəs sə... sə... səni öldürməyiblər?

T a r ı q u l u . Ay qız, məni kim öldürə bilər? Məni öldürən hələ anasından olmamış. Mən özüm bir tək bu yumruğla dörd quldurun öhdəsindən gələrəm. Gəl, bax gör sənə, Qədimə nə yaxşı sovqatlar gətirmişəm. Sənə bir dəst paltar, Qədimə çəkmə, ondan başqa qənd, çay konfet... hər şey...

Q ə d i m . Dədə, bəs mənə pioner paltarı almadın?

B i r i n c i p i o n e r . Pioner paltarını sənə biz verəcəyik.

F a t m a n i s ə (*yavaş-yavaş gəlir*). Bəs hamı niyə deyirdi ki, səni öldürüblər?

T a r ı q u l u . Qorxma, yeyin gəl. Bircə deyin görüm, mənim öldü xəbərimi sizə kim gətirdi?

Q ə d i m . Dədə, sağsağan gətirdi.

T a r ı q u l u . Sağsağan nədir, ay bala?

Q ə d i m . Qapıda sağsağan qırıldayırdı, nənəm dedi ki, sağsağan dədənin gəldi xəbərini verir. Dur deginən: sağsağan, sağsağan, xeyir xəbər olasan, oğlunun da oğlu olubdur, qızının da oğlu olubdur. Mən də çıxıb, deyib qayıtdım. Anam soruşdu ki, sağsağanın başı bizə tərəf idi, yoxsa quyruğu? Dedim quyruğu. Elə onu dediyimi gördüm, iki əllərini dizlərinə çırpıb dedi: vay evim yıxıldı, yəqin kişinin başına daş düşdü.

T a r ı q u l u . Arvad, mən sənə həmişə deyirdim ki, avamsan. Amma belə axmaq olduğunu bilmirdim. Sağsağan nədir, dəlisən, nəsən?

F a t m a n i s ə . Getdim mollaya da baxdırdım. O da dedi: cibini kəsiblər, özünü də iflim-iflim eləyiblər. Həmşəri Cahan noxud falına baxdı. O da dedi ki, dörd adam düşüb üstünə öldürüblər. Sonra da gördüm tamam kənd danışır.

T a r ı q u l u . Kəndə də xəbər salan sənin axmaqlığındır. Nə vaxtadək sağsağana, qarğaya, noxud falına, mollanın keçə kitabına inanacaqsan? İndi görürsən ki, hamısı yalandır?

F a t m a n i s ə . Daha nə deyim?

T a r ı q u l u . Nə sözün var, nə deyəsən? Bir vaxt var idi mən də sənin kimi kor idim. Cibkəsənlərin, qulaqkəsənlərin, fırıldaqçıların sözünə inanırdım. Sonra gözüm açıldı, doğrunu yalandan ayırdım. Budur, neçə ildir gecə-gündüz sənə deyirəm: arvad, get dərs oxu savadlan, dünyanın işlərinin yaxşı-yamanlığından xəbərdar ol. Mən dedim, mən eşitdim. Mənim nəsihətimi qoyub, getdi Gülpərinin, Mahpərinin, Şahpərinin sözlərinə baxdın.

F a t m a n i s ə . Daha sözüm yoxdur, gedib oxuyaram.

T a r ı q u l u . Sabah da bayramdır. Ayın üçündə gedərsən qadınlar klubuna, orada başlarsan dərs oxumağa. Mən də sənin kimi savadsız idim. İndi görürsən kitab oxuyuram. “Yeni yol”, “Kəndçi” qəzeti oxuyuram. Kağız yazıram.

F a t m a n i s ə . Yaxşı, gedərəm. Kitab-dəftər al, gedim oxuyum.

T a r ı q u l u . Sənə orada kitab da verəcəklər, dəftər də, qələm də. Hər şey verəcəklər. Eşitdin?

F a t m a n i s ə . Eşitdim.

B i r i n c i p i o n e r (*Qədim*ə). Qədim, İndi bundan sonra sağsağan qırıldamasına, noxud falına inanacaqsanmı? Görürsənmi, bunlar hamısı yalandır. Atan sağ-salamat gəlib çıxdı, hələ sənə sovqat da gətirdi.

Q ə d i m . Tay, daha inanmaram. Bir də qapımızda sağsağan qırıldasa, daşlayıb qovacağam.

B i r i n c i p i o n e r . İndi sən də bizimlə “səlli əla sağsağan” oxuyursanmı?

Q ə d i m . Oxuyuram.

Qədim və pionerlər (o*xuyurlar*). Səlli əla sağsağan, isti fətir, göy soğan. Səlli əla sağsağan, isti fətir, göy soğan.

T a r ı q u l u . Barakallah, balalarım. Yaxşı havadır, oxuyun.

PƏRDƏ

YOLDAŞ KOROĞLU

Əsər doqquz şəkildə

ƏŞXAS

İ s r a f i l –	kəndli, kor bir kişi
Ş ə r ə f –	onun arvadı
S a l m a n –	onun böyük oğlu (Koroğlu)
İ m r a n –	onun kiçik oğlu
H a c ı B a y r a m	
H a c ı N o v r u z	} qolçomaqlar
M ə ş ə d i Ə h m ə d	
K ə r b ə l a y ı	
A l l a h v e r d i	
M i r z ə H ə s ə n –	kənd müəllimi
M o l l a V ə l i	
G ü l d ə s t ə –	Hacı Bayramın qızı
R ə h i m –	Hacı Bayramın nökəri
M a h m u d –	Hacı Bayramın baş əmələsi
C a v a d o v –	hökumət nümayəndəsi
S ə f i q u l u –	kəndli

Cavan, qoca kəndlilər; komsomolçu
oğlanlar, qızlar, uşqalar, əsgərlər,
komandir, qarovulçu, yaralı, uşaqlar

BİRİNCİ ŞƏKİL

Kor İsrafilin evinin qabağında Şərəf və oğlu İmran əyləşmişlər. Gün batmağa meyl edir.

İ m r a n . Ana, axı mən acam, səhərdən ağzıma bir tikə çörək almamışam.

Ş ə r ə f . Necə eləyim, ay bala? Mən yedim sənə vermədim? Mən də sənin kimi acam. İndi atan, qardaşın gələrlər, çörək də gətirərlər.

İ m r a n . Ana can, atama belə yazığım gəlir ki, səhərdən evdən çıxır, axşamadək bu kənddən o kəndə piyada uzun yollar gedir, axşam yorulmuş gəlir yıxılır, gecə sübhədək canının ağrısından yata bilməyir. Nə vaxtadək bizim dolanışacağımız belə keçəcəkdir?

Ş ə r ə f . Əlac nədir, anan sənə Qurban olsun. Atanın gözləri olsaydı, indi işləyirdi, əkirdi, tökürdü, biz də dolanırdıq.

İ m r a n . Ana can, atamın gözləri nədən tutuldu?

Ş ə r ə f . Ay bala, mən sənin atanın evinə gələndə elə gözləri kor idi. Uşaqlıqda çiçək çıxarıb, ondan kor olmuşdu.

İ m r a n . Yadındadırmı, ana can, atam bir dəfə naxoşladı, üç gün dilənməyə gedə bilmədi. Çardağın altında yazıq kişi uzanmışdı. Gəldim yanında oturdum, əlimi qoydum sinəsinin üstünə, soruşdum: ata haran ağrıyır? Əlimdən tutub məni özünə tərəf çəkdi, başımı sığalladı, üzümdən öpdü. Sonra əlini sifətimə çəkib dedi: ay bala, nə olardı bircə sənin, qardaşının, ananın sifətini görəydim, ondan sonra öləydim. Atama elə yazığım gəldi, gözlərimdən yaş axdı.

Ş ə r ə f . Göydən hər nə bəla gəlsə, ay oğul, kasıba, yoxsula gəlir. Varlılarını, dövlətlilərin, bəylərin birinin uşaqları çiçək çıxarmayırlar. Kəndə çiçəkdöyən gələndə, gedir onların uşaqlarının çiçəklərini döyür, plovlarını yeyir, evlərində rahat yatır, səhərdən də durub, çıxır gedir işinə. Fəqir-füqəraya qulaq asan yoxdur. Odur ki, onların uşaqları da çiçəkdən kor olurlar.

İ m r a n . Ana can, bir də kəndimizə çiçəkdöyən gəlsə, məni apar, yalvar çiçəyimi döysün, mən də dədəm kimi kor olmayım.

Ş ə r ə f . Yaxşı, bala!

İ m r a n (*bir qədər sükutdan sonra*). Ana can, axı mən acından öldüm.

Ş ə r ə f . Bir azca səbr elə, oğul. Görürsən gün əyilib, batmağa az qalıbdı. İndicə atan da, qardaşın da gələcəklər. Durum bir az su qızdırım, atan gələndə ayaqlarını yuyum. (*Qalxıb o yan-bu yana boylanır.*) Bax, odur gəlirlər.

İ m r a n (*sevinmiş*). Hanı, hanı? (*Atasının qarşısına yüyürür.*)

Şərəf çırpıdan ocaq qalayıb, üstünə qazanda su qoyur. İsrafil Salmanın çiynindən yapışmış daxil olur. İmran dallarınca gəlir.

İ s r a f i l (*Şərəfə*). Ay arvad, altıma bir şey sal, nəfəsdən düşmüşəm. Şərəf (döşəkcə salır). Gəl burada otur. (*Qolundan tutub, oturdur.*)

İ s r a f i l (*əyləşir*). Ayaqlarım taqətdən düşüb. Bir azdan sonra daha heç məndə gəzməyə hal qalmayacaqdır. Bilmirəm bu külfət necə dolanacaq?

S a lma n . Qəm yemə, ata. Bir az keçər rahat olarsan. Bundan sonra sən evdə oturarsan. Mən qazanıb gətirərəm. Üç-dörd ildən sonra İmran da imraz elər, o da başlar qazanmağa, belə keçməz.

İ m r a n (*atasının xurcununu açıb baxır*). Ana, atam ət də gətirib.

İ s r a f i l . Gətirmişəm, oğlum, ət də gətirmişəm. (*Arvadına*) Ay Şərəf, o əti at qazana, bir şey bişir, uşaqlar yesinlər.

Ş ə r ə f . Ocağa su qoymuşam. Ayaqlarını yuyum, sonra əti asaram.

İ s r a f i l . Ayaqlarımı yatanda yuyarsan. Qabaqca əti as, uşaqlar acdırar.

Ş ə r ə f . Yaxşı, elə olsun. (*Xurcunu götürüb aparır ocağın yanına, orada içindən ət və çörək parçalarını çıxarır. Bir parça çörək İmrana verir.*) Ala, bunu ye, İndicə şorba bişirəcəyəm, doyunca yeyib yatarsan. İmran çörəyi alıb yeyir.

İ s r a f i l (Salmana). Bala, Salman, danışmaq asandır, iş görmək çətin. Deyirsən mənə evdə oturum, sən qazanıb məni saxlayarsan. Sən nə işə yapışacaqsan ki, qazanıb bu külfəti saxlaya biləsən?

S a l m a n . Ata, budur neçə aydır, axşam sən və anam yatandan sonra mən evdən gedib gecənin yarısından sonra gəlirəm. Niyə heç bir soruşmursan ki, bala, bu gecələri nə gəzirsən? Mən axşamlar gedib bizim kənd müəllimi Mirzə Həsəndən dərs alıram. Bir neçə yoldaşıq. İndi oxumaq, yazmaq bilirəm. Bir də, ata, bir iş var: müsavat hökumətinin axır günləridir. Bu gün-sabah Azərbaycana təzə hökumət gələcəkdir: işçi və kəndli hökuməti. Məmləkətin ixtiyarı İndiyədək ayaq altında əzilməkdə olan fəqir-füqəraya veriləcək. Ondan sonra bizim kimi yoxsulların hamısının əhvalı yaxşılaşacaqdır.

İ s r a f i l . Ay oğul, yuxu görürsən, nədi? Başı qapazlı fəqir-füqəra işmi apara bilər?

S a l m a n . Doğrudan da, bu işlər indiyə kimi çox adama yuxu kimi gəlirdi. Amma bu yolda işləyənlər də az deyildi. Işləyənləri öldürürdülər, Sibirə sürgün edirdilər. Onlar buna baxmayıb sözlərinin üstündə mərdi-mərdana dururdular və deyirdilər: füqəra milyonlarcadır, dövlətlilər minlərcə. Az çoxa ağalıq eləyə bilməz. Hökumət çoxun əlində olmalıdır. Bu yolda zəhmət çəkənlərin başında, canından keçən, ölümdən qorxmayan bir adam var ki, ona yoldaş Lenin deyirlər. Tamam Rusiyada bu saat işçi-kəndlilər onun sayəsində hökumətlik edirlər. İndi növbət bizə gəlir.

İ s r a f i l . Ay bala, sən bu işləri haradan bilirsən, bəs indiyədək niyə danışmırdın?

S a lma n . Açıq danışmağın vaxtı deyildi. Bizim burada xəlvət komitəmiz var, hər yerdən bizə xəbər gəlir. Bakıda adamlarımız işləyir. Bir neçə gündən sonra çıxıb, açıq-açığına söyləyib, xalqın hüququnu anladacağıq.

H a c ı B a y r a m *(yolla ötərkən dayanır*). Ay İsrafil, yenə balalarını başına toplayıb nə söhbət eləyirsən?

İ s r a f i l . Nə söhbət eləyəcəyəm, ay hacı! Bizim dərd-qəmdən başqa nə söhbətimiz ola bilər?

H a c ı B a y r a m . Sənin nə dərdi-qəmin ola bilər? Üçdə alacağın yoxdur, beşdə verəcəyin. Mənim kimi mal-qoyun dərdi çəkmirsən. Xalqın müftə çörəyindən yeyib yatırsan.

Ş ə r ə f (*əlində soğan doğrayarkən, ahəstə*). Səni görüm, İsrafilin gününə düşəsən, arvadın da mənim günümə, onda görərsən ki, dərdqəm nəyə deyərlər.

S a lma n . Az qalıbdır, ana. Bir azdan sonra biz çəkən dərd və qəmdən o da çəkəcək.

İ s r a f i l . Ay hacı, hər adamın dərdi özünə görə yükdür. Böyük başın böyük ağrısı olar, balaca başın da balaca ağrısı.

H a c ı B a y r a m . Ay İsrafil, sənin bu oğlun Salman qoçaq oğlana oxşayır. Gəlsənə onu mənə nökər verəsən? Ona yedikcə çörək verərəm, geydikcə paltar verərəm. Bir qədər məvacib təyin elərəm. Bir neçə vaxt qapıda-bacada işlər, mənim işlərimə bələd olar. Sonra gəldikcə işini, məvacibini artıraram, sən də rahat dolanarsan.

İ s r a f i l . Mənim sözüm yoxdur, özü razı isə, getsin.

H a c ı B a y r a m . Özü nə deyib razı olmayacaq! Onu oğul kimi saxlayacağam. Həmişə o da, səndə məndən razı qalacaqsınız.

İ s r a f i l (*oğluna*). Razısanmı, ay oğul?

S a lma n . Sən razı olandan sonra, mənim nə sözüm ola bilər.

H a c ı B a y r a m . Onda bu günlərdə gələrsən bağlaşarıq, başlarsan işləməyə.

Ş ə r ə f . Hacı Bayram, səni and verirəm balalarının canına, mənim balama ağır iş tutdurma.

H a c ı B a y r a m . Arxayın ol, mən ona gücünə görə iş verərəm. Arxayın ol bacı. Di salamat qalın. (*Salmana)* Bu gün bazar ertəsidir. Cümə axşamı səhərdən gələrsən, yaxşı da gündür. (*Gedir*.)

S a l m a n . Baş üstə.

H a c ı B a y r a m (*dübarə qayıdır*). Bax, orada duran başı şapkalını görürsən? (*Barmağı ilə göstərir*.) Elə adamlardan bacardıqca uzaq qaç. Sənin ağlını başından oynadarlar. (*Gedir*.)

S a lma n . Hacı Bayramın evinə girmək bəd olmaz. Evi yaxşı evdir, kənd idarəsinə yaxşı yarar.

İ s r a f i l . Ay oğul, o kimi göstərdi?

S a l m a n . Bizim kənd müəllimi Mirzə Həsəni göstərdi.

İ s r a f i l . Bir belə ki, sən onu tərif eləyirsən, onu görüm dünya durduqca dursun.

S a l m a n . Necə tərif eləməyim? Mənim və yoldaşlarımın gözlərini açan, xalqı haqq yola çağİran o deyilmi?

Mirzə Həsən gəlir.

M i r z ə H ə s ə n. Salaməleyküm, ay İsrafil dayı. Necəsən? O yekəqarın kulakla nə söhbət eləyirdin?

İ s r a f i l . Kulak nədir, ay mirzə?

M i r z ə H ə s ə n. Fəqir-füqəranın, işçilərin zəhmətlərindən varlanıb, onları tapdalayana kulak deyirlər. Nə əcəb iltifat üstünə gəlib, sənlə söhbət eləyirdi?!

İ s r a f i l . Bir söhbət yox idi, ay mirzə. Deyir, oğlun Salmanı mənə nökər ver.

M i r z ə H ə s ə n. Sən necə? Razı oldun?

İ s r a f i l . Əlacım nədir, ay sənə canım Qurban. Qocalmışam, əzməyə taqətim yoxdur. İndiyədək uşaq idi, mənim də əlacım yox idi, dilənib külfət saxlayırdım. İndi daha böyüyübdür, bundan sonra da o qazansın məni dolandırsın.

M i r zə H ə s ə n. Sən elə eləmə, Israfil dayı. Mən sənin dilindən bir ərzi-hal yazaram, göndərərəm lazımi yerinə, sənin uşaqların böyüyüb səni saxlamağa qadir olunca, sənə məvacib kəsərlər. Uşaqların ikisini də göndər mənim yanıma dərs oxusunlar, savad alsınlar. Savadlandılarmı, hər biri bir iş sahibi olar. Sən də rahat yaşarsan.

İ s r a f i l . İndi Salmanın gedib hacı Bayramın evində qulluq eləməsini məsləhət görmürsən?

M ir z ə H ə s ə n (*bir qədər fikirdən sonra*). Hələlik qoy getsin. (*Salmana)* Eybi yoxdur, bir neçə günlüyə get. Sənin ona yaxın olmağın lazımdır. Axşamlar yenə öz qaydası ilə görüşərik. Sonra işə baxarıq. (İs*rafilə*) İsrafil dayı, hacı bayramların hökumət sürmələrinə az qalıbdır. Onun tək kulakların, hampaların, mülkədar-bəylərin və xanların haqqında başqa fikirlər var. Bu günlərdə onun cəmi var-yoxunu əlindən alıb camaata verəcəklər, özündən xəbəri yoxdur.

İ s r a f i l . Mən bunu anlamadım, ay mirzə. Məni dürüst başa sal. Necə yəni onun malını əlindən alıb camaata verəcəklər?

M ir z ə H ə s ə n. Burada başa düşməməli bir şey yoxdur. Hacı Bayram üçün dövlət, mal qazanan haman onun qapısındakı rəncbərlərdir, çobanlardır, naxırçılardır, kəndin kişiləri, arvadlarıdır. Bunlar zəhmət

çəkiblər, zəhmətlərinin meyvəsini Hacı Bayram yeyib. İndi ona deyəcəklər ki, daha kifayət edər: mal zəhmət çəkənİndir, hazır üstündə oturub müftə yeyənlərin deyil. Odur ki, onun əlindəki camaat qazandığı malı alıb, camaatın özünə verəcəklər. İndi başa düşdünmü?

İ s r a f i l . Çox gözəl başa düşdüm. Bəs bunu İndiyədək niyə eləmirdilər?

M i r z ə H ə s ə n. İndiyədək hökumət başında bəylər, xanlar oturublar, özləri kimiləri də saxlayıblar. İndi təzə hökumət gözlənir, zəhmətkeşlər hökuməti, işçi-kəndli hökuməti.

İ s r a f i l . Mən buna inanmırdım. Salman doğru deyirmiş. Bax, hökumət buna deyərlər. Ömrün uzun olsun, ay mirzə, mənim ürəyimi şad elədin.

M i r z ə H ə s ə n. Di salamat qalın, mən gedirəm. Əlbəttə, uşaqları məktəbə göndərərsən.

İ s r a f i l . Baş üstə, ömrün uzun olsun. Xata-baladan uzaq olasan.

Ş ə r ə f . Ay mirzə, kasıb koması olanda nə olar, yaxşı şorba bişirirəm, otur, bir-iki qaşıq yeginən.

M i r z ə H ə s ə n. Yox, Şərəf xala, çörəyin bol olsun, çox razıyam. Ancaq qaranlıq düşənədək mən gərək evdə olam.

Ş ə r ə f . Nə deyirəm, sən bilən yaxşıdır.

İ s r a f i l . Mirzə, ərizəni nə vaxt yazacaqsan?

M i r z ə H ə s ə n. Nə vaxt uzaqdır. Bir az səbr elə, vaxtı yaxınlaşır. Hələ ki, xudahafiz. Salamat olun. (*Gedir.*)

İ s r a f i l . Xoş gəldin, göz üstə gəldin, ömrün uzun olsun.

S a l m a n (*Mirzə Həsəni ötürür*). Mirzə, bu gün bir təzə xəbər yoxdur?

M i r z ə H ə s ə n. Yaxşı xəbər var. Şura hökumətinin gəlməsi bir həftə çəkməz.

S a l m a n . Deməli, zəhmətkeşlərin əziyyətlərinin axırıdır.

M i r z ə H ə s ə n. Çörəkdən sonra gələrsən, təzə gələn məktubları sənə göstərərəm. Yoldaşlara xəbər ver, hazırda dursunlar. Təzə xəbərə görə Dağıstanda Şura hökuməti qurulmuş, müsavat vəzirlərinin başları ziyafətlərə qarışıb dünyadan xəbərləri yoxdur. Cəbhə büsbütün açıqdır. Şura qoşunu məmaniətsiz Bakıya girə biləcək.

S a l m a n . Bəlkə dəmir yolunu dağıtdılar?

M i r z ə H ə s ə n. Bu mümkün deyil. Dəmir yolu əmələləri heç vədə buna yol verməzlər. Xülasə, yoldaşlara deginən hazırda dursunlar. İnqilab vaxtı həmişə bir qarışıqlıq gözləmək olar. Bizim kənddə də

bir para dələduzlardan ara qarışdırma gözləmək olar. Kənddə asayişin pozulmasına gərək bizim yoldaşlar yol verməsinlər.

S a lma n . Hazırdadırlar. Mürəxxəs olum. Bir-iki saatdan görüşərik. (*Qayıdır.*)

İ s r a f i l . Salman gedir qulluğa. Payız girənədək də məni İmran gəzdirər. Mirzə Həsənin ömrü uzun olsun. Bəlkə onun köməyi ilə zəhmətdən, əzabdan qurtaraq.

Ş ə r ə f . Daha qaranlıq düşür, durun gedək içəri, mən də şorbanı bişirim gətirim.

İ s r a f i l . Ay oğul, gəl qolumdan yapış.

S a l m a n onun qolundan yapışıb içəri aparır.

Ş ə r ə f (ocağın kənarında). Zəhmət, məşəqqətlə ömür keçirdik, kirpiyimizlə od götürdük. Mirzə deyən doğru olsaydı, ömrümüzün axırında işıqlı gün görərdik. Mirzə yalançı oğlan deyil.

İ m r a n . Ana, şorba bişmədi?

Ş ə r ə f . Bir azca səbr elə, oğlum, İndicə bişər.

S a l m a n (*içəridən çıxıb bir qədər göy üzünə baxır*). Ana, o işıldayan ulduzu görürsən?

Ş ə r ə f . Çoban ulduzunumu deyirsən, ay bala?

S a l m a n . Onu deyirəm. Bax, ana, onun beş guşəsi var. O nəinki bir çobanların, cəmi əlsiz-ayaqsızların, füqəranın, kasıbların, tər töküb əl qabarı ilə çörək qazananların, bizim kimi yoxsulların nicat ulduzudur. Bir vaxt olar, beşguşəli ulduzun nuru sayəsində cəmi zəhmətkeşlər və fəqir-füqəra xoşbəxt və rahat yaşar.

Ş ə r ə f . O günü görüb, ölsəydim, dərdim olmazdı.

S a lma n . Görərsən, ana, tezliklə görərsən!

PƏRDƏ

İKİNCİ ŞƏKİL

Hacı Bayramın evinin qabağı. Hacı Bayram çarpayı üzərində döşəkcə üstündə əyləşmiş, yanında Molla Vəli. Qarşısında Salman və Mahmud ayaq üstündə durmuşlar. Molla Vəli, dizinin üstündə kağız, əlində qələm, ayağının altında qələmdan müntəzir əyləşmiş.

H a c ı B a y r a m (*mollaya)*. Axund, necə ki deyirəm, elə də yazarsan.

M o l l a V ə l i . Bəli, buyur. (*Hacı dedikcə yazır.)*

H a c ı B a y r a m . Mən bu oğlanı, Salman İsrafil oğlunu bir ilin müddətinə nökər tuturam. Hər bir işə göndərməli olsam, boyun qaçırmamalıdır, haqqı ildə altmış manat nəqd pul, bir dəst paltar, bir cüt çarıq, yedikcə çörək. Yazdın, qurtardın?

M o l l a V ə l i . Bəli, qurtardım.

H a c ı B a y r a m . Mənim əvəzimdən qol qoy.

M o l l a V ə l i . Baş üstə. (*Kağızı yazıb, verir Hacı Bayrama*.) Buyur.

H a c ı B a y r a m (*kağızı molladan alıb verir Salmana).* Al, bu sənin sənədin, qoy cibinə, ya apar ver atan saxlasın.

S a l m a n . Hacı, bu kağız nahaqdır, sənin sözün mənə sənəddir.

H a c ı B a y r a m . Yox, oğul. İş möhkəm yaxşıdır. *(Salman kağızı alıb qoltuq cibinə qoyur*.) Axund, sən də buna bir nəsihət elə.

M o l l a V ə l i . Bilirsən nə var, oğul? Bu gündən sən, Hacı Bayramın itaətinə keçirsən. Hacının çörəyini yeyəcəksən, ona gərək düz və doğru qulluq edib, işinə haram qatmayasan. Əvvəla, qiyamətdə peyğəmbərin hüzurunda şərmisar olarsan, ikincisi, bu dünyada yediyin çörək gözünə durar.

S a lm a n . Əlbəttə, molla dayı, hər adam boynuna götürdüyü işi gərək doğru və dürüstlüklə aparsın.

M o l l a V ə l i . Barakallah, oğlum. Yaxşı danışdın.

H a c ı B a y r a m . Molla, bu oğlanı mən çoxdan xoşlamışdım. Sirsifətindən kamallı oğlana oxşayırdı. İndi görürəm ki, səhv düşməmişəm. (*Salmana*) Doğruluqla qulluq elərsən, haqqını artıraram, xələt verərəm, qulluğunu artıraram. Bunu bil ki, sənin şikəst atana, qoca anana rəhmim gəlib, istəmişəm sizə bir qədər çörək verim. Sən də o çörəyin qədrini bilməlisən. Bunu da sənə deyirəm, qulağında yaxşı saxla. O avara müəllim Mirzə Həsəndən və onun kimi cibləri boş, ağızlarını Allah yoluna qoyub axmaq-axmaq danışanlardan uzaq ol. Onlardan adama ziyandan savayı bir şey dəyməz. Eşitdinmi?

S a lma n . Bəli, eşitdim.

H a c ı B a y r a m . Mollanın nəsihəti qulağında qalsın.

S a l m a n . Baş üstə.

H a c ı B a y r a m . İndi səni tapşırıram bu Mahmuda. Sənin işini sənə bu göstərəcəkdir. (*Mollaya*) Di, axund, buyur gedək içəri, bir az çörək yeyək.

M o l l a V ə l i . Ya Allah. (*Qalxıb hacı ilə gedir*.)

M a h m u d bir qədər hacı ilə gedir. Hacı mollanı içəriyə buraxıb, dönüb Mahmudla bir qədər ahəstə danışır.

M a h m u d (*qayıdır, Salmana*). Ay gədə, Koroğlu! Sən indiyədək nökərçiliyin nə olduğunu bilməyibsən. Əllərinin qabığı nazikdir. İndiyədək atanı kor eləyən Allaha şükür eləyib, xalqın müftə çörəyindən yeyibsən. Mən sənə nökərçiliyin nə olduğunu anladım ki, sən də öz işini biləsən. Bax, burada səni işlədəcəklər, onu bil ki, tənbəl işləsən səndən qat-qat qabıq soyacaqlar. Adama altmış manatı müftə yerə verməzlər. Bu, dilənib qazanmaq deyil. Buna zəhmət haqqı deyərlər. Bu sözləri də qulaqlarında möhkəm saxla. (*Çağırır.*) Ay gədə, Rəhim! (*Rəncbər Rəhim gəlir.*) Bu Koroğlunu özünlə götür. Gedin hacının bağının ayağındakı qurumuş ərik ağacını yıxın yerə, balta ilə doğrayın, kötüyündən hər biriniz bir şələ odun qayırın, götürün gəlin.

R ə h i m. Mahmud dayı, axı acıq, bir tikə çörək yeyək gedək.

M a h m u d. Ay səni acından öləsən! Get Pərinisəyə de, bir çörək versin, aparın bağda ikiniz yeyin. Axşama da bişmişiniz olacaq. Zalım oğlunun yeməkdən savayı ayrı fikri yoxdur. (*Gedir.*)

R ə h i m (Salmana). Gəl, ay yazıq, özünü yaxşı tələyə salıbsan. Gedək Pərnisədən çörək alaq, düşək yola.

S a l m a n . Pərinisə kimdir.

R ə h i m. Pərinisə Mahmudun arvadının adıdır. Mahmud cəlladın biridir, arvadı ondan bədtər. Verdikləri çörəyin yarısı arpa olacaq, yarısı buğda, adamın boğazında ilişib qalacaq. Axşam da ki deyir, bişmiş olacaq, o da nehrədən çıxmış ayranın dovğası. Yeyib bir saatdan sonra yenə acacaqsan. Beləliklə işlə görüm, necə işləyəcəksən. Dördcə ay, artıq demirəm, bunun yanında davam gətirə bilsən, sənə Rüstəm pəhləvan deyərəm. Ya şikəst olacaqsan, ya xəstə olub ömrünün axırınadək bir böyrün üstə yatacaqsan.

S a l m a n . İşləyə bilmərəm, çıxıb gedərəm.

R ə h i m. Gedərsən, haqqın əlindən çıxar, zəhmətin də özünə qalar.

S a l m a n . Necə? Aybaay haqq verməyəcək?

R ə h i m. Ay bədbəxt, yazıq! Məvacib nədir? Səni bir il tamam işlədəcək, axırda da haqqının çoxunu balta sınığına, kəndir qırılmasına çıxıb, əlinə çöplə çəyirdək verəcək.

S a l m a n . A kişi, nə yaman adam imiş bu!

R ə h i m. Yainki vədən yavuqlaşanda üstünə bir oğurluq yıxıb, heç bir şahı da verməyəcək. Bəlkə özünü də bir az borclu çıxardacaq.

S a l m a n . Eybi yoxdur, bir neçə gün davam etmək olar.

R ə h i m. Nə dedin?

S a l m a n . Deyirəm yaxşı dolaşmışam.

R ə h i m. Hələ nə var ki! Ləzzətini sonra görəcəksən.

S a l m a n . İndi görürsənmi ki, Hacı Bayram bu dövləti nə yolla qazanıb?

R ə h i m. Kor ki deyiləm, əlbəttə görürəm. Onun dövlətinin hamısı bizim kimi fəqir-füqəranın qanıdır. Onun bu gördüyün evinin palçığı bizim qanımızla yoğrulub.

S a lma n . Belə adamlara təzə dildə kulak deyirlər.

R ə h i m. Necə təzə dil?

S a lma n . Mirzə Həsən belə deyir.

R ə h i m. Mirzə Həsən yaxşı oğlandır. Budur bir neçə ildir ki, onu buraya müəllim göndəriblər. Həmişə fəqir-füqəranın mənfəətinə çalışır.

S a l m a n . Rəhim, budur neçə aydır, mən axşamlar gedib Mirzə Həsəndən dərs alıram. Yaxşı yazıb-oxumaq öyrənmişəm. Onu İndiyədək atam da bilmirdi. Onu bil ki, bu günlərdə Azərbaycana təzə hökumət gələcək. Təzə qayda-qanun qoyacaq. Iş başında bundan sonra işçilər, kəndlilər olacaq. Bəylərin, xanların, kulakların yerlərini, mülklərini alıb camaata verəcəklər.

R ə h i m. Onu İndi hər yerdə danışırlar. Təzə hökumətin gəlməyini də camaat gecə-gündüz gözləyir. Odur ki, pristav da bir neçə gündür məlum deyil haraya gedib. Yüzbaşı da qaçıb gizlənibdir.

S a l m a n . Doğrudan da neçə gündür bizim yüzbaşı yoxdur. Deyirlər şəhərə gediblər.

R ə h i m. S a l m a n, Mirzə Həsənin yanına getsəm, mənə dərs verərmi?

S a l m a n . Niyə vermir.

R ə h i m. Onda gedəndə məni də apar.

S a lma n . Çox yaxşı, apararam. Bu axşam gəl səni bir yerə aparım, orada bizim hər axşam yığıncağımız olur. Danışılan söhbətlərə sən də bir qulaq ver.

R ə h i m. Nə yığıncaqdır?

S a lma n . Gedərsən, görərsən.

R ə h i m. Baş üstə, oynaya-oynaya gedərəm. Gəl gedək görək Mahmudun arvadı nə zəhrimar verəcək. Sənin üçün də oradan balta, çatı götürək.

Gedirlər.

H a c ı B a y r a m (*molla ilə içəridən çıxırlar*). Axund, doğrudan, camaat arasında belə söz var.

M o l l a V ə l i . Mən sənə xəlvət deyirəm, bir adam bilməsin. Camaatın qulağını doldurublar, deyirlər təzə hökumət gəlir, Şura hökuməti. Müsavat vəzirləri hamısı qaçmağa yer axtarırlar. Pristavları, naçalnikləri tutub Dustaq eləyəcəklər. Mülkədarların evlərini, mülklərini əllərindən alıb camaata verəcəklər. Bunu bu saat hamı danışır.

H a c ı B a y r a m . Belə iş ola bilməz. Necə ola bilər ki, mənim zəhmət çəkib qazandığım, ya ata-babadan qalmış mülkümü əlimdən alıb versinlər kəndin ac-giclərinə?

M o l l a V ə l i . Danışılana görə, guya təzə hökumət deyir ki, bəylərin və hampaların dövləti kasıb və füqəranın zəhmətindən toplaşıb. Ona görə onlar əmlakını fəqir-füqəradan oğurlamış kimi olublar və bu oğurladıqları malı öz sahiblərinə, yəni füqəra və kasıblara qaytarmalıdırlar. Xülasə, hacı, sən də sərvaxt ol.

H a c ı B a y r a m . Mənə nə var? Mən pul verib, fəhlə tutub işlədib, özüm üçün güzəran qayırmışam. Bəy deyiləm, rəiyyətim yox, kəndkəsəyim yox. Beş-on baş mal-qoyunum var. Təzə hökumətin mənimlə heç bir işi ola bilməz. İndiyədək naloğu rus padşahına, müsavat hökumətinə vermişəm, İndi də təzə hökumətə verərəm. Bunlar hamısı o müəllim Mirzə Həsənin qondarmalarıdır.

M o l l a V ə l i . Mən sənin çörəyini yemişəm və səni xəbərdar eləməyi də özümə borc bilirəm.

H a c ı B a y r a m . Sağ ol, Allah atana rəhmət eləsin. Yaxşı olar ki, camaata da bir məsləhət eləyəsən, belə sözlərə inanmasınlar. Nə qədər olsa mollasan, sənin sözlərin camaatın qulağına batar.

M o l l a V ə l i . Mən bacardığım nəsihəti eləyirəm.

M a h m u d (*hövlnak daxil olur*). Hacı, İndicə kəndə bir atlı gəldi. Deyir, Qaraqullar kəndinin camaatı əli ağaclı, kürəkli tökülüb Rüstəm bəyin evini darmadağın dağıtdılar. Bəy də beş-on nökərləri ilə bir daldaya girib camaatla atışır.

H a c ı B a y r a m (*qorxmuş*). A kişi, nə danışırsan? Amandır, deginən bu saat mənim atımı yəhərləsinlər, gedim görüm bu nə işdir. Mənim evim yıxılır. Bir həftə olmaz, gəlib məndən dörd yüz qızıl onluq borc alıb apardı. Amandır, Mahmud, tez ol, özün də atlan.

M a h m u d. Bu saat. (*Yüyürür.*)

H a c ı B a y r a m . Vay namə[…]d! Deyilənlər doğruya oxşayır, evim yıxıldı.

G ü l d ə s t ə *(içəridən hövlnak çıxır*). Ata, haraya gedirsən?

H a c ı B a y r a m . Nə borcundur haraya gedirəm? Çəkil get içəri.

G ü l d ə s t ə . Ata, mən danışığının hamısını eşitdim. Getmə, səni öldürərlər.

H a c ı B a y r a m . Sarsağın qızı, məni kim öldürəcək?! Mən elə onda ölmüşəm ki, dörd min manat sarı qızıl pullarım əlimdən çıxır.

M a h m u d. Hacı, atlar hazırdır.

G ü l d ə s t ə . Getmə, ata, pul səni qazanmayır ki, sən pulu qazanırsan.

H a c ı B a y r a m . Çəkil cəhənnəmə, axmağın qızı. (*Qızını itələyib Mahmudla gedir.)*

PƏRDƏ

ÜÇÜNCÜ ŞƏKİL

Həmin həyət. Güldəstə çarpayının üstündə məyus əyləşmiş, o yan-bu yana baxır. Salman və Rəhim, dallarında odun şələləri, daxil olurlar.

R ə h i m. A hacı qızı, niyə bikef oturubsan?

G ü l d ə s t ə . Nə eləyim, atamdan nigaranam.

R ə h i m. Biz gedəndə atan evdə idi. Necə oldu?

G ü l d ə s t ə . M a h m u d gəldi, xəbər gətirdi ki, Qaraqullar kəndinin camaatı bəyin evini tökülüb dağıdırlar. Rüstəm bəy də nökərləri ilə mehtərliyə girib rəiyyəti ilə atışır. Atam eşitcək atını minib çapdı. Qorxuram atamı öldürərlər.

R ə h i m. Qorxma, heç zad olmaz. Atan tək getdi?

G ü l d ə s t ə . Yox, M a h m u d da onunla getdi.

S a l m a n . R ə h i m qardaş, deyəsən Bakıda təzə hökumət dikəlib. Müsavat yıxıldı. Biz bunu bir həftə bundan sonra gözləyirdik. Çox tez oldu. Yaşasın yoldaşlar.

R ə h i m. Necə yoldaşlar?

S a l m a n . Şura hökumətində böyük-kiçik yoxdur, hamı yoldaşdır. Bundan sonra mən də sənə yoldaş Rəhim deyəcəyəm.

R ə h i m. Mən də sənə yoldaş Salman.

S a l m a n. Yox, Mahmud mənə ad qoydu: Koroğlu. O mənim atamın korluğuna sataşdı. Amma ad mənim çox xoşuma gəldi.

R ə h i m. Yaxşı, yoldaş Koroğlu.

G ü l d ə s t ə. Ay Rəhim, nə söyləyirsiniz, təzə dil danışırsınız?

R ə h i m. Təzə dildir. Bir azdan sonra sən də öyrənərsən. Buraya bax, ay Güldəstə, axı sən bir yaxşı qızsan. Sən atanın canı, bir az bizə atan yeyən çörəkdən gətir yeyək, acından ölürük. Mən yenə öyrənmiş canam, bu yazıq Koroğlunun işi lap xarabdır. Mahmud verdiyi arpalı çörək ilişib boğazında qalır.

G ü l d ə s t ə . Yaxşı, bu saat gedim gətirim.

R ə h i m. Səni görüm boya-başa çıxasan, çörəyin üstünə bir az yavanlıq da qoy.

G ü l d ə s t ə . Yaxşı. Nəmi bağlı olmasa yavanlıq da gətirərəm. (*Gedir.*)

R ə h i m. Bilirsənmi, yoldaş Koroğlu, bu necə yaxşı qızdır! Heç atasına oxşamayıb. Bu olmasa biz burada acından qırılarıq. Məlun oğlu məlun Hacı Bayram bizə arpalı çörəklə ayran dovğasından başqa bir şey vermir. Hacı Bayramdan bədtər də onun sağ əli Mahmuddur. Ağanın malı gedir, muzdurun canı. Bizə, düşəndə, bir qırıq ət veriləndə gözü çıxır.

G ü l d ə s t ə *(içəridən çıxır*). Ala, yeyin, bu çörək, bu da yağ-şor. Atam karıxdığından nəminin qapısını açıq qoyub gedibdir.

R ə h i m. Ver buraya. Bəxtimiz kəsib. Al, Koroğlu, Güldəstənin dövlətindən doyunca yeyək.

G ü l d ə s t ə (Salmana). Sənin adın Koroğludur?

S a l m a n . Yox, Salmandır. Mahmud dayı mənim adımı Koroğlu qoydu. Mən, kor İsrafil kişinin oğluyam. Amma bu ad mənim xoşuma gəldi. Istəyirəm elə bundan sonra hamı mənə Koroğlu desin.

G ü l d ə s t ə . Mən də Koroğlu deyim?

S a lma n . Elə hamı desin.

G ü l d ə s t ə . Yaxşı. (*Gedir.)*

R ə h i m (S*almana*). Di gəl otur çörək yeyək. Çarpayının üstündə qabaq-qarşı əyləşib çörək yeyirlər.

S a l ma n . Ye, yoldaş, öz malın kimi ye.

R ə h i m. Əlbəttə, öz malımdır.

S a l ma n . Ay Rəhim, belim belə pis ağrıyır ki.

R ə h i m. Odun şələsindən belinə ağırlıq düşüb.

S a l ma n . Ziyanı yoxdur. Bu gün mənim belim ağrıyar, sabah da başqalarının. Yaşasın Şura hökuməti!

R ə h i m. Yaşasın Şura hökuməti!

S a l ma n . Rəhim, sevindiyimdən çörək yeyə bilmirəm. Gəl bir öpüşək.

R ə h i m. Gəl!

Öpüşürlər.

Molla Vəli (*müztərib halda daxil olur*). Rəhim, Hacı Bayram evdədir?

R ə h i m. Hacı Qaraqullara getdi.

M o l l a V ə l i . M a h m u d haradadır?

R ə h i m. O da onunla getdi. Molla əmi, buyur çörək yeyək.

M o l l a V ə l i . Rəhmətlik uşağı, çörək nədir?! Mollanın yadından çörək də çıxıb, su da çıxıb. Qaraqullardan gələn atlı nə danışıbsa, kəndin camaatı bir-birinə qarışıb, budur, hamısı buraya gəlir.

Camaat cavan, qoca yavaş-yavaş səhnəyə gəlirlər.

B i r i n c i k ə n d l i (*əllərini ölçərək və o yan-bu yana baxaraq).* Qardaşlar, kişilər doğru danışırlar. Nə səbəbə biz işləyək, bəylər, xanlar, hacılar yeyib kökəlsinlər? Onlar da bizim kimi adam deyillərmi? İşləsinlər, əllərinin əməyini yesinlər. Nə deyirsiniz, qardaşlar?

B i r n e ç ə s ə s . Doğrudur, doğrudur, belədir ki var.

M o l l a V ə l i . Camaat, bir qədər sakit olun. (*Hamı sakit olur*.) O Qaraqullardan gələn oğlan buradadırmı?

O ğ l a n (*yeriyir irəli*). Bəli, buradayam.

M o l l a V ə l i . Söylə görək bu nə xəbərdir gətiribsən?

O ğ l a n . Bizim kəndlilərdən birisi neçə il idi getmişdi Bakıya. Orada neft mədənlərində işləyirdi. O, bu səhər Bakıdan gəlib xəbər gətirdi ki, Bakıda təzə hökumət quruldu. Deyir: pristavları, qalabəyini, qubernatı – hamısını tutub Dustaq elədilər. Varlıların, tacirlərin, mülk sahiblərinin var-yoxlarını siyahıya vurub əllərindən alıblar. Camaata, fəqir-füqəraya, işçilərə paylaşdıracaqlar. Bu xəbəri eşidən tək camaat töküldü Rüstəm bəyin evinin üstünə. Dedilər, bəyin hər nə maldövləti var əlindən alıb camaata paylaşdıracağıq. Bəy də mehtərliyə girib onlarla atışır. Məni buraya göndərib dedi, get, Hacı Bayrama xəbər ver, başının çarəsini qılsın, bir belə gün də onun var.

B i r i n c i k ə n d l i . Belədir ki var. Hacı Bayram İndiyədək bu camaatın qanını soyubdur. Bu dörd oymaqda bir nəfər varmı ki, ona borclu olmasın? Nə qədər pul verirlər müamiləsinin altından çıxa bilmirlər.

Burada bir Hacı Bayram deyil, ondan savayı da neçə hampa var. Hamısı gərək cəzalarına çatsınlar.

İ k i n c i k ə n d l i . Məsələn, Hacı Novruz.

Ü ç ü n c ü k ə n d l i . Xədicə oğlu Məşədi Əhməd.

D ö r d ü n c ü k ə n d l i . Cəbrayıl oğlu Kərbəlayı Allahverdi.

M o l l a V ə l i . Camaat, bir sakit olun. (*Hamı sakit olur*.) Siz Allah, peyğəmbərə, şəriətə inanırsınız, ya yox? Xudavəndi-aləm göydən Quran göndərib və onun peyğəmbərləri də bizə şəriət qoyub gediblər. Bizim hamımızın başı o şəriətə bağlıdır. Hər şəxsin ruzisini Allah özü verir. Bəzi şəxslərə xudavəndi-aləm məsləhət bilib çox ruzi verir, bəzilərinə az. Bu hamısı onun öz qüdrət əlindədir. Özgənin malına qəsd edən cəhənnəmin odunu bu dünyada özü üçün satın alır. Hacı Bayramın da, Hacı Novruzun da və o birilərinin də dövləti Allah tərəfindən verilmiş və onlara qəsd edənlər kafirlərlə bir yerdə qiyamətə gedəcəklər. Bakıdan gələn oğlanın söylədiyi yalandır, belə yalanlara inanıb, dininizi, imanınızı əldən verməyin.

B i r i n c i k ə n d l i (*yanındakına)*. Gör necə ağzından od tökür! Görünür cibinə ziyandır.

İ k i n c i k ə n d l i . Əlbəttə, cibinə ziyandır. Onun göbəyinin piyi hacıların plovundan deyilmi?

M o l l a V ə l i (*Qaraqullardan gələnə*). Oğlan, o Bakıdan gələn, təzə hökumətdən daha nə söyləyir? Bu yenə padşah hökumətidir, ya başqa bir şeydir?

O ğ l a n . Xeyr, axund, bu hökumətə Şura hökuməti deyirlər. (*Camaat arasında səslər: Şura hökuməti, Şura hökuməti!)* Bu hökumətin qoşunu da, nun sözünə görə, padşah qoşununa bənzəmir. Deyir: saldatlar böyüklərinə və böyüklər saldatlara yoldaş deyirlər. Deyir: bu saat Bakıda hamı bir-birinə yoldaş deyir. Saldatların başlarında şapka yoxdur, papaqları əzgil çeşnisindədir və alınlarında da beşguşəli ulduz var.

M o l l a V ə l i . Sədəqə ya rəsulallah, sədəqə ya rəsulallah! Həzərat, hədisdə buyururlar ki, bir zaman gələcək, camaat dindən, imandan, ruhanilərdən uzaqlaşacaq. O zaman dəccal zühur edəcək və xalq dini, imanı unudub onun dalınca gedəcək. Yazırlar ki, dəccalın qoşunlarının alınlarında bircə gözləri olacaq. Bu haman beşguşəli ulduzdur ki, buyurublar və illahi insan bir gözlü olmaz. Amandır, camaat, dini, məzhəbi, imanı unudub bu dəccal qoşunun dalına düşməyin. Sonra peşmanlıq yerini almaz.

C a m a a t a r a s ı n d a s ə s . Mirzə Həsən gəlir! Mirzə Həsən gəlir! Görək bu işə o nə deyəcək.

M i r z ə H ə s ə n (*daxil olub, çıxır çarpayının üstünə*). Camaat! Bakıdan işçi-kəndli hökumətinin qurulmasının xəbəri bu gün buraya da çatdı. Mən eşitdim ki, siz Qaraqullar xalqı kimi ağlınızı uduzub, buradakı varlıların evlərini, mallarını talan eləmək istəyirsiniz. Qaraqullar böyük səhv eləyiblər, onlar öz əlləri ilə öz mallarını dağıdırlar. Doğrudur, təzə hökumətin qanuna görə varlıların əllərindəki dövlət, mal gərək camaata verilsin, amma bu da qol zoru ilə, gücnən, güclükdə olmaz, qanun üzrə olar. Zorla ev dağıtmağı, mal dağıtmağa heç bir hökumət qəbul etməz, xüsusən, Şura hökuməti. Gedin, sakit əyləşin evlərinizdə. Bu günlərdə hökumət tərəfindən adamlar gəlib, necə ki lazımdır tədbirlər edərlər və qanun üzrə də varlıların əllərindəki maləmlakı camaat ixtiyarına verərlər.

B i r i n c i k ə n d l i . Sağ olsun Mirzə Həsən! Ağıllı söz deyir. Camaat, dağılın gedək evlərimizə.

M i r z ə H ə s ə n. Ancaq gözətçi qoymalısınız ki, Hacı Bayram və o biri hampalar kənara mal qaçırmasınlar. Burada bir neçə adam təyin etməlisiniz.

B i r i n c i k ə n d l i . Biz sənə inanırıq, hər kəsi sən təyin etsən, biz razıyıq.

M i r z ə H ə s ə n. Çox yaxşı. Biri Səfi, biri Səfər oğlu Cabbar, biri

Dünyamalı, biri Şeyxalı, biri Rəhim, biri də İsrafil oğlu Salman, hamınızdan yoxsul Salman olduğundan, onu seçilənlərə başçı təyin eləyirəm.

S ə s l ə r . Razıyıq, razıyıq!

R ə h i m. Mirzə Həsən, burada Salmanın adını dəyişib Koroğlu qoyublar.

S a l m a n . Mənə bundan sonra hamı Koroğlu desin

M i r z ə H ə s ə n. Yaxşı, sənin adın oldu Koroğlu. Ümidvaram ki, Şura hökumətinin yolunda Koroğlu kimi hünər göstərəcəksən.

S a l m a n . Mən Şura hökumətinin yolunda hər dəqiqə ölməyə hazıram.

B i r i n c i k ə n d l i . Ay sağ ol, Koroğlu!

M i r z ə H ə s ə n. Di dağılın, gedin evlərinizə. Seçilən adamlar da işlərində olsunlar.

S a l m a n (*Mirzə Həsənə*). Mirzə, camaata bir sözüm var.

M i r z ə H ə s ə n. Çıx buraya, mənim yanıma. Bu sənin birinci çıxışın olsun.

S a l m a n (*çıxır çarpayının üstünə*). Camaat! Sizin aranızda Molla Vəli kimi ara qarışdİranlar var. Hampaların uşaqları, həmçinin oğru, dələduzlar var ki, ara qarışdırıb, ciblərini doldurmağa çalışacaqlar. Ona görə kəndin sakitliyini gərək kəndin cavanları öhdələrinə götürsünlər.

B i r c a v a n o ğ l a n . Mən hamı kənd cavanları tərəfindən söz verirəm ki, kənddə necə ki lazımdır, rahat və farağatlıq gözləniləcək.

S a l m a n . Sağ ol, yoldaş. Əlavə, hampaların nökərləri, rəncbərləri, çobanları, naxırçıları və bağbanları bilsinlər ki, onlar hamısı zəhmətkeşlər balalarıdırlar və qoruduqları mal, dövlət camaatın malıdır. Gərək bir qoyunun, bir quzunun, bir qaramalın tələf olmasına yol verməsinlər.

S ə s l ə r . Sağ ol, Koroğlu, sağ ol!

S a l m a n . Di gedin evinizə, rahat oturun. Seçilənlər qalsın burada, danışıb məsləhətləşək. Mirzə Həsən də bizimlə qalsın.

M i r z ə H ə s ə n. Xub, qalaram.

Camaat dağılır.

M o l l a V ə l i (*dalca, əllərini yuxarı qovzamış gedir*). Xudaya, pərvərdigara, dindən, imandan uzaqlaşmış bəndələrini özün haqq yola dəlalət elə.

PƏRDƏ

DÖRDÜNCÜ ŞƏKİL

Molla Vəlinin evində iclas. Cəm olmuşlar: Hacı Bayram, Hacı Novruz, Məşədi Əhməd, Kərbəlayı Allahverdi və kəndin sair hampa və ağsaqqalları.

H a c ı N o v r u z (*mollaya)*. A Molla Vəli, sən, nə qədər olsa, dünya görmüş bir adamsan. Təbriz, Tehran kimi böyük şəhərlər görübsən. Neçə il Kərbəlada dərs oxuyubsan. Allahın elmindən xəbərin var. Bircə söylə görək, bu gələn hökumət necə hökumətdir? Haradan gəlib? Necə zakonlar gətiribdir?

M o l l a V ə l i . Qabaqca bir Hacı Bayram danışsın görək Qaraqullarda nə görüb, nə eşidib. Sonra mən də öz sözümü deyərəm.

S ə s l ə r . Hacı Bayram, söylə görək.

H a c ı B a y r a m . Camaat, mən gördüyümü heç kafir bəndə görməsin. Getdim gördüm yazıq Rüstəm bəyin evini camaat dörd tərəfdən bürüyüb. Qapısında nə qədər atı, malı var idi, qovub aparıblar. Qoyunların sürüsü ilə düzdən yox olub. Bəy özü bir neçə nökərlə evə girib, atışırlar. Mən daha yavuğa gedə bilmədim. Atı döndərdim Hacı Murtuzanın evinə. Gördüm kişinin rəngi qaçıb, bədəni titrəyir. Məni görəndə rəngi üzünə gəldi. Xəbər aldım: ay hacı, bu nə işdir? Dedi: nə danışım? Onu bilirəm ki, bir belə gün də mənim və sənin üçün var.

H a c ı N o v r u z . Pərvərdigara, yaratdığın bəndələrin fikrini özün çək.

M ə ş ə d i Ə h m ə d . Xalq Allahdan üz döndərib, namaz qılmaz, oruc tutmaz, Allah da göydən bəla göndərər.

M o l l a V ə l i . Qoyun kişi sözünü qurtarsın. Hacı Bayram, söylə görək axırı necə oldu?

H a c ı B a y r a m . Atışma neçə saat gedəndən sonra birdən kəsildi. Biz dedik ki, yəqin Rüstəm bəyi də öldürürdülər, külfətini də qırdılar. Sonra xəbər gəldi ki, qəflətən camaat hücumu dayandırıb, hər kəs evinə çəkildi. Səbəbini soruşdum, dedilər: sizin müəllim Mirzə Həsənin sifarişinə görə camaat atəşi dayandırdı. Ancaq kəndin neçə cavanları Rüstəm bəyin evinin ətrafında qarovulda durublar və mal-qoyunu da toplayıb beş nəfər füqəradan seçilmə vəkillərə tapşırıblar.

H a c ı N o v r u z . Yaxşı, Mirzə Həsən qotur müəllimin biri, cibində bir qəpik pulu yox, nə böyük şey olubdur ki, camaat öz ağsaqqallarını qoyub, onun ağzına baxırlar?

M o l l a V ə l i . İndi əyyam belədir. Daha ağsaqqallara qulaq verən yoxdur.

H a c ı Novruz. Vaxta ki bir Mirzə Həsənin sözü ilə camaat haqqımızda bildiyini eləyəcək, daha biz nə durub baxırıq? Vaxt ikən başımızın çarəsini qılaq.

M ə ş ə d i Ə h m ə d . Başımızın çarəsi, baş götürüb bu vilayətdən qaçmaqdır.

H a c ı N o v r u z . Yox, elə deyil. Başımızın çarəsi Mirzə Həsən kimi lotu-bambılıları, ac-gicikləri aradan götürməkdir. Cib boş, qarın boş, baş boş. Bilmirəm o nə atılıb-düşür.

M ə ş ə d i Ə h m ə d . Onu mən öhdəmə alıram.

H a c ı N o v r u z (*mollaya*). Axund, bu işə sən nə deyirsən?

M o l l a V ə l i . Mən onu deyə bilərəm ki, o mürtəddir və qanı halaldır. Onu öldürən müsəlmana behişt vacibdir.

H a c ı N o v r u z . Molla Vəli, bir de görək, bu hökumət haqqında kitabda, Quranda bir xəbər varmı?

M o l l a V ə l i . Bəli, var. Mən dünən yığıncaqda da dedim, yenə təkrar eləyə bilərəm. Bu gələnlər, bizə hədisdə xəbər verilən dəccalın qoşunudur. Onun dalınca gedənlər bidin və biimanlardır. Bunların fikri sərvətdarların əmlakını, pulunu və malını əllərindən alıb füqəraya verməkdir, çünki xalqın əksəri kasıbdır, çox adamlar müftə dövlətə susayıb cəm olacaqlar. Bizim borcumuz bunların dəfi üçün hər yolla çalışmaqdır.

K ə r b ə l a y ı A l l a h v e r d i . Camaat gərək silahlanıb bu kafir qoşununun qarşısına çıxsın.

M o l l a V ə l i . Əlbəttə lazımdır. Burada cahad vacib gəlir. Belə müharibədə ölənlər hamısı şəhid zümrəsində olacaqlar.

H a c ı N o v r u z . Bu yolda hamı gərək malından-canından keçsin.

M ə ş ə d i Ə h m ə d . Heç kəs boyun qaçırmaz.

S ə s l ə r. Hamımız bacardığımız qədər bu yolda pul qoymağa hazırıq.

K ə r b ə l a y ı A l l a h v e r d i . Cavanlara etibar yoxdur. Onların hamısı

M i r z ə H ə s ə nin özü ilə durub-otururlar.

H a c ı N o v r u z . Cavanlar hamısı axmaq deyillər. Mən özüm iki oğlumla boynuma kəfən salıb gedərəm.

M o l l a V ə l i . Mən moizə elərəm, nəsihət elərəm. Hamı yekdil, yekcəhət bu yolda qan tökməyə amadə olar.

M ə ş ə d i Ə h m ə d . Kərbəlayı Allahverdi doğru söz deyir, cavanlara bel bağlamaq çətİndir. Onlar bizim kimi ağsaqqalları, axund kimi alimləri buraxıb gedib Mirzə Həsən kimi boşboğazların sözünə baxacaqlar.

M o l l a (*Məşədi Əhmədə*). Mirzə Həsənin haqqında fikir çəkməyi İndi özün öhdənə aldın.

M ə ş ə d i Ə h m ə d . Almışam, sözümün də üstündə duracağam.

Mo l l a Və l i v ə q a l a n l a r ı . Çox gözəl, çox gözəl!

H a c ı N o v r u z . Sabahdan camaatın arasına adam salıb, qüvvət hazır eləməlidir. Söz lazım olan yerdə söz, pul lazım olan yerdə gərək pul müzayiqə olunmasın.

M ə ş ə d i Ə h m ə d . Hacı Bayram, sən niyə bir söz demirsən?

H a c ı B a y r a m . Siz öz işinizdə olun, mən danışacağım vaxtı bilirəm.

M o l l a V ə l i . Camaatı başa salmalısınız ki, təzə hökumətin qərarına görə, bizim arvadlarımız hamısı rus arvadları kimi başlarını açsınlar. Qızlar oğlanlarla gedib məktəblərdə dərs oxusunlar.

K ə r b ə l a y ı A l l a h v e r d i . Bu biabırçılığı kimin namusu qəbul edə bilər?

S ə s l ə r . Hamımız qırılmağa hazırıq.

M o l l a V ə l i . Xudavəndi-aləmdən sizin bu gözəl iqdamatınıza tofiq istəyirəm. Amin ya rəbbülaləmin.

PƏRDƏ

BEŞİNCİ ŞƏKİL

Kənd idarəsi qırmızı bayraqla bəzənmiş. Xalq, cavan və qoca, idarənin qarşısında toplaşmış. İdarənin qabağında qırmızı örtüklü bir masa və bir neçə sandalya qoyulmuş.

B i r i n c i k ə n d l i (*yanındakına*). Ay Səfiqulu, bu şəhərdən gələn, hər kəs isə, gərək çox böyük adam olsun.

S ə f i q u l u . Bunu, deyirlər, lap içəridən göndəriblər ki, camaata təzə hökumətin zakonunu öyrətsin.

B i r i n c i k ə n d l i . Keçmişdə kəndə pristav gələrdi, naçalnik gələrdi, heç divanxanaya bayraq vurmazdılar.

S ə f i q u l u . Odur Koroğlu keçir. Bir onu buraya çağır. O çox içəriyə girib-çıxır. O, bizə dürüst xəbər verər.

B i r i n c i k ə n d l i . Ay Koroğlu, bir bəri gəl, sözüm var. Koroğlu (*gəlir*). Nə deyirsən?

B i r i n c i k ə n d l i . Bircə de görüm bu gələn adam kİmdir ki, onun gəlməyinə görə buraları belə bəzəyibsiniz? Bizi buraya nə üçün çağırıbsınız?

K o r o ğ l u . Bu yoldaş Bakıdan gəlibdir ki, təzə hökumətin qanununu camaata bildirsin və əlavə kənd şurası və idarəsi haqqında lazım olan qanunları camaata öyrətsin.

S ə f i q u l u (*Koroğluya*). Yavaş görüm, o necə yoldaşdır, kimin yoldaşıdır?

K o r o ğ l u (*gülür*). Mənim, sənin, onun, hamının yoldaşı. Təzə hökumətin nəzərində böyük, kiçik yoxdur, hamı yoldaşdır. Tələsirəm, işim var, indi yoldaş çıxar, hər bir iş aydınlaşar. (*Gedir.*)

B i r i n c i k ə n d l i . Səfiqulu, bir şey başa düşdün?

S ə f i q u l u . Heç bir şey başa düşmədim. H ökumətdə, görmüşük, biri ağa olar, biri nökər, biri bəy, xan, ya padşah olar, qalanı rəiyyət.

Yoldaş nədir? Hökumət adamından da yoldaş olarmı? Heç zad başa düşmürəm.

B i r i n c i k ə n d l i . Dayan, axırını gözləyək.

İdarənin qapısı açılır. Içəridən neçə nəfər həyətə çıxırlar. Sədarət sandalyasında Koroğlu əyləşir, qalanları da iki tərəfdən əyləşirlər.

K o r o ğ l u (*ayağa durub, əl çalır*). Yoldaşlar! (*Hamı sakit olur.*) Bu gün təzə hökumətimizin, Şura hökumətinin vəkilləri bizim kəndə təşrif gətiriblər. Onların, bizim İndiyədək bəylər, xanlar, dövlətli hacılar ayaqları altında tapdalanan kəndimizə gəlmələrini ürəkdən alqışlayıb deyirik: yaşasın Şura hökuməti! (*Xalq əl çalır. Yoldaşlar qalxıb baş əyirlər.*) İndi söz verilir yoldaş Cavadova.

B i r i n c i k ə n d l i . Eşitdin? Cavadov! Mən dedim, yəqin təzə hökumət buraya öz yaranalarından birini göndərib. Bu ki heç hökumət adamına oxşamır, özü də müsəlman.

C a v a d o v . Yoldaşlar!

S ə f i q u l u (*birinci kəndliyə*). Danışma, görək nə deyir.

C a v a d o v . Yoldaşlar! Üç il bundan qabaq Rusiyanın işçi və kəndliləri yüz illərlə onları əsarət zəncirində saxlayan çar hökumətini yıxdılar. Bir il ondan sonra Azərbaycanda müsavat hökuməti quruldu. Siz hamınız milli hökumətin gəlməyinə şad olub bayram etdiniz. Lakin müsavat hökuməti sizin üçün çar hökumətindən bədtər oldu. O səbəbdən Azərbaycanın işçi və kəndliləri Şura hökumətini köməyə çağırdı. Şura hökuməti onların xahişini qəbul edib, Azərbaycana qoşun göndərdi.

S ə s l ə r . Yaşasın Şura hökuməti! Yaşasın işçi-kəndli hökuməti!

K o r o ğ l u . Dayanın, yoldaşlar, qoyun yoldaş Cavadov sözünü tamam eləsin.

C a v a d o v . Şura hökuməti, yoldaşlar, xalq hökumətidir. Hər şəhərin, hər kəndin əhalisi öz-özünü idarə edəcək. Siz burada etibar etdiyiniz adamlardan vəkillər seçəcəksiniz ki, onların yığıncağına kənd şurası deyəcəklər. Kənd şurası icraiyyə komitəsi seçəcək, yəni neçə nəfər seçib onlara hökumətin qətnamələrinin və qərarlarının yeridilməsini tapşıracaqlar. Beləliklə, kənd öz işlərinin həllini naçalniklərdən, pristavlardan gözləməyəcəklər, işlərini özləri həll edəcəklər.

S ə s l ə r . Yaşasın belə hökumət! Ura!..

B i r i n c i k ə n d l i (*Səfiquluya*). İndi başa düşdünmü?

S ə f i q u l u . Çox gözəl başa düşdüm. Min pristav və naçalnik bu oğlanın bir tükünə Qurban olsun.

C a v a d o v . Sizin aranızda hampa, qolçomaq kəndlilər var. Onlar da gərək camaat ayağından işləsinlər və Şura hökumətinə sədaqətlə qulluq edəcəklərinə söz versinlər. Bunu da bilsinlər ki, Şura hökuməti xainlərlə amansız rəftar edəcəkdir.

H a c ı B a y r a m (*camaat arasından ayrılıb, irəli gəlir*). Cənab vəkil...

C a v a d o v . Burada cənab-mənab yoxdur. Hamı yoldaş, hamı qardaşdır.

H a c ı B a y r a m . Yoldaş vəkil, söylədiyiniz hampaların biri mənəm və məndən savayı da bir neçə nəfər var. Mən hamının tərəfindən vəkil olub deyirəm ki, malımızı, mülkümüzü Şura hökumətinə Qurban verib, canımız çıxanadək hökumətə doğruluqla qulluq eləməyi vəd edirik.

B i r i n c i k ə n d l i (*Səfiquluya*). Eşidirsən nə şirin dillər tökür?

C a v a d o v (*Hacı Bayrama*). Siz camaatın öz malını özünə qaytarırsınız, hökumətə minnət qoya bilməzsiniz. Siz dövləti həmin kəndlilərin zəhmətindən qazanırsınız.

H a c ı B a y r a m . Bəli, belədir, ağa. Düz buyurursunuz.

C a v a d o v . Ağa demə, yoldaş de.

H a c ı B a y r a m . Bağışlayın, yoldaş. Gözümüzü açıb hökumət adamlarına ağa demişik, dilimiz öyrənibdir.

C a v a d o v . İndi də diliniz belə öyrənsin. Mən ürəkdən istəyirəm ki, sənin və yoldaşlarının vədləri sidqi-dildən olsun.

H a c ı B a y r a m . Sidqi-dildən!

C a v a d o v . Yoldaşlar! Daha Şura hökumətinin nə olduğunu və nə məqsədlə gəldiyini anladınız?

S ə s l ə r . Çox gözəl anladıq. Sağ olun. Yaşasın Şura hökuməti! Ura! Ura!..

B i r i n c i k ə n d l i (*Cavadova*). Yoldaş, mən də bir söz deyə bilərəmmi?

C a v a d o v. Çox yaxşı deyərsən.

B i r i n c i k ə n d l i . Camaat! Yoldaşlar! Bizim indiyədək qazandıqlarımızın hamısı Hacı Bayram, Hacı Novruz, Məşədi Əhməd ağa kimi adamların ciblərinə dolubdur. Bu kənddə və ətraf kəndlərdə az adam tapılar ki, onlara borclu olmasın. Hacı Bayram, doğrudur, burada söz verdi. Amma mən imanım, mən atamın goru, bu sözlər ürəkdən deyildi. O, malının, dövlətinin fikrindən gecələr yata bilməyəcək. Ona görə də onun sözünün, vədələrinin dürüst olmasını yəqin eləməyincə onla-

rı kənd seçkisinə yavuq qoymaq olmaz. İndiyədək camaat onlara baş əyib, indi də onlar camaata baş əysinlər.

S ə s l ə r . Doğrudur, doğrudur!

C a v a d o v . Bu sizin öz işinizdir. Əlbəttə, etibar eləmədiyiniz adamları camaat işlərinə buraxmazsınız. Yoldaşlar! Şura hökumətinin müvəffəqiyyətlə yeriməsinə vacib səbəblərdən biri də savaddır. Azərbaycanda hər yüz adamdan ancaq ikisinin savadı var, doxsan səkkizi savadsızdır. Şura hökuməti heç vədə bunu qəbul edə bilməz. Gərək məmləkətdə bir nəfər də bisavad kişi və qadın olmasın. Bu saat burada yeddi kəndin bir məktəbi var, o da rus məktəbi. Şura hökuməti hər kənddə məktəb açacaq. Böyük kəndlərdə iki-üç məktəb açıb. Şura hökumətini yaradan və onun başında duran Leninin əmrinə görə bu məktəblərdə şagirdlər öz ana dillərində dərs oxuyacaqlar. Savadsız kor məqamındadır və köhnə hökumətlər camaatı avamlıqda və korluqda saxlayıblar. Şura hökuməti bunu qəbul edə bilməz. Daha, yoldaşlar, mən sözümü qurtardım. Burada mənimlə gələn yoldaşlardan birisi qalıb, yoldaş Koroğlu ilə bir yerdə kənd şurası seçkisini aparacaqlar. Hər bir çətinliyi onlardan xəbər ala bilərsiniz. Daha sağ olun. Yaşasın Azərbaycanın işçi və kəndliləri!

S ə s l ə r . Yaşasın Şura hökuməti! Ura!.. Ura!..

Məktəb uşaqları əllərində balaca qırmızı bayraqlar, qabaqlarında

M i r z ə H ə s ə n, səhnəyə daxil olurlar.

Mirzə H ə s ə n. Yoldaşlar!

S ə f i q u l u . Baho! Bu da “yoldaşlar” deyir. İndiyədək dinmirdi.

M i r z ə H ə s ə n. Yoldaşlar! Sizin məktəbdə oxuyan balalarınız Şura hökumətini təbrik etməyə gəlmişlər. Onlar deyirlər ki, biz məktəbə ancaq üç sənə oxuyub çıxandan sonra xalqa bir fayda verə bilmərik. Çünki savadımız az olur. Biz bundan sonra yeddi il və daha çox oxumaq istəyirik.

C a v a d o v. Yoldaş müəllim! Balaları təmin eləyin ki, Şura hökuməti məktəblərdə mükəmməl təlim və savad verməsə, vəzifəsini ifa etməmiş olur.

M i r z ə H ə s ə n. Bu mənim yəqinİmdir.

B i r u ş a q . Biz məktəb uşaqları vəd edirik ki, yaxşı oxuyaq və bizim əziz atamız Lenin göstərən yolla həmişə düz gedək.

Uş a q l a r ı n h a m ı s ı . Ura!.. Ura!..

C a v a d o v (*uşağı öpür*). Barakallah! Siz Şura hökumətinin gülləri, çiçəkləri və gələcək ümidisiniz.

M i r z ə H ə s ə n (*camaata)*. Yoldaşlar! Axşamlar məktəbimizdə böyüklər üçün savad dərsi veriləcək. Xahiş edənlər gəlib türkcə oxuya bilərlər. Gərək kənddə bir nəfər də savadsız olmasın.

C a v a n l a r d a n s ə s . Gələrik, hamımız gələrik.

K o r o ğ l u . Kənd əhalisinin iclası qapandı. Hər kəs evinə gedə bilər. Sabahdan kənd şurası seçkisinə qədəm qoyacağıq. Yaşasın Şura hökuməti!

S ə s l ə r . Yaşasın Şura hökuməti! Ura!.. Ura!..

Camaat dağılır. Vəkillər içəri gedirlər. Uşaqlar dəstə ilə geri dönürlər.

M o l l a V ə l i (*Hacı Novruza*). İndi gördün ki, mən hər şeydən baxəbərəm? Camaatın noxtasını verəcəklər kor İsrafilin oğlu kimi itqurdun əlinə və arvadlarınızın hamısını da fahişə edəcəklər.

H a c ı N o v r u z . Gedək, Allah kərİmdir. Bunlar saydıqları dursun, görək fələk nə sayıbdır.

M o l l a V ə l i (*əllərini yuxarı qovzayır*). Xudaya, pərvərdigara, özün yaratdığın bəndələrini şeytan şərindən mühafizə elə!

PƏRDƏ

ALTİNCİ ŞƏKİL

Molla Vəlinin evində iclas. Əyləşənlər: Hacı Bayram, Hacı Novruz, Məşədi Əhməd, Kərbəlayı Allahverdi və s. kulaklar.

M o l l a V ə l i . Camaat, mən sizə deyəndə ki, bu gələn hökumət dəccal hökumətidir, inanmırdınız. İndi gözlərinizlə görüb, qulaqlarınızla eşidirsiniz. Deyirlər gərək hamı oxusun, qızlar, oğlanlar bir-birinə qarışıb məktəbə getsinlər. Bunun nəticəsini anlayırsınızmı? Bir nəfər namusu olan belə təklifi qəbul edə bilərmi?

H a c ı N o v r u z . Axund, and olsun oxuduğun Qurana və atamın goruna, mənim, ayıb olmasın, iki qızım var, ikisinin də başını it qibləsinə kəsərəm, amma oğlanlarla bir yerdə məktəbə göndərmərəm.

K ə r b ə l a y ı A l l a h v e r d i . Kim göndərər ki? Xalq məgər namusdan keçibdir?

M o l l a V ə l i . Bunun qarşısında tədbir lazımdır.

K ə r b ə l a y ı A l l a h v e r d i . Ay axund, yenə bu işlərdə hamımızdan çox bilən sənsən. Allahın əmrini, peyğəmbərin şəriətini bilirsən. Necə ki Allah buyurur, elə də bizə yol göstər, biz də o yolla gedək.

M o l l a V ə l i . Yol aydındır. Şəriət demir ki, xalq elm öyrənməsin, övladını oxutmasın. Ancaq elm də var, elm də var. Elm Allahın elmidir, islam dininin üsuludur, elm xalqın düz şəkkiyyat və səhviyyatını öyrənməsidir. Yoxsa müəllim Mirzə Həsən öyrədənə elm deməzlər: Yer göyün başına belə dolanır, ayın tutulması yerin gün ilə ayın arasına girməsindəndir. Nə bilim, insan meymundan əmələ gəlib... Belə-belə cəfəngiyatın adını elm qoyublar. Oruc bilməzlər, namaz bilməzlər, təharət tanımazlar. Istəyirlər camaatın balaların da özləri kimi kafir eləsinlər.

H a c ı N o v r u z . Heç kəs bunu qəbul eləməz.

M ə ş ə d i Ə h m ə d . Ay canım, bilmirəm bu məktəb məsələsi nə idi axund saldı ortalığa. Canım, hər kəs öz uşağının sahibidir. Kefi istər uşağını məktəbə göndərər, istəməz göndərməz. Kimin nə ixtiyarı var gəlib mənim uşağımı zorla tutub oxutmağa aparsın?

M o l l a V ə l i . Bu gün-sabah onu da eləyəcəklər.

M ə ş ə d i Ə h m ə d . Heç kəs mənim qapıma da dolana bilməz. Bu işlər asandır. Buna nə deyirsiniz ki, budur bizim var-yoxumuzu hesaba götürüblər, adımızı oğru qoyublar. Deyirlər siz dövləti camaatın zəhmətlərindən qazanıbsınız. Ona görə sizin var-yoxunuz camaatındır, gərək qaytarıb camaata verəsiniz. Mənim gözüm baxa-baxa kor İsrafilin oğlu mənim var-yoxuma sahiblik eləsin? Məgər bunu Allah götürər?

H a c ı N o v r u z . Xalq mənim üçün müftə, atası ehsanına işləməyibdir. Cığ-cığa əsginazlar vermişəm, sarı qızıllar sayıb işlətmişəm. Mən nə vaxt camaata yalvarmışam ki, gəlib mənim üçün işləsinlər, mən də pul qazanıb doldurum cibimə?

M ə ş ə d i Ə h m ə d . Məni yandİran bir şeydir. Əlimlə çörək verdiklərim gəlib mənim bədimə getdilər. Məni çağırıb soruşurlar ki, neçə qoyunun, neçə malın-atın var? Mən də azda-çoxdan hesab verdim. Bu halda, – siz Allah, tamaşa eləyin, danışanda canım od tutub alışır, – bu halda çobanım ortalığa atılıb mənim mal-qaramın hesabını verir. Ax, a zalım oğlu! Əlbət bir də müsavat hökuməti geri qayıdar, sənin yeddi arxa dönənlərinə od vuracağam. İndi, axund, mal, maya əldən getdi, sən bizə bir dürüst yol göstər. Yox, belə getsə, hamımız acımızdan qırılacağıq.

M o l l a V ə l i . Qabaqca acından ölənin biri mən olacağam. Mən camaatla dolanıram. Camaat da, kafirlər aldadandan sonra, kafir olub bilmərrə Allah yolundan dönəcəklər. Uşaqlar gedib Mirzə Həsənin xarabasında bir az şaltay-baltay öyrənib gələcəklər ki, – nəuzöbillah, – Allah yoxdur. Hamısı dindən uzaqlaşacaqlar.

K ə r b ə l a y ı A l l a h v e r d i . A Məşədi Əhməd, Mirzə Həsənin başdan eləməsini boynuna götürmüşdün, bəs necə oldu? İndi belə ağzı odlu danışırsan.

M ə ş ə d i Ə h m ə d . Neyləyim, nökərlərə ümid oldum, hamısı məndən üz döndərdilər. Mirzə Həsən zalım oğlu da quyruq ələ vermir.

H a c ı N o v r u z . İndi, Molla Vəli, nə tədbirin var, elə.

M o l l a V ə l i . Yol bircədir. O da xalqı gədə-güdə hökumətinin üzərinə qaldırmaq. Mənim sözdən savayı əlimdən bir şey gəlməz. Mən kəndləri dolanıb, Allahın əmrini camaata yetirərəm. Siz də gərək puldan keçəsiniz.

M ə ş ə d i Ə h m ə d . Əldə olan pulları camaata borc vermişik. O da hamısı guruldadı getdi. Daha pulu haradan verək?

H a c ı N o v r u z . Məşədi Əhməd, sən istəyirsən ki, damdan yıxılasan heç bir yerin ağrımaya. Aclıq dursun qıraqda, biz camaat arasında hörmətdən, etibardan düşmüşük. Gədə-güdə, İndiyədək bizə baş əyənlər, bizə salam da vermirlər. Guya heç bizi tanımırlar.

K ə r b ə l a y ı A l l a h v e r d i . Doğrudur, Hacı Novruz, dünən istədim dəyirmana bircə pud buğda göndərim üyünsün. Adam tapmadım. Gördüm mənim rəncbərim Cəbrayıl gedir. Çağırdım: ay Cəbrayıl, yaxşı oğlan, gəl bu bircə pud buğdanı apar dəyirmanda üyüt, gətir. Deyir: mən sənin atanın hambalı deyiləm. Sən də mənim kimi bir adamsan, boynun da mənim belimdən yoğundur. Al dalına, apar üyüt. A kişi, bu camaat necə üzüdönük olarmış!

H a c ı N o v r u z . Elə mənim də dediyim odur. Yüyürən yıxılmağına baxmaz. Bu yerdə pul lazımdır. Doğrudur, molla öz işini görəcək və camaatı da Şura hökumətinin üzünə durğuzacaq. Xırda-para mülk sahibləri hamısı bizim tərəfimizdə olacaqlar. Bəylər, mülkədarlar yatmayacaqlar.

Ancaq camaata tüfəng lazımdır, patron lazımdır. Bu da pulla olar. Belə zəlalətə düşməkdənsə biryolluq ölüb qurtarmaq məsləhətdir. Olan gedib, qoy yerdə qalan da getsin. Bəlkə ağ günə çıxaq.

H a m ı . Razıyıq. Hacı Novruz doğru deyir, var-yoxdan çıxmalıyıq.

H a c ı N o v r u z . Hacı Bayram, sən niyə danışmırsan? Məgər bizə dəyəndən sənə dəyməyib?

H a c ı B a y r a m . Mənə dəyən ziyan heç kəsə dəyməyib, üçcə min elə tək qoyunum gedibdir. Qalanını da hesaba gətirmirəm.

H a c ı N o v r u z . Elə biz də onu deyirik.

H a c ı Bayram. Mən bu yolda bir qəpik verməyəcəyəm. Özüm də əlimi ağdan qaraya vurmayıb, axırını gözləyəcəyəm.

M ə ş ə d i Ə h m ə d . Nəyin axırını?

H a c ı B a y r a m . Şura hökumətinin.

H a c ı N o v r u z . Sən, mən əlimizi yanımıza salıb oturanda, onun axırı olarmı?

H a c ı B a y r a m . Ay camaat, ahımınız dünya görmüş adamlarsınız. Bundan qabaq sərdarlar, qubernatorlar, naçalniklər görmüşük, hamısı böyük yarananlar. Adam baxanda bağrı yarılırdı. Onlar getdilər, müsavat hökuməti gəldi. İş başında bəylər, xanlar əyləşdilər ki, hər biri bir ocağın nəsli idi. İndi görün bizim hökumət kİmdir? Uçitel Mi r z ə Həsən, kor İsrafilin oğlu qotur Salman, adını da Koroğlu qoyub, mənim nökərim Əhməd. Bunlardan, canım, hökumət olmaz. Bir neçə gün ağalıq elərlər, sonra görərsən Nikolayın qoşunu daldan çıxdı, hamısını vurdu dağıtdı.

H a c ı N o v r u z . Deməli, sən bu yolda pul verməyəcəksən?

H a c ı B a y r a m . Ərz elədim ki, bir qara qəpik də verməyəcəyəm.

M o l l a V ə l i . Hacı Bayram, sən dindar, Allah bəndəsi bir adamsan. Allahın əmri ilə və peyğəmbərin şəriəti ilə Şura hökumətinin qarşısında cahad vacibdir. Sən gərək mənim xatirim üçün, ya mənim xatirim mülahizə olunmasa, oxuduğum Quran xatirəsi üçün bu yolda pul qoymaqdan boyun qaçırmayasan.

H a c ı B a y r a m . Axund, sən buyurandan sonra sənin xatirin üçün mən də bir qədər pul verərəm. Ancaq lazımsız xərcdir, çünki bu hökumət beş günlükdür.

M o l l a V ə l i . Çox razıyam, Hacı Bayram. Allah sənin imanını kamil eləsin. Deməli, həzərat, biz sabahdan işə başlayırıq. İnşallah xudavəndi-aləmin tofiqi ilə bir neçə günün içində cəmi ətrafı qaldırıb bu dəccal hökumətini məhv edərik.

H a m ı . İnşallah!

M o l l a V ə l i . Bəli. Mən dua eləyim, siz də amin deyin. Pərvərdigara, sən dini-islama qüvvət ver!

H a m ı . Amin!

M o l l a V ə l i . Xudavənda, sən bu kafirlərin qollarını, dillərini öz yədi-qüdrətinlə bağla!

H a m ı . Amin!

M o l l a V ə l i . Bu kafirlərə inananları haqq yola qaytar!

H a m ı . Amin!

M o l l a V ə l i . Bu kafirlərin dalınca gedənləri qiyamətə üzü qara gətir.

H a m ı . Amin!

M o l l a V ə l i . Bəcahi Mühəmmədin və aleh və bəhörməti surətil fatihə.

H a m ı fatihə oxuyur.

PƏRDƏ

YEDDİNCİ ŞƏKİL

Kəndin kənarında qazma. Neçə nəfər hərbilər qazmada əyləşmişlər. Bir nəfər cavan komandan, telefon qulağında, əyləşmiş. Tək-tək atışma səsi gəlir.

K o m a n d a n (*telefonla*). Deyirsən üsyançıların hesabı gəldikcə azalır? Elə isə güllə atmayın. Məqsəd xalqı qırmaq deyil, üsyanı yatırıb üsyançıları ələ gətirməkdir.

R ə h i m (*toza bulanmış daxil olur).* Yoldaş komandan, kəndimizin əhalisi, böyüklü-kiçikli, buradadırlar. Hamısı Şura yolunda ya qırılmağa, ya üsyanı yatırmağa and içmişlər.

P ə r d ə n i n d a l ı n d a n s ə s l ə r . Hamımız gedəcəyik, hamımız Şura yolunda canımızdan keçməyə hazırıq. Komandan (*gedir, səhnənin arxasında danışır*). Yoldaşlar, tələsməyin. Şurişi yatırmaq üçün Şura hökumətinin kifayət edən qədər qüvvəsi var. Bu saat üsyançılarla vuruşan əsgərlər sizin balalarınız deyillərmi, onlar da sizə hesabdırlar.

İ s r a f i l *(bir uşağın çiynindən tutmuş, daxil olur*). Komandan haradadır?

K o m a n d a n . Komandan mənəm. Sən niyə gəldin, a kişi?

İ s r a f i l . Ölməyə gəlmişəm.

K o m a n d a n . Necə ölməyə?

İ s r a f i l . Mənim gözlərim yoxdur, dava eləməyi bacarmaram. Amma Şura yolunda ölməyi mən hamıdan yaxşı bacararam.

K o m a n d a n (*Rəhimə*). Bu kişi kimdir?

R ə h i m. Bu, yoldaş Koroğlunun atasıdır.

K o m a n d a n . Dayı, bizim üçün yoldaş Koroğlu sənin yerinə kifayətdir. O sənin işini görür, odur gəlir, bir əsir də gətirir. (*Koroğlu, qolu sarınmış, iki yoldaşı ilə bir yaralını gətirirlər*.) Yoldaş Koroğlu, qolun niyə sarıqlıdır?

K o r o ğ l u . Qoluma güllə dəyib, eybi yoxdur, ziyansızdır. (*Atasını görür*.) Ata, sən burada nə gəzirsən?

İ s r a f i l . Xalq canından keçib dava eləyən yerdə, mən necə evdə otura bilərəm?

K o r o ğ l u . Yox, ata, sən get evə, daha üsyançılar dağıldılar, qırılanları da az olmadı.

K o m a n d a n . Bu kişi kimdir?

K o r o ğ l u . Bunu biz yolda yıxılmış görüb gətirdik.

K o m a n d a n (k*işiyə*). A kişi, haradan yaralanıbsan?

Y a r a l ı . Q u r b a n ın olum, güllə böyrümdən dəyib.

K o m a n d a n . A kişi, sizə Şura hökumətindən nə əziyyət keçdi ki, onun üzərinə üsyan qaldırdınız?

Y a r a l ı . Nə bilim, Qurbanın olum. Səbəbin evi dağılsın. Gəldilər camaatı başdan çıxartdılar. Dedilər: təzə hökumət dul arvadların, hamısını yığıb Rusiyaya göndərəcək, məscidləri dağıdacaq, hamını rus məzhəbinə döndərəcək, məscid əvəzinə kilsə tikəcək. Qızları, oğlanları bir-birinə qarışdırıb məktəbdə oxudacaq. Daha nə bilim, çox söz dedilər.

K o m a n d a n . Bu sözləri deyən kim idi?

Y a r a l ı . Evi yıxılsın Molla Vəlinin, Hacı Novruzun, Xədicə oğlu Məşədi Əhmədin, Kərbəlayı Allahverdinin. Camaatı başdan çıxarıb qırğına verən bu zalımlar oldular.

Ko m a n d a n . Hacı Bayram oralarda yox idi?

Ya r a l ı . Yox, başına dönüm. Hacı Bayram heç yerdə görünmürdü.

İ s r a f i l . Oğul, Hacı Bayramı məndən soruş. Hacı Bayram qarışıqlıq düşdüyünü eşidib, evini, eşiyini Mahmuda tapşırıb, bircə qızını tərkinə alıb Kəbirli mahalına tərəf qaçdı. Deyirmiş ki, mən Şura hökuməti ilə dava eləməyəcəyəm.

K o m a n d a n . Daha niyə qaçır?

İ s r a f i l . Deyirlər, o biri qolçomaqlar ona rahatlıq verməyirmişlər. Deyirmişlər, gərək üsyançılara pul, çörək verəsən. Yoxsa külfətini qırıb, evini odlayacağıq. O da başını götürüb qaçdı. Dedi: malım getdi, canım əlimdə qalsın.

K o r o ğ l u . Hacı Bayram üsyandan boyun qaçırdısa da, yenə onunla ehtiyatlı dolanmalı. Onun ürəyi bizimlə düz səriməz.

Telefon səslənir.

K o m a n d a n (*telefonu götürür*). Kimdir? Yoldaş Koroğlu, səni çağırırlar.

K o r o ğ l u (*telefonu götürür)*. Kimdir? Yoldaş Məhərrəm, sənsən? (*Komandan*a) Mənim dəstəmin başçısıdır. (T*elefonla*) Nə xəbər var, söylə. Afərin, çox sağ ol. Böyük igidlik eləyibsiniz. Tutulanları göndərdiniz? Çox gözəl. Hacı Novruz öldü? Bu saat çaparaq gəlirəm.

K o m a n d a n . Nə xəbərdir?

K o r o ğ l u . Daha üsyan qurtardı. Mənim dəstəm üsyançı başçılarının yuvasını əhatə eləyib. Çox atışmadan sonra Molla Vəlini, Məşədi Əhmədi, Kərbəlayı Allahverdini ələ gətiriblər. Atəş vaxtı Hacı Novruz ölüb. Mən getdim. (*Cəld çıxır.)*

K o m a n d a n (*İsrafilə*). Dayan, oğlunun dəstəsinin qoçaqlığını eşitdin? İndi gedib evində rahat otura bilərsən.

İ s r a f i l . Gedim, sənə Qurban olum. (*Yanındakı uşağa*) Gedək, ay bala? (*Gedir.*)

Y a r a l ı (*əsgərə*). Ay bala, susuzluqdan yandım. Bir az mənə su ver. *(Əsgər su verir*.) Səbəbin evi dağılsın. (*Komandana*) Ay oğul, bir yavuğa gəl.

K o m a n d a n (*gəlir*). Nə deyirsən?

Y a r a l ı . Q u r b a n ın olum, mən ölürəm. Məni başdan çıxartdılar, bir qələt idi elədim, anlamamışam. Mənim iki oğlum sizin tərəfinizdədir. Onları gözdən qoymayın. Evin yıxılsın Molla Vəli, Hacı Novruz, Məşədi... (*Ölür*.)

K o m a n d a n . Bunu götürün bir yana qoyun.

Götürürlər.

Musiqi hərbi marş çalaraq səhnənin dalından keçir. Camaat "ura, ura" qışqırır. Koroğlu bir neçə yoldaşları ilə daxil olur, qabaqlarında Molla Vəli, Məşədi Əhməd, Kərbəlayı Allahverdi.

K o r o ğ l u . Üsyanın canları, ürəkləri bunlardır.

K o m a n d a n (*mollaya*). Molla, bir belə qana nə üçün səbəb olurdun? Bu camaat məgər yazıq deyil? Onu işindən, kasıblığından, əkinbiçinindən, bağ-bağatından avara eləyib gətirib qırğına verirsən?

M o l l a V ə l l i . Ay Qurbanın olum, mən bir yazıq mollayam. Mən nə bilirəm üsyan nədir, filan nədir. Mən heç bir işə qarışmamışam. Məni nahaq yerə tutub qollarmı bağlayırlar. Mən namazdan, orucdan, xalqa moizə, nəsihət eləməkdən savayı bir şey bacarmaram.

K o m a n d a n . Bu işləri törədən sənin moizələrin deyilmi?

K o r o ğ l u . Molla əmi, niyə birdən belə yazıq oldun? Hanı səndəki odlu dil? Bəs üsyançıların qabağında əlində yaşıl bayraq durub qışqİran kim idi? (*Bayrağı göstərir*.) Bu yaşıl bayraq kimin əlində idi?

M ə ş ə d i Ə h m ə d . Ay komandan, mən bilirəm bizi güllə qabağına qoyacaqsınız. Bizim ayrı tənbehimiz yoxdur. Bizim evimizi yıxan bu zalım Molla Vəli oldu. Bizi inandırdı ki, bu gələn dəccalın qoşunudur. Bunlarla gərək cahad olunsun. Bunlar bizim dinimizi, məzhəbimizi, dilimizi əlimizdən alıb, hamımızı özləri kimi kafir edəcəklər. Nə biləк, başına dönüm, bizlər avam, bu alim. Dedik, onun ayağı biləni bizim başımız bilmir, dalınca getdik. Nə qədər camaat tələf elədik, özümüzdə belə. (*Molla Vəliyə*) Allahın lənəti canına gəlsin, dəccal sən özünsən.

K o m a n d a n . Molla, Şura hökuməti heç kəsin dinini, məzhəbini əlindən almır. İstər Allaha qulluq elə, istər şeytana, o sənin işindir. Ancaq hökumətə və onun qanununa sədaqətlə qulluq elə. Şura hökumətinin heç kəsin dili ilə işi yoxdur. Şura hökumətinin qanununa görə hər millət savadı öz ana dilində öyrənməlidir. Bunu da bil. İndi görürsənmi nə böyük cinayət törədibsən?

M o l l a V ə l i . Qələt eləmişəm, Qurban olum, bilməmişəm. Məni Şura hökumətinin başına çevir.

K o m a n d a n . Sizin işinizə hərbi məhkəmə baxıb, qərar çıxaracaq. Nə sözünüz var orada danışarsınız. Aparın bunları. (*Əsirləri aparırlar*.) Yoldaş Koroğlu, sağ ol. Sənin dəstən bu canavarları tutmaqda böyük fəaliyyət göstərdi.

K o r o ğ l u . Bu yerdə müəllim Mirzə Həsənin qulluğu az deyil. Üsyan edən kəndlərin cavanlarının çox yarısını üsyandan qaytaran onun nəsihətləri oldu. Sağ olsun. Bundan sonra kənd cavanları arasında təbliğat aparıb, möhkəm komsomol dəstəsi düzəltmək vacibdir.

K o m a n d a n . Hər kənddə məktəb açmaq lazımdır ki, kəndlilərin balaları oxuyub, gözüaçıq olsunlar və Molla Vəli kimi şeytanların dalınca getməsinlər.

K o r o ğ l u . Əlbəttə, maarif işləri başında Mirzə Həsəni qoyarıq, həvəslə iş aparar.

K o m a n d a n . Bu sizin ispolkomun işidir. Yenə çox sağ ol! (*Əlini sıxır. Əsgərlərə)* Yoldaşlar, çağ olun!

Əsgərlər (*bir səslə*). Zəhmətkeş xalq üçün işləməyə hazırıq!

PƏRDƏ

SƏKKİZİNCİ ŞƏKİL

Kənd idarəsinin qarşısında qırmızı örtüklü masa qoyulmuş. Masanın dalında əyləşənlər: Mirzə Həsən, Koroğlu, Rəhim və bir neçə ispolkom üzvləri. Skamyalarda qoca, cavan kəndlilər, komsomolçu qız və oğlanlar əyləşiblər.

K o r o ğ l u (*ayağa durur*). Yoldaşlar! Dumanlı kənd camaatının ümumi iclasını açıq elan edirəm. Müzakirəyə qoyulan iki məsələdir: biri kənd təsərrüfatının ümumiləşməsi və o birisi plan üzrə pambıq əkilməsi. Başqa bir məsələ təklif edən yoxdur?

S ə s l ə r . Xeyr, yoxdur.

K o r o ğ l u . Məsələ qəbul olundu. Keçək birinci məsələyə. Yoldaşlar, budur, neçə sənədir ki, Azərbaycanın əhalisi, o cümlədən bizim kəndin əhalisi Şura hökumətinin sayəsində rahat yaşamaqdadır. Bu neçə sənədə hökumətimiz çox zəhmət, mübarizələrdən sonra böyük nailiyyətə çatıb və əhali rahat öz kasıblığına məşğuldur. Bu sənələrin ərzində neçə üsyanlar yatırılıb. Doğrudur, İndi də aramızda tək-tük ziyançılar tapılır. Məsələn, dünən bizim kəndə göndərilmiş pambıq toxumuna neft töküb odlamaq istəyən iki nəfər xuliqan, komsomollarımız tərəfindən tutulmuşdur.

B i r n ə f ə r k ə n d l i . Onların özlərinə neft vurub odlanılmalıdır ki, od vurmağın ləzzətini öyrənsinlər.

K o r o ğ l u . Söz yox ki, onlar cəzalarına çatacaqlar. Ancaq əclaflar çiyid yandırmaqla, əkin-biçin maşınlarını sındırmaqla Şura hökumətini yıxmaq istəyirlərsə, səhv etmiş olurlar. Buna "dəvəçiyə it hürməsi" deyirlər. Yoldaşlar, bəylərin, mülkədarların və qolçomaqların yerləri hamısı xalqın malı olubdur. Kəndimizdə nə qədər yersiz füqəra var idi ki, nökərçilik, muzdurçuluqla baş saxlayırdılar, İndi hamısı yer sahibi olmuşlar. Vaxta ki əmlak hamısı kəndlilərin əlindədir, bu əmlakdan

kəndlilər hamısı birləşib, birlikdə becərib nəfibərdar olmaları xeyli mənfəətli və yaxşı nəticəli görünür. Bu barədə camaatın rəyini bilmək istəyirik. Hər kəs danışmaq istəyirsə danışa bilər.

S ə f i q u l u . Mən söz istəyirəm.

K o r o ğ l u . Söz yoldaş Səfiquluya verilir.

S ə f i q u l u . Yoldaşlar! Əgər biz desək ki, Şura hökuməti ki, işçikəndli hökumətidir, bizim xeyrimizə çalışmayır, yalan və böhtan demiş oluruq. Biz keçmişdə görmüşük ki, üç ev bir qazana möhtac idi. Bunu da görürük ki, hər kəndlinin özünün bir rahatlığı var. Şura hökuməti bizə birləşməklə mülk becərməni təklif edirsə, yəqin bizim xeyrimizi nəzərdə tutur. Ona görə mən güman edirəm ki, burada təsərrüfat ümumiləşdirməyin əksinə gedən olmasın.

B i r n ə f ə r k ə n d l i . Biz hamımız ümumiləşməyə hazırıq. İstəməyən özü bilər.

İ k i n c i k ə n d l i . Yoldaş Koroğlu, biz üç nəfər burada oturmuşuq. Hacatımız və heyvanımız da var. Mümkündür ki, biz camaata qarışmayıb, hər kəs təklikdə yerimizi becərək və məhsulumuzu da yenə xalq kimi hökumətə sataq. Necə ki, İndiyədək satmışıq.

K o r o ğ l u . Yoldaş, ümumiləşmək məcburi deyil. Məcburi olsaydı, sizi buraya çağırmazdılar. Ancaq ümumiləşmənin böyük faydası var. Siz ki, istəyirsiniz təklikdə işləyəsiniz, bir-iki ildən sonra ümumiləşməyin faydasını anlayıb, gəlib xalqa qarışacaqsınız.

S ə s l ə r . Yaxşı işdir. Şura hökuməti məsləhətsiz işi təklif eləməz. Hamımız razıyıq.

M i r z ə H ə s ə n. Yoldaş Koroğlu, mənə söz verin.

K o r o ğ l u . Söz verilir yoldaş müəllim Mirzə Həsənə.

M i r z ə H ə s ə n (*durur*). Yoldaşlar, budur neçə sənədir ki, mən sizin kəndinizdə müəllimlik eləyirəm. İndiyədək məndən bir xəyanət görübsünüzmü?

S ə s l ə r . Yox, yox... Yaşasın əziz müəllimimiz Mirzə Həsən!

M i r z ə H ə s ə n. Yoldaşlar, Şuralar Ittifaqının hər yerlərində kənd təsərrüfatı ümumiləşmiş və bundan da həm camaat, həm hökumət üçün böyük faydalar hasil olur. Hökumət sizə toxum verəcək, lazım olsa, istəsəniz pul və mal da verəcək. Siz yerlərinizi indiyədək öküz gücü ilə əkirdiniz. Bundan sonra traktor adlanan maşının zoru ilə əkəcəksiniz. Öküzlə iki gündə bir hektar yer əkirsiniz. Traktorla bir hektarı iki saatda əkəcəksiniz və bu yerdə sizə kömək edən sizin öz balala-

rınız olacaq. Keçmiş zamanda uşaqlarınız üç il oxuduqdan sonra məktəbdən buraxılırdılar. Buraxılanlar həm savadsız olurdular və həm də kənd işlərinə yaramırdılar. İndi isə uşaqlarınız yeddi il oxuduqdan sonra gedib iki il də sənət öyrənirlər. Əkinçilik işlərində də mahirləşirlər və işləmək üçün də kəndə qayıdırlar. Biri İsrafil oğlu İmran, məktəbi qurtardıqdan sonra slesarlıq öyrənib gəlmiş.

S ə s l ə r . Sağ olsun, sağ olsun!

İ m r a n . Yoldaşlar, bu günlərdə burada bir böyük emalatxana açılacaq. Orada mən və bir neçə yoldaşlarım hacatların təmirinə məşğul olacağıq. Kotanın sındı, biçin maşınımı, arabamı sındı, hamısı orda düzəldilib təzədən işə salınacaq. Daha keçmişlər kimi bir sınıq kotanı otuz-qırx verst həftəbazarına aparmayacaqsınız. Hamı sınıq-söküklər kəndinizin içərisində düzələcəkdir. Bunların hamısı Şura hökumətinin camaatın rahatlığı yolunda çalışmasıdır.

S ə s l ə r . Yaşasın Şura hökuməti!

M i r z ə H ə s ə n. Yoldaşlar, mən sözümü qurtarmadım. Şura hökuməti işçi-kəndlilərin hökumətidir. Onun hər bir tədbirləri işçi və kəndlilərin səlahi yolundadır. Ona görə Şura hökumətinin təkliflərini ürəkdən yekdil, yekcəhət alqışlamalıyıq.

S ə s l ə r . Hamımız razıyıq! Sağ olsun Şura hökuməti! Sağ olsun Mirzə Həsən!

K o r o ğ l u . Yoldaşlar, məsələ hamı üçün aydındırmı?

S ə s l ə r . Aydındır, aydındır.

K o r o ğ l u . Ümumiləşmək istəyənlər bu gün iclasdan sonra idarədə adlarını yazdırsınlar.

S ə s l ə r . Baş üstə. Baş üstə.

K o r o ğ l u . İndi keçək ikinci məsələyə. Yoldaşlar, siz bilirsiniz ki, bundan əqdəm Rusiyada böyük fabriklər və zavodlar var idi. Bu fabriklər çit toxumaq üçün lazım olan pambığı başqa vilayətlərdən gətirirdi, çünki məmləkətdə bitən pambıq fabriklərin ehtiyacatının yüzdən birini ödəmirdi. Hökumətimiz, işçi-kəndli hökuməti olduğundan, pul da işçi-kəndlinin puludur. Hökumət xalqın qızıllarını aparıb əcnəbilərin ciblərinə doldurub pambıq gətirməyi istəmir. Ona görə hökumətimizin səyi ilbəil pambıq əkininin qədərini artırıb ölkəmizdəki fabriklər üçün kifayət edən qədər pambığı ölkəmizdə əkdirməkdir. Plan üzrə bizim kənd gərək səkkiz yüz əlli hektar pambıq əksin. Bunu siz bacara biləcəksiniz, ya yox?

C a v a n l a r . Bacararıq, bacararıq!

Qoca kəndli. Yoldaş Koroğlu, izin ver, bir söz də mən deyim.

K o r o ğ l u . Buyur, buyur.

Q o c a k ə n d l i . Yoldaş Koroğlu, Şura hökumətinin xahişlərinə əməl etməyə və yolunda canımızdan da keçməyə hazırıq. Ancaq səkkiz yüz əlli hektar pambıq əkməyə bizim gücümüz çatmaz. Bunun yarısını əkə bilsək, böyük hünər eləmiş olarıq. Bir nəfər komsomolçu. Yoldaş Koroğlu, mənə söz verin!

K o r o ğ l u . Buyur.

K o m s o m o l ç u . Mənim bir təklifim var. Hökumətin qərarına görə biz səkkiz yüz əlli hektar pambıq əkməliyik. Bu plana qarşı olaraq mən min iki yüz hektar pambıq əkilməsini təklif edirəm.

Yığıncaqda hərəkət.

K o m s o m o l ç u l a r (*əl çalırlar*). Sağ ol, sağ ol... Min iki yüz hektar!

S ə s l ə r . Razıyıq, razıyıq!

Q o c a k ə n d l i . Canım, boş qışqırmağın yeri yoxdur... Yorğanınıza görə ayaqlarınızı uzadın. Gücünüz çatmayan işə nə üçün girişirsiniz?

K o m s o m o l ç u . Əkərik, görərsən. Biz cavanlar hamımız işləyəcəyik. Kəndin cavan oğlanları və qızları hamısı köməyə gələcəklər.

K o m s o m o l ç u q ı z . Hamımız hava gələcəyik. Lazım olsa gecələr də işləyəcəyik.

K o m s o m o l ç u . Lazım olsa sair yerlərdən də komsomolçu yoldaşları köməyə çağıracağıq.

K o r o ğ l u . Yoldaşlar, mən iki təklifi səsə qoyuram. Səkkiz yüz əlli və ya min iki yüz hektarmı? Hər kim min iki yüz hektarın tərəfdarıdır, əlini qaldırsın. *(Bir neçə adamdan savayı hamı əllərini qaldırır.)* Əksəriyyətlə qəbul olundu. İkinci təklifin səsə qoyulmasına ehtiyac yoxdur. (*Camaat əl çalır.*) Yoldaşlar, hər bir ehtiyatımız hazırdır. Sabahdan işə girişilməlidir.

S ə s l ə r . Hazırıq, hazırıq.

Əl çalırlar.

K o r o ğ l u . İclası qapalı elan edirəm.

PƏRDƏ

DOQQUZUNCU ŞƏKİL

FİNAL

Səhnə pambıq tarlasını təsvir edir. Göz işlədikcə pambıq görünür.

Q a r o v u l ç u (*daş üstündə əyləşib oxuyur*):

Yaz gələndə şum elərik düzləri,
Ağ dərya tək pambıq tutar hər yeri.
Çıxsın düşmənlərin canı, gözləri,
Yaşa şuram, yaşa şuram, çox yaşa!

Fabriklərə axar pambıq selləri,
Mal toxunar, bəzəndirər elləri.
Sınsın düşmənlərimizin belləri,
Yaşa şuram, yaşa şuram, çox yaşa!

Qara dəryadır neftimiz, qazılar,
Tərifimiz dəftərlərə yazılar.
Düşmənlərin yazdıqları pozular,
Yaşa şuram, yaşa şuram, çox yaşa!

Açılıbdır məktəblərin qapısı,
Savadlanar kəndlilərin hamısı.
Deyər sənə hər kimin var namusu,
Yaşa şuram, yaşa şuram, çox yaşa!

H a c ı B a y r a m (*daxil olur*). A gədə, burada oturub nə oxuyursan?

Q a r o v u l ç u. Neyləyim, ay hacı, oturmuşam, pambığın qarovulunu çəkirəm, kefim gəlir oxuyuram. Bircə tamaşa elə, düz-dünyanı pambıq başına götürüb. Baxdıqca ürəyim bir belə (*əli ilə göstərir*) olur, şadlığımdan oxuyuram.

H a c ı B a y r a m. Pambığı kimdən qoruyursan?

Q a r o v u l ç u. Kimdən qoruyacağam: atdan, maldan, qoyundan, ulaqdan, kulakdan. (*Oxuyur)* :

Yaşa şuram, yaşa şuram, çox yaşa!

H a c ı B a y r a m . Oxu, oxu! Oxumalı günlərdir.

Q a r o v u l ç u . Əlbəttə oxumalı gündür. Mənim atam öləndə ağız pambığı üçün həftəbazarına adam göndərdik. İndi görürsənmi, nə qiyamətdəyik.

Uzaqdan zurna səsi eşidilir.

H a c ı B a y r a m . O nə zurna səsidir? Kənddə toy var, nədir?

Q a r o v u l ç u . Yoxsa xəbərin yoxdur? Bu gün camaat pambıq yığımını başlayacaq. Odur kəndin camaatı, uşaqlı-böyüklü zurna-balabanla buraya gəlirlər.

H a c ı B a y r a m . Yaxşı bayramdır, gəlsinlər. Mən də bir dostaşnamı görüm. Neçə ildir vətənimdən xəbərim yoxdur.

Q a r o v u l ç u . Harada idin, ay hacı?

H a c ı B a y r a m . Uzaq yerlərdə idim, oğul. (Zurna səsi yaxınlaşır.) Pah, pah, tamam kənd gəlir: arvadlar, kişilər, qızlar, oğlanlar... O qabaqda gələn S a l m a n deyilmi?

Q a r o v u l ç u . Necə S a l m a n?

H a c ı B a y r a m . Kor İsrafilin oğlu.

Q a r o v u l ç u . Yoldaş Koroğlunumu deyirsən? Bizim ispolkomun sədridir, qoçaq oğlandır. Əsil Koroğludan da qoçaqdır. Bu işlər hamısı onun çalışmasındandır.

H a c ı B a y r a m . Sağ olsun, mən onu uşaq vaxtında görəndə dedim ki, bu uşağın gözlərindən kamal yağır, bunun gələcəyi yaxşı olacaq. Onun bir balaca qardaşı da var idi.

Q a r o v u l ç u . Balaca qardaşı Imran oxuyub gəlib, İndi bizim maşın-traktor stansiyasına baxır.

H a c ı B a y r a m . İsrafil dururmu?

Q a r o v u l ç u . İsrafil keçən il öldü.

Camaat, zurnaçılar qabaqda olaraq, səhnəyə gəlirlər. Komsomolçu qızlar və oğlanlar əllərində qırmızı bayraqlar, gəlib dayanırlar.

K o r o ğ l u (qabağa gəlir, zurna sakit olur). Yoldaşlar, biz öhdəmizə götürdüyümüz vəzifəni tamamilə yerinə yetirdik. Min iki yüz hektar yeri əkməyi boynumuza götürdük də, əkdik də. İndi bir vəzifə də var. Bu gündən pambıq yığımına qədəm qoyuruq. Gərək bu min iki yüz hektar yerin pambığından bir girvənkə də tələf olmasın.

K o m s o m o l ç u q ı z . Nəinki bir girvənkə, bir misqalı yerə düşməz.

K o r o ğ l u . Yoldaşlar, bizim firqənin başında duran və dünya proletariatının rəhbəri yoldaş Stalin bir gözəl söz deyibdir. O deyir: "Dünyada elə bir səngər yoxdur ki, bolşeviklər onu ala bilməsinlər". İndi qoy bizim min iki yüz, nəinki min iki yüz, səkkiz yüz əlli hektar pambıq əkməyimizə şəkk gətirənlər, qoy görsünlər ki, yoldaş Stalin bu sözləri havadan deməyibdir, bu, həqiqətdir.

Q o c a k ə n d l i (*irəli yeriyir*). Yoldaş Koroğlu, sən dediyin adam mənəm. Mən köhnə vaxtda işlədiyimizə nəzərə alıb danışırdım. İndi baxıb səhvimi anladım. Bu həvəslə ki, camaat işə gedib, iki belə pambıq əkib-becərməyi bacarar.

K o r o ğ l u . Yoldaşlar, sizin bu həvəslə işləyib vəzifənizi ifa etməyinizi mülahizə edərək, hökumət tərəfindən bizim kəndə bir traktor peşkəş olunur. Yaşasın Şura hökuməti!

S ə s l ə r . Yaşasın işçi-kəndli hökuməti! Yaşasın firqə rəhbəri yoldaş Stalin!

H a c ı B a y r a m (*Koroğluya tərəf gəlir*). Salaməleyküm.

K o r o ğ l u (*zənlə baxıb*). Hacı Bayram deyilsiniz?

H a c ı B a y r a m . Oyam. Bu gün gəlmişəm.

K o r o ğ l u . Harada idiniz, heç sizdən bir xəbər yox idi?

H a c ı B a y r a m . Doğrusu, Şura hökuməti gələndən sonra mən davam gətirməyib, qızımı da götürüb keçdim İrana. İndiyədək orada idim. Qızım öldü, qaldım tək. Axır vətəndən uzaqda davam eləyə bilməyib, gəlmişəm. İndi sizin ixtiyarınızdayam. Günahım varsa tənbeh eləyin, yox isə qalım burada, mən də kəndlinin biri, sair adamlar kimi işləyim.

K o r o ğ l u . Hacı, siz ölənədək keçmiş günlərinizi, qılıncının dalıqabağı kəsən zamanları unutmayacaqsınız. Ona görə, camaat sizin sidq-dildən şura tərəfdarı olduğunuza inanmayınca, sizi öz işlərinə qarışdırmayacaqlar.

H a c ı B a y r a m . Mən istəyirəm ürək sözümü açam deyəm. Qoy camaat da qulaq assın.

C a m a a t d a n s ə s l ə r . Hacı Bayramdı!.. İndiyədək harada imiş? Necə arıqlayıbdır... Qarnında bilmərrə piy qalmayıb.

K o r o ğ l u . Nə sözün var, de.

H a c ı B a y r a m . Camaat, siz hamınız bilirsiniz ki, Şura hökuməti kəndə gələndə, mən onun qarşısına ədavətlə çıxmadım. Mən demirəm ki, Şura hökuməti mənim xoşuma gəldi. Xeyr, Şura hökumətinin bö-

yük düşməni mən idim. Açıq danışmaq yaxşıdır. Mən iş başında bu Koroğlu dediyiniz Salmanı və onun yoldaşlarını görəndə deyirdim ki, belə hökumət üç günlükdür, dağılıb gedəcəkdir. Bununla davaya çıxmaq da axmaqlıqdır. Hampalar məndən üsyan üçün pul istədilər, vermədim. Istədilər məni öldürsünlər, qaçdım. Hər yerə getdim, iş başında cavan kəndliləri gördüm. Axırı davam eləyə bilməyib, qaçdım İrana. İndi gəlmişəm. Xaraba qoyub getdiyimi kəndləri, avam qoyub getdiyim camaatı tanımıram. Kəndlərdə nə gözəl binalar, məktəblər; oğlanlar, qızlar hamısı savadlı; idarələrdə xalqa gözəl rəftar, nə pristavlar söyüşü, nə yüzbaşı qamçısı. Hamı bir-birinə yoldaş, qardaş. Bir belə əkinləri, pambıq zəmilərini gördükdə, doğrusu, mat qalıram. İndi görürəm ki, anlamamışam. İndi səhvimi boynuma alıb gəlmişəm. İstəyirsiniz öldürün, istəyirsiniz buraxın. Sizin ixtiyarınızdayam.

K o r o ğ l u . Hacı, söz bayaqkıdır. Bir qədər qalarsan işlərsən, sonra işə baxarıq. Sənin evin ispolkomdur. Sənə kənddə ev də verilər, yaşarsan.

H a c ı B a y r a m . Tək adamam, bir balaca komada da yaşayaram.

K o r o ğ l u . Çox gözəl. İndi, yoldaşlar, bir qədər çalın oynayın. Sonra işə girişək.

Q o c a k ə n d l i . Mən günahımı yumaq üçün qabaqca özüm oynayacağam. Aşıq, çal.

Çalırlar, qoca oynayır. Xalq ura çəkib əl çalır.

PƏRDƏ

ÇOX GÖZƏL

Üç şəkildə

ƏŞXAS

Kəblə Rəcəbəli –	kəndli
Pəricahan –	arvadı
Əmiraslan –	oğlu
Simon	
Əhməd	}Əmiraslanın məktəb yoldaşları
Zeynal	
Mirzə Heydər –	şəhər məktəbinin müəllimi

Kənd məktəbi müəllimi
Simonunatası
Qoca kəndli
Cavan kəndli
Məktəb uşaqları, kəndlilər

BİRİNCİ ŞƏKİL

Şəhərin yavuqluğunda, dəniz kənarında bir kənd. Kənd meydançası. Bir dəstə məktəb şagirdləri şeypur, baraban çalaraq, qabaqlarında müəllim, gəlib meydançada dayanırlar.

Qoca kəndli (*müəllimin yanına gələrək*). Yoldaş müəllim, bu gün bayramdır, nədir? Bu uşaqları səyahətə çıxarıbsınız?

Müəllim. Yox, bayram deyil. Bu gün şəhərdən bir dəstə məktəb uşaqları buraya gəzməyə gələcəklər. Bizim uşaqlar da onların istiqbalına çıxıblar.

Qocakəndli. Yaxşı işdir gəlsinlər bizim kəndə də bələd olsunlar, görsünlər biz necə yaşayırıq.

Müəllim. Əlbəttə, həmişə kəndlə şəhərin arasında rabitə vacibdir. Nə qədər olsa, iş bilənlərin çoxusu: alimlər, incinerlər hamısı şəhərdə yaşayırlar. Onların da düşəndə bir kəndə gəlib kənd əhalisi ilə danışıb, onlara bilmədiklərini öyrətmək, elmin, sənayenin Şura ölkələrində nə dərəcədə tərəqqi etməsini andırmaq lazımdır.

Qocakəndli. Doğrudur, yoldaş müəllim. Bundan qabaq kəndlilər hamısı kor kimi idilər. Şura hökuməti gələndən bəri bir çox bil-

mədiyimiz şeyləri öyrənmişik. Bu kənddə az adamın atı, ulağı olardı. Hamımız şəhərə getmək lazım olanda piyada gedirdik. İndi isə dəmir yolu qapımızın ağzına çəkilibdir. Avtomobillər kəndlə şəhərin arasında işləyirlər. Bu saat da kənddə elə adam var ki, saqqalı ağarıb, amma şəhəri görməyib. İndi uşağın da, böyüyün də bir ayağı şəhərdədir. Gedirik, gəlirik, hər şeyi görürük, öyrənirik, gözümüz açılır. Çox yaxşı zəmanədir zəmanəmiz.

M ü ə l l i m . Şəhərin dövlətlilərinin hər birisinin burada yaylaq mənzili var idi. Milyonları boş-boşuna yelə verirdilər. Amma bu kəndə nəinki dəmir yolu, bir rahat araba yolu da qayıtdırmırdılar. Şura hökuməti gələn kimi şəhərlərlə kəndlər arasında yolların düzgünlüyünə diqqət yetirdi. Odur ki, bu kəndə hətta dəmir yolu da çəkildi.

Q o c a k ə n d l i . A sənə Qurban olum, dövlətlilərin hər birisinin özünün faytonu, avtomobili var idi. Hər biri öz canının rahətliyini axtarırdı. Kəndlinin qeydinə qalan yox idi. Deyirdilər: "Kəndlinin baldırı bərkdi, canı çıxar, piyada gedə bilər. Bir də, kəndlidir otursun yerində, əkinbiçininə, bağına-bostanına məşğul olsun. Onun şəhərdə nə işi var?".

M ü ə l l i m . Elədir, dayı.

Üç-dörd nəfər kənd uşaqlarından: "Ada, qoymayın ha!.. Ada, qoymayın ha!" – deyə qışqıraraq gəlib səhnədən yüyürərək keçirlər. Bir neçə cavan kəndli onların dalınca səhnəyə daxil olub dayanır və iki əlini belinə qoymuş qəhqəhə ilə gülür.

C a v a n k ə n d l i . Ha, ha, ha, ha!.. Ha, ha, ha, ha!.. Ora bax, ora!.. Pa atayın evinəcən!.. Zalım oğlunun satdığı parovoz kimi qaçır. Ha, ha, ha, ha!.. (*Gülür.*)

M ü ə l l i m . A Mirzəbala, nə olub? Niyə gülürsən?

C a v a n k ə n d l i (*barmağı ilə uzağı göstərir*). Bir baxın, yoldaş müəllim. Uşaqlar itin quyruğuna vedrə bağlayıb qovurlar. İt belə qaçır ki, dalından güllə atsan çatmaz.

M ü ə l l i m . Bu məgər gülməli işdir? Uşaqlarımızın tərbiyəsizliyinə ağlamaq lazımdır.

C a v a n k ə n d l i . Nə olar ki, ay yoldaş müəllim, qoy uşaqlar bir az kef görsünlər.

M ü ə l l i m (*məktəb uşaqlarının ikisini çağırır*). Yüyürün o iti uşaqların əlindən alın. (*Uşaqlar yüyürərək gedirlər. Cavan kəndliyə*) Bilirsən, Mirzəbala, adını insan qoyan gərək heç bir heyvana əziyyət ver-

məsin. Heyvanın da bizim kimi canı ağrıyır. Ancaq dillənib şikayət eləməyi bacarmır. Söz qarşısında söz gətirə bilməyənlərə, zor qarşısında zoru olmayanlara, dərdlərini, ağrılarını deməyə dilləri olmayanlara əziyyət vermək insanlıq sifətindən uzaqdır. Uşaqlarınıza nəsihət edin, belə nalayiq hərəkətlərdən əl götürsünlər. İtə, pişiyə və sair heyvanata əziyyət eləməsinlər. Cavanlar bizim köməkçilərimiz, bizim qeydlərimizi çəkənlərdir.

Q o c a k ə n d l i . Yoldaş müəllim doğru deyir. Bizim canımız ağrıyan kimi, heyvanın da canı var.

C a v a n k ə n d l i . Bağışla, yoldaş müəllim, anlamamışam. (*Gedir. Məktəb uşaqları qayıdırlar.)*

U ş a q . Yoldaş müəllim, itin quyruğundan vedrəni açdıq, buraxdıq getdi. İstədilər bizi döysünlər, qaçdıq.

M ü ə l l i m . Çox yaxşı, di gedin yerinizə.

Uşaqlar gedib yerlərində dayanırlar. Şeypur, baraban səsi eşidilir.

Mü ə l l i m (*şagirdlərə*). Nizam!

U ş a q l a r düzülürlər. Bir dəstə məktəb uşağı, qabaqlarında müəllim Mirzə Heydər, daxil olurlar. İki dəstə bir-birinə qarışırlar. Müəllimlər görüşüb əl tutuşurlar.

M i r z ə H e y d ə r . Necəsiniz? Çoxdan görüşmürük. Heç şəhərə gəlmirsiniz.

M ü ə l l i m .Məgər tərpənməyə macal var? Gündüz uşaqlarla məşğulam, axşamlar da böyüklərə dərs verirəm. Istirahət günlərində də evdə oturub balalarımı başıma yığıb onlarla vaxt keçirirəm. Yainki camaat yığıncağında oturub keçmişdən, gələcəkdən, daxili və xarici vəziyyətdən söhbət edirik. Daha şəhərə gəlməyə macal qalmır.

M i r z ə H e y d ə r . Uşaqlar üçün yer hazırdır?

M ü ə l l i m . Əlbəttə, uşaqlar üçün məktəbin həyətində çay və yeyinti hazır edilibdir. Gecəni də məktəbdə qalacaqlar. Siz də mənim mənzilimdə rahat olarsınız.

Əm i r a s l a n (*Mirzə Heydərin yanına gəlir*). Yoldaş müəllim, siz də, mənim yoldaşım Simon da bizim evdə mənzil edəcəksiniz.

M ü ə l l i m . Yox, müəllimin söhbəti müəllimlə tutar. Sizin evdə o, sıxıntı çəkər. Sən öz yoldaşını qonaq apar. Mirzə Heydər də mənimlə qalsın.

Ə m i r a s l a n . Yoldaş müəllim, xahiş edirəm mane olmayasınız. Atam mənə neçə dəfə tapşırıbdır ki, kəndə gələndə müəllimi də qonaq gətirim. İndi müəllim bizə qonaq getməsə mən atamın üzünə baxa bilməyəcəyəm. Atam da deyəcəkdir ki, müəllim elm oxumuş adamdır, kasıbları bəyənmir.

M i r z ə H e y d ə r *(kənd müəlliminə*). Doğrusu, bu söz məni tutdu. Mən şagirdimə qonaq gedəcəyəm.

M ü ə l l i m . Eybi yoxdur, mən də razıyam. (*Üzünü uşaqlara döndərib komanda verir*.) Nizam! (*Uşaqlar düzəlirlər*.) Sağa dön! (*Uşaqlar dönürlər.)* Addımla marş!

Uşaqlar gedirlər, müəllimlər də onların arxasınca.

PƏRDƏ

İKİNCİ ŞƏKİL

Kəblə Rəcəbəlinin evində bir otaq. Otağa fərş döşənmiş, bir masa, üç sandalya. Sol tərəfdə bir çarpayı qoyulmuş. Kəblə Rəcəbəli qabağında canamaz, dizləri üstündə çökmüş, namazını qurtarır.

K ə b l ə R ə c ə b ə l i . Əssəlamü əleyna və əla ibadüllahül salihin, əssəlamü əleyküm və rəhmətüllahü və bərəkatü. *(Salavat çevirib, durub canamazı büküb bir kənara qoyur. Əmiraslan, Mirzə Heydər və yoldaşı Simonla daxil olur. Kəblə Rəcəbəli onları görüb)* Paho, ay oğul, haradan gəldin?

Ə m i r a s l a n . Ata, məktəb yoldaşlarımızla buraya iki günə səyahətə gəlmişik. Yoldaşlarımıza kənd məktəbində yer verdilər. Mən də müəllimlə bu yoldaşımı evimizə qonaq gətirdim.

K ə b l ə R ə c ə b ə l i . Xoş gəliblər. (*Hər ikisinə əl verir*.) Xoş gəliblər. (*Müəllimə*) Siz bunun müəllimisiniz? Çox gözəl. İsminiz nədir?

M i r z ə H e y d ə r . İsmim Heydərdir.

K ə b l ə R ə c ə b ə l i . Mirzə Heydər. Çox gözəl. *(Oğluna Simonu göstərir*.) Bu da sənin yoldaşındır? Çox gözəl!

Ə m i r a s l a n . Bəli, bununla ikimiz bir skamyada otururuq. Oynayanda da bir yerdə oynayırıq. Bir-birimizi də çox sevirik.

K ə b l ə R ə c ə b ə l i . Çox gözəl! Çox gözəl! Di əyləşin. Çörəyimiz hazırdır, yəqin acsınız...

M i r z ə H e y d ə r . Çox razıyam, kəbləyi, kənd məktəbində bizim gəlməyimiz məlum olduğundan, bizim üçün yemək hazır olunmuşdu. Mən də, uşaqlar da doyunca yemişik. Bu saat iştahamız yoxdur.

K ə b l ə R ə c ə b ə l i . Çox gözəl. Axşam üçün tədarük görərik. (*Oğluna*) Bəs bu yoldaşın kimlərdəndir?

Ə m i r a s l a n . Bunun atası bir yaxşı kişidir. Tez-tez bunlara qonaq gedirəm. Anası çox dadlı şeylər bişirir. Adı Simondur.

K ə b l ə R ə c ə b ə l i . Simon?! (*Qeyzli)* Çox gözəl, çox gözəl! Əstəğfürullahu rəbbi və ətubö ileyh. (*Cəld gedib yuyunacaqda əllərini sabunla yuyub, suya çəkir.)* Kafir oğlu, bunu mənə qabaqca de, mən də əlimi murdarlamayım.

Ə m i r a s l a n . Ata, bunun əlinə nə olmuş ki? Bunun əlləri mənim əllərimdən də təmizdir. Biz məktəbdə gündə dörd-beş dəfə əllərimizi sabunla yuyuruq.

K ə b l ə R ə c ə b ə l i . Əlləri təmizdir! İndi görürəm sizə nə tərbiyə verirlər. Çox gözəl, çox gözəl!

M i r z ə H e y d ə r . Kərbəlayı, bu sözlərin axırı bir qədər biz müəllimlərə toxundu.

K ə b l ə R ə c ə b ə l i . Bəli! Nabaliğ uşaq öz təklifini anlamaz. Onu anlatmaq lazımdır. Bu da müəllimlərin borcudur. Uşağa birinci lazım olan onun əhkami-şəriyyəsidir. Bundan da görürəm mənim oğlumun kökündən xəbəri yoxdur. Mən bilsəydim, onu evimdən kənara qoymazdım. Əgər uşaqların hamısına belə tərbiyə verirsinizsə, mərhəba, çox gözəl, çox gözəl!

M i r z ə H e y d ə r . Kəbləyi, uşaqlar getsinlər, sonra bu xüsusda söhbət edərik. (*Əmiraslana*) Yoldaşlarınız dənizə çimməyə getdilər, sən də yoldaşını götür get. Mən də siz gəlincə burada atanla söhbət edim. Əmiraslan *(yoldaşına*). Simon, gedək!

S i m o n . Gedək.

Hər ikisi gedirlər.

M i r z ə H e y d ə r . Kəbləyi, uşaqlar getdilər. İndi biz rahat söhbət edə bilərik. Buyurun görək, bizim tərbiyə verməmizdə siz nə qüsur görürsünüz?

K ə b l ə R ə c ə b ə l i . Tərbiyəniz başdan-başa qüsurdur. Siz bunlara dərsləri nə dildə verirsiniz?

M i r z ə H e y d ə r . Bizim məktəbimiz beynəlmiləldir, amma biz dərsi hər millətə öz ana dilində veririk. Türklərə türk dilində[1], ruslara rus dilində, ermənilərə, həmçinin, öz ana dillərində.

K ə b l ə R ə c ə b ə l i . Beynəlmiləl nə deməkdir?

M i r z ə H e y d ə r . Yəni bu məktəbdə hər millətin balaları var. Hamısı birlikdə dərs oxuyurlar.

K ə b l ə R ə c ə b ə l i . İndi mən hər işi anladım. Çox gözəl! Çox gözəl! Atı atın yanında bağlarsan, ya halını götürər, ya xasiyyətini. Siz mənim oğlumu öz əhkami-şəriyyəsindən, dini məsələlərdən uzaqlaşdıranda o da, əlbəttə, bir xarici balasının əllərinə təmiz deyəcək. Çox gözəl, çox gözəl!

M i r z ə H e y d ə r . Kəbləyi, dünyada müsəlman dili, ya xristian dili yoxdur. Millətlərin dilləri var. Sənin oğlun türk balasıdır. Dili də türk dilidir. Bizim məktəbdə nəinki ona, hətta onun xarici dediyin yoldaşlarına da türk dili öyrədirik.

K ə b l ə R ə c ə b ə l i . Mirzə, siz bizim kimi adamlara avam deyirsiniz, nə eybi var? Çox gözəl. İndi mən bir neçə söz deyim, sən də mültəfit ol.

M i r z ə H e y d ə r . Buyur!

K ə b l ə R ə c ə b ə l i . Mən özüm, rəhmətlik Mirzə Hüseynin mollaxanasında oxumuşam. Bəlkə eşitmiş olasan.

M i r z ə H e y d ə r . Mən eşitmişəm. Mənim atam da onun mollaxanasında oxuyubdur. Onun dərs verməyini çox tərif edərdi.

K ə b l ə R ə c ə b ə l i . Atan vəfat eləyib, ya sağdır?

M i r z ə H e y d ə r . Xeyr, sağ deyil.

K ə b l ə R ə c ə b ə l i . Allah rəhmət eləsin. Bəli, mən Mirzə Hüseynin mollaxanasında neçə il dərs oxumuşam. Bizə gözəl Quran oxudardı, namaz öyrədərdi. Səhviyyat, müşkülat, təmzik, hamısını öyrədərdi. “Cameyi Abbas”, “Əvvabül cənnat” kimi ehkam kitablarını oxuyub cəm müsəlmana lazım olan təkliflərdən xəbərdar olurduq. Amma sizin tərbiyəniz tərsinədir. Siz bizim balalarımızı xarici balalarına qarışdırıb, onları gəldikcə müsəlmançılıqdan uzaqlaşdırırsınız. Mən gözümün ağı-qarası olan bir oğlumu belə məktəbdə oxudub cəhənnəmin odunu bu dünyada özümə qəbul etməyəcəyəm.

M i r z ə H e y d ə r . Kəbləyi, sözünüzü qurtardınız ya yox?

[1] Ədib “türk” deyəndə azərbaycanlını nəzərdə tutur

K ə b l ə R ə c ə b ə l i . Bəli, qurtardım.

M i r z ə H e y d ə r . İndi icazə verin bir neçə kəlmə mən də danışım.

K ə b l ə R ə c ə b ə l i . Buyur danış, çox gözəl!

M i r z ə H e y d ə r . Kəbləyi, Bakıda 1905-ci ildə vaqe olan ermənitürk qırğını xəyalınızdadırmı?

K ə b l ə R ə c ə b ə l i . Çox gözəl xəyalımdadır, nə olsun?

M i r z ə H e y d ə r . O qırğın Mirzə Hüseynin tərbiyəsinin nəticəsi idi.

K ə b l ə R ə c ə b ə l i . Əcəb söz dedin! Çox gözəl! Necə, Mirzə Hüseyn deyirdi gedin ermənləri qırın?

M i r z ə H e y d ə r . Yox, Mirzə Hüseyn demirdi, onun verdiyi tərbiyə deyirdi. Rica edirəm mültəfit olasınız.

K ə b l ə R ə c ə b ə l i . Çox gözəl, buyur.

M i r z ə H e y d ə r . Siz bunu yəqin edirsinizmi ki, insanlar hamısı anadan bir çifətdə doğulurlar?

K ə b l ə R ə c ə b ə l i . Doğrudur, sonra?

M i r z ə H e y d ə r . Sonra uşaq keçir mollanın, keşişin ya xaxamın əlinə. Bu şəxslər öz mənfəətlərini mülahizə edib, millət təfavütü məsələsini araya salırlar. Bunlar durub desələr ki, insanlar hamısı qardaşdırlar, o vaxt millətlər əl-ələ verib onların hamısından uzaq qaçarlar və onlar meydanda tək qalıb, cəm mədaxillərindən məhrum olarlar. Siz Simona əl verdikdən sonra gedib əllərinizi suya çəkdiniz. Nə səbəbə? Guya onun əli murdardır. Nə səbəbə onun əli murdardır? O, xaricidir. Molla belə buyurur, keşiş də belə buyurur, xaxam da belə buyurur. Hər birisinin nəzərində o biri millətlər murdardırlar və onlarla mülaqat haramdır. Beləliklə millətlər arasında təfriqə salıb özlərinə mürid cəm edirlər. Əllərindəki silah da ancaq dİndir. Belə təfriqədən burjua hökumətləri isə istifadə edirlər. Hökumətlər ruhanilərin millətlər arasına saldıqları təfriqəni daha da qızışdırıb inqilab və üsyan qarşısını almaq üçün millətləri bir-birlərinə qırdırırlar. Bu səbəbdən erməni-türk qırğını Qafqazda vaqe oldu. Rus keşişlərinin və çar hökumətinin təhriki ilə Rusiyanın neçə şəhərlərində yəhudiləri talan etdilər. İngiltərə hökuməti üç yüz milyon əhalisi olan Hindistan məmləkətini ancaq millətlər arasına təfriqə, nifaq və qırğın salmaqla əlində saxlayır və bu işdə ruhanilər hökumətə sədaqətlə qulluq edirlər. Bu siyasət burjuaziya ölkələrində İndi də yeridilməkdədir. Ancaq bir tək Şuralar İttifaqında hamı millətlərin qardaşlığı, birliyi və əl-ələ verib sosializm yolunda birlikdə işləmələri elan olundu və Şura Ittifaqında millətlər qırğını heç

vaxt vaqe ola bilməz. Yol bir, məqsəd bir, əqidə bir olduqda arada nifaq mümkün deyil.

K ə b l ə R ə c ə b ə l i . İndi sənin deməyinlə, mənlən Vartazarın biri qardaşdır? Çox gözəl, çox gözəl!

M i r z ə H e y d ə r . Burada Vartazar söhbəti yoxdur. Vartazarla sənin aranda divar çəkən həmin ruhanilərdir, din silahı ilə ortalığa çıxıblar. Bu silah onların əlindən alınarsa, sənlə Vartazarın qardaşlığına şəkk qalmaz. Dünyada müharibələrin qət olunmasına və asayişin hər bir yerdə bərpasına millətlər qardaşlığı səbəb olar. Bu şüar Şura hökumətinin ən birinci şüarıdır.

K ə b l ə R ə c ə b ə l i . Çox gözəl, çox gözəl! İndi siz mollanı, keşişi kənara qoyub, uşaqlara qardaşlıq dərsi verirsiniz? Aya, xudanəkərdə, mənim oğlumun ayağı büdrəyib yıxılsa, onun sevgili qardaşı onun qolundan yapışıb durğuzarmı? Atamın goru üçün birinci təpik vuran o olar. (*Bayırdan səs-küy eşidilir. Kəblə Rəcəbli qapını açıb baxır və birdən qışqırır.*) Ax, evim yıxıldı, başıma daş düşdü, gözümün işığı, belimin qıvvəti bircə balam əlimdən getdi.

M i r z ə H e y d ə r . A kəbləyi, sizə nə oldu?

K ə b l ə R ə c ə b ə l i . Kəbləyinin evi yıxılsın, budur balamın meyitini gətirirlər.

M i r z ə H e y d ə r . Meyit nədir? Nə danışırsınız? (*Çıxır eşiyə.*)

P ə r i c a h a n (*içəri otaqdan hövlnak çıxır*). Oy, oy!.. Vaxsey!.. Başına daş düşsün, canım? Atayın evi yıxılsın, canım! Ay balam, ay gözəl balam, axır sənə nə oldu?

İki nəfər kişi, yanlarında bir neçə məktəb uşağı,
Əmiraslanı otağa gətirirlər.

M i r z ə H e y d ə r (daxil olur). Bacı, qorxmayın, nahaq yerə qışqırıq salmayın. İndi ayılar. Yorğan-döşək hazır eləyin. (*Çarpayının üzərindəki yorğanı kənar edib Əmiraslanı uzadırlar.)*

P ə r i c a h a n (*məktəb uşaqlarına*). Ay oğullar, bircə deyin görüm, mənim balama nə oldu?

M ə k t ə b u ş a ğ ı . Xala, biz hamımız dənizdə çimirdik Əmiraslan da çimirdi. Çİmdiyi yerdə bir dərin yerə düşüb batdı. Biz hamımız əlimizi üzdük. Simon da dənizin kənarında sudan çıxıb özünü günə verirdi. Bunu görən kimi özünü suya atıb yox oldu. Bir də gördük Əmiraslanı başına almış sudan çıxdı. Biz Əmiraslanın qolundan yapışdıq. Simon

istədi çıxsın, Əmiraslanın ağırlığından ayağı sürüşüb batdı dənizə. Bir lotkaçı çox çətinliklə onu da çıxartdı. İndi gətirirlər.

Ə m i r a s l a n (*gözlərini açır*). Ana, qorxma, ölməmişəm! Simon necə oldu, sağdırmı?

M ə k t ə b u ş a ğ ı . Sağdır, budur gətirirlər.

Simonu gətirirlər.

K ə b l ə R ə c ə b ə l i . Gətirin buraya. Arvad, yer sal! Sənə Qurban olum, ay bala! Mənim oğlumu təzədən mənə verdin.

Ə m i r a s l a n . Mənim çarpayımın üstünə qoyun.

Simonu çarpayının o biri başında uzadırlar.

M ə k t ə b u ş a ğ ı *(Kəblə Rəcəbəliyə*). Əmi, Simon olmasaydı, Əmiraslan əldən getmişdi.

K ə b l ə R ə c ə b ə l i . Əmiraslana da Qurban olum, sənə də, Simona da.

S i m o n (*gözlərini açır*). Əmiraslan hanı?

Ə m i r a s l a n . Burdayam, Simon, sən necəsən?

S i m o n . Yaxşıyam, heç zad olmaz.

K ə b l ə R ə c ə b ə l i . Hər ikinizə qurban olum! İkiniz də sağalarsınız. Mənim oğlum İndiyədək bir idi, İndi deyərəm iki oğlum var. (*Simonun alnından öpür*.)

M i r z ə H e y d ə r . Mən gedim telefonla Simonun atasına xəbər verim. (*Kəblə Rəcəbəliyə*) Kəbləyi, Şura hökumətinin mən dediyim beynəlmiləl tərbiyəsinin nəticəsi budur! Yoldaş yoldaşını fəlakətdən qurtarmaq yolunda canından keçir. Əgər bunlar molla, keşiş, ya xaxam tərbiyəsi almış olsaydılar, sən deyən kimi bar-birinin ayaqlarından çəkərdilər.

İndi mən yəqin edirəm ki, mənim dediyim sözləri dürüst düşündünüz.

K ə b l ə R ə c ə b ə l i . Dürüst düşündüm. Çox gözəl düşündüm. Çox gözəl!

PƏRDƏ

ÜÇÜNCÜ ŞƏKİL

Həmin otaq Əmiraslan, Simon, Əhəd, Zeynal.

Ze y n a l . Əmiraslan, Simon olmasaydı, İndi biz yığılıb başımıza döyüb "yoldaş vay" deyə ağlayırdıq.

Əh ə d . Simon yaxşı yoldaşdır. O istəyir ki, ona hər bəla toxunsun, amma yoldaşına heç bir şey olmasın.

Ə m i r a s l a n . Simon çox sağ olsun, məni təzədən dirildib anama verdi.

S imo n . Əmiraslan, bunlar danışırlar qoy danışsınlar, mən ki, bir böyük iş görməmişəm.

Ze y n a l , Əhməd, Əmiraslan. Bundan böyük nə iş ola bilər!

S i m o n . Mən öz yoldaşlıq borcumu yerinə yetirmişəm. Yoldaş yoldaşının yolunda canından keçməsə, onun qiyməti bir qəpikdir.

Əh ə d . Sağ olsun Simon!

Z e y n a l (*Simona*). Gözəl söz dedin, yoldaşlıqda belə olmaq gərək.

Əh ə d . Simon, səndən bir söz soruşum. Necə bilirsən, suya batan sən olsaydın, Əmiraslan canından keçib özünü sənin dalınca suya atardımı?

Ə m i r a s l a n (*Əhədə)*. Bu nə sualdır? Mənim gözümün qabağında yoldaşım suya batsın, mən də oturub tamaşa eləyim?

Əh ə d . Bilirəm, zarafatla soruşdum.

S imo n . Bir dəfə mən tramvaydan yıxılmışdım. Ayağım çıxmışdı. Əmiraslan məni məktəbdə görməyib, dərsdən çıxan kimi yanıma yüyürmüşdü. Məni yerdə uzanmış görüb başladı gözlərindən yaş töküb ağlamağa. Mən nə qədər dedim: "Ay Əmiraslan, bir şey olmayıb, ayağım çıxmışdı. Həkim gəldi yerinə saldı" kiridə bilmədim. Axırda atam güclə onu kiritdi. Əmiraslan belə yoldaşdı.

Ze y n a l . Əhəd zarafatla soruşdu. İş bir tək yoldaşlıqda deyil. İnsan insanı fəlakətdə görəndə borcludur kömək eləsin.

K ə b l ə R ə c ə b ə l i (*daxil olur*). Ay uşaqlar, yenə də söhbət edirsiniz? (*Simona*) Bala, necəsən, yaxşısanmı?

S i m o n . Yaxşıyam, əmi, sox sağ olun!

K ə b l ə R ə c ə b ə l i . Bir yerin ağrımadı?

S i m o n . Yox, əmi heç yerim ağrımadı. Qapı döyülür.

K ə b l ə R ə c ə b ə l i . Yəqin gələn Mirzə Heydərdir. (*Gedib qapını açır.)*

Mirzə Heydər (*Simonun atası ilə daxil olur*). Salaməleykum! (*Kəblə Rəcəbliyə*) Kəbləyi, tanış olun, Simonun atasıdır.

K ə b l ə R ə c ə b ə l i . Simonun atasıdır? Çox gözəl. (*Əl verir.*) Çox xoş gəlibsiniz! Mirzə Heydər, sağ ol ki, mənim bu kasıb evimə belə əziz qonaq gətirdin.

Simon və Əmiraslan qonağın qabağına yüyürürlər.

Ə m i r a s l a n . Əmi, Simonun suya batdığını eşidib qorxmadınız ki?

S i m o n u n a t a s ı . Əlbəttə qorxdum və dedim bir xata olmasaydı, Mirzə Heydər mənə telefon eləməzdi.

K ə b l ə R ə c ə b ə l i . Mirzə Heydər sizi nahaq qorxudub. Ancaq o sizə xəbər verməsəydi, bilmirəm mən harada sizinlə görüşüb tanış olacaqdım. Mənim ayağım şəhərə çox az düşür.

S i m o n u n a t a s ı . Mən də Əmiraslan kimi bir tərbiyəli balanın atası ilə tanış olmaqdan məmnun oldum.

K ə b l ə R ə c ə b ə l i . Onun tərbiyəli olmağına səbəb mən deyiləm, bax bu Mirzə Heydərdir. Gözəl tərbiyə verir uşaqlara, çox gözəl!

M i r z ə H e y d ə r . Kəbləyi, deyəsən yavaş-yavaş mən deyənə gəlirsiniz.

K ə b l ə R ə c ə b ə l i . Daha nə deyim?! Kor da bilir ki, balıq şordur.

S i m o n u n a t a s ı . Mənim bu yerlərə gəldiyim iyirmi beş ildən artıqdır. Əvvəl gələndə qonşular hamısı mənə əyri gözlə baxırdılar. Heç birisi etina eləmirdi. Qab-qazan istəyəndə vermirdilər ki, murder olar. Qab-qazan dursun qıraqda, balta da vermirdilər. Mənim böyük oğlum o vədə altı-yeddi yaşında idi. Hər gün ağlaya-ağlaya üstümə gəlirdi ki, türk uşaqları məni döydülər. Deyirdi, mən də böyüyəndə onları döyəcəyəm. Mən ona nəsihət elərdim, deyərdim: "Onlar anlamırlar. Sən ağıllı uşaq ol, heç kəsə dolaşma". İndi işlər başqa tərzdədir. Özünüz görürsünüz ki, yoldaşlar arasında millət ayrılığı yoxdur. Hamısı bir-birilə qardaşcasına rəftar edirlər, hətta bir-birlərinin yolunda canlarından da keçirlər. Bu, Şura hökumətinin beynəlmiləl tərbiyəsinin nəticəsidir.

K ə b l ə R ə c ə b l i . Beynəlmiləl tərbiyənin nə olduğunu Mirzə Heydər mənə dürüst anlatdı. Çox sağ olsun, gözəl tərbiyədir, çox gözəl!

M i r z ə H e y d ə r . Kəbləyi, burada bu saat iki millət nümayəndəsi var. Biri siz, biri də Simonun atası. İndi mən sizdən bir şey xəbər

alım. Belə oturub iki qardaş kimi söhbət etmək yaxşıdır, ya bir-birinizə murdar deyib vuruşmaq?

K ə b l ə R ə c ə b ə l i. Bu bir sual deyil, aydındır ki, dünyada mehribançılıqdan gözəl şey yoxdur.

M i r z ə H e y d ə r. İndi götürək tamam dünyanı. Dünyada yaşayan millətlərin sayı-hesabı yoxdur. Bu millətlər hamısı bir-birilə qardaş kimi dolansalar yaxşı olar, ya həmişə bir-birinin əleyhinə müharibəyə hazırlaşsalar və hərdən bir də vuruşub milyonlarla xalqın qanını töksələr?

K ə b l ə R ə c ə b ə l i. Əlbəttə millətlər qardaşcasına dolansalar, heç müharibə də olmaz. Hər yerdə qurd qoyunla bir yerdə otlar.

S i m o n u n a t a s ı. Müharibə üçün top-tüfəngə, adam boğan qaza, pulemyota tökülən xərc millətlərin tərəqqiləri və ehtiyacı yolunda sərf olunar.

M i r z ə H e y d ə r. Bu da bağlıdır İndiki millətçilik tərbiyəsini buraxıb beynəlmiləl tərbiyəyə keçməyə. Nəhayət, kapitalizm ölkələrində tərbiyə ancaq bir milləti o biri millətin əleyhinə qaldırmaqdan, bir sinfi o biri sinfin üzünə durğuzmaqdan, kralların, sərvətdarların istifadəsi üçün millətləri bir-birilə vuruşdurmaqdan ibarətdir. Belə fəlakətlərin önünü almaq və millətlər arasında qardaşlıq yaratmaq üçün uşaqları, onların başını millətçilik mövhumatı ilə dolduranların əlindən alıb beynəlmiləl tərbiyə altına cəlb etməkdir. Bu vəzifəni ancaq Şura tərbiyəsi öhdəsinə almış.

K ə b l ə R ə c ə b ə l i. Şura hökuməti öhdəsinə gözəl tərbiyə götürmüş, çox gözəl!

S i m o n u n a t a s ı. Axırıncı Avropa müharibəsində azından bir milyon adam tələf oldu və bir elə də adam əlil, şikəst olub çörək qazanmaq iqtidarını itirdi. Bunların hamısının ailələri ac və çılpaq qaldılar. Bu nə üçün idi? Ancaq necə ki, Mirzə deyir, sərvətdarların istirahəti üçün və müharibədən sonra alınan yerlərdə, məmləkətlərdə zavodlar, fabriklər bina edib, ticarət açıb yerli əhalini soymaq üçün. Beynəlmiləl tərbiyə belə şeylərə intiha qoya bilər.

M i r z ə H e y d ə r. Beynəlmiləl tərbiyənin bərpası üçün dünya inqilabı lazımdır. Bu da yəqin olacaq. Biz Avropa burjuaziyasının güngündən nüfuzunu itirməsini və proletariatın gün-gündən qüvvətlənməsini aydın görürük.

K ə b l ə R ə c ə b ə l i. Çox gözəl, çox gözəl!

S i m o n u n a t a s ı . Söhbətimiz çox şirinləşdi. Çifayda poyezdin yola düşməsinə az qalıbdır. Gərək evə qayıdam. Arvad nigarandır. (*Oğluna*) Simon, hazırlaş gedək.

K ə b l ə R ə c ə b ə l i . Elə şey yoxdur. Siz mənim əlimə göydən düşübsünüz. Çayımız hazırdır, bir az çay içərik, sonra da bir yerdə şam eləyib doyunca söhbət elərik və gecə də mənə qonaq olacaqsınız.

S i m o n u n a t a s ı . Mən yenə deyirəm, arvad nigarandır, yoxsa çox həvəslə qalardım.

M i r z ə H e y d ə r . Mən bu saat gedib telefonla sizin xanıma xəbər verib, onu arxayın elərəm.

K ə b l ə R ə c ə b ə l i . Bu çox gözəl olar, çox gözəl!

S i m o n u n a t a s ı . Onda bahəm gedək telefona, arvad mənim öz səsimi eşitsə daha da arxayın olar.

M i r z ə H e y d ə r . Onda buyurun gedək. (*Kəblə Rəcəbəliyə*) İndi, kəbləyi, fikriniz nədir? Əmiraslanı evdə saxlamaqdı, ya mənimlə yenə şəhərə göndərmək?

K ə b l ə R ə c ə b ə l i . Apar, apar, çox həvəslə verirəm.

M i r z ə H e y d ə r . Çox gözəl! (*Simonun atasına*) Buyurun gedək!

K ə b l ə R ə c ə b ə l i . Mən də sizinlə gedirəm. Söhbət edərik, gedib gələrik.

M i r z ə H e y d ə r . Çox yaxşı olar! Çox gözəl!

Gedirlər

PƏRDƏ

DAŞÇI

Musiqili səhnəcik

İstəkli qardaşım Hüseynqulu Sarabskiyə
otuz sənəlik səhnə fəaliyyəti və yubileyi
münasibətilə itthaf edirəm.

Ə.Haqverdiyev

Küçə. Bir nəfər oğlan, əlində balta, daş yonur və "Muğan" nəğməsi oxuyur.(*Sarabskinin öz sözləri)*

Oğlan

(*oxuyur*)

Qafqaz dağlarının geniş ətəyi,
Şirvandan Gilana uzanmış Muğan
Yerliyi, torpağı, haşyəsi sarı,
Yaşıl məxmərlərə boyanmış Muğan...

Daxil olurlar: neçə nəfər tacir, alverçi, qoçu.

Qoçu
(oğlana):

Oğlan, sənin səsin xoşdur,
Heyf olsun ki, başın boşdur.

Hamı:

Başın boşdur, ay boşdur, ay boşdur.
Canım boşdur, ay boşdur, ay boşdur.

A l v e r ç i :
Gözəl sövtün alır canı,
Eşidənin coşur qanı.

Hamı:

Coşur qanı, ay qanı, ay qanı,
Daşır qanı, ay qanı, ay qanı.

T a c i r :

Səsin vergidi xalıqdan,
Ağlın getmiş şor balıqdan.

H a mı :

Quru balıq, ay balıq, ay balıq,
Şorca balıq, ay balıq, ay balıq.

Q o ç u :

Burax daşı, at baltanı bir yana,
Qavalı vur qoltuğuna mərdana,
Söz verirəm, inan bu igid cana.
Qəbul etsən bizdən razı qalarsan,
Hər gecədə mincə manat alarsan.

H a mı :

Qəbul etsən bizdən razı qalarsan.
Hər gecədə mincə manat alarsan.

T a c i r :

Kasıblığın dəftərini bükərsən,
Qızıl onluqları cibə tökərsən,
Özün üçün bir imarət tikərsən.
Qəbul etsən bizdən razı qalarsan,
Az keçər ki, bir xozeyin olarsan.

H a mı :

Qəbul etsən bizdən razı qalarsan,
Az keçər ki, bir xozeyin olarsan.

Q o ç u :

Qoçunun pullu toyuna baxanda,
Pul başından dolu kimi yağanda,
Yağlı pilov qurşağına çıxanda,
Unudarsan düşbərəni, bozbaşı,
Gətirməzsən yada baltanı, daşı.

Hamı:

Qəbul etsən bizdən razı qalarsan,
Az keçər ki, bir xozeyin olarsan.

Oğlan
("Aşıq Əsədi" üstündə):

Gedin, gedin əl götürün başımdan,
Əl çəkmərəm bu baltamdan, daşımdan,
Qızıl, gümüş deyil səsim qiyməti,
Sizlərdən mən gözləmərəm hörməti.

("Kərəmi" üstündə)

Mənə gərək deyil qoçu pulları,
Anlamazsız mən tutduğum yolları,
Yavuqdadır qiymət verən qardaşım,
Əlləri qabarlı məntək yoldaşım.
Onun məntək çətin çıxır çörəyi,
Amma sizdən çox təmizdir ürəyi.

A l v e r ç i :

Başın boşdur, bilmirsən xeyri-şəri,
Acından olubsan sümük bir dəri,
Qapında saxlarsan yeddi nökəri,
Qəbul etsən bizdən razı qalarsan,
Az keçər ki, bir xozeyin olarsan.

Hamı:
("Aşıq Əsədi" üstündə):

Gəlin gedək bunun naxoşdur başı,
Canı çıxsın əldə baltası, daşı.

Oğlan
(tək, işləyir, "Aşıq Əsədi" üstündə):

Bir gün gələr dağlarımız gül olar,
Kəndli-fəhlə qəlbi fərəhlə dolar.

Məhv olarlar sərvətdarlar, qoçular.
İşlə baltam, polad baltam, çan baltam,
Aman baltam, sultan baltam, xan baltam.

Zirzəmidə, quru yerlərdə yatan,
Bir zaman ayılar yəqin yuxudan,
İstər haqqın sərvətdardan, qoçudan.
İşlə baltam, polad baltam, çan baltam,
Aman baltam, sultan baltam, xan baltam.

Açılacaq məktəblərin qapısı,
Savadlanar kəndli, fəhlə hamısı,
Sevinəcək hər kəsin var namusu.
İşlə baltam, polad baltam, can baltam,
Aman baltam, sultan baltam, xan baltam.

Bir gün çıxar salar şövqün dünyaya,
Yol verilməz heç bir cövrü-cəfaya,
Onda çıxar səsim övci-səmayə.
Işlə baltam, polad baltam, can baltam,
Aman baltam, sultan baltam, xan baltam.

PƏRDƏ